Dövlətin qurulması

Birləşmiş Ştatlarda qəbul edilmiş dövlət quruluşu bir çox cəhətdən avropalılardan mənimsənilsə də, açıq-aşkar Amerika xarakterinə malik idi. Atlantik okeanını üzüb keçən ilk mühacirlər təbii ki, özləri ilə ingilis ideyalarını da gətirmişdilər, lakin onlar təzə yerdə məskunlaşdıqdan sonra bu ideyalar tədricən, lakin inadla Yeni Dünyanın şəraitinə uyğun olaraq məzmununu dəyişməyə başladı.

İlk mühacir, eləcə də onların İngiltərədə qalmış qohumları inanırdılar ki, Britaniya hökuməti və Britaniya Ümumi hüquqi (*common law*), indiyədək mövcud olan bütün şəxsi azadlıqların ən etibarlı təminatçısıdır. Maqna Karta (1215) ilə əsası qoyulmuş konstitusiya demokratiyasının təməl prinsipinə görə ölkədə fəaliyyət göstərən başlıca qanunu heç kəs, hətta kral da poza bilməz. Qanunun aliliyi (*rule of law*) – Maqna Kartanın qəbul edilməsi və Ceymstaunda ilk ingilis yaşayış məntəqəsinin salınması arasındakı dövrdə inkişaf etmiş bu anlayış tədricən parlamenti və məhkəmə sistemini əhatə etməyə başladı: parlament xalqın mənafeyini hökmdarlar qarşısında təmsil edir, məhkəmə isə ədalət mühakiməsinin qərəzsiz icrasını təmin edirdi. İcra Hakimiyyəti və taxt-tacın rəmzləri Əlahəzrətdə qalsa da, zaman ötdükcə parlament vergi sahəsində və xəzinə üzərində nəzarətə sahib ola bildi. Məhkəmə sistemi isə hakimiyyətə qanunun incəliklərinə (təbii ki, hökmdarların baş çıxara bilmədiyi bir sahəyə) mükəmməl bələdçilik sayəsində nail olmuşdu.

Britaniyanın idarəetmə sistemi həm nəzəriyyədə, həm də praktikada ali zümrənin öz varidatını, boş vaxtını və təhsilini idarəçilik problemlərinə həsr edə bilən aristokratiyanın mövcudluğuna əsaslanırdı. O dövrdəki ingilis mütəfəkkirləri cəmiyyəti özündə sərhədləri dəqiq göstərilmiş sinifləri və mənafeləri olan birlik kimi təsəvvür edirdilər, burada siniflərarası münasibətlər elə tənzimlənməli idi ki, onlar bir-birləri üzərində ağalıq etməsinlər. Məhz parlamentdə cəmiyyətin ən müxtəlif qrupları təmsil olunmalı idi ki, onlar öz şəxsi maraqlarını, dövlət maraqlarını və ən başlıcası isə, xalqın hüquq və əmlakını cidd-cəhdlə qoruya bilsinlər.

Buna görə heç də təəccüblü deyil ki, kolonistlər öz yerli idarəetmə strukturlarını yaradarkən, bu

Arxiv

institutları təqlid etməyə çalışırdılar. Bundan əlavə, onlar artıq metropoliyada yayılmağa başlamış bəzi ideyalardan, məsələn, puritanların[1] işləyib hazırladıqları "sazişlər" və ya "müqavilələr konsepsiyası"ndan[2] istifadə etmişdirlər. Saziş nəzəriyyəsi Yeni İngiltərə[3] koloniyalarında siyasi və dini düşüncənin mühüm hissəsinə çevrilmişdi və belə bir fikri ifadə edirdi ki, hökumətin yaradılması haqqında birbirləri ilə müqavilə bağlayan insanlar ona bu şərtlə tabe olmağa borcludurlar ki, dövlət ona verilmiş səlahiyyətləri aşmasın. İlk mühacrlər Ceymstauna gəlişi günündən İstiqlaliyyət Bəyannaməsinin imzalandığı günədək ötən 169 il ərzində koloniyalardakı həyat öz ingilis köklərindən xeyli uzaqlaşmışdı. Burada öz boş vaxtını idarəetmə problemlərinə həsr edə biləcək aristokratiya yox idi və kolonistlər istedadlı və qabiliyyətli rəhbərləri öz aralarında axtarırdılar. Nəticədə onlar idarəetməyə olan ənənəvi baxışlarını dəyişdilər və hökuməti ali sinfin imtiyazı kimi deyil, bütün xalqın əlində olan alət kimi nəzərdən keçirməyə başladılar*. Kolonial cəmiyyətin strukturu xeyli dərəcədə dəyişkən və müxtəlif olduğuna görə, yalnız müəyyən mənafe qruplarını təmsil edən parlament burada çox da səmərəli fəaliyyət göstərə bilməzdi. Bundan əlavə, qanunvericilik orqanlarına öz nümayəndələrini göndərən şəhərlər və kənd yerləri çox vaxt onlara müəyyən məsələlər üzrə necə səs vermək barədə göstəriş verirdilər.

Kolonistlərin çoxu cins, irq və əmlak statusu üzrə səs hüququndan məhrum olsalar da, fakt öz faktlığında qalır: XVIII əsrdə koloniyalarda xalqın siyasi proseslərdə iştirakı, metropoliyada olduğundan daha geniş idi.

Amerikalılar, hətta kral hakimiyyəti ilə əlaqələri qırdıqdan sonra da, özləri üçün əsas ingilis azadlıqlarının saxlanmasını tələb edirdilər. Müstəqillikdən sonra ittifaq və vahid hökumət yaradılmağa başlananda kolonistlər bu məsələdə iki mənbəyi: klassik ingilis siyasi nəzəriyyəsini və öz təcrübələrini rəhbər tuturdular. Konfederasiya haqqında Əsasnamənin (birinci ABŞ konstitusiyası) müəllifləri daha çox nəzəriyyəyə bel bağlayır və elə bir hökumət yaratmağa çalışırdılar ki, o, əvvəllər güclü mərkəzi hökumətin onların həyatına müdaxiləsini xatırladan və nəticədə onların Britaniyadan ayrılmasına gətirib çıxarmış problemlərdən xilas olmağı bacarsın. Lakin bu birinci konstitusiya yeni dövləti idarə etmək üçün çox zəif idi, belə ki, orada hökumətə yetərincə səlahiyyətlər verilməmişdi. 1787-ci il Filadelfiya qurultayı *(Philadelphiya convention)* dövründə Konfederasiya haqqında Əsasnamənin əsas müəllifi Con Dikinson *(John Dickinson)* qalan deputatlara demişdi: "Biz öz işimizdə təcrübəni rəhbər tutmalıyıq, çünki ağıl bizi aldada bilər". Lakin Filadelfiyada qələmə alınmış

Arxiv 2025

hazırkı Konstitusiya həm təcrübəyə, həm də ağla əsaslanırdı və nəticədə son dərəcə etibarlı sənəd kimi şöhrət qazandı.

Lakin hətta 1788-ci ildə Konstitusiya qəbul edildikdən və 1791-ci ildə ona ilk on düzəliş – Hüquqlar haqqında Bill *(Bill of Rights)* – edildikdən sonra da o, dövlət quruluşunun təsvirindən daha çox şeyi ehtiva edirdi. Filadelfiya konventi Konstitusiyada mühüm səlahiyyət və məhdudiyyətləri qeyd etsə də, hökumətin əməliyyat strukturunun özünü təcrübə əsasında işləyib hazırlamaq vacib idi. Məsələn, Konstitusiyada "kabinet" sözü işlədilməmişdi, bununla belə, birinci prezident Corc Vaşinqton müntəzəm olaraq icra hakimiyyəti başçılarının iclasını keçirirdi.

Amerika dövlət sisteminin daha bir qeyri-adi aspekti hakimlərin oynadığı rolla bağlı idi. Konstitusiya ilə üç hakimiyyət budağının – qanunvericilik, icra və məhkəmə hakimiyyətinin yaradılması nəzərdə tutulsa da, orada məhkəmələrin roluna az diqqət yetirilir və nəzərdə tutulurdu ki, hakimlər necə hərəkət edəcəklərini özləri yaxşı bilirlər. Lakin hakimiyyətin məhkəmə və digər hakimiyyət budaqları arasında qarşılıqlı əlaqənin zəif olduğu Böyük Britaniyadan fərqli olaraq Birləşmiş Ştatlarda Ali Məhkəmə konstitusion idarəçiliyin əsas təsir vasitəsinə çevrilmişdi. Ali Məhkəmə ölkə Konstitusiyasının şərhi prosesində sonuncu instansiyaya çevrilmişdir. Son iki əsr ərzində Ali Məhkəmə vaxtaşırı olaraq icra və qanunvericilik budaqları arasında fikir ayrılıqlarını həll etməli, habelə federal dövlətə səlahiyyətlər verməli və məhdudiyyətlər qoymalı olmuşdur.

Mövcud bölmənin sənədlərində biz Amerika idarəetmə sisteminin yaranışını və onun amerikalıların bugünkü nəslinin də yaşadığı konstitusion sxemə necə çevrildiyini görəcəyik.

Arxiv
2025
KITABXANASINDAN

02. Meyflauer Sazişi (1620)

İlk mühacirlər özləriylə Amerikaya İngiltərədə tanındıqları çoxsaylı ideyalar və əqidələr toplusunu gətirmişdilər. Onların çoxu, məsələn, puritanlar Amerikaya məhz ona görə köçmüşdülər ki, heç kəs onların burada öz əqidələrinə tam uyğun olaraq yaşamasına maneçilik törətməsin. Puritan hərəkatının bir

budağı olan piliqrimlər Massaçusets sahillərində 1620-ci ilin noyabrında peyda olmuş və burada Bibliya ehkamlarına ciddi əməl etməklə müqəddəs həyat sürmək və Bibliyada yad edilən yeni yerdə bütün bəşəriyyət üçün yol göstərən ulduz ola biləcək, mənən pak və müqəddəs şəhər ("Təpədə şəhər"[4]) bina etmək qərarına gəlmişdilər. Lakin bu dini şövqlə yanaşı piliqrimlər onu da bilirdilər ki, bir neçə il əvvəl Ceymstaunda salınmış yaşayış məntəqəsi – Virciniya sərištəsiz idarəçilik səbəbindən dağılmışdı. Onların bu səhvi təkrar etməyə ixtiyarı yox idi və buna görə qərara aldılar ki, əgər özləri üçün hökumət yaratsalar, onun rəhbərlərinə sözsüz tabe olacaqlar.

Onları Amerikaya gətirmiş «Meyflauer» (May çiçəyi) gəmisində bu müqaviləni bağlayarkən piliqrimlər iki ənənəyə əsaslanırdılar. Bunlardan biri – kökləri Bibliya hekayətlərinə gedib çıxan və XVIII əsrin sonlarında Tomas Hobbs və Con Lokk tərəfindən ətraflı öyrənilmiş "İctimai müqavilə" konsepsiyası idi. Digər ənənə isə hər bir müqavilənin özlüyündə müqəddəs olması haqqında əqidəyə əsaslanırdı. Puritanlar inanırdılar ki, müqəddəs müqavilə yalnız Allahla insan arasında deyil, həm də insanlar arasında mövcuddur. Yəni müqavilə bağlanıbsa, incədən–incəyə yerinə yetirilməlidir. Piliqrimlər Köhnə Dünyada öz dini qardaşlıqlarını yaratdıqları zaman da sazişlərdən istifadə etmişdilər. Meyflauer Sazişi o mənada oxşar sənəd idi ki, mühacirlər hökumət yaratmaq və ona tabe olmaq razılığına gəlmişdilər.

Bu sazişdə dövlət idarəçiliyinin əsasları haqqında müddəalar olmasa da onu çox vaxt Amerikanın ilk konstitusiyası adlandırırlar. Onun əhəmiyyəti belə bir əqidədən irəli gəlir ki, hökumət də sazişin bir formasıdır və onun qanuni olması üçün hökumət onun idarə etdiklərinin razılığına arxalanmalıdır. İlk mühacirlər belə hesab edirdilər ki, onlar fərdlər qismində öz yaratdıqları hökumətin hərəkətləri ilə heç də həmişə razılaşmağa borclu deyillər, lakin onlar və sonrakı nəsillər aydın dərk edirdilər: hökumət yalnız o zaman qanuni sayıla bilər ki, rəhbərlik etdiyi insanların razılığına istinad etmiş olsun.

Arxiv 2025

Əlavə məlumat üçün oxuyun: William Bradford, Of Plymouth Plantation (Morison, ed., 1952); George Langdon, Pilgrim Colony (1966); John Demos, A Little Commonwealth (1970).

"MEYFLAUER" SAZİŞİ

Biz, adları burada yazılanlar, həşəmətli hökmdar ağamız kral Ceyms cənablarının, Allahın iradəsi ilə Böyük Britaniyanın, Fransanın və İrlandiyanın kralının, dinin müdafiəçisinin sadiq təbəələri rəbbimizin şərəfinə xristian dininin uğuru, kralımızın və ölkəmizin şöhrəti naminə Virciniyanın şimal hissəsində ilk koloniyanı yaratmaq üçün səfər edərək Allahın və bir-birimizin qarşısında bu müqavilə ilə aramızda qayda-qanun yaratmaq üçün vətəndaş ittifaqında birləşirik... Buna görə isə biz elə ədalətli və hamımız üçün eyni qanunlar... və vəzifələr yaradacağıq ki, koloniyamızın rahatlıq və əmin-amanlığı üçün gərəkli ola bilsinlər və onlara əməl edəcəyimizə, tabe olacağımıza söz veririk. Biz Kod burnunda hökmdarımız kral Ceymsin İngiltərə, Fransa və İrlandiyanı idarə etməsinin on səkkizinci ilində, Şotlandiyanı idarə etməsinin əlli dördüncü ili noyabrın 11-də və rəbbimizin anadan olduğunun 1620-ci ilində adlarımızı burada yazmaqla yuxarıda deyilənləri təsdiq edirik

Mənbə: William Bradford, Of Plymouth Plantation, 1620-1647 (Samuel Eliot Morison, ed., 1952), 75-76.

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

03. Konnektikutun "Təməl Qanunları" (1639)

"Meyflauer Sazişi" Yeni İngiltərənin digər koloniyaları üçün də model oldu. Massaçusetsda tətbiq edilmiş sərt puritan qaydaları ilə razılaşmayan Rocer Uilyams *(Roger Williams)* və onun tərəfdarları dini azadlıq tapmaq ümidiylə koloniyanı tərk etdilər və qarşılıqlı saziş üzrə Providens (sonralar Rod Aylend) adlı yaşayış məntəqəsinin əsasını qoydular.

Üç ildən sonra Konnektikut çayının sahillərində yerləşən üç şəhər – Hartford, Uindzor və Uezersfild öz səylərini birləşdirərək Massaçusets hökuməti tipli bir hökumət yaratdılar. Konnektikutun "Təməl qanunları" qubernator, onun müavinləri və şəhər magistratının üzvlərinin üzərinə xalqın seçdiyi Assambleya və ya Qanunvericilik Yığıncağı ilə daimi əlaqədə olmaq vəzifəsini qoyurdu. Qanunvericilik Yığıncağı nəinki bütün qanunvericilik səlahiyyətlərinə malik idi, o, həm də statusa görə qubernatordan yüksəkdə dururdu. Şübhəsiz ki, bütün əvvəlki ictimai müqavilələrdən ən iddialısı olan "Təməl Qanunlar" bir çox cəhətdən müasir konstitusiyanı xatırladırdı və dövlət quruluşu sxemini təyin edərək, hakimiyyətin müxtəlif budaqlarının səlahiyyət və vəzifələrini müəyyənləşdirirdi.

Lakin müasir ABŞ Konstitusiyası onun yaratdığı strukturlardan yuxarıda durduğu və yalnız xalqın ümumi səs verməsi ilə dəyişilə bildiyi halda, Konnektikutun Qanunvericilik Yığıncağı "Təməl Qanunlarını" müstəqil surətdə dəyişə bilirdi. Yalnız müəyyən müddətdən sonra amerikalılar Əsas Qanunu adi qanunvericilik aktlarından fərqləndirməyi öyrəndilər.

HİKMƏT HACIZADƏ ARXİV KİTABXANASINDAN

Əlavə məlumat üçün oxuyun: M.J.A. Jones, Congregational Commonwealth (1968); H.J. Santos, "The Birth of a Liberal State," 1 Connecticut Law Review 386 (1968).

KONNEKTİKUTUN TƏMƏL QANUNLARI

Ulu Tanrımızın iradəsi və onun bizə (Konnektikut çayının sahilində yerləşən Uindzorun, Hartfordun və Uezersfildin, habelə ətraf yerlərin sakinlərinə) rəhbərlik etmək və sərəncam vermək barədəki müdrik qərarı sayəsində və insanların toplanma yerlərində sülhün dəstəklənməsi üçün Tanrı sözünün tələb olunduğunu və bu insanların dinc yanaşı yaşaya bilməsi üçün Tanrının qanunları əsasında yaradılmış və insanların ortaya çıxan problemlərini bütün zamanlarda həll etməyə qabil olan, sabit və namuslu hökumətin zəruriliyini dərk edərək;

habelə vahid İctimai Qurumda *(Public State)* və ya Birlikdə *(Commonwelth)* birləşmək öhdəliyi götürərək;

və öz adımızdan və ya bu gündən və bütün zamanlarda ola biləcək varislərin adından, azadlığın və ağamız İsusun İncilinin paklığını qorumaq və dəstəkləmək məqsədilə (bu isə İncildə əks olunan dinimizin tələbidir) bütün İttifaqlara və Konfederasiyalara daxil olmağı öhdəliyə götürərək;

habelə bizim mülki işlərimizdə aşağıdakı nəşr edilmiş və imzalanmış qanunlar, qaydalar, əmrlər və fərmanları rəhbər tutmağı özümüzə vəzifə bilərək:

1. Qərara alınır ki,… hər il Assambleyanın və ya Qanunvericilik Yığıncağının iki yığıncağı keçirilsin; birincisi – aprelin ikinci cümə axşamı, ikinci isə sentyabrın ikinci cümə axşamı; birinci Seçki Yığıncağı adlanacaq və orada magistratlar və digər dövlət qulluqçuları seçiləcəklər; onlardan biri gələn il üçün yenisi seçilənə qədər Qubernator vəzifəsinə seçiləcəkdir; magistratlar bir ildən çox olmayan müddətə seçiləcəklər, bundan başqa, qubernatordan əlavə altı qulluqçu seçiləcək ki, onlar seçildikdən və müvafiq andı içdikdən sonra, təyin edilmiş qanunlara əsasən və zərurət yarandıqda Tanrı göstərişinə uyğun olaraq ədalət mühakiməsini həyata keçirəcəklər; bu cür seçkilərdə azad insanlar *(freemen)* kimi tanınanlar, sədaqət andı içənlər və mövcud yurisdiksiyanın subyekti olanlar (yerlilərin çoxusu tərəfindən sakin kimi tanınan) iştirak edəcəklər...

4. Qərara alınır ki,… heç kəs iki ildə bir dəfədən çox qubernator seçilə bilməz və qubernator qəbul edilən *(approved)* dini qardaşlıqlardan *(congregation)* birisinin, əvvəllər isə mövcud yurisdiksiya altında olan Magistratın və mövcud Birliyin bütün digər Magistratlarının üzvü olmalıdır.

5. Qərara alınır ki,… bir neçə şəhər öz deputatlarını yuxarıda adı çəkilən Seçki Yığıncağına göndərəcək və seçkilər başa çatdıqdan sonra onlar digər hakimiyyət orqanlarında da istənilən işlə məşğul ola bilərlər. Qanun-

vericilik Yığıncağının sentyabrda keçirilən digər iclası qanunların və Birliyin xeyri üçün yönəldilmiş istənilən qanun və ictimai təşəbbüslərin işlənib hazırlanmasına həsr ediləcəkdir.

8. Qərara alınır ki,… Uindzor, Hartford və Uezersfild şəhərlərinə öz nümayəndələrini deputat qismində bütün Qanunvericilik Yığıncaqlarına göndərmək səlahiyyəti veriləcəkdir; və sonralar hansı şəhərlərin bu yurisdiksiyaya əlavə edilməsindən asılı olmayaraq onlar Yığıncağın adı çəkilən şəhərdə azad sakinlərinin miqdarına ağlabatan şəkildə uyğun olan miqdarda deputatları göndərə biləcəklər; bu deputatlar öz səslərini vermək və şəhərin adından bu cür qanunları və fərmanları cəmiyyətin və göstərilmiş şəhərlərin sakinlərinin xeyri üçün dəstəkləmək səlahiyyətlərinə malik olacaqlar.

9. Qərara alınır və göstəriş verilir ki, bu yolla seçilmiş deputatlar cəmiyyətin mənafeyinə aid olan bütün məsələlər üzrə məsləhətləşmələr aparmaq, habelə onların qanuna uyğun olaraq seçilməsi ilə əlaqədar məsələləri müzakirə etmək üçün Qanunvericilik Yığıncağının vaxtını və yerini təyin etmək səlahiyyətlərinə və hüququna malik olacaqlar; və əgər onların əksəriyyəti hansısa seçkiləri qanunsuz hesab edərsə, onlar bu məsələni, habelə bu cür pozuntulara gətirib çıxarmış səbəbləri məhkəmə baxışına çıxara bilərlər; və əgər məhkəmədə pozuntu faktları təsdiq edilərsə, bu halda məhkəmə bunda təqsiri olan tərəfin və ya tərəflərin, habelə şəhərin üzərinə cərimə qoymaqda haqlıdır; bu zaman qanuni seçkilərin ya qismən, ya da tam keçirilməsi üçün order veriləcəkdir.

Deputatlara onların görüşləri zamanı intizamsız davranışa görə, gecikməyə və ya gəlməməyə görə bir–birlərini cərimələmək səlahiyyətləri veriləcəkdir; bu cərimələri ödəməkdən imtina edildikdə onlar məhkəmə qaydasında məsuliyyətə cəlb oluna bilərlər, xəzinədar isə bunu nəzərə almağa və ikiqat ölçüdə cərimə təyin etməyə borcludur.

10. Qərara alınır və göstəriş verilir ki, Qanunvericilik Yığıncağının hər bir iclası, qubernator və ya magistratlar tərəfindən çağırılmış iclaslar istisna olmaqla, qubernatorun yaxud iclasın aparılması üçün seçilmiş hər hansı bir şəxsin və ən azı dörd magistratın, habelə bir neçə şəhərin qanuni seçilmiş deputatlarının iştirakı ilə keçirilməlidir;

qubernator və ya magistratlarin əksəriyyəti Yığıncağı çağırmaqdan imtina etsələr, onda azad insanlar və ya onların çoxluğu Ümumi Yığıncaq çağıra bilərlər, burada azad insanların çoxluğu, yaxud onların deputatları və seçdikləri vasitəçi iştirak etməlidir. Belə Ümumi Yığıncaq bizim Birliyin ali hakimiyyət orqanı olacaqdır və o, qanunları qəbul etmək və ya imtiyazlar vermək, hər hansı şəxsin azad vətəndaş statusunu tanımaq, şəhərlər və sakinlər arasında torpaq sahələrini bölüşdürmək, habelə Qanunvericilik

Yığıncağını, Magistratı və ya hər hansı bir şəxsi onun əməllərinə görə sorğu-suala tutmaq və kifayət qədər əsas olduqda, əməlin xarakterinə uyğun cəza təyin etmək səlahiyyətinə malik olacaqdır; habelə, bütün azad insanlar tərəfindən keçirilən magistrat seçkiləri istisna olmaqla, ictimai rifahla əlaqədar olan bütün digər məsələlərin həlli ilə məşğul olmaq səlahiyyətinə malik olacaqdır.

Belə Yığıncaqlarda qubernatora və ya moderatora söz azadlığını təmin etmək, ağılsız və qeyri-mütəşəkkil çıxışların qarşısını almaq, bütün məsələləri səsverməyə qoymaq və yalnız səslərin bərabərliyi zamanı həlledici səs hüququna malik olmaq səlahiyyətləri veriləcəkdir.

Lakin bu Yığıncaqlardan heç birisini, onun üzvlərinin əksəriyyətinin razılığı olmadan təxirə salmaq və ya buraxmaq olmaz.

11. Qərara alınır və göstəriş verilir ki, Qanunvericilik Yığıncağı tərəfindən, mövcud yurisdiksiya altında olan bəzi şəhərlərin nəfinə müəyyən məbləğ və ya bir az pul buraxıldıqda, hər bir şəhərin ödəməli olduğu məbləğin müəyyən edilməsi üçün komitə yaradılır. Bu zaman bütün şəhərlər həmin komitədə bərabər sayda deputatlarla təmsil olunmalıdır.

Mənbə: F.N, Thorpe, ed., Federal and State Constitions, vol. 1(1909), 519.

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

04. Olbani İttifaqının Planı (1754)

1750-ci illərin əvvəllərində İngiltərə və Fransa arasında Şimali Amerika qitəsinə nəzarət uğrunda rəqabət qaçılmaz şəkildə "Fransa" və "Hindu" müharibələrinə gətirib çıxardı. Bu münaqişə 1756-cı ildən 1763-cü ilədək davam etdi və hazırda Birləşmiş Ştatların şimalını və Kanadanı əhatə edən ərazinin üzərində İngiltərənin ağalığını təmin etdi.

Müharibənin İngiltərənin koloniyalarındakı nüfuzu üçün hansı çətinlikləri törədə biləcəyini dərk edən İngiltərə hökuməti "Kral, Sahibkarlar və Kral Xartiyası tərəfindən idarə olunanlar arasında ittifaq" bağlamağı təklif etdi*. Azı bir neçə koloniya liderləri oxşar planlarla çıxış edirdilər. 1754-cü ilin iyununda şimali koloniyaların böyük əksəriyyətinin və "Altı İrokez Tayfaları" birliyinin nümayəndələri Nyu-York ştatının Olbani *(Albany)* şəhərində görüşdülər. Bundan məqsəd Pensilvaniyadan olan Bencamin Franklinin işləyib hazırladığı ittifaq planını müzakirə etmək idi. Bu plana əsasən, hər bir koloniyanın qanunvericilik orqanı Amerika Qitə Assambleyasına *(American Continental Assembly)* öz nümayəndəsini seçməli və bu qurumun başında kralın təyin etdiyi qubernator durmalı idi. Sözügedən plan bir neçə baxımdan maraq doğururdu. Birincisi, Franklin bu planda gələcəkdə müstəqil Amerika hökumətinin qarşılaşmalı olacağı bir çox problemin həllini sanki irəlicədən görə bilmişdi – söhbət İttifaqın maliyyə sistemi, hindu tayfaları ilə qarşılıqlı əlaqə, ticarət üzərində nəzarət və müdafiənin təşkili kimi problemlərdən gedir. Faktiki olaraq, bu plan əsl ittifaqın əsasını qoymuş, onun ideyalarının çoxu sonradan "reanimasiya" edilmiş və otuz ildən sonra Filadelfiyada qəbul olunmuşdu.

Tezliklə, sözügedən planın mahiyyətinin üstü açıldığı üçün kral hakimiyyəti onu həyata keçirməyə tələsmirdi, çünki başa düşürdü ki, plan qəbul olunsa, bu çox güclü qurumun yaranmasına gətirib çıxaracaq və bu halda Əlahəzrət üçün ona nəzarət etmək xeyli çətin olacaqdır. Lakin Kralın müşavirləri narahat olmaya bilərdilər, kolonistlər vəhdətə gəlməyə hazır deyildilər. Bundan əlavə, koloniya

HİKMƏT HACIZADƏNİN KİTABXANASINDAN Arxiv

assambleyaları da bu qədər çətinliklə nail olduqları bir imtiyazdan – yerli işlərə nəzarət etmək hüququndan mərkəzi hökumətin xeyri üçün imtina etmək istəmirdi. Bütün bunlar uzun illərdən sonra, Amerika koloniyaları öz İstiqlaliyyət Bəyannaməsini elan etdikdən sonra baş verəcək.

Əlavə məlumat üçün oxuyun: Robert C. Newbold, The Albany Congress and the Plan of Union of 1754 (1955).

OLBANİ İTTİFAQI PLANI

Adları çəkilmiş bütün koloniyalar daxil olmaqla, əsasında vahid hökumətin yaradıla biləcəyi Böyük Britaniya parlamenti aktının həyata keçirilməsi təklif olunur. Bu zaman hər bir koloniyanın hökuməti öz indiki Konstitusiyasını göstərilmiş aktdan irəli gələn aşağıdakı tələblərin nəzərə alınması şərtilə saxlaya bilər:

1. Yuxarıda göstərilmiş vahid hökumətə, kralın təyin etdiyi və dəstəklədiyi Baş sədr və koloniya assambleyalarının iclaslarında Nümayəndələr tərəfindən seçilmiş Ali Şura başçılıq etməlidir.

2. Bu cür aktın qəbul edilməsindən sonrakı ___ ay ərzində cari çağırışın Nümayəndələr Palatası və ya bu məqsədlə seçilmiş Nümayəndələr Palatası aşağıdakı proporsiyada Ali Şuranın üzvlərini seçməlidir:

Massaçusets Bey	7
Nyu Hempşir	2
Konnektikut	5
Rod Aylend	2
Nyu-York	4
Nyu-Cersi	3
Pensilvaniya	6
Merilend	4
Virciniya	7
Şimali Karolina	4
Cənubi Karolina	4

	48

Satış üçün nəzərdə tutulmayıb

3. …bu Ali Şura üzvlərinin ilk görüşü Baş sədr təyin edildikdən dərhal sonra onun sərəncamı üzrə Filadelfiya şəhərində keçirilməlidir.

4. Hər üç ildən bir Ali Şuraya yeni üzvlərin seçilməsi üzrə seçkilər keçirilməlidir; hər hansı bir üzvün ölümü və istefası halında, onun təmsil etdiyi Koloniya assambleyası özünün sonrakı iclasında onun yerinə öz namizədini irəli sürməlidir.

5. Birinci üç il ərzində hər bir koloniyadan ümumi xəzinəyə daxil olan maliyyə vəsaiti payları məlum ediləcəkdir, bundan sonrakı bütün seçkilərdə hər bir koloniyadan seçilən üzvlərin sayı hər bir koloniyanın maliyyə payına əsasən tənzim ediləcəkdir. Bu zaman bir əyalətdən seçilmiş insanların sayı yeddidən çox və ikidən az olmamalıdır.

6. Ali Şuranın yığıncaqları əvvəlki görüşdə tərtib edilmiş qrafik əsasında ildə bir dəfə və zərurət yarandıqda bundan da tez-tez və fövqəladə vəziyyət halında Baş sədrin sərəncamı ilə keçirilməlidir; bu şərtlə ki, axırıncı halda Baş sədr qabaqcadan Şuranın yeddi nəfər üzvünün razılığını almış olsun və qalanlarına vaxtında bildiriş göndərmiş olsun.

7. Ali Şura öz sədrini seçmək səlahiyyətinə malik olmalıdır; Şuranın razılığı və ya kral hakimiyyətinin xüsusi sərəncamı olmadan, Şura buraxıla, onun iclasları təxirə salına, müvəqqəti dayandırıla və altı həftədən uzun sürə bilməz.

8. Ali Şuranın üzvlərinə həm iclaslar zamanı, həm də iclasların keçirilmə yerlərinə səfər zamanı qulluğa görə günə 10 şillinq sterlinq verilməlidir; bu zaman hər 20 millik məsafə bir yol günü kimi götürülməlidir.

9. Ali Şuranın aktlarının qəbul edilməsi üçün Baş sədrin razılığı tələb olunacaqdır və onun vəzifəsinə bu aktların həyata keçirilməsinin təminatı daxil olmalıdır.

10. Baş sədr Ali Şuranın tövsiyəsi üzrə hindu xalqları ilə koloniyaların mənafelərinə dair bütün sazişləri bağlayacaq və bunların icrasına şəxsən nəzarət edəcəkdir; habelə hindu xalqları ilə sülh bağlayacaq və ya bu xalqlara müharibə elan edəcəkdir.

11. Bütün hindu ticarətini tənzimləməyə qabil olan qanunlar qəbul edilməlidir.

12. Kral hakimiyyəti üçün hindulardan torpaqlar satın alınmalıdır, o torpaqlar ki, hazırda hansısa koloniyaların tabeliyində deyil və bəzi koloniyaların sahəsi daha münasib ölçülərə qədər azaldıqdan sonra daha onların sərhədləri hüdudlarında olmayacaq.

13. Bu cür torpaqlar əldə edildikdən və kral adından müvafiq mülkiyyətə verildikdən sonra bu torpaqlarda yeni məskənlər salınmalıdır; bu yaşayış məntəqələri krallığın baş xəzinəsi nəfinə renta ödəyəcəklər.

Satış üçün nəzərdə tutulmayıb

14. Bu cür yaşayış məntəqələrinin həyatını kral hakimiyyəti onlar üçün ayrıca hökumət yaradanadək tənzimləyən qanunlar qəbul edilməlidir.

15. Hərbi xidmətə əsgərlər çağırılmalı və onların xidmət haqqı ödənilməlidir, koloniyaların müdafiəsi üçün qalalar tikilməlidir, sahillərin və okean vasitəsilə ticarətin müdafiəsi üçün göllərdə və böyük çaylarda hərbi gəmilər inşa edilməlidir; lakin bütün bunlar yalnız qanunvericilik orqanının razılığı ilə həyata keçirilməlidir.

16. Bütün bu məqsədlər üçün qanunlar qəbul edilməli, sağlam düşüncəyə uyğun və ədalətli ölçülərdə (imkanlara və sair faktorlara əsasən) və xalq üçün mümkün qədər az narahatlıq törətməklə rüsumlar, xəraclar və vergilər qoyulmalı və alınmalıdır; sənayenin üzərinə artıq vergi yükü qoymamaq üçün gərəksiz xərclərə yol verilməməlidir.

17. Zərurət yarandıqda Ümumi xəzinədar və buna ehtiyac olduqda hər bir hökumət yanında Xüsusi xəzinədar təyin edilməlidir. Vaxtaşırı olaraq hər bir hökumətin xəzinəsindən müəyyən məbləğin ümumi xəzinəyə köçürülməsi və ya maksimum əlverişli şərtlərlə xüsusi ödəmələrin həyata keçirilməsi haqqında qərarlar qəbul edilməlidir.

18. Eyni zamanda Baş sədrin və Ali Şuranın birgə sərəncamı olmadan heç bir məbləğ ayrılmamalıdır; vəsaitin irəlicədən təyin edilmiş məqsədlər üçün ayrılması istisna təşkil edir və bu halda Baş sədrə bu vəsaitin ayrılması üzrə sanksiya qəbul etmək səlahiyyəti verilir.

19. Bütün mühasibat qeydləri hər il vahid sənəddə əks edilməli və bütün Assambleyalara təqdim edilməlidir.

20. Baş sədrlə birgə fəaliyyət göstərmək səlahiyyəti verilmiş Ali Şuranın kvorumu 25 nəfərdən ibarət olmalıdır, onların arasında əksər koloniyaların adından bir və ya daha çox şəxs iştirak etməlidir.

21. Bu məqsədlər üçün qəbul edilmiş qanunlar İngiltərə qanunlarına zidd olmamalı, əksinə, maksimum dərəcədə bu qanunlara yaxınlaşdırılmalıdır və qəbul edildikdən dərhal sonra yoxlanılma üçün Krala və onun şurasına təqdim olunmalıdır; bu qanunlar qüvvəyə mindikdən sonra üç il ərzində ləğv edilmədikdə, qüvvədə qalmalıdır.

22. Baş sədr öldükdə onu müvəqqəti olaraq Ali Şuranın sədri əvəz etməlidir və Kralın müvafiq qərarı qəbul edilənədək ona eyni səlahiyyətlər verilməlidir.

23. Bu Ümumi Konstitusiyaya tabe olan bütün hərbi zabitlər, istər quru, istərsə də dəniz qüvvələrinin zabitləri Baş sədr tərəfindən irəli sürülməlidir və onlar təyinatından əvvəl Ali Şuradan razılıq almalıdırlar. Bütün mülki qulluqçular Ali Şura tərəfindən irəli sürülməlidir və onlar vəzifəyə təyin edilməzdən əvvəl Baş sədrdən razılıq almalıdırlar.

Satış üçün nəzərdə tutulmayıb

24. Lakin hər hansı bir zabitin və ya qulluqçunun ölümü və ya mövcud konstitusiyaya uyğun olaraq vəzifədən kənarlaşdırılması halında bu cür vakansiyanın peyda olduğu əyalətin qubernatoru Baş sədrin və Ali Şuranın bu məsələ üzrə qərarı qəbul edilənədək öz sərəncamı ilə boşalmış yerə kimisə müvəqqəti təyin edə bilər.

25. Hər bir koloniyada bütün hərbi və mülki idarələr Ümumi Konstitusiyanın tələblərindən asılı olmayaraq öz hazırkı vəzifələrində qalmalıdır. Fövqəladə vəziyyətlər halında hər bir koloniya özünü müdafiə etmək və müvafiq xərclər üçün Baş sədrə və Ali Şuraya hesab təqdim etmək hüququna malik olmalıdır. Baş sədr və Ali Şura tələb edilən məbləği sağlam düşüncəyə və məqsədə uyğun hesab etdiyi təqdirdə vəsaitin ayrılması haqqında sərəncam verə bilməlidir.

Mənbə: Leonard Larrabee, ed,, Papers of Benjamin Franklin, vol, (1959). 387-92.

Satış üçün nəzərdə tutulmayıb

05. Şimal-qərb Dekreti (1787)

Ştatların 1781-ci ildə ölkənin birinci konstitusiyası qismində qəbul etdiyi "Konfederasiyanın Qanunlar Toplusu" *(Articles of Confederation)* ümumən uğursuz sayılır, lakin bu, bizə həmin dövr Amerika dövlətinin böyük nailiyyətlərini görməyimizə mane olmamalıdır. Konfederasiya danışıqlar yolu ilə Böyük Britaniya ilə müharibəni bitirməyə, xarici dövlətlərlə diplomatik əlaqələr yaratmağa, hindu tayfaları ilə torpaq mübahisələrini yoluna qoymağa, habelə iki mühüm qanunvericilik aktının qəbulu nəticəsində məskunlaşma və qərb torpaqlarının birləşməsi üzrə uzunmüddətli siyasəti inkişaf etdirməyə nail ola bildi.

İlk öncə Appalaç dağlarından qərbə doğru uzanan torpaqlar, yəni şimali-qərb ərazisi üzərində nəzarəti təmin edən Konqres 1787-ci ildə Konfederasiya dövrünün qanunyaradıcı fəaliyyətinin ən mühüm hissəsi sayılan Şimal-qərb Dekretini qəbul etdi. Dekretə əsasən, qərb torpaqlarında, sonralar İttifaqa qəbul edilməli olan, yeni ştatlar yaradılmalı idi. Bu ərazi Konqresin müvəqqəti olaraq (yəni səsvermə hüququna malik olan kişi əhalisinin miqdarı 5 000 nəfərə çatdığı vaxtadək) təyin etdiyi qubernatorlar və hakimlər tərəfindən idarə edilməli idi. Daha sonra sakinlər qanunvericilik orqanını seçməlidirlər, belə orqan öz nümayəndəsini hələlik səs hüququ olmadan Konqresə göndərməlidir. Əhalinin sayı 60 000 nəfərə çatdıqda Ştatın qanunvericilik orqanı Ştatın Konstitusiyasını Konqresə təqdim edir və Konstitusiya orada təsdiq edildikdən sonra Ştat İttifaqa daxil olur və onun nümayəndələri Konqresdə səs vermək hüququ qazanırlar.

Bu qanunvericilik aktının əhəmiyyəti onun əhalinin qərb torpaqlarında mütəşəkkil yerləşdirilməsini təmin etməsindən əlavə, yeni ştatları əvvəllər formalaşdırılmış ştatlara bərabər tutmasıdır, bundan sonra çox mühüm və az mühüm ştatlar olmayacaqdır. Bundan əlavə, Konqres məskunları Birləşmiş Ştatların İnqilab nəticəsində əldə edilmiş hüquqlara malik olan tam hüquqlu vətəndaşı etmək öhdəliyini öz üzərinə götürmüşdü. "Konfederasiyanın Qanunlar Toplusu"nda insan hüquqları haqqında qeyd-şərt olmadığı hallarda, mövcud Dekretlə məskunlara, onların vacib saydıqları əsas azadlıqların çoxu verilirdi. Dekretdə andlılar məhkəməsi, *Habeas Corpus* * və din azadlığı kimi çox mühüm hüquq və azadlıqlardan söhbət gedirdi. Bununla yanaşı, əmlak senzinin dövlət üçün böyük önəm daşıdığı

Satış üçün nəzərdə tutulmayıb

qeyd edilməlidir. Köhnə Britaniya konsepsiyasının qalığı olan bu müddəaya əsasən ölkənin idarə olunmasında yalnız o kəslər iştirak edə bilər ki, cəmiyyətdə əhəmiyyətli [maddi] marağı, yəni böyük mülkiyyəti olmuş olsun.

Beləliklə, Şimal-qərb Dekreti cüzi dəyişikliklərdən sonra gələcək ştatların İttifaqa daxil olması üçün "yol bələdçisi" rolunu oynamaqda davam edə bilərdi.

Əlavə məlumat üçün oxuyun: Merrill Jensen, The New Nation: A History of the United States during the Confederation, 1781-1789 (1950); John Porter Bloom, ed., The American Territorial System (1974); T.C. Pease, "The Ordinance of 1787," Miss. Valley Hist.Rev. 25 (1938): 167.

ŞİMAL-QƏRB DEKRETİ

Yuxarıda göstərilmiş hakimiyyət tərəfindən sərəncam verilir ki, Konqres vaxtaşırı qubernator təyin edəcək və bu qubernatorun səlahiyyətləri üç il davam edəcəkdir (Konqresin özü bu səlahiyyətlərə daha tez xitam verməsə); qubernator bu vəzifədə olduğu müddətdə dairə ərazisində yaşayacaq və 1000 akrlıq sahəsi olan mülkə sahib olacaqdır.

Konqres vaxtaşırı katib təyin edəcəkdir və onun səlahiyyətləri buna daha tez xitam verilmədikdə, üç il sürəcəkdir; katib bu vəzifədə olduğu müddətdə [yeni] dairə ərazisində yaşayacaq və 500 akrlıq sahəsi olan mülkə sahib olacaqdır. Onun vəzifəsinə qanunvericilik orqanının qəbul etdiyi qanun və qərarların, regionun ictimai sənədlərinin, qubernatorun icra aparatının sənədlərinin saxlanması və mühafizəsi, habelə bu cür qanun və sənədlərin əslinin altı aydan bir Konqresin katibinə təqdim etmək daxildir.

Habelə, üç hakimdən ibarət olan tərkibdə məhkəmə təyin olunacaq və bu üç hakimdən istənilən ikisi Ümumi hüquq *(Common Law)* sahəsinə aid işlərə baxan məhkəməni təşkil edəcək. Onlar bu vəzifədə olduqları müddətdə dairə ərazisində yaşayacaq və 500 akrlıq sahəsi olan mülkə sahib olacaqlar. Onların səlahiyyət müddətləri işin keyfiyyətindən asılıdır. Qubernator və hakimlər, yaxud onların əksəriyyəti [yeni] dairə ərazisində artıq formalaşmış ştatların mövcud və [yeni] dairə üçün uyğun olan cinayət və mülki qanunlarını qəbul və dərc etməli və bu barədə vaxtaşırı Konqresə məlumat verməlidir. Bu qanunlar qabaqcadan Konqresin özü tərəfindən

Satış üçün nəzərdə tutulmayıb

ləğv edilməsə, Baş Assambleya təşkil edilənədək qüvvədə qalacaqdır. Lakin sonralar qanunvericilik orqanı öz mülahizəsinə əsasən bu qanunlara düzəlişlər edə bilər.

Qubernator eyni zamanda yığma qoşunun baş komandanı olacaqdır; o, aşağı komanda heyətinin zabitlərini təyin edəcək və onlara rütbə verəcəkdir. Ali komanda heyətinin bütün zabitləri Konqres tərəfindən təyin ediləcək və rütbəyə qaldırılacaqdır.

Baş Assambleya təşkil edilənədək qubernator hər bir qraflıqda, şəhərdə, onun fikrincə, asayişin və qayda-qanunun qorunması işinə qabil olan magistratları və mülki qulluqçuları təyin edəcəkdir. Baş Assambleya təşkil edildikdən sonra magistratların və digər mülki qulluqçuların vəzifə və səlahiyyətləri yuxarıda göstərilmiş Assambleya tərəfindən müəyyən olunacaq və tənzimlənəcəkdir. Lakin burada adları çəkilməyən bütün magistratlar və digər mülki qulluqçular müvəqqəti idarəetmə zamanı qubernator tərəfindən təyin edilməlidir.

Cinayətlərin və iğtişaşların qarşısını almaq məqsədilə qəbul edilmiş qanunlar bütün dairə üzrə qüvvədə olacaqdır, cinayət və mülki qanunların icrasını təmin etmək üçün qubernator tərəfindən müvafiq şöbələr yaradılacaqdır.

Zərurət yarandıqda qubernator tərəfindən dairənin müəyyən yerlərinə yeni adlar veriləcək, hindu adları əvəz ediləcək, qraflıqlar və şəhərciklər yaradılacaqdır. Lakin sonralar bu dəyişikliklər Baş Assambleya tərəfindən təsdiq edilməlidir.

Dairənin azad kişi əhalisinin sayı 5 000 nəfərə çatdıqda və bunun müvafiq sübutları qubernatora təqdim edildikdən dərhal sonra əhalinin bu hissəsinə öz qraflıq və şəhərlərindən Baş Assambleya üçün nümayəndələr seçmək, həmçinin bunun yerini və vaxtını təyin etmək səlahiyyəti veriləcəkdir.

Kişi əhalisinin hər 500 azad nümayəndəsi arasından bir nümayəndə seçiləcək və bu miqdar seçilmiş nümayəndələrin sayı 25 nəfərə çatanadək müvafiq silsilə ilə artacaqdır, bundan sonra nümayəndəliyin miqdarı və proporsionallığı qanunvericilik orqanı tərəfindən tənzimlənəcəkdir.

Hər kəsin seçilmək və nümayəndə qismində çıxış etmək hüququna malik olması üçün o, üç il ərzində Birləşmiş Ştatların hər hansı bir Ştatının vətəndaşı olmalı və mövcud dairədə yaşamalıdır; yaxud o, mövcud ərazidə üç il ərzində yaşamalıdır; yaxud onun mülkiyyətində azı 200 akrlıq torpaq sahəsi olmalıdır.

Nümayəndə seçmək hüququna o kəs malik olacaqdır ki, 50 akr sahəsi olan mülkə sahibdir, ştatlardan birinin vətəndaşıdır və dairənin ərazisində

Satış üçün nəzərdə tutulmayıb

yaşayır, yaxud o, bu cür mülkə malik olmalı və iki il ərzində dairənin ərazisində yaşamalıdır.

Bu qayda ilə seçilmiş nümayəndələr iki il ərzində qulluqda olacaqlar və onların ölümü, yaxud vəzifədən kənarlaşdırılması halında qubernator mövcud nümayəndəni seçmiş qraflıqda və şəhərcikdə müddətin qalan hissəsi üçün seçkilər keçirilməsi üzrə fərman verir.

Baş Assambleya ya qanunvericilik orqanı qubernatordan, Qanunvericilik Şurasından və Nümayəndələr Palatasından ibarət olmalıdır.

Qanunvericilik Şurası beş üzvdən ibarət olmalıdır, onlar bu keyfiyyətdə beş il qalmalıdırlar, lakin onlar Konqres tərəfindən vaxtından qabaq da geri çağırıla bilərlər; onların sırasından istənilən üçü kvorum təşkil edəcəkdir.

Şuranın üzvləri aşağıdakı qaydada irəli sürüləcək və təyin ediləcəkdir: Nümayəndələr seçildikdən sonra qubernator onların görüşünün vaxtını və yerini təyin edir; görüş zamanı onlar mövcud dairədə yaşayan və mülkiyyətində 500 akr torpaq olan 10 nəfəri irəli sürürlər və onların adlarını Konqresə təqdim edirlər; onların beşi Konqres tərəfindən Qanunvericilik Şurasının üzvü təyin ediləcəklər; kiminsə ölümü və ya vəzifədən kənarlaşdırılması nəticəsində Şurada vakansiya yarandıqda, Nümayəndələr Palatası hər vakansiya üçün yuxarıda göstərilmiş tələblərə cavab verən iki nəfər irəli sürür və onların adlarını Konqresə təqdim edir; onlardan biri Konqres tərəfindən müddətin qalan hissəsi üçün təyin edilir.

Və beş ildən bir Şura üzvünün səlahiyyət müddətlərinin bitməsinə azı dörd ay qalmış, sözügedən Palata yuxarıda göstərilmiş tələblərə cavab verən 10 nəfərin namizədliyini irəli sürür; onlardan beşi Konqres tərəfindən müddətin qalan hissəsi üçün təyin edilir.

Qubernatora, Qanunverici Şuraya, Nümayəndələr Palatasına yaxşı idarəçilik naminə və mövcud Dekretdən irəli gələn prinsip və səlahiyyətlərə uyğun olaraq bütün hallarda qanunlar qəbul etmək səlahiyyəti veriləcəkdir.

Palatada və Şurada səs çoxluğu ilə qəbul edilmiş bütün qanun layihələri qubernatora göndəriləcək və heç bir qanun layihəsi və qanunvericilik aktı onun razılığı olmadan hüquqi qüvvəyə malik olmayacaqdır.

Qubernator öz mülahizəsi üzrə Baş Assambleyanı çağırmaq, təxirə salmaq və buraxmaqda haqlıdır.

Qubernator, hakimlər, Qanunvericilik Şurası, katiblər və Konqresin təyin etdiyi digər qulluqçular öz vəzifələri üzrə sədaqət andı içməyə borcludur: qubernator – Konqresin sədri qarşısında, digər bütün qulluqçular isə – qubernator qarşısında.

Satış üçün nəzərdə tutulmayıb

Dairədə qanunvericilik orqanı təşkil edildikdən sonra Şura və Palata bir otağa yığışmalı və birgə səsvermə ilə Konqresə nümayəndə seçməlidir; həmin nümayəndə mövcud müvəqqəti hökumətin fəaliyyəti dövründə Konqresdə yerə və məşvərətçi səsə malik olacaqdır.

İstənilən respublikanın, onun qanunlarının və konstitusiyasının əsasını təşkil edən mülki və dini azadlıqlarının təməl prinsiplərinin möhkəmləndirilməsi üçün; bu prinsiplərin qanunlar və konstitusiyalar, habelə, mövcud ərazidə bu gündən və əbədilik təşkil edilməli olan hökumətlər qismində yaradılması və möhkəmləndirilməsi üçün; ştatların və daimi hökumətlərin yaradılmasının təmin edilməsi üçün, habelə onların artıq formalaşmış ştatlarla bərabər əsaslarla, ictimai maraqlara ən çox dərəcədə cavab verən tezliklə federal şuralara qəbul edilməsi üçün aşağıdakılar barəsində sərəncam verilir və rəsmən bildirilir:

aşağıdakı maddələr toplusu bir tərəfdən əvvəllər təşkil edilmiş ştatlar və digər tərəfdən mövcud ərazidə məskunlaşmış xalqlar və [yeni] ştatlar arasında saziş hesab edilməlidir; mövcud sənəd qarşılıqlı razılıq əsasında dəyişdirilməzsə həmişəlik dəyişməz qalacaqdır, beləliklə:

Maddə 1. Öz davranışı ilə ətrafdakılara heç bir ziyan vurmamış heç bir insan mövcud ərazidə onun dininin icrası və ya dini hissləri zəminində təqib obyekti olmayacaqdır.

Maddə 2. Mövcud ərazinin sakinləri həmişə Habeas Korpusun və andlılar məhkəməsinin verdiyi üstünlük hüququna, qanunvericilik orqanında proporsional nümayəndəlik hüququna, Ümumi hüququn müddəalarına uyğun olaraq məhkəmə araşdırması hüququna malik olacaqlar.

Sübutların və təqsir ehtimalının yüksək olduğu xüsusi ağır cinayətlərin törədilməsi halları istisna olmaqla hər bir insan girov qoymaqla məhkəmə hökmünə qədər azadlığa buraxılma hüququna malikdir.

Bütün cərimələr orta həddə olmalı və qəddar, yaxud qeyri-adi cəzalar kəsilməməlidir.

Andlılar məhkəməsinin çıxardığı qərarlara və ölkənin qanunlarına əsaslanan hallar istisna olmaqla heç kəs azadlıqdan və öz əmlakından məhrum edilə bilməz; və dövlət kiminsə əmlakından və xidmətlərindən istifadə etməyi məqsədəuyğun və zəruri saydıqda, bunlara görə tam kompensasiya ödəniləcəkdir.

Hüquqların və əmlakın ədalətli surətdə qorunması və möhkəmləndirilməsi məqsədilə biz etiraf və elan edirik: mövcud ərazidə heç vaxt elə bir qanun qəbul edilməyəcəkdir ki, əvvəllər həqiqətən və dələduzluğa yol vermədən bağlanmış xüsusi sazişlərə bu və ya digər dərəcədə əngəl törətsin, yaxud təzyiq göstərmiş olsun.

Satış üçün nəzərdə tutulmayıb

Maddə 3. Yaxşı idarəçiliyin və ümumi rifahın zəruri atributları olan din, mənəvi tərbiyə və biliklər, məktəblər və təhsil vasitələri həmişə həvəsləndiriləcəkdir.

Hindulara həmişə hörmətlə yanaşılacaqdır; hinduların torpaqları və əmlakı onların razılığı olmadan əllərindən alınmayacaqdır; onların əmlakı, hüquq və azadlıqları, Konqresin təqdir etdiyi ədalətli və qanuni müharibələr istisna olmaqla, heç vaxt təcavüz, yaxud iddia obyekti olmayacaqdır; vaxtaşırı olaraq, ədalət və humanizm prinsiplərinə əsaslanan, onlara hər hansı bir ziyanın vurulmasına qadağa qoyan və onlarla sülh və dostluğun qorunub saxlanmasına kömək edən qanunlar qəbul ediləcəkdir.

Maddə 5. Mövcud ərazidə üçdən az və beşdən çox olmayan ştatın yaradılması vacibdir… Və bu ştatların hər hansı birində azad sakinlərin sayı 60 000 nəfər təşkil edən kimi Ştat (və onun nümayəndələri) əvvəllər təşkil edilmiş ştatlarla bərabər şəraitdə Birləşmiş Ştatlar Konqresinə qəbul ediləcəkdir və Ştat öz daimi konstitusiyasını və hökumətini yaratmaq hüququna malik olacaqdır; bu şərtlə ki, belə qaydada yaradılan Konstitusiya və hökumət respublikaçı olacaq və mövcud maddələr toplusunda göstərilmiş prinsiplərə uyğun olacaqdır; və əgər bu, Konfederasiyanın ümumi mənafeləri üçün zəruridirsə, bu cür daxil olma daha tez, Ştat əhalisinin sayı hələ 60 000 nəfərə çatmamış da həyata keçirilə bilər.

Maddə 6. Mövcud ərazidə kölələk və məcburi əmək olmayacaqdır, törədilmiş cinayətə görə cəza halı istisna edilməklə; bu zaman, əvvəllər təşkil edilmiş ştatların hər hansı birində bu cür işlərdən yayınan şəxslər, göstərilmiş işlərin icrasını tələb edən şəxsin sərəncamına qanuni surətdə qaytarıla bilər.

Mənbə: F.N. Thorpe, ed., Federal and State Constitutions, vol.2 (1909). 957.

Satış üçün nəzərdə tutulmayıb

06. Amerika Birləşmiş Ştatlarının Konstitusiyası (1787)

1780-ci illərin ortalarında "Konfederasiyanın Qanunlar Toplusu"nun zəifliyi hamı üçün bəlli oldu. Əksəriyyətin fikrincə, III Qeorqun avtoritar idarəçiliyinə öz münasibətlərini ifadə edən bu sənədin müəllifləri qəsdən Britaniya hökuməti ilə müqayisədə zəif hökumətli dövlət layihəsini yaratmışdılar, halbuki özləri belə hesab edirdilər ki, o, yetərincə səlahiyyətlərə malikdir. Lakin bu güman özünü doğrultmadı. Konfederasiyanın Qanunlar Toplusu vergi qoyma, ştatlar arasında ticarətin tənzimlənməsi sahəsində Konqresə heç bir səlahiyyət vermirdi, icra və məhkəmə hakimiyyətini nəzərdə tutmurdu, sənədə düzəlişlər isə bütün ştatların yekdil razılığını tələb edirdi.

Virciniyadan olan Ceyms Medison *(James Madison)* Corc Vaşinqtonun *(George Washington)* xeyir-duası ilə Konfederasiyanın Qanunlar Toplusuna yenidən baxılması üçün Konqresin növbədənkənar sessiyasının çağırılması uğrunda hərəkata rəhbərlik etməyə başladı. Lakin 1787-ci ilin yayında nümayəndələr Filadelfiyaya toplaşdığı zaman onlar tamamilə yeni bir sənəd – ölkənin cari və gələcək tələbatlarına cavab verə bilən Konstitusiyanı işləyib hazırlamaq qərarına gəldilər.

Konstitusiya layihəsinə görə hökumət əvvəlki kimi federal olaraq qalırdı, yəni hakimiyyət ştatlar və ümummilli hökumət arasında bölünmüşdü. Konfederasiyanın Qanunlar Toplusuna əsasən ştatlar hakim mövqeyə malik olduqları halda Konstitusiyaya görə üstünlük ümummilli hökumətə verilirdi. Eyni zamanda Konstitusiyada ştatların hökumətləri də, ümummilli hökumət də siyasi həyatın fəal iştirakçıları qismində nəzərdən keçirilirdi.

Konstitusiyanın əsas xüsusiyyətlərindən biri bu idi ki, o, dövlət suverenliyinin, dövlət hakimiyyətinin mənbəyini vətəndaşlarda görürdü, bu ideya XIX əsrdən bütün dünyada son dərəcə mühüm faktora çevrilmişdir. "Biz, Birləşmiş Ştatlar xalqı... Konstitusiyanı təntənə ilə bəyan və təsis edirik". İstiqlaliyyət Bəyannaməsindən götürülmüş bu ideya bəyan edir ki, hökumət yalnız onun idarə etdiyi kəslərin razılığı ilə legitim olur.

Ola bilsin ki, Konstitusiyanın ən diqqətəlayiq xüsusiyyətlərindən biri hakimiyyət budaqlarının bölgüsüdür. Sənəddə qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında dəqiq sərhəd çəkilmişdi. Konfederasiyanın Qanunlar

Satış üçün nəzərdə tutulmayıb

Toplusunda hökm sürən praktikadan fərqli olaraq, Konstitusiyanın müəllifləri prezidentə böyük hakimiyyət vermişdilər. Eyni zamanda "əyləclər və balanslar" sistemi bir hakimiyyət budağının digəri üzərindəki hər hansı bir üstünlüyünü mümkünsüz edirdi. 1787–1788-ci illərin payızında və qışında Konstitusiyanın ratifikasiyası üzrə geniş vüsət almış debatların gedişində yeni sənədin tərəfdarları – özlərini "federalist" adlandıranlar bu fikirdə idilər ki, yeni sənəd nəinki köhnənin qüsurlarını aradan götürəcək, həm də yeni millət[5] *(nation)* üçün sülhü və təhlükəsizliyi müdafiə etməyə qabil olan güclü və eyni zamanda məhdudlaşdırılmış hökumətin yaradılmasını təmin edəcəkdir. Konstitusiyanın əleyhinə olanlar – "antifederalistlər" açıq-aşkar əlverişsiz vəziyyətdə idilər, çünki istər-istəməz etiraf etməyə məcbur idilər ki, Konfederasiya dövründə hökumətin fəaliyyət qabiliyyəti zəif idi. Belə olanda, antifederalistlər tələb etdilər ki, Konstitusiyaya Hüquqlar haqqında Bill daxil edilsin. Federalistlər isə deyirdilər ki, buna elə bir ehtiyac yoxdur, çünki məhdud səlahiyyətli hökumət çətin ki, vətəndaşların hüquqlarını poza bilsin. Lakin Tomas Ceffersonun *(Thomas Jefferson)* Ceyms Medisona izah etdiyi kimi, "Hüquqlar haqqında Bill" *(Bill of Rights)* – hansı hökumətin olmasından asılı olmayaraq hamının haqqı çatdığı bir şeydir və ədalətli hökumət bundan imtina etməməlidir". Konstitusiyanın ratifikasiyasından sonra yeni hökumət quruldu və Konqres dərhal sənədə bir sıra nəzərdə tutulan düzəlişləri qəbul etdi və təsdiq edilmək üçün onu ştatlara göndərdi.

1791-ci ildə ştatlar bunlardan 10-nu bəyəndilər və o vaxtdan bu düzəlişlər "Hüquqlar haqqında Bill" adı ilə tanınır. Sonralar digər düzəlişlər də təsdiq edildi, bunlardan bəziləri texniki xarakter daşıyır, lakin əksəriyyətində Amerika cəmiyyətinin daha çox demokratikləşdirilməsi nəzərdə tutulub: köləliyin ləğvi, seçki hüquqlarının genişləndirilməsi və hökumətin xalq qarşısında məsuliyyətinin artırılması, məsələn, birbaşa senator seçkilərinin keçirilməsi.

Konstitusiya 200 ildən də böyük müddətdə xalqa sədaqətlə xidmət edib və bu həm də ona görə mümkün olub ki, onun müəllifləri ağıllı şəkildə etiraf edirdilər ki, bütün çətinlikləri qabaqcadan nəzərə almaq qeyri-mümkündür. Və bu ideyanın ardınca gedənlər sənədi yeni tələblərə və mövcud reallığa uyğunlaşdıra biliblər.

Əlavə məlumat üçün oxuyun: Michael Kammen, ed., The Origins of the American Constitution: A Documentary History (1986); Forrest McDonald, Novus Ordo Seclorum: The Intellectual Origins of the Constitution (1985); Clinton Rossiter, 1787: The Grand Convention (1966); Clinton Rossiter, ed., The Federalist Papers (1961). The American Territorial System (1974); T.C. Pease, "The Ordinance of 1787," Miss. Valley Hist.Rev. 25 (1938): 167.

Satış üçün nəzərdə tutulmayıb

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ

KONSTİTUSİYASI (1787)

Biz, Birləşmiş Ştatlar xalqı[vi] daha mükəmməl ittifaqın yaradılması, ədd-liyyənin bərqərar edilməsi, daxili sakitliyin qorunması, birgə müdafiənin təşkili, ümumi rifah səviyyəsinə yardım göstərilməsi, bizim və bizdən sonrakı nəsillərin azadlıq nemətləri ilə təmin edilməsi məqsədilə Amerika Birləşmiş Ştatları üçün bu Konstitusiyanı təntənə ilə bəyan və təsis edirik.

I Maddə

1-ci bölmə. Qanunvericilik hakimiyyətinin burada təsbit edilən bütün səlahiyyətləri Senatdan və Nümayəndələr Palatasından ibarət Birləşmiş Ştatlar Konqresinə məxsusdur.

2-ci bölmə. Nümayəndələr Palatası hər ştatın əhalisi tərəfindən iki ildə bir dəfə seçilən üzvlərdən ibarətdir və hər ştatdakı seçicilər onun Qanunverici yığıncağının ən çoxsaylı palatasının seçicilərinə irəli sürülmüş tələblərə cavab verməlidir.

İyirmi beş yaşına çatmayan, yeddi il Birləşmiş Ştatların vətəndaşı olmayan və seçildiyi zaman onu seçən ştatın sakini olmayan heç kəs Nümayəndə ola bilməz.

Həm Nümayəndələr, həm də birbaşa vergilər bu ittifaqa daxil olacaq bütün ştatların öz əhalisi nisbətində bölünür; bu tənasüb müəyyən müddətə xidmət-də olan şəxsləri daxil etməklə və vergi ödəməyən hinduları çıxmaqla, bütün azad adamların sayına bütün başqa şəxslərin beşdə üçünü artırmaqla müəy-yənləşdirilir.

Əhalinin əsl siyahıyaalınması Birləşmiş Ştatlar Konqresinin ilk sessiyasın-dan sonrakı üç il ərzində həyata keçirilir, sonra isə xüsusi qanunla müəyyən-ləşdirilən qaydada hər on ildən bir təkrarlanır. Hər otuz min sakinə bir Nüma-yəndədən artıq seçmək olmaz. Bu cür siyahıyaalma keçirilənədək Nyu-Hemp-şir ştatı əhalisinin üç, Massaçusetsin səkkiz, Rod-Aylendin və Providens kolo-niyasının bir, Konnektikutun beş, Nyu-Yorkun altı, Nyu-Cersinin dörd, Pen-silvaniyanın səkkiz, Delaverin bir, Merilendin altı, Virciniyanın on, Şimali Ka-rolinanın beş, Cənubi Karolinanın beş və Corciyanın üç Nümayəndə seçmək hüququ olacaqdır.

Hər hansı ştatın nümayəndəliyində boş yer yarandıqda oranın icra haki-miyyəti bu boş yeri doldurmaq üçün seçkilər təyin edir.

Nümayəndələr Palatası öz spikerini və başqa vəzifəli şəxslərini seçir; im-piçment qaydasında təqibetmə məsələsini qaldırmaq hüququ yalnız ona məx-susdur.

3-cü bölmə. Birləşmiş Ştatlar Senatının tərkibinə hər ştatdan ikisi olmaqla, müvafiq ştatların Qanunverici yığıncaqlarının altı ilə seçdikləri Senatorlar da-xildir; hər Senatorun bir səsi var.

Satış üçün nəzərdə tutulmayıb

İlk seçkilər keçiriləndən sonra Senatorlar yığışan kimi gecikdirilmədən üç (imkan daxilində bərabər) qrupa bölünürlər. Birinci qrupun Senatorlarının yerləri ikinci il bitdikdə, ikinci qrupunku dördüncü il bitdikdə, üçüncü qrupunku altıncı il bitdikdə boşalır ki, hər iki ildən bir tərkibin üçdə biri yenidən seçilsin; ştatın Qanunverici yığıncağının sessiyaları arasındakı fasilələrdə istefa üzündən, yaxud başqa səbəbdən boş yerlər yaranarsa, həmin ştatın icra hakimiyyəti onları doldurası Qanunverici yığıncağın növbəti sessiyasınadək müvəqqəti təyinatlar həyata keçirə bilər.

Otuz yaşına çatmayan, doqquz il Birləşmiş Ştatların vətəndaşı olmayan və seçilmə anında onu seçən ştatın sakini sayılmayan şəxs Senator ola bilməz.

Birləşmiş Ştatların Vitse-prezidenti Senatın Sədridir, ancaq o, yalnız səslər tən bölündükdə səs verə bilər.

Senat özünün başqa vəzifəli şəxslərini, eləcə də Vitse-prezidentin olmadığı, yaxud onun Birləşmiş Ştatların Prezidenti vəzifəsini icra etdiyi hallarda *pro tempore*[vii] Sədrini seçir.

İmpiçment qaydasında mühakimə etməyin müstəsna hüququ Senatdadır. Bu məqsədlə iclas keçirən Senatorlar and içirlər, yaxud təntənəli vəd verirlər. Müttəhim Birləşmiş Ştatların Prezidentidirsə Senata Ali məhkəmənin sədri sədrlik edir. İştirakçı Senatorların üçdə ikisinin razılığı olmadan heç kəs mühakimə edilə bilməz.

İmpiçment hallarında hökm vəzifədən uzaqlaşdırma və Birləşmiş Ştatların fəxri, məsul, yaxud maaşlı vəzifələr tutmaq hüququndan məhrumetmə ilə məhdudlaşdırılır. Ancaq buna baxmayaraq, sonradan təhqiqat aparılır, vəzifədən uzaqlaşdırılana ittiham irəli sürülür, o, məhkəməyə verilir və hökmə uyğun cəzalandırılır.

4-cü bölmə. Senatorların və Nümayəndələrin seçilməsi vaxtını, yerini və qaydasını hər ştatdakı Qanunverici yığıncaq müəyyənləşdirir, ancaq Konqres istənilən vaxt, Senatorların seçilməsi yeri haqqında qaydalar çıxılmaqla, bu cür qaydaları müəyyənləşdirən, yaxud dəyişdirən qanun çıxara bilər.

Konqres ildə bir dəfədən gec olmayaraq toplanır, onun məclisləri isə qanunla başqa gün müəyyənləşdirilmədikdə dekabrın ilk bazar ertəsi başlayır.

5-ci bölmə. Seçkinin nəticələrinə, öz üzvlərinin səlahiyyətlərinə və seçilməsinin qanunauyğunluğuna dair məsələləri hər Palatanın özü həll edir və Palatalardan hər birində əksəriyyəti işlərin aparılması üçün zəruri olan yetərsay təşkil edir; ancaq Palata az tərkibdə də öz iclasını bir gündən başqasına keçirə bilər və onun iştirak etməyən üzvlərə onların iclaslara gəlməsini təmin etmək məqsədilə hər Palatanın nəzərdə tutduğu təsir vasitələrini tətbiq etmək hüququ var.

Hər Palata öz iclaslarının qaydasını müəyyənləşdirə, bu qaydaları pozan üzvlərini cəzalandıra və səslərin üçdə ikisi ilə onları öz tərkibindən çıxara bilər.

Hər Palata öz iclaslarının jurnalını aparır və onu özünün qətnaməsinə əsasən, məxfi səciyyə daşıyan bölmələr istisna olunmaqla, vaxtaşırı dərc edir; hər

Satış üçün nəzərdə tutulmayıb

Palata üzvlərinin bu və ya başqa məsələyə görə verdikləri *lehinə* və *əleyhinə* səslər haqqında məlumat iştirakçıların beşdə birinin istəyi ilə jurnala salınır.

Konqresin sessiyası vaxtında Palatalardan heç biri başqa Palatanın icazəsi olmadan öz iclaslarını üç gündən artıq təxirə sala və hər iki Palatanın birgə iclas keçirməli olduğu yeri başqa yerə dəyişdirə bilməz.

6-cı bölmə. Senatorlar və Nümayəndələr öz xidmətlərinə görə qanunla müəyyənləşdirilən və Birləşmiş Ştatların Xəzinəsinin ödədiyi haqq alırlar. Xəyanət, ağır cinayət və ictimai qaydanı pozma istisna edilməklə, heç bir halda onlar uyğun Palatanın sessiyasında iştirak etdikləri vaxt həbs edilə, eləcə də Palataya aparıla və oradan qaytarıla bilməzlər; Palatalardakı nitqlərinə və danışıqlarına görə heç bir başqa yerdə məsuliyyətə cəlb edilə bilməzlər.

Heç bir Senator, yaxud Nümayəndə seçildiyi müddətdə Birləşmiş Ştatların qulluğunda duracaq istənilən mülki vəzifəyə (bu vəzifə həmin dövrdə yaranıbsa və onunla bağlı məvacib həmin vaxtda artırılıbsa) təyin edilə bilməz və Birləşmiş Ştatların qulluğunda duran hər hansı vəzifəni tutmuş heç bir şəxs bu vəzifədə qaldıqca Palatalardan birinin üzvü ola bilməz.

7-ci bölmə. Gəlir daxilolmalarının toplanması haqqında bütün billər Nümayəndələr Palatasından gəlir, ancaq Senat onlara düzəlişlər təklif edə və onların, eləcə də başqa billərin müzakirəsində iştirak edə bilər.

Nümayəndələr Palatası və Senatın qəbul etdiyi hər bill qanuna çevrilməzdən öncə Birləşmiş Ştatların Prezidentinə təqdim edilir; o, billi bəyəndikdə imzalayır, əks halda öz etirazları ilə birgə billi təklif olunduğu Palataya qaytarır, Palata isə Prezidentin etirazlarını bütünlüklə öz jurnalına salır və billə yenidən baxır. Belə yeni baxışda bill Palatada səslərin üçdə ikisi ilə təsdiq olunarsa, Prezidentin etirazları ilə birgə o biri Palataya göndərilir. Burada da ona yenidən baxılır və bu Palatada səslərin üçdə ikisi ilə qəbul edildikdə o, qanuna çevrilir. Göstərilən bütün hallarda hər iki Palata adbaad səsvermə qaydasını tətbiq edir və billin lehinə və əleyhinə səs vermiş şəxslərin adları uyğun Palatanın jurnalına salınır. Bill Prezidentə təqdim edildikdən sonrakı on gündə (bazar günlərini saymamaqla) qaytarılmazsa, imzalanmış sayılaraq qanuna çevrilir; bill yalnız o halda qanuna çevrilmir ki, Konqresin iclasları təxirə salındığına görə o, buraya qaytarıla bilməyib.

İclasların təxirə salınması haqqında qərarlar istisna olunmaqla, Senatın və Nümayəndələr Palatasının birgə iştirakının zəruri olduğu bütün sərəncamlar, qətnamələr və qərarlar Birləşmiş Ştatların Prezidentinə təqdim edilir və yalnız onun bəyənməsindən sonra qüvvəyə minir; bəyənilmədikdə isə onlar billə aid qaydalara və şərtlərə uyğun olaraq Senat və Nümayəndələr Palatası səslərinin üçdə ikisi ilə yenidən təsdiq edilməlidir.

8-ci bölmə. Konqresin bu hüquqları var:

– Birləşmiş Ştatların borclarını ödəməkdən, birgə müdafiəsini və ümumi rifah halını təmin etməkdən ötrü vergilər, rüsumlar, xəraclar və aksiz rüsumları müəyyənləşdirmək və yığmaq; özü də rüsumlar, xəraclar və aksiz rüsumları Birləşmiş Ştatların bütün ərazisində eyni cür olmalıdır;

– Birləşmiş Ştatların adından borc götürmək;

Satış üçün nəzərdə tutulmayıb

– əcnəbi dövlətlərlə, ayrı-ayrı ştatlar arasında və hindu qəbilələri ilə ticarəti tənzimləmək;

– Birləşmiş Ştatların ərazisində əcnəbilərin vətəndaşlığa götürülməsinin eyni cür qaydalarını və iflas haqqında eyni cür qanunlar yaratmaq;

– pul kəsmək, onun dəyərini və əcnəbi pulun dəyərini tənzimləmək, ölçü və çəki vahidlərini müəyyənləşdirmək;

– Birləşmiş Ştatların dövlət qiymətli kağızlarını və dövriyyədə olan pulunu saxtalaşdırmaq üstündə cəzalar müəyyənləşdirmək;

– poçt xidmətləri və poçt yolları yaratmaq;

– öz əsərlərinə və ixtiralarına müəlliflərin və ixtiraçıların müstəsna hüququnu müəyyən müddət təmin etməklə elmin və faydalı sənətlərin inkişafını şirniklərdirmək;

– Ali Məhkəməyə tabe olan məhkəmə orqanları yaratmaq;

– dəniz quldurluğunu, açıq dənizdə törədilən ağır cinayətləri və beynəlxalq hüququn başqa pozuntularını müəyyənləşdirmək və cəzalandırmaq;

– müharibə elan etmək, kaper[viii] şəhadətnamələri və repressaliyə[ix] icazə vermək, quruda və dənizdə zəbtetmələrə dair qaydalar müəyyənləşdirmək;

– ordular yığmaq və saxlamaq; ancaq bu məqsədlə heç bir pul təxsisatı iki ildən artığa ayrıla bilməz;

– donanma yaratmaq və saxlamaq;

– quru qoşun və dəniz qüvvələrinin idarə edilməsinə və təşkilinə dair qaydalar tətbiq etmək;

– ittifaqın qanunlarını həyata keçirmək, üsyanları yatırtmaq və hücumları dəf etmək üçün xalq qoşunları yığmaq;

– qeyri-nizami xalq qoşunları zabitlərinin təyinatını və ödənilməsini Konqresin təsdiqlədiyi nizamnamə qaydalarına uyğun olaraq ştatların özündə saxlamaqla qeyri-nizami xalq qoşunlarının təşkilinə, silahlandırılmasına, intizama alışdırılmasına və onun Birləşmiş Ştatların xidmətində yararlanılan hissəsinin idarə edilməsinə dair ölçülər götürmək;

– ştatların hansındasa Konqresin bəyənməsi ilə Birləşmiş Ştatlar hökumətinin yerləşəcəyi bir dairəyə (on kvadrat mildən çox olmayan) verilmiş müstəsna qanunvericilik hakimiyyətindən bütün hallarda yararlanmaq, eləcə də belə hakimiyyətin ştatın Qanunverici yığıncağının razılığı ilə əldə edilmiş və hökumətin yerləşəcəyi bütün ərazilərdə hərbi qalaların, xəzinə anbarlarının, yaraqxanaların, tərsanələrin və başqa gərəkli tikintilərin inşası üçün həyata keçirmək;

– bu Konstitusiyanın Birləşmiş Ştatların hökumətinə, onun departamentlərinə, yaxud vəzifəli şəxslərinə verdiyi həm yuxarıda göstərilən hüquqların, həm də bütün başqa hüquqların həyata keçirilməsi üçün zəruri olan qanunları qəbul etmək.

9-cu bölmə. Konqres min səkkiz yüz səkkizinci ilədək indi mövcud ştatlardan hər hansının buraxmağı lazım bildiyi şəxslərin yerdəyişməsini, yaxud daşınmasını yasaqlaya bilməz, ancaq belə daşımaya görə adambaşına 10 dollardan çox olmamaqla rüsum, yaxud vergi tutula bilər.

Satış üçün nəzərdə tutulmayıb

Qiyam, yaxud basqın vaxtında ictimai təhlükəsizlik bunu tələb etmirsə, *Habeas Corpus* fəaliyyətini dayandırmağa yol verilmir.

Vətəndaş və əmlak hüquqlarından məhrumetmə haqqında billər və hər hansı *ex post facto*[x] qanunlar qəbul edilə bilməz.

Siyahıyaalmaya, yaxud yuxarıda göstərilmiş əhalinin sayılmasına uyğun gəlməyən adambaşına xəracın, yaxud birbaşa verginin tutulmasına heç cür yol verilmir.

Hər hansı ştatdan gətirilən əşyalara görə vergi, yaxud rüsum tutula bilməz.

Hansısa ticarət, yaxud maliyyə müqaviləsi vasitəsilə bir ştatdakı limanlara başqasındakı limanlardan üstünlük verilməməlidir, hər hansı ştata, yaxud ştatdan gedən gəmilər başqa ştatın limanına girməyə, yükünü boşaltmağa və rüsum ödəməyə məcbur edilə bilməz.

Qanunla müəyyənləşdirilmiş təyinatlardan başqa, xəzinədən pul ödənişi heç cür həyata keçirilə bilməz, dövlət gəlirləri və xərcləri haqqında geniş hesabatlar isə vaxtaşırı dərc edilməlidir.

Birləşmiş Ştatlar heç bir zadəgan titulu bağışlamır və Birləşmiş Ştatların xidmətindəki hər hansı maaşlı, yaxud fəxri vəzifəni tutan heç kəs Konqresin razılığı olmadan hər hansı bir kraldan, şahzadədən, yaxud əcnəbi dövlətdən bu və ya başqa hədiyyə, maaş, vəzifə, yaxud titul qəbul edə bilməz.

10-cu bölmə. Heç bir ştat müqavilələrə, ittifaqlara, yaxud konfederasiyalara girə bilməz; kaper şəhadətnamələri verə və repressaliyə icazə verə bilməz; pul kəsə bilməz; kredit biletləri buraxa bilməz; qızıl və gümüş puldan savayı nə iləsə borcu ödəməyə yol verə bilməz; vətəndaş və əmlak hüquqlarından məhrumetmə haqqında billər, *ex post facto* qanunlar, yaxud müqavilələr üzrə öhdəlikləri pozan qanunlar qəbul edə bilməz; eləcə də zadəgan titulları verə bilməz.

Heç bir ştat Konqresin razılığı olmadan malların idxalına və ixracına rüsumlar və yığımlar tətbiq edə bilməz (yalnız ştatın müfəttişlik haqqında qanunlarının həyata keçirilməsinin zəruri olduğu hallar istisnadır), özü də ştatın idxal və ixracdan götürdüyü bütün yığım və rüsumlardan olan təmiz gəlir Birləşmiş Ştatların Xəzinəsinə daxil olur, bütün bu cür qanunlara isə yenidən baxılmalı və onlara Konqres nəzarət etməlidir.

Heç bir ştat Konqresin razılığı olmadan hər hansı tonnaj rüsumu müəyyənləşdirə, sülh vaxtı qoşunlar və hərbi gəmilər saxlaya, başqa ştatla, yaxud əcnəbi dövlətlə sazişə girə, yaxud müqavilə imzalaya bilməz, eləcə də əgər hücuma məruz qalmayıbsa, yaxud ləngimənin yolverilməz olduğu birbaşa təhlükəyə düşməyibsə, müharibəyə başlaya bilməz.

II Maddə

1-ci bölmə. İcra hakimiyyətini Amerika Birləşmiş Ştatlarının Prezidenti həyata keçirir. O öz vəzifəsində dörd illik müddətdə qalır və onun, eləcə də eyni müddətə seçilən Vitse-prezidentin seçkiləri bu cür keçirilir:

Satış üçün nəzərdə tutulmayıb

Hər ştat özünün Qanunverici yığıncağının müəyyənləşdirdiyi qaydada, ştatın Konqresə göndərmək hüququ olan Senatorların və Nümayəndələrin sayı qədər seçimçilər təyin edir; ancaq Senatorlar, Nümayəndələr və Birləşmiş Ştatların xidmətindəki fəxri, yaxud maaşlı vəzifələri tutan şəxslər seçimçi təyin edilə bilməzlər.

Seçimçilər öz ştatlarında toplaşır və gizli səsvermə ilə heç olmasa biri bu ştatın sakini olmayan iki şəxsi seçirlər. Sonra onlar səs yığmış bütün şəxslərin siyahısını tərtib edir, burada onların hər birinə verilmiş səslərin sayını göstərirlər. Siyahını seçimçilər imzalayır və təsdiqləyir, sonra o, möhürlənmiş halda Birləşmiş Ştatlar Hökumətinin olduğu yerə Senatın Sədrinin adına göndərilir. Senatın Sədri Senatın və Nümayəndələr Palatasının iştirakı ilə bütün təsdiqlənmiş siyahıları açıb götürür, bundan sonra səslərin hesabı aparılır. Ən çox sayda (bu say bütün seçimçilərin yarısından çoxunu təşkil edirsə) səs toplamış şəxs Prezident olur. Səslərin əksəriyyətini bir neçə adam topladıqda və onlara eyni sayda səs verildikdə Nümayəndələr Palatası birbaşa gizli səsvermə ilə onlardan birini Prezident seçir; əgər heç bir şəxs səslərin əksəriyyətini toplamazsa, Nümayəndələr Palatası daha çox səs yığmış beş şəxsin içərisindən yenə həmin qayda ilə Prezidenti seçir. Bu halda Prezident seçilərkən səslər ştatlar üzrə verilir və hər ştatın nümayəndəliyinin bir səsi olur; bu məqsədlər üçün seçilmənin yetərsayı ştatların üçdə ikisinə bərabərdir, seçilmək üçünsə bütün ştatların əksəriyyəti zəruridir. Prezidentin seçilməsindən sonra ən çox səs toplamış şəxs bütün hallarda Vitse-prezident sayılır. Bir neçə şəxs bərabər sayda səs topladıqda Senat onlardan birini gizli səsvermə yolu ilə Vitse-prezident seçir.

Konqres seçimçilərin seçilmə vaxtını və onların öz səslərini verdikləri günü təyin edə bilər; həmin gün Birləşmiş Ştatların bütün ərazisində eyni olmalıdır.

Doğulduğu zaman Birləşmiş Ştatların vətəndaşı olmayan, yaxud bu Konstitusiyanın təsdiq edildiyi vaxt Birləşmiş Ştatların vətəndaşı olmayan şəxs Prezident vəzifəsinə seçilə bilməz; bu vəzifəyə eləcə də otuz beş yaşına çatmamış və Birləşmiş Ştatlarda on dörd il daimi sakin olmamış şəxs seçilə bilməz.

Prezident vəzifəsindən kənarlaşdırıldıqda, yaxud öldükdə, istefa verdikdə, ya da vəzifəsi ilə bağlı hüquq və borclarını yerinə yetirməyə qabil olmadıqda həmin hüquq və borclar Vitse-prezidentə keçir; Prezident və Vitse-prezident kənarlaşdırıldıqları, öldükləri, istefa verdikləri, yaxud qabiliyyəti itirdikləri təqdirdə Konqres hansı vəzifəli şəxsin Prezident kimi fəaliyyət göstərməli olduğunu qanunla müəyyənləşdirə bilər və o, Prezidentə öz borclarını həyata keçirməyə mane olan səbəblər aradan götürülənədək, yaxud yeni Prezident seçilənədək onu əvəz edəcək.

Prezident öz xidmətinə görə, müəyyən edilmiş vaxtlarda haqq alır və bu haqq onun seçildiyi müddətdə artırıla, yaxud azaldıla bilməz; bu müddətdə o, Birləşmiş Ştatlardan, yaxud hər hansı ştatdan pul şəklində heç bir haqq ala bilməz.

Satış üçün nəzərdə tutulmayıb

Vəzifəsinə başlamazdan öncə Prezident bu cür and içir, yaxud təntənəli vəd verir: *"Mən təntənəli şəkildə and içirəm (söz verirəm) ki, Birləşmiş Ştatların Prezidenti vəzifəsini şərəflə yerinə yetirəcək və Birləşmiş Ştatlar Konstitusiyasını var gücümlə qoruyacaq, müdafiə edəcək və dəstəkləyəcəyəm".*

2-ci bölmə. Prezident Birləşmiş Ştatlar ordusu və donanmasının, Birləşmiş Ştatların həqiqi xidmətinə çağırılmış ayrı-ayrı ştatların xalq qoşunlarının ali baş komandanıdır; o, hər bir icra departamentinin başçısından onun səlahiyyətinə aid istənilən məsələ haqqında yazılı fikir bildirməyi tələb edə bilər; onun hökmlərin yerinə yetirilməsini təxirə salmaq, impiçment qaydasında ittiham halları istisna olunmaqla, Birləşmiş Ştatlara qarşı törədilmiş cinayətləri bağışlamaq hüququ var.

Onun Senatın məsləhəti və razılığı ilə beynəlxalq müqavilələr bağlamaq (onları iştirak edən Senatorların üçdə ikisi bəyənməlidir), Senatın məsləhəti və razılığı ilə səfirləri, başqa səlahiyyətli Nümayəndələri və konsulları, Ali Məhkəmənin hakimlərini, eləcə də Birləşmiş Ştatların, təyinatları haqqında bu Konstitusiyada başqa göstəriş olmayan və vəzifələri qanunla müəyyənləşdirən bütün vəzifəli şəxslərini təyin etmək hüququ vardır, ancaq Konqres lazım bildiyi aşağı vəzifəli şəxslərin təyin edilməsini qanunla şəxsən Prezidentin özünə, hakimlərə, yaxud departamentlərin başçılarına həvalə edə bilər.

Prezidentin Senatın sessiyaları arasındakı dövrdə yaranan bütün boş yerlərə Senatın ən yaxın sessiyası qurtaran müddətədək vəzifə səlahiyyətləri verməklə adam təyin etmək hüququ vardır.

3-cü bölmə. Prezident vaxtaşırı Konqresə ittifaqın vəziyyəti haqqında hesabat verir və baxılmaq üçün ona özünün zəruri və faydalı saydığı tədbirləri təqdim edir; təcili lazım olduqda o, hər iki Palatanın, yaxud onlardan birini çağırır, sessiyaların təxirə salınması vaxtı haqqında Palatalar arasında fikir ayrılığı yarandıqda onları özünün münasib bildiyi vaxta keçirir; səfirləri və başqa səlahiyyətli Nümayəndələri qəbul edir, qanunlara dəqiq riayət edilməsini təmin edir və Birləşmiş Ştatların vəzifəli şəxslərinin səlahiyyətlərini müəyyənləşdirir.

4-cü bölmə. Prezident, Vitse-prezident və Birləşmiş Ştatların bütün mülki vəzifəli şəxsləri impiçment qaydasında ittiham edilərkən xəyanətdə, rüşvətxorluqda, başqa ağır cinayətlərdə və əməllərdə təqsirli bilinərlərsə vəzifədən kənarlaşdırılırlar.

III Maddə

1-ci bölmə. Birləşmiş Ştatların məhkəmə hakimiyyəti Ali Məhkəmə ilə və Konqresin zaman-zaman təsis etdiyi aşağı məhkəmələrlə həyata keçirilir. Həm Ali Məhkəmənin, həm də aşağı məhkəmələrin hakimləri qüsursuz işlədikcə öz vəzifələrində qalırlar; onlar öz xidmətlərinə görə müəyyən edilmiş vaxtlarda haqq alırlar və vəzifədə qaldıqları müddətdə bu haqq azaldıla bilməz.

2-ci bölmə. Məhkəmə hakimiyyəti *qanunla və ədalətlə* həll edilən, bu Konstitusiyanın, Birləşmiş Ştatların qanunlarının və Birləşmiş Ştatların bağladığı

Satış üçün nəzərdə tutulmayıb

beynəlxalq sazişlərin əsasında meydana çıxan bütün işlərə; səfirlərə, başqa səlahiyyətli Nümayəndələrə və konsullara aid bütün işlərə; admirallığın bütün işlərinə və başqa dəniz işlərinə; Birləşmiş Ştatların tərəf sayıldığı bütün mübahisələrə; iki və daha artıq ştat arasındakı, müxtəlif ştatların vətəndaşları arasındakı, müxtəlif ştatlardan bəxşiş şəklində alınmış torpaqlara aid iddia üzrə bir ştatın vətəndaşları arasındakı, eləcə də ştatla, yaxud onun vətəndaşları ilə əcnəbi dövlətlər, vətəndaşlar, yaxud təbəələr arasındakı bütün mübahisələrə şamil edilir.

Səfirlərə, başqa səlahiyyətli Nümayəndələrə və konsullara aid bütün işlərə, eləcə də tərəflərdən birinin ştat olduğu işlərə ilk instansiya kimi Ali Məhkəmədə baxılmalıdır. Öncə xatırladılan bütün başqa hallarda Ali Məhkəmə apelyasiya instansiyasıdır və o, Konqresin müəyyənləşdirəcəyi məhdudlaşdırmalara və qaydalara uyğun şəkildə həm hüquq, həm də fakt məsələsini həll edir.

İmpiçment qaydasında baxılanlardan başqa, cinayətlər haqqında bütün işlərə andlılar məhkəməsində baxılır; məhkəmə araşdırması cinayətin törədildiyi ştatda aparılır; cinayət ştatın hüdudlarından qıraqda baş veribsə, məhkəmə Konqresin çıxardığı qanunla nəzərdə tutulan yerdə, yaxud yerlərdə keçirilir.

3-cü bölmə. "Birləşmiş Ştatlara xəyanət" dedikdə, yalnız ona qarşı müharibə aparmaq, onun düşmənlərinə qoşulmaq, onlara yardım və xidmət göstərmək başa düşülür. Heç kim dartışılan hadisənin iki şahidinin ifadəsi ilə, yaxud müttəhimin özünün boynuna alması ilə açıq məhkəmə iclasında təqsiri təsdiqlənmədən xəyanətdə günahkar sayıla bilməz.

Konqresin xəyanətə görə cəza kəsmək hüququ var, ancaq xəyanətə görə ittiham əsasında hüquqlardan məhrumetmə, yaxud əmlakı müsadirə etmə yalnız müttəhimin sağlığında mümkündür.

IV Maddə

1-ci bölmə. Hər ştatda bütün başqa ştatların açıq aktlarına, rəsmi sənədlərinə və məhkəmə qərarlarına hörmət və tam inam bəslənilməlidir. Konqres belə aktların, sənədlərin və məhkəmə qərarlarının əslinə uyğunluğunun, eləcə də qüvvədə olduğunun təsdiqlənməsi üsullarını ümumi qanunlarla nizamlaya bilər.

2-ci bölmə. Hər ştatın vətəndaşlarının başqa ştatların vətəndaşlarının bütün imtiyazlarına və şəxsi toxunulmazlığına malik olmaq hüququ var.

Bir ştatda xəyanət, hər hansı ağır cinayət üstündə təqsirləndirilərək ədalət məhkəməsindən gizlənən və başqa ştatda tapılan şəxs qaçdığı ştatın icra hakimiyyətinin tələbi ilə bu cinayətin onun yurisdiksiyasında olduğu ştata təhvil verilməlidir.

Ştatların hansındasa onun qanunlarına uyğun olaraq xidmət etməyə, yaxud işləməyə borclu olan və başqa ştata qaçan heç bir şəxs sonuncu ştatın qanunları, yaxud sərəncamları əsasında həmin xidmətdən, yaxud işdən azad edilə bilməz və o, bu xidmətə, yaxud işə hüququ çatan tərəfin tələbi ilə təhvil verilməlidir.

Satış üçün nəzərdə tutulmayıb

3-cü bölmə. Konqres ittifaqa yeni ştatlar qəbul edə bilər, ancaq bir ştatın yurisdiksiyası daxilində yeni ştatlar yarada, yaxud təsis edə bilməz; eləcə də maraqlı ştatların Qanunverici yığıncaqlarının və Konqresin razılığı olmadan iki və daha artıq ştatın, yaxud onların hissələrinin birləşdirilməsi yolu ilə yeni ştatlar yaratmaq olmaz.

Konqresin Birləşmiş Ştatlara məxsus ərazi və başqa əmlak üzərində sərəncam vermək hüququ var və o bununla bağlı bütün gərəkli qaydaları və qərarları qəbul edə bilər, ancaq bu Konstitusiyada heç bir şey Birləşmiş Ştatların, yaxud hər hansı ştatın qanuni iddialarının ziyanına şərh edilə bilməz.

4-cü bölmə. Birləşmiş Ştatlar bu ittifaqdakı hər bir ştata respublika idarə formasına və onlardan hər birinin xarici hücumlardan, Qanunverici yığıncağın, yaxud icra hakimiyyətinin (Qanunverici yığıncaq çağırıla bilmədikdə) xahişinə görə isə daxili zorakılıqdan da qorunacağına zəmanət verir.

V Maddə

Hər iki Palatanın üçdə ikisi zəruri sayanda Konqres bu Konstitusiyaya düzəlişlər edir, yaxud ştatların üçdə ikisinin Qanunverici yığıncaqlarının tələbi ilə düzəlişlər etmək üçün Konvent çağırılır; hər iki halda düzəlişlər Konstitusiyanın hissəsi kimi məcburedici qüvvə və əhəmiyyət qazanır, bu şərtlə ki, düzəlişləri ştatların dörddə üçünün Qanunverici yığıncaqları, yaxud ştatların dörddə üçünün Konventləri təsdiq etsin (ratifikasiyanın bu iki üsulundan birini Konqres təklif edir). Ancaq min səkkiz yüz səkkizinci ilədək qəbul edilmiş heç bir düzəliş birinci maddənin doqquzuncu bölməsinin birinci və dördüncü paraqraflarına qətiyyən aid edilə bilməz və heç bir ştatın özünün razılığı olmadan Senatda başqaları ilə bərabər səsdən məhrum edilə bilməz.

VI Maddə

Bu Konstitusiyanın qəbulunadək mövcud olmuş bütün borclar və öhdəliklər Birləşmiş Ştatlar üçün Konfederasiya vaxtında olduğu hüquqi qüvvəsini saxlayır.

Bu Konstitusiya və onun icrasından ötrü qəbul edilmiş Birləşmiş Ştatlar qanunları, eləcə də Birləşmiş Ştatların bağladığı və bağlayacağı bütün müqavilələr Ölkənin Ali Qanunları sayılır və hər ştatın hakimləri onları icra etməyə borcludur, baxmayaraq ki, Konstitusiyada və ayrı-ayrı ştatların qanunlarında bir-birinə zidd hökmlərə rast gəlinir.

Yuxarıda xatırladılmış Senatorlar və Nümayəndələr, həmçinin ayrı-ayrı ştatların Qanunverici yığıncaqları, eləcə də Birləşmiş Ştatların və ayrı-ayrı ştatların icra və məhkəmə hakimiyyətlərinin bütün vəzifəli şəxsləri bu Konstitusiyaya əməl edəcəklərinə and içməyə, yaxud vəd verməyə borcludurlar. Bu halda Birləşmiş Ştatlarda hansı vəzifəni tutmaq, yaxud hansısa ictimai borcu yerinə yetirmək üçün hansısa dinə mənsubluq heç vaxt şərt kimi irəli sürülməyəcək.

Satış üçün nəzərdə tutulmayıb

VII Maddə

Doqquz ştatın Konventinin ratifikasiyası bu Konstitusiyanı göstərilən qaydada təsdiq etmiş həmin ştatların qəbul etməsi üçün yetərlidir.

Konventdə iştirakçı ştatların ümumi bəyənməsi ilə İsanın mövludunun min yeddi yüz səksən yeddinci ilinin on yeddi sentyabrında və Amerika Birləşmiş Ştatlarının müstəqilliyinin on ikinci ilində təsdiqləndi; buna sübut olaraq biz aşağıda imzalarımızı qoyduq…

17 sentyabr 1787-ci il

Amerika Birləşmiş Ştatları Konstitusiyasına Konstitusiyanın beşinci maddəsinə uyğun olaraq Konqresin təklif və ayrı-ayrı ştatların Qanunverici yığıncaqlarının ratifikasiya etdiyi əlavə düzəliş maddələr[xi].

I Düzəliş (1791)

Konqres din müəyyənləşdirməyə, yaxud sərbəst dini ibadəti yasaqlamağa dair, ya da söz və mətbuat azadlığını, xalqın dinc toplaşmaq, şikayətlərinin yerinə yetirilməsi üçün hökumətə ərizələrlə müraciət etmək hüququnu məhdudlaşdıran heç bir qanun verməməlidir.

II Düzəliş (1791)

Yaxşı təşkil edilmiş qeyri-nizami xalq qoşunu azad dövlətin təhlükəsizliyi üçün zəruri olduğundan xalqın silah saxlamaq və gəzdirmək hüququ pozulmamalıdır.

III Düzəliş (1791)

Heç bir əsgər istər sülh, istərsə də müharibə dövründə yiyəsinin razılığı olmadan evdə yerləşdirilə bilməz; ancaq müharibə zamanı buna yalnız qanunla nəzərdə tutulan qaydada yol verilir.

IV Düzəliş (1791)

İnsanların şəxsiyyətinin, yaşayış yerinin, kağızların və əmlakın əsaslandırılmamış axtarış və həbslərdən qorunmaq hüququ pozulmamalıdır. Andla, yaxud təntənəli vədlə təsdiqlənmiş yetərincə əsas olmadan heç bir order verilməməlidir; bu halda orderdə axtarılmalı yerin və həbs edilməli şəxslərin, yaxud əşyaların ətraflı təsviri göstərilməlidir.

V Düzəliş (1791)

Satış üçün nəzərdə tutulmayıb

Quru qoşun, yaxud hərbi dəniz qüvvələrində, ya da qeyri-nizami xalq qoşununda (o, müharibə zamanı, yaxud vəziyyətin cəmiyyət üçün qorxulu olduğu dövrdə həqiqi xidmətə çağırıldıqda) qaldırılmış işlərdən savayı, heç kim Böyük Münsiflərin[xii] təqdimatı, yaxud ittiham qərarı olmadan ölümlə cəzalandırılan, yaxud başqa cür rüsvay edilən cinayət üstündə məsuliyyətə cəlb edilməməlidir; heç kim eyni cinayətə görə həyatdan məhrumetmə, yaxud bədən toxunulmazlığının pozulması təhlükəsinə iki dəfə məruz qala bilməz; heç kim cinayət işində özünə qarşı şahidlik etməyə məcbur edilməməlidir; heç kim lazımi hüquqi prosedur olmadan həyatdan, azadlıqdan, yaxud mülkiyyətdən məhrum edilə bilməz; özəl mülkiyyət əvəzi ədalətlə ödənilmədən ictimai istifadəyə götürülməməlidir.

VI Düzəliş (1791)

Hər bir cinayət təqibində müttəhimin cinayətin törədildiyi ştatın və öncədən qanunla müəyyənləşdirilmiş dairənin qərəzsiz andlılarının gecikdirilməyən və açıq məhkəməsinin keçirilməsi hüququ var; müttəhimin ittihamın mahiyyəti və əsasları haqqında məlumat almaq hüququ var, onun əleyhinə ifadə verən şahidlərlə üzləşmək, öz tərəfindən şahidləri məcburi çağırmaq və özünü qorumaq üçün vəkilin köməyindən yararlanmaq hüququ var.

VII Düzəliş (1791)

Ümumi hüquqa əsaslanan, iddianın dartışılan dəyəri iyirmi dollardan artıq olan bütün mülki işlərin Andlılar Məhkəməsinə verilmək hüququ saxlanılır, ancaq andlıların baxmalı olduğu hər hansı fakta Birləşmiş Ştatların heç bir məhkəməsində ümumi hüquq normalarına uyğun olmadan yenidən baxıla bilməz.

VIII Düzəliş (1791)

Həddindən çox girovlar tələb edilməməli, həddindən çox cərimələr qoyulmamalı, amansız və qeyri-adi cəzalar təyin edilməməlidir.

IX Düzəliş (1791)

Konstitusiyada müəyyən hüquqların sadalanması xalqın malik olduğu başqa hüquqların alınması, yaxud azaldılması kimi yozulmamalıdır.

X Düzəliş (1791)

Bu Konstitusiya ilə Birləşmiş Ştatlara verilməli və Konstitusiyanın ayrıca ştatların istifadə etməsini yasaqlamadığı səlahiyyətlər uyğun olaraq ya ştatlarda, ya da insanlarda qalır.

XI Düzəliş (1795)

Satış üçün nəzərdə tutulmayıb

Birləşmiş Ştatların məhkəmə hakimiyyəti hüquqa, yaxud ədalətə əsaslanan və ştatlardan birinə qarşı başqa ştat vətəndaşlarının, yaxud hər hansı əcnəbi dövlətin vətəndaşlarının, yaxud təbəələrinin qaldırdığı, yaxud aparılan hər hansı iddia icraatına şamil edilməsi kimi yozulmamalıdır.

XII Düzəliş (1804)

Seçimçilər öz ştatlarında toplaşırlar və ən azı birinin onlarla eyni ştatın sakini olmayan Prezidentə və Vitse-prezidentə bülletenlərlə səs verirlər; onlar öz bülletenlərində Prezident kimi səs verdikləri şəxsi və ayrıca bülletenlərdə isə Vitse-prezident kimi səs verdikləri şəxsi göstərirlər; elə onlar Prezident kimi səs verdikləri bütün şəxslərin və Vitse-prezident kimi səs verdikləri bütün şəxslərin ayrıca siyahılarını onlardan hər birinə verilmiş səslərin sayını göstərməklə tərtib edirlər; bu siyahıları onlar imzalayır, təsdiqləyir və möhürlənmiş halda Birləşmiş Ştatların hökumətinin olduğu yerə Senat Sədrinin adına göndərirlər. Senatın Sədri Senatın və Nümayəndələr Palatasının iştirakı ilə bütün təsdiqlənmiş siyahıları açıb götürür, bundan sonra səslərin hesabı aparılır. Prezidentliyə ən çox sayda (bu say bütün təyin edilmiş seçimçilərin yarısından çoxunu təşkil edirsə) səs toplamış şəxs Prezident olur; heç kəs səslərin belə əksəriyyətini toplaya bilməzsə, daha çox səs toplamış şəxslərdən (prezidentliyinə səs verilmişlərin içərisindən üç nəfərdən artıq olmamaqla) Nümayəndələr Palatası gecikdirmədən, bülletenlərlə səs verərək Prezident seçir. Ancaq Prezident seçkisində səslər ştatlar üzrə verilir, özü də hər ştatın nümayəndəliyinin bir səsi olur; belə halda yetərsayı Nümayəndələr Palatasının ştatların üçdə ikisindən olan üzvləri təşkil edir; bu vaxt Prezidentin seçilməsi üçün bütün ştatların səslərinin əksəriyyəti zəruridir (Nümayəndələr Palatası seçmə hüququ ona keçərkən növbəti martın dördüncü gününədək Prezidenti seçməzsə, onda Vitse-prezident Prezidentin öldüyü, yaxud başqa Konstitusiya iqtidarsızlığı halında olduğu kimi Prezident sifətində hərəkət edəcək)[xiii]. Vitse-prezidentliyə ən çox sayda (bu say bütün təyin edilmiş seçimçilərin yarısından çoxunu təşkil edirsə) səs toplamış şəxs Vitse-prezident olur; heç kəs səslərin əksəriyyətini toplaya bilməzsə Senat siyahıdakı bütün namizədlərin içərisində ən çox səs toplamış iki şəxsdən birini Vitse-prezident seçir; bu zaman Vitse-prezidentin seçilməsi üçün bütün Senatorların səslərinin əksəriyyəti zəruridir. Ancaq Konstitusiya tələblərinin gücü ilə Prezident vəzifəsinə seçilə bilməyəcək heç kəs Birləşmiş Ştatların Vitse-prezidenti vəzifəsinə seçilə bilməz.

XIII Düzəliş (1865)

1-ci bölmə. Birləşmiş Ştatlarda, yaxud onun yurisdiksiyasına tabe olan hər hansı bir yerdə nə quldarlıq, nə də asılı xidmət (lazımi şəkildə ittiham edilmiş cinayətə görə verilən cəza hallarından başqa) mövcud ola bilər.

2-ci bölmə. Konqresin bu maddəni uyğun qanunların qəbulu yolu ilə yerinə yetirmək hüququ var.

Satış üçün nəzərdə tutulmayıb

XIV Düzəliş (1868)

1-ci bölmə. Birləşmiş Ştatlarda doğulmuş, yaxud burada vətəndaşlıq alaraq onun yurisdiksiyasına tabe olmuş bütün şəxslər Birləşmiş Ştatların və yaşadıqları ştatın vətəndaşlarıdır. Heç bir ştat Birləşmiş Ştatlar vətəndaşlarının imtiyaz və güzəştlərini məhdudlaşdıran qanunlar çıxarmamalı, yaxud tətbiq etməməlidir; eləcə də heç bir ştat hər hansı bir şəxsi lazımi hüquqi prosedur olmadan həyatdan, azadlıqdan və əmlakdan məhrum edə bilməz, yaxud öz yurisdiksiyası çərçivəsində hər hansı bir şəxsi qanunlarla bərabər səviyyədə qorumaqdan imtina edə bilməz.

2-ci bölmə. Nümayəndələr ayrı-ayrı ştatlar arasında onların əhalisinin sayına uyğun bölünür, bu say, vergi ödəməyən hindular çıxılmaqla, ştatın bütün sakinlərinin hesablanması yolu ilə müəyyənləşdirilir. Ancaq Birləşmiş Ştatlar Prezidentinin və Vitse-prezidentinin seçimçilərinin seçkilərində, Konqresə Nümayəndələrin, ştatın icra və məhkəmə üzrə vəzifəli şəxslərinin, yaxud ştatın Qanunverici yığıncağı üzvlərinin seçkilərində kişi cinsindən olan, iyirmi bir[xiv] yaşa çatmış və Birləşmiş Ştatların vətəndaşı olan hər hansı bir sakinə səsvermə hüququndan imtina edilərsə, ya da bu hüquq hər hansı şəkildə məhdudlaşdırılarsa (məhdudlaşdırma üsyanda iştiraka, yaxud başqa cinayətə görə deyilsə), bu ştatdan olan nümayəndəlik norması elə nisbətdə azaldılmalıdır ki, kişi cinsindən olan belə vətəndaşların sayı həmin ştatın iyirmi bir yaşa çatmış kişi vətəndaşlarının ümumi sayına uyğun gəlsin.

3-cü bölmə. Qabaqlar Konqres üzvü, yaxud Birləşmiş Ştatların vəzifəli şəxsi, yaxud hər hansı ştatın Qanunverici yığıncağının üzvü, ya da hər hansı ştatın icra, yaxud məhkəmə üzrə vəzifəli şəxsi kimi Birləşmiş Ştatların Konstitusiyasını dəstəkləyəcəyinə and içmiş, sonradan Birləşmiş Ştatlara qarşı qiyamda, yaxud üsyanda iştirak etmiş, ya da onun düşmənlərinə yardım göstərmiş, yaxud dəstək vermiş heç bir şəxs Senator, yaxud Konqresdə Nümayəndə, yaxud Prezidentin və Vitse-prezidentin seçimçisi ola bilməz, ya da Birləşmiş Ştatların, yaxud hər hansı ştatın xidmətində hər hansı mülki, yaxud hərbi vəzifəni tuta bilməz. Ancaq Konqres hər Palatadakı səslərin üçdə ikisi ilə bu məhdudlaşdırmanı aradan götürə bilər.

4-cü bölmə. Birləşmiş Ştatların qanunla icazə verilmiş dövlət borcunun (qiyamın, yaxud üsyanın yatırılmasında xidmətlərə görə təqaüdlərin və mükafatların ödənilməsi üçün edilmiş borclar da daxil olmaqla) qanuniliyinə şübhə edilmir. Ancaq istər Birləşmiş Ştatlar, istərsə də hər hansı ştat Birləşmiş Ştatlara qarşı qiyama, yaxud üsyana kömək göstərməklə bağlı öz üzərinə heç bir öhdəlik, yaxud borcların ödənilməsini götürməməli, ya da hansısa qulun itməsi, yaxud azad edilməsi ilə bağlı hər hansı tələbi tanımamalıdır; bütün belə borclar, öhdəliklər və tələblər qanunsuz və etibarsız sayılmalıdır.

Satış üçün nəzərdə tutulmayıb

5-ci bölmə. Konqresin bu maddəni uyğun qanunların qəbulu ilə yerinə yetirmək hüququ var.

XV Düzəliş (1870)

1-ci bölmə. Birləşmiş Ştatlar vətəndaşlarının səsvermə hüququ danılmamalı, yaxud istər Birləşmiş Ştatlar, istərsə də hər hansı ştat tərəfindən irqi əlamətə, dərinin rənginə, ya da keçmişdə asılı xidmətdə olması ilə bağlı məhdudlaşdırılmamalıdır.

2-ci bölmə. Konqresin bu maddəni uyğun qanunların qəbulu yolu ilə yerinə yetirmək hüququ var.

XVI Düzəliş (1913)

Konqresin istənilən qaynaqdan alınan gəlirlərdən vergilər (onları ştatlar arasında bölüşdürmədən və əhalinin siyahıya alınmasını, yaxud sayılmasını nəzərə almadan) müəyyənləşdirmək və yığmaq hüququ var.

XVII Düzəliş (1913)

Birləşmiş Ştatlar Senatının tərkibinə hər ştatdan onun əhalisinin altı illiyə seçdiyi iki Senator daxildir; hər Senatorun bir səsi var. Hər ştatda seçicilər ştatın Qanunverici yığıncağının daha çoxsaylı Palatasının seçicilərinə irəli sürülən tələblərə cavab verməlidir.

Hər hansı ştatın Senatdakı nümayəndəliyində boş yer yaranarsa, həmin ştatın icra hakimiyyəti belə boş yerin doldurulması üçün seçki keçirilməsi haqqında əmr verir; bu vaxt ştatın Qanunverici yığıncağı həmin ştatın icra hakimiyyətinə əhali boş yeri Qanunverici yığıncağın müəyyənləşdirdiyi qaydada keçirilmiş seçkilər yolu ilə dolduruncayadək müvəqqəti təyinatlar aparmaq səlahiyyəti verə bilər.

Bu düzəliş belə yozulmamalıdır ki, onun təsiri o, hələ Konstitusiyanın hissəsi kimi qüvvəyə minməmişdən seçilmiş Senatorun seçilməsinə, yaxud səlahiyyət müddətinə şamil edilmişdir.

XVIII Düzəliş (1919)

[*1-ci bölmə.* Bu maddənin ratifikasiyasından bir il sonra Birləşmiş Ştatların yurisdiksiyasına tabe olan bütün müəssisələrdə məstedici içkilərin istehlak məqsədilə istehsalı, satışı və daşınması yasaqlanacaq; eləcə də Birləşmiş Ştatlara və onun ərazilərinə göstərilən məqsədlə məstedici içkilərin gətirilməsi də, aparılması da yasaqlanacaq.]

Satış üçün nəzərdə tutulmayıb

2-ci bölmə. Konqresin və ayrı-ayrı ştatların bu maddəni uyğun qanunların qəbulu yolu ilə ortaq yerinə yetirmək hüquqları var.

3-cü bölmə. Bu maddə Konqresin onu bəyənməsi üçün təqdim etdiyi gündən keçən yeddi il ərzində, Konstitusiyada nəzərdə tutulduğu kimi, ayrı-ayrı ştatların Qanunverici yığıncaqları tərəfindən Konstitusiyaya düzəliş şəklində ratifikasiya edilməzsə, qüvvəyə minmir[xv].

XIX Düzəliş (1920)

Birləşmiş Ştatlar vətəndaşlarının səsvermə hüququnu Birləşmiş Ştatlar, yaxud hər hansı ştat cins əlamətinə görə danmamalı, yaxud məhdudlaşdırmamalıdır.

Konqresin bu maddəni uyğun qanunların qəbulu ilə yerinə yetirmək hüququ var.

XX Düzəliş (1933)

1-ci bölmə. Prezidentin və Vitse-prezidentin səlahiyyət müddətləri yanvarın 20-də günorta, Senatorların və Nümayəndələrin səlahiyyət müddətləri isə yanvarın 3-də günorta o illərdə qurtarır ki, bu maddə ratifikasiya edilməmiş olsaydı, həmin müddətlər başa çatardı; elə bu vaxtdan da onların varislərinin səlahiyyət müddətləri başlanır.

2-ci bölmə. Konqres ildə ən azı bir dəfə toplaşır və bu sessiya, Konqres qanunla başqa vaxt müəyyənləşdirməzsə, yanvarın 3-də günorta başlanır.

3-cü bölmə. Seçilmiş Prezident Prezidentin səlahiyyət müddətinin başlanğıcı kimi müəyyənləşdirilmiş vaxtadək ölərsə, seçilmiş Vitse-prezident Prezident olur. Əgər Prezident onun səlahiyyət müddətinin başlanğıcı kimi müəyyənləşdirilmiş vaxtadək seçilməsə, yaxud seçilmiş Prezident bu vəzifəyə namizədlərə irəli sürülmüş tələblərə cavab vermirsə, onda seçilmiş Vitse-prezident Prezident bu tələblərə cavab verincəyədək Prezident kimi fəaliyyət göstərir, seçilmiş Prezident də, seçilmiş Vitse-prezident də onların vəzifələrinə namizədlərə irəli sürülmüş tələblərə cavab vermədikdə Konqres kimin Prezident kimi fəaliyyət göstərəcəyinin qeyd olunduğunu, yaxud Prezident kimi fəaliyyət göstərməli olacaq şəxsin seçilməsi qaydasının müəyyənləşdirildiyi qanun qəbul edir; həmin şəxs Prezident və Vitse-prezident onların vəzifələrinə namizədlərə irəli sürülmüş tələblərə cavab verincəyədək uyğun vəzifəni yerinə yetirir.

4-cü bölmə. Konqres Nümayəndələr Palatasının seçki hüququ ona keçdiyi zaman Prezident seçə biləcəyi şəxslərdən birinin ölüm halı üçün və Senatın seçki hüququ ona keçdiyi zaman Vitse-prezident seçə biləcəyi şəxslərdən birinin ölüm halı üçün qanunda öncədən tədbirlər nəzərdə tuta bilər.

5-ci bölmə. 1-ci və 2-ci bölmələr bu maddənin ratifikasiyasından sonrakı ilk oktyabrın 15-ci günündə qüvvəyə minir.

Satış üçün nəzərdə tutulmayıb

6-cı bölmə. Bu maddə təqdim edildiyi gündən sonrakı yeddi il ərzində ayrı-ayrı ştatların dörddə üçünün Qanunverici yığıncaqları tərəfindən Konstitusiyaya düzəliş kimi ratifikasiya edilməyincə qüvvəyə minmir.

XXI Düzəliş (1933)

1-ci bölmə. Birləşmiş Ştatlar Konstitusiyasına düzəlişlərin on səkkizinci maddəsi bu bölmə ilə ləğv edilir.

2-ci bölmə. Hər hansı ştata, Birləşmiş Ştatların hər hansı ərazisinə, yaxud yiyələndiyi torpağa orada qüvvədə olan qanunları pozmaqla oraya çatdırmaq, yaxud orada istifadə etmək üçün məstedici içkilərin daşınması və idxalı bu bölmə ilə yasaqlanır.

3-cü bölmə. Bu maddə Konqresin onu ştatların bəyənməsi üçün təqdim etdiyi gündən sonrakı yeddi il ərzində, Konstitusiyada nəzərdə tutulduğu kimi, ayrı-ayrı ştatların Konventləri tərəfindən Konstitusiyaya düzəliş kimi ratifikasiya edilməyəndə qüvvəyə minmir.

XXII Düzəliş (1951)

1-ci bölmə. Heç bir şəxs Prezident vəzifəsinə iki dəfədən artıq seçilə bilməz və Prezident vəzifəsini tutmuş, yaxud Prezident seçilmiş başqa şəxsin müddətində iki ildən artıq Prezident kimi fəaliyyət göstərmiş heç bir şəxs Prezident vəzifəsinə bir dəfədən artıq seçilmir. Ancaq bu maddənin qüvvəsi Konqres bu maddəni təklif edərkən Prezident vəzifəsini tutmuş şəxsə şamil edilmir və bu maddənin qüvvəyə mindiyi müddət içərisində Prezident vəzifəsini tutan, yaxud Prezident kimi fəaliyyət göstərən heç bir şəxsə həmin müddətin qalan vaxtında da Prezident vəzifəsini tutmağa, yaxud Prezident kimi fəaliyyət göstərməyə mane olmur.

2-ci bölmə. Bu maddə Konqresin onu ştatların bəyənməsi üçün təqdim etdiyi gündən keçən yeddi il ərzində, Konstitusiyada nəzərdə tutulduğu kimi, ayrı-ayrı ştatların dörddə üçünün Qanunverici yığıncaqları tərəfindən Konstitusiyaya düzəliş kimi ratifikasiya edilməzsə, qüvvəyə minmir.

XXIII Düzəliş (1961)

1-ci bölmə. Birləşmiş Ştatlar hökumətinin yerləşdiyi Kolumbiya dairəsi Konqresin müəyyənləşdirdiyi qaydada Prezidentin və Vitse-prezidentin seçimçilərini təyin edir, onların miqdarı dairənin ştat ola biləcəyi halda seçə biləcəyi (ancaq ən az əhalisi olan ştatın seçdiklərindən qətiyyən çox olmamaqla) Senatorların və Nümayəndələrin Konqresdəki sayına bərabər olur; onlar ştatların təyin etdiyi seçimçilərə əlavə olunurlar, ancaq onlara Prezident və Vitse-prezident seçkilərində ştatların təyin etdiyi seçimçilər kimi baxılmalıdır; onlar dairədə toplaşır və on ikinci düzəlişdə nəzərdə tutulmuş vəzifələri yerinə yetirirlər.

Satış üçün nəzərdə tutulmayıb

2-ci bölmə. Konqresin bu maddəni uyğun qanunların qəbulu ilə yerinə yetirmək hüququ var.

XXIV Düzəliş (1964)

1-ci bölmə. Birləşmiş Ştatlar vətəndaşlarının Prezidentin, yaxud Vitse-prezidentin, Prezidentin, yaxud Vitse-prezidentin seçimçilərinin, ya da Senatorların və Konqresdəki Nümayəndələrin hər hansı ilkin, yaxud başqa seçkilərində səsvermə hüququnu Birləşmiş Ştatlar, yaxud hər hansı ştat hansısa seçki vergisinin, yaxud başqa verginin ödənilməsi ilə bağlı danmamalı, yaxud məhdudlaşdırmamalıdır.

2-ci bölmə. Konqres bu maddəni uyğun qanunların qəbulu yolu ilə yerinə yetirə bilər.

XXV Düzəliş (1967)

1-ci bölmə. Prezident ya vəzifəsindən kənarlaşdırıldığı, ya öldüyü, ya da istefa verdiyi halda Vitse-prezident Prezident olur.

2-ci bölmə. Vitse-prezident vəzifəsi boş qaldıqda Prezident Vitse-prezidenti təyin edir və o, Konqresin hər iki Palatası səslərin əksəriyyəti ilə təsdiqləyəndə vəzifəsinə başlayır.

3-cü bölmə. Prezident Senatın *pro tempore* Sədrinə və Nümayəndələr Palatasının spikerinə öz vəzifəsinin səlahiyyət və borclarını həyata keçirmək halında olmadığı haqda yazılı ərizə verərsə və geriyə məzmunlu yazılı məktubu hələ onlara verməyincə həmin səlahiyyət və borcları Vitse-prezident Prezident vəzifəsini icra edən şəxs kimi yerinə yetirir.

4-cü bölmə. Əgər Vitse-prezident və icra departamentlərinin, yaxud Konqresin qanunla nəzərdə tuta biləcəyi başqa bir orqanın yüksək vəzifəli şəxslərinin çoxu Senatın *pro tempore* Sədrinə və Nümayəndələr Palatasının spikerinə Prezidentin öz vəzifəsinin səlahiyyət və borclarını həyata keçirmək halında olmadığı haqda yazılı ərizələrini versələr, Vitse-prezident gecikdirmədən Prezidentin vəzifəsini icra edən şəxs kimi bu vəzifənin səlahiyyət və borclarını öz üzərinə götürür.

Sonra Prezident Senatın *pro tempore* Sədrinə və Nümayəndələr Palatasının spikerinə bacarıqsızlığının daha mövcud olmadığı haqqında yazılı ərizəsini verdikdə, o öz vəzifəsinin səlahiyyət və borclarının həyata keçirilməsini bərpa edir, bu şərtlə ki, Vitse-prezident və icra departamentlərinin, yaxud Konqresin qanunla nəzərdə tuta biləcəyi başqa belə orqanın yüksək vəzifəli şəxslərinin çoxu dörd gün müddətində Senatın *pro tempore* Sədrinə və Nümayəndələr Palatasının spikerinə Prezidentin öz vəzifəsinin səlahiyyət və borclarını həyata keçirmək halında olmadığı haqda yazılı ərizə versinlər. Bundan sonra Konqres həmin məqsədlə yığışaraq (o vaxt sessiyası keçirilmirsə) qırx səkkiz saat içərisində məsələni həll edir. Konqres sonuncu yazılı ərizəni aldığının iyirmi bir günündə (Konqresin sessiyası bu vaxt keçirilmirsə), yaxud Konqresin toplaş-

Satış üçün nəzərdə tutulmayıb

dığının iyirmi bir günündə hər iki Palatanın səslərinin üçdə ikisi ilə Prezidentin öz vəzifəsinin səlahiyyət və borclarını həyata keçirmək halında olmadığını müəyyənləşdirsə, Vitse-prezident onları Prezident vəzifəsini icra edən şəxs kimi həyata keçirməkdə davam edir; əks halda Prezident öz vəzifəsinin səlahiyyət və borclarını həyata keçirməyi yenidən bərpa edir.

XXVI Düzəliş (1971)

1-ci bölmə. Birləşmiş Ştatların on səkkiz yaşdakı və daha yaşlı vətəndaşlarının səsvermə hüququnu Birləşmiş Ştatlar, yaxud hər hansı ştat yaşdan asılı olaraq danmamalı, yaxud məhdudlaşdırmamalıdır.

2-ci bölmə. Konqresin bu maddəni uyğun qanunların qəbulu ilə yerinə yetirmək hüququ var.

XXVII Düzəliş (1992)

Nümayəndələr Palatası üzvlərinin növbəti seçkiləri keçirilməyincə Senatorların və Nümayəndələr Palatası üzvlərinin xidmətlərinin əvəzinin ödənilməsini dəyişdirən heç bir qanun qüvvəyə minməməlidir.

Mənbə: 1 United States Code Annotated 25 (1987).

Satış üçün nəzərdə tutulmayıb

07. 10 Saylı Federalist (1787)

Konstitusiya layihəsinin hətta Filadelfiya Konventi kimi nüfuzlu yığıncaq tərəfindən tərtibi də onun hökmən qəbul ediləcəyinə zəmanət verə bilməzdi. Hər bir ştatda onun ratifikasiyasını rədd edən, eləcə də dəstəkləyən qruplar mövcud idi. İnqilab ərəfəsindəki illərdə olduğu kimi indi də amerikalılar təklif olunan dövlət quruluşunun məziyyətləri və qüsurları barədə öz qəzetlərində geniş diskussiya açmışdılar.

Konstitusiyanın tərəfdarları «Federalistlər» adını aldılar, halbuki onları "Dövlətçilər" adlandırmaq daha düzgün olardı, belə ki, onların irəli sürdüyü əsas dəlil – güclü ümummilli dövlətin zəruriliyi idi. "Federalistlər"in "antifederalistlər" adı ilə tanınan əleyhdarları əslində onlardan daha çox dərəcədə federalist idilər, belə ki, ölkənin konfederativ dövlət quruluşuna dəstək verirdilər. Federalistlər qələbə çaldığına görə, tarix onların əleyhdarlarına çox da ittifaq göstərməmişdi və bu yaxınlara qədər antifederalistlərə bir məşhur essedə deyildiyi kimi, "inamı zəif olan" insanlar kimi baxırdılar.

Sonralar tarixçilər yenidən antifederalistlərin dəlillərini saf-çürük edərkən, onların xeyli mühüm tələblərlə çıxış etdiyini gördülər. Məsələn, onlar Hüquqlar haqqında Billin və tiraniyaya yol verməmək üçün hakimiyyətin məhdudlaşdırılması ilə bağlı məsələlərin Konstitusiyada öz əksini tapmadığını əsaslı nöqsan kimi göstərirdilər. Lakin diskussiyanın gedişində antifederalistlər öz dəlillərini bütövlükdə Konstitusiyaya qarşı yönəltdilər, nəticədə, federalistlər Konstitusiyanın üstünlüklərini asanlıqla sübuta yetirərək, onun ratifikasiyası uğrunda geniş kampaniyaya başladılar.

Konstitusiyanın xeyrinə olan ən məşhur dəlillər Nyu-Yorkda Ceyms Medison, Aleksandr Hamilton və Con Cey tərəfindən "Publius" təxəllüsü ilə dərc edildi. Bu esselər Konstitusiyanın ən nüfuzlu təfsiri sayılır və hətta bu gün də Konstitusiyanın mənasını araşdıran alim və hüquqşünaslar həmin esselərə istinad edirlər.

Bu esselərdən ən məşhuru Ceyms Medison tərəfindən qələmə alınmış və «Federalist»in 10-cu sayında dərc edilmişdi. Bu essedə Medison respublikanın klassik təhlilini aparır. Rəqiblər deyirdilər: Birləşmiş Ştatlar ərazicə çox böyükdür və orada hədsiz çox qrup və "fraksiya" var və onları vahid hökumətin sayəsində demokratik qaydada idarə etmək mümkünsüzdür. Medison ölkədə böyük sayda "fraksiyaların" olduğunu etiraf

Satış üçün nəzərdə tutulmayıb

edir və onların çox vaxt bir-birinə əngəl törətdiklərini təəssüflə qeyd edirdi. Bundan əlavə belə bir problem da var idi ki, klassik konstitusiya nəzəriyyəsinə əsasən, çoxluq həmişə ağalıq edir, özü də həmişə azlığın mənafeləri hesabına ağalıq edir. Medison isə israr edirdi ki, Konstitusiyada olan respublikaçılıq prinsipləri insanlara öz baxışlarını ifadə etmək və hökumətə təsir göstərmək üçün yetərincə imkanlar verir. Çoxluğun azlığı əzməsi əvəzinə müxtəlif qruplar öz aralarındakı fikir ayrılıqlarını tənzimləyə və elə bir qərara gələ bilərlər ki, bu halda çoxluq əvvəlki kimi həlledici gücə malik olacaq, amma eyni zamanda, azlığa da xeyli diqqət yetiriləcək. Beləliklə, fraksiyaların böyük çoxluğu onlardan birinin digərləri üzərində nəzarətini istisna edəcək. Bu tənzimləməni mümkün edən vasitə isə siyasət, yəni idarəetmə sənəti olacaqdır.

Əlavə məlumat üçün oxuyun: Gordon S. Wood, The Creation of the American Republic, 1776-1787 (1969); George Wills, Explaining America: The Federalist (1981); S. Rufus Davis, The Federal Principle: A Journey through Time in Quest of Meaning (1978); Charles R. Kesler, ed., Saving the Republic: The Federalist Papers and the American Founding (1987); Herbert J. Storing, What the Anti-Federalists Were For (1981); and the classic Douglas Adair, "The Tenth Federalist Revisited," William & Mary Quarterly 8 (1951): 48.

10 SAYLI "FEDERALİST" (1787)

Yaxşı təşkil olunmuş ittifaqın vəd etdiyi çoxsaylı üstünlüklər içərisində ittifaqın fraksiyaçılığın vurduğu zərərin qarşısını almaq və onu nəzarətdə saxlamaq qabiliyyəti daha dəqiq işlənməyə layiqdir. Xalq hakimiyyətinin tərəfdarı heç vaxt onun xarakteri və taleyi üçün xalq hökumətlərinin bu təhlükəli qüsura meyilliliyi haqqında düşündüyü andakı qədər narahat olmur. Ona görə də o, xalq hakimiyyəti prinsiplərini pozmadan bu xəstəliyin sağaldılmasına yardım edən hər hansı planı layiqincə qiymətləndirərsə, səhv etməz. Dövlət şuralarındakı qeyri-sabitlik, ədalətsizlik və hərc-mərclik həqiqətən hər yerdə xalq hakimiyyətini məhvə gətirib çıxaran dəhşətli xəstəliklərdir; bu qüsurlar azadlığın əleyhdarlarının bəlağətli çıxışları üçün sevimli mövzulardan olmaqda davam edir.

Satış üçün nəzərdə tutulmayıb

Amerika konstitusiyalarının qədim, eləcə də müasir xalq hakimiyyəti modellərində həyata keçirdikləri mühüm təkmilləşdirmələr, əlbəttə, bizi çox da heyrətə salmamalıdır; onların istədiyimiz, yaxud gözlədiyimiz kimi bu təhlükədən yan keçməyə imkan verəcəyinə ümid etməyə heç bir əsas yoxdur. Daha diqqətli və ləyaqətli vətəndaşlarımızın (adətən, cəmiyyətə və insana inanan dostlarımızın, ictimai və şəxsi azadlıq tərəfdarlarının) hər yerdən şikayətləri gəlir ki, hökumətimiz son dərəcə qeyri-sabitdir, rəqabət aparan partiyaların qarşıdurmasında heç kəs ümumi mənafe haqqında düşünmür, görülən işlər çox vaxt ədalətli tələbləri və azlıqda olan partiyanın hüquqlarını nəzərə almaqla deyil, maraqlı tərəfin, hakimiyyətdəki çoxluğun üstün qüvvələrinə uyğun həyata keçirilir. Bizim bu şikayətlərin heç bir ciddi əsasının olmamasını istəməyimizə baxmayaraq, tanınmış şəxslərin şəhadətləri onların müəyyən dərəcədə haqlı olduqlarını inkar etməyə imkan vermir... Əsasən, bəlkə də bütövlükdə bu, qeyri-sabitliyin və ədalətsizliyin təsiridir, fraksiyaçılıq dövlət idarəçiliyimizi zəhərləyir.

Fraksiya deyilərkən mən vacib deyil, tamın çoxluğunu, yaxud azlığını təşkil edən vətəndaşların müəyyən sayını başa düşürəm. Onlar başqa vətəndaşların mənafeyinə, yaxud icmanın vahid mənafeyinə yaramayan müəyyən ümumi istək, yaxud mənafe impulsu ilə birləşir və fəaliyyət göstərirlər.

Fraksiyaların ziyanından xilas olmağın iki üsulu var: birincisi, onların səbəblərinin aradan qaldırılması; ikincisi, fəaliyyətlərinə nəzarət edilməsi.

Fraksiyaların yaranma səbəblərinin aradan qaldırılmasının da iki yolu var: birincisi, onların mövcud olmasının zəruri şərtinin — azadlığın məhv edilməsi; ikincisi, həmin mülahizə, meyil və maraqların hər bir vətəndaşa verilməsidir.

Birinci yol xəstəliyin özündən daha pisdir. Bunu bundan dəqiq demək olmazdı. Fraksiya üçün azadlıq alov üçün hava kimidir. Bu şərait olmasa, o dərhal aradan çıxar. Lakin yalnız fraksiyaların meydana çıxmasına şərait yaratdığına görə azadlığın məhv olunması heç nə ilə müqayisə edilə bilməyən axmaqlıq olardı. Bu, yalnız alova dağıdıcı qüvvə verdiyinə görə bütün canlılar üçün zəruri olan havanın yox edilməsini istəmək kimi bir şeydir.

Birinci yol ağlasığan olmadığı kimi, ikinci yolun da həyata keçirilməsi mümkün deyildir. Nə qədər ki insanların maraqları maneələrlə qarşılaşmır və onlar öz mövqelərindən çıxış etməkdə azaddırlar, o qədər də çoxsaylı müxtəlif fikirlər yaranacaqdır. Nə qədər ki insanın məqsədi və özünəvurğunluğu arasında əlaqə var, onun düşüncəsi və istəyi bir-birinə əkstəsirə malik olacaq və birinci sonuncunun can atacağı hər şeyə qarşı etiraz

Satış üçün nəzərdə tutulmayıb

edəcək. Şəxsi hüquqların törəndiyi insan xarakterlərinin müxtəlifliyi mənafelərin birləşdirilməsinə keçilməz maneə deyildir. Bu hüquqların müdafiə edilməsi hökumətin başlıca vəzifəsidir. Mülkiyyətin əldə olunması ilə bağlı müxtəlif və qeyri-bərabər hüquqların müdafiə olunması dərhal mülkiyyətin digər dərəcə və formalarının qazanılması imkanını da irəli sürür: onların müvafiq sahibkarların hiss və baxışlarına təsiri ilə də cəmiyyətin müxtəlif mənafe və qruplara bölünməsi baş verir...

Beləliklə, ümumi nəticəyə gəlirik ki, fraksiyaların yaranması səbəblərini aradan qaldırmaq mümkün deyildir; dərdə çarə qılmaq üçün onların fəaliyyətinə nəzarət mexanizmini tapmaq lazımdır.

Əgər fraksiya əksəriyyət təşkil etmirsə, dərman — çoxluğa adi səsvermə yolu ilə onun zərərli təsirini aradan qaldırmağa imkan verən respublika prinsipidir. Bu yol inzibati qurumlar üçün çətinliklər törədə, cəmiyyətdə sarsıntılar yarada bilər, lakin o, zor tətbiq etməyə və onu Konstitusiyanın müddəaları ilə pərdələməyə imkan verməyəcəkdir. Fraksiya özündə çoxluğu ehtiva etdikdə isə xalq hökumətinin forması belə hökumətin məqsədləri, yaxud mənafeləri naminə həm ictimai mənafeyin, həm də digər vətəndaşların hüquqlarının qurban verilməsinə imkan verə bilər. Bu cür fraksiyanın təhdidlərindən ictimai mənafe və vətəndaşların şəxsi hüquqlarının qorunması, eyni zamanda xalq hökumətinin ruh və formasının qorunub saxlanılması böyük amalımızdır. İzn verin əlavə edim ki, yalnız bu böyük vəzifənin yerinə yetirilməsi bu idarəetmə formasını şərəfsizliyə düçar olmaqdan xilas edə bilər və yalnız sonra o, istifadə olunmaq üçün bütün dünyaya təqdim edilə bilər.

Bu məqsədə hansı vasitələrlə nail olmaq olar? Aydındır ki, göstərilən iki vasitədən biri ilə: ya əksəriyyətin eyni istək və maraqlara malik olmasına maneə törədilməməlidir, ya da bu cür istək, yaxud maraqlara malik olan əksəriyyət sayı və yerləşməsi baxımından elə artırılmalıdır ki, aralarında razılığa gələ və təzyiq mexanizmini həyata keçirə bilməsin.

Əgər istək və imkan üst-üstə düşmürsə, biz yaxşı bilirik ki, əxlaq da, dini motivlər də nəzarət üçün tələb olunan vasitəyə çevrilə bilmir. Onlar fərdə qarşı edilən ədalətsizlik və zora mane ola bilmir və adamların sayı artdıqca onların səmərəliliyi azalır, yəni kifayət etmir.

Bu baxımdan nəticə çıxarmaq olar ki, mənim dövlətin idarə olunmasında birbaşa iştirak edən və az sayda olan vətəndaşların birliyi kimi müəyyən etdiyim təmiz demokratiya[16] fraksiyaların vurduğu zərərə qarşı dərman tapa bilməz. Ümumi istək, yaxud mənafe, demək olar ki, hər bir halda əksəriyyətlə dəstəklənəcək; birlik və razılıq idarəetmə formasının özündən irəli gələcəkdir və burada elə bir şey yoxdur ki, daha zəif partiyanın, yaxud arzuedilməz şəxsin qurban verilməsi istəyini üzə çıxara bilsin. Ona görə

Satış üçün nəzərdə tutulmayıb

də bu cür demokratiya həmişə həyəcanlar və ixtilaflar tamaşasına dönəcəkdir; o, heç vaxt şəxsi təhlükəsizliklə, yaxud mülkiyyət hüququ ilə uyğunlaşa bilməyəcəkdir... Bu növ dövlətin tərəfdarı olan siyasətçi-nəzəriyyəçilər səhvən hesab edirlər ki, siyasi hüquqlar baxımından insanların tam bərabərliyinə nail olduqdan sonra onların mülkiyyət, istək, fikir və meyillərinin də eyniləşdirilməsinə və bərabərliyinə nail olacaqlar.

Respublika (bu ad altında mən nümayəndəlik sisteminin mövcud olduğu dövləti nəzərdə tuturam) bizə başqa perspektiv açır və o, axtardığımız dərmanı verəcəkdir. Gəlin onu təmiz demokratiyadan fərqləndirən müddəaları nəzərdən keçirək. Biz burada həm müalicə mexanizmini, həm də ittifaqımızın təbiətindən irəli gəlməli olan səmərəliliyi anlamalıyıq.

Demokratiya və respublika arasında iki böyük fərq mövcuddur: birincisi, hakimiyyətin vətəndaşların əksəriyyəti tərəfindən seçilmiş azlığa göndərilməsindən ibarətdir; ikincisi, bizdə vətəndaşların sayı çoxdur, ölkənin ərazisi genişdir və bu əksəriyyət onlara şamil edilə bilər.

Bir tərəfdən, rəyin xalq nümayəndələrinin seçkili orqanından keçməsi yolu ilə zənginləşdirilməsi və ümumiləşdirilməsi birinci fərqin təsirliliyini artırır; xalq nümayəndələrinin müdrikliyi ölkənin həqiqi mənafeyini daha yaxşı fərqləndirə bilərdi, onların vətənpərvərliyi və ədalət tərəfdarı olmaları isə ötəri, yaxud şəxsi mülahizələrə görə bu əsas prinsiplərin qurban verilməsi ehtimalını xeyli azaldacaq... Digər tərəfdən, tamamilə başqa nəticə ilə də üzləşmək olar. Fraksiyaçılıq meyillərinə, bəd fikirlərə, yaxud çirkin niyyətləri olan adamlar çəkişmə, korrupsiya, yaxud digər vasitələrlə əvvəlcə kifayət qədər səs toplaya, sonra isə adamların mənafeyinə xəyanət edə bilərlər.

Əsas məsələ ondan ibarətdir ki, həm kiçik, həm də genişləndirilmiş respublikalarda ictimai mənafeyin sadiq müdafiəçilərinin seçilməsi üçün daha əlverişli şərait yaranır və bu, iki aydın mülahizə ilə respublikanın üstünlüyünü göstərir.

Birincisi, qeyd edək ki, respublikaların nə qədər kiçik olmasından asılı olmayaraq nümayəndələrin sayı elə müəyyən həddə çatdırılmalıdır ki, onların bəzilərinin arasında sövdələşməyə imkan verilməsin və respublikaların nə qədər böyük olmasından asılı olmayaraq bu nümayəndələrin sayı onların çoxluğunun hərc-mərcliyə gətirib çıxaracağı müəyyən həddi keçməməlidir...

Sonra, kiçik respublikaya nisbətən böyük respublikada nümayəndə daha çox sayda vətəndaş tərəfindən seçildiyinə, seçkilərin kifayət qədər tez-tez keçirildiyinə görə layiq olmayan namizədlərin mübarizə aparması çətin olacaqdır və adamlar öz daha azad səslərini yəqin ki, daha ləyaqətli,

Satış üçün nəzərdə tutulmayıb

daha düzgün danışan və daha cəlbedici üstünlükləri olan namizədlərə verəcəklər.

Etiraf etməliyik ki, bu və başqa halların çoxunda hər iki tərəf üçün əngəllərin meydana gəlməsi ehtimalı var. Seçicilərin sayını xeyli artırmaqla elə vəziyyət yaratmış olarıq ki, nümayəndə onların bütün yerli problemləri və kiçik maraqları ilə az tanış ola bilər; lakin onların sayını həddən artıq azaltmaqla siz nümayəndəni xırda məsələlərə daha çox cəlb edib onun böyük və ümummilli məqsədləri anlamasını və onlara qulluq etməsini məhdudlaşdıra bilərsiniz. Federal Konstitusiya bu baxımdan xoşbəxt ahəngdarlığı formalaşdırır; böyük və ümumi mənafe milli, yerli və konkret mənafe isə ştatın qanunverici məclisinə aid edilir...

Fraksiya liderlərinin təsiri onların konkret ştatlarının hüdudlarında odu alışdıra bilər, lakin yanğını digər ştatlara yaya bilməyəcəkdir; dini sekta Konfederasiyanın hər hansı bir hissəsində siyasi fraksiyaya çevrilə bilər, lakin onun bütün ərazisinə səpələnmiş digər sektalar Milli Şuranı bu təhlükədən qorumalıdır — kağız pullara qarşı hiddət, borcların ləğv edilməsi, mülkiyyətin bərabər bölünməsi, yaxud istənilən digər yanlış, ya da pis layihə ittifaqın hər hansı üzvünə nisbətən bütün ittifaqa yayılmaq imkanına daha az malik olacaqdır; bu cür xəstəlik də bütövlükdə ştatı deyil, hansısa qraflığı, yaxud dairəni əhatə edə bilər.

Beləliklə, ittifaqın geniş və möhkəm quruluşu üçün biz respublika tipli dövlətə daha çox xas olan xəstəliyə qarşı respublika müalicə üsulunu seçirik. Və respublikaçı olaraq keçirdiyimiz məmnunluq və iftixar hissləri ilə eyni dərəcədə biz federalist ruhumuzu və xarakterimizi qətiyyətlə qoruyub saxlamalıyıq.

Publius

Mənbə: Clinton Rossiter, ed., The federalist Paper (1961), 77-84

Satış üçün nəzərdə tutulmayıb

08. Məhkəmə Sistemi Haqqında Akt (1789)

Konqresin qəbul etdiyi ilk qərarlardan biri 1789-cu ildə, ölkənin vahid məhkəmə sisteminin binasını qoymuş Məhkəmə Sistemi Haqqında Aktın qəbul edilməsi oldu. Konstitusiyaya əsasən, məhkəmə hakimiyyəti bir Ali Məhkəmədən və Konqresin yaratdığı məhkəmələrdən ibarət olmalı idi. Lakin Konstitusiyanın Konqresin səlahiyyətlərini dürüst müəyyən edən müddəalardan fərqli olaraq sənədin 3-cü maddəsində məhkəmələrin səlahiyyətləri xeyli yayğın formada ifadə edilmişdi.

Faktiki olaraq, yeni məhkəmə sisteminin yaradılması işində Konqresin istinad edə biləcəyi bir sənəd yox idi. Halbuki, məsələn, Britaniyada məhkəmənin üç budaqlı sistemi – Ümumi Şikayətlər Məhkəməsi (xüsusi hüquq), Kral skamyası Məhkəməsi (cinayət hüququ), Lord-kansler Məhkəməsi (ədalət hüququ), onların bir-birindən asılı olmamasını nəzərdə tuturdu, onların səlahiyyətləri isə Kral fərmanından irəli gəlirdi. Hətta koloniyalar dövründə Amerika məhkəmələri İngilis presedent hüququna istinad etdikləri vaxtlarda da, sərhədyanı birliklərin Britaniya praktikasına riayət etmək üçün hərdən nə maliyyəsi, nə də savadlı mütəxəssisləri çatışırdı. Əslində, Konqres öz işinə quru yerdən başlamışdı. Ən uğurlu qərarlardan biri – hüquq Məhkəmələrini *(Court of Law)* və Ədalət Məhkəmələrini *(Equity)*[17] vahid məhkəmə sistemi halında birləşdirmək idi ki, bu da ədliyyənin daha effektli şəkildə həyata keçirilməsini təmin etmişdi.

Konqresdə debatlar Konstitusiyaya əsasən hansı səlahiyyətin ştatlardan federal hökumətə keçməsi məsələsi ətrafında gedirdi. Ştatların böyük müstəqilliyinin tərəfdarları yeni məhkəmələrə həddən artıq böyük səlahiyyətlər verilməsinə etiraz etdikləri halda federalistlər bildirirdilər ki, Konfederasiya dövründə aşkar nəzərə çarpan qüsurları yalnız güclü federal məhkəmə hakimiyyəti aradan qaldıra bilər.

İndi dönüb keçilən yola nəzər salarkən təsəvvür etmək belə çətindir ki, möhkəm federal məhkəmələr sistemi – Ştat məhkəmələrinin qərarlarına yenidən baxmağa, lazım gəldikdə isə bunları ləğv etməyə qabil olan sistem olmasaydı, Əsas Qanunun 6-cı maddəsində öz əksini tapmış Konstitusiyanın alili-

Satış üçün nəzərdə tutulmayıb

yi prinsipini necə qoruyub saxlamaq olardı. Başqa cür olsaydı, ölkə 13 müstəqil məhkəmə sistemi və onları vahid standarta gətirmək üçün vəsaitin yoxluğu ilə üzbəsurət qalacaqdı. 1832-ci ildə federal məhkəmələrə öz münasibətini bildirən Ceyms Medison qeyd etmişdi: "Mən indiyə qədər anlaya bilməmişəm ki, Konstitusiyanın özü necə ölkənin əsas qanunu ola bilib, onun bütün ərazisində federal hakimiyyət necə qorunub saxlana bilib və bu Konstitusiya olmadan özbaşınalığın və dağınıqlığın qarşısını necə almaq olardı".

Birləşmiş Ştatların məhkəmələri, eləcə də hakimiyyətin qanunvericilik və icra budaqları həqiqətən də ən müxtəlif insanları özündə birləşdirmiş demokratik idarəetmə sisteminin əsas alətlərindən biri oldu.

Əlavə məlumat üçün oxuyun: D.F. Henderson, Courts for a New Nation (1971); Julius Goebel, Antecedents and Beginnings to 1801 (1971); the first volume of the Holmes Devise, History of the Supreme Court of the United States; and Maeva Marcus, ed., Origins of the Federal Judiciary (1992).

MƏHKƏMƏ SİSTEMİ HAQQINDA AKT (1789)

Maddə 1. Qərara alınır ki, Birləşmiş Ştatların Ali Məhkəməsi sədrdən və altı hakimdən ibarət olmalıdır və onlardan dörd nəfərinin iştirakı yetərsayı təmin edəcəkdir. Hakimlər ildə iki dəfə görüşəcəklər: fevral ayının birinci bazar ertəsi günü və avqust ayının birinci bazar ertəsi günü. Hakimlər öz vəzifələrinin icrasına başlama tarixlərindən asılı olaraq biri digərinə nisbətən böyük hesab ediləcəklər və əgər iki və ya daha artıq hakim üçün bu tarixlər üst-üstə düşərsə, onda böyüklük həmin hakimlərin yaşına əsasən müəyyən ediləcəkdir.

Maddə 2. Birləşmiş Ştatlar aşağıdakı kimi adlanan 13 dairəyə *(district)* bölünəcəkdir...

Maddə 3. Hər bir dairədə, həmin dairədə yaşayan və Dairə hakimi olan bir hakimdən ibarət olan, ildə dörd iclas keçirəcək Dairə məhkəməsi *(District Court)* fəaliyyət göstərəcəkdir…

Satış üçün nəzərdə tutulmayıb

Maddə 4. Yuxarıda göstərilən dairələr, Men və Kentukki istisna olmaqla Şərq, Orta və Cənub regionu *(circuit)* adlanacaq və üç məhkəmə regionuna bölünəcəklər... Məhkəmə regionunun hər birində Region Məhkəməsi *(Circuit Court)* adlanan və Ali Məhkəmənin iki hakimindən və həmin dairənin Dairə hakimindən *(District judge)* ibarət olan məhkəmənin iclasları ildə iki dəfə keçiriləcəkdir. Hakimlərdən hər hansı ikisinin iştirakı yetərsay üçün kifayətdir.

Dairə hakimi onun qəbul etdiyi qərarın və ya yol vermiş olduğu səhvin əleyhinə apelyasiya zamanı səsvermə hüququna malik olmayacaq, lakin o özünün bu cür qərar çıxarmasının səbəblərini məhkəməyə təqdim edə biləcəkdir…

Maddə 9. Dairə məhkəmələri (bir neçə ştatın məhkəmələri müstəsna olmaqla) onların ərazi hüdudlarında və ya ərazi sularında törədilmiş Birləşmiş Ştatların hakimiyyət orqanları tərəfindən baxıla biləcək cinayətlərə və pozuntulara görə təyin edilən cəza ən çoxu 30 qamçı zərbəsi, yaxud 100 dollardan çox olmamaqla cərimə, yaxud 6 aydan çox olmamaqla həbs cəzası şəklində olduğu halda cinayətlər və pozuntular barəsində işlərə baxacaqlar; admirallıq və dəniz hüququ ilə bağlı bütün mülki işlərə, o cümlədən Birləşmiş Ştatlarda vergitutma, gəmiçilik və ticarətlə bağlı mülki işlərə baxmaq üçün müstəsna yurisdiksiyaya malik olacaqlar... Onlar həmçinin başqa ştatların və ya Region Məhkəmələri ilə yanaşı, beynəlxalq hüququn və Birləşmiş Ştatların beynəlxalq müqavilələrinin pozulması ilə əlaqədar məhkəməyə bütün müraciət halları ilə bağlı səlahiyyətlərə malik olacaqlar. Onlar həmçinin Ümumi hüquq sahəsində, ittihamçı qismində Birləşmiş Ştatların çıxış etdiyi və məhkəmə xərcləri çıxıldıqdan sonra mübahisəli məbləğ ən azı 100 dollar olduqda, bütün iddia ərizələrinə baxmaq üçün yuxarıda göstərilən bütün səlahiyyətlərə malik olacaqlar. Onlar hamısı, bəzi ştatların məhkəmələrindən başqa, yuxarıda təsvir edilən hüquq pozuntuları müstəsna olmaqla, konsullara və vitse-konsullara qarşı bütün iddia ərizələrinə baxmaq üçün müstəsna səlahiyyətə malik olacaqlar. Dairə məhkəmələrində işlərə, admirallıq və dəniz hüququ ilə bağlı mülki işlər müstəsna olmaqla, andlı iclasçılar məhkəməsi tərəfindən baxılacaqdır.

Maddə 11. Region məhkəmələri, eləcə də bəzi ştatların məhkəmələri, Ümumi Hüquq və Ədalət Hüququ sahəsində mübahisəli məbləğin (məhkəmə xərcləri çıxıldıqdan sonra) 500 dollardan çox olduğu və iddiaçı və ya ərizəçi qismində Birləşmiş Ştatların çıxış etdiyi; yaxud digər dövlətin təbəəsinin tərəf olduğu; yaxud tərəflərdən biri bu ştatın vətəndaşı, digəri isə başqa ştatın vətəndaşı olduğu mülki xarakterli bütün iddia ərizələrinə baxmaq üçün ilkin səlahiyyətlərə *(original cognizance)* malik olacaqlar. Region məhkəmələri bu Aktda və Birləşmiş Ştatların qanunlarında xüsusi

Satış üçün nəzərdə tutulmayıb

qeyd edilmiş hallar istisna olmaqla, cinayətlər və hüquq pozuntuları barədə bütün (Birləşmiş Ştatlar hökumətinin baxa biləcəyi) işlərə baxmaq üçün müstəsna səlahiyyətə malik olacaqlar. Onlar baxmaq səlahiyyətlərinə malik olduğu cinayətlər və hüquq pozuntuları barədə işlərə münasibətdə Dairə Məhkəməsi ilə eyni yurisdiksiyaya malik olacaqlar. Region Məhkəməsi həmçinin, aşağıda göstərilən qaydalar və məhdudiyyətlər nəzərə alınmaqla, Dairə məhkəmələri ilə müqayisədə üstün apelyasiya yurisdiksiyasına malik olacaqlar...

Maddə 13. Ali Məhkəmə, Ştatla onun vətəndaşları arasında, həmçinin, bir Ştatla başqa Ştatın vətəndaşları arasında, eləcə də başqa dövlətin təbəələri arasında yaranmış mübahisələr istisna olmaqla, Ştatın tərəf olduğu bütün mülki mübahisələrdə müstəsna yurisdiksiyaya malik olacaqdır; başqa dövlətin təbəələri arasında mübahisələrin tənzimlənməsində Ali Məhkəmə ilkin *(original)*, lakin müstəsna olmayan yurisdiksiyaya malik olacaqdır.

Ali Məhkəmə həmçinin səfirlərin və digər diplomatik qulluqçuların, yaxud onların ailə üzvlərinin və ya ev xidmətçilərinin iştirakı ilə bütün iddia ərizələrinə və çəkişmələrə münasibətdə müstəsna yurisdiksiyaya, yəni beynəlxalq hüquq sahəsində Hüquq Məhkəməsinin *(Court of law)* icraatında və ya baxışında olan bütün iddia ərizələrinə və çəkişmələrə baxmaq üçün müstəsna yurisdiksiyaya malik olacaqdır; eləcə də səfirlər və ya digər diplomatik qulluqçular tərəfindən verilmiş bütün iddia şikayətlərinə, yaxud tərəflərdən birinin konsul və ya vitse-konsul olduğu işlərə münasibətdə ilkin, lakin müstəsna olmayan yurisdiksiyaya malik olacaqdır.

Ali Məhkəmədə Birləşmiş Ştatların vətəndaşlarının iştirakı ilə bütün işlərə andlı iclasçılar məhkəməsi tərəfindən baxılacaqdır.

Ali Məhkəmə Region məhkəmələri və bu Aktda göstərilən bir neçə ştatın məhkəmələri ilə müqayisədə apelyasiya yurisdiksiyasına malik olacaqdır; admirallıq məhkəməsi və ya dəniz yurisdiksiya məhkəməsi qismində çıxış edərək Dairə məhkəmələrinə məhkəmə icraatına xitam verilməsi barədə sərəncamlar vermək səlahiyyətinə malik olacaqdır; qanunların tətbiq edilməsinin prinsip və ənənələrində nəzərdə tutulmuş hallarda Birləşmiş Ştatlarda təyin edilmiş hər hansı başqa hakimlər və ya dövlət vəzifəsi tutan şəxslər üçün icrası məcburi olan sərəncamlar vermək səlahiyyətinə malik olacaqdır…

Maddə 25. Ştatın Ali Hüquq Məhkəməsinin və ya Ədalət Məhkəməsinin qəti qərarı və ya qətnaməsi Birləşmiş Ştatların ərazisində qüvvədə olan sazişi, qanunu və səlahiyyətləri ləğv etdikdə, yaxud qəbul edilmiş qərar Ştatın qanunun Birləşmiş Ştatların qanunvericiliyinə, sazişlərinə və ya Konstitusiyasına müvafiq olmasını təsdiq etdikdə, yaxud Konstitusiyanın

Satış üçün nəzərdə tutulmayıb

və ya sazişin, yaxud qanunun hər hansı müddəası əsasında, yaxud Birləşmiş Ştatların verdiyi səlahiyyətlər əsasında tərəfin müəyyən hüquqlar, imtiyazlar, güzəştlər əldə etmək və ya hər hansı vəzifələri yerinə yetirməkdən azad edilmək barədə tələbi mübahisə obyekti olduqda, Ştatın Ali Ümumi Hüquq Məhkəməsinin və ya Ştatın Ədalət Məhkəməsinin qəbul etdiyi qərar isə onları rədd etdikdə, həmin iddia üzrə qəti qərara və ya qətnaməyə Birləşmiş Ştatların Ali məhkəməsi tərəfindən yenidən baxıla, rədd və ya təsdiq edilə bilər, bu, həmin iddiaya baxmış və onun barəsində qərar çıxarmış məhkəmənin sədri, hakimi, Ədalət Məhkəməsinin sədri və ya Birləşmiş Ştatların Ali Məhkəməsinin hakimi tərəfindən eyni qaydada və eyni müddəalara müvafiq olaraq imzalanmış müvafiq göstəriş verilməsi yolu ilə edilə bilər; bu sərəncam Region Məhkəməsi tərəfindən çıxarılmış qərarla eyni qüvvəyə malik olacaq, işə yenidən baxılması proseduru isə həmin işə Region Məhkəməsi tərəfindən baxılması proseduru ilə eyni olacaq, o şərtlə ki, əgər həmin iş əlavə istintaq mərhələsindən keçmişdirsə, Ali Məhkəmə, öz mülahizəsinə əsasən, işi əlavə istintaqa göndərmək əvəzinə, icrası məcburi olan qəti qərar qəbul etmək hüququna malikdir.

Lakin Konstitusiyaya, sazişlərə, qanunvericiliyə və qaydalara müvafiq surətdə işin titul vərəqində göstərilənlərdən başqa hər hansı digər səhvlər yuxarıda göstərilən prosedura müvafiq olaraq həmin işə yenidən baxılması üçün kafi əsas hesab edilməyəcəkdir.

Mənbə: U.S. Statutes at Large 1 (1789): 73.

Satış üçün nəzərdə tutulmayıb

09. Marberi Medisona Qarşı (1803)

ABŞ Ali Məhkəməsinin sayca üçüncü sədri olan Con Marşall *(John Marshall)* ümumi rəyə görə ölkənin məhkəmə sisteminin təşkilində, Corc Vaşinqtonun icra hakimiyyətinin formalaşdırılmasında oynadığı rolu oynamışdır.

Vaşinqtonun və onun varisi Con Adamsın prezidentliyi dövründə yalnız hakimiyyətdə olan Federalistlər partiyasının üzvləri hakim təyin edilirdilər, özü də "yaxşı davranış" şərtilə ömürlük təyin edilirdilər.

Tomas Ceffersonun başçılıq etdiyi müxalif Respublikaçılar partiyası 1800-cü il seçkilərində qalib gəldikdən sonra onun tərəfdarları icra və qanunvericilik hakimiyyətləri üzərində nəzarəti ələ keçirsələr də, məhkəmə hakimiyyəti sistemində əvvəlki kimi federalistlər əksəriyyət təşkil edirdilər.

Yeni hökumətin həyata keçirdiyi tədbirlərdən biri – onun Məhkəmə Sistemi haqqında 1800-cü il Aktını ləğv etməsi oldu, bu Akta görə ölkədə bir neçə yeni hakim vəzifəsi təsis edilmişdi. Prezident Adams öz səlahiyyət müddəti bitənədək bütün vakansiyaları doldurmağa macal tapsa da, yeni hökumət bir sıra artıq təyin edilmiş şəxslərin təyinatı haqqında yazılı fərmanı verməkdən imtina etdi. Belə olanda, yeni təyin edilmiş hakimlərdən biri – Uilyam Marberi *(William Marbury)* təzə dövlət katibi Ceyms Medisonu məhkəməyə verərək sözügedən fərmanının verilməsini tələb etdi. Ali Məhkəmənin yeni sədri Con Marşall başa düşürdü ki, əgər o, bu fərmanın verilməsi haqqında sərəncamı qəbul etmiş olsa və Cefferson hökuməti həmin sərəncamı saya almasa, bu, məhkəmə hakimiyyətinin nüfuzunu xeyli zəiflədə bilər. Digər tərəfdən məhkəmə bu cür sərəncamı verməsə, çoxları düşünə bilər ki, məhkəmə bunu qorxudan etdi. Hər iki halda qanunun aliliyi prinsipi ziyan çəkmiş olar.

Bu mürəkkəb məsələnin Marşall tərəfindən qəbul edilmiş hüquqi həlli fransızların təbiri ilə desək, *"tour de force"*– parlaq şpaqa zərbəsi kimi qiymətləndirildi. O öz qərarında göstərdi ki, Medison, Marberinin vəzifəyə təyinatı haqqında fərmanı ona verməlidir, lakin bu zaman qeyd edilirdi ki, 1789-cu il Məhkəmə Sistemi Haqqında Aktın məhkəməyə bu cür sərəncamları qəbul etmək səlahiyyəti verən maddəsi, Konstitusiyanın III maddəsi ilə Ali Məhkəməyə verilmiş səlahiyyətləri aşır. Deməli, Aktın bu müddəası bu gündən öz qanuni qüvvəsini itirir. Beləliklə, Marşall həm Ceffersonun tərəfdarlarını yerində oturda bildi, həm də məhkəmə qərarının "tapdalana" biləcəyi vəziyyətə yol vermədi[18]. Marberinin işində həyati, mühüm cəhət ondan ibarət idi ki, Ali Məhkəmə burada öz üzərinə bir neçə səlahiyyət götürmüşdü. Bunlardan biri – Konqresin və dolayısı ilə prezidentin

Satış üçün nəzərdə tutulmayıb

qərarlarını, bunlar Konstitusiya ilə verilmiş səlahiyyətləri aşdığı təqdirdə, Konstitusiyaya zidd elan etmək səlahiyyəti idi. Daha önəmlisi isə bu idi ki, Ali Məhkəmə Konstitusiyanın əsas təfsirçisi, yəni onun mənasının müəyyən edilməsi işində son instansiya olmuşdu. Beləliklə, Ali Məhkəmə faktiki və nəzəri cəhətdən dövlət işlərində bərabər hüquqlu partnyora çevrilmişdi və hazırda da bu rolu oynamaqdadır. Məhkəmə 1857-ci ilə qədər Konqresin digər hər hansı aktını konstitusiyaya zidd elan etmədi və bu hüquqdan xeyli ehtiyatla istifadə edirdi. Bununla yanaşı, Konstitusiyanın təfsirində ali "nüfuz sahibi" olan Ali Məhkəmə xüsusilə XX əsrdən başlayaraq şəxsi azadlıqların genişləndirilməsində əhəmiyyətli rol oynamışdı (bax: kitabın V-ci hissəsi).

Əlavə məlumat üçün oxuyun: George L. Haskins and Herbert A. Johnson, Foundations of Power: John Marshall, 1801-1815 (1981); Donald O.Dewey, Marshall v. Jefferson: The Political Background of Marbury v. Madison (1970).

MARBERİ MEDİSONA QARŞI

Ali Məhkəməsinin sədri Con Marşall Məhkəmənin rəyini açıqladı:

Sonuncu iclasda oxunan [məhkəmə klerkinin təqdim etdiyi] məktubda dövlət katibindən tələb olunurdu ki, məhkəmə tərəfindən onu Uilyam Marberini Kolumbiya dairəsində Vaşinqton qraflığının hakimi təyin etmək haqqında əmr verməyə vadar edəcək *mandamus*[xix] verilə bilməməsinin səbəblərini göstərsin. Heç bir səbəb göstərilmədi və bu təqdimat məhkəmənin *mandamus* verməsi üçün həyata keçirilir.

Bu işin özünəməxsus incəlikləri, bəzi cəhətlərin yeniliyi və onun bəndlərinin başa düşülməsi ilə bağlı real çətinliklər məhkəmənin istinad etməli olduğu prinsiplərin tam şərh olunmasını tələb edir...

Məhkəmənin bu işə baxdığı ardıcıllığa uyğun olaraq aşağıdakı məsələlər nəzərdən keçirilmiş və həll edilmişdir:

1. İddiaçının belə bir əmr almaq hüququ varmı?

2. Əgər onun belə bir hüququ varsa və o hüquq pozulmuşdursa, ölkəsinin qanunları onu müdafiə etməyə imkan verirmi?

3. Əgər qanunlar onun müdafiə olunmasına imkan verirsə, məhkəmənin verdiyi *mandamus* onu müdafiə edə bilərmi?..

Beləliklə, birincisi, məhkəmənin mövqeyi belədir ki, təyinat haqqında əmr prezident tərəfindən imzalanıbsa, deməli, təyinat artıq edilib və bu sənədə dövlət katibi tərəfindən Birləşmiş Ştatların möhürünün vurulması ilə təyinat

Satış üçün nəzərdə tutulmayıb

başa çatdırılıb... Buna görə də bu sənədin saxlanılaraq ləngidilməsi məhkəmə tərəfindən qeyri-qanuni hərəkət və rəsmi müəyyən edilmiş hüquqların pozulması kimi qiymətləndirilir.

Bu, bizi *ikinci* məsələyə gətirib çıxarır. Vətəndaş azadlığının mahiyyəti, şübhəsiz, hər bir şəxsin ona zərər yetirilən hər bir halda qanunla qorunmasını tələb etmək hüququndan ibarətdir. Dövlətin başlıca öhdəliklərindən biri bu müdafiənin təmin edilməsindən ibarət olmalıdır. Birləşmiş Ştatların hökuməti dəfələrlə şəxslərə deyil, qanunlara tabe olan hökumət kimi səciyyələndirilmişdir. Əgər burada qanunlar insanların qanuni hüquqlarını müdafiə etməsə, əlbəttə, o bu yüksək ada layiq olmayacaqdır...

Birləşmiş Ştatların Konstitusiyasına görə, prezidentə müəyyən mühüm siyasi səlahiyyətlər verilir. Bu səlahiyyətlər onun bildiyi kimi həyata keçirilir və yalnız öz ölkəsində, öz siyasi statusunda və öz vicdanı qarşısında hesabat verə bilər. Bu səlahiyyətlərin yerinə yetirilməsinə kömək etmək üçün onun öz hakimiyyətinə tabe olan və onun əmrlərinə əsasən hərəkət edən müəyyən vəzifəli şəxsləri təyin etmək ixtiyarı var.

Bu hallarda onların hərəkəti onun hərəkətidir və bu qərarın tətbiq olunması haqqında mövqedən asılı olmayaraq, burada bu qərara nəzarət edəcək heç bir hakimiyyət yoxdur və ola da bilməz. Bu, siyasi məsələdir. Burada onlar fərdi hüquqlara deyil, millətə hörmət nümayiş etdirirlər və müəyyən edildiyi kimi, rəisin qərarı qətidir.

Lakin qanunverici məclis bu məmurun üzərinə başqa vəzifələr qoyarkən, o, müəyyən işləri görməyə yollanarkən, fərdlərin hüquqları bu işlərin yerinə yetirilməsindən asılı olarkən o, qanundan asılı vəziyyətə düşür və başqalarının qanuni hüquqlarını kefi istədiyi kimi qulaqardına vura bilməz... Və özünü zərərçəkmiş sayan şəxsin zərərin ödənilməsi üçün ölkənin qanunlarına müraciət etmək hüququ var...

Buna görə də məhkəmə hesab edir ki, Marberi öz təyinatını almaq hüququna malikdir; belə ki, bu sənədi ona verməkdən imtina etmək onun bu hüququnun pozulması demək olardı, ölkənin qanunu isə onu bu pozuntudan qoruyur.

Üçüncü məsələni həll etmək qalır. O, xahiş etdiyi müdafiə hüququna malikdirmi? Bu, *birincidən* — almaq üçün müraciət etdiyi icra vərəqinin xarakterindən və *ikincidən* — bu məhkəmənin səlahiyyətlərindən asılıdır.

Birincisi, nəzərdən keçirilən hal *mandamus* üçün tələb olunan təyinatın, yaxud onun surətinin çatdırılmasından asılı olmayaraq adi hadisədir. Və bir şeyi aydınlaşdırmaq qalır: bu məhkəmə *mandamus* haqqında qərar verə bilərmi?

Birləşmiş Ştatların məhkəmə sistemini bərqərar edən akta (1798) görə, Ali Məhkəmə "istənilən təyin olunmuş məhkəmələr, yaxud Birləşmiş Ştatlara xidmət edən şəxslər üçün prinsiplər və qanunun istifadə olunması praktikası ilə təminatların mövcud olduğu hallarda *mandamus* icra vərəqələri vermək səlahiyyəti" alır.

Satış üçün nəzərdə tutulmayıb

Dövlət katibi Birləşmiş Ştatlara xidmət edən məmurdur və bu maddə tam dəqiqliklə ona şamil edilə bilər; əgər bu məhkəmə bu vəzifəli şəxsə *mandamus* icra vərəqəsi vermək səlahiyyətinə malik deyilsə, onda bu akt Konstitusiyaya ziddir...

...Beləliklə, Birləşmiş Ştatların məhkəmə sistemini bərqərar etmiş aktla Ali Məhkəməyə verilən və onun dövlət məmurlarının hərəkətləri barəsində qərar qəbul etməsinə şərait yaradan səlahiyyətlər, göründüyü kimi, Konstitusiya ilə təmin olunmamışdır; indi bir şeyi aydınlaşdırmaq vacibdir ki, bu cür yurisdiksiyanı həyata keçirmək, ümumiyyətlə, mümkündürmü?

Konstitusiyaya zidd olan akt ölkə qanununa çevrilə bilərmi? Bu, Birləşmiş Ştatlar üçün mühüm məsələdir. Xoşbəxtlikdən o, mühüm olduğu qədər dolaşıq deyildir. Bu problemi həll etmək üçün qəti və yaxşı müəyyən edilmiş ayrı-ayrı prinsipləri bilmək lazımdır.

İnsanların öz dövlətləri üçün, onların fikrincə, xoşbəxtliklərinə daha çox şərait yaradacaq prinsipləri müəyyən etmək hüququna — bu əzəli hüquqa malik olması məhz bütün Amerikanın mayasını təşkil edir. Belə əzəli hüquqların həyata keçirilməsi böyük səylər tələb edir; bu, tez-tez təkrar oluna bilməz və olunmamalıdır. Ona görə də bu yolla müəyyən olunmuş prinsiplər fundamental prinsiplər hesab olunur. Və onları ortaya gətirən səlahiyyətlərin aliliyinə və azişləkliyinə görə onlar elə müəyyənləşdirilir ki, uzunömürlü ola bilsinlər.

İlkin və ali iradə dövlət yaradır və onun departamentlərinə uyğun səlahiyyətlər verir. Bu iradə onunla kifayətlənə, yaxud bu departamentlərin fəaliyyəti üçün müəyyən məhdudiyyətlər qoya bilər.

Birləşmiş Ştatlar dövləti məhz sonuncu hala uyğun gəlir. Qanunverici hakimiyyət yaradılmış və məhdudlaşdırılmışdır və bu məhdudiyyətlərin pozulmaması, yaxud yaddan çıxarılmaması üçün Konstitusiya yazılmışdır. Əgər bu məhdudiyyətlər istənilən vaxt onu qorumalı olan adamlar tərəfindən ləğv edilə bilərsə, bu hakimiyyətin məhdudlaşdırılmasına, bu məhdudiyyətlərin yazıya alınmasına nə ehtiyac var idi? Əgər məhdudiyyətlər onların aid olduqları şəxslərə şamil edilmirsə, icazə verən və verməyən aktlar bərabər gücə malikdirsə, onda məhdud və qeyri-məhdud hakimiyyətə malik hökumətlər arasında fərqlər yox olur. Konstitusiyanın onunla ziddiyyət təşkil edən istənilən qanunverici aktdan üstün olmasına, yaxud qanunverici məclisin Konstitusiyanı adi qanunla dəyişə bilməməsinə dair mübahisə etməyə ehtiyac yoxdur.

Bu alternativlər arasında orta vəziyyət yoxdur. Konstitusiya ya adi vasitələrlə dəyişdirilməsi mümkün olmayan ali, birinci dərəcəli qanundur, ya da o, adi qanunverici aktla eyni səviyyədə dayanır və başqa aktlar kimi qanunverici məclis tərəfindən istənilən vaxt dəyişdirilə bilər.

Satış üçün nəzərdə tutulmayıb

Əgər ilk mülahizə düzgündürsə, Konstitusiyaya zidd olan akt qanuni deyildir; əgər sonuncu düzgündürsə, konstitusiyaların yazılması öz təbiəti baxımından qeyri-məhdud olan hakimiyyətin məhdudlaşdırılmasına edilən boş cəhddən başqa bir şey deyildir.

Şübhə yoxdur ki, yazılı Konstitusiya yaradanların hamısı ölkənin əsas və birinci dərəcəli qanununu ortaya gətirdiklərini fikirləşirdilər, buradan da hər bir belə dövlət nəzəriyyəsi hesab edir ki, qanunverici məclis tərəfindən qəbul edilən və Konstitusiyaya zidd olan aktlar qanuni qüvvəyə malik deyildir...

Əgər qanunverici məclisin Konstitusiyaya zidd aktı qanuni qüvvəyə malik deyilsə, məhkəmələr buna baxmayaraq onu nəzərə almalıdırmı? Yaxud başqa sözlə, bu akt qeyri-qanuni olmasına baxmayaraq qanun kimi fəaliyyət göstərən qaydaya çevrilə bilərmi? Bu, nəzəriyyəni tamamilə alt-üst edir və o qədər mənasızdır ki, təkid etməyinə dəyməz. Lakin buna baxmayaraq, bu halı diqqətlə nəzərdən keçirmək lazımdır.

Qanunun nə olduğunu izah etmək məhkəmə hakimiyyətinin birbaşa fəaliyyəti və səlahiyyəti daxilindədir. Kim konkret hallara qayda tətbiq edirsə, bu qaydanın mütləq izahı və təfsirini də verməlidir. Əgər iki qanun bir-birinə ziddirsə, məhkəmələr hər birinin qanuniliyini müəyyən etməlidir.

Əgər qanun Konstitusiyaya ziddirsə və hər ikisi konkret hala tətbiq olunursa... onda məhkəmə bu bir-birinə zidd qaydaların hansının baxılan hala tətbiq oluna biləcəyini müəyyən etməlidir. Burada məhkəmə hakimiyyətinin vəzifəsinin mahiyyəti öz əksini tapır.

Sonra, əgər məhkəmələr konstitusiyalara hörmət etməlidirsə və Konstitusiya qanunverici məclisin istənilən aktından üstündürsə, hər ikisinin tətbiq olunduğu halda adi akt deyil, Konstitusiya qanunidir... [Əks halda] bizim siyasi institutların yaradılmasında böyük nailiyyət hesab etdiyimiz yazılı Konstitusiyanın mənası heçə enir... [Konstitusiyada] bəyan olunur ki, "hər hansı ştatdan gətirilən mala görə vergi, yaxud rüsum tutula bilməz". İndi təsəvvür edin ki, pambıq, tütün, yaxud una bu cür rüsumların bərpa olunması haqqında qanun qəbul olunmuşdur. Bu halda hansı qərar qəbul olunmalıdır? Hakimlər Konstitusiyaya göz yumub yalnız qanunu nəzərə almalıdırmı?..

Konstitusiya bəyan edir ki, vətəndaş və əmlak hüquqlarından məhrumetmə haqqında billər və hər hansı *ex post facto*[xx] qanunlar qəbul edilə bilməz. Əgər buna baxmayaraq belə bir qanun qəbul olunarsa və hər hansı adam onun əsasında məhkəməyə verilərsə, məhkəmə Konstitusiyanın qorumağa çalışdığı bu adamı ölümə məhkum etməlidirmi?

Konstitusiyada deyilir ki, heç kim dartışılan hadisənin iki şahidinin ifadəsi ilə, yaxud müttəhimin özünün boynuna alması ilə açıq məhkəmə iclasında təqsiri təsdiqlənmədən xəyanətdə günahkar sayıla bilməz.

Burada Konstitusiya sətirləri birbaşa məhkəmələrə ünvanlanmışdır. Bu göstəriş rədd edilməsi mümkün olmayan qaydaya yönəlmişdir. Əgər qanunverici məclis bu qaydanı dəyişərsə və hökm çıxarmaq üçün bir şahidin, yaxud

Satış üçün nəzərdə tutulmayıb

məhkəmədənkənar etirafın yetərincə olduğunu elan edərsə, Konstitusiya prinsipi qanuna güzəştə getməlidirmi?

Bu və gətirə biləcəyimiz digər iqtibaslar aydın göstərir ki, Konstitusiya yazanlar bu aləti *məhkəmə məclisləri*, həmçinin qanunverici məclislər üçün fəaliyyət qaydaları kimi nəzərdə tutmuşdular. Əgər bu belə deyilsə, Konstitusiya nə üçün hakimlərin onu müdafiə edəcəklərinə and içməsi qaydasını müəyyən edir? Bu andiçmə, şübhəsiz, onlar üçün öz vəzifələrində müvafiq fəaliyyət tərzini müəyyənləşdirir. Əgər onlardan müdafiə edəcəklərinə and içdikləri qaydaları pozmaq üçün mexanizm kimi istifadə olunsaydı, onların and içməyə məcbur edilməsi mənəviyyatsızlıqdan başqa bir şey olmazdı!

Həmçinin qanunverici məclis tərəfindən müəyyən edilən and bu məsələ ilə bağlı qanunvericiliyin vəziyyətini əyani olaraq göstərir. O bu sözlərdən ibarətdir: "Mən təntənəli surətdə and içirəm ki, ədalət məhkəməsini şəxsiyyətindən asılı olmayaraq yoxsullara və varlılara eyni cür yanaşaraq həyata keçirəcəyəm; mənim üzərimə _____ kimi qoyulan bütün vəzifələri düzgün və qərəzsiz, qabiliyyətimə və dərrakəmə uyğun, Birləşmiş Ştatların Konstitusiyasına və qanunlarına əsasən ən yüksək şəkildə yerinə yetirəcəyəm". Əgər bu Konstitusiya hakimin fəaliyyəti üçün heç bir qayda yaratmırsa, nə üçün o öz vəzifələrini Birləşmiş Ştatların Konstitusiyası əsasında yerinə yetirəcəyinə and içir? Əgər Konstitusiya onun üçün bağlıdırsa və onun tərəfindən təfsir oluna bilməzsə, nə üçün bu andı içir?

Əgər məsələ belədirsə, bu, təntənəli lağlağılıqdan başqa bir şey deyil. Bu andı müəyyən etmək, yaxud onu içmək cinayət kimi bir şeydir.

Qeyd etmək yerinə düşərdi ki, Torpağımızın Ali Qanunu elan olunarkən Konstitusiya ilk növbədə göstərilməlidir və Birləşmiş Ştatların qanunlarının hamısı deyil, onlardan Konstitusiya üçün qəbul olunanları bu dərəcəyə layiqdir.

Beləliklə, Birləşmiş Ştatların Konstitusiyasının konkret dili bütün yazılı konstitusiyalar üçün əhəmiyyətli olan prinsipi təsdiq edir və gücləndirir: Konstitusiyaya zidd olan qanun hüquqi qüvvəyə malik deyildir; məhkəmələr, həmçinin digər dövlət orqanları bu prinsipə bağlıdır.

Deməli, [1798-ci il tarixli aktın] müddəa ləğv olunmalıdır.

Mənbə: 1 Cranch 137 (1803)

Satış üçün nəzərdə tutulmayıb

10. MakKullok Merilend Ştatına Qarşı (1819)

Bu məhkəmə işi üzrə qərar bir çox cəhətdən vahid federal dövlətin yaradılması istiqamətində atılan qəti addım oldu. Məhkəmədə baxılan "Dövlət Bankının yaradılması barədə Konqres qərar verə bilərmi" sualının özü o qədər mühüm görünməsə də, müzakirənin gedişi zamanı ortaya çıxan daha vacib suallar Konstitusiyanın şərhinə bilavasitə aid olan məsələlər idi və onlar bu günədək müzakirə olunmaqdadır.

1791-ci ildə maliyyə naziri Aleksandr Hamilton öz maliyyə planı çərçivəsində ölkənin mərkəzi bankı kimi Birləşmiş Ştatlar Bankının (BŞB) yaradılmasını təklif etdi. Dövlət katibi Tomas Cefferson isə Konstitusiyaya görə Konqresin belə bir səlahiyyəti olmadığını və məhdud hakimiyyətli dövlətdə Konstitusiya ilə ona verilən səlahiyyətlərdən başqa Konqresin heç bir səlahiyyətə malik olmadığını əsas gətirərək bu təklifin əleyhinə çıxdı. Buna cavab olaraq Hamilton bəyan etdi ki, Konstitusiyaya görə verilməsindən imtina edilən konkret səlahiyyətlər istisna olmaqla, Konqres yerdə qalan bütün səlahiyyətlərə malikdir. Üstəlik də, Konstitusiyanın I maddəsində göstərilən "zəruri və lazım gələn" səlahiyyətləri daha geniş şərh edilməlidir. Prezident Vaşinqton Hamiltonu dəstəklədi və 20 il müddətinə fəaliyyət göstərəcək Mərkəzi Bank yaradıldı. Bu müddət 1811-ci ildə bitdi və növbəti prezident Cefferson bankın səlahiyyətlərini uzatmaqdan imtina etdi.

Sonra 1812-ci il ABŞ-Britaniya müharibəsi başladı və prezident Medison nəhayət, dövlətin Mərkəzi Bank xidmətlərinə ehtiyacı olduğunu anladı. Onun tövsiyəsi ilə 1816-cı ildə Konqres Birləşmiş Ştatların ikinci Mərkəzi Bankını yaratdı və həmin bank dərhal bütün ittifaq üzrə öz bölmələrini açdı.

Ştatların riskli möhtəkirliklə pul qazanan bir çox yerli bankları BŞB-nin xalq arasında populyar olan ehtiyatlı maliyyə siyasətindən qeyzlənərək öz ştatlarının qanunvericilik orqanlarından onun əməliyyatlarını məhdudlaşdırmağı tələb edirdilər. Merilend Ştatı bankın fəaliyyətinə vergi qoydu və BŞB-nin Baltimor bölməsinin xəzinədarı Ceyms MakKullok *(James McCulloch)* onu ödəməkdən imtina etdikdə, iş məhkəməlik oldu.

Ali Məhkəmənin BŞB-nin yaradılması qərarını qeyri-konstitusion hesab edəcəyini çox az adam güman edirdi, hamını "ştatların səlahiyyətlərinin harada bitməsi və federal dövlətin səlahiyyətlərinin harada başlanması" məsələsinin məhkəmədə necə həll ediləcəyi narahat edirdi. Tam haqlı olaraq dövlət əhəmiyyətli sənəd sayılan qərarda Ali Məhkəmənin Sədri Con Marşall nəinki bankın yaradılmasının konstitusiyaya uyğunluğunu təsdiq etdi, həm də

Satış üçün nəzərdə tutulmayıb

Konstitusiya ilə federal dövlətə verilən səlahiyyətlərin daha geniş şərhini dəstəklədi. Bu qərar Şimal və Cənubun vətəndaş müharibəsindən sonra Amerikada tamamilə formalaşmış müasir dövlət-millətin yaradılmasının əsasını qoydu. O zaman bir çoxlarının razı olmadığına və indinin özündə də Marşallın rəyinin əksinə olduğuna baxmayaraq bu qərar təkcə məhkəmələrdə deyil, xalq arasında da dəstək aldı.

Əlavə məlumat üçün oxuyun: Bray Hammond, Banks and Politics in America - From the Revolution to the Civil War (1957); G. Edward White, The Marshall Court and Cultural Change, 1815-1835 (1988); Gerald Gunther, ed., John Marshall's Defense of McCulloch v. Maryland (1969); Samuel J. Konefsky, John Marshall and Alexander Hamilton: Architects of the Constitution (1964).

MAKKULLOK MERİLEND ŞTATINA QARŞI

Ali Məhkəmənin sədri Con Marşall Məhkəmənin rəyini açıqladı:

Bu işdə cavabdeh, suveren Ştat, İttifaqın qanunverici orqanının qəbul etdiyi qərarı yerinə yetirməkdən imtina edir, iddiaçı isə öz növbəsində Ştatın qanunverici orqanının qəbul etdiyi aktın qanuniliyini şübhə altına alır.

Burada ölkəmizin Konstitusiyasına, daha dəqiq desək, onun ən maraqlı və mühüm aspektlərinə baxılır: Konstitusiya əsasında İttifaq dövlətinin və onun tərkib hissələrinin bir-birilə ziddiyyətdə olan səlahiyyətləri müzakirə edilir; iddia da dövlətin sonrakı fəaliyyətinə əhəmiyyətli dərəcədə təsirə qadir olan bir fikir söylənir. Bu işin bütün mühümlüyünü və öz qərarı üçün məsuliyyətini dərk etməyən heç bir məhkəmə bu işə girişməməlidir. Məsələnin sülh yolu ilə həlli zəruridir, yoxsa o, əvvəlkitək münaqişə və ola bilsin ki, düşmənçilik mənbəyi olacaq. Belə işdə, hansı qərar qəbul edilməsindən asılı olmayaraq onu yalnız bu məhkəmə çıxarmalıdır. Konstitusiyamıza əsasən bu mühüm məsələnin həlli məhz Ali Məhkəməyə həvalə edilib.

İşdə yaranan ilk sual belədir: Konqres bank təsis etmək səlahiyyətinə malikdirmi?

Artıq düzgün qeyd edildiyi kimi bu sual açıq qalıb. Burada şübhə altına alınan prinsip tariximizin əvvəlki dövründə qanuna daxil edilib, bir çox

Satış üçün nəzərdə tutulmayıb

qanunverici məclislər tərəfindən tanınıb, xüsusən incə məsələlərin həllində icrası məcburi olan qanun qismində məhkəmə hakimiyyəti tərəfindən əsas kimi götürülüb.

Burada şübhə altına alınan səlahiyyətlər qüvvədə olan Konstitusiyaya əsasən seçilmiş ilk Konqres tərəfindən həyata keçirilirdi. Birləşmiş Ştatlar Bankının yaradılması haqqında akt müzakirəsiz qəbul edilə bilməzdi. Aktın bir sıra əleyhdarlarının olmasına baxmayaraq onun mahiyyəti aydın idi. Aktın qəbul edilməsinin əleyhinə fikirlər söyləndikdən sonra əvvəlcə açıq dinləmələr vaxtı, sonra isə icra hakimiyyəti aparatında ölkəmizin fəxr edə biləcəyi ən parlaq və bilikli zəkaların onu dəstəkləyən inandırıcı çıxışlarından sonra akt qüvvəyə mindi.

Bankın yaradılması haqqında birinci aktın fəaliyyət müddəti bitdi, onun yenidən dirçəlməsi cəhdlərindən hökumətin imtinası isə xoşagəlməz nəticələrə gətirib çıxardı və aktın zəruriliyinə hətta onun əleyhdarlarını da inandırdı. Həmin vəziyyətdə qəbul edilən bu aktın "Konstitusiyaya zidd olaraq hakimiyyət səlahiyyətlərinin azğınlıqla aşılmasından başqa bir şey olmadığı"nı iddia etmək üçün qeyri-adi hünər lazımdır.

Aktın tarixi haqqında bu düşüncələr hazırkı iddia ilə əlaqədardır, lakin bu o demək deyil ki, bu məsələ ilk dəfə qaldırılsaydı, aktı Konstitusiyaya zidd hesab etmək olardı. Həmin məsələni müzakirə edərkən Merilend Ştatının Məclisi Konstitusiyaya xalqın hakimiyyətinin aləti kimi deyil, suveren və müstəqil ştatların birlikdə qəbul etdikləri akt kimi baxmağı mümkün sayıb. Ştat təkid edir ki, İttifaq dövləti öz səlahiyyətlərini ştatlardan alır, çünki yalnız onlar suverendirlər və bu səlahiyyətlər İttifaq dövləti tərəfindən yalnız (bu səlahiyyətlərə suveren hüquqları olan) ştatların razılığı ilə həyata keçirilir.

Sonuncu müddəa ilə razılaşmaq çətindir. Konstitusiyanı qəbul edən Konvent həqiqətən ştatların qanunverici məclisləri tərəfindən seçilib, lakin onların əllərindən qəbul etdiyimiz sənəd yalnız bir layihə, məcburi xarakter daşımayan təklif olub.

O vaxtın Konqresinə təklif edilmişdir ki, "təsdiq və ratifikasiyaya təqdim etmək üçün sənədi (hər bir Ştatın qanunverici məclisinin tövsiyəsilə) Ştat tərəfindən seçilmiş nümayəndələr Konventinə göndərsin".

Bu prosedur təsdiq olunmuş və sənəd Konvent, Konqres və ştatların qanunvericilik məclisləri tərəfindən ölkə vətəndaşlarına təqdim olunmuşdur. Ölkə vətəndaşları müdrik və faydalı addım ataraq ümumi təhlükəsizlik məqsədilə bu sənədi ümumi yığıncaqda qəbul ediblər. Bəli, doğrudan da, onlar bu yığıncaqları öz ştatlarında keçiriblər. Bəs onları başqa harada keçirmək olardı ki?!

Satış üçün nəzərdə tutulmayıb

O vaxt heç bir siyasi xəyalpərvər ştatlar arasındakı sərhədlərin götürüləcəyini və Amerika xalqının bir vahid kütlə halında birləşəcəyini fikirləşə belə bilməzdi. Buna görə də ölkə vətəndaşları Konstitusiyanı qəbul edərkən onu öz Ştatları ərazisində qəbul edirdilər. Lakin buna görə onların qəbul etdikləri qərar – ölkənin bütün xalqı tərəfindən qəbul edilən qərar əhəmiyyətini itirmədi və əlbəttə o, ayrı-ayrı ştatların hakimiyyətləri tərəfindən qəbul edilən qərar deyildir.

Konstitusiya öz hakimiyyətini məhz bu xalq yığıncaqlarından aldı. Dövlətimiz öz hakimiyyətini bilavasitə xalqdan alır, o, "daha mükəmməl İttifaqın yaradılması, ədliyyənin bərqərar edilməsi, daxili sakitliyin qorunması, birgə müdafiənin təşkili, ümumi rifah səviyyəsinə yardım göstərilməsi, bizim və bizdən sonrakı nəsillərin azadlıq nemətləri ilə təmin edilməsi məqsədilə" xalq naminə "qurulur və təsis edilir".

Suveren ştatların razılığı yalnız Konventin çağırılması və bu sənədin xalqa təqdim olunmasında ifadə olunur. Lakin bu sənədi qəbul etmək və ya rədd etmək məsələsində xalq müstəqil idi və onun qərarı qəti idi. Əksinə, ştatların hakimiyyətləri bu sənədi rədd edə bilməzdilər. Deməli, bu yolla qəbul edilən Konstitusiya ştatlar üçün qanun oldu və onların suverenliyinə sərhəd qoydu...

Birləşmiş Ştatlar dövləti sözün həqiqi mənasında xalqın dövlətidir. Formasına və mahiyyətinə görə bu dövlət öz hakimiyyətini xalqdan alır. *Onun səlahiyyətləri xalq tərəfindən verilir, o, xalqı xalq maraqları naminə idarə edir.*

Bu dövlətin bütün yuxarıda sadalanan səlahiyyətlərə malik olması ümumi qəbul edilmiş faktdır. "Dövlət yalnız ona verilən səlahiyyətləri həyata keçirə bilər" prinsipi də hər yanda hamılıqla tanınır. Lakin hər vaxt bu səlahiyyətlərin hüdudları haqqında suallar yaranır və çox güman ki, sistemimiz mövcud olduqca bu suallar da yaranacaqdır... Konstitusiyada dövlətin səlahiyyətləri göstərilən siyahıda bank və korporasiyalar yaratmaq səlahiyyəti yoxdur. Amma sənəddə həmçinin nəzərdə tutulan və ya əlavə səlahiyyətlərin icrasını qadağan edən bircə kəlmə də yoxdur, burada onların dəqiq və detal təsvirini tələb edən kəlmə də yoxdur. Hətta ştatların hüquqlarının qısqanc havadarlarını sakitləşdirmək üçün daxil edilmiş [Konstitusiyaya] X düzəlişdə "dəqiq təsvir" ifadəsi yoxdur və düzəlişdə "Bu Konstitusiya ilə Birləşmiş Ştatlara verilməli və Konstitusiyanın ayrıca ştatların istifadə etməsini yasaqlamadığı səlahiyyətlər uyğun olaraq ya ştatlarda, ya da xalqın ixtiyarında qalır" yazılıb. Nəticədə şübhə altına alınan bəzi səlahiyyətlərin bir hökumətə verilib, digərinə qadağan edilməsi məsələsi sənədin bütövlükdə şərhindən asılı olacaq... Konstitusiyaya bu düzəlişi tərtib və qəbul edən insanlar bu söz birləşməsinin "Konfederasiya Qanunlar Toplusunun" mətninə daxil edilməsindən yaranan çətinlikləri

Satış üçün nəzərdə tutulmayıb

yaxşı xatırlayırdılar və görünür, ona görə də sonrakı xoşagəlməz hallardan yayınmaq üçün bu söz birləşməsini atmaq qərarına gəliblər. Bütün səlahiyyətlər növünü və onların həyata keçirilmə vasitələrini dəqiq təsvir edən Konstitusiya hansısa bir qanunlar məcəlləsi kimi daha çox sözdən ibarət olardı və çətin ki, insan ağlı onu qavrayardı. Bu şəkildə onu heç kəs başa düşməzdi. Deməli, sənəddə yalnız ən mühüm məqsəd və vəzifələrin təsvir edilməsi zəruridir, bu vəzifələrin xırda və aralıq tərkib hissələrini isə atmaq və yaxud ümumi məqsədin xarakterindən anlamaq da olar. Bu ideyanın Amerika Konstitusiyası müəllifləri tərəfindən müzakirə olunduğunu təkcə sənədin xarakterindən deyil, həm də onun dilindən başa düşmək olar. Birinci maddənin 9-cu bölməsindəki bəzi məhdudiyyətlər nəyə görə daxil edilmişdir? Müəyyən dərəcədə ona görə ki, müəlliflər düzgün və ədalətli şərhə mane ola biləcək məhdudlaşdırıcı terminlərdən istifadə etməyiblər. Həmin məsələyə baxarkən biz bu halda konstitusiyanı şərh etməyə cəhd göstərdiyimizi unutmamalıyıq.

Dövlətin səlahiyyətləri siyahısında "bank" və ya "korporasiya" sözləri xatırlanmasa da, sənəddə vergi tətbiqetmə, borc, ticarətin tənzimlənməsi, müharibə elan edilməsi və aparılması, ordu və donanma yaradılması və saxlanmasına dair səlahiyyətlər dəqiq müəyyən edilib. Ordu, xəzinə, xarici əlaqələr və millətin sənayesinin əhəmiyyətli hissəsi dövlətə etibar edilib.

Heç kəs demir ki, çox mühüm səlahiyyətlər öz ardınca başqa, daha az əhəmiyyətli səlahiyyətləri onlar məhz az əhəmiyyətli olduqları üçün dartıb aparır. Bu ideyanı dəstəkləmək olmaz.

Amma əsaslandırılmış şəkildə demək olar ki, millətin xoşbəxtliyi və çiçəklənməsi icrasından asılı olan belə böyük hakimiyyətə malik dövlət bu səlahiyyətləri həyata keçirmək üçün həm də kifayət qədər vasitələrə malik olmalıdır. Dövlətə səlahiyyətlər verilibsə, onların həyata keçirilməsi üçün ona vasitələrin də verilməsi millətin mənafeyi naminə olardı... Öz səlahiyyətlərini icra edərkən dövləti zəruri vasitələrdən məhrum etmək yolu ilə ona manea törətmək Konstitusiya yaradıcılarının maraq və niyyətində olmayıb. Sənədin yaradıcıları ictimai rifah naminə dövlətə səlahiyyətlər verəndə bu səlahiyyətləri yerinə yetirmək üçün vasitə seçimində ona çətinliklər yaratmaq niyyətində olublarsa, biz belə bir konstitusiyanı qəbul edə bilərikmi?

Konstitusiyanın mandatı həqiqətən belədirsə, onda buna tabe olmalıyıq; lakin bu sənəddə dövlətin səlahiyyətlərini yerinə yetirmək üçün zəruri vasitələr sadalanmır; korporasiya yaradılması da, həmin səlahiyyətlərin səmərəli həyata keçirilməsi üçün zəruridirsə, sənəddə qadağan edilmir. "Hansı vasitələr zəruridir" məsələsi isə başqa qərəzsiz araşdırmanın obyekti olmalıdır.

Satış üçün nəzərdə tutulmayıb

Təbii ki, dövlətə verilən səlahiyyətlər onların həyata keçirilməsinin adi vasitələrini nəzərdə tutur. Məsələn, ümummilli maraqlar naminə maliyyə vəsaitlərinin yığılması üzrə səlahiyyətlər pulun bir yerdən başqa yerə köçürülməsi və bu zaman adi pul köçürmə vasitələrindən istifadə edilməsi səlahiyyətlərinin həyata keçirilməsini nəzərdə tutur. Ancaq dövlətin mövcud vasitələrin daha rahatından istifadə etməsi və ya zərurət yarandıqda korporasiya yaratmaq seçimi barədə sənəddə heç bir göstəriş yoxdur...

Qanun qəbul etmək hüququ olan və bu qanunu həyata keçirmək vəzifəsi üzərinə qoyulan dövlətin, məntiqə görə, bu məqsəd üçün vasitə seçimi olmalıdır; "dövlətin belə bir seçimi olmamalıdır, yalnız bir konkret vasitə mövcud olmalıdır" deyənlər isə zəhmət çəkib həmin o vasitənin nədən ibarət olmasını deməlidirlər...

Korporasiyalar yaratmaq səlahiyyəti suveren səlahiyyətlərə aid edilsələr də, heç də müharibə elan etmək, vergi tətbiq etmək, yaxud ticarəti tənzimləmək səlahiyyətlərinə bənzəmir. Sonuncular əhəmiyyətli və müstəqil səlahiyyətlərdir. Onlar sadəcə, başqa səlahiyyətlərə münasibətdə ikinci dərəcəli kimi başa düşülə və ya səlahiyyətlərin yerinə yetirilməsi üçün vasitə kimi istifadə edilə bilməz. Korporasiya yaratmaq səlahiyyəti isə digər səlahiyyətlərin icra edilməsi xatirinə məqsəd deyil, yalnız onun köməyi ilə digər məqsədlərə çatmaq üçün vasitədir... Korporasiya yaratmaq səlahiyyəti heç vaxt özü-özlüyündə məqsəd olmayıb, o, yalnız hansısa məqsədlərə nail olmaq alətidir. Deməli, bu səlahiyyətə ikinci dərəcəli kimi və hər hansı daha mühüm səlahiyyətlərin yerinə yetirilməsi vasitəsi kimi baxılmalıdır.

Bəli, Konstitusiyamız dövlətə həvalə olunmuş səlahiyyətlərin həyata keçirilməsi üçün Konqresə konkret vasitələr göstərmir. Lakin Konstitusiyada birbaşa sadalanmış bütün səlahiyyətlərdən başqa onda həmçinin "yuxarıda göstərilən səlahiyyətlərin, eləcə də Birləşmiş Ştatların hökumətinə onun bütün qurumlarına Konstitusiyaya əsasən verilən səlahiyyətlərin lazımi qaydada icrası üçün bütün qərarların qəbul edilməsi" nəzərdə tutulur.

Bu bənd səlahiyyətlərin verilməsinə aid olsa da, tamamilə başqa məna kəsb etdiyini sübuta yetirmək üçün Merilend Ştatının Məclisi bir sıra arqumentlər irəli sürür, – onların deməsinə görə burada söhbət dövlət hüquqlarının məhdudlaşdırılmasından gedir, demək istəyirlər ki, dövlətin öz məqsədlərinə çatmaq üçün Konstitusiyada sadalananlardan başqa heç bir səlahiyyəti yoxdur...

Demək olar ki, bütün cümlələrdə öz dəqiq məzmunu ilə həmin cümlələrdəkindən fərqli mənalar ifadə edən sözlər vardır. Düzgün başa düşülməsi üçün belə sözlərə danışıq dilində qəbul olunduğu kimi daha oynaq

Satış üçün nəzərdə tutulmayıb

mənalar vermək gərəkdir. Məsələn, "zəruridir" sözü. Bu sözün yalnız ona xarakterik olan fiksə edilmiş mənası yoxdur. O, bütün müqayisə dərəcələrilə uzlaşır, çox hallarda isə mənasını ya şiddətləndirən, ya da azaldan başqa sözlərlə qoşa işlədilir. Nə isə "zəruri", "çox zəruri", "tamamilə zəruri" və ya "mütləq zəruri" (əvəz edilməz mənasında) ola bilər. Bu sözə verilən izah kimi Konstitusiyanın I maddəsinin 8.18-ci bölməsindəki kəlməni yaxşı misal gətirmək olar. Zənnimizcə, "Nəzarət haqqında Ştatın qanunu"nu yerinə yetirmək üçün tamamilə zəruri hallar istisna olmaqla "idxal və ixraca rüsum və ya vergi qoymağı ştatlara qadağan edən" cümlə ilə Konqresə "dövlət səlahiyyətlərini lazımi qaydada həyata keçirmək üçün zəruri olan istənilən qanunu qəbul etmək" səlahiyyətini verən cümləni müqayisə etmək mümkün deyil. Göründüyü kimi sənəddə zəruridir sözünün mənası ona tamamilə sözünün əlavə edilməsi yolu ilə dəyişdirilib. Başqa sözlər kimi bu söz də müxtəlif mənalarda işlədilir, onu məhz bu kontekstdə şərh etmək və müəllifin ona verdiyi mənanı nəzərə almaq lazımdır. Araşdırdığımız halda da məhz bu baş verir. Müzakirənin canı bir çox halda xalqın rifahının asılı olduğu mühüm səlahiyyətlərin həyata keçirilməsi məsələsidir. Yəqin ki, bu səlahiyyətləri işləyib-hazırlayanların əsas məqsədi onların cəmiyyətin xeyrinə həyata keçirilməsi olub. Buna yalnız bu səlahiyyətlərin effektiv şəkildə həyata keçirilməsi üçün zəruri vasitələrin seçilməsi hüququnu Konqresin özünə vermək yolu ilə nail olmaq olar. Bu qayda neçə illər irəlini hesaba almaqla Konstitusiyada öz əksini tapıb və müxtəlif böhranlı məqamlarda tətbiq olunmalıdır. Əgər bu sənəddə dövlətin öz səlahiyyətlərini hansı vasitələrin köməyi ilə həyata keçirməsi dəqiq yazılsaydı, bu hal onu qanunlar məcəlləsinə çevirərək sənədin xarakterini tamamilə dəyişərdi. Bu isə hər cür mümkün və nəzərə alınmamış situasiya yarandığı məqamda reaksiya vermək daha yaxşı olduğu halda onları dəyişməz qaydaların yardımı ilə müəyyən etməyə ağılsız cəhd olardı. Konqresə səlahiyyətlər və bu səlahiyyətləri həyata keçirmək üçün daha effektli vasitələrdən istifadə etmək imkanı vermək, lakin bu vasitələrdən yalnız kağız üzərində yazılanlara icazə vermək, konkret situasiyalarda qərar qəbul edərkən qanunverici orqanın malik olduğu təcrübə, ağıl və məntiqdən istifadə etmək imkanından məhrum etmək demək olardı. Dövlətin hər hansı bir səlahiyyətinə belə şərhi tətbiq etsək, bu yanaşmada o qədər nöqsanlar aşkar edərik ki, özümüz onu kənara atmağa məcbur olarıq...

Bu müddəanın [I maddəsinin 8.18-ci bölməsi] diqqətlə araşdırılması nəticəsində biz belə bir nəticəyə gəlirik ki, onu genişləndirməsək, bu, Konqresin səlahiyyətlərini məhdudlaşdırılmasına gətirib çıxarar və dövlətin konstitusion səlahiyyətlərinin həyata keçirmək üçün vasitə seçilərkən da-

Satış üçün nəzərdə tutulmayıb

ha ağıllı qərarların qəbul edilməsi hüququna təsir göstərər. Bu sənədi gözəl oyuncağa çevirmək istəmiriksə, yadda saxlamalıyıq ki, həmin müddəanın genişləndirilməsi üçün başqa bir izah olmasa belə, Konstitusiyaya cəlb edilməli olan çox saylı əlavə səlahiyyətlər üzrə Konqresə qərar qəbul etmək hüququna aid şübhələrin aradan qaldırılması üçün öz istəyimiz kifayət qədər əsasdır.

Biz dövlət səlahiyyətlərinin məhdud olmasını və onun bu hüdudlardan kənara çıxa bilməməsini etiraf edirik, bunu hamı etiraf etməlidir. Ancaq biz hesab edirik ki, Konstitusiya öz mahiyyətinə görə qanunverici orqanın üzərinə qoyulmuş vəzifələri səmərəli həyata keçirmək üçün zəruri vasitələrdən istifadə etmək hüququ verməlidir. Qoy [bu vasitənin seçilməsi haqqında] son qərar ədalətli və konstitusion olsun; qoy səlahiyyətləri yerinə yetirərkən istifadə olunan vasitələr münasib, bu məqsəd üçün uyğunlaşdırılmış olsun və qadağan edilənlər sırasından olmasın; qoy onlar Konstitusiyanın hərfinə və ruhuna uyğun olsun.

Konqres öz səlahiyyətlərini həyata keçirərkən Konstitusiya ilə qadağan olunmuş vasitələrdən istifadə eləyərsə və ya Konqres öz səlahiyyətlərini həyata keçirmək adı altında ona verilmiş hüquqlar çərçivəsindən kənara çıxan aktlar qəbul edərsə, bu məhkəmənin əzablı vəzifəsi – belə aktlara baxmaqdan və bu aktların ölkə qanunları olmamasına dair rəy verməkdən ibarət olacaqdır. Ancaq qanunverici orqanının qərarı qanunidirsə və dövlətin səlahiyyətlərinin yerinə yetirilməsinə səmərəli təsir edəcəksə, belə bir qərarı şübhə altına almaqla biz qanunverici hakimiyyətin ziyanına məhkəmə hakimiyyətinin səlahiyyətlərini aşa bilərik. Bu məhkəmənin isə belə bir hakimiyyətə heç bir iddiası yoxdur.

Bütün deyilənlərdən sonra aydın olur ki, ştatların öz banklarının mövcudluğu məsələnin mahiyyətinə heç cür təsir etmir. Konstitusiya dövlətin öz əsas səlahiyyətlərini yerinə yetirərkən, heç bir şəkildə İttifaq dövlətinin ştatların hakimiyyətindən hər hansı asılılığının mümkünlüyünü göstərmir. Dövlətə verilən vasitələr onun məqsədlərinə uyğundur və onun səlahiyyətləri həyata keçirilərkən məhz bu vasitələrdən istifadə olunmalıdır.

Dövləti nəzarətsiz, başqa hakimiyyətin idarə edə biləcəyi vasitələrdən istifadəyə məcbur etmək onun zəifləməsinə gətirib çıxarar, onun nail olduğu nəticələri şübhə altına salar, onun başqa dövlətlərdən asılılığını yaradar, bu isə Konstitusiyanın əsas prinsiplərinə və ruhuna ziddir. Lakin dövlətin vasitə seçimində hüququ varsa və vasitələri seçərkən o, ştatların bankları qarşısında milli banka üstünlük veribsə, biz hesab edirik ki, Konqresin buna tam hüququ vardır.

Diqqətli araşdırmadan sonra Məhkəmə Birləşmiş Ştatlar Bankının yaradılması haqqında aktın Konstitusiyaya uyğun olaraq qəbul edildiyi və

Satış üçün nəzərdə tutulmayıb

ölkənin ali qanunun bir hissəsi olduğuna dair yekdil rəyə gəldi.

Birləşmiş Ştatlar Bankının yaradılması haqqında aktın Konstitusiyaya zidd olmadığı və Merilend Ştatında onun filialının yaradılması səlahiyyətinin bankın özü tərəfindən həyata keçirilə biləcəyinə dair Məhkəmə qərar çıxardığı üçün aşağıdakıları aydınlaşdırmaq zəruridir... :

2. Merilend Ştatı Konstitusiyanı pozmadan bu filiala vergi qoya bilərmi?

Vergi tətbiq etmə səlahiyyətlərinin həyati əhəmiyyət daşıması və Ştatın ixtiyarında olması, bu səlahiyyətlərin İttifaq dövlətinə verilməsi nəticəsində də onların dəyişməz qalması və bu səlahiyyətlərin hər iki hökumət tərəfindən paralel həyata keçirilməsi – təkzibolunmaz faktdır. Ancaq Konstitusiyanın ən mühüm cəhəti də məhz bundan ibarətdir ki, o istənilən məsələni, hətta Ştatın yuxarıda göstərilən səlahiyyətini də, bu qaydadan çıxarmaq qabiliyyətinə malikdir.

Məsələn, Ştatın "Nəzarət haqqında qanun"un icrası üçün tam zəruri hallar istisna olmaqla, ştatlara idxal və ixraca rüsum qoymaq qadağan edilir. Bu qadağa ilə razılaşsaq, onda belə çıxır ki, Konstitusiya Ştatın, öz təbiəti etibarilə ona uyğun gəlməyən və İttifaqın konstitusion qanunlarına zidd olan, digər səlahiyyətlərini də məhdudlaşdırmaq qabiliyyətinə malikdir.

Bunun əsasında Bank Şurası Ştat hakimiyyətinin xeyrinə vergidən azad olunmağı tələb edib.

Bu hal üçün qanunvericilikdə dəqiq müddəa yoxdur, ancaq Məhkəməmiz bu tələbi dəstəklədi. Məhkəmə bu qərarı Konstitusiyanın mahiyyətini təşkil edən və onun tərkib hissələri ilə sıx əlaqədə olan o prinsip əsasında qəbul etdi ki, bu prinsip olmasa Konstitusiya mənasız kağız parçasına çevrilir.

Bu ən mühüm prinsip ondan ibarətdir ki, *Konstitusiya və onun əsasında tərtib olunan qanunlar aliliyə malikdirlər, onlar ştatların qanunlarından üstündür və ştatlar tərəfindən onlara nəzarət edilə bilməz.* Bütün qərarlar məhz bu aksioma əsaslanmalı və ondan törəməlidir, yerdə qalanların hamısı yalnız bu aksiomun nəticələri kimi ortaya çıxır. İş yalnız bu qərarların həqiqiliyində və tətbiq oluna bilməsindədir. Bura aşağıdakılar daxildir:

1. *Yaratmaq* üzrə səlahiyyətlər, həm də *qorumaq* üzrə səlahiyyətləri nəzərdə tutur;

2. *Ləğvetmə* üzrə səlahiyyətlər başqa əllərdədirsə *yaratmaq və saxlamaq* səlahiyyətlərilə bir araya sığmır və onlara ziddir;

3. Bu səlahiyyətlər konfliktə girsələr üstünlük aliliyə malik olan səlahiyyətə verilməlidir...

Satış üçün nəzərdə tutulmayıb

Ştatların vergi tətbiq etmək və ya ləğv etmək səlahiyyətinin heç bir sübuta ehtiyacı yoxdur. Belə səlahiyyətlər mütləqdir və Konstitusiyada dəqiq yazılanlardan başqa heç bir məhdudiyyətə məruz qala bilməz. Bütün digər suveren səlahiyyətlər kimi onlar kimdədirsə, onun tərəfindən də həyata keçirilir. Lakin vergi qoymağa dair maddədə deyilir ki, Ştatın suverenliyi tabelidir və ona Birləşmiş Ştatların Konstitusiyası tərəfindən nəzarət edilə bilər. Belə nəzarətin dərəcəsi – şərh məsələsidir. Şərhə başlayarkən biz yalnız bəyan edilmiş prinsiplərdən istifadə edə bilərik, əks halda bu ali hakimiyyətin fəaliyyətinin legitimliyini poza bilər.

Mahiyyət etibarilə istənilən alilik öz fəaliyyət dairəsindəki bütün maneələri aradan qaldırır və beləliklə, öz fəaliyyətini onların təsirindən azad etmək üçün tabelikdəki hakimiyyətlərdə olan istənilən səlahiyyətləri dəyişir. Bu effektə məxsusi ad fikirləşməyinə dəyməz. Axı o, o qədər anlaşılandır və alilik prinsipinə daxil edilmişdir ki, onun xatırlanması onu daha da görünən etməyəcək. Sadəcə, Konstitusiyanı şərh edərkən biz həmişə bunu yadda saxlamalıyıq. Merilend Ştatının israrı ondan ibarət deyil ki, ştatlar Konqresin qəbul etdiyi qanunları yerinə yetirməkdən imtina edə bilərlər, ondan ibarətdir ki, "Ştat, üzərinə qoyulmuş səlahiyyətlərdən istifadə etmək hüququna malikdir və bu hüquq Ştata, ondan düzgün istifadə etmək şərtilə, Konstitusiya ilə ona verilmişdir".

Ştatın bu müddəasına baxmağa başlamazdan və onu Konstitusiya sınağına məruz qoymazdan əvvəl başlanğıc üçün Ştatların ixtiyarında olan vergi tətbiq etməyə ilkin hüququn xarakterini və dərəcəsini araşdırmaq zəruridir.

Etiraf edirəm ki, insanlara və onların əmlakına vergi qoymaq səlahiyyəti dövlətin mövcudluğu üçün zəruridir və onları tətbiq olunmalı obyektlərə aid qanuni şəkildə həyata keçirmək olar. Bu halda hakimiyyətdən suiistifadə əleyhinə yeganə təhlükəsizlik tədbirini dövlətimizin quruluşunda tapmaq olar. *Burada vətəndaşlarına vergi tətbiq edən dövlət özü həmin vətəndaşlar tərəfindən yaradılır.*

Ştatın suverenliyi onun səlahiyyətləri çərçivəsində olanlara və ya onun razılığı ilə fəaliyyətə başlayan hər şeyə şamil edilir; lakin bu Birləşmiş Ştatlar xalqı tərəfindən Konqresin üzərinə qoyulmuş səlahiyyətlərin istifadə olunan vasitələrinə də şamil edilirmi? Biz sübut edə bilərik ki, şamil edilmir. İttifaq dövlətinin səlahiyyətləri ona ayrıca götürülmüş bir Ştatın vətəndaşları tərəfindən verilmir. Bu səlahiyyətlər ona Birləşmiş Ştatların bütün vətəndaşları tərəfindən verilir, bu dövlətin qanunları isə Konstitusiya əsasında qəbul olunur və ali elan edilir. Deməli, ayrıca bir Ştatın vətəndaşları onların səlahiyyətlərindən yuxarıda dayanan suverenliyi şübhə altına ala bilməzlər.

Satış üçün nəzərdə tutulmayıb

Əgər Ştatın vergi tətbiq etmək üzrə səlahiyyətlərini bu Ştatın vətəndaşlarının malik olduqları və onları öz hakimiyyətlərinin verə biləcəkləri suverenliyin dərəcəsinə əsasən qiymətləndirsək, onda bu səlahiyyətləri necə həyata keçirməli olması da aydınlaşar. Bizdə mövcud olan prinsipə əsasən öz vətəndaşlarına və onların əmlakına vergi tətbiq edilməsində heç kəs Ştatın səlahiyyətinə qarışa bilməz; öz ehtiyatları üzərində Ştat özü sərəncam verir; eyni zamanda Birləşmiş Ştatların xalqı tərəfindən İttifaq dövlətinə verilən səlahiyyətlər və onların icrası üçün vasitələr Ştat hakimiyyəti üçün əlçatmazdır. Bu prinsip ştatlara da, İttifaqa da münasibdir. Beləliklə, biz özümüzü suverenitetlər konfliktindən; bir-birinə zidd səlahiyyətlərdən; bir hökumətin yaratmaq hüququnun digər hökumətin ləğv etmək hüququ ilə uyğunsuzluğundan qoruyuruq. Biz vergi tətbiq etmənin hansı səviyyəsinin qanuni olması, hansının hakimiyyətdən sui-istifadə kimi dəyərləndirilə bilməsinə aid olan ədliyyə orqanlarına şərəf gətirməyən istintaq aparmalı olmuruq. Konstitusiyaya əsasən İttifaqın sərəncamında olan vasitələrdən istifadə etməyə Ştatın istənilən cəhdinə hakimiyyətdən sui-istifadə kimi baxılacaq, çünki belə səlahiyyətlər ayrıca götürülmüş Ştatın xalqına verilə bilməz.

Sonra birdən ortaya belə bir nəzəriyyə çıxır ki, İttifaq tərəfindən istifadə olunan vasitələrə vergi qoymağa dair fundamental hüquq tamamilə qeyritəbiidir və İttifaqın belə bir hüququ heç vaxt mövcud olmayıb, onun verilməsi barədə məsələ də qaldırıla bilməz.

Ancaq hələlik bu nəzəriyyəni bir kənara qoyaq və Konstitusiya düzgün şərh olunarsa, bu səlahiyyətlər bilavasitə ştatlar tərəfindən həyata keçirilə bilərmi sualını aydınlaşdırmağa davam edək.

Heç şübhə yox ki, vergi tətbiqetmə üzrə səlahiyyətdə *ləğvetmə* funksiyası da nəzərdə tutulur; *ləğvetmə* funksiyası *yaratmaq* funksiyasını üstələyir və mənasızlaşdırır; bir hökumətə ondan ali sayılan digər hökumətin konstitusion vasitələri üzərində nəzarət hüququ verilməsində açıq ziddiyyət var. Amma bəlkə də, bütün bu ziddiyyətləri sehrli "etibar" sözünün köməyi ilə tənzim etmək olar? Məlum olduğu kimi *vergi tətbiqetmə* heç də təkcə *ləğvetmə* demək deyil. Verginin *ləğvetmə* həddinə çatdırılması sui-istifadə sayılacaq, nəticədə bütün dövlətlər üçün çox zəruri olan [xalqın] etibar hissi itəcəkdir.

Ancaq bütün iş etibardadırmı? Bir Ştatın vətəndaşları öz Ştatının hakimiyyətinin ən vacib əməliyyatlarına nəzarət üzrə səlahiyyətləri başqa Ştatın vətəndaşlarına etibar edərmi? Əlbəttə ki, yox. Biz niyə gözləməliyik ki, bir Ştatın vətəndaşları özlərinin ən vacib maraqlarını etibar etdikləri İttifaq dövlətinin fəaliyyətinə nəzarət səlahiyyətlərini hansısa Ştatın vətəndaşlarına verməlidir? Ölkənin *bütün* vətəndaşları yalnız İttifaqın qanunvericilik

Satış üçün nəzərdə tutulmayıb

məclisində təmsil olunur. Deməli, bütün vətəndaşların marağına toxunan vasitələr üzərində nəzarət üzrə səlahiyyətləri, bundan sui-istifadə etməyəcəyinə əmin olmaqla yalnız Konqresə etibar etmək olar. Bu zaman həmin məsələ artıq etibar məsələsi olmur, ona olduğu şəkildə də baxmaq lazımdır.

Merilend Ştatının təkid etdiyi prinsipi tətbiq etsək, o Konstitusiyanın xarakterini tamamilə dəyişəcək. Biz görərik ki, bütün İttifaq dövləti vasitəsiz qala bilər və hər şey ştatlara tabe edilər. Amerika xalqı bəyan edib ki, Konstitusiya və onun əsasında qəbul edilən qanunlar alidir; lakin yuxarıda göstərilən nəzəriyyə bu aliliyi ştatlara verir.

Əgər ştatlar İttifaq dövlətinin onun səlahiyyətlərini həyata keçirmək məqsədilə istifadə etdiyi vasitələrdən birinə vergi qoymaq imkanındadırsa, onda onlar bu minvalla istənilən başqa vasitəyə də: poçta, çap sarayına, patent hüquqlarına, gömrük xidmətinə, məhkəmə prosesinə, eləcə də dövlətin istifadə etdiyi başqa vasitələrə də vergi qoya bilər ki, nəticədə İttifaq dövləti öz mənasını itirər. Amerika xalqı bunu istəmir. Xalq istəmir ki, onların dövləti ştatlardan asılı olsun...

Məhkəmə bu işi diqqətlə araşdırdı və nəticədə belə bir fikrə gəldi ki, ştatlar istər vergi tətbiqetməyə, istərsə də Konqres tərəfindən səlahiyyətlərini həyata keçirmək çərçivəsində qəbul olunan və İttifaq dövlətinə həvalə edilən konstitusiya qanunlarının fəaliyyətinə maneçilik törədən, onları ağırlaşdıran və ya hər hansı üsullasa onlara nəzarət edən istənilən digər səlahiyyətlərə malik olmamalıdır. Fikrimizcə, Konstitusiyada təsbit edilən aliliyin əsas prinsipi elə bundan ibarətdir.

Biz yekdil qərara gəldik ki, Birləşmiş Ştatlar Bankına vergi tətbiq etmək haqqında Merilend Ştatının qanunverici məclisinin qəbul etdiyi qanun Konstitusiyaya zidd olmaqla etibarsızdır.

Qərarımız ştatların əvvəlcədən malik olduqları ehtiyatlardan məhrum edilməsi demək deyil. Qərar bank tərəfindən daşınmaz əmlaka görə Ştat hakimiyyətinə ödənilən vergilərə, Merilend Ştatının vətəndaşlarının bu bankda və bütün Ştat üzrə onun digər idarələrində olan payına görə ödənilən vergilərə şamil edilmir. Lakin bu bankın fəaliyyətinə [Merilend Ştatı tərəfindən] qoyulan vergi dövlətin öz səlahiyyətlərini həyata keçirmək məqsədilə istifadə etdiyi alətin fəaliyyətinə qoyulan vergidir. Belə vergi qeyri-konstitusion sayılmalıdır.

Mənbə: 4 Wheaton 316 (1819).

Satış üçün nəzərdə tutulmayıb

III HİSSƏ

Amerika Cəmiyyətinin İnkişafı

Artıq XIX əsrin əvvəllərində Birləşmiş Ştatlar gözə çarpan bolluğa nail oldular və çoxlarında belə hiss formalaşdı ki, gənc dövlət və onun vətəndaşları bütün çətinlikləri aşa bilər. Amerikanın müqəddəs "Təpədə şəhər" barədə puritan arzusu həyata keçməyə yaxın görünürdü.

Bu optimizmin bir neçə səbəbi vardı. 1812-ci il ABŞ-Britaniya müharibəsi dövrü istisna olunmaqla, ölkə sülh və əmin-amanlıq şəraitində yaşayırdı. Britaniya ilə müharibə isə bir çox amerikalılara yeni millətin istiqlaliyyətini təsdiqləyən İnqilabi mübarizənin son pərdəsi kimi görünürdü. Bəzi iqtisadi problemlərə baxmayaraq Birləşmiş Ştatlar çiçəklənirdi, qərb torpaqlarının kəşfi isə siyasi azadlıq və özünütəsdiq imkanları axtaran böyük sayda Avropa mühacirlərinin qəbul edilməsinə imkan yaratdı. 1803-cü ildə Fransadan Luiziananın satın alınması Amerika sərhədlərini Sakit okean sahillərinə qədər genişləndirdi, Lyuis və Klarkın[21] ekspedisiyalarının yeni torpaq axtarışları isə daha məhsuldar torpaqların və meşələrin aşkar edilməsi ilə nəticələndi ki, bunların tədqiq edilməsi və məskunlaşdırılması hələ qarşıda dururdu.

Lakin ən vacib olan şey – demokratik təcrübənin arasıkəsilməz uğurları idi. "1800-cü ilin qansız inqilabı" (1800-cü il prezident seçkilərini belə adlandırmağa başladılar) nəticəsində hakimiyyət sülh yolu ilə federalistlərdən respublikaçıların əlinə keçdi. O vaxta qədər dünya tarixində buna oxşar hadisə olmamışdı. Quldarlığın kölgəsi ölkənin gələcəyi barədə nikbinliyi azaltsa da (IV hissəyə bax), amerikalıların əksəriyyəti fəxr edirdi ki, dünyada heç bir başqa xalq bu dərəcədə azad deyil. İdeal vətəndaş harada isə meydana çıxa bilərdisə, Birləşmiş Ştatlar bunun üçün ən münbit zəmin yaradırdı.

Ölkənin gələcəyinə olan inam problemlərin unudulmasına gətirib çıxarmırdı, hamı başa düşürdü ki, amerikalılar hələ kamil cəmiyyət qurmayıb. Lakin tədqiqatçılar, incəsənət və siyasət adamları yekdilliklə inanırdılar ki, bu problemlər həll ediləndir, yeni amerikalılar öz talelərinin ağası olacaqlar, onlar

Satış üçün nəzərdə tutulmayıb

Konstitusiya əsasında daha mükəmməl İttifaq quracaq və daha kamil cəmiyyət yaradacaqlar.

Kitabın bu hissəsində biz, bir sənəddən başqa qalan bütün sənədlərdən, yuxarıda göstərilən bolluq və inam haqqında məlumatları götürəcəyik. Kitabın bu hissəsinin materialları, şəxsin imkanlarının hədsiz olduğu daha demokratik cəmiyyətin mənzərəsini göstərir.

11. Birinci İnauqurasiya Nitqi (1801)

Tomas Cefferson

1797-ci ildə Corc Vaşinqtonu prezident postunda ABŞ-ın ikinci prezidenti Con Adams əvəz etdi. Amma Adams da federalist idi, Vaşinqtonun olduğu partiyanın üzvü idi, ona görə də, hakimiyyətin verilməsi daha çox onun irsən keçməsinə oxşayırdı.

Lakin 1800-cü ilin gərgin seçkiləri nəticəsində Virciniyadan olan Tomas Ceffersonun rəhbərlik etdiyi respublikaçılar qəti qələbə qazandılar. Konstitusiya müəlliflərinin qabaqcadan nəzərə almadığı texniki çətinliklər ucbatından seçkiləri Konqresin Nümayəndələr Palatasında keçirtmək lazım gəldi.

Konstitusiyaya görə hər bir ştatda seçicilər iki səs verməli idi: biri prezidentə, digəri vitse-prezidentə görə. Konstitusiyada dəqiq deyilmişdi ki, daha çox səs toplayan şəxs prezident, ikinci səs qazanan isə vitse-prezident olur. Amma 1800-cü ilə qədər artıq siyasi partiyalar formalaşmışdı və Cefferson Nyu-Yorkdan olan Aaron Berrlə *(Aaron Burr)* birlikdə səsə qoyulmuşdu. Respublikaçıların tərəfdarları biri Ceffersona, digəri isə Berrə olmaqla iki səs vermişdilər, lakin seçki bülletenlərində prezident və vitse-prezident vəzifələri nişanlanmadığı üçün, nəticədə onlar hər ikisi eyni səs toplamışdılar. Konstitusiyaya görə, səsvermənin nəticələrini hər bir ştatın bir səsə malik olduğu Konqresin Nümayəndələr Palatası müəyyən etməli idi.

Federalistlər seçkinin nəticələrini ləğv etməyə və onu Konqresdə keçirtməyə nail olmağa çalışırdılar. Gərgin və çox zaman qızğın keçən mübahisələrdən sonra hər halda birbaşa xalq tərəfindən seçilmiş prezident – Cefferson qalib kimi tanındı. Sonralar Konstitusiyaya düzəliş yolu ilə bu problem aradan qaldırıldı. Lakin daha əhəmiyyətli

Satış üçün nəzərdə tutulmayıb

cəhət bu oldu ki, bu seçkilər presedent yaratdı: qalibi xalqın iradəsi müəyyən etdi, uduzan partiya isə bu məğlubiyyəti sakitcə qəbul etdi və növbəti seçkiləri gözləməyə başladı.

Ceffersonun seçkiləri ilə Nümayəndələr Palatasının son qərarı arasındakı dövrdə bir çox avropalı müşahidəçi gözləyirdi ki, Birləşmiş Ştatlarda tezliklə vətəndaş müharibəsi başlanacaq, axı hakimiyyətin sülh yolu ilə hakim partiyadan müxalifət partiyasına keçməsi dünya tarixində hələ olmamışdı. Buna baxmayaraq, hakimiyyət dəyişikliyi sülh yolu ilə həyata keçirildi.

Bəziləri gözləyirdi ki, Cefferson özünün inauqurasiya nitqində federalistləri tənqid edəcək və onların əvvəllər də pislədiyi siyasətindən üz döndərəcək. Lakin bunun əvəzində o öz rəqiblərinə sülhün zeytun budağını uzatdı və demokratiyanı göylərə qaldıraraq müxtəlif ideyaların bütün spektrinin birgə yaşaya bildiyi cəmiyyəti tərifləyi. O təsdiq etdi ki, yalnız öz vətəndaşlarına tam seçki azadlığı verən demokratik cəmiyyət çiçəklənə bilər. Beləliklə, daha bir ənənə yaradıldı: siyasi partiyalar arasında gedən mübarizə nə qədər gərgin olursa-olsun, onlar seçkinin nəticələri ilə barışmaqdan əlavə, həm də xalqın mənafeyi naminə qalib tərəflə əməkdaşlıq etməlidir.

Əlavə məlumat üçün oxuyun: Dumas Malone, volumes 3 and 4 of *Jefferson and His Times* (1948-81); David Sisson, *The American Revolution of 1800* (1974); and Merrill D. Peterson, *Thomas Jefferson and the New Nation* (1970).

BİRİNCİ İNAQURASİYA NİTQİ

Dostlar və yurddaşlar!

Mən sizin tərəfinizdən ölkənin ali icraedici vəzifələrini yerinə yetirmək üçün seçilmiş adam kimi həmvətənlərimin bir hissəsinin burada olmasından istifadə edərək mənə göstərilmiş etimada görə təşəkkürümü bildirirəm. Mən səmimi şəkildə anlayıram ki, bu vəzifə mənim qabiliyyətimdən yuxarıda dayanır və mən bunu üzərimə qoyulan vəzifələrin böyüklüyü və gücümün zəifliyindən irəli gələn narahat və həyəcanlı hisslərlə dərk edirəm...

Satış üçün nəzərdə tutulmayıb

Arxada qalmış mübahisələrin gedişində canlı diskussiya və gərginliklər özünün bəzi cəhətləri ilə azad düşünməyə, düşündüklərini deməyə və yazmağa adət etməmiş kənar adamlara pis təsir edə bilərdi; lakin indi — bütün bunların xalqın səsi ilə həll olunduğu və Konstitusiyaya uyğun elan edildiyi zaman, əlbəttə, bütün iradələr qanunun iradəsinə tabe ediləcək və ümumi mənafe naminə birgə səylərdə cəmləşdiriləcəkdir. Hamı həmçinin o müqəddəs prinsipə riayət edəcəkdir ki, əksəriyyətin iradəsinin bütün hallarda hökmran olmasına baxmayaraq, ədalətli olması üçün o, ağlabatan olmalıdır; həmçinin azlıq bərabər hüquqlara malikdir, bu hüquqları bərabər qanunlar müdafiə etməlidir və onların pozulması sıxışdırılma demək olardı. Yurddaşlar, onda gəlin ürəyimiz və ağlımızla birləşək. Gəlin ictimai münasibətlərdə harmoniya və məhəbbəti bərpa edək, onlarsız azadlıq da, hətta həyatın özü də sönük bir şeyə çevrilərdi. Və gəlin bir düşünək ki, bəşəriyyətin uzun müddət nəticələrindən əzab çəkdiyi və qanlar tökdüyü dini dözümsüzlüyü torpağımızdan uzaqlaşdırıb despotik, mənəviyyatsız, qəddar və qanlı təqiblərə qabil olan siyasi dözümsüzlüyə imkan veririksə, deməli, hələ çox şeyə nail ola bilməmişik... Axı hər fikir ayrılığı prinsip ayrılığı demək deyildir. Biz eyni prinsipə müxtəlif adlar qoyduq. Biz hamımız respublikaçıyıq və biz hamımız federalistik. Və əgər aramızda bu Birliyi pozmaq, yaxud onun respublika formasını dəyişmək istəyən adamlar varsa, qoy onlar ağlın fikir yanlışlıqları ilə mübarizə etməyə azad olan yerdə yaranan təhlükəsizliyə ucaldılmış abidələr kimi farağat dayansınlar.

Mən həqiqətən bilirəm ki, bəzi ləyaqətli insanlar qorxurlar ki, respublika quruluşu möhkəm ola bilməz, bu dövlət kifayət qədər möhkəm deyildir. Lakin ləyaqətli bir vətənpərvər uğurlu təcrübənin gedişində bizi, hələlik azad və mətin şəkildə qoruyub saxlayan hökumətdən imtina edəcəkdirmi; o, nəzəri və güman edilən təhlükələrə görə bütün dünyanın böyük ümid bəslədiyi bu dövlətin özünü qoruyub saxlamağa gücünün yetəcəyinə şübhə edəcəkdirmi? İnanıram ki, yox! Əksinə, mən inanıram ki, bu, dünyada ən güclü dövlət quruluşudur. Mən inanıram ki, yeganə dövlətdir ki, burada hər bir insan qanunun tələbi ilə dərhal ona tabe olacaqdır və hər bir insan burada ictimai asayişin pozulmasını özünün şəxsi problemi kimi qəbul edəcəkdir. Bəzən deyirlər ki, insana özünü idarə etməyi etibar etmək olmaz. Onda o, başqalarının onu idarə etməsinə etibar edə bilərmi? Yoxsa biz kralların simasında mələklər tapmışıq ki, onu idarə etsin? Qoy bu suala tarix cavab versin...

Yer kürəsinin dörddəbirinin məhvedici hərc-mərcliyindən təbiətin və geniş okeanın iltifatla ayırdığı; başqalarının pozğunluğuna dözə bilməmək qədər yüksək əxlaqlı; minlərcə nəsillərimizə yetəcək qədər geniş ərazili ölkəyə malik olaraq; qabiliyyətimizdən istifadə olunması üçün bərabər hüquqlarımızdan həzz alaraq...; bütün bu nemətlərlə bizi xoşbəxt və firavan etmək üçün daha nə çatışmır? Yurddaşlar, yalnız bir şey — müdrik və qənaətcil hökumət çatışmır. Bu hökumət adamların bir-birinə ziyan vurmasının qarşısını

Satış üçün nəzərdə tutulmayıb

almalıdır, onları öz işləri ilə məşğul olmaq və öz həyatlarını yaxşılaşdırmaq üçün sakit buraxmalıdır, fəhlənin qazandığı çörəyi onun ağzından dartıb almamalıdır. Yaxşı hökumət elə bu deməkdir, tam xoşbəxtliyimiz üçün lazım olan da elə budur.

Yurddaşlar, sizin üçün əziz və dəyərli olan şeylərin hamısını özündə ehtiva edən vəzifələrin yerinə yetirilməsinə başlamazdan öncə mənim dövlət quruluşumuzun başlıca prinsipləri, buradan da hökumətimizin siyasətini formalaşdırmalı olan prinsiplər kimi nəyi gördüyümü bilməlisiniz.

Mən onlar haqqında yalnız ümumi prinsipləri qeyd etməklə, lakin məhdudiyyətlərin heç də hamısını göstərməməklə qısa danışacağam — bu, dini, yaxud siyasi əqidəsindən asılı olmayaraq bütün adamlar üçün bərabər və dəqiq qanunçuluqdur; dövlətlərdən heç biri ilə dolaşıq ittifaqa girmədən bütün dövlətlərlə sülh, ticarət və təmiz dostluqdur; daxili işlərimizdə daha səriştəli orqanlar sayılan və antirespublika meyillərinə qarşı ən ciddi sədlər olan ştatların hökumətlərinin bütün hüquqlarının müdafiə edilməsidir; ölkədə sülhümüzün, xaricdə təhlükəsizliyin əsası kimi ümumi hökumətin bütün Konstitusiya gücü ilə qorunub saxlanılmasıdır; insanların seçki hüquqlarına, sui-istifadələrə qarşı bu mülayim və təhlükəsiz (əks halda dinc vasitələrin tətbiq edilə bilmədiyi yerlərdə sui-istifadələr inqilabın qılıncı ilə kəsilib atılır) mübarizə üsuluna münasibətdə ən incə qayğıdır; mülki hakimiyyətin hərbi hakimiyyətdən üstünlüyüdür; məlumatın [azad] yayılması və sui-istifadələrə görə cəmiyyət qarşısında məsuliyyətdir; vicdan azadlığıdır; mətbuat azadlığıdır; *habeas corpus'*un müdafiəsi altında insan azadlığıdır; ədalətlə seçilmiş andlılar məhkəməsidir — bu prinsiplər qarşımızdan keçən, bizi inqilab[xxii] və reformasiya əsrindən keçirib aparan parlaq ulduzlar bürcünü formalaşdırır. Bu prinsiplər müəllimlərimizin müdrikliyi və qəhrəmanlarımızın qanı bahasına əldə edilmişdir. Onlar siyasi baxışlarımızın dini təliminə, vətəndaş kodeksinin mətninə, məsləkimizə xidmətimizin standartına çevrilməlidir. Və əgər səhvlər, yaxud həyəcanlar anında bu prinsiplərdən geri çəkilsək, gərək addımlarımızı tez də düzəldək və sülhə, azadlığa, təhlükəsizliyə doğru aparan bu yeganə yolu bərpa edək...

Mən indi sizin xoş niyyətinizə söykənməyə ümid bəsləyərək itaətkarlıqla işə başlayıram və sizin qərarınıza uyğun olaraq (belə qərarın daha yaxşı olduğunu hesab etsəniz) istefaya getməyə hazıram – bunu etməyə sizin haqqınız var. Və qoy kainatın taleyini idarə edən Sonsuz hakimiyyət dövlət şuralarımızı uğura doğru aparsın və onlara əmin-amanlığınız və çiçəklənməyiniz üçün xoş nəticələr qismət etsin.

Mənbə: Merrill D. Peterson, ed., The Portable Thomas Jefferson (1975), 290.

Satış üçün nəzərdə tutulmayıb

Satış üçün nəzərdə tutulmayıb

12.Təslim Nitqi (1832)

Qara Tərlan

Şimali Amerikada heç vaxt sahibsiz torpaq olmayıb. Avropalıların məskunlaşmasının başlanğıc dövründə burada, formalaşmış və yaxşı fəaliyyət göstərən cəmiyyətə malik yerli amerikan tayfaları yaşayırdılar. İngilislərin Çesapik çayının mənsəbində Amerika torpağına qədəm qoyduğu andan, ilk mühacirlərin özləri və onların mədəni dəyərləri yerli sakinlərin dəyərləri ilə ziddiyyətə girdi. Hələ inqilabdan öncə ağdərililər "hindu" adlandırdıqları yerli tayfaları Qərbə doğru sıxışdıra bilmişdilər. Bundan əlavə, avropalıların, torpaqları məskunlaşdırmaq və istismara vermək, habelə yerli əhaliyə öz dinini zorla sırımaq kimi tədbirləri yerli mədəniyyətə tam zidd idi. Bəzi tədqiqatçıların fikrincə, həm yerli amerikan tayfaları, həm də ingilis mühacirləri öz xalqlarının formalaşması mərhələsində idilər və nəticədə, təəssüf ki, bu proseslər bir-biri ilə münaqişəyə girdi.

Birləşmiş Ştatlar təsis edildikdən sonra ştatların liderləri və federal dövlət qərara gəldilər ki, ölkə üçün yerli amerikalılar barədə dövlət siyasətini işləyib hazırlamaq hava, su kimi vacib məsələdir. Əfsuslar olsun ki, 1820-ci illərdə, "hindu problemi"ni həll etmək üçün qəbul edilmiş siyasət onların yaşadıqları ərazilərdən sıxışdırılıb çıxarılmasını və "Böyük Amerika Səhrasında" yerləşdirilməsini nəzərdə tuturdu. 1830-cu ildə Konqres hinduların köçürülməsi haqqında qanun qəbul etdi və bu məqsəd üçün 500 000 dollar ayırdı. Endryu Cəksonun *(Andrew Jackson)* prezidentliyi dövründə köçürülmə haqqında bu cür 94 akt imzalandı. 1840-cı ilə qədər isə ən sıx əhalisi olan ştatlardakı və ərazilərdəki hindular Qərbə sürgün edildi.

Yalnız bir neçə tayfa könüllü köçməyə razı oldu. 1832-ci ilin aprelindən avqustunadək olan müddətdə hinduların Sok və Foks tayfaları nümayəndələrindən təşkil edilmiş silahlı dəstə Qara Tərlanın rəhbərliyi altında İllinoys və Viskonsindəki torpaqlarını yenidən tutmağa cəhd etdi. Qərbdə aclıqla və Siu tayfa birliyinin düşmən münasibəti ilə üzləşmiş bu tayfalar ağ amerikalılardan yalnız bir şey – qarğıdalı yetişdirmək üçün yararlı torpaq sahəsi tələb edirdilər. Bu haqlı tələbi yerinə yetirmək əvəzinə, İllinoysun yığma qoşun dəstələri onları Viskonsinə qədər qovdular və tayfa Missisipi çayını keçməyə cəhd etdikdə, ağların silahlı qüvvələri həmləylə hinduların bir

Satış üçün nəzərdə tutulmayıb

çoxunu, o cümlədən qadın və uşaqları qırdılar. Qara Tərlan təslim olmalı oldu və özünün təslim nitqində o, ağların yerli amerikalılara qarşı törətdikləri bütün haqsızlıq və xəyanətləri sadaladı.

Məğlubiyyətdən sonra Qara Tərlan və onun oğlu Çaxan Şimşək yaxalandılar və Endryu Ceksonun əmri ilə "müharibə qənimətləri" qismində ölkə üzrə "nümunəvi" səfərə göndərildilər. Lakin bu iki hindu özünü elə ləyaqət və dözümlə aparırdı ki, tezliklə ictimaiyyət onlara rəğbətlə yanaşmağa başladı. Fəqət, amerikalıların qərbdə mümkün qədər çox torpaq ələ keçirmək iştahası heç cür azalmırdı, hökumət isə hindu tayfalarını tərəqqi yolunda əngəl saymaqda davam edirdi. Hökumətin fikrincə, hinduları ya əldən-ayaqdan uzaq rezervasiyalara sürgün etmək, ya da qırmaq lazım idi. Federal hökumətin bu siyasəti XX yüzilliyə – Birləşmiş Ştatların artıq qitənin böyük bir hissəsində bərqərar olduğu dövrə qədər davam etdi.

Əlavə məlumat üçün oxuyun: Black Hawk: An Autobiography (Jackson, ed., 1955); Grant Foreman, Indian Removal (1932); Ronald N. Satz, American Indian Policy in the Jacksonian Era (1974); Michael D. Green, The Politics of Indian Removal (1982); and Francis Paul Prucha, The Great Father: The United States Government and the American Indians (1986).

TƏSLİM NİTQİ

Qara Tərlan hindudur. O, hindunun utana biləcəyi heç nə etməmişdir. O öz həmvətənləri, hindu qadınlar və uşaqlar uğrunda buraya onları aldatmaq və torpaqlarını əllərindən almaq üçün ildən-ilə axışan ağ adamlara qarşı mübarizə aparmışdır. Siz bizim nə üçün vuruşduğumuzu bilirsiniz. Bu, bütün ağ adamlara məlumdur. Buna görə onlar utanmalıdırlar. Ağ adamlar hindulara nifrət edir və onları evlərindən qovub çıxarırlar. Lakin hindular yalançı deyillər. Ağ adamlar hindular haqqında pis danışır və onlara qəzəblə baxırlar. Lakin hindu yalan danışmır, oğurluq etmir.

Əgər hindu ağ adam kimi pis olsa, bizim xalqın içərisində yaşaya bilməz; o, ölümlə cəzalandırılacaq və canavarlara atılacaqdır. Ağ adamlar pis müəllimdirlər; onların baxışları yalançıdır və onlar ticarətdə aldadırlar; onlar yazıq hindunun üzünə gülürlər ki, onu aldatsınlar; onlar hindunun

Satış üçün nəzərdə tutulmayıb

əlini sıxırlar ki, özlərinə qarşı inam yaratsınlar, onları sərxoş olanacan içirtsinlər və bizim qadınları korlasınlar. Biz onlara dedik ki, bizi sakit buraxsınlar və bizdən uzaq olsunlar, lakin onlar bizi təqib edir, öz cığırlarımızla getməyimizə mane olur və ilan kimi içərimizdə hərlənirdilər. Onlar toxunmaqları ilə bizi zəhərlədilər. Biz təhlükə qarşısında idik. Biz təlaş içərisində yaşayırdıq. Biz də zəhməti yaddan çıxararaq zəhmətkeşlərə yox, onlar kimi ikiüzlü və yalançılara, zinakarlara, tənbəllərə, boşboğazlara çevrildik.

Biz Böyük Ruha müraciət etdik. Biz böyük atamızın hüzuruna getdik. Biz ruhlandıq. Onun ali məsləhətləri bizə şərəfli sözlər və böyük ümidlər verdi, lakin biz məmnun ola bilmədik. İşlər pis gedirdi. Meşədə marallar yoxa çıxdı. Opossum[xxiii] və qunduzlar qaçıb getdi, qadınlarımız və uşaqlarımız ərzaqsız qalıb aclıq keçirdilər; biz böyük şura çağırdıq və böyük tonqal qaladıq. Atalarımızın ruhları gəldi və bizimlə danışdılar ki, səhvlərimizi və yanlışlıqlarımızı bizə göstərsinlər. Biz hamımız şura odu qarşısında danışırdıq. Bu, çox isti və xoş idi. Biz müharibəyə çağırdıq və tomahavkları[xxiv] çıxartdıq; bıçaqlarımız hazır idi və Qara Tərlanın ürəyi sinəsində öz döyüşçülərini savaşa apararkən fərəhlə döyünürdü. O, məmnun oldu. O, məmnun ruhların dünyasına gedəcəkdir. O öz borcunu yerinə yetirdi. Atası onu orada qarşılayacaq və tərifləyəcəkdir.

Mənbə: Frank E. Stevens, The Black Hawk War (1903), 372-73

Satış üçün nəzərdə tutulmayıb

13. "Amerikada Demokratiya" (1835)

Aleksis de Tokvil

Kənar adamlar çox vaxt bizim üçün adiliyə çevrilmiş şeyləri böyük aydınlıqla görə bilirlər. Buna görə amerikalılar bütün tarixləri boyu əcnəbi səyahətçilərin Amerika haqqında şərhlərinə böyük maraq göstərmişlər. Belə ki, bu şərhlər çox vaxt Amerika mədəniyyəti və cəmiyyətinin, amerikalıların özlərinin əvvəllər sezmədikləri xüsusiyyətlərini açıb göstərirdi. Lakin Amerikaya səfər etmiş və öz təəssüratlarını yazıya almış çoxsaylı səyahətçilər arasında heç kəs Aleksis de Tokvil *(Alexis de Tocqueville)* qədər itigöz olmamışdır. Təsadüfi deyil ki, onun bu barədə yazıları təkcə Köhnənin deyil, hətta Yeni Dünyanın da Cekson dövrü Amerikasını anlaması prosesinə təsir göstərmiş və göstərməkdədir.

Fransız aristokratları Tokvil və Qustav de Bomon *(Gustave de Beaumont)* 1831-ci ildə Fransa hökuməti tərəfindən, Amerika həbsxana sistemini öyrənmək üçün ezam edilmişdilər. Onlar Nyu-Yorka may ayında gəlmiş və Amerika torpağında keçirdikləri doqquz ay ərzində ştatları birər-birər gəzmişdilər. Öz səyahətləri gedişində onlar yalnız həbsxanalar haqqında öz təəssüratlarını deyil, həm də Amerika cəmiyyətinin, onun iqtisadiyyatının və bənzəri olmayan siyasi sisteminin bütün aspektləri haqqında öz təəssüratlarını qələmə almışdılar. 1832-ci ilin fevralında Fransaya qayıtdıqdan sonra onlar Amerika həbsxana sistemləri haqqında hesabatı hökumətə təqdim etmiş, Bomon isə Amerika Birləşmiş Ştatlarındakı irqi münasibətlər haqqında kitab yazmışdı.

Lakin məhz Tokvilin, XIX əsrdə dönə-dönə nəşr edilmiş "Amerikada demokratiya" kitabına, yaddaşlarda klassik əsər kimi qalmaq xoşbəxtliyi nəsib oldu. Onu Amerikanın siyasi həyatı məftun etmiş və o, sadə xalqın siyasi prosesləri tam dərəcədə özünə şamil etməsi kimi nadir duyğunu (belə bir fenomen Köhnə Dünya üçün tamamilə yad idi) dəqiq sezib göstərə bilmişdi. Tokvil Amerikaya Endryu Ceksonun hakimiyyəti dövründə, siyasi partiyaların ciddi dəyişikliklərə uğradığı vədədə gəlmişdi. O vaxtlar, partiyalar yerli elitanın qapalı klubları tərəfindən idarə olunan kiçik təşkilatlardan, kütləvi üzvlüyə malik olan, öz rəsmi şəxslərini yerli və milli səviyyələrdə seçən iri təsisatlara çevrilməyə başlamışdı. Tokvil, təəccüblə yazırdı:

"Amerika torpağına qədəm basar-basmaz, dörd bir tərəfdə hökm sürən canfəşanlığa heyrət edirsən... Deyəsən, amerikalıların yeganə həzz aldıqları iş – hökumətin fəaliyyətində iştirak etmək və onun hər bir addımını müzakirə etməkdən ibarətdir. Bu ruh yüksəkliyinin nümunəsi qismində, Nyu-York Ştatında, Oberndə açıq səma altında keçirilən iri miqyaslı yığıncağı xatırlayıram – həmin yığıncaqda Virciniyadan olan senator Rivers üç saat yarım ərzində fasiləsiz nitq söyləmiş, kiçik fasilədən sonra isə Karolina Ştatını təmsil edən senator Leqar daha iki saat yarım çıxış etmişdi!"

Satış üçün nəzərdə tutulmayıb

"Amerikada demokratiya" kitabında müəllif itigözlüyünə görə böyük şöhrət qazansa da, bəzi alimlər bu tədqiqatdakı aşkar nəzərə çarpan boşluqlara görə onu tənqid etmişdilər. Aristokrat Tokvil, məsələn, şəhərlərdə yoxsulluq və kölələrin vəziyyəti kimi xoşagəlməz faktlara göz yummağı üstün tutmuşdu. Bununla belə, onun Cekson dövründəki Amerika haqqında hekayəti gənc millətin enerjisini xüsusi qeydə almış və demokratiyanı işləməyə vadar etmək üçün amerikalıların nə qədər güc sərf etdiyini ustalıqla açıb göstərə bilmişdir. Aşağıda oxucuların diqqətinə təqdim edilən parçalarda siyasi sistem təhlil olunur, demokratiyanın güclü, eləcə də zəif cəhətləri təsvir edilir.

Əlavə məlumat üçün oxuyun: Whitney Pope and Lucetta Pope, Alexis de Tocqueville: His Social and Political Theory (1986); Richard Reeves, American Journey: Traveling with Tocqueville in Search of Democracy in America (1982).

AMERİKADA DEMOKRATİYA

Mövcud fəslin əvvəlində mən, bu kitabda dönə-dönə təkrarladığım bir fikri oxucunun yadına salmağı vacib sayıram.

Birləşmiş Ştatların siyasi quruluşu idarəetmənin demokratik formasından ibarətdir; lakin fikrimcə, Amerika idarələri, demokratik cəmiyyətdə yaşayan xalq üçün heç də ən yaxşı və yeganə mümkün olan qurumlar deyildir.

Oxucuları Amerika demokratiyasının üstünlükləri ilə tanış edərkən, belə bir fikirdən uzağam ki, guya bu cür üstünlüklər yalnız hansısa müəyyən qanunların təsiri nəticəsində yarana bilər.

Amerikada Demokratik hakimiyyətin qanunlarının ümumi istiqaməti və bunları həyata keçirənlərin xüsusiyyətləri. *Demokratiyanın qüsurları dərhal gözə dəyir – Onun üstünlükləri zaman keçdikdə aşkar olur – Amerika demokratiyası heç də həmişə uğurla işləmir, lakin onun qanunlarının ümumi istiqaməti cəmiyyət üçün faydalıdır – Amerikanın demokratik cəmiyyətində dövlət qulluqçularının, əksəriyyətin maraqlarından daimi fərqlənən maraqları yoxdur – Bu, nəyə gətirib çıxarır?*

İdarəetmənin demokratik formasının qüsur və zəifliklərı lap üzdədir, bunları aşkar olan faktlarla sübuta yetirmək mümkündür. Eyni zamanda, bu cür idarəetmə formasının faydalı və səmərəli təsiri hiss olunmadan, hətta demək olar ki, bir növ "gizlində" baş verir. Onun qüsurları ilk baxışdan nəzərə çarpır, məziyyətləri isə yalnız zaman ötdükcə aşkarlanır.

Amerika qanunları çox vaxt başdansovdu təşkil edilir və yarımçıq olur. Bəzən onlarda mövcud hüquqlar nəzərə alınmır, yaxud təhlükə doğura biləcək hüquqlar həvəsləndirilir. Qanunlar yaxşı tərtib edildikdə isə onların ən böyük

Satış üçün nəzərdə tutulmayıb

qüsuru tez-tez dəyişilməsi olur. Bütün bunları adi gözlə görmək mümkündür. Bəs onda nə üçün Amerika respublikaları yaşayır və inkişaf edir?

Qanunlardan danışarkən, bir tərəfdən, onların güddükləri məqsədi, digər tərəfdən isə bu məqsədlərin əldə edilməsi vasitələrini, yəni onların mütləq və nisbi keyfiyyətlərini dürüst fərqləndirmək lazımdır.

Fərz edək ki, qanunverici bir dəstə insanın maraqlarını əksəriyyətin ziyanına olaraq müdafiə etmək istəyir. O, qanunun müddəasını elə qurur ki, arzu olunan nəticəni maksimum qısa müddətdə və az səy hesabına əldə etsin. Bu halda, yaxşı qanun və pis məqsəd alınacaq. Özü də bu zaman, həmin qanun nə qədər yaxşı həyata keçirilmiş olsa, bir o qədər böyük təhlükə doğuracaq.

Demokratik qanunlar adətən əksəriyyətin xeyrini təmin etməyə çalışır. Axı, bu qanunlar əksər vətəndaşlar tərəfindən doğulur; onlar səhv edə bilərlər, lakin onların öz maraqlarına zidd olan maraqları ifadə edə bilməzlər.

Aristokratik qanunlar isə əksinə, hakimiyyətin və sərvətin bir qrup insanın əlində cəmlənməsinə meyil edir, belə ki, aristokratiya öz təbiəti etibarilə həmişə azlığı təmsil edir.

Ümumiyyətlə demokratik qanunvericilik aristokratik qanunvericiliklə müqayisədə bəşəriyyətə daha çox fayda gətirir. Lakin bu onun yeganə üstünlüyüdür.

Aristokratiya qanunvericilikdən daha ustalıqda istifadə edir. O özünü yaxşı əldə saxlaya bilir, ötəri həvəslər onun üçün yaddır, o öz niyyətlərini səylə düşünüb hazırlayır və onların həyata keçirilməsi üçün əlverişli fürsət güdməyi bacarır. O, hər bir işi ustalıqla görür və müəyyən məqamda öz qanunlarının gücünü cəm halında vahid məqsədə yönəltməyi bacarır.

Demokratiya haqqında bunları deyə bilmərik: Onun qanunları həmişə qeyri-mükəmməl və ya vaxtsız olur.

Deməli demokratiyanın istifadə etdiyi vasitələr aristokratiyanınkından az mükəmməldir və o çox vaxt öz iradəsi ziddinə olaraq öz ziyanına işləyir, lakin onun məramı nəcibdir.

Belə bir cəmiyyət təsəvvür edin ki, onun təbiəti və quruluşu ona uğursuz qanunların müvəqqəti təsirinə duruş gətirməyə imkan verir, elə bir cəmiyyət ki, qanunların ümumi istiqamətlərinin faydalı nəticələrini özünü heç bir təhlükəyə salmadan gözləyə bilər. Özünüz də razılaşarsınız ki, bu cür cəmiyyətin çiçəklənməsinə ən çox dərəcədə, bütün qüsurlarına baxmayaraq, idarəetmənin demokratik forması kömək edir.

Birləşmiş Ştatlarda vəziyyət məhz bu cürdür. Artıq yuxarıda dediyimi burada da təkrar edirəm: amerikalıların böyük üstünlüyü ondadır ki, onlar düzəldiləsi mümkün olan səhvlərə özlərinə elə bir ziyan vurmadan yol verə bilirlər.

Dövlət qulluqçuları haqqında da təxminən eyni sözləri demək olar. Asanca görmək olar ki, Amerika demokratiyası ən çox səhvə hakimiyyəti etibar etdiyi insanların seçimində yol verir. Fəqət, bu insanların idarə etdikləri dövlətin nə üçün tərəqqi etməsi sualına cavab vermək müşkül məsələdir.

Satış üçün nəzərdə tutulmayıb

Qeyd etmək lazımdır ki, demokratik dövlətin rəhbərləri heç də həmişə yetərincə namuslu və ağıllı olmasalar da, onun vətəndaşları bilikli və şüurludurlar.

Demokratik dövlətlərin, daim öz işləri ilə məşğul olan və öz hüquqlarını səylə qoruyan xalqları öz nümayəndələrinə, onların mənafelərinin tələb etdiyi konkret ümumi xətdən kənara çıxmağa izn vermirlər.

Onu da unutmaq olmaz ki, demokratik dövlətlərdə, öz vəzifələrini başqa ölkələrdəki həmkarlarından pis yerinə yetirən məmurlar hakimiyyətdə çox qala bilmirlər.

Lakin daha ümumi xarakterli və daha dərin olan bir səbəb də var.

Əlbəttə, xalqın rifahı rəhbərlərdə müəyyən məziyyətlərin və istedadın olmasını tələb edir. Lakin o, daha çox dərəcədə vətəndaşların və rəhbərlərin mənafelərinin birliyini tələb edir. Əks halda məziyyətlər faydasız, istedadlar isə təhlükəli ola bilər.

Çox vacibdir ki, hakimlərlə vətəndaş kütlələri bir-birinə zidd getməsinlər və ya müxtəlif mənafelərlə iki cəbhəyə bölünməsinlər. Lakin bu o demək deyil ki, hamının mənafeləri üst-üstə düşməlidir. Bu, heç mümkün də deyil.

Hələ elə bir siyasi quruluş tapılmayıb ki, cəmiyyəti təşkil edən bütün siniflərin inkişafı və firavanlığı üçün eyni dərəcədə şərait yaratmış olsun. Siniflər bir növ bir xalqın daxilindəki ayrı-ayrı millət kimidir və təcrübə göstərir ki, onların hər hansı birini o birinin ixtiyarına vermək, bir xalqa digər xalqın taleyini tapşırmaq qədər təhlükəlidir. Hakimiyyət başında yalnız varlılar durarsa, yoxsulların mənafeləri həmişə təhlükədə olacaq. Yox, əgər yoxsullar öz iradələrini sırıyırlarsa, o zaman varlıların mənafeləri zərbə altına qoyulacaq. Demokratiyanın üstünlüyü nədədir? Bu üstünlük real şəkildə heç də onda deyil ki, bəzilərinin dediyi kimi, demokratiya hamının firavanlığına təminat verir, bu üstünlük ondadır ki, o əksəriyyətin firavanlığına kömək edir.

Birləşmiş Ştatlarda cəmiyyətin işlərinə rəhbərlik edən insanlarda çox vaxt, aristokratiyanın hakimiyyətə gətirdiyi adamlarda olan mənəvi keyfiyyətlər olmur. Lakin onların mənafeləri həmvətənlərinin əksəriyyətinin mənafeləri ilə bir yöndədir. Onlar bəzən namussuz hərəkətlər edə və ya ciddi səhvlərə yol verə bilərlər, lakin heç vaxt müntəzəm olaraq əksəriyyətə qarşı zidd siyasət yeritməzlər, onların hakimiyyəti zamanı heç vaxt təhlükəli dözümsüzlüyə yol verilməz.

Demokratik cəmiyyətdə məmurun yarıtmaz işi – yalnız, onların öz vəzifələrini yerinə yetirməsi zamanı öz təsirini göstərən tək bir faktdır. Korrupsiya və səriştəsizlik insanları uzun müddətə birləşdirə biləcək ümumi mənafe rolunda çıxış etməyə acizdir.

Satılmış və bacarıqsız məmur başqa məmurla, yalnız onun da küt və satqın olmasına görə birgə çıxış etməz. Onlar korrupsiyanın və səriştəsizliyin "tərəqqisi" üçün də birgə fəaliyyət göstərmək istəməzlər. Axı, birinin mənsəbpərəstliyi və fırıldaqları digərlərinin ifşasına gətirib çıxara bilər. Demokratik dövlətlərdə məmurların qüsurları adətən fərdi xarakter daşıyır.

Satış üçün nəzərdə tutulmayıb

Aristokratiyanın idarə etdiyi dövlətdə siyasi xadimlərə sinfi mənafelər xasdır. Doğrudur, bəzən bu mənafelər çoxluğun mənafelərinə yaxınlaşa bilər, lakin əksər hallarda onlardan fərqlənirlər. Bu mənafelərdən, bütün siyasi xadimləri bir araya gətirən son məqsədi heç də həmişə çoxluğun xeyrinə olmayan hərəkətlərini birləşdirməyə və əlaqələndirməyə sövq edən uzunmüddətli münasibətlər əmələ gəlir. Özü də bu zaman ali rəhbərlik yalnız bir-birləri ilə deyil, həm də xeyli sayda vətəndaşla – aristokratiyanın heç bir dövlət vəzifəsi tutmayan nümayəndələri ilə bağlı olur.

Beləliklə, aristokratik dövlətdə məmur daim həm cəmiyyətin, həm də hökumətin dəstəyini hiss edir.

Aristokratik dövlətdə məmurlar öz müasirlərinin müəyyən hissəsi ilə ümumi mənafelərə və məqsədlərə malik olmaqla yanaşı, onlar üçün gələcək nəsillərin mənafeləri də yaxındır. Onlar yalnız bu gün üçün deyil, gələcək üçün də zəhmət çəkirlər. Hər şey, [bir qrup] vətəndaşların maraqları da, öz maraqları da və hətta gələcək nəsillərin mənafeləri də bu məmurları ümumi məqsədə doğru aparır.

Bu cür təzyiqə duruş gətirmək mümkündürmü? Buna görə çox vaxt aristokratik cəmiyyətdə sinfi maraqlar hətta namuslu adamları da özünə tabe etdirir və onlar özləri də hiss etmədən cəmiyyəti yalnız öz maraqlarına uyğun olaraq dəyişdirirlər, habelə öz varislərinin gələcəyini təmin etmək üçün əllərindən gələni əsirgəmirlər.

Bilmirəm, dünyada ingilis liberal aristokratiyası kimi elə bir aristokratiya varmı ki, ölkənin idarə olunması üçün bu qədər ləyaqətli və bilikli insan vermiş olsun.

Lakin etiraf edək ki, ingilis qanunları çox vaxt varlının xeyri naminə kasıbın xeyrini və bir para insanın imtiyazları naminə əksəriyyətin hüquqlarını qurban verir. Bax, buna görə bugünkü İngiltərə – ifrat vəziyyətlər ölkəsidir və bu ölkədə bədbəxtliklər heç də qüdrət və şöhrətdən az deyil.

Birləşmiş Ştatlarda dövlət qulluqçuları sinfi maraqları müdafiə etmir, buna görə də fasiləsiz idarəetmə prosesi bütövlükdə fayda gətirir, baxmayaraq ki, çox vaxt burada da rəhbərlər sərişẗəsizdir və hətta həqarətə layiq olurlar.

Belə bir nəticəyə gəlmək olar ki, demokratik institutların özündə daşıdığı gücün sayəsində ayrı-ayrı insanlar öz qüsur və yanlışlıqlarına baxmayaraq, ümumi tərəqqiyə kömək edirlər, halbuki aristokratik institutlarda nəsə elə bir qəbahət var ki, onun səbəbindən istedadlı və namuslu insanların fəaliyyəti vətəndaşların bədbəxtliyinə gətirib çıxarır. Belə çıxır ki, aristokratik dövlətlərdə ictimai xadimlər özləri istəmədən pislik törədir, demokratik dövlətlərdə isə özləri də hiss etmədən yaxşılıq edirlər.

Birləşmiş Ştatlarda ictimai ovqat. *İnstinktiv vətənpərvərlik — Şüurlu vətənpərvərlik — Onların arasında fərq – Birincisi yox olarsa, xalqlar ikincisini əldə etmək üçün əllərindən gələni əsirgəməməlidirlər — Bunun üçün amerikalılar hansı səyləri göstəriblər – Ölkənin və ayrı-ayrı vətəndaşların mənafelərinin sıx bağlılığı.*

Satış üçün nəzərdə tutulmayıb

Dünyada dərkedilməz, təmənnasız və sezilməz duyğulardan yoğrulmuş vətən sevgisi var. Elə bir sevgi ki, insan qəlbini onun doğulduğu yerə əbədi bağlayır. Bu instinktiv məhəbbət, üstəlik də qədim adətlərə sədaqət, əcdadlara ehtiram, keçmiş haqda xatirələrlə qidalanıb güclənir və insanlar öz ölkələrini ata evi kimi sevməyə başlayır. Ölkələrindəki hökm sürən əmin-amanlıq, mehribançılıq və bura ilə bağlı xatirələr onlara əziz gəlir. Öz ölkələrində, hətta mütiliklə də yaşamaq onlara ləzzət verir. Bəzən isə vətənə olan bu cür məhəbbət dini hisslərlə qızışdırılır, belə hallarda o, möcüzələr yaratmağa qadirdir. Əslində bu məhəbbətin özü də elə dinə oxşayır — bu hissi keçirən insan düşünüb-daşınmır, etiqad edir, duyur və iş görür. Xalqlar olub ki, öz vətənlərini bir növ şəxsləndirərək onu hökumətlə eyniləşdiriblər. Onlar öz vətənpərvərlik hisslərini onunla bağlayır, onun qələbələri və qüdrəti ilə fəxr edirdilər. Fransa inqilabından əvvəl elə bir dövr vardı ki, fransızlar monarxın həddi-hüdud bilməyən özbaşınalığını qəribə bir sevinclə qəbul edir və fəxrlə deyirdilər: "Bizim kralımız yer üzünün ən qüdrətli hökmdarıdır".

Hər bir dərkedilməz duyğu kimi, bu vətən sevgisi də insanı böyük, lakin qısamüddətli işlərə ruhlandırır, nəinki daimi cəhdlərə. Bu duyğu dövləti təhlükə anında xilas edir, lakin dinc bir zamanda onu taleyin ümidinə, özbaşına buraxır.

Bu instinktiv vətən sevgisi o vaxt hökm sürür ki, adətlər sadə, etiqad isə möhkəmdir, çoxdanın ictimai qaydalarına şəksiz əməl olunur və onların ədalətliliyinə heç kəs şübhələnmir.

Ayrı cür, daha rasional vətən sevgisi də var. Ola bilsin, o, bu qədər pak və çılğın deyil, lakin daha səmərəli və sabitdir. Bu məhəbbət maarif sayəsində doğulur, qanunların köməyilə inkişaf edir, hüquqlardan bəhrələndikcə böyüyür və nəhayət, insanın şəxsi mənafeləri ilə qovuşur. İnsanlar ölkənin xoş güzəranı ilə öz xoş güzəranları arasında bağlılıq görməyə başlayır, anlayırlar ki, qanun bu xoş güzəranı qurmağa icazə verir. Onlarda ölkənin çiçəklənməsinə maraq oyanır: əvvəl onlar buna fayda gətirən bir nemət kimi, sonralar isə öz yaratdıqlarına baxan kimi baxırlar.

Lakin xalqların həyatında elə dövrlər olur ki, qədim adət və ənənələr pozulur, etiqad zəifləyir, keçmişə ehtiram unudulur, eyni zamanda maarif hələ geniş yayılmayıb, siyasi hüquqlar hələ məhdud və etibarsızdır. Belə məqamlarda insanlar vətəni dumanlı və qeyri-müəyyən bir şey kimi təsəvvür edirlər. Və bu təsəvvürü nə göz qabağında cansız torpağa çevrilən əraziylə, nə artıq boyunduruq kimi baxmağa vərdiş etdikləri dədə-baba adətləriylə, nə şübhəylə yanaşdıqları dinlə, nə yaradılmasına yaxın buraxmadıqları qanunlarla, nə də qorxduqları və ikrah bəslədikləri qanunvericilərlə bağlayırlar. Vətən təsəvvürünü və onun rəmzlərini itirməklə onlar öz dar və nadan eqoizmlərinə qapılırlar. Belə məqamlarda insanlar hər cür xurafatdan artıq uzaqdırlar, lakin onlar ağlın qüdrətinə də inanmırlar. Onlarda nə monarxiyaya xas instinktiv vətənsevərlik, nə də respublikaya xas ağıllı vətənpərvərlik var, onlar bu iki duyğunun arasında dayanıb durublar, iğtişaş və köməksizlik içində ömür sürürlər.

Belə hallarda nə etmək lazımdır? Geriyəmi dönməli? Lakin insanlar öz cavanlıqlarının məsum sevinclərinə qayıda bilmədikləri kimi, xalqlar da beləcə,

Satış üçün nəzərdə tutulmayıb

cavanlıq çağlarının duyğularını qaytara bilmirlər. Onlar hətta buna heyifsilənsələr belə, bu duyğuları yenidən doğurmaq gücündə deyillər. Bir halda ki, vətənə təmənnasız sevgi həmişəlik itirilib, irəli getmək, xalqın təsəvvürlərində şəxsi mənafeləri və ölkənin mənafelərini birləşdirmək üçün mümkün olan bütün şeyləri eləmək lazımdır.

Mən heç də demək istəmirəm ki, bu məqsədə çatmaq üçün dərhal bütün vətəndaşlara siyasi hüquqlar verilməlidir. Bununla belə, bizdə insanları öz ölkəsinin taleyi ilə maraqlanmağa vadar edən yalnız bir güclü vasitə var: bu da onların ölkənin idarə olunması işinə cəlb edilməsidir. Bizim günlərdə vətəndaş hissləri siyasi hüquqlardan ayrılmazdır və gələcəkdə həqiqi vətəndaşların sayı onlara verilmiş siyasi hüquqların genişlənməsi və ya daralmasından asılı olacaqdır.

Birləşmiş Ştatlarda yaşayan insanlar oraya bu yaxınlarda gəliblər və gələndə özləriylə nə əvvəlki adətləri, nə də xatirələri gətiriblər, orada onlar ilk dəfə görüşür və bir-birlərini yaxşı tanımırdılar. Bəs onda nə üçün onlardan hər biri icmanın, mahalın və bütün dövlətin işləriylə öz işləriymiş kimi maraqlanır? Yalnız ona görə ki, onlardan hər biri cəmiyyətin idarə olunmasında özünəməxsus tərzdə fəal iştirak edirdi.

Birləşmiş Ştatlarda insanlar sadə, lakin digər xalqların hələ də yaxşı dərk edə bilmədikləri bir həqiqəti başa düşürlər: hər bir adamın xoşbəxtliyi ümumi tərəqqidən asılıdır, həm də onlar bu tərəqqiyə və firavanlığa öz əllərinin məhsulu, cəmiyyətin firavanlığına öz şəxsi firavanlıqları kimi baxır *və yalnız vətən borcunu verməklə deyil, demək olar ki, qazanc xatirinə çalışırlar.*

Yuxarıda deyilənlərin doğruluğuna əmin olmaq üçün Amerika idarələrini və tarixini öyrənməyə heç bir ehtiyac yoxdur – bunun üçün amerikalıların xasiyyətini bilmək kifayətdir. Onlar ölkənin bütün işlərində fəal iştirak etdikləri kimi, ölkələri barədə tənqid olunan hər bir şeyi qızğıncasına müdafiə edirlər. Axı ölkəni tənqid etmək – onların özünü tənqid etmək deməkdir. Buna görə, öz milli heysiyyətlərini qorumaq üçün onlar müxtəlif fəndlərə əl atırlar ki, bu da fərdi şöhrətpərəstliyə xas olan uşaq hərəkətlərinə gətirib çıxarır.

Gündəlik həyatda, bu dözülməz amerikan vətənpərvərliyindən xoşagəlməz şey tapmaq çətindir. Əcnəbi Amerikadakı çox şeyi tərifləməyə hazırdır, lakin istərdi ki, ona həmçinin nəyisə tənqid etmək imkanı da verilsin, fəqət, bunu ona qəti qadağan edirlər.

Beləliklə, Amerika – azad ölkədir, lakin əcnəbi heç kəsin xətrinə dəyməmək üçün, ayrı-ayrı şəxslər haqqında da, dövlət və təəbələr haqqında da rəhbərlik, ictimai işlər və xüsusi müəssisələr haqqında da, öz fikirlərini sərbəst söyləməkdən çəkinməlidir. Bir sözlə, o, heç nə haqqında sərbəst fikir yürüdə bilməz. Ola bilsin ki, ona yalnız iqlim və ya torpaq haqqında danışmağa imkan versinlər, lakin bu halda da, bəzi amerikalılar, sanki bunları öz əlləriylə yaradıblarmış kim iqlimi də, torpağı da "son nəfəsəcən" müdafiə etməyə hazırdırlar.

Bizim günlərdə, cəsarəti toplamaq və ümumi vətənpərvərliklə azlığın idarə olunması arasında seçim etmək lazımdır. Lakin birincinin sosial gücünü və

Satış üçün nəzərdə tutulmayıb

fəallığını, bəzən ikincinin özüylə gətirdiyi sakitliklə birləşdirmək mümkünsüzdür.

Birləşmiş Ştatlarda hüquqlar *(Rights)* anlayışı haqqında. *Böyük xalqlar hüquqlar haqqında anlayış olmadan mövcud ola bilməzlər — Xalq hüquq ideyasını necə mənimsəyir — Birləşmiş Ştatlarda hüquqa hörmət — O, haradan peyda olub?*

Xeyirxahlıqdan sonra ən gözəl anlayış hüquq haqqında anlayışdır. Daha dəqiq desək, bu iki anlayış bir-biriylə sıx təmasdadır: əslində hüquqlar siyasi həyata köçürülmüş xeyirxahlıqdır.

Məhz hüquqlar barədə anlayış insanlara anarxiya və özbaşınalığın nə demək olduğunu müəyyən etməyə imkan vermişdir. Hüquqlar onlara təkəbbürsüz müstəqil olmağa və alçalmadan itaət göstərməyə kömək edir. Zorakılığa itaət edən insan əyilir və alçalır. Özünə tay tuta bildiyi adamın sərəncam vermək hüququna tabe olanda isə o, müəyyən mənada, ona buyuruq verəndən də yüksəkdə dayanır. Xeyirxahlıqdan məhrum böyük adamlar olmadığı kimi hüquqlara hörmət etməyən böyük xalqlar da yoxdur. Hüquqlar olmadıqda çətin ki, cəmiyyətin mövcudluğundan danışmaq olsun. Birliyi yalnız güc üzərində qurulmuş bir dəstə şüurlu insanı cəmiyyət adlandırmaq olarmı?

Müasir insanlara hüquq ideyasını mənimsəməkdə necə kömək etməli, əgər belə demək mümkündürsə, bu ideyanı onların şüuruna necə çatdırmalı? Bunun yalnız bir üsulu var — onlara sakitliklə bəzi hüquqlardan istifadə etmək imkanı vermək lazımdır. Bunu yaşlı adamlardan yalnız güc və təcrübənin olmaması ilə fərqlənən uşaqların davranışından misal gətirməklə dəqiq aydınlaşdırmaq olar.

Uşaq xarici aləmin əşyaları arasında hərəkət etməyə başladıqda qabağına çıxan bütün şeyləri instinktiv surətdə ələ keçirməyə çalışır. Onun özgə mülkiyyəti haqda təsəvvürü yoxdur, belə bir şeyin olduğunu heç bilmir, lakin şeylərin qiymətini öyrəndikcə görür ki, kimlərsə onu da mülkiyyətdən məhrum edə bilər və o, ehtiyatlı olmağı öyrənir, axırda isə əhatəsində yaşadığı adamlara onların onun özünə necə yanaşmasını arzuladığı kimi yanaşmağa başlayır.

Uşaq və onun oyuncaqları ilə bağlı baş verənlər sonralar yaşlı adam və onun əmlakı ilə bağlı baş verir. Nə üçün Amerika kimi demokratik ölkədə heç kəs Avropada olduğu kimi, mülkiyyət əleyhinə çıxış etmir? Bunun izaha ehtiyacı varmı? Axı, hamı bilir ki, Amerikada proletariat yoxdur və hər bir kəsin müdafiə etməyə nəyisə olduğuna görə hamı, prinsipcə, mülkiyyət hüququnu tanıyır.

Həmin şey siyasi həyatda da baş verir. Amerikada sadə adamlar "siyasi hüquqlar" kimi yüksək anlayışı dərk edirlər, çünki bu hüquqların yiyəsidirlər. Onlar başqalarının hüquqlarına toxunmurlar, çünki kiminsə onların da hüquqlarına toxunmasını istəmirlər. Avropada sadə adamlar hətta ali hakimiyyəti belə tanımaq istəmirlər, Amerikada isə hətta kiçik məmurun hakimiyyətinə sözsüz-sovsuz tabe olurlar. Və bunu xalq həyatının hətta ən cüzi təzahürlərində müşahidə etmək olar. Fransada, yalnız cəmiyyətin ali sinifləri üçün nəzərdə

Satış üçün nəzərdə tutulmayıb

tutulmuş əyləncələrə, demək olar, rast gəlinmir. Varlıların olduğu bütün yerlərə yoxsullar da buraxılır, buna görə onlar özlərini ləyaqətlə aparır və ümumi əyləncəyə xidmət edən hər bir şeyə hörmətlə yanaşırlar. Hakimiyyət kimi, əyləncələrin də varlıların imtiyazı və monopoliyası olduğu İngiltərədə giley-güzar eşitmək olar ki, bəs yoxsullar varlıların əylənməsi üçün nəzərdə tutulmuş yerlərə yol tapanda, orada hər şeyi uçurub dağıdır və bundan aşkar həzz alırlar. Burada təəccüblü nə var ki? Cəmiyyət əlindən gələni edib ki, bu insanların itirməyə heç nələri olmasın.

Demokratiya "siyasi hüquqlar" anlayışını hər bir vətəndaşın şüuruna çatdırır, necə ki, əmlakın mövcudluğu mülkiyyət anlayışını bütün adamlar üçün aydın edir. Fikrimcə, onun başlıca məziyyətlərinin biri elə bundadır. Əlbəttə, hamını siyasi hüquqlardan istifadə etməyi öyrətmək o qədər də asan deyil, lakin bu məqsədin əldə edilməsi gözəl nəticələrə yetirir.

Bunu da demək lazımdır ki, yaşadığımız yüzillik bunu həyata keçirməyə cəhd etmək üçün ən əlverişli dövrdür.

Din öz gücünü itirir və bunun ucbatından hüquqların ilahidən nazil olması anlayışı yoxa çıxır. Xasiyyətlər korlanır və buna görə hüququn mənəvilik anlayışı zəifləyir.

Hər yerdə sağlam düşüncəni – mövhumat, haqq-hesabları isə hisslər əvəz edir. Və əgər bütün bu ümumi mənəvi tənəzzül içində hüquqlar anlayışını insan qəlbindəki yeganə uçurulmamış bir şeylə, yəni onun şəxsi mənafeyi ilə əlaqələndirmək mümkün olmasa, o zaman dünyanı idarə etmək üçün qorxudan başqa heç nə qalmayacaqdır.

Mənə deyəndə ki, qanunlar kifayət qədər sərt deyil, təbəələr isə azğın və qudurğandır, deyəndə ki, ehtiraslar coşqun, ləyaqətlər isə gücsüzdür və buna görə demokratik hüquqların genişləndirilməsi haqqında heç düşünməyə dəyməz, cavab verirəm ki, bu barədə məhz elə həmin səbəblərə görə düşünməyə dəyər. Həqiqətən də, hökumətlər bunda cəmiyyətdən daha çox maraqlıdır. Axı, hökumətlər məhv olub gedir, cəmiyyət isə ölməzdir. Onu da deyim ki, mövcud halda Birləşmiş Ştatların təcrübəsi nümunə qismində götürülə bilməz.

Amerikada xalq siyasi hüquqları elə bir dövrdə əldə etmişdi ki, bunları yamanlığa işlətmək onun üçün hələ çətin idi, çünki vətəndaşlar azsaylı, adət və vərdişlər isə sadə idi. Əhalinin sayı artdıqca, amerikalılar, belə demək mümkünsə, demokratiyanın səlahiyyətlərini deyil, daha çox onun tətbiq dairəsini genişləndirirdilər.

Şübhəsiz, əvvəllər siyasi hüquqlara malik olmayan xalq, onları əldə edən kimi böhran yaranır, bu çox vaxt zəruri, amma həmişə ağrılı böhran olur.

Həyatın dəyərini başa düşməyən uşaq adam öldürə bilər. Özünün də oğurluğun qurbanı ola biləcəyini hələ başa düşməyən uşaq özgə mülkiyyətini mənimsəyə bilər. Ömürlərində ilk dəfə siyasi hüquqlar almış sadə insanların bu hüquqlarla münasibəti, uşağın onu əhatə edən dünyaya münasibətinə oxşayır. Məşhur bir kəlamı onlara da şamil etmək olar: *Homo pier robustus*[25].

Bunu Amerikada da görmək olar. Vətəndaşların hüquqlardan çoxdan istifadə etdikləri ştatlarda bu hüquqlar ən yaxşı tərzdə tətbiq olunur.

Satış üçün nəzərdə tutulmayıb

Mübaliğəsiz söyləmək olar – azad yaşamaq sənəti möcüzələr yaratmağa qadirdir, lakin eyni zamanda, azad yaşamağı öyrənməkdən çətin şey yoxdur. İstibdadda məsələ başqa cürdür. O, çox vaxt bütün çəkilmiş əzablardan yaxa qurtarmaq vasitəsi, qanuni hüquqların dayağı, məzlumların sığınacaq yeri, qanun-qaydanın özülü kimi təsəvvür edilir. Xalqlar onun doğurduğu müvəqqəti firavanlıqda uyuyur, ayılanda isə özlərini artıq miskin vəziyyətdə görürlər. Azadlıq isə, əksinə, adətən tufanlarda doğulur və vətəndaş ixtilafları içində çətinliklə özünə yer edib möhkəmlənir. Azadlığın ləyaqət və məziyyətlərini yalnız ahıl yaşa çatdıqdan sonra dərk etmək olar.

Birləşmiş Ştatlarda qanuna hörmət. *Amerikalıların qanunlara hörmətcil münasibəti – Onlar qanuna ata məhəbbəti ilə yanaşırlar – Qanunun möhkəmləndirilməsi hər kəsin şəxsi mənafelərinə daxildir.*

Bütün xalqı qanunların yaradılmasına birbaşa və dolayısı ilə cəlb etmək həmişə mümkün olmur. Lakin inkar etmək olmaz ki, bu mümkün olduğu hallarda qanunun nüfuzu xeyli artmış olur. Qanunların xalq mənşəyi çox vaxt onların keyfiyyətinə və müdrikliyinə ziyan vursa da, onların qüdrətinin artmasına qeyri-adi şəkildə təsir göstərir.

Bütün xalqın ifadə etdiyi iradədə nəhəng güc gizlənib. O bütün qüdrəti ilə təzahür etdikdə, ona zidd getmək istəyənlərin iradəsini qırır.

Bütün partiyalar bunu yaxşı bilir.

Elə buna görə, onlar mümkün olduqca, əksəriyyətin mövcudluğunu iddia etməyə çalışırlar. Onların fikrincə, səs verənlər bu əksəriyyəti təşkil etmədikdə, onlar sübut etməyə çalışırlar ki, bu əksəriyyəti səs vermədə iştirak etməyənlər təşkil edir; əgər orada da əksəriyyət yoxdursa, onlar bu əksəriyyəti səs hüququndan məhrum olanların arasında "tapırlar".

Birləşmiş Ştatlarda, kölələr, nökərlər və icmanın hesabına yaşayan yoxsullardan başqa hamının səs vermək hüququ var və deməli, hamı dolayısı ilə də olsa, qanunvericilik fəaliyyətində iştirak edir. Qanunlara qarşı çıxan kəs ikisindən birini etməyə məcburdur: o, ya xalqın əqidəsini dəyişdirməyə çalışmalı, ya da onun iradəsinə məhəl qoymamalıdır.

Buna daha bir dəlil, daha konkret və kəsərli dəlil əlavə edilməlidir: Birləşmiş Ştatlarda hər bir kəs hansısa mənada şəxsən maraqlıdır ki, bütün qanunlar icra edilsin. Axı, bu gün əksəriyyətə daxil olmayan şəxs sabah ona qoşula bilər. Və belə olanda, o, hazırda özünün qanunvericilərin iradəsinə göstərdiyi hörmətin onun da iradəsinə göstərilməsini tələb edə biləcəkdir. Qanun nə qədər uğursuz olsa da, Birləşmiş Ştatların vətəndaşları onu məcburiyyətsiz icra edir və ona təkcə əksəriyyətin əməyinin nəticəsi kimi deyil, həm də öz şəxsi işlərinə yanaşan kimi yanaşır. Onlar bu qanuna özlərinin iştirak etdiyi saziş kimi baxırlar.

Amerikada elə bir çoxsaylı və narahat insan təbəqəsi yoxdur ki, qanuna qorxu və şübhə ilə, öz təbii düşmənlərinə baxdığı kimi baxsın. Əksinə, aydın görünür ki, bütün siniflər ölkənin yaşadığı qanunlara tam etibar edir və onlara bir növ ata məhəbbəti ilə yanaşırlar.

Satış üçün nəzərdə tutulmayıb

"Bütün siniflər" deməklə mən qeyri-dəqiqliyə yol verdim. Belə ki, Amerikada mövcud olan avropasayağı siyasi qüvvələrin piramidası tərsinə çevrilmiş şəkildədir, Amerikada varlılar Avropada yoxsulların olduğu vəziyyətdədir. Məhz varlılar çox vaxt qanunlara şübhə ilə yanaşırlar. Mən artıq demişəm: demokratik idarəetmənin real üstünlüyü, bəzən təsdiq edildiyi kimi, onun ümumi mənafeləri təmin etməsində deyil, onun əksəriyyətin mənafelərini qorumasında təzahür edir. Yoxsulların hökmranlıq etdiyi Birləşmiş Ştatlarda varlılar daim narahatlıq hissi keçirirlər ki, birdən yoxsullar öz hakimiyyətlərini onlara qarşı tətbiq edərlər.

Varlıların bu cür ovqatı gizli narazılığa çevrilə bilər, lakin o heç vaxt cəmiyyətdə böyük sarsıntılar doğura bilməz. Varlıların qanunlara etibar etmədiyi səbəblər, həm də onların bu qanunların icrasına saymaz yanaşmasına mane olur. Çünki sivil ölkələrdə, adətən, ancaq heç nəyi olmayanlar qiyama qalxırlar. Beləliklə, demokratik cəmiyyətin qanunları heç də həmişə hörmətə layiq olmasalar da, bir qayda olaraq onlara əməl edilir. Axı qanunları daha çox pozan insanlar, onların özlərinin yaratdıqları və onlara fayda gətirən qanunlara tabe olmaya bilməzlər, bunları pozmaqda maraqlı olan kəslər isə, öz xarakterlərinə və cəmiyyətdəki vəziyyətlərinə görə qanunvericinin istənilən iradəsini yerinə yetirməyə meyillidir. Bundan əlavə, amerikalılar qanunlara təkcə ona görə hörmət etmirlər ki, bunları özləri yaradıblar, həm də ona görə hörmət edirlər ki, bu qanunlar onlara ziyan vurduqda, onlar həmin qanunları dəyişdirə bilirlər. Onlar qanunlara dərk edilmiş zəruri bəla, eləcə də müvəqqəti bir bəla kimi tabe olurlar.

Birləşmiş Ştatlarda bütün səviyyələrdə siyasi hakimiyyətlərin aktiv fəaliyyəti. Onun cəmiyyətə təsiri. *Birləşmiş Ştatlara xas azadlıq və bərabərliyi anlamaq orada çağlayan siyasi fəaliyyəti anlamaqdan daha asandır — Bu fəaliyyət bütün ölkəni əhatə edir; legislaturaların[26] daimi və təpərli işi onun yalnız tərkib hissəsidir — Amerikalılar üçün təkcə öz işləriylə məşğul olmaq kifayət deyildir — Siyasi fəaliyyət ictimai həyata təsir göstərir.*

Azad ölkədən azadlıqdan məhrum edilmiş ölkəyə gəldikdə, qeyri-adi mənzərə görürsən: birinci ölkədə hər şey hərəkət edir, hər şey irəliləyir, ikincidə, hər şey sakit və tərpənməzdir. Birincidə daim inkişaf və tərəqqi haqqında danışırlar; ikincini isə müşahidə edərkən, düşünmək olar ki, cəmiyyət guya bütün nemətləri əldə edib və indi ona yalnız bu nemətlərdən həzz almaq, dincəlmək qalır. Lakin xoşbəxt olmaq üçün fəal işləyən ölkə, adətən, öz taleyindən razı olan ölkədən daha varlı və inkişaf etmiş olur. Onların hər ikisi ilə tanış olarkən, başa düşmək çətindir ki, nə üçün birincidə aramsız olaraq yeni-yeni tələbatlar meydana gəlir, ikincidə isə sanki heç bir istək və arzu olmur.

Belə bir hadisəni, monarxiya üsul-idarəsini qoruyub saxlamış azad ölkələrdə və ya aristokratiyanın hökmranlıq etdiyi ölkələrdə də müşahidə etmək olar, lakin bu, ən qabarıq şəkildə demokratik respublikalarda özünü göstərir. De-

Satış üçün nəzərdə tutulmayıb

mokratik ölkələrdə cəmiyyətin təkmilləşdirilməsi ilə xalqın hansısa hissəsi deyil, bütün xalq – hər hansı bir sinfin deyil, bütün siniflərin tələbatları və rahatlığı qayğısına qalan xalq məşğul olur.

Amerikalıların istifadə etdikləri böyük azadlıq və tam bərabərliyi təsəvvür etmək bir o qədər də çətin deyildir. Lakin Amerika siyasi fəaliyyətinin nə demək olduğunu onu öz gözlərinlə görmədən anlamaq qeyri-mümkündür.

Amerika torpağına qədəm basar-basmaz, özünüzü hansısa mərəkənin ortasında görəcəksiniz — hər tərəfdən anlaşılmaz sədalar qopur, siz eyni vaxtda çoxlu səslər eşidirsiniz, hər bir səs hansısa ictimai problemdən danışır. Ətrafınızda hər şey hərəkətdədir — burada məhəllə sakinləri kilsə tikməyi, yoxsa tikməməyi müzakirə etməkçün yığışıblar, orada hakimiyyət orqanlarına nümayəndə seçkisi gedir, ondan o yanda hansısa dairənin deputatları şəhərə tələsirlər ki, yerli əhəmiyyətə malik bəzi təkmilləşmələrlə bağlı qərar qəbul etsinlər, daha haradasa yerqazanlar öz işlərini buraxıb yol, yaxud məktəb tikintisinin planını müzakirə etməyə gedirlər. Bir dəstə vətəndaş yeganə bir məqsədlə — hökumətin fəaliyyətindən narazı olduğunu bildirmək üçün toplaşıb, bu zaman aralıdakı başqa bir dəstə bütün vəzifəli şəxsləri millət ataları elan edir. Daha bir dəstə isə belə hesab edir ki, dövlətin bütün bəlalarının əsas mənbəyi əyyaşlıqdır və oradaca təntənəli surətdə öhdəlik götürür ki, indən belə hamı üçün ayıqlıq nümunəsi olacaqdır.

Amerika legislaturalarının daimi və gərgin fəaliyyəti xalq kütlələrinin dərinliyində yaranıb və tədricən vətəndaşların bütün siniflərini əhatə edən ümumi fəaliyyətinin yalnız bir hissəsi və davamıdır. Hamı yorulmaq bilmədən ölkənin rifahı naminə çalışır.

Birləşmiş Ştatların vətəndaşlarının həyatında siyasi fəaliyyət hədsiz böyük yer tutur. Cəmiyyətin idarə olunmasında iştirak etmək və bu barədə fikir yürütmək — budur amerikalıların ən başlıca məşğuliyyəti və ən məmnun olduğu şey! Bu, ən cüzi vərdişlərdə də özünü göstərir. Hətta qadınlar tez-tez kütləvi yığıncaqlara gedir və siyasi nitqlərə qulaq asa-asa ev və ailə qayğılarından dincəlirlər. Onlar üçün klublar müəyyən mənada tamaşaları əvəz edir. Amerikalılar söhbət eləmirlər — mübahisə edirlər, onlar danışmırlar — mülahizə yürüdürlər. Onlar bir nəfərə bütöv bir yığıncağa müraciət edirmiş kimi müraciət edir və bir nəfərlə söhbət edərkən coşub ona "cənablar" deyirlər.

Bəzi ölkələrin sakinləri qanunun onlara verdiyi siyasi hüquqlara bir növ ikrahla yanaşırlar, onlar üçün ümumi işlərlə məşğul olmaq vaxt itirmək kimi bir şeydir, onlar öz dar eqoizmlərinə qapılaraq xəndək və hasarların arxasında oturmağı üstün tuturlar.

Amerikalılara gəldikdə isə, onlar təkcə öz şəxsi işləriylə məşğul olmağa məcbur olsaydılar, həyatları yarıbayarı öz mənasını itirər, onlara boş bir şey kimi görünər və özlərini son dərəcə bədbəxt hiss edərdilər. (İlk sezarların hakimiyyəti dövründə qədim Romada da buna bənzər hadisə baş vermişdi. Mon-

Satış üçün nəzərdə tutulmayıb

teskyö yazır ki, qızğın siyasi mübarizədən sonra Roma vətəndaşları gözlənilmədən ölçülü-biçili və təmkinli həyat tərzinə keçməyə məcbur olduqda, onların bəzilərini dəhşətli ümidsizlik bürümüşdü).

Əminəm ki, Amerikada nə vaxtsa müstəbid hakimiyyəti qurulsa, onun üçün azadlıqdan doğulmuş vərdişlərə qalib gəlmək azadlığa olan məhəbbəti sındırmaqdan qat-qat çətin olacaqdır.

İdarəçiliyin demokratik forması zamanı yaranmış siyasi sahədəki fasiləsiz fəaliyyət getdikcə mülki həyata da keçməyə başlayır. Ola bilsin ki, demokratiyanın əsas üstünlüyü də məhz elə bundan ibarətdir. Onun başlıca məqsədi bunda deyil ki, özü nə edir, bundadır ki, onun sayəsində nələr eləyə bilirlər.

Əlbəttə, xalq çox vaxt dövlət işlərini olduqca pis aparır, lakin bu işlə məşğul olduqca onun ideyalar dairəsi genişlənir və ona xas olan kütlük və durğunluqdan azad olur. Xalq arasından çıxsa da, cəmiyyəti idarə etməyə dəvət olunmuş insanın özünə hörməti artır. Ona hakimiyyət verilib və ən zəkalı adamlar onun köməyinə gəlirlər. Bəziləri ona dəstək almaq üçün müraciət edirlər, başqaları onu aldatmaq üçün müxtəlif üsullar arayıb axtarırlar və bütün bunlar onu inkişaf etdirir. Siyasət sahəsində o, başqalarının düşünüb-qurduqlarını həyata keçirir və bu iş onda işbazlığa həvəsi tərbiyə edir. O, hər gün ictimai mülkiyyətin təkmilləşdirilməsi barədə məsləhətlər eşidir və bu onda şəxsi mülkiyyətini də təkmilləşdirmək istəyi oyadır. Yəqin ki, o öz əcdadlarından daha ləyaqətli və xoşbəxt deyildir, lakin daha bilikli və fəaldır. Ölkənin demokratik institutları, habelə təbii şəraiti Birləşmiş Ştatlarda sənayenin qeyri-adi inkişafının bəzilərinin düşündüyü kimi, birbaşa olmasa da, heç şübhəsiz ki, dolayı səbəblərdir. Demək olmaz ki, bu inkişaf qanunlara görə baş verir, lakin onu qanunyaradıcılığı fəaliyyəti sayəsində inkişaf etmiş xalq doğurur.

Demokratiyanın rəqibləri iddia edirlər ki, dövlət idarəçiliyinin öhdəsindən bir nəfər daha yaxşı gələ bilər, nəinki bütün xalq — mən bu fikirlə razılaşıram. Demokratik azadlıq öz təşəbbüslərində ağıllı diktator qədər kamil deyil. O, çox vaxt təşəbbüsündə olduğu işi bu iş təzəcə nəticələr verməyə başlayanda yarıda buraxır, bəzən təhlükəli işlərə girişir. Lakin zaman keçdikcə demokratik üsul-idarə despotizmdən daha böyük fayda gətirir. Hər bir şey ayrı-ayrılıqda onun ifasında daha pis alınır, lakin bütövlükdə o daha çox iş görür. Demokratik respublikada böyük işlər dövlət müdiriyyəti tərəfindən deyil, onsuz və ondan kənarda görülür. Demokratiya ən mahir idarəçilik forması deyil, lakin yalnız o, bir çox hallarda cəmiyyətdə qızğın və sürətli hərəkat doğura bilər, ona enerji və nəhənglər gücünü verə bilər ki, bunlar digər idarəçilik formalarında məlum və mümkün deyildir. Və bu hərəkatlar, bu enerji və güc az-çox əlverişli şəraitlərdə möcüzələr yaratmağa qadirdir. Demokratiyanın əsl üstünlüyü də elə bundadır.

Yaşadığımız əsrdə, xristian dünyasının gələcəyinin bu qədər qeyri-müəyyən olduğu bir dövrdə bəziləri demokratiya ilə, nə qədər ki, o hələ bərkiməyib, vuruşmağa tələsir, digərləri isə, yer üzündə zühur etmiş yeni bir tanrı kimi

Satış üçün nəzərdə tutulmayıb

artıq ona sitayiş edir. Lakin birincilər də, ikincilər də öz nifrətlərinin və sitayişlərinin obyektinə yaxşı bələd deyillər və məsələnin məğzini bilmədən naşıcasına vuruşur, qarasına zərbələr endirirlər.

Əvvəlcə bir araya gəlmək lazımdır: biz cəmiyyətdən və onun idarə edilməsindən nə gözləyirik?

Biz insan ruhunu yüksəklərə qaldırmaq, onun ətraf dünyaya minnətdarlıq hissi ilə baxa bilməsi üçün ona kömək etmək istəyirikmi? Biz, insanlara maddi nemətlərə qarşı həqarət hissi təlqin etmək istəyirikmi? Biz, dərin əqidələri və fədakar sədaqəti həyata gətirmək və yaymaq istəyirikmi?

Biz qarşımıza adət və xasiyyətləri yaxşılaşdırmaq, insanları tərbiyə etmək və incəsənəti inkişaf etdirmək məqsədi qoyuruqmu? Biz, poeziyaya, alqışlara, şöhrətə can atırıqmı?

Biz istəyirikmi ki, xalqımız bütün qalan xalqlardan daha güclü təsir göstərməyə qabil olsun? Biz onu böyük işlər üçün hazırlayırıqmı? Biz, onu, onun səylərinin nəticələrindən asılı olmayaraq, onu tarixdə xüsusi rol üçün hazırlayırıqmı?

Əgər bizim fikrimizcə, cəmiyyət halında birləşmiş insanların başlıca məqsədi bundan ibarətdirsə, o zaman, idarəetmənin demokratik forması bizim üçün yaramır, o bizi can atdığımız məqsədə çatdıra bilməz.

Yox, əgər biz hesab ediriksə ki, insanın intellektual və mənəvi fəaliyyəti maddi həyatın ehtiyaclarının təmin olunmasına yönəldilməlidir və əgər bizə elə gəlirsə ki, sağlam düşüncə insanlara dahilikdən daha çox gərəklidir, əgər biz, qəhrəmanlıq keyfiyyətləri deyil, dinc vərdişlər tərbiyə etməyə çalışır, cinayətlərlə müqayisədə qüsurlara üstünlük verir və cinayətlərin sayının azalması naminə böyük işləri qurban verməyə razı oluruqsa, dəbdəbəli cəmiyyətdə deyil, tərəqqi edən cəmiyyətdə yaşamaq istəyiriksə və nəhayət, əgər bizim fikrimizcə, idarəetmənin əsas məqsədi – bütövlükdə xalqın gücü və şöhrəti deyil, onun hər bir nümayəndəsinin firavanlığı və xoşbəxtliyidirsə, onda biz bütün insanların hüquqlarını bərabərləşdirməli və demokratiya qurmalıyıq.

Lakin seçim üçün vaxt əldən verilmişsə və qarşısında insanın duruş gətirə bilmədiyi qüvvələr istəklərimizin ziddinə olaraq labüd surətdə bizi bu idarəetmə formalarının birinə tərəf sürükləyirsə, onda biz bundan heç olmasa özümüz üçün ən böyük faydanı hasil etməyə çalışmalıyıq. Onun yaxşı və pis cəhətlərini bilməklə, biz ikinciləri zərərsizləşdirməli və birinciləri inkişaf etdirməliyik.

Mənbə: Alexis de Tocqueville, Democracy in America, vol. 1 (Phillips Bradley, ed., 1945), 246-63.

Satış üçün nəzərdə tutulmayıb

14. Özünə İnam (1841)

Ralf Uoldo Emerson

Ralf Uoldo Emerson *(Ralph Waldo Emerson)* (1803-1882) demokratiyanın nəğməkarı və XIX əsrin ortalarında Amerikanın intellektual həyatına güclü müsbət təsir göstərmiş Transsendental hərəkatın mühüm simalarından biri idi. Transsendental fəlsəfəyə görə, "zəka" anlayışına insanın ən mühüm qabiliyyəti kimi, onun intellektə və emosiyalara tam etibar edərək gözəlliyi və həqiqəti tapmaq bacarığı kimi tərif verilirdi. Bu hərəkat Massaçusets Ştatının Konkord şəhərində ziyalıların kiçik bir qrupu tərəfindən yaradılmışdı, Emerson isə bu hərəkatın intellektual ilhamvericisinə və onun ideyalarının ən güclü ifadəçisinə çevrilmişdi.

Əvvəlcə unitarist[27] keşiş olmağa hazırlaşan Emerson 1832-ci ildə özünü tamamilə ədəbiyyata, müəllimlik fəaliyyətinə və unikal Amerika fəlsəfəsinin inkişaf etdirilməsi işinə həsr etmək məqsədilə kilsəni tərk etdi. O, "Amerikalı alim" adlı əsərində (1837) öz həmvətənlərinə müraciətlə onları artıq əldə etdikləri siyasi müstəqilliyi daha da genişləndirərək intellektual baxımdan da Avropadan asılı vəziyyətdən xilas olmağa çağırırdı. "Biz xaricə həddən artıq tez-tez baxırıq... Gəlin əsl amerikalılar olaq" – deyən Henri Kley[28] kimi, Emerson da Harvard Universitetinə müraciətində soruşurdu: "Məgər bizim özümüzün dərin mənalı poeziyamız, ənənəvi və kənardan gətirilmiş dini baxışlardan fərqlənən dərin fəlsəfəmiz ola bilməzmi? Bizim özümüzün məxsusi tədqiqatlarımız, qanunlarımız və dini baxışlarımız olmalıdır". Oliver Uendel Holms[29] bu nitqi "bizim intellektual İstiqlal bəyannaməmiz" adlandırmışdı.

Emerson öz şeirlərində və esselərində amerika həyatında müşahidə etdiyi *müxtəliflik* və *azadlıq* məsələləri barədə yazırdı. O öz həmvətənlərinin bu azadlığa layiq olmalarını və şəxsi həyatda müstəqil davranış yolu ilə bu azadlığa nail olmalarını tələb edirdi. Emerson özünün ən məşhur essesində yazırdı: "Əqlinizin saflığından və səmimiliyindən daha müqəddəs sayıla biləcək heç bir dəyər yoxdur". Bu axtarış, insanın *öz qüvvələrinə inam* axtarışı – əslində, kainatda harmoniya axtarışı idi. Bu harmoniyaya nail olmaq isə yalnız o halda mümkündür ki, hər bir insan öz qabiliyyətini reallaşdırmaq üçün özünəməxsus vasitələr axtarsın.

> Emerson cəmiyyəti çox sərt tənqid edir. O, insanın ruhunu əzən, ifrat dərəcədə inzibatiləşdirilmiş dini məsxərəyə qoyurdu. O belə hesab edirdi ki, hər bir insanın möminliyi onun fərdi xüsusiyyətlərindən ibarətdir və bu fərdi xüsusiyyətləri yalnız azad cəmiyyətdə üzə çıxarmaq mümkündür. Lakin hətta azad cəmiyyətdə də belə

Satış üçün nəzərdə tutulmayıb

bir ehtimal var ki, idealistləri düzgün başa düşməyəcəklər.

Əvvəlcə Emerson özünü "real" dünyadan təcrid edərək, yalnız öz daxili aləmi ilə yaşayırdı.

Emerson köləliyin əleyhinə olsa da, zəncilərin azadlığı uğrunda çıxışlar edən radikal təşkilatlardan mümkün qədər kənar olmağa çalışırdı. Lakin vaxtilə pərəstiş etdiyi tanınmış dövlət xadimi Daniel Uebsterin *(Daniel Webster)* 1850-ci ildə qaçqın qullar barədə qanunu dəstəkləməklə cəmiyyətin etimadına xəyanət etdiyini görəndə Emerson ona açıq hücum etdi. Növbəti on il müddətində Emerson qaçqın qulları gizlətməyə kömək edir və köləliyin ləğv edilməsi barədə açıq-aşkar çağırışlarla çıxış edirdi.

Əlavə məlumat üçün oxuyun: Gay Wilson Allen, Waldo Emerson (1981); Stephen E. Whicher, Freedom and Fate: An Inner Life of Ralph Waldo Emerson (1953); Philip F. Gura and Joel Myerson, eds., Critical Essays on American Transcendentalism (1982).

ÖZÜNƏ İNAM

Ne te quaesiveris extra[30].

İnsan özünün yol göstərən ulduzudur.
İnsanın qəlbi onu namuslu və mükəmməl edir,
Onu saflaşdırır, nurlandırır və taleyinə təsir göstərir.
Heç nə ondan ötrü hədsiz tez və ya hədsiz gec olmur.
Bizim həm yaxşı, həm də pis hərəkətlərimiz
Fatal kölgə kimi, daim bizi izləyən mələklərdir.
Bermont və Fletçerin "Namuslu insanın taleyi" essesinə epiloq

Körpəni qayalıqlar arasına at,
Onu canavar südü ilə bəslə,
Qoy o, qışı çalağanlar və tülkülər arasında keçirsin,
Onda bu körpənin əlləri və ayaqları güclü və çevik olacaq.

Bu yaxınlarda bir məşhur şairin bir neçə şerini oxudum. Bu şeirlər mənə çox orijinal və qeyri-adi göründü. Belə şeirlərdə nədən bəhs edilməsindən asılı olmayaraq onlar insanı sanki nə barədəsə xəbərdar edir, onu ehtiyatlı olmağa çağırırlar. Bu şerilərin doğurduğu hisslər onların əsasını təşkil edən fikirlərdən daha əhəmiyyətlidir. İnsanın öz təfəkkürünə inamı, onun qəlbindəki həqiqətin hamı üçün həqiqət olmasına inamı – dahiyanəlikdir. Öz gizli əqidələriniz barədə danışın, qoy onlar hamının əqidəsinə çevrilsin. Çünki əvvəlcə gizli olanlar sonradan həmişə

Satış üçün nəzərdə tutulmayıb

aşkarlaşır və nəticədə bizim ilkin fikirlərimiz məhşər günü – İsrafilin surunun sədaları altında özümüzə qayıdacaqdır. Musa peyğəmbər kimi, Platon və Milton[31] kimi dahilərin ən böyük məziyyəti ondan ibarət idi ki, onlar kitablara və ənənələrə güvənmir, başqalarının dediklərini demir, yalnız özlərinin düşündükləri barədə danışırdılar.

İnsan onun zəkasına ildırım kimi çaxan (və çoxsaylı ustadlarının, müdriklərin dediyindən qat-qat əhəmiyyətli olan) işıq şüasını görməyi və onun arxasınca getməyi öyrənməlidir. Lakin nədənsə insan öz fikirlərini, sadəcə olaraq bu fikirlər onun özünə məxsus olduğuna görə əsla tərəddüd etmədən, bir kənara atır. Biz dahinin hər bir işində vaxtilə özümüzə məxsus olmuş, sonra isə elə özümüzün təkzib etdiyimiz fikirlər görürük və bu fikirləri başqa birisindən eşidəndə onu az qala möcüzə kimi qəbul edirik. Böyük incəsənət əsərləri də bizə eynilə bu cür təsir göstərir. Onlar bizə öz qəlbimizin səsini dinləməyi o qədər inandırıcı şəkildə öyrədir ki, bütöv bir xor dəstəsi bunu edə bilməz. Biz həmişə bildiyimiz bir məsələ barədə tanımadığımız adamın fikrini eşidəndə az qala xəcalət çəkərək etiraf etməyə məcbur oluruq ki, özümüzün çıxardığımız nəticəni bir başqasından eşidirik.

Dünyanın dərk edilməsi prosesində hər bir insan müəyyən bir məqamda yəqin edir ki, paxıllıq – nadanlıqdır, imitasiya isə – intihardır, insan görür ki, öz taleyini özü qurmalıdır, kainatda bərəkətin sayı-hesabı olmasa da, insan özü bir qarış halal torpağında gərgin əmək sərf etməsə, bu bərəkətin bircə zərrəsi də ərsəyə gəlmir. İnsanın daxilində gizlənən qüvvə hələ təzədir və o özü bu qüvvəni sınaqdan keçirməyincə, heç kəs onun nəyə qadir olduğunu bilmək iqtidarında deyil.

Bir şəxs, bir xarakter və ya müəyyən bir fakt insana çox güclü təsir göstərə bilər, başqaları isə bunu edə bilmir. Bütün bunlar insanın yaddaşında əks olunur və bu əksolunma prosesində yaddaşda qabaqcadan müəyyən edilmiş harmoniyanın təsiri də özünü göstərir.

Şüa hansı nöqtəyə düşməlidirsə, göz qabaqcadan həmin nöqtəyə yönəlmiş olur. Lakin belə olanda göz yalnız həmin şüanı seçə biləcəkdir. Beləliklə, biz özümüzü təəssüratların yarısından məhrum edir və bizlərdən hər birinin təmsil etdiyi ilahi ideyanı naqisləşdiririk. Şüanın bu cür görünəcəyinə inanmaq və ondan xeyirxah əməllər üçün istifadə etmək olar, lakin Allah öz qüdrətinin təbliğ olunmasını qorxaq adamlara etibar etməzdi. İnsan öz işinə can qoyanda buna sevinir və vəcdə gəlir, bu mümkün olmayanda isə insan rahat ola bilmir. Bu elə bir qurtuluşdur ki, insanı heç nədən qurtarmır. Bu halda insanın dühası onu tərk edir, ilham pəriləri daha onun köməyinə gəlmir, bəsirət qabiliyyəti, ümid hissi itir.

Özünüzə etibar edin: hər bir insanın qəlbi məhz bu polad simin hesabına döyünür.

Satış üçün nəzərdə tutulmayıb

İlahi vəhy sizi hansı yola sövq edirsə, həmin yolu tutun. Müasirlərinizin cəmiyyətini və hadisələr arasında əlaqələri necə varsa, elə, olduğu kimi də qəbul edin.

Böyük insanlar həmişə bu cür hərəkət etmiş və uşaqlara xas olan bir səmimiliklə öz zəmanəsinin ruhuna inanmışdılar. Onlar öz hissiyyatlarına inanırdılar ki, ən etibarlı qüvvə onların qəlbindədir, onların əlləri ilə hərəkət edir və onların bütün varlığını idarə edir.

İndi öz yüksək zəkasının qüvvəsi ilə bu transsendent (qeyri-adi) taleyi qəbul etməli olan insanlar – bizik. Bunu xəlvət bir yerdə gizlənən zəif və şikəst adamlar, inqilab dalğasından qaçıb canlarını qurtaran qorxaqlar yox, bunu ulu tanrının əmrinə tabe olan, xaosa və qaranlıqlara meydan oxuyan bələdçilər, xilaskarlar və himayədarlar etməlidirlər.

Təbiət insanların sifətinin ifadəsinə görə, uşaqların, körpələrin və hətta heyvanların davranışına görə, bizim çox şeyi anlamağımıza imkan verir. Xeyr, belə imkana malik olan zəka heç də parçalanmış və qiyam etmiş, bizim müəyyən məqsədə nail olmaq naminə öz qüvvə və vəsaitlərimizi hesablamağı bacardığımıza görə hisslərimizə etibar etməyən zəka deyil. Onların zəkası bütöv, baxışları isə qətiyyətlidir və biz onların üzünə baxanda özümüzü itiririk. Körpələr heç kəsə tabe olmur, onlar hamını özlərinə tabe edirlər. Lakin Allah yaşlı insanlara da, uşaqlar və yeniyetmələr kimi, cazibə və gözəllik bəxş etmişdir. Allah böyük lütfkarlıq göstərərək bizə belə bir üstünlük vermişdir və əgər bu üstünlük qəflətən var qüvvə ilə dilə gəlsə, onu rədd etmək mümkün deyil. Əgər cavan bir oğlan mənimlə və ya sizinlə danışa bilmirsə, elə bilməyin ki, bundan ötrü onun gücü yoxdur. Qulaq asın, görün o biri otaqda onun səsi kifayət qədər aydın və ifadəli eşidilir. Görünür, o öz yaşıdları ilə necə danışmaq lazım olduğunu yaxşı bilir. Lakin onun utancaq və ya bəlağətli olmasının fərqi yoxdur: o, bizi – yaşlıları gərəksiz etmək yollarını başa düşəcəkdir.

Nahar süfrəsi arxasında özlərini inamlı hiss edən və ətrafdakı insanlara yuxarıdan aşağı baxan oğlanların qayğısızlığı (birisinə barışdırıcı ruhda bir söz deyən ev sahibinin etdiyi kimi) əsl sağlam münasibətin göstəricisidir. Qonaq otağındakı oğlan dram teatrındakı "parter" kimi müstəqil qayğısızdır, o, insanlara və hadisələrə öz baxış bucağından nəzər salır, insanlar barəsində onların ləyaqətinə görə mühakimə yürüdür və bunu uşaqlara məxsus olan tərzdə, qısa xülasələr şəklində edir: "yaxşıdır", "pisdir", "maraqlıdır", "səfehdir", "gözəldir" və ya "ağırdır". Onu bu hökmlərin nəticələri və ya kiminsə bunlarda maraqları narahat etmir. Onun qərarı müstəqil və səmimidir. Siz ona diqqət göstərməlisiniz, o, sizə yox.

Lakin insan öz şüurluluğunun girovuna çevrilir. O, uğurlu bir hərəkət edən kimi dərhal müstəqilliyini itirir, yüzlərlə insan onu rəğbət və ya nifrət

Satış üçün nəzərdə tutulmayıb

hissi ilə izləməyə başlayır və bu insan onların fikirləri ilə hesablaşmalı olur. Və burada Leta unutqanlıq çayının suları da kömək etmir.

Axı insan hətta bütün bunlardan sonra da neytrallığa qayıda bilər! Kim bütün öhdəliklərdən yan keçərək, qərəzsiz, möhkəm, əzmli baxışları ilə başqalarının mühakimələrinə davam gətirmək istəsə, o, həmişə vahiməli olmalıdır.

Bundan sonra o insan baş verən bütün hadisələr haqqında fikir yürüdəcəkdir; bu fikir artıq təkcə o insan üçün yox, hamı üçün zəruri hesab ediləcək; o insan sanki mizraq kimi, insanların qulaqlarını deşərək onları dəhşətə gətirəcəkdir.

Biz tənha qalanda məhz bu cür səslər eşidirik, lakin biz dünyaya qədəm qoyanda həmin səslər sakitləşir və bir azdan güclə eşidilir. Cəmiyyət öz üzvünün əzmkarlığına qarşı qərəzli planlar qurur. Cəmiyyət elə bir səhmdar şirkətinə oxşayır ki, onun üzvləri öz əmanətlərini qoruyub saxlamaq naminə azadlıqlarını və mədəniyyətlərini qurban vermək barədə bir-biri ilə sövdələşir. Ehkamlara riayət etmək çoxlarının nəzərində yaxşı əməl sayılır. Burada birisinin özünə inamı başqalarında ikrah hissi doğurur. Cəmiyyət reallığı və onu yaradanları deyil, adları və ənənələri xoşlayır.

Kim adam olmaq istəyirsə o, nonkorfimistə[32] çevrilməlidir. Kim müqəddəs palma budaqlarını yığmaq istəyirsə, "əməlisalehlik" onu çaşdırmamalıdır, o öz hərəkətlərinin doğrudan da "əməlisalehlik" olub-olmadığını aydınlaşdırmalıdır. Düşüncəmizin səmimiliyindən daha müqəddəs sayıla biləcək heç bir dəyər yoxdur. Özünüzü azad edin, onda bütün dünya sizi bəyənəcəkdir.

Cavan yaşlarımda olarkən hörmətli bir məsləhətçim vardı. O, köhnə, xeyirxah ruhlu kilsə doktrinaları ilə məni lap təngə gətirmişdi. Bir dəfə həmin məsləhətçiyə verdiyim cavab hələ də yadımdadır. Mən ona sual verəndə ki, əgər mən tamamilə özümə qapanmış halda yaşayıramsa, müqəddəs ənənələr mənim nəyimə gərəkdir, – dostum dedi: "Ola bilsin ki, bu impulslar *yuxarıdan* deyil, *aşağıdan* gəlir". Onda mən belə cavab verdim: "Mən belə hesab etmirəm, lakin əgər mən iblisin övladıyamsa, onda mənim həyatım da iblisin həyatına uyğun olmalıdır".

Məncə, heç bir qanun mənim öz təbiətimin qanunundan müqəddəs ola bilməz. İstənilən şeyə lap asanlıqla yaxşı da demək olar, pis də; yeganə doğru olan o şeydir ki, quruluşuma uyğun olsun, uyğun olmayanı isə – yanlışdır. İnsan bütün hücumlara sinə gərməyi bacarmalıdır, özünü elə aparmalıdır ki, guya ondan başqa ətrafda nə varsa, hamısı formal və efemerdir. Adlı-sanlı şəxslərin, böyük birliklərin və cansız təsisatların qarşısında necə asanlıqla təslim olduğumuzu fikirləşəndə xəcalət çəkirəm. Bu adlı-sanlı və incə zövqlü şəxslər mənə əslində, lazım olduğundan qat-qat

Satış üçün nəzərdə tutulmayıb

artıq təsir edib istiqamətləndirirlər. Amma mən namuslu, əzmkar olmalı və bütün hallarda acı həqiqəti deməliyəm.

Məkrlilik və şöhrətpərəstlik filantropiya donuna girirsə, bunun bir səmərəsi ola bilərmi? Əgər qulların azad edilməsi uğrunda hərəkatın qəzəblənmiş və fanatik bir üzvü mənim yanıma gəlib Barbadosdan aldığı son xəbərləri mənə söyləməyə başlayırsa, nə üçün mən ona belə deyə bilmərəm: "Get, əvvəlcə öz uşaqlarını, öz odunçunu sev, xeyirxah və təvazökar ol, şəfqətli ol; bir neçə min mil uzaqda yaşayan qaradərili sakinlər barədə qeyri-təbii və qeyri-səmimi qayğıkeşliyinlə heç vaxt öz ambisiyalarını gizlətmə. Sənin sevginə öz evində daha çox ehtiyac var". Əlbəttə, bu cür rəftar kəskin və xoşagəlməz olardı, lakin həqiqət həmişə saxta sevgidən daha gözəl görünür. Məziyyətləriniz sizə müəyyən üstünlüklər vermirsə, onların bir qəpiklik qiyməti yoxdur. Məhəbbət ah-zara və fasiləsiz şikayətlərə çevriləndə məhəbbət doktrinasının əksinə, nifrət doktrinası da təbliğ olunmalıdır.

> Ruhum məni səsləyəndə mən atamdan, anamdan, arvadımdan, qardaşımdan imtina edərək, bu çağırışa cavab verirəm. Mənə qalsa, bütün qapıların üzərinə "gəribəlik" sözü yazardım. Hər halda, bu, qəribəlikdən azacıq da olsa yaxşıdır, lakin bunu araşdırmaq üçün bütün günümüzü sərf edə bilmərik. Mənim cürbəcür cəmiyyətlərə niyə qoşulduğumu və ya qoşulmadığımı soruşmayın. Və bu gün xeyirxah bir insanın etdiyi kimi, siz də mənim yoxsulların vəziyyətini yaxşılaşdırmaq vəzifələrim barədə danışmayın. Məgər onlar *mənim yoxsullarımdır?* Səninləyəm, ey səfeh filantrop, mənə mənsub olmayan və mənim mənsub olmadığım bu cür adamlara sərf edilən hər bir dollara, hər bir sentə heyfim gəlir. Mənim mənəvi yaxınlıq hissi bəslədiyim insanlar sinfi var; onların xatirinə, lazım gəlsə, həbsxanaya düşməyə də hazıram. Lakin sizin bu populist xeyriyyəçiliyiniz, ağıldankəmlər üçün kolleclərdə verilən təhsil, müxtəlif mənasız assambleyalar üçün binalar tikilməsi (bu binaların çoxu artıq tikilmişdir), əyyaşlara verilən ianələr və ehtiyacı olanlara yardım göstərən minlərlə cəmiyyət – bunlar qəbuledilməzdir. Mən xəcalət hissi ilə etiraf edirəm ki, bəzən mən də bu hisslərə uyaraq bir dollar bağışlasam da bu dollar onlara halal olmur və gələcəkdə iradəm çatmalıdır ki, bunu bir daha etməyim.

Xeyirxah əməllər cəmiyyətin nəzərində adi qaydadan daha çox, müstəsna hal sayılır. Biri var insan, biri də var onun xeyirxah əməlləri. İnsanlar xeyirxah hərəkətlər deyilən əməlləri edəndə, məsələn, cəsurluq və ya xeyirxahlıq göstərəndə bunu elə edirlər ki, sanki gündəlik rəsmi gəzintidə iştirak etmədiklərinə görə cərimə ödəyirlər; elə bil həyatda yer tutmalarına görə kimdənsə üzr istəyir və ya özlərini təmizə çıxardırlar. (Şikəst və ruhi

Satış üçün nəzərdə tutulmayıb

xəstələr də öz talelərinə görə beləcə cavab verməli olurlar.) Elə bil bu insanlar öz xeyir əməllərinə görə cəza çəkirlər. Mən ömrüm boyu özümü təmizə çıxarmaq istəmirəm, mən yaşamaq istəyirəm. Mənim həyatım – tamaşa deyil, mənim öz ömrüm-günümdür. Mən istərdim ki, bu həyat indiki qədər gərgin olmasın, yəni parıltılı və qeyri-sabit deyil, normal və hamar olsun. Mən istərdim ki, həyatım qan saçan problemlərlə dolu olmasın, sağlam və xoşagələn olsun.

Görürəm ki, adi bir insansınız və sizin fəaliyyətinizə qoşulmaq barədə çağırışlarınıza əməl etmək istəmirəm. Çox nəcib hesab edilən bu fəaliyyətə qoşulub – qoşulmayacağımın məndən ötrü fərqi yoxdur. Mənim buna anadangəlmə hüququm var. İstedadım nə qədər cüzi və miskin olsa da, mən necə varamsa eləyəm və bunu təzədən sübut etməyə və ya ətrafımdakı insanların bunu etiraf etmələrinə ehtiyac duymuram.

Mən başqalarının düşündüklərini deyil, özümü narahat edən işi görməliyəm. Gerçək və intellektual həyatda eyni dərəcədə çətin olan bu qayda böyüklüyün və miskinliyin nə demək olduğunu anlamağı xeyli dərəcədə asanlaşdıra bilər. Bu qaydaya riayət etmək çox çətindir, çünki həmişə elə adamlar tapılacaq ki, onlar vəzifələrinizi sizin özünüzdən yaxşı bildiklərini güman edəcəklər. Hamı tərəfindən qəbul edilmiş fikirlə razılaşaraq yaşamaq asandır. Əvəzinizə bütün qərarları başqaları qəbul edirsə, onda yaşamağınız xeyli asanlaşır. Lakin böyük şəxs odur ki, kütlənin arasında öz tənhalığının müstəqilliyini haysız-küysüz qoruyub saxlaya bilir.

Sizdən ötrü heç bir əhəmiyyəti olmayan ümumi fikirdən imtina edin, çünki bu cür fikir qüvvələrinizi buxovlayır. Siz vaxtınızı itirirsiniz, öz xarakterinizin dəyərli cəhətlərini məhv edirsiniz. Əgər siz ölmüş bir məzhəbi dəstəkləyirsinizsə, ölüb getmiş bir Bibliya birliyinin xeyrinə ianələr verirsinizsə, böyük bir təşkilatla birlikdə dövlətin lehinə və ya əleyhinə səs verirsinizsə, deməli, siz, sadəcə olaraq, pansion sahiblərinin etdikləri kimi qonaqlara açılmış süfrəyə qulluq edirsiniz – bütün bu səhnələr sizin necə insan olmağınız barədə məndə heç bir təsəvvür yaratmır, bundan ötrü nə qədər qüvvənizi hədər yerə sərf etməyiniz də öz yerində.

Lakin siz işləyin, onda mən sizin kimliyinizi bilərəm. İşləyin, canınız bərkisin. İnsan başa düşməlidir ki, konformizm sadəcə olaraq, gizlənqaç oyunudur. Əgər siz hansısa bir sektanın üzvüsünüzsə, onda mən sizin arqumentlərinizi təxminən bilirəm. Budur, mən öz məzhəbinin qaydalarından birinin həqiqiliyi barədə danışan vaizi dinləyirəm. Axı əvvəlcədən bilirəm ki, onun nitqində bircə kəlmə də təzə söz olmayacaq. Axı görürəm ki, bu vaiz zahirən açıq müzakirə aparmaq niyyətində olsa belə, əslində buna heç yaxın gəlmək fikrində deyil. Axı bilirəm ki, o, məsələyə yalnız birtərəfli, icazə verilmiş mövqedən yanaşacaq və bunu qərəzsiz bir adam kimi deyil, kilsə keşişi kimi edəcəyinə and içmişdir. O, sadəcə olaraq,

Satış üçün nəzərdə tutulmayıb

muzdlu vəkildir və kilsə kafedrasından çıxış edən bu adamın bütün hərəkətləri başdan-başa ədəbazlıqdır.

Beləliklə, insanların əksəriyyəti özlərini mövcud fikirlərdən birinə bağlamaq üçün gözlərinin birini və ya hər ikisini bağlamışdır. Bu konformizm onları yalnız ayrı-ayrı hallarda saxtakarlığa sövq etməklə və ya hansısa bir yalanın müəllifinə çevirməklə kifayətlənmir, onlar artıq bütün hallarda saxtakarlıqla məşğul olurlar. Onların həqiqəti də tam həqiqət deyil. Onların dedikləri "iki" həqiqi iki deyil, onların dedikləri "dörd" həqiqi dörd deyil. Onlar hər nə desələr, bizi məyus edirlər və biz bilmirik, onların dediklərini ciddi qəbul etməyə dəyərmi. Bununla belə, təbiət bizim əynimizə sanki mənsub olduğumuz təşkilatın həbsxana libasını geyindirir. Sifətimiz və görkəmimiz eyni olur, sir-sifətimizdən kütlük yağır.

Sizdə nə isə alçaldıcı, təhqiramiz bir vərdiş də yaranır. Çox vaxt bu vərdiş bütün ömrünüz boyu sizi izləyir. Təhqiramiz vərdiş dedikdə, bizi tərifləyən olanda sifətimizin səfeh görkəm almasını, özümüzü yaxşı hiss etməyəndə, yaxud maraqsız söhbət məqamında sifətimizdəki saxta təbəssümü, yalandan gülümsəməyimizi nəzərdə tuturam. Belə hallarda sifətimizin əzələləri təbii şəkildə hərəkət etmir, biz onları qəsdən sifətimizin kənarlarına doğru sıxırıq və əzələlər sifətə hədsiz narazılıq ifadəsi verir.

Sizin nonkorformizminizə görə dünya sizə qarşı qəddarlıq edəcək. Buna görə də insan başqalarının sifətindəki həqiqi narazılıq ifadəsini hiss etməyi bacarmalıdır. Təsəvvür edin ki, ictimai yerdə və ya dostunuzun qonaq otağında yanınızda dayanan adamlar sizə çəpəki baxırlar. Əgər bu nifrət hissi həmin adamın oradakı insanlar tərəfindən qəbul edilməməsinin nəticəsi olsaydı, bu adam qəmli bir görkəmlə çıxıb evinə gedə bilərdi, lakin çoxlarının sifətini turşutmasının, eləcə də başqalarının çöhrəsindəki təbəssümlü ifadənin elə bir ciddi səbəbi yoxdur. Bu adamlar istədikləri vaxt sifətlərinə istədikləri görkəm verməyi bacarırlar və buna külək əsəndə qəzeti necə yellədirsə, eynilə o dərəcədə təbii şəkildə edirlər.

Məgər əksəriyyətin sizdən narazı olması senatın və ya kollecin sizdən narazı olmasından çox qorxuludur? Dünyadan bixəbər olmayan əzmkar adam savadlı siniflərin qəzəbinə asanlıqla dözəcəkdir. Onların qəzəbi mərifətli və ağlabatan xarakter daşıyır, çünki onlar özləri utancaq və incə qəlbli insanlardır. Lakin onların qəzəbinə xalqın narazılığı da əlavə ediləndə, savadsızlar və yoxsullar ayılanda, bisavad və kobud qüvvələr, cəmiyyətin tör-töküntüləri qışqırıb-bağırmağa başlayanda onda burada səndən allahsevərlik və alicənablıq tələb olunur ki, bütün bunlara əhəmiyyətsiz bir şey kimi baxasan.

Bizi öz qüvvələrimizə inanmaqdan çəkindirən daha bir dəhşətli məqam var: bu, bizim ardıcıllığımız, keçmişdəki hərəkətlərimizə və sözləri-

Satış üçün nəzərdə tutulmayıb

mizə hörmət bəsləməyimizdir, çünki bizi əhatə edənlərin nəzərində öz həyat yolumuzun meyarı məhz əvvəlki hərəkətlərimiz ola bilər və biz həmin adamları məyus etmək istəmirik.

Lakin başımızı həmişə dik tutmağa nə ehtiyac var? Biz əvvəlki hərəkətlərimizə və açıq söylədiyimiz fikirlərə nə qədər zidd olsaq da, nə üçün keçmişin bu gərəksiz yükünü özümüzlə daşımalıyıq? Fərz edək ki, dediyimizin ziddinə çıxmalıyıq, axı nə olsun? Deyəsən, belə bir müdrik qayda var: insan hətta nəyisə yada salanda, təkcə öz yaddaşına arxayın olmamalıdır, o öz keçmişinə bu günün min gözlü baxışı ilə baxmalıdır və həmişə bugünkü günlə yaşamağa çalışmalıdır.

Siz öz metafizikanızda Tanrını şəxsiyyətsizləşdirdiniz, lakin qəlbinizin xoş məramlı sədaları eşidiləndə həyatınızdan, canınızdan keçməyi bacarın, məhz onlar ilahi qüvvəyə rəng və forma verməlidirlər. Yusif öz libasını kənizə bağışladığı kimi, siz də öz nəzəriyyənizi bir kənara atıb qaçın.

Kor-koranə ardıcıllıq cılız insanların bayrağıdır. Xırda dövlət xadimləri, filosoflar və ilahiyyatçılar bunu çox qiymətləndirirlər. Geniş dünya baxışına malik olan insana isə bu cür ardıcıllıq sadəcə olaraq, gərək deyil. Bu onun üçün öz kölgəsinin dalınca qaçmaq kimi bir şey olardı. İndi bu saat nə düşünürsünüzsə yalnız onu, özü də ən sərt şəkildə deyin, sabah isə – sabah nə fikirləşirsinizsə onu və yenə də ən sərt formada deyin. Hərçənd, sizin sabahkı sözləriniz bu gün dediklərinizə zidd ola bilər. Deyirlər, əmin olun, sizi hökmən başa düşməyəcəklər. Məgər düzgün başa düşülməmək çox pis şeydir? Axı Pifaqoru da, Sokratı da, İsa peyğəmbəri də, Lüteri də, Koperniki də, Qalileyi və Nyutonu da düzgün başa düşmürdülər. Ümumiyyətlə, bütün dövrlərdə, dünyaya gəlmiş hər bir müdrik və saf insanı həmişə səhv başa düşmüşdülər. Dahiləri heç vaxt düzgün başa düşməyiblər…

Mənbə: The Complete Essays and Other Writings of Ralph Waldo Emerson (Brooks Atkinson, ed. 1940), p. 145-152

Satış üçün nəzərdə tutulmayıb

15. Massaçusets Legislaturasına Müraciət (1843)
Doroti Diks

Vətəndaş müharibəsinin (1861-1865) başlamasından bir neçə onillik öncə ölkədə humanitar islahatlar dalğasını təsvir edən Ralf Uoldo Emerson yazırdı ki, gənclər artıq "sanki ağıllarında bıçaq"la doğulurdular. O, bunu qadınlar haqda desəydi də yanılmazdı, belə ki, İslahatlar Epoxasının reformatorları arasında çox az adam tapılardı ki, Doroti Lind Diks *(Dorothea Lynde Dix)* (1802-1887) qədər səmərəli və faydalı fəaliyyət göstərmiş olsun. Men Ştatının kənd yerlərində ortabab ailədə doğulmuş Diks 19 yaşınadək, Bostonda ibtidai məktəbdə müdirlik etmiş və bu müddət ərzində uşaqlar üçün bir neçə kitab nəşr etdirmişdi.

Lakin xəstəlik üzündən məktəbi bağlamağa və öz sağlamlığını bərpa etmək ümidi ilə uzun müddətə İngiltərəyə getməyə məcbur olmuşdur. Orada Diks bir çox ingilis islahatçıları ilə tanış olmuş və humanitar problemlərlə maraqlanmağa başlamışdır.

Sonralar Diks yenə Bostona qayıtmışdır. 1841-ci ildə o, Massaçusets Ştatının Kembric şəhərindəki həbsxanaya, oradakı "Bazar günü məktəbi"ndə[33] mühazirə oxumaq üçün getmişdir. Orada Diks ruhi xəstə qadınlarla görüşmüşdür. "Lunatik" adlandırılan bu qadınlar cinayətkarlarla eyni bir çirkli kameralarda saxlanılırdılar. Bu görüşdən sonra Diks öz həyatını bu işə həsr etmək qərarına gəldi. Bu qeyri-adi qadın – cazibədar, təbiətən ürkək, qətiyyətsiz Diks bununla belə bütün ölkəni gəzib öz "səlib yürüşü" ilə ruhi xəstələrə humanist münasibət tələb etməyə özündə güc tapdı.

O öz fəaliyyətinə 1843-cü ildə Massaçusets legislaturasına müraciətlə başladı, bu aksiyanın nəticəsində Ştatın hökuməti ruhi xəstələr üçün ayrıca korpuslar tikdirməyə məcbur oldu. Sonra Diks ümummilli səviyyəyə çıxdı və Konqresin Vaşinqtonda Müqəddəs Yelizaveta xəstəxanasının tikilməsi haqqında qərar verməsinə nail oldu. O, Yeni İngiltərənin yeganə islahatçısı idi ki, cənub ştatlarına tez-tez səfərlər edirdi və orada yerli elitanın nümayəndələri onu dinlədikdən sonra doqquz ştatda ruhi xəstələr üçün müalicəxanaların inşasına razılıq vermişdilər.

Diks Avropaya da səfər etdi və orada Arqayll hersoqunun və kraliça Viktoriyanın dəstəyini qazana bildi. Romada o, papa IX Piyə dedi

Satış üçün nəzərdə tutulmayıb

ki, ruhi xəstələr üçün yerli xəstəxananın vəziyyəti – "rüsvayçılıq və namussuzluqdur". Papa əmr etdi ki, vəziyyəti öyrənsinlər və Diksin dediklərinin doğruluğuna əmin olduqdan sonra bu müəssisədə islahatın aparılması barədə göstəriş verdi.

Diksin başqa islahatlarla da məşğul olmasına, vətəndaş müharibəsi illərində İttifaq ordusunun sanitar xidmətinə rəhbərlik etməsinə baxmayaraq, o daha çox, ruhi xəstələrin müdafiəsi üzrə fəaliyyəti ilə yadda qalıb. Diks psixiatriya xidməti sahəsində əsl inqilaba başlamış və onun səyləri nəticəsində bütün ölkədə ruhi xəstələr üçün 120-dən çox hospital tikilmişdi; bu müalicəxanalar əvvəlkilərdə olduğu kimi sadəcə olaraq ruhi xəstələr üçün məhbəs yeri deyil, onlara əsl tibbi yardım göstərən müəssisələr idi. Bundan əlavə, o, Horas Mann, Vilyam Lloyd Garrison *(Horace Mann, William Lloyd Garrison)* və digər islahatçılarla birgə inanırdı ki, demokratiya imkan verir və hətta tələb edir ki, vətəndaşlar azadlıqdan ədalətsizliyin aradan götürülməsi üçün və özünə kömək etmək iqtidarında olmayanlara yardım etmək üçün istifadə etsinlər.

Əlavə məlumat üçün oxuyun: The Discovery of the Asylum (1971); Alice Felt Tyler, Freedom's Ferment (1944); Charles Schlaifer and Lucy Freeman, Heart's Work...Dorothea Lynde Dix (1991).

MASSAÇUSETS LEGİSLATURASINA MÜRACİƏT

Cənablar! Mən bu qeydlərin məzmununu sizin nəzərinizə bu ümidlə çatdırmaq istərdim ki, məni bu qeyri-adi hərəkətə sövq edən motivlər heç şübhəsiz ictimai diqqətə və şəfqətə layiqdir.

Artıq iki ildir ki, mən, vaxt və imkan yol verdikcə, şəhərimizin bilavasitə yaxınlığında yerləşən həbsxanalara və psixiatriya müalicəxanalarına baş çəkməyi özümə borc bilirəm. Mən aşkar etmişəm ki, Bostonun həndəvərindəki həbsxanalarda və kasıblar üçün müalicəxanalarda müəyyən sinfə mənsub olan insanlar cinayətkarlar və dilənçilərlə bir yerdə yaşamağa məcburdurlar. Mən kəmağıllıları və ruhi xəstələri nəzərdə tuturam, belə ki, bu insanların yaşadığı şərait nəinki onların fiziki və mənəvi sağalmasına əngəl törədir, həm də onların ünsiyyətdə olduğu insanlar üçün ciddi problemlər yaradır.

Satış üçün nəzərdə tutulmayıb

Mən bu bəlanın səbəblərini aydınlaşdırmağa və onun aradan qaldırılması vasitələrini tapmağa çalışdım. Lakin mən bir maneəni dəf edən kimi, dərhal yeni maneə ortaya çıxırdı. Hər bir yeni təhqiqat məni daha çox inandırırdı ki, mənim sizə daha aydın şəkildə açıb göstərməli olduğum bəlanın kökünü yalnız bu sahədə dürüst və sərt qanunvericiliyin qəbul edilməsi yolu ilə kəsmək olar. Mən qarşılaşdığım və mənim üçün bir qadın kimi xüsusən iyrənc görünən dəhşətləri tam səmimiyyətlə açıb göstərməyə çalışacağam. Düşünürəm ki, sizə acı həqiqəti söyləmək düzgün olar. Mən rastlaşdığım mənzərəni bütün dəhşətli detalları ilə birgə təsvir edəcəyəm. Bu detallar üzərimizə düşən böyük vəzifəni daha dərindən anlamağa kömək edir; bu vəzifə – insaniyyət əleyhinə bu cinayətlərin təkrarına və təkrarının davam etdirilməsinə yol verməməkdən ibarətdir.

Mən bura insan iztirabları haqqında çox ciddi faktları sizə çatdırmaq üçün gəlmişəm. Mən bura Massaçusets legislaturasının qarşısında səfillər, yalqızlar, evsizlər haqqında məsələni qaldırmaq üçün gəlmişəm. Mən bura köməksizləri, unudulanları, kəmağıllıları, ruhi xəstələri – kişiləri və qadınları müdafiə etmək üçün gəlmişəm; gəlmişəm ki, bu barədə xəbəri olmayan insanları sarsıda biləcək həddə məzlumlaşmış zavallı bəndələri müdafiə edim; həbsxanalarda yatan bədbəxt məxluqları, müalicəxanalarda zillət çəkən onlardan da bədbəxt məzlumların hüquqlarını müdafiə edim...

Mən bir neçə misalla kifayətlənməli olacağam, lakin ehtiyac olsa, bu barədə daha ətraflı məlumat verməyə hazıram.

İşdir, təsvir edəcəyim mənzərə sizin üçün həddən artıq iyrənc, ədəbsiz və sərt görünsə, unutmayın ki, bu mənzərənin qəhrəmanları heç kəsə sakitlik və rahatlıq hissi aşılaya bilməz. Düşkünlüyün ən dəhşətli səviyyəsinə enmiş insanların durumunu incə ifadələrlə təsvir etmək qeyri-mümkündür.

Cənablar, izn verin diqqətinizi Massaçusets Birliyin *(Commonwealth)* hüdudlarında qəfəslərdə, hücrələrdə, zirzəmilərdə, burdaqlarda və malqara axırlarında saxlanılan ruhi xəstələrin hazırkı vəziyyətinə yönəldim. Bir anlığa onları, çılın-çılpaq, əl-ayaqları zəncirlənmiş, tam itaətə gətirilmək üçün dəyənəklə döyülən bir vəziyyətdə təsəvvür etməyə çalışın...

Birliyin ayrı-ayrı bölmələri deyil, məhz bütövlükdə Birliyin özü, hələ də rast gəlinən bu cür hüquq pozuntularının əksəriyyətinə görə məsuliyyət daşıyır. Təkrar edirəm, məhz pis qanunvericilik bu cür pozuntuları kökləşdirir və çoxaldır. Sizə müraciətimin canını əyaniləşdirmək məqsədilə qeyd kitabçamdan və jurnalımdan götürdüyüm bəzi parçaları sizin diqqətinizə çatdırmaq istəyirəm:

Satış üçün nəzərdə tutulmayıb

Sprinqfild. Həbsxana, ağlını itirmiş lunatik-qadın; Ştatın qəyyumluğu altında olan bu məzlum, dustaqlara, gözətçilərə və özünə qarşı ən ədalətsiz tərzdə yerləşdirilib. Bu, xarici dünyadan tam təcridetmə və bütün həyat nemətlərindən məhrum etmə hadisəsidir. Bu hadisənin daha ətraflı təsviri yalnız bütün bu dəhşətlərin yenidən təkrarı olardı. O qadın Vösteri tərk etdikdən sonra vəziyyəti kəskin pisləşib. Halbuki orada ona ağıllı şəkildə kömək göstərilsəydi, o, düzgün seçilmiş işlə təmin edilsəydi, yəqin ki, həbsxanaya, bu dəhşətli vəziyyətə düşməzdi. Onun işlə təmin olunma və ünsiyyət haqqında müraciətləri riqqət doğurur, lakin müəssisənin müdirəsi cavab verirdi ki, onun bu xəstə ilə məşğul olmağa vaxtı yoxdur.

Linkoln. Kamerada qadın. Medford. Bir ruhi xəstənin əl-qolu zəncirlə bağlanıb, daha bir ruhi xəstə 17 ildi ki, burdaqda saxlanır. Pepperell. Bir xəstənin əl-qolu qandallanıb, digəri dəlilik eləyir, çırpınır, daha bir neçə nəfəri buxovun köməyilə sakitləşdirmək mümkün olub. Brukfild. Xəstəni qəfəsə salıblar, bundan sonra o sakitləşib. Qrənvil. Xəstə qandallandığına görə, əl-ayağı qıc olmağa başlayıb. Şarlemont. Qəfəsə salınmış xəstə. Savoy. Qəfəsə salınmış xəstə. Lenoks. İki ruhi xəstə həbsxanaya salınıb, həbsxana rəhbərliyi onların fiziki vəziyyətinə görə narahatdır. Dedhəm. Ruhi xəstə ən alçaldıcı tərzdə həbsxanada yerləşdirilib. Kasıblar üçün sığınacaqda iki qadın əsas korpusda yerləşən burdaqda saxlanılır. Onlar içi samanla dolu taxta kamerada uzanıblar və daim susurlar. Güman var ki, onlardan biri sağaldıla bilər. Mənə dedilər ki, vəsaitin olmaması səbəbindən onu müalicə etməkdən boyun qaçırıblar...

Bundan əlavə, çoxlu xəstəyə rast gəlmişəm ki, onları ilin müəyyən dövründə əl-qolu bağlı saxlayır, ya da qəfəsə salırlar…

Demək olar hər yerdə qəfəslərdən istifadə olunur. Elə bir şəhər yoxdur ki, heç olmasa qısa müddət ərzində qəfəslərdən istifadə olunmasın, zəncirlər nisbətən az tətbiq edilir.

Səhlənkarlıq geniş yayılıb, personalın səriştəsizliyi və ya xəstələrə pis münasibət nəticəsində yetirilən əzablarla müqayisədə qəsdən yol verilmiş pozuntuların nəticəsi olan işgəncələrə daha tez-tez rast gəlinir.

Son üç ay ərzində mən ölkənin müxtəlif bölgələrində məqsədsiz və ya köməksiz halda dolaşan bədbəxt məxluqlara çox rast gəlmişəm. Lakin mənim üçün konkret bir hadisə üzərində dayanmaq çətindir. Ştatları gəzərkən mən ən müxtəlif hallarda və şəraitdə, artıq vəziyyətinin düzəldilməsi mümkün olmayan yüzlərlə ruhi xəstə ilə, habelə, həyatı insan iztirabları və düşkünlüyünün dəhşətli mənzərəsindən ibarət olan böyük miqdarda insanla qarşılaşmalı olmuşam.

Satış üçün nəzərdə tutulmayıb

Mən sizə cəmi bir neçə fakt təqdim etdim, lakin gerçəklik daha dəhşətlidir.

Dənvers. Noyabr. Kasıblar üçün sığınacağa baş çəkirəm. Bu, əsaslı təmirə ehtiyacı olan binadır. Yenisinin tikilişi nəzərdə tutulub. Burada 56-60 adam yaşayır, onların dördü ruhi xəstədir. Onlardan da biri həmişə qapalı otaqda saxlanılır.

Sığınacağa çatmağa hələ xeyli qalmış qulağıma dəhşətli bağırtılar, sərsəm mahnı səsləri, söyüş və ədəbsiz ifadələr dəydi. Bu səslər əsas korpusdan xeyli aralıda yerləşən nisbətən alçaq binadan gəlirdi. Mənim yolum elə ora idi. Müdirəni tapdım və o, məni zavallı manyak qadının "evinə" apardı. Bu gənc qadının baxımsızlıq, əzab və daimi narahatlıq yağan görkəmi hər cür ədəbdən uzaq idi.

Öyrənə bildim ki, o, "hörmətli, zəhmətsevər və ləyaqətli bir insan imiş. Həyat müsibətləri onu sarsıtmış, ağıl və iradədən məhrum etmişdi, onu manyaka döndərmişdi. O, uzun zaman Vöster xəstəxanasında yatmışdı və onu orada sağalmaz hesab etmişdilər". Müdirə mənə dedi ki, "Vöster xəstəxanasında o özünü rahat hiss edir və özünü yaxşı aparırdı". Lakin burada o, kəskin dəyişildi. Onun həyəcan və qorxuları sürətlə artmağa başladı. O öz kamerasının barmaqlıqlarına qısılaraq dayanmışdı; kameranın kiçik ölçüləri çirk-pasağın yığılıb qalmasına şərait yaradırdı. Murdar mənzərə idi!

O, qolları açıq, saçları pırtlaşıq, çoxdan yuyulmamış cır-cındırda və çirk içində dayanmışdı. Bütün binada, bu kameradan savayı, yelqovanlar işləyirdi, kamerada isə hava elə boğanaq idi ki, heç bir an da duruş gətirmək olmurdu. Çirk səbəbindən dərinin qıcıqlanması, xəstəni öz dərisini parça-parça qoparmağa məcbur edirdi, nəticədə sifəti və qolları eybəcər hala düşdü. Mənim dəhşət dolu sualıma müdirə dedi: "Biz bunun qarşısını almaqda acizik. Bəzən onun bədənində dərisinin yarısı olmur. Biz onunla bacara bilmirik. Və ona hansı qidanı verdiyimizin də əhəmiyyəti yoxdur, axı o öz çirkini, ona gətirdiyimiz yeməyi yediyi iştaha ilə yeyir".

Massaçusets vətəndaşları, mən sizdən xahiş edirəm, sizə yalvarıram, sizdən tələb edirəm: zəif cinsin cəmiyyətdən qovulmuş və iztirablar içində çırpınan nümayəndələrinə rəhm göstərin, onları müdafiə edin. Atalar, ərlər, qardaşlar, mən sizə yalvarıram, bundan artıq daha nə deyə bilərəm? Ar olsun sizlərə, sizdə nə xristianlıq insafı, nə də insaniyyət var, bu müraciətlə mən sizə öz etimadsızlığımı bildirirəm. Sözlərimin doğruluğuna sübhə edirsinizsə, o zaman dediklərimi unudun getsin. Lakin bununla belə mən namusunuza və insaniyyətinizə inanmaq istəyirəm. Mənfəətqirliyi və eqoizmi, ədavəti və siyasi qarşıdurmanı atın bir tərəfə, indi və burda heç olmasa bir anlığa maddi və keçici şeyləri unudun, bu palatalara təşrif

Satış üçün nəzərdə tutulmayıb

gətirin, vahid ürək və vahid ağıl ilə pak və ədalətli qərarlar üçün onlara xeyir-dua verin.

Öz irqinizin himayədarları olun, sizə etibar edilmiş müqəddəs hüquqların müdafiəçisi olun. Yıxılanları qaldırın, atılanlara və qovulanlara kömək edin, köməksizləri müdafiə edin və belə olarsa siz əbədi minnətdarlıq əlaməti olaraq xeyir-dua sözlərini eşidəcəksiniz: "Əla [iş gördünüz], Tanrının xeyirxah və sadiq nökərləri, [buna görə] mən sizi çox şeyləri idarə etmək üçün təyin edəcəyəm!"[34]

İşlərin bu cür vəziyyəti məhkum edilənlər barədə də ədalətsizlikdir. Əlbəttə, onları gecə-gündüz divanə kişi və qadınların vəhşi bağırtılarına qulaq asmağa məcbur etmək düzgün deyil. Qanunda bu cür cəza növü yoxdur və cinayətkarlar buna məhkum edilməməlidir. Cinayətkarların və ruhi xəstələrin bir binada saxlanması, yaxşı idarə olunan həbsxanalarda nizam-intizamı pozur. Ümid edirəm ki, maddi imkanı olmayan ruhi xəstələrə Ştat tərəfindən daimi kömək göstəriləcəkdir; ümid edirəm ki, bu məzlumlar üçün Vöster sığınacağı bərpa ediləcəkdir, – bu sığınacaq lap öncədən ruhi xəstələr üçün nəzərdə tutulmuşdu, – və ya bu bədbəxt sinfin nəfinə zəruri vəsait veriləcəkdir.

Cənablar, mən bu müqəddəs işi sizin öhdənizə qoyuram. Sizin bu barədə görəcəyiniz tədbirlər yüzlərlə, minlərlə insanın hazırkı və gələcək vəziyyətinə öz təsirini göstərəcəkdir. Sizin bütün digər əməllərinizdə olduğu kimi, bu qanuna yenidən baxarkən də müdrik olun, belə ki, müdriklik Tanrı hökmünün nəfəsi deməkdir".

Səmimi qəlbdən,

Sizin *D.L. Diks*

Mənbə: Dix, *Memorial to the Legislature of Massachusetts* (1843).

Satış üçün nəzərdə tutulmayıb

16. Massaçusets Ştatının "Məktəb Təhsili Üzrə Şuranın" 12 Saylı Hesabatı (1848)

Horas Mann

Məktəbdən daha çox ailəyə dayaqlanan Avropa təhsil sistemi Birləşmiş Ştatlarda kök sala bilmədi, belə ki, bir neçə nəslin bir damın altında yaşamasını ehtiva edən böyük ailə anlayışı hələ sərhəddə ikən yoxa çıxmışdı. Ailələr kimsəsiz, azad torpaqlara köçdükcə, təhsil haqqında köhnə təsəvvürlər dağılır, yeniləri peyda olurdu. Bunun nəticəsində, amerikalılar öz uşaqlarının təhsili işində məktəblərin üzərinə getdikcə daha çox məsuliyyət qoymağa başladılar. İbtidai oxu, yazı və hesab vərdişləri başlanğıc idi və cəmi bir neçə onillik ərzində cəmiyyət əvvəllər evdə mənimsənilən bir çox digər təhsil vərdişlərinin tədrisini də məktəblərə həvalə etdi.

Lakin bilik və vərdişlərin tədrisindən əlavə, islahatçılar məktəbə uşaqlara demokratiya ideyalarını aşılamağın mühüm institutu kimi baxırdılar. 1820-ci illərdə ümumi təhsil ideyası bəlkə də yalnız xəyalpərvərlərin zehnini məşğul edirdi; lakin cəmi bir nəsildən sonra ştatların çoxu bu ideyanı həvəslə qəbul etdi. Prezident Cekson epoxasının heç bir islahatçı hərəkatı (köləliyin ləğvi hərəkatından başqa) təhsil sahəsində islahat uğrunda hərəkat qədər geniş dəstək almamışdı və bu uğurda aparıcı rolu Horas Mann oynamışdı.

Massaçusets Ştatında protestant-kalvinistlərin məskunlaşdığı kiçik şəhərcikdə doğulmuş Mann (1796-1859) yalnız ibtidai təhsil alsa da, şəhər kitabxanasında işləməklə çoxlu mütaliə etmiş və Braun Universitetinə qəbul olunmaq üçün yetərincə biliyə yiyələnə bilmişdi. 1819-cu ildə universiteti bitirdikdən sonra Mann bir müddət müəllimlik etmiş, hüququ öyrənmiş, sonra isə siyasətlə məşğul olmuş və tezliklə parlayan ulduza çevrilmişdi. 1855-ci ildə o, öz ailəsi və dostlarının təəccübünə rəğmən Ştatın Təhsil Problemləri üzrə Komissiyasının (sonralar "Məktəb Təhsili Üzrə Şura") katibi vəzifəsinə irəli sürülmüşdür. O vaxtlar komissiyanın da, Mannın özünün də nə pulu, nə də yerli məktəblərə təsir göstərmək üçün nüfuzu vardı.

Mannın sərəncamında olan yeganə təsir vasitəsi – Şuranın "İllik hesabatı" idi və o, bu hesabatlarda azad cəmiyyətdə təhsil problemləri ilə bağlı öz görümünü açıb göstərirdi. 1837-1848-ci illərdə Horas Mann Amerikada ən məşhur maarifçi, dünyada isə ən məşhur amerikalı maarifçi kimi ad qazandı. Buna səbəb nə idi? O, Ceffersonun

Satış üçün nəzərdə tutulmayıb

belə bir ideyasını həyata keçirmək qərarına gəlmişdi ki, vətəndaşlarının savadlı və təhsilli olmadığı heç bir respublika sağ qalıb yaşaya bilməz. Bundan əlavə, o, iki əsr öncəki puritanlar kimi əmin idi ki, təhsil özündə yüksək mənəvi dəyərləri daşımalıdır.

Lakin 1830-cu illərdə Birləşmiş Ştatların müxtəlif hissələrində hökm sürən mədəni-sosial mühit, dini və mədəni dəyərlər, iki yüz əsr öncəki puritan Yeni İngiltərəsində olduğundan xeyli müxtəlif, bir-birindən kəskin fərqli idi. Lakin bütün bu rəngarəngliyə baxmayaraq, Mann "Ümumi Məktəblər", yəni ölkənin bütün uşaqları üçün, onları birləşdirə biləcək ümumi bilik verən məktəblər yaratmaq istəyirdi.

XIX əsr Birləşmiş Ştatlarında bu ideya radikal sayılırdı. Və İkinci Dünya müharibəsi bitənəcən, o, bütün dünya üçün də radikal olmaqda davam edirdi. Avropada əvvəllərdə olduğu kimi "ikili təhsil" sistemi mövcud idi, yəni firavan yaşayan siniflərin nümayəndələri öz övladlarını, onların öz təhsillərini universitetlərdə davam etdirməsi perspektivi ilə seçmə məktəblərə göndərir, kasıb ailələrdən olan uşaqlar isə sadələşdirilmiş peşə təhsili almağa istiqamətləndirilirdi.

Mann bu cür sistemdə mövcud olan dini və sinfi ayrı-seçkiliyi aradan qaldırmaq istəyirdi. Onun dərin inamına görə, Ümumi Məktəb "xalq tərəfindən dəstək, iştirak və nəzarətə malik olmalıdır" və onun son məqsədi – sosial və milli birliyə nail olmaqdır.

Mann öz əqidəsində möhkəm idi. Ümumi Məktəbin məşğul ola biləcəyi heç bir işə məhdudiyyət qoyulmamalıdır. O hesab edirdi ki, ənənəvi məktəb proqramını daha universal və əvvəllər yalnız varlıların sahib olduğu mədəniyyəti daha demokratik etmək olar.

Lakin Mannın məsləkinin ən mühüm hissəsini belə bir inam təşkil edirdi ki, məktəb demokratik cəmiyyətin qorunması və dəstəklənməsi işinə xidmət etməlidir. Ceffersondan fərqli olaraq o, əmin idi ki, təhsil özündə yüksək məziyyətləri daşıyır. Mannın fikrincə təhsilin qiyməti onun həm şəxsiyyətə, həm də cəmiyyətə böyük fayda verməsindədir. Aşağıda göstərilmiş "İllik hesabat"ın müvafiq bölmələrində Mann, savadlı əhalinin, Köhnə Dünyaya, yəni Avropaya xas olan sosial və iqtisadi təbəqələşmədən necə yaxa qurtara biləcəyi və savadlı vətəndaşların demokratik dövlətin təntənəsini necə təmin edə biləcəyi haqqındakı baxışlarını ümumiləşdirir.

Satış üçün nəzərdə tutulmayıb

Əlavə məlumat üçün oxuyun: Jonathan Messerli, Horace Mann: A Biography (1972); Lawrence A. Cremin, American Education: The National Experience (1980); and Michael Katz, The Irony of Early School Reform (1968).

MASSAÇUSETS ŞTATININ "MƏKTƏB TƏHSİLİ ÜZRƏ ŞURASININ" 12 SAYLI HESABATI

Rəbbimizin hikməti-ilahiyyəsinə əsasən, bizim təhsil vasitələrimiz elə bir qüdrətli alətdir ki, onun köməyilə "çiy insan materialı" ixtiraçı və kəşf edənlərə, mahir sənətkar və alimlərə, hüquqşünas və şərəfli təsisatların yaradıcılarına, etik və dini prinsiplərin dahi təfsirçilərinə çevrilə bilər. İbtidai təhsil sayəsində insan istedadlarının rüşeymlərinin böyüməsini sürətləndirmək olar və bu da öz növbəsində siyasi və iqtisadi problemlərin həllinə kömək edə bilər. Bu cür yolla gələcəkdə insanlığın nəğməkarları ola biləcək kəslərin də qəlbində ilahi qığılcımı alışdırmaq olar. Bizim məktəblər bütün ölkədə ictimai institutlar üçün hazırda olduğundan daha çox sayda prezident, professor və rəhbər yetirə və onları yalnız digər qardaş ştatlara deyil, həm də Atlantikanın o tayına göndərə bilər ki, həmin bu praktiki bilik sahibləri orada böyük işlərə rəhbərlik edə bilsinlər. Öz ölkəmizdə isə biz dövlətin hüquqi əsaslarını inkişaf etdirməyə və möhkəmləndirməyə, bunları elə aydın və inandırıcı etməyə borcluyuq ki, məcburiyyət tədbirlərinə ehtiyac qalmasın. Və işdir ölkəmizin başı üzərini müharibə buludları almış olsa, o zaman məktəbimizin yetişdirib tərbiyə etdiyi elə bir qəhrəman tapılmalıdır ki, ordumuzun başında durmağa hazır olsun, elə bir qəhrəmanlar qəhrəmanı tapılmalıdır ki, o, həm də döyüş meydanlarında kütləvi qırğınlara yol vermədən sülhə, barışığa nail ola bilsin.

Hər hansı başqa təsisata olan bütün hörmətimizə baxmayaraq, əminliklə fərz etmək olar ki, Ümumi Məktəb zəruri təkmilləşmə və inkişafa nail olmaqla – bunu əldə etmək çox da çətin iş deyil, – müasir sivilizasiyanın ən təsirli və faydalı qurumu ola bilər. Bu fərziyyə iki dəlilə əsaslanır. Birincisi, Ümumi Məktəbin fəaliyyətində heç bir başqa təsisat üçün səciyyəvi olmayan universallıq əsaslı yer tutur. Bu məktəblərin ədalət və barışıq ruhunda idarə olunması halında, bütün böyüməkdə olan nəsil onların islahedici və təkmilləşdirici təsirinə məruz qalacaqdır. İkincisi, bu məktəblərin işlədiyi material o qədər çevik və elastikdir ki, Yaradanın bundan öncəki yaratdıqlarından hər hansı biri ilə müqayisədə qat-qat müxtəlif formalar almağa qabildir. Palıdın sarsılmazlığı və möhkəmliyi ilə müqayisədə yumşaq, zərif və sütül cücərti nədirsə yaşlı insanın əqli ağırlığı ilə müqayisədə uşaq zehni kövrəkliyi odur. Ümumi məktəbin məhz bu xassələri bizim Ştatda bu cür qeyri-adi nəticələr vermişdir, baxmayaraq ki, sistemin özü heç də mükəmməl deyildir, onun idarəetmə metodlarında isə ciddi qüsurlar vardır. Təhsil hətta korların, karların və lalların təlimində də çox şeyə qadir olduğunu sübut etmişdir, belə ki, o, gizli qabiliyyətləri inkişaf etdirir, ən vacibi isə çətin tərbiyə olunan və səfil uşaqların daha

Satış üçün nəzərdə tutulmayıb

yaxşı olmasına kömək edir. İnsanlarla bağlı bu möcüzələr, onların uşaqlıq çağlarında, imkanları hələ məhdud ikən baş verməyə başlayır. Onların qabiliyyətləri tam inkişaf etməyə başlayanda, cəmiyyəti onu bürümüş dəhşətli bəlalar və fəlakətlərdən – acgözlük, tamahkarlıq, müharibələr, köləlik, fanatizm, ehtiyac və israfçılıqdan müdafiə etmək üçün onlardan istifadə etmək lazım gəldikdə, bu bəlaların hamısı o qabiliyyətlərin köməyilə məhv ediləcəkdir.

İndi isə izn verin, düzgün tərtib edilmiş təlim prosesinin ictimai maraqlarla necə əlaqədar olmasını və faktiki özünün də necə bu mənafelərdən birinə çevrilməsini nümayiş etdirim. Yaxşı məktəb – "körpədir", bu mənafelərin hələ lazımınca inkişaf etməmiş durumudur, cəmiyyət isə artıq yaşlıdır, bu mənafelərin inkişaf etmiş formasıdır. "Bugünkü uşaq gec-tez insan atası" olduğuna görə, məktəb tədrisi son nəticədə təsisatlara və Ştatın uğurlu taleyinə öz təsirini göstərməlidir…

İntellektual təhsil – yoxsulluqla mübarizə aləti və firavanlığın təmin edilməsi vasitəsi kimi

Massaçusets hökumətinin və Ştatın bütün nüfuzlu insanlarının daha bir mühüm vəzifəsi – xalqın maddi firavanlığıdır, yəni hər bir fərdin qida məhsullarından, geyimdən və mənzildən hədd qoyulmadan sərbəst şəkildə istifadə edə bilməsi, onun maddi cəhətdən təmin olunmasıdır. Həm də bu zaman insan və ya onun ailəsi bu zəruri əşya və rahatlıqlardan istifadə edə bilmək imkanını özü yaratmalı, daha bunları xeyriyyə cəmiyyətlərindən yaxud yoxsullara yardım haqqında qanunun sayəsində almamalıdır. Əlbəttə, demək olmaz ki, hər yerdə buna nail olmaq mümkündür, lakin biz mütləq bu məqsədə can atmalıyıq. Dövləti idarə etmək məharəti və əsl siyasi iqtisad, eləcə də əsl filantropiya bu prinsipi bizim qeyri-kamil gerçəkliyimizə maksimum yaxınlaşdırmalı olan zəruri məqsəd kimi nəzərdən keçirir. Və buna yersiz iddiaların təzahürü kimi baxmaq düzgün olmazdı, belə ki, bəşəriyyət hətta qidaya, geyimə və mənzilə olan ehtiyacını təmin etmiş olsa belə, o, əvvəlki kimi yalnız yarımədəni qalacaqdır…

Avropada hökm sürən nəzəriyyəyə əsasən, bütün insanlar siniflərə: minimum dolanışıq üçün ömür boyu zəhmət çəkənlərə və başqalarını qəsb edib öz kefi üçün yaşayanlara bölünür. Massaçusets nəzəriyyəsinə əsasən isə, qazanmaq və öz əməyinin bəhrəsini müdafiə edə bilmək üçün hamıya bərabər imkanlar verilir. Axırıncısı, vəziyyətin bərabərliyini, birincisi isə, böyük hüquq bərabərsizliyini ehtiva edir. İstənilən xristian ehkamlarını və ya əxlaqını, yaxud bütpərəstlik standartlarının ən yaxşısını rəhbər tutan hər hansı şəxs bir an belə şübhə edərmi ki, bu iki imkandan hansı daha çox insan firavanlığına xidmət edir və hansı daha çox dərəcədə Yaradanın iradəsinə uyğundur? Avropa nəzəriyyəsi Ştatımızın ən böyük xoşbəxtliyi və ən ali borcu haqqında təsəvvürə malik deyil…

Satış üçün nəzərdə tutulmayıb

Hesab edirəm ki, özünün siyasi-iqtisad haqqında təsəvvüründə, hətta cüzi bir nəciblik daşıyan hər kəs belə bir fikrə şərik çıxar ki, hədd-hüdudu olmayan şəxsi var-dövlət respublika üçün ən böyük təhlükəni doğurur.

Bu cür əndazədən çıxmış var-dövlət orta əsrlərdə olduğundan da qəddar yeni feodalizmə gətirib çıxara bilər. İngiltərədə və Avropa qitəsində feodal lordlar da öz nökərlərini, hazırda xarici kapitalistlərin əksəriyyətinin öz fəhlələrini saxladığı bu cür acınacaqlı vəziyyətdə saxlamayıblar. İstifadə olunan vasitələr müxtəlifdir, lakin nəticələr heyrətli dərəcədə oxşardır. O vaxtlar zorun hesabına edilənlər bu gün pulun gücünə edilir. Orta əsrlərin təhkimçiləri dünyanın heç bir guşəsində azad yaşamırdılar, əlbəttə, əgər bu nisbi azadlığı hansısa "guşədə" onların ağası bağışlamasaydı. Bu günün fəhlələri və sənətkarları əgər kapitalist onların xidmətlərindən istifadə etmək istəməsə, işsiz və deməli, dolanışıq üçün vəsaitsiz qalacaqlar. Vassalın sahibinin verdiyi damdan savayı heç bir damı ola bilməzdi. 5 000 ingilis sənətkarından və ya ferma işçisindən heç biri özü üçün hətta koma belə tikə bilməz, yaxud onun sahibi ola bilməzdi və deməli, o, kapitalistin təklif etdiyi daldanacağı qəbul etməyə məcbur idi.

Baronlar öz nökərlərinə qarşı özləri şərt qoyurdular; bu şərtlərə yenidən baxıla bilməzdi, – nökər ya tabe olmalı, ya da ölməli idi. Britaniya istehsalçısı və ferma sahibi öz işçiləri üçün əmək haqqı təyin edir və onu istənilən bəhanə ilə azaltmaq hüququnu özündə saxlayırdı, özü də bu zaman işçinin seçim hüququ olmurdu: o, ya tabe olmalı, ya da acından ölməli idi. Müəyyən mənada indiki fəhlələrin vəziyyəti orta əsr təhkimçilərinin vəziyyətindən də çarəsizdir. Hər halda, lordlar və onların təəbələri arasında heç olmasa patriarxal münasibətlərin bəzi əlamətlərinə rast gəlinirdi ki, bu da onların arasındakı ziddiyyətləri yumşaltmaq üçün lazım idi. Uşaqların yaşayış şəraiti üzərində müəyyən nəzarət, xəstəlik halında yardım, qocaların müdafiəsi və onlara kömək kimi müsbət hallar da elə həmin məqsəddən doğmuşdu. Lakin Britaniya kapitalistləri və fəhlələri arasında gərgin münasibətlər çox cüzi hallarda müəyyən qədər yumşaldılmışdı. Fəhlə uşaqları taleyin ümidinə buraxılırdı; onların bütün məhrumiyyət və hədələrinə baxmayaraq, heç kəs onlar üçün təhsil almaq imkanına nail ola bilmirdi; xəstəlik, ağır iş və qocalıq üzündən əldən düşüb üzülmüş fəhlə daha fiziki əməklə məşğul ola bilmədikdə, onun son sığınacaq yeri əlillər evi olurdu.

Bu gün Massaçusets barədə iki-üç məsələ bütün kəskinliyi ilə göz qabağındadır. Öz sənaye imkanlarına və işgüzar fəallığına baxmayaraq Massaçusets ölkənin hər hansı bir ştatından daha çox dərəcədə öz hədsiz zənginliyinin və miskin dilənçiliyinin fəlakətli ifratçılığını nümayiş etdirir.

Ölkənin digər ştatları ilə müqayisədə Massaçusetsdə əhalinin orta sıxlığı dörd-beş dəfə çoxdur, əhalinin böyük sıxlığı isə həmişə sosial bərabərsizliyin səbəblərindən biri olmuşdur. Öz əhalisinin sayına və ərazisinə görə Massaçusetsdə hər hansı bir ştatda olduğundan qat-qat çox kapital cəmlənmişdir, bu kapitalın yerini asanlıqla dəyişdirmək və əldə etmək mümkündür; əhali və

Satış üçün nəzərdə tutulmayıb

ərazi barədə bu iki xarakteristika əvvəlki müddəa ilə (varlılar və yoxsullar arasında uçurumun olması) aşkar ziddiyyət təşkil edir. Bu yaxınlarda mötəbər qəzetlərin birində, mövzu ilə yaxşı tanış olan müəllifin yazdığına görə, 1846-cı il iyulun əvvəlində 1848-ci il avqustun başlanğıcına qədər olan müddətdə, Massaçusets vətəndaşlarının "şəhərlərin, yolların və ştatın digər obyektlərinin tikintisinə qoyduğu kapital 57 milyon dollar təşkil etmişdir və bu məbləğin 50 milyondan çoxu artıq xərclənmişdir". Elə həmin müəllifin sözlərinə görə Massaçusets vətəndaşlarının 1848-ci ilin iyunundan 1849-cu ilin aprelinədək almalı olduğu dividentlər ilkin hesablamalara görə 10 milyon dollar, kapital artımı isə "22 milyon dollardan bir qədər az olan məbləği" təşkil etməlidir. Əgər bu belədirsə, onda bizi kapitalı və əməyi ayıran bu dəhşətli bəla ilə – yalnız bir sinfin nümayəndələrinin zəhmət çəkdiyi halda, bütün kapitalın digər sinfin əlində cəmlənməsi halı ilə barışmaq təhlükəsi gözləmirmi?

Təbii ki, Ümumi Təhsildən savayı heç bir tədbir bu tendensiyanın – kapitalın kölə əməyi üzərində ağalığı meylinin qarşısını ala bilməz. Əgər bütün kapital və təhsil yalnız bir sinfə mənsubsa, cəmiyyətin qalan hissəsi isə savadsız və yoxsuldursa, bu halda heç bir əhəmiyyəti yoxdur ki, onların arasında münasibətlər necə adlanacaq. Məsələnin mahiyyəti ondadır ki, ikincilər faktiki olaraq birincilərin kölə asılılığında və tabeçiliyində olacaqlar. Lakin təhsil hamı üçün mümkün edilərsə, bu, əmlak statuslarının bərabərləşməsinə gətirib çıxaracaqdır, belə ki, savadlı və məlumatlı insanın daim yoxsul qalması qeyri-mümkündür. Müxtəlif siniflərdə mülkiyyət və əmək antaqonistdir; lakin bir sinfin daxilində mülkiyyət və əmək – qohum anlayışlardır. Massaçusets Ştatının xalqı belə bir təkzibolunmaz həqiqəti müəyyən dərəcədə dərk etmişdir ki, Ştatın əsl çiçəklənməsi, yəni onun xalqının rifah halı, xalqın səriştəlilik səviyyəsi, onun ziyalılığı və məziyyətləri ştatın bütün əhalisinin aldığı təhsilin keyfiyyətindən asılıdır. Lakin onlar daha bir həqiqəti dərk edə bilirlərmi? Belə bir həqiqəti ki, təhsil sayəsində hazırda əhalinin üçdəikisi, kapitalizm növündə qəddar tiraniyanın vassalı deyildir, halbuki Avropada aşağı siniflər belə bir sərbəstliklə öyünə bilməzlər. Deməli, təhsil insanların həyat şəraitinin bərabərləşdirilməsinin ən effektiv üsulu, cəmiyyətdəki sosial bərabərsizliyi düzləndirmək mexanizmidir. Mən təkcə onu nəzərdə tutmuram ki, təhsil mənəvi prinsipləri yüksəltməklə, insanlarda zülmə qarşı barışmazlıq və nifrət oyadır. Bu ideya başqa bir aspektlə bağlıdır. Mən həm də onu nəzərdə tuturam ki, təhsil hər bir insana, onun başqalarının eqoizminə müqavimət göstərməsinə kömək edə biləcək müstəqillik və vasitələr verir. Təhsil yoxsulları onların varlılara qarşı olan düşmənçilikdən "xilas" edir və ondan da böyük "iş" görür, – o, yoxsulluğun qarşısını alır. Aqrarianizm – bir növ yoxsulluğun varlılıqdan qisas almasıdır. Özgə mülkiyyətinin mənasızcasına dağıdılması: ot tayalarının yandırılması, kənd təsərrüfatı mexanizmlərinin yalnız bir səbəbə – əl əməyini

Satış üçün nəzərdə tutulmayıb

əvəz etməsinə görə məhv edilməsi, habelə bahalı libasların kuporosla bəzədilməsi – bütün bunlar Aqrarianizm haqqında sərsəm təsəvvürlərin nəticəsidir. Təhsil qisasın da, sərsəmliyin də qarşısını almağa qadirdir.

Digər tərəfdən, sinfin və ya silkin daxilində dəstək hissi ümumi instinktdir və heç də yalnız şəxsi və ya ailəvi eqoizmdən irəli gəlmir. Siniflərin və silklərin genişləndirilməsi vasitəsilə təhsilin yayılması sosial həmrəylik üçün geniş imkanlar açacaqdır, təhsil hamı üçün və tam olduğu halda isə, o, cəmiyyətin daxilindəki süni sərhədləri hər hansı bir şeydən daha yaxşı aradan qaldıra bilər.

Bir sıra siyasi islahatçılar və inqilabçı mütəfəkkirlərin irəli sürdükləri əsas ideya ondan ibarətdir ki, kasıblar *ona görə* kasıbdırlar ki, varlılar varlıdır[35]. Bu ideya cəmiyyətdə dəyişilməz mülkiyyət prinsipinə əsaslanır və bu mülkiyyəti aldatma ilə, zorla və ya ədalətsiz qanunların köməyilə əhali arasında qeyri-bərabər bölmək olar. Və bu halda həll edilməli olan problem – həddən çox əmlaka sahib olduğu hesab edilən kəslərdən onun bir hissəsinin necə alıb, həddən az əmlaka sahib olduğu güman edilən kəslərə verməkdən ibarətdir. Onların islahatlar haqqında nəzəriyyəsi və təsəvvürü də bununla bitmiş olur. Lakin təhsilin faydalı təsiri onun hədsiz var-dövlət və kəskin ehtiyac arasında yaranan gərginliyi dinc yolla aradan götürməsi ilə məhdudlaşmır. Təhsil daha geniş funksiya daşıyır. Köhnə sərvəti [dinc yolla] bölüşdürmək qabiliyyətindən əlavə o, yeni bir sərvəti yaratmaq üstünlüyünə malikdir! O, dələduzluqdan min dəfə gəlirlidir, o, ölkənin resurslarını hər hansı ərazi işğallarından qat-qat çox artırır. Dələduzlar, fırıldaqçılar və soyğunçular yalnız artıq başqalarına məxsus olan sərvəti çapıb-talaya bildikləri halda, təhsil, əvvəllər heç kəsin malik olmadığı, heç kəsin təsəvvürü belə olmadığı yeni-yeni sərvətləri yaradır və inkişaf etdirir.

Vəhşiyə üzmək öyrətsələr, o, belinə bir neçə funt yük bağlayıb bu yükü üzə-üzə, ensiz çayın o biri sahilinə çatdıra bilər. Əgər o, balta yaxud, ağacı kəsə biləcək hər hansı aləti ixtira etmiş olsa, o, kəsilmiş ağacdan üzgüçülük vasitəsi kimi, ağacın budaqlarından isə avar kimi istifadə edə bilər və belə olan halda o, daşınan yükün çəkisini və məsafəni artıra bilər. Şalbanın ortasında oyuq açmaqla, onun yükqaldırma qabiliyyətini artırmaq, şalbanın uclarını itiləməklə isə onun suda asan və sürətli hərəkətini təmin etmək olar. Bir neçə şalbanı birbirinə bağlamaqla bərə qurmaq və beləliklə bu qurğunun gücünü artırmaq olar. Dirəklər arasında məsafəni düz taxtalarla deyil, maksimum su keçirtməmək qabiliyyətinə nail olmaq üçün öncədən lazımi ölçülərdə düzəldilmiş kiçik girdinlərlə doldurmaqla bərəyə sözün əsl mənasında gəmi formasını vermək olar. Bu qurğunun gövdəsi və ləvazimatına yüngülcə əl gəzdirdikdən sonra insan nəhayət, ticarət gəmisi yarada və bu gəmidə qitələrarası uzaq səfərə yollana bilər. Lakin yorulmaq bilməyən gəmi arxitektoru bununla kifayətlənmir. O, gəmiyə dəmirdən üzlük vurur, avarları isə, sürətlə fırlanmağa qabil olan və ən güclü dənizin gücündən də böyük gücə malik olan dəmir çarxlarla əvəz edir. Gəmi gövdəsinin dəmir divarları arasındakı otaqlarda böyük gücə malik

Satış üçün nəzərdə tutulmayıb

nəhəng mexanizmləri yerləşdirir və bütün bunların içində kiçik bir vulkan yandırır və sonra onun yaratdığı bu qeyri-adi qurğu sanki duyğulu və ağıllı bir məxluq kimi tələtümlü, qasırğalı okeanları fəth etməyə yollanır, öz yükünü dünyanın hər yerinə daşıyır. Lakin biz gəmi inşaatçısını zəkadan məhrum etsək, insan əməyinin möcüzəsi olan bu gəmi yenidən adicə şalbana çevriləcək, ona üzmək öyrətmiş insan isə quru yerdə qalacaq.

Bu, yalnız yuxarıda göstərilmiş sahəyə deyil, insanın bütün əmək fəaliyyətinə aiddir. Aydındır ki, günəşin məhvi zülmətin çökməsinə səbəb olacaq, lakin bundan da aydındır ki, insan intellektinin sönümü insanları köməksizlik və barbarlıq uçurumuna yuvarladacaq. İnsanı yaratmaq və onu günəşdən məhrum dünyaya gətirmək, hökumətin fəhlə sinfini təhsildən məhrum etməsindən heç də çox qəddar hərəkət deyil…

Deməli, sərvətin yaradılması üçün yəni vətəndaşların varlanması, millətin çiçəklənməsi üçün təhsil başlıca şərtdir. İntellektual təhsilin səviyyəsi artdıqca, bizim həyatımızı fəal şəkildə yaxşılaşdıranların sayı da artacaqdır. Qədim zamanlarda, dünyanın əksər yerlərində isə bu gün də hətta milyon adamın içindən bir nəfər belə elmdə və ya incəsənətdə hansısa kəşfi etmək üçün kifayət qədər inkişaf etmiş zəkaya malik olmayıb. İmkan verin bu proses inkişaf etsin, onda önəmli kəşflərin sayı artmağa başlayacaqdır. Deməli, yalnız kapital və əmək, tələbat və təklif, tarif və kurs, əlverişli və əlverişsiz ticarət rejimləri kimi problemlərlə məşğul olan və bu zaman intellektual inkişaf faktorunu nəzərə almayan siyasi iqtisad böyük axmaqlıqdan başqa bir şey deyil. Siyasi iqtisadın ən mühüm vəzifəsi istehlakçını istehsalçıya çevirmək, ikinci mühüm vəzifəsi isə istehsalçının özünün məhsuldarlığını artırmaqdır ki, bu məqsədə isə onun intellektinin, onun anlamaq qabiliyyətinin yaxşılaşdırılması vasitəsilə çatmaq olar.

Siyasi Təhsil

Respublika idarəetmə forması zamanı bir çox həqiqətlər kimi belə bir həqiqət də hamıya aydın olmuşdur ki, intellektual qabiliyyətlərin, yəni təhsilin hərtərəfli yaxşılaşdırılması həyati-mühüm zərurətdir. (Mən intellektual qabiliyyət və təhsil anlayışlarını demək olar sinonimlər kimi işlədirəm, belə ki, intellektual səviyyə ümumi təhsil olmadan yüksək ola bilməz, ümumi təhsil isə hökmən yüksək intellektual səviyyəyə gətirib çıxarır). Bu o qədər aşkar həqiqətdir ki, daha əvvəlki təzəliyini və kəsərini itirmişdir. Təhsilin bütün tərəfdarları bu dəlildən ilk növbədə ona görə istifadə edirlər ki, o, hətta kəmsavadlılar üçün də kifayət qədər aydın və başadüşüləndir, habelə skeptiklər üçün yetərincə güclü və inandırıcı sübutdur. Dünyada bundan asan nə ola bilər: çoxsaylı müəlliflərin işlərindən istifadə edərək və adi məntiqə, siyasətə, tarixə və məsələnin xarakterinə əsaslanaraq sübut edəsən ki, xalqın yüksək intellektual səviyyəsi olmadan respublika – müdiriyyəti və ya nəzarətçiləri olmayan

Satış üçün nəzərdə tutulmayıb

iri miqyaslı dəlixanadan başqa bir şey deyildir. Bu cür vəziyyətdə bir ovuc insanın despotiyası ümumi anarxiya ilə, anarxiya isə bundan betəri ilə əvəz olunacaqdır. Vaxt qıtlığı üzündən mən bu mövzunu tam açıb göstərə bilmirəm. Bununla belə, bu məruzədə (məruzələr seriyalarımın sonuncu və tamamlayıcısı və köhnə dəlillərin xülasəsi formasında olan) mövzunun yetərincə açılmaması hər şeyi bilməyə can atan zəkada məruzəmdə mənzərənin yarımçıqlığı təəssüratını yarada bilər.

Təbii ki, böyük millətin və dövlətin işləri son dərəcə mürəkkəb və önəmlidir. O da təbiidir ki, cəmiyyəti idarə edənlərin intellekt dərəcəsi cəmiyyətin mənafelərinin önəmli dərəcəsinə uyğun olmalıdır. Ağac parçasından fiqurlar düzəldən usta üçün buxar mühərrikinin və ya teleskopun ixtiraçısı üçün vacib olan vərdişlər lazım deyil. Xırda alverçiyə, bütün dünyada malların ixracı ilə məşğul olan ticarətçi üçün lazım olan biliklər gərək deyil. Səfir yalnız ruhani bilik və vərdişlərinə malik olmaqla, öz vəzifəsinin öhdəsindən gələ bilməz. Tamamilə aydındır ki, fəaliyyətin xarakterinə uyğun təhsil səviyyəsinin olmaması istənilən müəssisəni iflasa gətirib çıxarar. Baş verənləri anlamaq qabiliyyətini itirmiş ticarətçi gec-tez bankrot olur; vəkil öz müştərilərini itirir; müalicə etməyi bacarmayan həkimin xəstələri ölür. Hakimlər intellektdən məhrum edilsə, o zaman əmlak münasibətləri məsələlərini xaos bürüyər və saysız-hesabsız insanlar ziyan çəkər. Əgər qanunvericilik yığıncağı üzvlərinin intellekti kasadlaşsa, o zaman qanunlar külliyyatında ziddiyyətlər və səhvlər ayaq açıb yeriyər. Deməli, respublika – sosial, mülki hərbi maraqlar da daxil olmaqla demək olar bütün mənafeləri təmsil etdiyi üçün təbii ki, intellektin dərəcəsi bu dövlətin həll etdiyi vəzifələrin əhəmiyyətlilik dərəcəsinə uyğun olmalıdır.

Lakin seçilən qanunvericilər heç vaxt öz seçicilərindən təhsilli və bilikli ola bilməzlər. Mayelərin tarazlığını tənzimləyən təbiət qanunlarına görə seçicilər və seçilənlər, təyin edənlər və təyin olunanlar bir səviyyədə olurlar. Aydındır ki, təhsilli və bilikli seçicilər ağılsız və israfçı adamı seçməzlər, yaxud o, təsadüfən seçilmiş olsa belə, onun mənafelərini müdafiə etmək istəməzlər. O da aydındır ki, ağılsız və əxlaqsız seçicilər heç vaxt müdrik adamı seçməzlər. Seçicilərin və seçilənlərin oxşadılması qanunu təkcə onun nəticəsi deyil ki, seçicilər öz nümayəndələrini öncədən, özlərinin xeyir və şər, müdriklik və axmaqlıq haqqında təsəvvürlərinə uyğun olaraq seçirlər; əgər qanunverici, onu seçmiş dairədə başa düşülməsi çox çətin olan qanun qəbul edərsə, yaxud onu dəstəkləmiş olarsa, bu halda sonrakı seçkilərdə o, xalqın həyati-mühüm mənafelərinə xəyanət etmiş və yalançı adam kimi seçilməyəcək. İlahi Ədalət və Fəzilət yəhudilərə [Bibliya] ehkamlarını bəxş edərkən, "onların daşürəkliliyini" asanlıqla görə bilmişdi, lakin Allah bəndəsi olan hökmdar, əgər onun qəlbində mərhəmət yoxdursa, öz təəbələrinin alçaqlığını və günahlarını necə görə bilər? Respublika hökuməti zamanı qanunvericilər, onların seçicilərinin mənəvi durumunu əks etdirən güzgüdür. Deməli, ümumi təhsilin düzgün seçilmiş və

Satış üçün nəzərdə tutulmayıb

effektiv vasitələri olmadan respublika yaradılması insanın indiyəcən həyata keçirdiyi ən tələsik və ağılsız eksperiment olardı.

Bunun qaçılmaz nəticələri dərhal peyda olmayacaq, bu nəticələr şimşəyin ardınca ildırım çaxdığı kimi bir anın içində baş verməyəcək, belə ki, onlar zaman ötdükcə yetişir, çünki onların daşıdığı fəlakətlər hədsiz geniş miqyasdadır ki, onları tez hazırlamaq mümkün olsun. Lakin tədricən güc alan uçqun kimi onlar da zaman ötdükcə daha qorxunc olur və əvvəl-axır nə vaxtsa qarşısında nə varsa uçurub-dağıtmağa başlayır. *Respublikanı yaratmaq bəlkə də o qədər çətin deyil, respublikaçıları yaratmaq bundan qat-qat çətindir* və vay o respublikanın halına ki, nadanlıq, eqoizm və ehtiraslar üzərində qurulmuş olsun. Bu cür respublika genişlənə və öz sərvətini artıra bilər. Tamahkar adam öz mülklərinə yeni-yeni sahələri qatdığı kimi, ondan heç də az tamahkar olmayan dövlət yeni-yeni əyalət və ştatları öz ərazisinə birləşdirməklə öz nadanlığını dərinləşdirə bilər. Bu cür dövlətin ordusu məğlubedilməz ola bilər, donanması isə dünyanın o biri tayında dövlətləri daimi qorxu içində saxlaya bilər. Ucsuz-bucaqsız ərazilərə və təbii sərvətlərə malik olan bu cür respublika böyük və xeyirxah dövlət olmaq üçün bütün imkanlara malikdir. Lakin belə bir respublika intellektdən məhrumdursa, o, hələ yeniyetməlik çağlarında nataraz formalaşmış və öz gücünə hədd qoymağı bacarmayan qanmaz nəhəngə oxşamağa başlayacaqdır. Belə ki, onun beyni yalnız öz iştahasını və ehtirasını ödəmək istiqamətində inkişaf edib, ağlı və vicdanı isə yox dərəcəsindədir. O, yalnız öz nəhəngliyi, basdığı dabanının ağırlığı və əllərinin dağıdıcılıq qabiliyyəti ilə fəxr edir. Bu cür respublika xeyir işlər görmək kimi nəcib imkanları olmasına baxmayaraq, sürətlə öz şərəfsiz sonluğuna yaxınlaşmağa başlayacaqdır; sonrakı nəsillər onun iflasına təəssüflənəcəklər; hətta onun ağılsızlığı və əxlaqsızlığı ilə bağlı müəyyən məsxərə və nifrətlər də onun taleyinə görə ağrını kölgədə qoya bilməyəcək…

Seçicilərin mənəvi siması nə qədər yüksək olsa da, elm və tarix məsələlərində onlar nə qədər səriştəli olsalar da, ilk növbədə, respublika vətəndaşları kimi daxilində yaşadıqları dövlətin xarakteri və funksiyalarından yaxşı baş açmağa borcludurlar. Dövlət işlərində iştirak etməli olan hər bir insan dövlətin xarakteri və funksiyaları barədə müvafiq təlimat keçməlidir. Bütün ölkələrdə hətta ən qəddar və vəhşi idarəetmə üsullarından istifadə edən dövlətlərdə belə, gələcək rəhbər öz səlahiyyətləri və hakimiyyətindən necə istifadə etməsi haqqında izahat almalıdır. Qanun üzrə və ya məcburiyyət üzrə hakimiyyətin irsən, yetkinlik yaşına çatmamış şəxsə verildiyi dövlətlərdə həmin adam üçün o, yetkinlik yaşına çatana qədər onu əvəz etməli olan regent və ya başqa şəxs təyin edilir. Bu vaxt ərzində, o, müəyyən yaşda hakimiyyəti öz üzərinə götürə bilməsi üçün zəruri olan elmlər və fənlər üzrə təhsil alır, bir növ hazırlıq kursu keçir. İngiltərədə və ya maarifpərvər monarxiyalarda, gələcək hökmdarın,

Satış üçün nəzərdə tutulmayıb

onun gələcək vəzifələrini ona başa salmadan böyüməsinə yol verilməsi vəhşilik sayılır və bizim kiminsə, onun vəzifəsinin bütün əhəmiyyət və məsuliyyətini öncədən ona başa salmadan, seçicilərin səslərindən istifadə etməsinə imkan verməyimiz də bu cür vəhşilik hesab edilməlidir. Deməli, Birləşmiş Ştatların və bizim Ştatın konstitusiyalarının müddəalarının tədrisinə başlamaq çox vacibdir.

Uşaqlar, hökumətin səlahiyyətlərinin üç hakimiyyət budağına – qanunvericilik, məhkəmə və icra budaqlarına bölünməsini və bu zaman hər bir hakimiyyət budağının öz səlahiyyətləri olmasının mənasını bilməlidirlər; seçki metodlarını və ya bütün qulluqçuların vəzifələrə təyin edilməsi üsullarını və bu vəzifələrin nə üçün təsis edildiyini bilməlidirlər. Onlara xüsusi izah edilməlidir ki, hüquqi dövlətin hər bir vətəndaşı ona qarşı ədalətsizlik edildiyi hallarda öz hüquqlarını öz qüvvəsi ilə müdafiə etmək əvəzinə məhkəməyə müraciət etməyə borcludur. Məktəblərdə bütün uşaqlara onların başa düşə biləcəyi şəkildə belə bir həqiqət də izah edilməlidir ki, hakimiyyətin mənbəyini xalqın təşkil etdiyi dövlətdə qanunlar və hökmdarlar qiyam yolu ilə deyil, seçkilər vasitəsilə dəyişdirilməlidir.

Uşaqlara ölkənin gələcək vətəndaşlarının vəzifələri vaxtında və vicdanlı surətdə aşılansaydı, o zaman vətənpərvərlərimiz öz məqsədlərinə səsvermə yolu ilə əldə etməyə qabil olmayan seçicinin zorakılığa əl atması hallarına görə bu qədər həyəcanlar keçirərdimi? Axı nadan və naşı seçici seçki mexanizmdən istifadə etmək barədə sözdə öz həmvətəndaşları ilə razılaşsa da, bu mexanizmın işi onun xeyrinə həll etmədiyi təqdirdə onu dağıtmaq haqqında fikirləşir. Əgər seçki hüququnun məsuliyyəti və əhəmiyyəti layiqincə qiymətləndirilsəydi, o zaman bizim Ştatda və dövlətdə seçki günləri təqvimin ən təntənəli dini bayramları kimi keçərdi. İnsanlar bu seçkilərə yalnız səylə hazırlaşaraq və həyəcanla deyil, həm də, intizamlı şəkildə və təntənəylə gələrdilər, necə ki, təmkinli və dindar şəxslər öz həyatlarının ən məsul dövrlərini qarşılayırlar. Heç kəs hansısa şıltaqlıq və ya məsuliyyətsizlik səbəbindən öz seçici səsindən imtina etməzdi, necə ki, heç kəs öz adından imtina etmir və ya öz ailəsini köləliyə satmır. Heç kəs öz seçici səsini nifrət və ya qisas səbəbindən heç kəsə verməzdi. Və bu halda düzgün seçim etmək siyasi mübarizənin incəliklərindən düzgün baş çıxarmaq, cərrah tərəfindən əl-ayaqların amputasiyası, yaxud dar və təhlükəli boğazda kapitanın gəmini idarə etməsi kimi təbii şəkildə baş verərdi.

Lakin Konstitusiyanın müxtəlif yozumu barədə müxtəlif hökumətlərin siyasətinin məktəbdə partiya qarşıdurması və fikir ayrılıqları predmetinə çevrilə bilməsi barədə etirazlar yarana bilər. Yəni konstitusiya hüququnun və ya siyasi hüququn istənilən fənni məktəb proqramına daxil edildikdə, belə bir

Satış üçün nəzərdə tutulmayıb

qorxu var ki, məsələn, müəllimlər onların partiya mənsubiyyətinə əsasən seçilə bilər, yaxud müəllimlər vəzifəyə təyin olunmaq xatirinə öz siyasi rəğbətlərini yalandan nümayiş etdirə bilərlər.

Beləliklə, son nəticədə sinif otağı siyasi şüarların, hələ heç bığ yeri tərləməmiş uşaqların naşı xətlə və çoxsaylı səhvlərlə yazdıqları müraciətlərin səsləndiyi miniatür siyasi kluba çevrilə bilər.

Lakin bu əndişələrin çoxu tamamilə əsassızdır. Həqiqətən də, konstitusiyada elə müddəalar var ki, müxtəlif cür təfsir oluna bilər; partiya tərəfdarlığı var ki, ölkəni bir neçə düşərgəyə bölür, lakin mübahisəli məqamların sayı fikir ayrılığı doğurmayan müddəaların sayı ilə müqayisədə birə qarşı yüz nisbətindədir. Bundan əlavə, heç kəsə səlahiyyət verilməyib və verilə də bilməz ki, əvvəlcə fikir ayrılığına səbəb olmayan məsələləri səylə öyrənmədən bu mübahisəli məqamları müzakirə etsin. Yalnız ümumi konstitusiya prinsiplərində, hamının qəbul etdiyi prinsiplərdə diskussiyaya girmiş tərəflər üçün ümumi ideyalar və ünsiyyət vasitələri tapıla bilər. Bu ümumi prinsiplər – əsasında dəlillərin irəli sürülə və bütün mübahisələrin həll edilə biləcəyi ümumi zəmindir.

Digər tərəfdən bu da aydındır ki, işdir, siyasi qarşıdurma Ümumi Məktəbləri də əhatə etmiş olsa, onlar sadəcə olaraq dağıla bilər. Nəzərə almaq lazımdır ki, məktəb sinfi də siyasi döyüşlər teatrıdır və qarşıduran tərəflər burada da səhnəyə sahib olmaq və orada öz rollarını oynamaq uğrunda düşməncəsinə vuruşa bilərlər! Bundan əlavə, məktəbin özü qladiator döyüşlərinin getdiyi yeganə yer olmayacaq. Ona doğru aparan yolların hamısında da döyüşlər gedəcəkdir. Və burada qəti uğur əldə etmək üçün birinci şərt – həqiqətən namuslu müəllimin vəzifəyə təyin edilməsidir. Ştatın əksər məktəblərinin hazırkı təşkili halında, buna yalnız, məktəb işləri üzrə sağlam düşüncəli komitənin seçilməsi yolu ilə nail olmaq olar; elə bir komitənin ki, o, siyasi təhsil proqramının müzakirəsi zamanı, siyasi sabitlik mənafeyini ön plana çəkmiş olsun.

Beləliklə, qonşular arasında xırda çəkişmələrin ardınca dairələrin ilkin yığıncaqlarının – yəni məktəblərin daxilində qızğın mübarizə başlayacaqdır. Və bu mübarizə başa çatdıqdan sonra elə həmin üsulla, məktəb işləri üzrə şəhər komitəsini seçmək vacibdir, bu isə dairənin bütün alışqan qüvvələrini bir yerə toplamağa imkan verəcək və onlar bu komitənin yığıncağının hər şeyə qalib gələn alovunda bir-birlərinə qovuşacaqlar. Bu da istisna deyil və mümkündür ki, məktəb komitəsi öz siyasi rəğbətlərinə görə böyük dairələrdən fərqlənə bilər. Yaxşı, bəs bu mübarizə aparan qüvvələrin arasında, onların ideya qarşıdurması məqamlarında kim vasitəçilik edəcəkdir və kim onun qayğısına qalacaqdır ki, bu düşmənçiliyin alovu uşaqlarımıza ziyan vurmasın? Valideynlər görsələr ki, onların uşaqlarına siyasi cəfəngiyat saydıqları şeyləri tələqin edirlər, o zaman onlar öz uşaqlarını məktəbdən çıxarmazmı və əgər məktəbdən çıxarsalar, onlar bir fayda görmədikləri məktəblərin dəstəklənməsi haqqında qərarlara müqavimət göstərməzlərmi?

Satış üçün nəzərdə tutulmayıb

Hətta məktəblər bu təhlükələrə bir il duruş gətirə bilsələr belə, sonralar bu təhlükə daha da arta bilər. Axı bütün məktəbi bürümüş infeksiya onun sərhədlərini aşaraq məktəb hasarından o tayda bütün ictimai təşkilatlar sistemini yoluxdura bilər? Siyasi qarşıdurma onsuz da iri olmayan dairələrin parçalanmasına gətirib çıxara və bundan az təhlükəli olmayan nəticəyə səbəb ola bilər – dairələrin birliyinə ziyan vurar və beləliklə, onların öz resurslarını birləşdirməsinə imkan verməz. Özünüz düşünün, məktəblərdə müəyyən dərsliklərin qadağan edilməsi və onların əvəzinə, guya bu və ya digər partiyanın baxışlarını daha yaxşı əks etdirən (müəlliflərin bu və ya digər partiyaya mənsubiyyətindən asılı olaraq) dərsliklərin tədrisindən nə gözləmək olar? Yaxud bir partiyanın tərəfdarları tərəfindən seçilmiş və bir partiyanın mənafelərinə əsaslanan və məsuliyyətini bir partiyanın daşıdığı komitənin hesabatlarına və ya statistik məlumatlarına kim inanar? Və bütün bunlar azlıq tərəfindən hər hansı bir nəzarətin olmaması şəraitində baş verəcəkdir. İşdir, hər hansı bir əqidəsiz siyasətçi şəhər üzərində öz hakimiyyətini qurmuş olarsa, o, bu cür siyasətləşdirilmiş komitələrə təsir göstərmək yolu ilə sonrakı seçkilərdə də öz mövqeyini möhkəmləndirməyə çalışacaqdır. Dairədə və ya şəhərdə seçkilərin nəticələrini dəyişdirmək üçün seçicilər hətta kənardan da gətirdilə bilər. İşəgötürən öz işçilərini, onun qəti əmrlərinə boyun əymədiklərinə görə işdən çıxara bilər və ya elə edə bilər ki, onun, işçinin uşaqlarına verdiyi bir parça çörək guya öz işini yetərincə görə bilməmiş işçiyə edilən əlavə yaxşılıq kimi görünsün; yaxud bu bir parça çörək işçinin imtina etməli olduğu hansısa prinsiplərin əvəzinə verilsin.

Müxtəlif partiyaların öz qələbə və məğlubiyyətlərindən sonra növbə ilə hakimiyyətə gəlib-getdikləri bir vəziyyətdə uşaqlara hansı siyasi doktrinaların tədris ediləcəyini düşünmək və görməkdən acınacaqlı nə ola bilər? Bir partiyanın hakimiyyəti zamanı bir il belə hesab ediləcək Konstitusiyanın filan maddəsi filan cür təfsir edilməlidir və bütün şərhçilər və vəzifəli şəxslər bu göstərişə tabe olacaqlar. Lakin qələbələr ilahəsi dəyişkəndir. Ertəsi il yanlış sayılan doktrina artıq düzgün və əsas ideyaya çevriləcək və yenə yüksək mənsəb sahibləri can-başla bunu təsdiq edəcəklər. Düzgün və yanlış olanlar öz yerlərini dəyişəcəklər. Və uşaqlar əvvəllər tərifləməyə öyrədildikləri şeyləri xorla pisləməyə və pisləməyə öyrədildikləri şeyləri tərifləməyə başlayacaqlar. Halbuki, Siseronun təbiri ilə desək, *böyük prinsiplər Romada da, Afinada da bu gün və həmişə eynidir.* Hukerin[36] sözləri ilə desək isə, bu prinsiplər öz əsasını Tanrının mahiyyətindən alıb və dəyişikliklər və imkanların həqiqi simvollarına çevriliblər.

Lakin bütün bu fəlakətlər məktəblərimizin başına uçmamışdan hələ xeyli əvvəl bu məktəblərin yalnız adı qalacaq. Onların əsasları sarsılacaq. Onların tarixi öz labüd sonluğuna yetişəcək. Onlar siyasi ata qatilliyinin əli ilə məhv ediləcək və az bir zamanda ölü və ləyaqətsiz xarabalıqlara çevriləcək. Lakin sual olunur: bu fəlakətdən yaxa qurtarmaq üçün məktəblərdə hökumətimizin

Satış üçün nəzərdə tutulmayıb

təbiəti ilə əlaqədar olan fənlərin tədrisinə qadağa qoymaq lazımdırmı? Uşaqlarım öz ölkələrinin siyasi tarixindən xəbərsizlik, bilməzlik ruhunda böyüməsinə yol vermək düzgün olardımı? Olmaya respublika hökumətinin məktəblərində uşaqlar bu hakimiyyətin mahiyyəti haqqında heç nə bilməməlidir, onlar yalnız qəzəbli siyasi diskussiyaların, seçkiqabağı nitqlərin, 4 iyul münasibətilə çıxışların gedişində öyrəndikləri, partiya qəzetlərində oxuduqları, başqa ağızlardan eşitdikləri ilə kifayətlənməyə məhkumdurlar?

Şübhəsiz ki, bu ifrat hədlər arasında orta mövqeyi tapmaq mümkündür. Məgər məhz bu orta mövqe sağlam düşüncəli, ədalətli vətənpərvərlər və əsl respublikaçılar üçün yeganə doğru yol deyilmi? Hamının qəbul etdiyi və respublika əqidələrinin əsasını təşkil edən məhz bu prinsiplər hamı üçün tədris edilməlidir. Lakin işdir, bizim təməl qanunlarımız mövzusunda mühazirə zamanı müəllim ziddiyyətli və ya mübahisəli məsələlərlə qarşılaşırsa, o, sadəcə olaraq bunları şərhsiz oxumalı və ya deməlidir ki, bu məsələ ciddi müzakirə obyektidir və məktəb elə yer deyildir ki, bu məsələ müzakirəyə qoyula və qəti həll edilə bilsin.

Əgər hər yerdə bu cür qayda qəbul olunsa və ona daim əməl edilsə, hamıya aydın olacaq ki, siyasi təbliğat məktəbin vəzifəsi deyil və siyasi partiyalar bütün mübahisəli məsələləri məktəbdən kənarda həll etməyə borcludur. Buna uyğun olaraq qoy Ştatın bütün uşaqları yalnız siyasətin əsaslarını öyrənsinlər, bu çox vacibdir, çünki bunsuz olaraq heç vaxt mürəkkəb və mübahisəli məsələləri həll edə bilməzlər. Bununla həqiqət axtarışı və köhnə səhvlərdən yaxa qurtarmaq üzrə yeni metod kəşf ediləcəkdir. Bununla barışmaz fanatiklərin bütöv bir nəsli yoxa çıxacaqdır; bu adamların yeganə əqidəsi ondan ibarətdir ki, guya onlar həmişə heç şübhəsiz haqlıdırlar, onlarla razılaşmaq istəməyənlər isə təbii ki, həmişə haqsızdırlar. Onlar zor yaxud qadağaların köməyilə deyil, həqiqətin parlaq işığı sayəsində yoxa çıxacaqlar.

Mənbə: Lawrence A. Cremin, ed., The Republic and the School: Horace Mann on the Education of Free Men (1957), 79-80, 84-97.

Satış üçün nəzərdə tutulmayıb

17. Seneka Fols Bəyannaməsi (1848)

XIX əsrin əvvəllərində "azadlığın coşması" dövründə nəzərə çarpan islahatçı hərəkatlardan biri də qadınların, xüsusilə, onların siyasi hüquqları uğrunda aparılan hərəkat idi. Qadınlar həmin dövrün bir çox islahatçı hərəkatlarında fəal iştirak edirdilər, lakin onlar tezliklə anladılar ki, bütün ağır işlərin onların üzərinə düşməsinə baxmayaraq, nadir istisnalarla (məsələn, Doroti Diks), onlar daim kölgədə qalır və öz mənafelərini açıq-açığına müdafiə edə bilmirlər. Siyasi səhnədə qadınları nə görmək, nə də eşitmək olurdu. Ev üzrə gündəlik işin ağırlığı və onun şüura sarsıdıcı təsiri bəzi qadınlara ədalətsizlik kimi görünürdü. 1848-ci ilin iyulunda Nyu-York Ştatında, Seneka Fols şəhərciyindəki tarixi yığıncaq iki kvaker[37] qadın – Lükretsiya Mott *(Lucretia Mott)* və Elizabet Keidi Stenton *(Elizabeth Cady Stanton)* tərəfindən təşkil edilmişdi. Yığıncağın çağırılmasına səbəb Londonda köləlik əleyhinə beynəlxalq konfrans zamanı Mottun salonda oturmasına icazə verilməməsi idi – belə ki, içəri yalnız kişilər buraxılırdı.

Seneka Folsdakı görüşə 40 kişi də daxil olmaqla, 240 iştirakçı yığışmışdı. İştirakçıların arasında keçmiş qul, köləliyin ləğvi uğrunda hərəkata başçılıq edən məşhur Frederik Duqlas *(Frederick Douglass)* da var idi. Nümayəndələr bilərəkdən İstiqlaliyyət Bəyannaməsi nümunəsi əsasında qurduqları bəyanat, habelə, qadınlara səs hüququ verilməsinə, qadınları kişilərlə bərabər hüquqlardan məhrum edən ailə və əmlak statusu haqqında qanunun islahatına çağıran bir sıra qətnamələr qəbul etdilər.

Seneka Fols Bəyannaməsi qadınların seçki hüquqları uğrunda hərəkatına əhəmiyyətli irəliləyiş gətirmədi, lakin sonra 70 il ərzində bu sənəd hərəkat iştirakçılarının can atdıqları ideala çevrildi.

Qadınların seçki hüquqları haqqında məsələ və həmin dövr islahatlarının digər məsələləri, məsələn, daha önəmli sayılan – köləliyin ləğvi uğrundakı məsələylə arxa plana sıxışdırıldı. Qadınlar səs vermək hüququna yalnız 1920-ci ildə, ABŞ Konstitusiyasına XIX düzəliş edildikdən sonra nail oldular .

Əlavə məlumat üçün oxuyun: Ellen C. DuBois, Feminism and Suffrage (1978); Eleanor Flexner, Century of Struggle (rev. ed. 1975); and Lois W. Banner, Elizabeth Cady Stanton (1980).

Satış üçün nəzərdə tutulmayıb

SENEKA FOLS BƏYANNAMƏSİ (1848)

Bəşər tarixində elə bir məqam yetişir ki, insan ailəsinin bir hissəsi dünyanın insanları arasında onların əvvəllər tutduqlarından fərqlənən, lakin təbiətin və Yaradanın ona da bəxş etdiyi qanunlara uyğun mövqe tutmağa çalışır və belə olanda o, bəşəriyyətin rəyinə ehtiram əlaməti kimi, onu bu hərəkətlərə sövq edən səbəbləri, heç şəksiz ki, izah etməlidir.

Biz o həqiqətləri açıq-aşkar sayırıq ki, kişilər və qadınlar anadan bərabər doğulub və Yaradan öz bəndələrinə müəyyən toxunulmaz hüquqlar bəxş edibdir; onların sırasına yaşamaq, azadlıq, səadətə canatma hüququ da daxildir; belə hüquqların təmin edilməsi üçün insanlar ədalətli, idarə olunanların razılığına güvənən hökumət qurur; odur ki, hər hansı dövlət həmin hüquqları pozarsa, xalqın onu dəyişməyə, ləğv etməyə, əvəzindəsə həmin prinsiplərə dayanan, insanların əmin-amanlığına və güzəranına daha yüksək təminat verən, yeni quruluş yaratmağa haqqı vardır. Əlbəttə, sağlam şüur kəsən odur ki, çoxdan bəri formalaşmış idarəçilik üsulları xırda və ötəri səbəblərə görə əvəz edilməsin, çünki keçmişin təcrübəsi göstərir ki, insanlar özlərinin alışdıqları həyat tərzini dəyişməkdənsə şərin hökmünə dözməyə, imkan varsa, daha meyillidirlər. Ancaq uzunmüddətli azğınlıq və zillət yeganə və ardıcıl məqsəd — xalqı sonu görünməyən despotizmə tabe etdirmək — daşıyırsa, onda bu cür iqtidarı devirmək və özünün gələcək əmin-amanlığını təmin edən etibarlı bir zəmin yaratmaq xalqın haqqı və borcudur. Bu dövlət quruluşunda qadınların dözdükləri iztirablar belə idi və indi zərurət onları haqları çatan ictimai vəziyyət bərabərliyini tələb etməyə məcbur edir.

Bəşər tarixi kişilərin qadınları daim təhqir etməsi və onlara qarşı zor işlətməsi tarixidir. Onların məqsədi qadınlar üzərində mütləq istibdad yaratmaq idi. Bunu sübut etmək üçün, icazənizlə, faktları təqdim edək.

Kişi qadına heç vaxt özünün ayrılmaz seçki hüququnu həyata keçirməyə imkan vermirdi.

Kişi qadını qəbul olunmasında səsi ilə iştirak etmədiyi qanunlara tabe olmağa məcbur edirdi.

O, qadına ölkə vətəndaşı, yaxud əcnəbi olmasından asılı olmayaraq hətta ən cahil və düşkün kişilərin malik olduğu hüquqları vermirdi.

Kişi qadını başlıca vətəndaş hüququndan — səsvermə hüququndan məhrum edərək və bununla da onu qanunverici məclislərdə nümayəndəsiz qoyaraq, ona həyatın bütün sahələrində zülm edirdi.

Kişi nikaha girərək qadını qanunun nəzərində vətəndaş kimi ölüyə çevirirdi.

Kişi qadının əmlak, hətta qazandığı pul üzərində mülkiyyətini əlindən alırdı.

Satış üçün nəzərdə tutulmayıb

O, qadını mənəvi cəhətdən şüursuz varlığa çevirmişdir, belə ki, əgər əri yanındadırsa, qadın heç bir cəza olmadan istənilən qədər cinayət törədə bilər. Nikah izdivacında qadın əri qarşısında mütiliyi öz üzərinə götürməyə məcbur edilir, kişi bütün niyyət və məqsədləri ilə qadının sahibinə çevrilir, qanun kişiyə qadını azadlıqdan məhrum etmək, onu cəzalandırmaq ixtiyarı verir.

Kişi qanunları elə formalaşdırmışdır ki, boşanma hallarında uşaqlar üzərində qəyyumluq hüququ qadınların mənafeyini nəzərə almır – qanun bütün hallarda kişilərin üstünlüyü haqqında yanlış təsəvvürə əsaslanaraq bütün hakimiyyəti onlara verir.

Kişi ərli qadınları bütün hüquqlarından məhrum etdikdən sonra tək qadınları da, əgər əmlakları varsa, sərbəst buraxmır; kişi onun üzərinə dövlətin xeyrinə vergilər qoyur, dövlət isə qadınlarla yalnız o vaxt maraqlanır ki, onların əmlakı dövlətə xeyir gətirə bilsin.

Kişi fəaliyyətin bütün gəlirli sahələrini öz inhisarına almışdır, qadınların işləməsinə imkan verilmiş yerlərdə isə onlar çox cüzi məvacib alırlar. Kişi qadınlar üçün bütün varlanmaq yollarını və kişinin özü üçün şərəf saydığı fərqlənmək imkanlarını bağlamışdır. Qadın nə ilahiyyat, nə tibb, nə də hüquq fənlərini tədris edə bilər.

Kişi qadını ciddi təhsil almaq hüququndan məhrum etmişdir, bütün kolleclər qadınların üzünə bağlıdır.

Kişi qadını kilsə və dövlət işinə yaxın buraxsa da, apostolların nümunəsinə[xxxviii] söykənərək... yalnız asılı vəzifələrə təyin edir.

Kişi dünyaya kişilər və qadınlar üçün bir-birindən fərqlənən əxlaq kodeksləri təqdim edərək yanlış ictimai fikir formalaşdırmışdır. Bu fərqlər ona gətirir ki, eyni nalayiq hərəkətlərə görə qadın cəmiyyətdən uzaqlaşdırılır, kişilərə isə heç nə edilmir və onlar üçün elə böyük qəbahət sayılmır.

Kişi hətta Yehovanın[xxxix] özünün səlahiyyətlərini ələ keçirmişdir, o, iddia edir ki, qadının fəaliyyət sahəsini müəyyənləşdirmək hüququna malikdir, halbuki bu, qadının vicdanına və Allahına məxsus ola bilər.

Kişi bütün yollarla qadının özünəhörmət hissini öldürmək və onu həyatda asılı və rəzil rolla kifayətlənməyə məcbur etmək üçün onun öz gücünə inam hissini sarsıtmağa çalışmışdır.

İndi bu ölkənin insanlarının yarısının bütün bu məhrumiyyətlərə məruz qalmasını, onların ictimai və dini sahələrdə geri qalmalarını, yuxarıda qeyd olunan ədalətsiz qanunları nəzərə alaraq, qadınların qəmgin, məzlum vəziyyətlərini, onlara məxsus hüquqların əksəriyyətindən məhrum edilmələrini nəzərə alaraq biz təkid edirik ki, qadınlar dərhal Birləşmiş Ştatların vətəndaşı kimi ixtiyarları olduğu bütün hüquq və imtiyazları əldə etsin.

Müəyyən etdiyimiz böyük bir işə başlayarkən biz heç də az olmayacaq yanlışlıq, təhrif, yaxud istehzalar gözləyirik, lakin ixtiyarımızda olan bütün

Satış üçün nəzərdə tutulmayıb

imkanlardan məqsədimizə çatmaq üçün istifadə etməliyik. Biz vəkillər tutmalı, pamfletlər nəşr etməli, ştat və milli qanunverici məclislərə təkliflərlə çıxmalı, din xadimlərini və mətbuatı müdafiə işimizə cəlb etməliyik. Ümid edirik ki, bundan sonra ölkənin hər yerini bürüyəcək bu cür toplantılar ardıcıl keçiriləcəkdir.

Mənbə: E.C. Stanton, S.B. Anthony and M.J. Gage, eds., History of Women's Suffrage, vol. 1 (1887), 70.

Satış üçün nəzərdə tutulmayıb

İttifaqın Böhranı

1618-ci ildə Ceymstaun limanına gəmi daxil oldu və Afrikadan yük qismində gətirdiyi 20 zəncini qul bazarında satdı. İşçi qüvvəsinin çatışmazlığı üzündən həmin dövrün bütün Amerika koloniyaları üçün məcburi əmək səciyyəvi idi. Bir çox mühacirlər Yeni Dünyaya yol xərcini ödəyə bilmək üçün müəyyən müddətə, adətən yeddi il müddətinə əmək müqaviləsi bağlayırdılar, bu müddət ötdükdən sonra onlar və onların ailələri azad hesab edilirdilər. Amerikaya gətirilmiş zəncilərdən azı bir neçə nəfəri sahibkarlarla bu cür müqavilə bağlamışdı, belə ki, əldə olan faktlara görə, 1650-ci illərdə Çesapik ətrafında azad zəncilər mövcud idi. Lakin təxminən o vaxtlar ağdərili mühacirlər qərara aldılar ki, zəncilər və habelə onların övladları bütün ömürləri boyu kölə qalmalıdırlar.

Məhz bu kölələr Cənubda plantasiyalar sisteminin əsasını qoydular. İlk cənublu – mühacirlərin rifah halı, becərilməsi böyük zəhmət tələb edən bitkilərin müəyyən növlərindən, məsələn, tütün, düyü və indiqodan[40] asılı idi, köləlik isə əməyin ən ucuz və etibarlı mənbəyi sayılırdı. Amerika inqilabı ərəfəsində, 13 koloniyada ümumi sayı 3 milyona çatan əhalinin 500 000 kölələr təşkil edirdi.

Elə həmin dövrdə, quldarlığın heç vaxt geniş yayılmadığı şimal ştatlarında köləliyin kökü kəsilməyə başladı. Köləlik Şimalda heç vaxt iqtisadi fayda gətirməmişdi, bundan əlavə, şimallıların çoxu məcburi insan əməyinin əleyhinə idi. Bəzi ağdərili cənublular da quldarlığa son qoymaq istəyirdi və köləliyə qarşı çıxışların böyük hissəsi heç də Şimalda deyil, Cənub ştatlarında baş verirdi. XIX əsrin başlanğıcında pambıqtəmizləyən maşının kəşfi pambığı çox gəlirli bitkiyə çevirdi, lakin kölələrin sayı artmaqda davam edirdi. 1860-cı il ərəfəsində ölkədə təxminən 4 milyon qaradərili kölə kişi və qadın vardı.

Köləlik məsələsi hələ İkinci Qitə Konqresində müzakirə olunmuşdu. Amerikalıların özləri zənci kişi və qadınları qul kimi saxladıqları bir vəziyyətdə, Konqresin "bütün insanların bərabər doğulduğunu" tanıması və qəbul etməsi heç də asan məsələ deyildi. Lakin Konqresin gündəliyində qulların azad edilməsi məsələsi deyil, koloniyaların Böyük Britaniyanın hakimiyyətindən azad edilməsi məsələsi

Satış üçün nəzərdə tutulmayıb

dururdu. Nəticədə şimallı nümayəndələr, yalnız bir səbəbə – Krala qarşı vahid cəbhə ilə çıxış etmək üçün köləliyin ləğvi lehinə məsələ qaldırmamağa razı oldular.

Beləliklə, Filadelfiyada toplaşmış 1787-ci il Konstitusiya Konventi nümayəndələrinin bütün fikri köləliyi ləğv etmək deyil, yeni dövlət sistemini işləyib hazırlamağa yönəldilmişdi. Kölәlik məsələsi faktiki olaraq müzakirə edilmirdi və Konstitusiyanın qullara (sənəd onları bu cür adlandırmır) aid olan bölmələri, məsələn, onlara vergi qoyma, onların idxalı və uçotu xeyli səthi müzakirə olunurdu.

Köləliyin ləğvi məsələsinin müzakirəyə çıxarılmamasının səbəblərindən biri də bu idi ki, XVIII əsrdə quldarlıq dünyada xeyli geniş yayılmışdı. Avropa ərazisinin böyük bir hissəsində məcburi əmək yoxa çıxsa da, əsarət institutu öz kökləri ilə çox qədim dövrlərə gedib çıxırdı. Hətta Bibliyada geniş yayılmış quldarlıq institutundan danışılır və bu zaman o, pislənilmir. Maarifçilik dövrünün müəllifləri bu məsələni "qulaqardına" vururdular, köləliyin ləğvi lehinə hərəkat isə XVIII əsrin sonlarına qədər gözəçarpacaq uğurlar əldə edə bilməmişdi.

Qərbə köçmüş cənublular özləri ilə qullarını da gətirirdilər və 1819-cu ildə Missuri İttifaqa daxil olmaq barədə ərizə verdiyi zaman quldarlıq ştatı sayılırdı. Bir çox şimallıların və cənubluların təəccübünə rəğmən Konqresin Nümayəndələr Palatası onu İttifaqa qəbul etməkdən boyun qaçırdı. Bunun əvəzinə, Konqres Missurini quldarlığa son qoymağa çağıran qətnamə qəbul etdi. Tomas Ceffers on bu yeniliyi eşitdikdə, dostlarından birinə yazmışdı ki, bu qərar onun üçün "gecə yarısı yanğın söndürənin qulaqbatıran harayı" kimi bir şeydi və o bunu "İttifaqın ölümünün başlanğıcı" hesab edir.

Henri Kley sonralar "Missuri Güzəştləri" adı ilə məşhurlaşmış sənədi işləyib hazırlaya bildi. Bu sənədə əsasən, Missurinin İttifaqa quldarlıq Ştatı qismində daxil olmasına icazə verildi, lakin Luiziananın nəhəng ərazisinin qalan hissəsində quldarlığa qadağa qoyuldu.

Fəqət məsələ gündəmdən düşmədi və tezliklə Şimal ştatlarında, köləliyin Qərb ərazilərinə yayılmasının qarşısını almaq məqsədilə etirazlar ucalmağa başladı, bəzi qruplar isə hətta Birləşmiş Ştatların bütün ərazisində köləliyin ləğv olunmasını tələb edirdilər.

Cənub ştatları bu etirazları, onların öz "xüsusi institutları" adlandırdıqları şeyə hücum sayaraq, onlara kəskin reaksiya verdilər. XIX əsrdə kölәlik artıq yalnız əmək münasibətləri ilə əlaqələndirilmirdi: irqi zəminə əsaslanan məcburi əmək Cənubun bütün silk sistemi üçün son dərəcə vacib idi. Quldarlıq kiçik fermerlər və plantasiyaların varlı sahibkarları üçün əlaqələndirici həlqə idi. Kiçik fermerlər qara qullara yuxarıdan aşağı baxmaqda ikən, bütün ağdərililər –

Satış üçün nəzərdə tutulmayıb

varlılar və yoxsullar sanki bir sinfə məxsus kimi görünürdülər.

Şimalın təzyiqi artmağa başladıqda, cənublular israr etməyə başladılar ki, köləliyin mövcudluğu onların şəxsi işidir və onlar abolisionistlərin[41] iddialarını rədd etmək üçün ştatların hüquqları bayrağını qaldırırdılar. Cənublular bildirdilər ki, ştatın sərhədləri daxilində bütün baş verənlər Ştatın öz işidir və bunların başqa Ştata və federal dövlətə heç bir dəxli yoxdur.

Lakin cənublular öz pambıq tarlalarını genişləndirmək üçün əlavə ərazilərə iddialı idilər. Onlar məsələn, istəyirdilər ki, federal hökumət Texasda quldarlığa icazə versin. Onlar həmçinin qaçqın qullar haqqında sərt qanunun – federal hökumətin üzərinə, qaçqın qulların yaxalanması və qaytarılması vəzifəsini qoyan qanunun qəbul olunmasını istəyirdilər. Və bunu özlərinin konstitusion hüququ hesab edirdilər.

Nəticədə ölkəni vahid şəkildə birləşdirən tellər tədricən qırılırdı. Şimalda quldarlığın ləğvi uğrunda hərəkat gücləndikcə, Cənubda şimal ştatlarından ayrılmaq istəyi bir o qədər artırdı. 1850-ci illərin axırlarında Avraam Linkolnun dediyi kimi, Birləşmiş Ştatlar "Nifaqın böldüyü yurd" idi və dağılmaq üzrəydi.

1860-cı ildə Linkoln prezident seçilən kimi, cənub ştatları İttifaqdan çıxdıqlarını elan etdilər. Şimalda çoxları hesab edirdi ki, Cənubun ayrılması faciə sayılmamalıdır, əksinə, onlarsız ölkənin qalan hissəsi daha yaxşı yaşayacaqdır, belə ki, rüsvayçı məcburi əməkdən xilas olacaqdır. Lakin Linkoln və bir çox digər şimallılar İttifaqı saxlamağı zəruri hesab edirdilər və vətəndaş müharibəsi də elə bu səbəbdən başladı.

Lakin vətəndaş müharibəsinə səbəb olmuş köləlik haqqında məsələni bundan sonra da saya almamaq mümkün deyildi və nəticədə, müharibə, İttifaqı xilas etmək cəhdindən bu "xüsusi instituta" son qoymaq cəhdinə çevrildi. Gettisburq yaxınlığındakı döyüş Linkoln və onun əsgərləri üçün demokratiya uğrunda döyüş oldu, lakin bir müddət onun nəticələri birmənalı qarşılanmadı.

Hətta ən nəcib niyyətlərlə başlanmış müharibə belə demokratik cəmiyyət üçün problemlər yaradır. Dinc dövrdə adi hal sayılan davranış, məsələn, hökumətin tənqidi, müharibə vaxtı təhlükəli hərəkət kimi görünür. Azadlığı və demokratiyanı müdafiə etmək məqsədilə başlanmış bu vətəndaş müharibəsinin də öz mənfi cəhətləri var idi və bu özünü dözümsüzlüyün artmasında və mülki hüquqların pozulmasında göstərmişdi. Lakin son nəticədə İttifaq daha da möhkəmləndi, köləlik ləğv edildi və demokratiya bərqərar oldu. Lakin sonrakı bölmələrdən görəcəyimiz kimi, bu problemlər hələ də qəti həll edilməmişdi.

Satış üçün nəzərdə tutulmayıb

18. Niyyətlər Bəyannaməsi (1833)
Amerika Köləliklə Mübarizə Cəmiyyəti

"Missuri Güzəştləri"nin qopardığı hay-küy 1820-ci illərdə xeyli səngisə də onilliyin sonlarında yenidən mühüm hadisələr baş verdi. 1829 və 1831-ci illərdə Virciniyanın qanunvericilik yığıncağında köləliyin ləğvi barədə qızğın mübahisələr başlandı; Şimalda, qulların azad edilməsi və Afrikaya köçürülməsi planı müzakirə olunurdu (bu təklifin nəticəsində Afrikada Liberiya dövləti yaradıldı). Devid Uolkerin *(David Walker)* 1829-cu ildə "Dünyanın rəngli dərili vətəndaşlarına Müraciəti," 1831-ci ildə Nat Ternerin *(Nat Turner)* üsyanı və həmin il federal qanunlara tabe olmaqdan boyun qaçırmış ştatlara qarşı prezident Endrü Ceksonun hərəkətlərindən sonra mübahisələr daha da kəskinləşdi.

1776 və 1860-cı illər arasında baş vermiş 200 qul qiyamı arasında ən qanlısı Terner üsyanı oldu və o bir çox ağdərili cənubluların ürəyinə vəlvələ saldı. 1831-ci ilin avqustunda Net Terner və onun başçılıq etdiyi qullar dəstəsi Virciniyanın Sauthempton qraflığında kortəbii üsyana başladı. Onlar bir-bir fermalara basqın edir, qarşılarına çıxan ağları öldürür və onlara qoşulan yeni qulların hesabına dəstəni genişləndirirdilər. Könüllülərdən ibarət qoşun qiyamı yatıran zaman, üsyançılara artıq 80-dən çox qul qoşulmuş, 60 ağdərili isə öldürülmüşdü. Bu qiyam cənubluları köləliyin ləğvi haqqında düşünməyə vadar etsə də, ümumilikdə, bütün Cənub ştatları qulların davranışını tənzimləyən qanunların sərtləşdirilməsini tələb etdilər.

Elə həmin il Cənubi Karolina Ştatının qanunvericilik yığıncağı federal hökumətin təyin etdiyi vergini qanunsuz elan etdi, Ştatın rəhbərləri isə vergilərin federal hakimiyyət tərəfindən yığılması ilə barışmaq istəməyərək yerli könüllülərdən ibarət qoşunun yaradılmasından və tətbiqindən dəm vurmağa başladılar. Prezident Endrü Cekson Ştatın suverenlik haqqında iddialarını rədd etdi və federal qanunların icrasının təminatı üçün ordudan istifadə edəcəyi ilə hədələdi. Ceksonun qətiyyətini görən Ştat gerilədi, lakin bu epizod bütün cənub ştatlarında belə bir qorxu yaratdı ki, Konqres gec-tez köləliklə məşğul olacaqdır.

1833-cü ildə Filadelfiyada "Amerika köləliklə mübarizə cəmiyyəti" *(American Anti-Slavery Society)* yaradıldıqdan sonra Cənubda həyəcan dalğası gücləndi. Köləliyin ləğvinin qızğın tərəfdarı olan Uillyam Lloyd Garrisonun *(William Lloyd Garrison)* başçılıq etdiyi cəmiyyət Amerika Birləşmiş Ştatlarında köləliyə son qoymaq haqqında

Satış üçün nəzərdə tutulmayıb

and qəbul etdi. Cəmiyyətin təsis yığıncağında qəbul olunmuş prinsiplər sonrakı 30 il üçün onun fəaliyyət proqramını müəyyən etdi: köləlik Konstitusiyaya (o vaxtkı Konstitusiyanı Garrison "şeytanla saziş" adlandırırdı) görə olmasa da, azı təbiət qanunlarına görə qeyri-qanunidir.

Yeni təşkilatın üzvlərinin sayı sürətlə artırdı: 1835-ci ildə təşkilatın bütün ölkə üzrə 400-dən çox bölməsi vardı, 1838-ci ildə bu rəqəm 1350-yə çatdı, cəmiyyətin üzvlərinin ümumi sayı isə 250 000 nəfər təşkil edirdi. Köləliyin ləğvi lehinə hərəkatın güclənməsi qismən, onun digər islahatçı hərəkatlarla oxşar olması ilə əlaqədar idi. Bu hərəkatlar insan ruhunun azad edilməsi və özünüifadə yolunda sədlərin aradan götürülməsinə can atırdı. Köləliyin ləğvi uğrunda hərəkat Cekson dövründəki islahatların ən önəmlisi oldu, lakin onun uğuru İttifaqın varlığını gerçək təhlükə altına qoydu.

Əlavə məlumat üçün oxuyun: Russell B. Nye, William Lloyd Garrison and Humanitarian Reformers (1955); Louis Filler, The Crusade Against Slavery (1960); Martin Duberman, ed., The Anti-Slavery Vanguard (1965); and Aileen Kraditor, Means and Ends in American Abolitionism: Garrison and His Critics (1967).

NİYYƏTLƏR BƏYANNAMƏSİ

Biz buraya elə bir vəzifənin yerinə yetirilməsi üçün toplaşmışıq ki, bunsuz atalarımızın işi yarımçıq qalardı. Mənəvi həqiqət fiziki gücdən üstün olduğu kimi, bu vəzifənin də böyüklüyü, əzəməti və dünyanın taleyinə təsir imkanı atalarımızın işi ilə müqayisədə daha üstündür.

İstər fikrimizin təmizliyinə, istər istəklərimizin qanuniliyinə, istər niyyətlərimizin qətiliyinə, istər addımlarımızın cəsarətliliyinə, istər əqidəmizin möhkəmliyinə, istərsə də ruhumuzun səmimiliyinə görə biz onlardan geri qalmamalıyıq...

Ciddiliyindən asılı olmayaraq, əcdadlarımızın şikayətləri burada bəhs etdiyimiz ədalətsizlik və iztirablarla müqayisədə heç nədir. Atalarımız heç vaxt kölə olmayıblar; onları heç vaxt heyvan kimi alıb-satmayıblar; onları heç vaxt bilik və din nurundan məhrum etməyiblər; onları heç vaxt kobud nəzarətçilər qamçılamayıb.

Lakin azadlığı uğrunda mübarizə apardığımız və həmvətənlərimizin ən azı altıda birini təşkil edən insanları qanun kobud heyvanlara bərabər tutur; onların gündəlik əməyinin bəhrəsi əvəzi ödənilmədən qarət edilir; onlar

Satış üçün nəzərdə tutulmayıb

şəxsiyyətlərinə qarşı yönəldilmiş ədəbsiz və öldürücü hərəkətlərdən müdafiə olunmaq üçün nə Konstitusiya, nə də hüquqdan istifadə edə bilirlər. Məsuliyyətsiz tiranların şıltaqlığı və özbaşınalığı ucbatından zərif körpə dəli edilmiş anasının əlindən amansızlıqla alınır, ürəyi parça-parça olan qadın hönkürən ərindən ayrılır. Yalnız qaradərili olduqlarına, yalnız bu "cinayətlər"inə görə onlar aclıq əzabına, döyülməyə, kobud kölə rüsvayçılığına məhkum edilmişlər. Qanunlar onları bütpərəst cahilliyində saxlayır. Bu qanunlar onların təhsil almasına imkan verməmək üçün qəbul olunmuşdur.

İki milyondan artıq adamın həyat şəraitinin dəhşətli təfsilatları bundan ibarətdir. Dediklərimizi sübut etmək üçün minlərcə şəksiz faktlara və quldar ştatların qanunlarına müraciət etmək olar.

Beləliklə, biz hesab edirik ki, bu ölkənin mülki və dini imtiyazları baxımından onların pozulması dünyada hər hansı pozuntudan daha ağırdır, bu ağır yükdən xilas olmaq və məzlumları azad etmək üçün bu pozuntulara dərhal son qoyulmalıdır...

Köklü afrikalının satın alınması, yaxud oğurlanması və onun köləyə çevrilməsi quldurluqdur. Şübhəsiz ki, bu günah da amerikalının köləyə çevrilməsi kimi böyük bir günahdır.

Biz inanır və bildiririk ki, prinsipcə afrikalı kölə alveri ilə amerikalı kölə alveri arasında heç bir fərq yoxdur; başqasını öz mülkiyyəti kimi məcburi köləlikdə saxlayan hər bir Amerika vətəndaşı Müqəddəs Kitaba uyğun olaraq adam oğrusudur; kölələr dərhal azad edilməli və qanunun himayəsinə verilməlidir; əgər onlar nəsildən-nəslə fironların dövründən bəri yaşayıb qala bilmişlərsə, onların azadlıq hüquqları əllərindən alına bilməz; beləliklə, köləliyə imkan yaradan qanunların hamısı Allah qarşısında etibarsızdır, çünki bu qanunlar "ilahi hüquqlar"ı açıq-aşkar zəbt edir, "təbii hüquq"u kəskin şəkildə pozur; ictimai müqavilənin özünün əsaslarını, bütün münasibətləri, insanlararası qarşılıqlı hörmət və yardım hisslərini dağıdan, həmçinin bütün müqəddəs kəlamları pozan amilə çevrilir. Deməli, onlar dərhal ləğv edilməlidir.

Daha sonra, biz inanır və bildiririk ki, dərisinin rəngindən asılı olmayaraq başqalarından tələb olunan keyfiyyətlərə malik hər bir şəxsin hamı kimi eyni imtiyaz və ixtiyara malik olmasına dərhal imkan yaradılmalıdır; onlar üçün də ağ adamlar kimi cəmiyyətdə mövqe tutmağa, rifah halını yaxşılaşdırmağa və əqli inkişafına şərait yaradılmalıdır.

Biz hesab edirik ki, köləni azad edərkən plantasiya sahibinə heç bir əvəz ödənilməməlidir, belə ki, bu, yalnız böyük və əsas prinsipin yerinə yetirilməsi demək olardı, bu prinsipə görə, insan digər insanın mülkiyyəti ola bilməz...

Əgər əvəz ödənilməlidirsə, o, kölələri qarət edənlərə, onları ələ salanlara deyil, təhqir edilmiş və heç bir günahı olmayan kölələrə ödənilməlidir.

Satış üçün nəzərdə tutulmayıb

Biz birbaşa, yaxud dolayısı ilə kölələrin azad edilməsi probleminin həllinə iddia edən, yaxud köləliyin dərhal və tam ləğvinə alternativ kimi nəzərdən keçirilən ekspatriasiyanın[42] istənilən variantını səhv, amansız və təhlükəli hesab edirik.

Biz köləlik probleminə dair öz səlahiyyətləri daxilində qanun qəbul edən ştatların hər birinin suverenliyini tam və yekdilliklə qəbul edirik. Biz nəzərə alırıq ki, hazırkı milli sazişə[43] əsasən, Konqresin bu mühüm məsələyə münasibətdə quldar ştatlardan heç birinin işinə qarışmağa hüququ yoxdur.

Lakin biz belə bir mövqedən çıxış edirik ki, Konqresin müxtəlif ştatlar arasında daxili kölə alverinin qarşısını almağa və ölkənin Konstitusiyası tərəfindən özünün müstəsna yurisdiksiyasına aid etdiyi hissələrində köləliyi ləğv etməyə həm hüququ var, həm də bunu etməyə borcludur.

Biz hesab edirik ki, indi azad ştatların adamlarının üzərinə mühüm vəzifələr – Birləşmiş Ştatların Konstitusiyasında göstərilən mənəvi və siyasi təsir vasitələri ilə köləliyin ləğv edilməsi vəzifələri düşür. Bu adamların malik olduqları böyük fiziki güc cənub ştatlarının milyonlarca adamının əl-ayaqlarında təhqiramiz istibdad qandalının saxlanılmasına imkan verir; onlar istənilən vaxt kölələrin üsyanlarını yatırtmaq üçün səfərbər edilə bilərlər; onlar quldarın kölələrinin beşdə üçünü öz mülkiyyəti hesab edərək səsverməsinə şərait yaradır[44], beləliklə də, quldarın zülmünün əbədiləşdirilməsinə imkan verirlər; onlar quldarın müdafiəsi üçün cənubda ordunun saxlanılmasına kömək edirlər; onların ərazisinə qaçıb gəlmiş kölələri tutur, geri qaytarır, burada isə qəzəblənmiş sahibkarlar, yaxud qəddar nəzarətçilər qaçqın köləyə işgəncələr verirlər. Köləliyə belə münasibət cinayətdir və çox təhlükəlidir. Və buna son qoyulmalıdır.

Bizim baxışlarımız və prinsiplərimiz bundan ibarətdir ki, bu, bizim vəzifələrimiz və tədbirlərimizdir. Biz Tanrının ədalətliliyinə tam inam bəsləyərək, bununla yanaşı müstəqilliyimizin bəyannaməsinə və Əbədi Qayalar kimi, İlahi Vəhylərə tapınırıq.

Mənbə: Louis Ruchames, ed., The Abolitionists (1963), 78.

Satış üçün nəzərdə tutulmayıb

19. Vətəndaş İtaətsizliyi (1849)

Henri Devid Toro

1823-cü ildə Meksika hökuməti immiqrasiyanı həvəsləndirmək məqsədilə Stiven Ostini *(Stephen Austin)* Rio Qrande çayından şimala doğru böyük sahə ilə təmin etdi və o, orada 300 ailə yerləşdirdi. 1835-ci ildə Ostinin koloniyasında 20 mindən çox mühacir yaşayırdı, daha 15 000 "yeni" amerikalı isə Texasın müxtəlif hissələrində məskən salmışdı. Məskunların əksəriyyəti cənub ştatlarından köç etmişdi, quldarlıq Meksika qanunlarına zidd olsa da, amerikalılar özləri ilə kölə də gətirmişdilər. General Santa Ana başda olmaqla, Meksika hökuməti amerikalı kolonistlər üzərində nəzarəti kəskinləşdirmək istədikdə, onlar qiyama qalxdılar və 1836-cı ildə öz müstəqilliklərini elan etdilər.

Cekson administrasiyası 1837-ci il martın 3-də Texas respublikasının müstəqilliyini tanıdı, lakin yeni millət Birləşmiş Ştatların bir hissəsi olmaq istəyirdi. Bütün mühacirlər özlərini amerikalı kimi görürdülər, lakin Texasda köləliyə icazə verildiyinə görə, Şimal etiraz etməyə başladı və tezliklə Texas nifaq yumağına çevrildi. Şimalda da, Cənubda da bəziləri inanırdılar ki, "böyük ölkəni" (Texası), Cənubun can atdığı kimi, azı beş quldarlıq ştatına bölmək olar. Lakin Şimal buna müqavimət göstərir, ehtiyatlanırdı ki, bu, azad və quldarlıq ştatları arasında güc balansını poza bilər. Ekspansionistlər Konqresdə əksəriyyətin dəstəyini qazana bilmədiyi üçün məsələ bir neçə il ərzində həll edilməmiş qaldı və "1837-ci il vəlvələsi" adını almış iqtisadi böhran nəticəsində müflisləşmiş daha min nəfər cənublu öz kölələri ilə birgə Texasa mühacirət etdi.

Və nəhayət, prezident Tayler administrasiyasının (1841-45) süqutu dövründə Konqresdə adi səs çoxluğu ilə Texasın "təkrar birləşdirilməsi" haqqında qərar qəbul edildi*. Qərar bununla əsaslandırılmışdı ki, Texas artıq Birləşmiş Ştatların tərkib hissəsi idi. Lakin bir sıra məsələlər, o cümlədən, Texas və Meksika arasında sərhəd məsələsi həll edilməmiş qalırdı. Yeni prezident Ceyms K.Polk *(James K. Polk)* hakimiyyətə öz ekspansionist siyasəti sayəsində gəlmişdi və buna görə ləngimədən Meksikanı müharibəyə təhrik etdi.

Birləşmiş Ştatlar müharibədə asanlıqla qalib gələrək Kaliforniya və hazırkı Amerikanın cənub-qərb hissəsi də daxil olmaqla, Meksika ərazisinin böyük bir hissəsini zəbt etsə də, müharibə şimal ştatlarının

Satış üçün nəzərdə tutulmayıb

çoxunun dəstəyini qazana bilməmişdi. O vaxtlar hələ gənc olan illinoyslu konqresmen Avraam Linkoln *(Abraham Lincoln)* Nümayəndələr Palatasında müharibə əleyhinə çıxış etdi. Yeni İngiltərədə isə Henri Devid Toro (Henry David Thoreau) ədalətsiz müharibəyə etiraz əlaməti olaraq, can vergisini ödəməkdən imtina etdi. Bunun nəticəsində Toro gecəni həbsxanada keçirməli oldu. Ertəsi gün onun dostlarından biri, Toronun ziddinə olaraq, onun əvəzinə bu vergini ödədi və Toro azadlığa buraxıldı.

Toro tez-tez peşəsini dəyişirdi: kiçik məmur işləmişdi, "Dayal" *(Dial)* jurnalının redaktoru Ralf. U. Emersonun köməkçisi və müavini olmuş və jurnal üçün çoxlu yazılar yazmışdı. O, təbiət haqqında yazdığı gözəl esselərlə, ələlxüsus klassik "Uolden" *(Walden)* (1854) essesi ilə məşhurlaşdı. Toronun hökumətin vicdansız hərəkətləri ilə üzləşən namuslu vətəndaşın nə etməli olması haqqında danışılan esseləri isə siyasi fikir tarixində bütöv bir mərhələni təşkil etdi.

Onun vətəndaş itaətsizliyi haqqında ideyası böyüyüb zənginləşərək qeyri-zorakı müqavimətin nəzəriyyə və praktikasına çevrilmişdir. Sonralar bu ideyadan Handi və Kiçik Martin Lüter Kinq bəhrələnmişlər. Bu essedə, namuslu yaşamaq qərarına gəlmiş insanın fəlsəfəsini deyil, həm də köləliyə münasibətdə amerikalıların duymağa başladıqları ikrahı görmək olar.

Əlavə məlumat üçün oxuyun: Edward Wagenknecht, Henry David Thoreau: What Manner of Man? (1981); K. Jack Bauer, The Mexican-American War, 1846-1848 (1974); and John H. Schroeder, Mr. Polk's War: American Opposition and Dissent (1973).

VƏTƏNDAŞ İTAƏTSİZLİYİ

Mən "ən yaxşı hökumət mümkün qədər az idarə edən hökumətdir"[45] müddəası ilə tam razıyam və arzu edirəm ki, bu müddəa tez və daha sistemli şəkildə gerçəkləşsin. Gerçəkləşəndə o, əvvəl-axır "ən yaxşı hökumət heç idarə etməyən hökumətdir" şüarına çevriləcək ki, mən buna da şərikəm, adamlar hazır olanda isə onların hökumətləri elə bu cür də olacaq. Hökumət ən yaxşı halda yalnız vasitə ola bilər, amma adətən hökumətlərin çoxunun, bəzən hətta heç birinin bir vasitə kimi də kəsəri olmur. Daimi ordu əleyhinə çoxsaylı, ciddi və axırda uğur qazanacaq etirazlar daimi hökumətə də şamil edilə bilər. Daimi ordu daimi hökumətin vuran əlindən başqa bir şey deyil.

Satış üçün nəzərdə tutulmayıb

İnsanların öz iradələrini həyata keçirmək üçün seçdikləri üsuldan başqa bir şey olmayan hökumət həm özünün xeyir-duası ilə fəaliyyət göstərən insanları aldatmağa, həm də bu insanlar tərəfindən aldadılmağa eyni dərəcədə meyillidir.

İndi davam edən Meksika müharibəsi hökumətdən daim alət kimi istifadə edən nisbətən azsaylı insanların hərəkətlərinə bir nümunədir, çünki xalqın iradəsi ilə hesablaşsaydılar, o, lap əvvəldən bu tədbirə razılıq verməzdi.

Amerika hökuməti lap yaxın vaxtlarda yaranmış, bir ənənədən başqa bir şey deyil, lakin artıq qartımış olan bu ənənə gələcək nəsillərə özünü indiki şəkildə çatdırmağa çalışsa da, bütövlüyünü tədricən itirir. Bu hökuməti bir insan öz iradəsinə tabe edə bilirsə, deməli, bu hökumət yaşamaq iqtidarında deyil.

Belə hökumət xalqın nəzərində "taxta tapança" kimi bir şeydir. Hərçənd, bu halda hökumətin xalqdan ötrü zəruriliyi azalmayacaq, çünki insanlar hökumət barədə öz ideyalarını reallaşdırmaq istəyirlər. Məhz bunun sayəsində hökumət insanları bacarıqla aldatmaq və öz xeyri üçün hətta özünü də aldatmaq imkanı əldə edir. Gözəl mənzərədir, deyilmi? Bizim hökumət bir dəfə də olsun bir işin qulpundan yapışmayıb və həmişə hazırlıqla özünü kənara çəkib. Ölkənin azadlığını da o qorumur. Qərbi də o məskunlaşdırmır. Maarifi də o yaymır. Amerika xalqının xarakteri elədir ki, o, başladığı hər işi axıra çatdırmağı bacarır və əgər hökumət bu xalqın yolunu kəsməsəydi, o, daha böyük uğurlar qazanardı. İnsanların birliyi pozulanda, bu, hökumətin xeyrinədir, hökumətin idarə etdiyi insanlar barədə ümumiyyətlə düşünməməsi mümkün olanda isə o özünü daha yaxşı hiss edir.

Sahibkarlıq və ticarət təbiətcə rezin top kimi çevik olmasaydı, qanunvericilərin ucaltdıqları divarı heç vaxt aşa bilməzdi; əgər bu insanları təkcə onların niyyətlərinə görə deyil, əməllərinin nəticələrinə görə mühakimə etmək mümkün olsaydı, onlara dəmir yollarda qəzalar təşkil edən cinayətkarlar kimi baxmaq və buna görə cəzalandırmaq lazım gələrdi.

Mən hər şeyi sağlam düşüncə mövqeyindən nəzərdən keçirirəm və bir vətəndaş kimi, ümumiyyətlə, hakimiyyətin əleyhinə deyiləm, lakin artıq indidən ən yaxşı hökumət barədə düşünməyə çağırıram. Hər bir insan hansı hökumətin onda hörmət hissi oyadacağı barədə düşünməyə başlasa, bu, o cür hökumətin yaranması yolunda bir addım olar.

Təcrübə göstərir ki, çoxluğun uzun müddət idarə etmək imkanına malik olmasının səbəbi – çoxluğun haqlı olması və ya azlığın bunu qəbul etməsi deyil, səbəb yalnız çoxluğun fiziki cəhətdən daha güclü olmasıdır. Buna görə də ədalət anlayışını insanların necə qavramalarından asılı olmayaraq, çoxluğun idarə etdiyi hökumət ədalətə əsaslanmır. Görəsən, elə bir hökumət qurmaq mümkün deyilmi ki, orada nəyin gerçək, nəyin yalan olduğunu əksəriyyət yox, vicdan müəyyənləşdirsin; belə hökumətdə çoxluq yalnız o məsələləri həll etsin ki, onlara məqsədəuyğunluq ölçüsü ilə yanaşmaq lazım gəlir? Nəyə görə

Satış üçün nəzərdə tutulmayıb

vətəndaş bir anlığa azacıq da olsa öz vicdanını qanunvericinin ixtiyarına buraxmalıdır? Belə olacaqdırsa, insanın vicdanı nəyə gərəkdir? Mən belə hesab edirəm ki, biz əvvəl insan, sonra təbəə olmalıyıq. Yaxşı olmazmı ki, insanları daha çox qanuna yox, haqq-ədalətə hörmət ruhunda tərbiyə edəydilər? Mənim öz öhdəmə götürə biləcəyim yeganə vəzifə budur ki, özüm nəyi düzgün sayıramsa onu da icra edim.

Düz deyiblər ki, təşkilatın vicdanı olmur. Amma vicdanlı adamlardan ibarət olan təşkilat vicdanlı ola bilər. Qanun hələ heç vaxt adamları azacıq da olsa ədalətli etməyib; qanuna hörmətə görə ləyaqətli insanlar belə hər gün ədalətsizliyin alətinə çevrilir. Qanuna hədsiz hörmət bəslənməsi üzündən hamının çaşması onunla nəticələnir ki, siz sıraya düzülərək dağlardan və dərələrdən aşaraq öz iradəsinin, vicdanının və sağlam düşüncəsinin ziddinə olaraq müharibəyə gedən sıravi əsgərlər, polkovniklər, kapitanlar, kaprallar və başqa rütbəli hərbi qulluqçuları görə bilərsiniz. Nəticədə onların yürüşü ağlasığmaz hərəkət kimi təsir bağışlayır və insanın ürəyini ağrıdır.

Onlar çirkin bir işə cəlb olunduqlarına şübhə etmirlər, çünki sülhsevərlik hər bir insana xasdır. Amma bilmək olmur ki, bu əsgərlər insandırlar, yoxsa iqtidarda olan hansısa bir vicdansızın sərəncamına verilmiş səyyar bir istehkam, barıt anbarı? Hərbi limana gedib dənizçi əsgərin sir-sifətinə baxın: o, insan deyil, kölgədir, canlı meyitdir, beləsini ya Amerika hökuməti, ya da qara magiya yetişdirə bilər; beləsi hələ ayaq üstə gəzə bilsə də, artıq matəm marşı və vida atəşi ilə dəfn olunub, hərçənd başqa cür də olur:

Qəbrin üstündə nə təbil çaldıq
Nə də vida atəşi açdıq
Onu güllə vuran yerdə
Tələsiklə basdırdıq.[46]

Çoxları dövlətə elə bu cür – insan kimi yox, maşın kimi, yalnız öz bədəni ilə xidmət edir. Onlar daimi ordu, milis, zindan gözətçiləri və b. təşkil edir. Onların düşünmək, duymaq tələbatı öldürülüb. Onlar insan deyillər, ağacdırlar, torpaqdırlar, daşdırlar. Görəsən, ağacdan adam düzəltmək olmazmı? Olsaydı, ağac adamlar dövlət işlərinə daha çox yarayardılar. Bu dəstə samandan hazırlanmış müqəvvadan artıq hörmətə layiq deyildir. Əslində onlar da atlar və itlər kimi əmlakdırlar.

Amma adətən onlar özlərini xeyirxah vətəndaşlar hesab edirlər. Başqaları, məsələn, qanunvericilərin, siyasət xadimlərinin, hüquqşünasların, ruhanilərin və məmurların çoxu dövlətə əsasən beyinləri ilə qulluq etsələr də, çox vaxt mənəvi fərqləri görməyə qadir olmadıqlarından, deyəsən, Allahdan çox, Şeytana xidmət göstərirlər və bunu heç də gizlətmirlər. Çox az adam – qəhrəmanlar, vətənpərvərlər, şəhidlər, yüksək mənada islahatçılar və *əsl kişilər* dövlətə həm də vicdanları ilə xidmət edir və belə olduğuna görə də dövlətin səhvlərini

Satış üçün nəzərdə tutulmayıb

görüb ona tez-tez müqavimət göstərirlər. Adətən, dövlət belələrini özünə düşmən sanır. Müdrik insan yalnız *əsl kişi* kimi dövlətə xidmət edəcək, o, "gil" olub "soyuq gələn deşiyi qapamaq"dansa[47] kənara çəkilməyi üstün tutar:

…mənim əslim-nəslim elə uca ki,
Heç kəsə qulluqçu ola bilmərəm.
Mən nökər deyiləm, kimsə əmr edə.
Dövlətin əlində kor alət olam.[48]

Bütün varlığı ilə öz həmcinslərinə xidmət edən insanlar elə həmin həmcinslərinin nəzərində gərəksiz və xudbin hesab edilir, özünü bu işə yalnız qismən həsr edənlər isə xeyirxah və insanpərvər insanlar elan edilir.

Bizim zəmanədə insan Amerika hökumətinə necə münasibət bəsləməlidir? Cavab verirəm: taleyini indiki hökumətlə bağlayan adam əvvəl-axır rüsvay olacaq. Kölələrə hökumətlik edən siyasi quruma mən, bircə an da olsa, "öz hökumətim" deyə bilmərəm.

Hökumətin tiranlığı, yaxud fərsizliyi dözülməzlik həddinə çatanda hər kəsin inqilab etmək, yəni hökumətə müqavimət göstərmək hüququ var. Bunu hamı qəbul edir, amma çoxları onu da bildirirlər ki, indi inqilab etmək vaxtı deyil. Belələrinin fikrincə, 1775-ci ildə, guya inqilab etmək vaxtı imiş. O vaxtkı hökumət dəniz yolu ilə xaricdən gətirilən mallara rüsum qoyduğu üçün pis hökumət sayılırmış və buna görə də onu yıxmaq lazım imiş. Şəxsən mən təkcə bu səbəbə görə hay-küy qaldırmazdım, çünki xarici mal almadan da yaşaya bilərəm. İstənilən maşında müəyyən qədər sürtünmə var və ola bilər bu maşın o qədər faydalı iş görsün ki, sürtünmənin zərəri nəzərə çarpmasın. Buna o qədər də fikir vermək lazım deyil. Lakin elə məqamlar olur ki, sürtünmə özü bütöv bir maşına çevrilir, zülm isə mütəşəkkilləşir. Bax, belə olanda mən deyirəm: bizə bu cür maşın lazım deyil. Başqa sözlə, özünü azadlıq beşiyi adlandıran bir ölkədə əhalinin altıdabiri kölə olanda, bir məmləkət başdan-başa yadelli qoşunların tapdağına çevriləndə, bu qoşunlar yerli əhaliyə qarşı hərbi qanunlar tətbiq edəndə[49] mən dözməyib deyirəm: namuslu adamların üsyan qaldırmaq, inqilab etmək vaxtıdır; bunu zəruri edən isə odur ki, talanmış ölkə bizim ölkə deyil və biz orada işğalçılar ordusuyuq.

Mənəviyyat məsələlərində çoxlarının böyük nüfuz sahibi sandığı Peyli[50] öz kitabının "Mülki iqtidara itaət borcu" fəslində vətəndaşlıq borcunu faydalılıqla eyniləşdirəndən sonra yazır: "Necə ki bütün cəmiyyətin mənafeyi bunu tələb edir, yəni necə ki cəmiyyətə zərər vurmadan hökumətə müqavimət göstərib onu dəyişdirmək mümkün deyil, Allah artıq yox, məhz həmin vaxta qədər belə hökumətə tabe olmağı məsləhət bilir... Bu prinsipdən çıxış edərək hər bir müqavimət anının ədalətliliyini onun gətirəcəyi ədalətsizliklə müqayisədə görmək olar". Bu nəticəni isə, Peyliyə görə, hər kəs özü çıxarmalıdır. Görünür, Peyli burada faydalılıq prinsipinin tətbiq oluna bilmədiyi, xalqın və tək bir

Satış üçün nəzərdə tutulmayıb

adamın ədaləti hər hansı qiymətə əldə etməli olduğu məqamları nəzərə almayıb. Mən suda boğulan bir adamın əlindən ləngəri dartıb almışamsa, özüm boğulacaq olsam belə, onu yiyəsinə qaytarmalıyam[51]. Peyliyə görə, bu, düzgün olmazdı. Amma "belə hallarda öz ruhunu rahat etmək istəyən kəs şeytanın tələsinə düşəcək"[52]. Xalqımız dövlətçiliyini itirsə belə, kölələri saxlamamalıdır və Meksika ilə savaşmamalıdır.

Xalqlar, adətən, Peyli ilə razılaşırlar, lakin kimin ağlına gələrdi ki, Massaçusets məhz indiki böhranda lazım olduğu kimi hərəkət edəcəkdir?

> Fahişə dövlətin vicdanı çirkab içindədir
> Siz isə ona al-əlvan donlar biçirsiniz.

Əslində Massaçusetsdə islahatların əleyhdarları Cənubdakı yüz min siyasətçi deyil, Şimaldakı yüz minlərlə dükançı və fermerdir. Humanizm problemlərindən daha çox ticarət və təsərrüfat məsələləri ilə maraqlanan bu insanlar Meksikaya və kölələrə münasibətdə nəyin bahasına olursa-olsun, ədalətli hərəkət etməyə hazır deyildirlər. Odur ki, mən ittihamımı uzaq düşmənlərə yox, ölkəmizdə "bunlarla" əməkdaşlıq edən və "bunlar"ın iradələrini həyata keçirməyə imkan yaradan kəslərə yönəldirəm.

"Xalq hazır deyil" deməyə öyrənmişik, lakin islahatlar ona görə ləng gedir ki, "hazır olan" azlıq "hazır olmayan" çoxluqdan, faktiki olaraq, az fərqlənir. Sən özün haqq yolunu tapmısansa, onda özün təkbaşına, başqalarından səndə olan ağıl və fədakarlıq tələb etmədən, o yolu get. Sözdə köləliyin və müharibənin əleyhinə olanlar, lakin buna son qoymaq üçün heç bir əməli iş görməyənlər çoxdur; özlərini Vaşinqtonun və Franklinin davamçıları hesab edərək əlini ağdan qaraya vurmayan, nə etmək lazım olduğunu bilmədiyini deyərək heç nə etməyənlər çoxdur; azadlıq məsələsini yalnız ticarət azadlığı ilə əlaqədar qaldıranlar, nahardan sonra isə qəzetlərdə yalnız son qiymətlər barədə məlumatları və Meksikadan alınan xəbərləri sakitcə oxuyandan sonra sakitcə yuxuya gedənlər çoxdur. Bəs namuslu adam üçün, həqiqi vətənpərvərlər üçün "son qiymətlər" nə deməkdir? Bu o deməkdir ki, çoxları təəssüflənir, peşmançılıq hissləri keçirir və bəzən çaşıb qalır, lakin onlar heç nə ilə uzun müddət və ciddi şəkildə məşğul olmurlar. Onlar gözləyirlər ki, başqa insanlar gəlib bütün bu pisliklәri aradan qaldırsınlar və onları vicdan əzabından xilas etsinlər. Onların əlindən gələn ən böyük iş odur ki, haqq işin qalib gəlməsi üçün öz ucuz səslərini, cılız mənəvi dəstəklərini və arzularını bildirsinlər. Bir nəfər xeyirxah insana xeyirxahlığın 999 himayəçisi düşür. Lakin müəyyən əşyanı müvəqqəti mühafizə edib saxlayan adamla işləməkdənsə, həmin əşyanın həqiqi sahibi ilə işləmək asan olar.

Bütün səsvermələr bir növ oyundur, trik-trak oyununa bənzəyir – onlar bəzi əxlaq çalarları ilə düzgün və yanlış mövqe oyununa oxşayırlar və təbii ki, bu oyunu mərclər müşayiət edir. Bunun səbəbi ondan ibarətdir ki, seçicilər

Satış üçün nəzərdə tutulmayıb

seçkiyə həqiqi maraq göstərmirlər. Mən öz səsimi düzgün hesab etdiyim qərarın lehinə verirəm, lakin məhz həmin tərəfin qalib gəlməsi məndən ötrü həyati maraq kəsb etmir. Mən çoxluğun iradəsinə ümid bəsləyirəm. Buna görə də səsvermənin zəruriliyi heç vaxt ağlabatan mühakimə həddindən kənara çıxmır. Ədalətə səs vermək – hələ ədalət üçün nə isə etmək deyil, bu, yalnız sizin ədalətin qalib gəlməsini arzu etməyinizin insanlar qarşısında zəif bir təzahürüdür. Müdrik adam ədaləti taleyin ümidinə buraxmaz və ədalətin çoxluğun gücü hesabına qalib gəlməsini arzulamaz: çoxluğun əməllərində xeyirxahlıq çox cüzi olur. Nəhayət, çoxluq köləliyin ləğv edilməsinin lehinə səs verirsə, bu, ya ona görə baş verir ki, onlar köləliyə qarşı laqeyddirlər, ya da ona görə ki, köləlikdən artıq əsər-əlamət qalmayacaq və buna görə də onu səsvermə yolu ilə ləğv etmək mümkün olacaqdır. Bu halda yeganə kölələr – yalnız köləliyin ləğv edilməsinin lehinə səs verənlərin özləri olacaqlar. Köləliyin ləğv edilməsini yalnız o şəxsin səsi sürətləndirə bilər ki, həmin şəxs bu yolla öz azadlığını müdafiə etsin.

Eşitdiyimə görə Baltimorda, ya haradasa başqa bir yerdə prezidentliyə namizəd seçilməsi üçün qurultay keçiriləcəkdir və həmin konfransda əsasən redaktorlar və peşəkar siyasətçilər iştirak edəcəklər. Görəsən, özünü müstəqil, ağıllı və hörmətli hesab edən insan üçün bu siyasətçilərin qəbul etdiyi qərarın nə əhəmiyyəti olacaq? Nə üçün bu cür insan heç nəyə məhəl qoymadan ağlın və şərəfin üstünlüklərindən istifadə etmir? Yəni doğrudanmı biz müstəqil səsləri saymaq iqtidarında deyilik? Bu ölkədə konfranslara getməyən adamlar azdırmı? Amma mən görürəm ki, sözdə hörmətli şəxs hesab edilən adam onların təsiri altında öz mövqeyini dəyişmiş və öz ölkəsinə inamı itirmişdir, hərçənd məhz ölkənin bu cür adama inamı itirməsi üçün daha çox əsas var. Bu şəxs eyni qayda ilə yeganə perspektivli namizəd saydığı bir namizədi qəbul etmiş və bununla da sübut etmişdir ki, o özü hər hansı demaqoqiyanın hədəfi kimi perspektivlidir. Artıq onun səsi hər hansı prinsipsiz əcnəbinin və ya satın alınmış hindunun səsindən o qədər də yaxşı deyil. Əcəba, bəs *kişi* olan və mənim qonşum demişkən, nə yolundan döndərilə, nə də pul ilə ələ gətirilə biləcəyi adamlar haradadırlar?! Bizim statistika əhalinin sayının çox böyük olmasını bildirəndə yanılır. Əslində bu ölkədə hər min kvadrat milə neçə *kişi* düşür? – Olsa-olsa bir nəfər. Bəs nə üçün Amerika elə bir stimul fikirləşib tapmır ki, bu ölkədə *kişilər* doğulsun? Amerikalı cılızlaşaraq sürülərə xas olan təfəkkürün inkişaf etməsi, intellektinin çatışmazlığı və özündən razı Qəribə bir Adama *(Odd Fellow)*[53] çevrilmişdir. Onun dünyaya gəldiyi andan birinci və başlıca fikri ondan ibarətdir ki, ibadətxanaların tam qaydada olmasını yəqin etsin və hələ əyninə qanuni kişi kostyumu geyməmiş dul qadınları və yetim uşaqları dəstəkləmək üçün iyanə yığmağa başlayır. O, sanki onun özünü hörmətlə dəfn edəcəyini söz verən sığorta şirkətinin köməyilə yaşamağa ürək edir.

Satış üçün nəzərdə tutulmayıb

Vacib deyil ki, insan öz ömrünü bütövlükdə ən böyük Şər qüvvənin məhvinə sərf etsin – onun başqa qayğılarla da yaşamağa haqqı var. Amma hər kəsin borcudur ki, Şər qüvvədən heç olmasa uzaqlaşmağa çalışsın, ona yardım göstərməsin. Mən başqa işlərlə məşğul olub başqa şeylər haqqında düşünürəmsə, heç olmasa, buna əmin olmalıyam ki, bu zaman başqasının kürəyində oturmamışam. Oturmuşamsa, gərək oradan düşəm ki, başqası da rahat ola bilsin.

Böyük bir ziddiyyət yaranır. Yurddaşlarımdan bəziləri deyirlər: "Hünəri var hökumət məni kölələrin üsyanını yatırtmağa, yaxud Meksikaya cəbhəyə vuruşmağa göndərsin – ay getdim haa!". Lakin bu adamlardan hər biri ya birbaşa (hökuməti dəstəkləməklə), ya da dolayı yolla (vergi verməklə) öz əvəzinə oraya başqasının göndərilməsinə şərait yaradır. Ədalətsiz savaşda iştirak etməkdən boyun qaçıran əsgəri tərifləyirlər, amma özləri bu savaşı aparan ədalətsiz hökuməti dəstəkləməkdən əl çəkmirlər. Bu şəxslər həmin hakimiyyəti və onun hərəkətlərini yalnız sözdə tanımırlar, bu isə ona oxşayır ki, dövlət öz əməllərindən peşman olaraq özünü qamçılamaq üçün bir adam tutur, lakin bu qamçılama mülayim şəkildə həyata keçirilir, çünki bu hökumət günah işlətməkdən bircə anlığa da olsa, əl çəkə bilmir. Qeyd etməliyik ki, biz asayişin və mülki hökumətinin adı ilə pərdələnərək son nəticədə öz rəzilliyimizi dəstəkləyir, ona hörmət bəsləyirik. Günah əməllərə görə birinci dəfə utanıb qızarandan sonra laqeydlik başlanır, əvvəllər əxlaqa zidd hesab edilən əməllər indi xeyir və şərdən kənarda qalır və buna görə də onlar bizim həyat tərzimiz üçün o qədər də zəruri olmurlar.

Ən böyük yanılmalardan biri – tamahsızlığa və xeyirxahlığa ümid bəsləməkdir. Nəcib insanı çox vaxt vətəni sevməməkdə təqsirləndirə bilərlər. Hökumətin gördüyü tədbirləri pislədiyinə baxmayaraq ona qarşı loyal mövqe tutan və onu dəstəkləyənlər isə (onlar bunu heç şübhəsiz, şüurlu şəkildə edirlər) çox vaxt islahatlar yolunda ən ciddi əngələ çevrilirlər. Bəziləri tələb edir ki, ştatlar İttifaqı buraxsınlar və prezidentin səlahiyyətlərini tanımasınlar. Bəlkə onlar elə özlərini "buraxsınlar", yəni bu şəxslərlə Ştat arasında ittifaqı ləğv etsinlər və Ştatın xəzinəsinə pul ödəməkdən imtina etsinlər? Məgər onların Ştata münasibətdə vəziyyəti Ştatın İttifaqa münasibətdə vəziyyətinin eyni deyilmi? Və məgər Ştatın İttifaqa münasibətdə müqavimətinin və insanların Ştata münasibətdə müqavimətinin səbəbləri eyni deyilmi? İnsan öz fikirlərini gizli saxladığı halda məmnunluq və sevinc tapa bilərmi? İncikliyin doğurduğu fikirlər insanı sevindirə bilərmi? Qonşunuz sizinlə haqq-hesabda sizi bir dollar aldatmışdırsa, siz təkcə bunu başa düşməklə və ya bunu uca səslə deməklə, yaxud pulunuzu qaytarmaq barədə tələblə həmin qonşuya müraciət etməklə razı qalmayacaqsınız; siz öz haqqınızı almaq üçün qəti tədbirlər görəcək və elə edə-

Satış üçün nəzərdə tutulmayıb

cəksiniz ki, sizi bir də aldatmasınlar. Prinsipial olmaq, ədalətin nə demək olduğunu başa düşmək və ona əməl etmək – mahiyyəti və münasibətləri dəyişən məhz bunlardır. Belə hərəkətlər keçmişin qalıqları deyil, onlar həqiqətən inqilabi xarakter daşıyır. Onlar təkcə dövlətləri, kilsələri və ailələri bir-birindən ayırmaqla kifayətlənməyib, təəssüf ki, insanı da parçalayır, onun daxilindəki ilahi və iblisanə cizgiləri bir-birindən ayırır.

Biliriksə ki qanunlarımız ədalətsizdir, nə etməliyik? Burada üç yol var: ya onlara kor-koranə əməl etməli, ya dəyişdirməyə çalışmalı, ya da pozmalıyıq. Bizim hökumət kimi hökumətdə adamlar gözləyirlər ki, çoxluq təşkil etsinlər və sonra qanunları dəyişdirsinlər. Deyirlər ki, şərə qarşı müqavimət daha böyük şərin yaranması ilə nəticələnə bilər. Hökumətə də elə bu lazımdır. Amma ən böyük şər məhz belə mülahizələrdir. *Şərə qarşı mübarizə doğrudan da daha böyük şər yaradırsa, bunun təqsiri hökumətin özündədir.* Böyük şəri yaradan da elə o özüdür. Hökumət niyə islahatlar aparmır? Niyə ağıllı azlığa qulaq asmır? Niyə hökumət heç bir tədbir görmür ki, vətəndaşların onun səhvlərini göstərməyə imkanı olsun. Niyə İsanı çarmıxa çəkir, Koperniki və Lüteri özündən uzaqlaşdırır, Vaşinqtonu və Franklini qiyamçı elan edir? Deyirlər ki, hökumətin siyasəti ilə şüurlu şəkildə razılaşmamaq hüquq pozuntusu deyildir. Belədirsə, bəs nə üçün buna görə tamamilə müəyyən və müvafiq cəza tədbiri nəzərdə tutulmuşdur? Əgər mülkiyyəti olmayan insan bircə dəfə Ştat üçün 9 şillinq qazanmaqdan imtina etsə, onu həbs edəcəklər və bildiyimə görə, onun hansı müddətə həbs ediləcəyi heç bir qanunda müəyyən edilməmişdir. Bu həbsin müddəti həmin şəxsi həbs edənin mülahizəsinə əsasən təyin ediləcəkdir. Lakin əgər bu şəxs Ştatdan 90 dəfə, hər dəfə də 9 şillinq oğurlamış olsa, o, tezliklə azadlığa buraxılacaqdır.

Ədalətsizlik hökumət maşınının işləmə müddətində zəruri olan köhnəlməsinin bir hissəsidirsə nə etmək olar? Aydın məsələdir ki, maşın işləndikcə köhnəlir. Lakin ədalətsizlik təkcə özü üçün işləyən bütöv bir mexanizmə çevrilmişdirsə, onda çox güman ki, düşünəcəksiniz: bu dərdə çarə etmək dərdin özündən pis olmayacaqmı? Əgər bu mexanizm sizin başqalarına münasibətdə ədalətsiz davranmağınızı tələb edirsə, mən həmin mexanizmi vurub sındırmağı məsləhət görərəm. Siz belə maşının işləməsinə, öz həyatınız bahasına da olsa, mane olmalısınız. Hər halda mən öz pislədiyim şər qüvvələrə xidmət etməməliyəm.

Pisliyin aradan qaldırılmasını təmin etmək üçün dövlətin tətbiq etdiyi metodlara gəldikdə isə, mən bu cür metodlar haqqında heç nə eşitməmişəm. Bütün bunlar hədsiz çox vaxt tələb edir, insanın ömrü isə qısadır. Bir də ki, mənim görüləsi başqa işlərim çoxdur. Mən bu dünyaya onu həyat üçün münasib yerə çevirməkdən ötrü gəlməmişəm, mən gəlmişəm ki, yaxşı da olsa, pis də olsa bu dünyada yaşayım. Əlçatmazları əhatə etmək olmaz, lakin insanın hər şeyi edə bilməməsi heç də o demək deyildir ki, pis işləmək olar. Mən Ştatın

Satış üçün nəzərdə tutulmayıb

qubernatoruna və ya qanunverici orqanına ərizələrlə müraciət etmək istəmirəm, axı onlar mənə eyni qaydada müraciət etmirlər, lakin əgər onlar mənim gətirdiyim dəlillərə qulaq asmırlarsa, onda nə etməliyəm? Dövlət bu halda necə hərəkət etmək lazım olduğunu müəyyən etməyib. Bu dövlətin konstitusiyası özü özlüyündə şərdir! Bu ifadə kəskin, inadkar və barışmaz təsir bağışlaya bilər, lakin onun ruhuna xeyirxahlıqla və diqqətlə yanaşmaq, onu layiqincə qiymətləndirmək lazımdır. Hər şey məhz bu yolla yaxşılığa doğru dəyişir – insanın doğulması və ölümü onun bədənini eyni dərəcədə sarsıdır.

Mən çəkinmədən bəyan edirəm: özünü abolisionist[54] hesab edən insan Massaçusets hökumətinə maddi və mənəvi dəstəyindən dərhal imtina etməlidir. Haqqı müdafiə etmək üçün çoxluğun yekdil olacağını gözləməyin və buna qədər ədalətsiz qanuna tabe olmayın. Təkcə Tanrı bizim tərəfimizdə olsa, özgə tərəfdara ehtiyac yoxdur. Üstəlik də, başqalarından daha haqlı olan bir nəfər elə yekdil çoxluq deməkdir.

Amerika hökuməti ilə və ya onun təmsilçisi olan Ştatımızın hökumətiylə mən çox yox, ildə cəmi bircə dəfə, vergi yığılanda üzbəüz görüşürəm. Bu hamımız üçün hökumətlə yeganə məcburi görüşdür. Və hər dəfə görüşəndə o, açıqca deyir: "Məni tanı!". İndiki vəziyyətdə hökuməti xoşlamadığınızı, sevmədiyinizi bildirməyin ən sadə, ən kəsərli, ən zəruri yolu – ondan üz döndərib istədiyini ona verməməkdir. Mənim işim bircə nəfərlə – vergiyığan qonşumladır, o, bu vəzifəni icra etmək üçün hökumət tərəfindən tam təsadüf nəticəsində seçilib, amma mən kağızla yox, konkret olaraq onunla diskussiya aparmalıyam.

O, bir hökumət məmuru və bir insan kimi mənə, yəni hörmət etdiyi qonşusuna necə yanaşmaq barədə düşünməyincə heç vaxt özünün kimliyini anlaya bilməz. O aydınlaşdırmalıdır ki, kimə müraciət edir: tanıdığı nəcib qonşusuna, yoxsa araqarışdıran bir manyaka? Mehriban qonşuluq münasibətlərini saxlamaq üçün o bu maneəni aşmağa, yersiz, qaba sözlərdən və fikirlərdən çəkinməyə çalışmalıdır. Mən isə yaxşı bilirəm ki, sadalaya biləcəyim min, yüz, yaxud on adam – cəmisi on, hətta Massaçusets Ştatımızdan olan bircə halal adam qul saxlamaqdan imtina etsə, bu cəmiyyətdən çıxsa onu qraflığın qazamatına salarlar, amma beləliklə Amerikada köləlik ləğv olunardı. Belə işlərdə, nə qədər əhəmiyyətsiz görünsə də, belə qanun işləyir: bir dəfə görülən iş həmişəlik görülmüşdür. Lakin biz, adətən, öz taleyimizdən şikayətlənməyi üstün tuturuq. İslahatlara xidmət edən qəzetlər çoxdur, amma bircə dənə də adam yoxdur. Massaçusets Ştatı qonşu Karolina Ştatını hiddətlə ittiham edir ki, o, köləliyin davam etməsinə şərait yaradır. Mənim hörmətli qonşum isə bu Ştatın nümayəndələr palatasının üzvü kimi, günlərlə vaxtını həmin palatada insan hüquqları məsələsinin müzakirəsinə həsr edir və bunun müqabilində Karolina Ştatında həbsxanaya düşmək təhlükəsinə məruz qalır[55]. Əgər mənim həmin hörmətli qonşum Karolinada yox, Massaçusets Ştatında həbsxanaya düşsəydi (hərçənd indi Karolina ilə mübahisə obyekti yalnız qaçqın qulların

Satış üçün nəzərdə tutulmayıb

gizlədilməməsi barədə qanun ola bilər) onda Ştatın qanunverici məclisi bu ilin qışında həmin məsələnin müzakirəsini qeyri-müəyyən müddətə təxirə sala bilməzdi.

İnsanları daim ədalətsizcəsinə qazamata salan hökumətdə ədalətli insanın ən yaxşı yeri elə qazamatdır. Bu gün Massaçusets Ştatında onun azad və ən iradəli sakinləri üçün təmin edilə biləcək yeganə münasib yer – bu Ştatın həbsxanalarıdır. Belə sakinlər bu Ştatın qanununa əsasən və özlərinin prinsiplərinə müvafiq olaraq həbsxanaya düşməlidirlər. Qaçqın qul da, meksikalı hərbi əsir də, öz xalqına qarşı zülmə etiraz edən hindu da məhz burada – həbsxanada, təcrid olunmuş, lakin azad və hörmətə layiq bir yerdə rahatlıq tapa bilər. Burada onlar dövlətin əleyhinə çıxanların hər biri ilə qarşılaşa bilərlər. Quldarlıq dövlətində həbsxana – azad insanın ləyaqətli həyat tərzi keçirə biləcəyi yeganə yerdir.

Kim isə düşünə bilər ki, bu halda insan öz nüfuzunu itirəcək, onun səsləri hökumətin qulağına çatmayacaq və bu divarlar arasında saxlananlar daha təhlükəli sayılmayacaqdır. Lakin bu cur düşünənlər yanılırlar, onlar başa düşmürlər ki, ədalətsizliyin nə demək olduğunu öz təcrübəsində azacıq da olsa hiss etmiş insanlar ona qarşı daha inamla və qətiyyətlə vuruşacaqlar. Siz sadəcə, kağız vərəqini, sadəcə, səsinizi verməklə kifayətlənməyin, var qüvvənizlə vuruşun. Azlıq o halda gücsüz olur ki, çoxluqla razılaşsın. Lakin bu azlıq özünün bütün qüvvəsini toplayaraq nəyəsə mane ola bilirsə, o artıq azlıq deyil, məğlubedilməzdir. Dövlət ya bu cür düşünən adamların hamısını həbs etmək, ya da müharibəyə və köləliyə son qoymaq seçimi qarşısında qalarsa o, tərəddüd etməyəcək. Bu il min nəfər vergi verməkdən imtina etsəydi, nə zorakılıq olardı, nə də nahaq qan tökülərdi. "Dinc inqilab" deyilən şey varsa, o, məhz budur. Zorakılığı və nahaq qanı bizim ödədiyimiz vergilər təmin edir. Bəzən vergiyığanlar, yaxud başqa məmurlar deyirlər: "Axı mən nə edə bilərəm?". Onda mən cavab verirəm: "Doğrudan da nəsə etmək istəyirsənsə, istefa ver". Məmur tabe olmaqdan, tutduğu vəzifədən imtina edirsə, deməli, inqilab baş verir. *Lap tutaq ki, qan tökülsün. Bəs yaralı vicdandan axan da qan deyilmi?* Vicdan yarasından tökülən qan insanın mərdliyini, əbədiyyətini əlindən alır, o, həmişəlik ölür. İndi tökülən qan elə bizim yaralı vicdanımızın qanıdır.

Mən bu qənaətə gəlmişəm ki, bu cür qanun pozucusunun əmlakını müsadirə etməkdənsə, onu həbs etmək yaxşıdır, hərçənd hər iki tədbirin məqsədi eynidir, çünki adətən hüququn aliliyinə qarşı mübahisə edənlər və deməli, satqın dövlət üçün çox təhlükəli olanlar mülkiyyət toplamağa çox vaxt sərf etmirlər. Belə insanlara dövlət nisbətən kiçik vəzifələr verir və onların ödəməli olduğu vergi, xüsusən onlar xüsusi işləri öz əlləri ilə görməli olanda, həddən ziyadə olmur. Lakin əgər ümumiyyətlə puldan istifadə etmədən yaşayan bir nəfər tapılsa, dövlət həmin adamdan pul tələb etməyə utanardı. Varlı adam isə onu varlı etmiş quruluşa həmişə satılmış olur (mən burada heç bir təhqiramiz müqayisə aparmaq fikrində deyiləm). Sadə dildə desək, insanın pulu nə

Satış üçün nəzərdə tutulmayıb

qədər çoxdursa, onun xeyir əməlləri bir o qədər azdır, çünki pul insanla onun mənəvi borcu vəzifəsi arasında dayanaraq onu təmin edir; onları almaq isə o qədər də böyük xeyirxahlıq deyil. Pul insanın həll etməli olduğu problemlərin çoxunu aradan qaldırır, lakin pul ilə bərabər çətin, lakin heç də gərəksiz olmayan bir sual qarşıya çıxır: bu pulları nəyə xərcləməli? Buna görə də insanın mənəvi dayağı sarsılır. Vəsait çoxaldıqca, ləyaqətlə yaşamaq imkanları tərs mütənasib qaydada azalır. Varlı insanın öz dövrü üçün görə biləcəyi ən yaxşı iş – onun yoxsul olduğu dövrdə arzuladığı niyyətləri həyata keçirməyə çalışmasıdır. İsa peyğəmbər bu vəziyyət barədə iordaniyalıların sualına necə cavab vermişdi? O demişdi: "Töycü ödənilən sikkəni mənə göstərin" – və bir nəfər öz cibindən bir penni pul çıxartdı. Əgər siz üzərində qeysərin təsviri olan puldan istifadə edirsinizsə, yəni siz dövlət adamısınızsa və qeysərin hakimiyyətinin üstünlüklərindən bəhrələnirsinizsə, onda o tələb edən vaxt onun mülkiyyətinin bir hissəsini ödəyin, qeysərin payını qeysərə, Allahın payını Allaha verin". Amma iordaniyalılar əvvəlkindən müdrik olmadılar, çünki onlar başa düşmək istəmədilər."

Mən qonşularımın ən azadfikirlisi ilə söhbət edəndə görürəm ki, onlar, müəyyən məsələnin vacibliyi və ciddiliyi barədə, ictimai asayişə münasibətləri barədə nə deməklərindən asılı olmayaraq məsələnin mahiyyəti ondan ibarətdir ki, onlar mövcud hökumətin himayəsindən kənarda dolana bilməzlər və öz ailələrinə görə, öz əmlaklarına görə bu hökumətə tabe olmamağın nəticələrindən qorxurlar. Mənə gəldikdə isə mən haçansa dövlətin müdafiəsinə ehtiyacım olacağını güman etmirəm. Lakin mən dövlətin mənə vergi deklarasiyası təqdim etmək hüququnu inkar etsəm, dövlət az bir vaxtda mənim bütün əmlakımı əlimdən alıb satacaq, məni və mənim uşaqlarımı əldən salacaqdır. Bu, çətin məsələdir. İnsanın namuslu və eyni zamanda firavan yaşaması, ətrafdakıların hörmətini qazanması mümkün deyil, bu halda yığdığın əmlakı yenidən itirəcəyinə əminsənsə, həmin əmlakı yığmağa dəyərmi? Bundansa, ya muzdlu işə qəbul olunmaq, ya da azacıq da olsa məhsul yetişdirmək və az vaxtda onu istehlak etmək mümkün olan bir yerdə məskunlaşmaq lazımdır. İnsan müstəqil yaşamalı və yalnız özündən asılı olmalıdır. Onun işləri çox olmamalı, istənilən vaxt işdən çıxarılmağa hazır olmalıdır. İnsan hətta Türkiyədə də varlana bilər, bu şərtlə ki, o, Türkiyə hökumətinin xeyirxah təbəəsi olmalıdır. Konfutsi demişdir: "Dövlət müdrik şəkildə idarə ediləndə yoxsulluq və ehtiyac içində yaşamaq xəcalətdir; dövlət səfeh şəkildə idarə ediləndə isə sərvət və ehtiram sahibi olmaq xəcalətdir". Əgər uzaq cənub limanlarının birində mənim azadlığım təhlükəyə məruz qalanda Massaçusets hökumətinin müdafiəsinin mənə şamil olunmasını istəyirəmsə, bu bir məsələdir, lakin mən öz evimdə sakitcə təsərrüfatla məşğul olmaq istəyirəmsə, onda mən Massaçusets hökumətinə loyallıqdan, mənim mülkiyyətim və həyatım barədə onun hüququndan imtina

Satış üçün nəzərdə tutulmayıb

edə bilərəm. Hər halda bu mənə daha ucuz başa gələr: dövlətə tabe olmaqdansa, ona itaətsizliyə görə cəzalandırılmaq yaxşıdır. Tabe olsaydım özümü heçlik hesab edərdim.

Bir-iki il əvvəl hökumət mənə qəbz verdi ki, kilsədəki ruhaninin hesabına filan qədər pul keçirim. O ruhaninin moizələrinə qulaq asmağa mən yox, atam gedirdi. Dedilər: "Verməsən, həbs olunacaqsan". Mən imtina etdim. Təəssüf ki, başqa birisi həmin məbləği mənim yerimə ödəməyi lazım bildi.

Mən bir şeyi başa düşmürəm: nə üçün məktəb müəllimi keşişin ehtiyaclarını təmin etmək üçün vergi ödəməlidir, nə üçün bunun əksi olmasın; mən dövlət məktəbində müəllim olmamışam, lakin mən sərbəst abunə yolu ilə özüm üçün vəsait yığmışam. Mən başa düşmürəm, nə üçün məktəb vergi barədə öz iddialarını təqdim etmir və kilsə kimi o da dövləti məcbur etmir ki, onun ehtiyaclarını dövlət ödəsin. Dostlarımın xahişi ilə bir bəyanat yazmağa razılıq verdim: "Qoy hamı bilsin: mən, yəni Henri Toro heç vaxt daxil olmadığım heç bir rəsmi təşkilatın üzvü sayılmağı arzu etmirəm". Bu bəyanatı bələdiyyə katibinə verdim və indi də ondadır. Həmin kilsə icmasının üzvü olmaq istəmədiyimi bilən hökumət bir də heç vaxt məndən kilsənin xeyrinə vergi tələb etmədi, hərçənd ki, hamını öz qərarlarına tabe etdirməyə söz vermişdi. Mənim üzv olmadığım bütün cəmiyyətlərin tam siyahısı məndə olsaydı, mən o cəmiyyətlərin hamısının üzvlüyündən imtina edərdim, lakin bu siyahını harada tapmaq mümkün olduğunu bilmirdim.

Mən altı il can vergisi ödəməmişdim. Buna görə bir dəfə məni bir gecəliyə həbs etdilər və orada olarkən kameranın iki və ya üç fut qalınlığında daş divarlarına, bir fut qalınlığında, üzərinə dəmir üzlük çəkilmiş taxta qapıya və işığın qarşısını kəsən dəmir barmaqlığa baxdıqca bu ictimai quruluşun səfehliyinə mat qalmışdım: onlar məni əti, qanı və sümüyü olan bir cəmdək kimi qəbul edib, düşünürlər ki, məni buraya salıb qapını bağlamaq olar. Zənnimcə, onlar elə güman etmişdilər ki, nəhayət, məndən ən yaxşı istifadə üsulunu tapıblar, lakin təəssüf ki, mənim xidmətlərimdən hər hansı başqa üsulla istifadə etmək üçün onların ağlı çatmırdı. Mən fikirləşirdim ki, əgər mənimlə həmvətənlərim arasında həqiqətən daş divar olsaydı, onlar da mənim kimi azad olmaq üçün çox böyük çətinliklər bahasına bu divardan keçməli olardılar. Mən özümü bir an da olsa, məhbus kimi hiss etmirdim, kameranın divarları isə daşın və palçığın hədər yerə sərf edilməsinin nəticəsi idi. Mənə elə gəlirdi ki, bütün həmvətənlərim arasında vergini ödəyən bircə nəfər var və o adam mənəm. Onlar, sadəcə olaraq, mənimlə necə rəftar etmək lazım olduğunu bilmirdilər və özlərini nadanlar kimi aparırdılar. Onların hər bir hədəsində və hər bir tərifində kobud səhvlər vardı, çünki onlar elə düşünürdülər ki, guya mənim ən böyük arzum – bu daş divarın o biri tərəfində olmaqdır. Onlar cidd-cəhdlə mənim fikirlərimi qapamağa çalışırdılar, lakin mənim düşüncələrim heç bir maneə hiss etmirdi. Buna görə də mən gülümsəməkdən özümü saxlaya bilmirdim, axı onlar üçün təhlükəli olan mən özüm deyildim, mənim fikirlərim

Satış üçün nəzərdə tutulmayıb

idi. Onlar mənim fikirlərimə hökm edə bilmədikləri üçün bədənimi cəzalandırmaq qərarına gəlmişdilər: balaca oğlan uşaqları xoşlamadıqları adamın itini incitdikləri kimi. Mən başa düşdüm ki, bu dövlətin ağlı çatışmır, özü üçün cehizlik gümüş qaşıqlar toplayan qarımış qız kimi, bu dövlətin də vaxtı keçib, o, dostlarını düşmənlərindən fərqləndirə bilmir, bundan sonra ona olub-qalan hörmətim də itdi və ona yazığım gəldi. Buna görə də dövlət insanın intellektual və ya mənəvi şüuruna qarşı hər hansı tədbir görmək iqtidarında deyildir, o, insanı yalnız cismən cəzalandıra bilər. Dövlətin ali müdrikliyi və şərəfi yoxdur, onun yalnız fiziki qüvvəsi çoxdur. Lakin mən nəyəsə məcbur edilmək üçün doğulmamışam. Mən özüm istədiyim kimi yaşamaq istəyirəm. Görək kim güclü olacaq! Məgər kütlənin gücü var? O məni – Ali qanuna tabe olan şəxsi yalnız fiziki cəhətdən məhv edə bilər. O istəyir ki, məni də özünə oxşatsın, lakin mən heç vaxt eşitməmişəm ki, kütlə *əsl kişini* bu və ya digər tərzdə yaşamağa məcbur edə bilsin. Ümumiyyətlə, bu cür yaşamaq nəyə lazımdır?

Mən "Ya pul kisəsini ver, ya da canını" deyən hökumətlə üzləşəndə nəyə görə öz pullarımı ona verməyə tələsməliyəm? Bəlkə o, böyük çətinliyə düşüb və nə etməli olduğunu bilmir, lakin mən ona kömək edə bilmərəm. O özü özünə kömək etməyi öyrənməlidir – mənim etdiyim kimi. Buna görə adamlardan pul almaq lazım deyil. Cəmiyyət mexanizminin uğurlu işləməsinə görə mən cavabdeh deyiləm. Mən mühəndis oğlu deyiləm. Aydın məsələdir ki, əgər palıd qozası və şabalıd meyvəsi torpaqda yanaşı düşsə, onlardan heç biri digərinə güzəştə gedə bilmir; onların hər ikisi, öz təbiətinə uyğun olaraq, torpaqda kök salır, böyüyür və çiçəkləyir ona qədər ki, onlardan birisi digərini kölgədə qoyur. Əgər bitki öz təbiətinə müvafiq tərzdə yaşaya bilməsə, məhv olub gedir. İnsan da belədir.

Həbsxanada keçirdiyim gecə məndən ötrü təzə və çox maraqlı oldu. Mən oraya daxil olanda əyinlərində bircə köynək olan məhbuslar qapının yanında boş-boş danışmaqdan və axşam havasından ləzzət alırdılar. Lakin həbsxana nəzarətçisi onlara: "Gedin, uşaqlar, qapını bağlamaq vaxtıdır" – deyən kimi onlar dağılışdılar və mən boş kameralara qayıdan bu adamların addım səslərini eşitdim. Həbsxana nəzarətçisi kamera yoldaşımı mənə "ağıl dəryası və görkəmli şəxsiyyət" kimi təqdim etdi. Kameranın qapısını bağlayanda bu "ağıl dəryası" mənim şlyapamı haraya asmalı və özümün harada yerləşməli olduğumu göstərdi.

Öyrəndim ki, kameraların divarlarını hər ay ağardırlar. Bizim kamera həddən artıq sadə mebellə təchiz olunmuş, bütün şəhərdə bəlkə də ən təmiz və səliqəli yer idi. Təbii ki, kamera yoldaşım mənim haralı olmağımı və buraya nəyə görə düşdüyümü bilmək istədi. Mən bunları danışandan sonra öz növbəmdə onun buraya necə düşməsini soruşdum. Təbii ki, onun abırlı və namuslu adam olmasına şübhə etmirdim, çünki mənim hər işim qaydasında idi və inanırdım ki, o da belədir. Kamera yoldaşım dedi: "Nədənsə onlar belə hesab

Satış üçün nəzərdə tutulmayıb

edirlər ki, anbarı mən yandırmışam, amma bunu mən etməmişəm". Başa düşdüm ki, deyəsən, bu adam sərxoş halda anbarda yatmış, orada çubuq çəkmiş, beləliklə də anbar yanmışdır. O burada ağıllı adam kimi ad çıxarmışdır və artıq üç aya yaxındır ki, məhkəmə gözləyir. Bundan sonra da nə qədər desəniz, gözləməyə hazırdır, çünki o, hər şeyə tez vərdiş edən adamdır və hər şeyi ona hazır təqdim etmələrindən, onunla yaxşı davranmalarından tam razıdır.

O, bir pəncərənin qabağında əyləşmişdi, mən isə o biri pəncərənin qabağında. Fikirləşirdim ki, əgər burada çox qalmalı olsam, mənim əsas məşğuliyyətim – pəncərəyə baxmaq olacaq. Tezliklə mən kamerada qalmış bütün yazıları oxudum, öyrəndim ki, əvvəllər məhbuslar kameranın barmaqlığını mişarla doğrayaraq buradan qaçmışlar, bu kameranın əvvəlki sakinləri barədə söhbətlər eşitdim və müəyyən etdim ki, buranın hətta öz tarixi, heç vaxt həbsxana divarlarından kənara çıxmayan özünəməxsus qeybətləri və kübar xronikası da varmış. Bəlkə də bu həbsxana şəhərdə yeganə evdir ki, burada qoşulan şeirlər dildən-dilə düşür, amma çap edilmir. Haçansa qaçış hazırlamaqda təqsirləndirilən cavanların qoşduqları şeirlərin kifayət qədər uzun siyahısını mənə göstərdilər. Onlar bu şeirləri oxumaqla öz acıqlarını çıxırmış.

Mən kamera yoldaşımın bildiklərinin hamısını ondan soruşub öyrəndim. Qorxurdum ki, onu bir daha görməyim. Nəhayət, o, mənim yatağımı göstərdi və tapşırdı ki, yatanda lampanı söndürüm.

Bütün bunlar – həbsxanada keçirdiyim bir gecə uzaq bir ölkəyə məndən ötrü bir qədər gözlənilməz olan səyahəti xatırladırdı. Mənə elə gəlirdi ki, əvvəllər heç vaxt nə şəhər saatının zəng səsini eşitmişəm, nə də axşamlar qəsəbədə əmələ gələn səsləri; axı bizim pəncərə barmaqlığın bu biri tərəfinə açılırdı. Doğma qəsəbə mənə Orta əsrlər dövründə olduğu kimi göründü, bizim Konkord isə sanki Reynə çevrilmişdi – gözlərimin qarşısından cəngavər obrazları və qəsrlər gəlib keçirdi, küçədən eşidilən səslər isə sanki köhnə bürgerlərin səsi idi. Mən, istər-istəməz, qonşuluqda, qəsəbə mehmanxanasının mətbəxində baş verənlərin müşahidəçisi və şahidi oldum. Bunlar məndən ötrü tamamilə yeni və qeyri-adi təəssüratlar idi. Mən doğma şəhərciyimə daha dərindən və daha diqqətlə baxırdım. İndi mən bütünlüklə bu şəhərciyin içində idim. Əvvəllər heç vaxt bu müəssisələri görməmişdim. Şəhərcik qraflığın mərkəzi olduğuna görə məxsusi şəhərciklərdən biri idi. Mən onun sakinlərinin necə insanlar olduğunu hələ indi-indi anlamağa başlamışdım.

Bizim səhər yeməyimizi qapıdakı pəncərə yerindən, düzbucaqlı şəklində balaca tənəkə fincanlarda verdilər. İç-içə qoyulan bu fincanlarda qara çörək və bir pinta kakao vardı. Qabları götürəndə mən, təcrübəsizliyim üzündən, çörəyin qalan hissəsini qaytarmağa hazırlaşırdım, lakin kamera yoldaşım vaxtında onu qapıb götürdü və məni başa saldı ki, çörəyi lanç və nahar üçün saxlamalıyam. Az sonra kamera yoldaşım yaxınlıqdakı talaya, ot biçməyə getdi. O, hər

Satış üçün nəzərdə tutulmayıb

gün oraya gedirdi və ən tezi günorta vaxtı qayıtmalı idi. Buna görə də o, mənimlə xudahafizləşdi və dedi ki, məni bir də görəcəyini güman etmir.

Mən həbsxanadan çıxanda (kimsə bu işə qarışmış və mənim əvəzimə həmin vergini ödəmişdi[56]) heç ağlıma da gəlməzdi ki, bu adi dünyamızda nə qədər böyük dəyişikliklər baş vermişdir. Bu ona oxşayırdı ki, birisi cavan bir oğlanla ayrı düşmüş, sonra isə onu artıq, əli-ayağı əsən, saçları ağarmış qoca vəziyyətində görmüşdür. Hərçənd, mənim fikrimcə, şəhərdə, dövlətdə və ölkədə baş vermiş dəyişikliklər zamanın axarının nəticəsi olan dəyişikliklərdən daha ciddi idi. İndi mən hər şeyi daha aydın görməyə başlamışdım. Məsələn, aralarında yaşadığım insanlar xeyirxah qonşular və dostlar hesab edilə bilər, lakin onların dostluğu yalnız bir mövsüm davam edir. Mən onu da gördüm ki, bu insanlar ədalətli hərəkət etməyə o qədər də çalışmırlar və onlar özlərinin qərəzli fikirləri və xurafatlı mühakimələri ilə mənə çinlilər və ya malaylar kimi yabançı xalq təsiri bağışlayırdı. Mən gördüm ki, onlar mülkiyyət xatirinə insanpərvərliyi asanlıqla qurban verirlər və hər şeydən əlavə, onlar o qədər də nəcib insanlar deyil, çünki oğru onlarla necə rəftar edirsə bu insanlar da oğru ilə o cür rəftar edirdilər. Lakin buna baxmayaraq, onlar ümid edirlər ki, bir neçə zahiri ayinlərə əməl etməklə, bir neçə dua oxumaqla, bəzən də səhv istiqamətdə düzgün həyat yolu seçməklə öz canlarını qurtaracaqlar.

Əvvəllər bizim qəsəbədə belə bir adət vardı: başqalarına borcu olan yoxsul adam həbsxanadan çıxanda tanışları ondan "Vəziyyət necədir?" – deyə soruşur və öz barmaqları ilə həbsxana kamerasının barmaqlığını göstərirdilər. Qonşularım məni bu cür qarşılamadılar, amma mənə və bir-birlərinə elə baxırdılar ki, elə bil, mən uzaq bir səyahətdən qayıtmışdım. Yeri gəlmişkən, məni, ayaqqabımı təmir etdirmək üçün pinəçinin yanına gedəndə tutub həbs etmişdilər. Ertəsi gün məni həbsxanadan buraxanda ilk növbədə bu işimi başa çatdırmağa tələsdim və təmir olunmuş ayaqqabılarımı geyib, qaragilə yığmağa gedən adamlara qoşuldum: onlar gözləyirdilər ki, mən onlara bələdçilik edim. Artıq yarım saatdan sonra (atla gedirdik) mən şəhərcikdən iki mil məsafədə yerləşən ən hündür təpələrin birində qaragilə kollarının arasında idim. O təpədən baxanda bütün Ştat görünürdü. "Mənim zindanlarım"[57] əhvalatı burada bitir.

Yol vergisi verməkdən mən heç vaxt imtina etmirəm, çünki pis təbəə lakin yaxşı qonşu olmaq istəyirəm; məktəbin xeyrinə vergiyə gəlincə, mən indi məhz yurddaşlarımın tərbiyə payını verməklə məşğulam. Lakin mən can vergisini verməkdən imtina edirəm, çünki vergi deklarasiyasında onun nəyə xərclənəcəyi göstərilmir. Mən, sadəcə olaraq, dövlətə loyallıqdan imtina etmək və həqiqətən, onun işlərindən uzaq olmaq istəyirəm. Nə qədər istəsəm də, mən öz dollarımın muzdlu qatilə veriləcəyi və ya kiməsə atəş açmaq məqsədilə həmin pula muşket alınacağı məqama qədər keçdiyi yolu izləyə bilmirəm, çünki dollar anonimdir. Lakin mən öz itaətsizliyimin təsirini izləyə bilirəm. Əslində mən özüməməxsus bir tərzdə bu dövlətə sakitcə müharibə elan edirəm və

Satış üçün nəzərdə tutulmayıb

ümidvaram ki, bunun bir üstünlüyü olmasa da, müəyyən qədər faydası olacaq. Əgər məndən tələb edilən vergini başqaları ödəyirsə və onlar bunu bu dövlətə rəğbət bəslədiklərinə görə edirsə, onlar əslində lazım olandan daha çox iş görürlər, çünki onlar bununla dövlətin tələb etdiyindən də artıq dərəcədə ədalətsizliyə şərait yaradırlar. Əgər onlar vergitutma qaydalarını düzgün başa düşmədiklərinə görə, yaxud öz mülkiyyətlərini itirəcəklərindən və ya həbsxanaya düşəcəklərindən qorxaraq vergi ödəyirlərsə, demək, onlar kifayət qədər müdrik mühakimə yürütməmiş və bununla da öz hisslərinin ictimai rəylə çulğaşmasına imkan yaratmışlar. İndi mənim mövqeyim belədir. Lakin bu heç də o demək deyildir ki, insan öz mövqeyini heç vaxt dəyişməməlidir, – sadəcə olaraq, fikir vermək lazımdır ki, insanın mövqeyi onun tərsliyi, inadkarlığı ilə və ya ətrafdakıların fikrinə qərəzli münasibətlə müəyyənləşməsin. İnsan yalnız özünə və konkret məqama münasib olan hərəkətlər etməlidir.

Hərdən fikirləşirəm: axı bu insanlar da yaxşılıq etmək istəyirlər, sadəcə olaraq, onlar nadandırlar. Əgər onlar hansı hərəkətin daha yaxşı olduğunu bilsəydilər, onlar, yəqin ki, daha yaxşı hərəkət edərdilər. Axı nə üçün insan öz yaxın adamları ilə onların istəmədikləri kimi rəftar edərək onlara əziyyət verməlidir? Lakin digər tərəfdən, mən başa düşürəm ki, bu, mənim də onlar kimi hərəkət etməyim və ya başqalarına müxtəlif əziyyətlər verməyim üçün əsas deyil. İndi yenə öz-özümə deyirəm: əgər milyonlarla insan, heç bir pis niyyət güdmədən, heç bir şəxsi maraqları olmadığı halda sizin bir neçə şillinqinizə göz dikilməsinin qanuniliyini dəstəkləyirsə və onlar bu qaydanı ləğv etmək və ya dəyişmək üçün Konstitusiyanın onlara verdiyi imkanlardan istifadə etmirlərsə, bununla da sizi milyonlarla başqa insanlarla mübahisə etmək imkanından məhrum edirlərsə, siz nə üçün bu kobud qüvvə qarşısında acizlik göstərməlisiniz? Siz soyuğa və ya aclığa, küləyə və ya dalğalara itaətsizlik göstərmirsiniz – bunlara oxşar minlərlə başqa təbii hadisələri də siz sakitcə qəbul edirsiniz. Siz başınızı odun içinə soxmazsınız. Çünki mənim yuxarıda haqqında danışdıqlarımla müqayisədə bunlar, kobud zorakılığın təzahürü deyil, bunlar təbii şeylərdir və bütün bunlara qarşı laqeyd olmayan, milyonlarla bu cür insanlara kobud və cansız əşyalar kimi yanaşmayan bir insan olmaqla, mən, görürəm ki, biz ilk növbədə Yaradana və ikincisi, özümüzə müraciət etməliyik. Lakin əgər mən özüm başımı odun içinə soxuramsa, onda nə oddan narazı olmağa haqqım var, nə də Yaradandan – bu halda mən yalnız özümdən inciməliyəm. Əgər mən insanları öz sərt tələblərimə və arzularıma uyğun şəkildə deyil, olduqları kimi qəbul etmək lazım olduğuna əminəmsə, onda mən xeyirxah müsəlman və fatalist kimi hərəkət edərək, nə varsa ona qane olmalıyam və deməliyəm ki, Allah belə istəyib. Əlbəttə, itaətsizliyin nəticələri müxtəlif ola bilər və mən Orfey olmadığım üçün onun kimi hərəkət edərək, qayaların, ağacların və heyvanların təbiətini dəyişə bilmərəm.

Mən heç kəslə və heç bir xalqla mübahisə etmək istəmirəm. Mən öz qonşularımın arasında incə fərqlər qoymaq və ya özümü onlardan yuxarı göstərmək

Satış üçün nəzərdə tutulmayıb

üçün təfsilata varmaq istəmirəm. Hətta deyə bilərəm ki, mən ölkənin qanunlarına tabe olmağa bəhanə axtarıram. Mən qanunlara tabe olmağa həddən artıq hazıram. Doğrudan da belə güman etməyə mənim əsasım var. Mən hər il vergi toplayıcısı ilə növbəti dəfə görüşəndə Federal və Ştat hökumətlərinin hərəkətlərini, xalqın ruhunu yenidən araşdırmaq və qanunlara tabe olmaq üçün əsaslar axtarıb tapmağa hazıram.

> Vətənə oğul kimi hörmət bəsləmək lazımdır.
> Lakin mən bu müqəddəs borcumu haçansa yerinə yetirməsəm,
> qoy bu, mənim şəxsi səmərə axtarmağımın nəticəsi yox,
> yalnız mənim qəlbimin, vicdanımın tələbi,
> mənim daxili inamımın nəticəsi olsun. [58]

Mən inanıram ki, yaxın vaxtlarda dövlət mənim topladığım bütün sərvəti qəbul etməyə qadir olacaq, lakin bunun müqabilində mən öz soydaşlarımla müqayisədə böyük vətənpərvərə çevrilməyəcəm. Konstitusiyanın mövcud nöqsanlarına baxmayaraq, adi insanların əksəriyyətinin fikrincə, bu Konstitusiya kifayət qədər yaxşı sənəddir; qanuna və məhkəməyə çox ehtiram bəslənilir, hətta indiki Amerika hökuməti də, Ştat hökuməti də o qədər yaxşı hökumətlərdir ki, belələrinə az-az rast gəlmək olar və bütün bunlara görə Tanrıya şükür etmək lazımdır. Lakin onlara [həmin hökumətlərə] bir qədər yüksək mövqedən baxanda onlar mənim təsvir etdiyim kimidir, onlara ən aşağı mövqedən baxanda isə kim deyə bilər ki, onlar nədir və ümumiyyətlə, onlara baxmağa dəyərmi, onların barəsində düşünməyə dəyərmi? Lakin hökumət məni çox maraqlandırmır və mən ona heç fikir də sərf etməyəcəm. Mən bu dünyada çox nadir hallarda hökumətin hakimiyyəti altında yaşamışam. Azadfikirli baxışları ilə təsəvvürləri müstəqil olan insan əhəmiyyətsiz şeylərə vaxtını çox sərf etməz, uzağı görməyən hökmdarlar və islahatçılar bu cür insana böyük təsir göstərə bilməzlər.

Bilirəm ki, insanların əksəriyyəti mənim kimi fikirləşmir, peşəkar həyatını buna oxşar və ya buna yaxın məsələlərin öyrənilməsinə həsr etmiş insanlar isə mənimlə heç razılaşmayacaqlar. Dövlət xadimləri və qanunvericilər tamamilə müvafiq təşkilatın daxilində olduqlarına baxmayaraq, həmin təşkilatı aydın və dürüst görə bilmirlər. Onlar inkişaf etməkdə olan cəmiyyətdən dəm vururlar, lakin özləri cəmiyyətin inkişaf etməsi üçün heç bir imkan yaratmırlar. Onların müəyyən qədər təcrübəsi və hissetmə qabiliyyəti ola bilər və şübhə yoxdur ki, onlar nəcib, qəribə və hətta faydalı sistemlər fikirləşib tapıblar və buna görə biz onlara ürəkdən minnətdarıq, lakin onların bütün müdrikliyi və faydası müəyyən və bəzən də qeyri-müəyyən hədlər daxilində olur, onlar istəyərdilər ki, dünyanın siyasətlə deyil, ağlabatan zərurətlə idarə edilməsini unutsunlar. Uebster hökumətə münasibətdə ardıcıl mövqe tutmur, buna görə də hökumət barədə inandırıcı danışa bilmir. Onun sözləri mövcud hökumətdə ciddi islahatlar aparmaq iqtidarında olmayan, lakin bu barədə düşünən qanunvericilər

Satış üçün nəzərdə tutulmayıb

üçün müdriklik təsiri bağışladığı halda, əbədi qanunlara riayət edənlər üçün bu sözlər həddən artıq dayazdır. Mən elə adamlar tanıyıram ki, onların bu mövzuda ağıllı və müdrik fikirləri Uebsterin zəkasının həddini və dərinliyini az bir vaxtda üzə çıxara bilərdi. Lakin islahatçıların əksəriyyətinin səviyyəsinin aşağı və ümumiyyətlə, bütün siyasətçilərin yüngül müdrikliyi və gəlişigözəl sözləri ilə müqayisədə Uebsterin sözləri yeganə ağıllı və qiymətli sözlərdir. Buna görə Ulu Tanrıya şükür etməliyik ki, bu insan var. Başqaları ilə müqayisədə Uebster həmişə güclüdür, orijinaldır və bundan əlavə, praktikdir. Buna baxmayaraq, onun ən başlıca keyfiyyəti müdriklik deyil, ağıllı mühakimə yürütmək bacarığıdır. Bizim qanunvericilərin dediyi həqiqət Əsl Həqiqət deyil. Əsl Həqiqət – yalnız müəyyən dərəcədə məntiqilik və ya məntiqi məqsədəuyğunluqdur. Həqiqət həmişə özü ilə harmoniyada olur və bəzən düzgün olmayan hərəkətlərə də gətirib çıxara biləcək ədalətin müəyyən edilməsinin qeydinə qalmır. Uebsteri Konstitusiyanın müdafiəçisi adlandıranlar haqlıdırlar. O, zərbələr vurmur yalnız müdafiə edirdi. O, davamçıdır, lakin lider deyil. 1787-ci ilin adamları onun idealları deyil. O deyir: "Mən heç vaxt müxtəlif ştatların ittifaqa daxil olmaları üçün ilkin sazişi pozmağa cəhd göstərməmişəm və heç vaxt bu cür cəhdlərə rəğbət bəsləməmişəm". Lakin bütün bunlara baxmayaraq, Konstitusiyanın köləliyə tətbiq etdiyi sanksiya barədə mühakimə yürüdərkən o deyir: "Bir halda ki, bu müddəa ilkin müqavilənin bir hissəsi olub, qoy qalsın". Lakin onun məxsusi intuisiyasına və istedadına çox da məftun olmadan, qeyd etmək lazımdır ki, o, müəyyən hadisəni onun siyasi cəhətlərindən kənarda nəzərdən keçirə bilmir, hadisəni dərrakə baxımından görə bilmir, o, heç olmasa ayrıca bir fərd kimi, məsələn, belə bir suala açıq cavab verməyə risk edə bilmir: bu gün Amerikada köləliyə münasibət necə olmalıdır? Yaxud bu suala: sosial borcun yeni və yeganə prinsipi nəyə əsaslanmalıdır? O deyir: "Köləliyin mövcud olduğu ştatların hökumətləri onu reqlamentləşdirmək üçün öz seçiciləri qarşısında məsuliyyət hissini rəhbər tuturlar. Bunlar insanın öz dərrakəsi, mülkiyyət barədə ümumi qanunlar, humanistlik və Tanrının qarşısında ədalətli olmaq prinsipləridir. Haradasa yaranmış, insaniyyət hissinə və ya başqa bir səbəbə əsaslanan təşkilatlar bu məsələyə qarışmamalıdırlar. Onlar heç vaxt məndən heç bir dəstək almayıblar və əslində bunu heç istəmirlər".

Daha duru həqiqət bulaqlarının yerini bilməyənlər, onun axın və istiqamətini izləməyənlər ehtiyatla Bibliyaya və Konstitusiyaya söykənərək məhz oradakı bulaqdan pərəstişlə, mütiliklə su içirlər. Lakin həqiqətin bu sututarlara haradan sızıb gəldiyini görənlər yenidən yola çıxaraq qaynaqların kökünü ziyarət etməyə gedirlər.

Amerikada qanunvericilik istedadına malik olan insan hələ peyda olmayıb. Dünya tarixində belə adamlar az-az olur. Minlərlə natiq, siyasətçi və sadəcə olaraq bəlağətli danışmağı bacaran adamlar var. Lakin müasir dövrün ən ağrılı məsələlərini müəyyənləşdirməyə qabil olan şəxs hələ dilə gəlməyib. Biz bəlağətli danışanları bu bəlağətin açıqlaya biləcəyi həqiqətə görə və ya onun

Satış üçün nəzərdə tutulmayıb

ruhlandıra biləcəyi qəhrəmanlığa görə deyil, məhz bəlağət xatirinə xoşlayırıq. Bizim qanunvericilər azad ticarətin və azadlığın, razılığın və mənəviyyatın xalq üçün nə qədər dəyərli olduğunu hələ mənimsəməyiblər. Onların vergiqoyma və maliyyə, ticarət, sənaye və kənd təsərrüfatı ilə bağlı nisbətən sadə məsələləri həll etməyə qabiliyyəti və istedadı çatmır. Biz Konqres qanunvericilərinin dediklərinə tarixi təcrübənin vaxtında etdiyi düzəlişləri və xalqların təsirli etirazını nəzərə almadan qulaq asmış olsaydıq, Amerika başqa millətlər arasında öz yerini uzun müddət qoruyub saxlaya bilməzdi. İncil min səkkiz yüz il əvvəl yazılıb; ola bilsin ki, mən yanılıram, bəs hanı o qanunverici ki, İncilin elmə və qanunvericiliyə saldığı işıqdan bəhrələnmək dərəcəsində müdrikliyi və əməli bacarığı olsun?

Tutalım ki, hətta mənim məmnuniyyətlə tabe olacağım, mənə nisbətən daha yaxşı bilən və daha yaxşı hərəkət edə biləcək bir hökm var, lakin bu hökumətin idarə etdiyi adamları tərəfindən dəstəyi olmasa onda onun gücü əsla kifayət deyil. Hökumətin mənim özümə və əmlakıma yalnız o zaman haqqı çatar ki, mən bunları özüm ona verim. Mütləq monarxiyadan məhdud monarxiyaya, oradan da demokratiyaya doğru tərəqqi bizi fərdə əsl hörmətə yaxınlaşdırır. Hətta çin filosofu da[59] anlayırdı ki, şəxsiyyət imperiyanın əsasıdır. Məgər bizə bəlli olan demokratiya son həddirmi? İnsan haqlarının tanınmasına və sahmanlanmasına doğru yeni addım atmaq olmazmı? Dövlət şəxsiyyətin yüksəkliyini və müstəqilliyini özünün bütün hakimiyyət və nüfuzunun qaynağı olduğunu tanımadıqca və onunla buna uyğun davranmadıqca azad və müdrik ola bilməz.

Mən bütün insanlarla ədalətli rəftar edən və şəxsiyyətə özünün ən yaxın adamı kimi hörmətlə yanaşan, kimlərinsə ondan ayrı yaşamasından və onun işlərində iştirak etməməsindən, lakin eyni zamanda yaxın adam və soydaş kimi özlərinin bütün vəzifələrini vicdanla yerinə yetirməsindən çəkinməyən bir dövləti təsəvvür etməkdən məmnuniyyət hiss edirəm. Bu cür bəhər yetirən və onun yetişməsini səbirlə gözləyən dövlət daha mükəmməl və heyrətamiz bir dövlət üçün yol açа bilər. Mən də belə bir dövləti təsəvvür edə bilərəm, lakin onu heç yerdə görmürəm, o, təkcə mənim xəyalımda yaşayır.

Mənbə: Henry David Thoreau, Walden and Other Writings (Brooks Atkinson, ed., 1937), 635-63.

Satış üçün nəzərdə tutulmayıb

20. Şəxsi Azadlıq Haqqında Massaçusets Aktı (1855)

Konstitusiyanın IV maddəsinin ikinci bölməsinə əsasən tələb olunurdu ki, ştatlar qaçqın qulları birbirinə təhvil versinlər, lakin köləliyin ləğv edilməsi uğrunda hərəkat gücləndikcə ştatlar nəinki qaçqın qulları təhvil verməkdən imtina etməyə, hətta qulları öz sahiblərindən müdafiə etməyə başladılar. 1850-ci ildə qəbul edilmiş və əsas məqsədi Şimal ilə Cənub arasındakı gərginliyi azaltmaqdan ibarət olan "Kompromislər"ə müvafiq olaraq, Konqres qaçqın qullar barəsində yeni, daha sərt qanun qəbul etdi. Bu qanun quldarları o qədər açıq-aşkar dəstəkləyirdi ki, abolisionistlər üçün həmin qanun əsas hədəfə çevrilmişdi.

Şimal ştatlarının bir neçəsi yeni qanuna cavab olaraq köləliyi dəstəkləyən federal qanunların tələblərinə qadağa qoyan "Şəxsi Azadlıq haqqında Aktlar" qəbul etdi. Bu aktlar başqa məsələlərlə yanaşı, şəxsiyyətin toxunulmazlığı haqqında qanunun *(Habeas Corpus Act)* tətbiq edilməsinə, andlılar məhkəməsinə müraciət etmək və qaçqınları nəinki müdafiə edən, həmçinin məhkəmə araşdırmasının bahalı olması səbəbindən quldarların məhkəmədə işi udmaq şanslarını çətinləşdirən digər hüquqi tədbirlər görülməsinə zəmanət verirdi.

"Şəxsi Azadlıq haqqında Massaçusets Aktı" 1854-cü ildə Entoni Börns *(Anthony Burns)* adlı qulun tutulub təhvil verilməsi ilə əlaqədar olaraq cəmiyyətdə yaranmış etiraz dalğasında qəbul edilmişdir. Qəzəblənmiş abolisionistlər kütləsi Börnsü xilas etməyə cəhd göstərirdi. Bu hadisələr zamanı bir nəfər keşikçi də öldürülmüşdü, Börnsün özünü isə güclü federal mühafizə dəstəsinin müşayiəti ilə geriyə, Virciniyaya yatab etmişdilər. Təxminən elə həmin vaxtda Konqres tərəfindən qəbul edilmiş "Kanzas və Nebraska Aktı"nda, mahiyyət etibarilə, cənubluları öz qullarını əvvəllər quldarlıqdan azad ərazi sayılan Luiziana ərazisinə gətirməyə açıq dəvət idi. Həmin ərazi əvvəllər quldarlıqdan azad ərazi hesab edilirdi.

1855-ci ildə Massaçusets Qanunverici Məclisi "Massaçusets Birliyi Xalqının Hüquq və Azadlıqlarının Müdafiəsi haqqında Akt" kimi ötkəm bir

Satış üçün nəzərdə tutulmayıb

ada malik olan qanun qəbul etdi. Bu qanunun əsas müddəaları qaçqın qulların geri qaytarılmasına şərait yaratmış dövlət məmurlarını vəzifədən kənarlaşdırmağa çağıran bölmələrdə ifadə edilmişdi. Şəxsi azadlıq haqqında bu qanunlar şimallıların əsas hissəsinin quldarlığa qarşı get-gedə artan mübarizəsini əks etdirir, Cənubda isə lənətlənirdi.

Əlavə məlumat üçün oxuyun**:** J.H. and W.H. Pease, The Fugitive Slave Law and Anthony Burns (1975); Paul Finkelman, An Imperfect Union: Slavery, Federalism, and Comity (1981); and Thomas D. Morris, Free Men All: The Personal Liberty Laws of the North, 1780-1861 (1974).

ŞƏXSİ AZADLIQ HAQQINDA MASSAÇUSETS AKTI

… 2-ci bölmə. "Yenidən nəzərdən keçirilmiş əsasnamənin" 111-ci maddəsinin mənası ondan ibarətdir ki, həbsxanada və ya nəzarət altında saxlanılan hər bir şəxsin, bu fəslin ikinci bölməsində göstərilən hallar müstəsna olmaqla, *Habeas Corpus* barədə sərəncam almaq hüququ vardır.

3-cü bölmə. *Habeas Corpus* barədə sərəncam ali məhkəmə orqanı, ümumi yurisdiksiya məhkəməsi və ya hər bir şəhərin istənilən ədliyyə məhkəməsi, və ya polis məhkəməsi, yuxarıda sadalanan məhkəmələrdən birinin hər hansı hakimi, və ya qəyyumluq və ya vərəsəlik işləri üzrə hər hansı hakim, və ya əgər hər hansı barışdırıcı hakim *(justice of the peace)* (yurisdiksiyası şəxsin həbsxanada və ya nəzarət altında saxlanıldığı yerdən 5 mil məsafədə yerləşən əraziyə şamil edilirsə) tərəfindən verilə bilər; bu sərəncam Ali Məhkəmə orqanına və ya onun hakimlərindən birinə təqdim edilməli və həmin anda məhkəmənin sessiyasının keçirilməsindən və məhkəmənin məzuniyyətdə olmasından asılı olmayaraq, işə baxılmalıdır…

6-cı bölmə. Əgər hər hansı iddiaçı, adına toxunulmazlıq barədə sənəd verilmiş şəxsin nəzarət altında saxlanmasını məhkəmə qaydasında tələb edərsə, bu halda iddiaçı istinad etdiyi faktları yazılı şəkildə təqdim etməlidir; bu halda nə qaçqın qula sahiblik hüququna iddia edən iddiaçı, nə qaçqın qulun məcburi əməyində marağı olan hər hansı başqa şəxs, nə də

Satış üçün nəzərdə tutulmayıb

qaçqın qulun özü məhkəmədə şahidlik edə bilər. Məhkəmə həmçinin, qaçqının etiraflarını və ya onun özünə qarşı verdiyi ifadələri də qəbul etməyəcəkdir. Nəzərdən keçirilən məsələlərin hər biri üzrə sübut etmək vəzifəsi iddiaçının üzərinə düşəcək, ehtimal edilən faktlar isə ən azı iki nəfər etibarlı şahid tərəfindən və ya ümumi hüquqda göstərilən qaydalara müvafiq olaraq hər hansı bərabər qiymətli sübutlar vasitəsilə təsdiq edilməlidir; qaçqın qulun və ya onun əcdadlarının həqiqətən kölə olması barədə iddiaçının and içdikdən sonra təqdim etdiyi hər hansı birtərəfli bəyanatlar və yazılı ifadələr, bu cür sahibliyin qanuniliyini göstərən sübutlar olmadıqda, qəbul edilməyəcəkdir.

7-ci bölmə. Əgər birisi "məcburi əmək obyekti" və "iddiaçıdan gizlənən şəxs" anlayışlarına Birləşmiş Ştatların Konstitusiyasında verilmiş təriflər anlamında "məcburi əmək obyekti" olmayan və ya iddiaçıdan "gizlənməyən" hər hansı şəxsi bu Birliyin hüdudlarından kənara çıxarmaq istəyərsə, yaxud onun Birliyin hüdudlarından kənara çıxarılmasına kömək edərsə və yaxud bu niyyətlərlə Birliyin ərazisinə gələrsə və bunu yalnız həmin şəxsin kölə olması və qaçması barədə iddialar əsasında və ya onu "məcburi əmək obyektinə" çevirmək niyyətləri əsasında etmək istəyərsə, həmin şəxs 1000 dollardan 5000 dollara qədər məbləğdə cərimə ediləcək və bir ildən beş ilədək Ştatın həbsxanasında saxlanılacaqdır...

9-cu bölmə. Mühüm vəzifə tutan və ya sadəcə olaraq, Birlikdən əməkhaqqı alan heç bir şəxsin qaçqın qullar barədə Konqres qanunlarında adları çəkilən hərəkətlərin edilməsinə icazə verməyə və ya bu cür hərəkətləri hər hansı başqa şəkildə hüquqi cəhətdən əsaslandırmağa ixtiyarı yoxdur.

10-cu bölmə. Bundan əvvəlki bölmədə təsvir edilən icazəni vermiş şəxs Birlik tərəfindən ona həvalə edilmiş vəzifələrdən azad ediləcək, xidməti vəzifəsindən kənarlaşdırılacaq, Birlikdə hər hansı vəzifə tutmaq və Birlikdən məvacib almaq hüququndan məhrum ediləcəkdir.

11-ci bölmə. Konqresin 9-cu bölmədə adları çəkilən aktlarına müvafiq olaraq "məcburi əməkdən qaçmaqda şübhəli bilinən şəxs"in qaytarılmasını tələb edən iddiaçının məsləhətçisi və ya vəkili qismində fəaliyyət göstərən hər hansı şəxs, Birlik tərəfindən ona həvalə olunmuş vəzifələrdən azad ediləcək, Birliyin məhkəmələrində məsləhətçi və ya vəkil qismində çıxış etmək hüququndan məhrum ediləcəkdir...

14-cü bölmə. Konstitusiyaya və ya Birliyin qanunlarına müvafiq olaraq məhkəmə sistemində vəzifə tutan, bu Akt qəbul edildikdən on gün keçəndən sonra "Qaçqın qullar haqqında" Federal qanunun tələblərini yerinə yetirməkdə davam edən hər hansı şəxs "nümunəvi davranış" prinsiplərini pozmuş adam hesab ediləcək, bu isə ona ictimai etimadın itirilməsinə,

Satış üçün nəzərdə tutulmayıb

onun impiçmentinə və ya fərmana əsasən vəzifədən kənarlaşdırılmasına səbəb olacaqdır.

15-ci bölmə. Şəxsi, onun qaçqın qul olması barədə iddialara görə, həbs etmiş hər hansı şerif, şerif müavini, həbsxana rəisi, müstəntiq, konstebl, Birliyin hər hansı qulluqçusu, hər hansı şəhərin, mahalın, qraflığın polis əməkdaşı, şəhər məmuru və ya Birliyin könüllülər dəstəsinin üzvü cərimə olunacaq və həbs ediləcəkdir.

16-cı bölmə. Birliyin könüllü dəstələrinin, saxlanılmış şəxsin öz sahibinə qaytarılmalı olması barədə şübhəya əsaslanaraq, heç kəsi saxlamağa ixtiyarı yoxdur...

19-cu bölmə. Massaçusets Birliyinə məxsus olan, Birlik və ya onun hər hansı qraflığı tərəfindən istifadə edilən hər hansı həbsxana və ya hər hansı başqa saxlama yeri qaçqın qullar barədə federal qanunlara müvafiq olaraq təqsirləndirilən və ya məhkum edilmiş şəxslərin... və ya sözügedən qanunlara əsasən verilmiş sərəncamların icrasına maneçilik etməkdə ittiham olunan, və ya buna görə məhkum olunmuş şəxslərin, və ya qaçqın qullar haqqında sözügedən qanunlara əsasən həbs edilmiş, və ya tutulub saxlanmış hər hansı şəxsi xilas etmək, və ya xilas etməyə cəhd göstərmək üstündə tutulub saxlanmaları, və ya həbs edilmələri üçün istifadə oluna bilməz.

Mənbə: Massachusetts, Acts and Resolves...1855, 924.

Satış üçün nəzərdə tutulmayıb

21. Dred Skott Sendforda Qarşı (1857)

Dred Skottun *(Dred Scott)* işi Ali Məhkəmənin siyasi problemi məhkəmə yolu ilə həll etmək cəhdinə nümunə kimi, Amerikanın konstitusiya tarixində müstəsna yer tutur. Bu iş üzrə qəbul edilmiş qərar onunla nəticələndi ki, Ali Məhkəmə və onun sədri Rocer Bruk Teyni *(Rager B. Taney)* kəskin tənqid hədəfinə çevrildi, Ali Məhkəmənin sonrakı sədri Çarlz Evans Hyuz *(Chales E. Hughes)* isə bu işi "Ali Məhkəmənin öz əli ilə özünə vurduğu ağır yara" adlandırdı.

Kölə kimi doğulmuş Skott onun sahibi olan hərbi cərrah tərəfindən Luiziana ərazisinin azad hissəsinə gətirilmişdi. Sahibinin ölümündən sonra Skott azadlıq əldə etmək tələbi ilə iddia irəli sürmüşdü. Skottun iddiasının əsası bundan ibarət idi ki, həmin ərazidə quldarlıq ləğv edildiyinə görə o, azad insan hesab edilməlidir və "bir dəfə azad olan insan həmişəlik azaddır". Missuri məhkəməsi onun iddiasını rədd etdi, lakin Skott və onun ağ dərili tərəfdarları bu məsələni Federal Məhkəməyə verməyə müvəffəq oldular. Orada bu məsələ, qulun federal məhkəməyə müraciət etmək hüququ olub-olmaması baxımından müzakirə edilirdi. İş Ali Məhkəməyə çatanda o, birinci növbədə, məhz bu məsələni həll etməli idi. Əgər Skottun belə bir hüququ olmuşdursa, deməli, məhkəmənin müvafiq yurisdiksiyası olmuşdur və hakimlər artıq şikayətin özünə baxmalı idilər. Lakin Skott qul olduğundan, onun məhkəməyə müraciət etmək barədə qanuni hüququ yox idi. Onda məhkəmə yurisdiksiyanın olmadığına görə iddianı rədd edə bilərdi.

Ali Məhkəmə qərara aldı ki, Skott qul olduğuna görə o, azad vətəndaşın federal məhkəməyə müraciət etmək hüququndan istifadə edə bilməzdi. Bununla da işi bağlamaq olardı, lakin Ali Məhkəmənin sədri Teyni və məhkəmədə Cənubun digər tərəfdarları həmin ərazilərdə kölelik məsələsini birdəfəlik və həmişəlik həll etmək istəyirdilər. Buna görə də qərara alındı ki, Konqres tərəfindən 1820-ci ildə qəbul edilmiş "Missuri kompromisləri Konstitusiyaya zidd olmuşdur, çünki vətəndaşların öz qullarını, yəni mülkiyyətini Birləşmiş Ştatların tabeliyində olan hər hansı əraziyə aparmalarına Konqres qadağa qoya bilməzdi. Teyni

Satış üçün nəzərdə tutulmayıb

qərara aldı ki, *qul mülkiyyətdən artıq bir şey deyildir və o heç vaxt vətəndaş ola bilməz.*

Təbii ki, Cənub bu qərarı bəyəndi, Şimalda isə həmin qərar qızğın protestə və məsxərəyə səbəb oldu. Həmin qərar Respublikaçılar Partiyasının yaranmasına gətirib çıxarmış, bu qərarın əleyhinə protestlər isə 1860-cı ildə Avraam Linkolnun prezident seçilməsində bəlkə də həlledici rol oynamışdı.

Əlavə məlumat üçün oxuyun: Don E. Fehrenbacher, The Dred Scott Case (1978); Walter Ehrlich, They Have No Rights: Dred Scott's Struggle for Freedom (1979).

DRED SKOTT SENDFORDA QARŞI

Ali Məhkəmənin sədri Teyni məhkəmənin rəyini açıqladı.

Məsələnin mahiyyəti bundan ibarət idi: əcdadları bu ölkəyə idxal edilmiş və kölə kimi satılmış zənci Birləşmiş Ştatların Konstitusiyası əsasında formalaşmış və yaradılmış siyasi birliyin üzvü ola bilərmi? Və o, ölkənin vətəndaşlarına Konstitusiya ilə təminat verilən bütün hüquq və imtiyazlara malik ola bilərmi? Belə hüquqlardan biri də Konstitusiyada göstərilən hallarda Birləşmiş Ştatların məhkəməsinə müraciət etmək imtiyazıdır.

"Birləşmiş Ştatların xalqı" və "vətəndaşlar" anlayışları sinonimlər olub eyni mənaya malikdirlər. Bizim respublikaçı təsisatların nəzərində hər iki anlayış suverenliyi formalaşdıran, hakimiyyətə malik olan və öz nümayəndələri vasitəsilə dövləti idarə edən siyasi orqan deməkdir. "Vətəndaşlar" anlayışı həm də bizim "suveren xalq" adlandırmağa adət etdiyimiz mənanı ifadə edir və hər bir vətəndaş bu xalqın nümayəndəsi və bu suverenliyin üzvüdür. Qarşımızda duran məsələ bundan ibarətdir: iddiada təsvir edilən təbəqəyə aid insanlar bu xalqın və bu suverenliyin tərkib hissələridirmi? Biz belə hesab edirik ki, bu belə deyildir və onlar "vətəndaşlar" anlayışına heç vaxt daxil edilməmişlər və daxil edilməli deyildirlər, buna görə də onlar Konstitusiyaya əsasən Birləşmiş Ştatların vətəndaşları üçün təminat verilən hüquq və imtiyazlara iddia edə bilməzlər. Əksinə, o vaxt onlar həmin dövrdə hakim irqə tabe olan aşağı sinif sayılırdı və onlardan bəzilərinin azad edilib-edilməməsindən asılı olmayaraq hakimiyyətdə

Satış üçün nəzərdə tutulmayıb

olan və dövləti idarə edən insanların onlara verə biləcəkləri hüquq və imtiyazlar müstəsna olmaqla, onların heç bir hüquq və ya imtiyazı yox idi.

Bu və ya digər qanunun ədalətli və ya ədalətsiz, ağlabatan və ya ağlasığmaz olması dərəcəsinin müəyyən edilməsi bu Məhkəmənin səlahiyyətlərinə daxil deyildir. Bu məsələlər barədə qərarlar siyasi və ya qanunverici hakimiyyət tərəfindən, suverenliyin formalaşmasına şərait yaradanlar və Konstitusiyanı yazanlar tərəfindən qəbul edilir. Bu məhkəmənin vəzifəsi onların yazdıqları Konstitusiyanı şərh etməkdən və bu sənəddə təsbit olunmuş niyyət və mənaya müvafiq olaraq onun yerinə yetirilməsini təmin etməkdən ibarətdir.

Biz bu məsələni müzakirə edərkən Ştat vətəndaşlığını İttifaq vətəndaşlığı ilə qarışdırmamalıyıq. Bir insanın Ştat tərəfindən onun ərazi hüdudları daxilində verilən vətəndaş hüquqlarına və imtiyazlarına malik olması hələ heç də o demək deyildir ki, həmin insan Birləşmiş Ştatların vətəndaşlarının hüquq və imtiyazlarına malikdir. İnsan bir Ştatın vətəndaşına aid hüquq və imtiyazlara malik olduğu halda, hər hansı başqa Ştatın vətəndaşı kimi həmin hüquqlara malik olmaya bilər.

Birləşmiş Ştatların Konstitusiyası qəbul edilənə qədər hər bir Ştat vətəndaşlıqla bağlı hüquq və imtiyazları öz mülahizəsi əsasında vermək kimi mübahisəsiz bir hüquqa malik idi. Lakin təbii ki, bu hüquq Ştatın hüdudları ilə məhdudlaşırdı və beynəlxalq hüquqda nəzərdə tutulan, yaxud müxtəlif ştatlar arasında qanunların qarşılıqlı tanınması sayəsində təmin edilən hüquqlar və imtiyazlar müstəsna olmaqla, heç bir başqa hüquq və imtiyaz nəzərdə tutmurdu. Onu da qeyd edək ki, ştatlar Birləşmiş Ştatların Konstitusiyasını qəbul etməklə özlərinin bu cür hüquq və imtiyazlar vermək hüququndan imtina etməmişlər…

Buna görə də tamamilə aşkardır ki, artıq ölkə Konstitusiyası qəbul ediləndən sonra heç bir Ştat özünün qəbul olunmuş hər hansı daxili qanununa əsaslanmaqla Birləşmiş Ştatların Konstitusiyası ilə yaradılmış siyasi birliyin tərkibinə yeni üzvlər daxil edilməsinə icazə verə bilməz. Ştat yalnız hər hansı bir şəxsi bu Ştatın siyasi birliyinin üzvü etməklə, onu ittifaqın siyasi birliyinin üzvünə çevirə bilməz. Elə həmin səbəbə görə Ştat bu yeni, Konstitusiyaya əsasən yaradılmış siyasi ailəyə daxil olması nəzərdə tutulmayan insanı və ya insanlar təbəqəsini həmin ailəyə daxil edə bilməz.

Onda belə bir sual yaranır: hər bir Ştatın vətəndaşlarına verilən şəxsi hüquqlar və imtiyazlar barədə Konstitusiya müddəaları o vaxt bu ölkədə yaşamış və ya sonradan idxal edilmiş və hər hansı bir Ştatda o vaxt azad olmuş və ya sonradan azad edilmiş Afrika zənci irqinin nümayəndələrinə də şamil edilməlidirmi? İnsana Birləşmiş Ştatların vətəndaşlığını vermək və buna müvafiq olaraq, başqa ştatların razılığı olmadan ona digər ştatların tanımalı olduğu bütün vətəndaş hüquqlarını vermək səlahiyyətini ştatlara vermək olarmı? Birləşmiş Ştatların Konstitusiyasında belə bir müddəa

Satış üçün nəzərdə tutulmayıb

varmı ki, insanı Ştatın qanunlarına əsasən azad etmək, onu vətəndaş səviyyəsinə yüksəltmək və ona hər hansı başqa Ştatda və bu ştatların məhkəmələrində tanınmalı olan hüquq və imtiyazlar vermək olar?

Məhkəmə belə hesab edir ki, bu sualların cavabı müsbət ola bilməz. Deməli, Konstitusiyanın mahiyyətinə görə, iddiaçı Missuri Ştatının vətəndaşı ola bilməzdi və buna görə də, onun Ştat məhkəməsinə müraciət etmək hüququ yox idi.

Doğrudan da, Konstitusiya qəbul edilən anda öz ştatlarının vətəndaşları olmuş hər bir insan və ya insanlar sinfi və ya insanlar təbəqəsi bu yeni siyasi orqanizmin də vətəndaşlarına çevrilmişlər, lakin bu qayda başqa adamlara şamil edilmir. Bu yeni siyasi orqanizm ştatların vətəndaşları tərəfindən, onların özləri üçün və onların gələcək nəsilləri üçün yaradılmışdır və başqa heç kəsdən ötrü nəzərdə tutulmamışdır. Deməli, bu yeni suveren orqanizmin vətəndaşlarına verilən şəxsi hüquq və imtiyazlar yalnız bu ştatların vətəndaşları olan və ya onların ərazisində doğulandan sonra həmin ştatların vətəndaşlarına çevriləcək insanlar üçün nəzərdə tutulmuşdur. Bu, Konstitusiyanın müddəalarına və onun əsaslandığı prinsiplərə tamamilə müvafiqdir. Bu, o vaxt ayrı-ayrı siyasi birliklərin üzvləri olan şəxslərin vahid siyasi ailə şəklində birləşməsi idi. Konkret məqsədlər üçün həmin ailənin hakimiyyəti Birləşmiş Ştatların bütün ərazisinə şamil edilməli idi. Və bu yeni siyasi ailə hər bir vətəndaşa onun öz Ştatının hüdudlarından kənarda da əvvəllər malik olmadığı hüquq və imtiyazlar verirdi. Bu yeni hüquqlar insanı başqa ştatların vətəndaşları ilə eyni vəziyyətə qoyur və onu Birləşmiş Ştatların vətəndaşı edirdi...

Məhkəmənin fikrincə, o dövrün qanunvericiliyi və tarixi, eləcə də İstiqlal Bəyannaməsinin dili onu göstərir ki, istər ölkəyə kölə kimi idxal edilmiş adamlar, istərsə də onların sələfləri, sonradan azad edilib-edilməməsindən asılı olmayaraq, o vaxt bu xalqın tərkib hissəsi hesab edilmirdi və bu mühüm sənəddə həmin adamların bu xalqın tərkibinə daxil edilməsi nəzərdə tutulmamışdır.

Tamamilə aşkardır ki, kölə vəziyyətinə salınmış Afrika irqinin nümayəndələri İstiqlal Bəyannaməsini yazmış və qəbul etmiş xalqın tərkibinə bilərəkdən daxil edilməmişlər və onun tərkib hissəsi olmamışlar. Çünki əgər o dövrdə yazılmış mətnin dilində bu nəzərdə tutulmuş olsaydı, İstiqlal Bəyannaməsini yazmış böyük adamların hərəkətləri[60] həmin sənəddə bəyan edilmiş prinsiplərə kökündən zidd olardı və bu hərəkətlər, həmin insanların gözlədikləri rəğbət əvəzinə, bəşəriyyət tərəfindən hamılıqla pislənməyə layiq olar və pislənərdi...

Əksinə, Konstitusiyanın iki müddəasında açıq-aşkar göstərilir ki, zənci irqi insanların ayrıca bir növüdür və bu irq həmin dövrdəki dövlətin xalqının və ya vətəndaşlarının tərkib hissəsi hesab edilmirdi.

Satış üçün nəzərdə tutulmayıb

Bu müddəalardan birinə əsasən, 13 ştatın hər biri, əgər ştatlar bunu lazım hesab edərsə, kölə idxal etmək hüququnu 1808-ci ilə qədər saxlayır... Digər müddəaya görə, ştatlar qul sahiblərinin mülkiyyət hüququna hörmət etmək və öz sahiblərinin yanından qaçaraq başqa bir ştatın ərazisində tapılmış qulları bir-birinə qaytarmaq barədə qarşılıqlı öhdəliklər götürürlər...

Qullar barədə yalnız bu iki müddəada söhbət gedir. Hər iki müddəada qullar mülkiyyət hesab edilir və bu mülkiyyəti qorumaq dövlətə bir vəzifə kimi tapşırılır. Konstitusiyada bu irqə aidiyyəti olan heç bir başqa müddəa yoxdur. Və bu dövlət həvalə edilmiş səlahiyyətlər dövləti (öz hakimiyyətini ştatların xalqlarından almış dövlət) olduğuna görə bu məsələdə dövlət Konstitusiyanın yalnız həmin iki müddəasını rəhbər tutmalıdır. Birləşmiş Ştatların dövləti bu məsələyə qul sahiblərinin hüquqlarını müdafiə etməkdən başqa hər hansı qeyri məqsəd üçün müdaxilə edə bilməzdi. Dövlət qulların azad edilməsi məsələsini ştatların özlərinin mülahizəsinə verməyə borclu idi, onlar isə bu məsələdə ədalət və insaniyyət barədə öz anlayışlarına müvafiq olaraq, həmçinin cəmiyyətin təhlükəsizliyi mənafeyindən hərəkət etməli idilər. Aydındır ki, ştatlar öz səlahiyyətlərinin bir qismini İttifaqa verməklə bu hüququ özlərinin müstəsna hüququ kimi saxlamaq istəmişdilər...

Məhkəmə bu işi hərtərəfli nəzərdən keçirdikdən sonra bu qənaətə gəlmişdir ki, yuxarıda şərh edilən faktlara əsasən, Birləşmiş Ştatların Konstitusiyasının mahiyyətinə uyğun olaraq, Dred Skott Missuri Ştatının vətəndaşı deyildir və deməli, o, ştat məhkəməsinə müraciət edə bilməzdi. Deməli, Region Məhkəməsi *(Circuit Court)* bu məsələyə baxmaq yurisdiksiyasına malik olmamışdır və Dred Skottun iddiasından imtina edilməsi barədə həmin məhkəmənin çıxardığı qərar səhvdir...

Daha sonra, baxaq görək iddiaçının istinad etdiyi faktlar onun azadlığının təmin edilməsi üçün kafi əsasdırmı...

İddiaçının istinad etdiyi Konqres aktında bəyan edilir ki, Fransa tərəfindən bizə miras qalmış, 36 dərəcə 30 dəqiqə şimal enliyində yerləşən və Missurinin tərkibinə daxil edilməmiş Luiziana adlanan bütün ərazidə köləlik və məcburi əmək qadağan edilmişdir. Araşdırmanın bu mərhələsində biz çətin bir suala cavab verməliyik: Konstitusiyaya əsasən Konqresin bu aktı qəbul etmək səlahiyyəti vardımı? Əgər Konstitusiya Konqresə bu cür səlahiyyətlər verməmişdirsə, bu Məhkəmə Konqresin həmin aktını qanunsuz akt kimi ləğv etməyə və bunu bəyan etməyə borcludur ki, Konqresin hər hansı Ştatın qanunlarına görə kölə kimi saxlanılan insanlara azadlıq verməyə haqqı yoxdur.

İddiaçı Konstitusiyanın Konqresə "Birləşmiş Ştatlara məxsus ərazi və başqa mülkiyyət barəsində bütün zəruri qaydaları və əsasnamələri qəbul

Satış üçün nəzərdə tutulmayıb

etmək və sərəncam vermək" səlahiyyətləri verən maddəsinə istinad edir. Lakin Məhkəmənin fikrincə, bu maddənin həmin mübahisəyə aidiyyəti yoxdur, həmin maddəyə əsasən, Konqresə verilən hakimiyyət isə bu gün yalnız, o vaxt Birləşmiş Ştatlara məxsus olmuş və ya Birləşmiş Ştatlara məxsus olması elan edilmiş və Böyük Britaniya ilə müqaviləyə əsasən Birləşmiş Ştatların sərhədləri daxilində yerləşmiş ərazi ilə məhdudlaşır (və lap əvvəldən də bu cür məhdudlaşmışdır). Bu hakimiyyət sonradan xarici dövlətdən alınmış əraziyə şamil edilə bilməz. Bu müddəa yalnız məlum və müəyyən əraziyə aid idi, vəssalam...

Lakin biz Konqresin bu sahədə səlahiyyətlərini şübhə altına almağa hazırlaşmırıq. Birləşmiş Ştatlara yeni ştatlar qəbul edilməsi yolu ilə onun ərazisini genişləndirmək səlahiyyətləri dəqiq müəyyən edilmişdir. Bu səlahiyyətlər həmçinin, Birləşmiş Ştatlara dərhal qəbul edilməyə hazır olmayan, lakin əhalisi bunu istəyən kimi və şərait imkan verən kimi, dərhal qəbul ediləcək torpaqların alınmasını da nəzərdə tutur...

İnamla güman etmək olar ki, Birləşmiş Ştatların vətəndaşları Birləşmiş Ştatların tərkib hissəsi olan ərazidə miqrasiya edirsə, onlar dövlətin arzusundan asılı olaraq adi sakinlər kimi və ya dövlətin sakinlərdən ötrü özbaşına qəbul etdiyi qanunlara əsasən idarə edilməli deyildirlər. Dövlətimizin əsasını təşkil etmiş və bu gün də onun mövcudluğunun əsası olan prinsip – ştatların ittifaqı prinsipidir. Bu ştatlar öz daxili məsələlərinin həllində müstəqil və suverendirlər və ümumi dövlət vasitəsilə bir-birinə bağlıdırlar. Bu dövlət ştatların xalqları tərəfindən ona həvalə edilmiş müəyyən, lakin məhdud səlahiyyətlərə malikdir. O, Birləşmiş Ştatların ərazisində yalnız ona verilmiş səlahiyyətlər həddində ali hakimiyyətə malikdir. Deməli, ümumi dövlətin müstəmləkələr və asılı ərazilər almaq və onları idarə etmək üçün qeyri-məhdud səlahiyyətləri həmin dövlətin mahiyyəti ilə bir araya sığışmır. Dövlət nə alırsa, onu bu dövlətin özünü yaratmış ştatların xalqlarının rifahı naminə alır. Dövlət yalnız xalq üçün işləyən və ona həvalə edilmiş vəzifələri həyata keçirməklə, Birləşmiş Ştatların xalqının mənafelərini qorumağa müvəkkil edilmiş orqandır...

Lakin Konstitusiyaya əsasən, Konqresin vətəndaşlar və ya onların əmlakı üzərində hakimiyyəti yalnız onun mülahizəsinə əsasən həyata keçirilə bilməz. Dövlətin səlahiyyətləri və vətəndaşların hüquqları Konstitusiyanın özündə dəqiq müəyyən edilmişdir və Konstitusiya ilə tənzimlənir. Hər hansı bir ərazi Birləşmiş Ştatların tərkib hissəsinə çevriləndə həmin ərazi-yə sahiblik növü federal dövlətə onu yaratmış insanlardan keçir.

Bu dövlətin səlahiyyətləri dəqiq müəyyən edilmişdir və Konstitusiya ilə məhdudlaşdırılıb. Bu dövlət də həmin Konstitusiyaya əsaslanır və onun sayəsində dövlət və suveren qurum kimi mövcudluğunu davam etdirir.

Satış üçün nəzərdə tutulmayıb

Dövlətin, Konstitusiya hüdudlarından kənara çıxan heç bir başqa səlahiyyəti yoxdur. Birləşmiş Ştatların ərazisində dövlət özünün bu mahiyyətindən imtina etmək və özü üçün Konstitusiyanın yol vermədiyi özbaşına və ya despotik səlahiyyətlər yaratmaq hüququna malik deyildir. Dövlətin özü üçün Birləşmiş Ştatların vətəndaşlarından təcrid olunmuş yeni mahiyyət yaratmaq və həmin vətəndaşlara münasibətdə özünün Konstitusiya vəzifələrindən imtina etmək hüququ yoxdur. Həm dövlət, həm də Birləşmiş Ştatlar ərazisinin bu hissəsinə daxil olan vətəndaşlar bunu Konstitusiyanın müddəalarına uyğun şəkildə edirlər. Onların hər ikisi həmin ərazidə Konstitusiyada təsbit olunmuş hüquqlara müvafiq şəkildə mövcuddurlar. Buna görə də federal dövlət öz vətəndaşları və onların əmlakı barədə Konstitusiyaya zidd iddialar irəli sürə bilməz, dövlətin öz vətəndaşlarının konstitusiya hüquqlarından qanuni şəkildə imtina etməyə də haqqı yoxdur...

Federal dövlətin insanın bu hüquqlarını və burada sadalanmasına lüzum olmayan başqa hüquqlarını pozmağa ixtiyarı yoxdur. Şəxsi mülkiyyət hüququ isə bizdə başqa hüquqlarla bərabər dərəcədə qorunur. Beləliklə, mülkiyyət hüquqları insan hüquqları ilə bağlıdır və Konstitusiyaya V düzəlişə əsasən, həmin hüquqlara eyni dərəcədə zəmanət verilir. Sözügedən düzəlişdə bildirilir ki, hər bir insanın yaşamaq hüququ, azadlıq və mülkiyyət hüquqları vardır və "lazımi məhkəmə prosedurası" aparılmadan insan bu hüquqlardan məhrum edilə bilməz. Beləliklə, Konqresin qəbul etdiyi, Birləşmiş Ştatların vətəndaşını lazımi məhkəmə prosedurası aparılmadan, yalnız Birləşmiş Ştatların müəyyən xüsusi ərazisinə gəlməsinə və bu halda qanunları pozmadan özü ilə əmlak gətirməsinə görə azadlıqdan və mülkiyyətdən məhrum edən qərarı "lazımi məhkəmə prosedurası" adlandırmaq, çətin ki, mümkün olsun.

Kim isə elə güman edə bilər ki, kölə ilə mülkiyyətin başqa növləri arasında fərq var və Birləşmiş Ştatların Konstitusiyası mülkiyyətin bu müxtəlif tiplərinə müxtəlif cür münasibət bəsləyir. Bu mübahisəni həll etmək üçün biz qanunlara və onların digər dövlətlərdə necə tətbiq edilməsinə, qul sahibləri ilə qullar arasında hüquq və vəzifələr barəsində tanınmış hüquqşünasların işlərinə, eləcə də bu halda dövlətin malik olduğu səlahiyyətlərə nəzər sala bilərdik.

Lakin bu məsələyə baxarkən yadda saxlamalıyıq ki, başqa ölkələrin heç bir qanunu Birləşmiş Ştatların xalqı ilə onun dövlətinin arasına girə bilməz. Dövlətin səlahiyyətləri və onun vətəndaşlarının hüquqları dəqiq yazılmış və təsirli qaydalardır. Birləşmiş Ştatların xalqı dövlətə yalnız müəyyən səlahiyyətlər vermiş və onun hər hansı başqa səlahiyyətlər tətbiq etməsini qadağan etmişdir. Dövlətin insan üzərində və onun mülkiyyəti

Satış üçün nəzərdə tutulmayıb

üzərində Birləşmiş Ştatların vətəndaşları tərəfindən ona həvalə edilənlərdən başqa səlahiyyətləri yoxdur. Buna görə də, qul sahibi ilə qul arasında münasibətlər barədə başqa dövlətlərin heç bir qanunu və ya qaydası, dövlət xadimlərinin və hüquqşünasların bu barədə mühakimələri dövlətin səlahiyyətlərini genişləndirə bilməz və onun vətəndaşlarını öz hüquqlarından məhrum edə bilməz. Əgər Konstitusiya qul sahibinin qul üzərində mülkiyyət hüququnu tanıyırsa və mülkiyyətin müxtəlif növləri arasında həddqoymursa, Birləşmiş Ştatların heç bir tribunalının, istər qanunverici, istər icra və ya məhkəmə tribunalı olsun, bu cür həddqoymağa və insanın xüsusi mülkiyyətini dövlətin özbaşınalığından qorumaqdan imtina etməyə haqqı yoxdur, çünki vətəndaşların bu mülkiyyətinin müdafiəsinə Konstitusiyanın müddəaları ilə təminat verilmişdir.

Artıq qeyd edildiyi kimi, qul – mülkiyyətdir və mülkiyyət hüququ Konstitusiyada dəqiq və aydın təsbit olunmuşdur. Birləşmiş Ştatların bu cür arzusu olan ştatlarının hər birində 20 il müddətinə vətəndaşların kölə alveri ilə adi əmtəə əmlakı alveri kimi məşğul olmaq hüququ təmin edilmişdir. Əgər qul öz sahibinin yanından qaçmışdırsa, dövlət bütün dövrlərdə bu hüququ qorumağa borcludur. Bütün bunlar Konstitusiyada o qədər sadə dildə qeyd edilmişdir ki, onları anlamamaq mümkün deyildir. Əksinə, Konstitusiyada, kölə şəklində mülkiyyət üzərində Konqresə geniş səlahiyyətlər verən və ya mülkiyyətin bu növünün digər mülkiyyət növləri ilə müqayisədə daha az dərəcədə müdafiə olunmağa ehtiyacı olmasını göstərən bircə kəlmə də yoxdur. Dövlətə yalnız bir vəzifə tapşırılmışdır – mülkiyyətçinin hüquqlarını müdafiə etmək və qorumaq vəzifəsi.

Yuxarıda deyilənləri nəzərə alaraq, məhkəmə bu qənaətə gəlir ki, Konqresin Birləşmiş Ştatlar ərazisində yuxarıda göstərilən xətdən şimalda yerləşən ərazidə mülkiyyətin bu tipinə sahib olmağı vətəndaşlara qadağan edən aktı Konstitusiyada dəstəklənmir və deməli, həmin akt etibarlı deyildir. Buna müvafiq olaraq, istər Dred Skottun özü, istərsə də onun ailəsi bu əraziyə gəlməklə, hətta sahibləri onları daimi sakin etmək niyyəti ilə gətirmiş olsa belə, azad insanlara çevrilmirlər.

Mənbə: 19 Howard (1857), 393.

Satış üçün nəzərdə tutulmayıb

22. “Nifaqın Böldüyü Yurd” (1858)

Avraam Linkoln

İllinoys Ştatından olan senator Stiven Duqlas *(Stephen Douglas)* Kanzas və Nebraska ştatları barədə qanun layihəsini Konqresin müzakirəsinə çıxarandan yalnız üç il sonra Dred Skott barədə qərar qəbul olundu. Bu, o vaxtlar idi ki, transkontinental yolun çəkilməsi lehinə ictimai təzyiq artmaqdaydı. Cənub ştatlarından olan nümayəndələrsə onlara öz qullarını da özləriylə aparmaq üçün əlavə ərazilər verilməyincə, həmin tikintidən ötrü vacib sayılan qanunvericiliyi ləngitməkdə israrlı idilər.

Duqlas yerli əhalinin xeyir-duası ilə Luizinanın şimalında kölə məsələsinin həlli barədə təklif irəli sürdü. “Xalq suverenliyi” adı ilə tanınan həmin düstur, demokratik görsəndiyindən müvəqqəti də olsa həm Cənubu, həm də Şimalı qane eləyirdi. Duqlas hesab edirdi ki, quldarlığın ləğvi və ya saxlanması ştatların əhalisinin rəyindən asılı olmalıdır. Ancaq Dred Skott məsələsində Ali Məhkəmə, qərar çıxardı ki, yeni ərazilərdə köləliyi qadağan etməyə heç də Konqresin ixtiyarı yox imiş və bununla da “xalq suverenliyi” düsturunun üstündən xətt çəkilmiş oldu.

Şimaldakı ştatlar tədricən o nəticəyə gəldi ki, heç də yeni ərazilərdə quldarlığı qadağan etməklə iş bitmir, bəlanın mənbəyi “köləlik institutu”nun özündədir. Bununla belə quldarlığın büsbütün ləğvi bir çox mötədillərin kürkünə birə saldı. Onlar hesab edirdilər ki, əgər Cənubda köləlik qadağan olunarsa, belə şey İttifaqın dağılmasına aparıb çıxara bilər. Mötədillər düşərgəsində Avraam Linkoln da vardı. O quldarlığın geniş yayılmasına qarşı çıxsa da, bununla bərabər o fikirdə idi ki, harada quldarlıq varsa, eləcə qalmalıdır. Linkoln ümid bəsləyirdi ki, quldarlığın əhatəsini daraltsan, o öz-özünə yox ola bilər. 1858-ci ildə yeni Respublika partiyası “xalq müstəqilliyi” doktrinasının müəllifi olan Stiven Duqlasın Senatdakı yerinə Linkolnun namizədliyini irəli sürdü. Həmin payız Linkolnla Duqlas arasında keçirilən debatlar ictimaiyyətin diqqətini özünə cəlb elədi və Linkolnu Respublika partiyasından 1860-cı il seçkilərində ölkə prezidentliyinə ən nüfuzlu namizədə çevirdi.

Belə ki, 1858-ci ilin 17 iyununda, Respublika partiyası-

Satış üçün nəzərdə tutulmayıb

nın qurultayının bağlanmasında söylədiyi nitqdə Linkoln həm Şimallı nümayəndələrin quldarlığın mənəvi problemindən narahatlığını, həm də İttifaqı saxlamaq istəyənlərin könlünü görməyə müvəffəq oldu. "Nifaqın böldüyü yurd" ifadəsi əvvəllər işlənsə də, Linkolnun nitqindən sonra daha geniş yayıldı.

Əlavə məlumat üçün oxuyun: Gay Wilson Allen, Waldo Emerson (1981); Stephen E. Whicher, Freedom and Fate: An Inner Life of Ralph Waldo Emerson (1953); Philip F. Gura and Joel Myerson, eds., Critical Essays on American Transcendentalism (1982).

NİFAQIN BÖLDÜYÜ YURD

Cənab prezident və qurultay iştirakçıları!

Harada olduğumuzu və nə edəcəyimizi biliriksə, deməli, hansı işi nə təhər görəcəyimiz də bizə bəllidir. Quldarlığa əl-qol açmağa imkan verməyən bir siyasətin beşinci ilini yaşayırıq. Ancaq, belə bir siyasətin gedişində məlum olur ki, sən demə, quldarlığın dairəsi nəinki daralıb, əksinə, daha da genişlənmək üzrədir. Fikrimcə, biz böhran həddinə çatmayınca və onu həll etməyincə bu genişlənmə davam edəcək. "Nifaqın böldqüyü yurd çox yaşaya bilməz"[61]. Belə hesab edirəm ki, yarısı kölə, yarısı hürr olan bir məmləkət uzun müddət yaşamağa qadir deyil. Məncə, İttifaq dağılmayacaq. Məncə yurdumuz çökməyəcək; və mən istərdim ki, evimizin çökməsi dayandırılsın. O, ya bütöv bir cür olmalıdır, ya da bütöv özgə cürə! Ya quldarlığın qənimləri onun qabağına sədd çəkəcək və onu ancaq o yerlərdə saxlayacaq ki, harada o, ictimaiyyətin fikrincə, tədricən ölüb gedəcək, ya da quldarlıq tərəfdarları onun bütün ştatlarda, təzə-köhnə, cənub-şimal ştatlarında qanuniləşdirilməsinə nail olacaqlar.

Əfsus ki, biz ikinci yolla gedirik.

Buna şübhə ilə yanaşanlar, qoy onu fikirləşsinlər ki, Nebraska doktrini və eyni zamanda Dred Skottun məsələsi nəticəsində bizdə, demək olar ki, bitkin hüquqi kombinasiya, daha doğrusu müəyyən mexanizmin bir hissəsi əmələ gəlib. Qoy onlar bu mexanizmin nə üçün nəzərdə tutulduğunu deyil, həm də onun peyda olma tarixini düşünsünlər. Eyni zamanda, əgər

Satış üçün nəzərdə tutulmayıb

bacarırlarsa, həmin mexanizmin yaranma prosesini, onu quraşdıran memarların o çağdan üzü bəri fəaliyyətini izləsinlər.

1854-cü ildə ştatların yarısından çoxunda onların konstitusiyalarına müvafiq olaraq quldarlıq qadağan olundu. Eyni zamanda, Konqresin qərarına uyğun olaraq, milli ərazinin əksər yerlərində quldarlığa yasaq qoyuldu. Ancaq ondan dörd gün sonra başlanan dirəniş Konqresin həmin yasağını ləğv etdi. Nəticədə milli ərazi demək olar ki, büsbütün quldarlığın üzünə açıldı. Bu birinci addım sayılmalıdır…

Nebraska Ştatı üçün qanun layihəsi Konqresdən ötüşən əsnada, Missuri Ştatının Region Məhkəməsində *(Circuit Court)* azadlığa çıxmış bir zəncinin işinə baxılırdı. Hansı ki, sahibkar onu öz xoşuna quldarlıqdan azad Ştatın ərazisinə gətirmiş, sonra da Konqresin qadağasına düşən əraziyə aparıb, uzun müddət orada onu qul kimi saxlamışdı; indicə dediyimiz məhkəmənin qərarı, elə Nebraska qanunu da 1854-cü ilin mayında qəbul olundu. Həmin zəncinin adı Dred Skott idi və bu ad həmin məhkəmə prosesi ilə birgə xatırlanır. O vaxtkı növbəti prezident seçkiləri ərəfəsində iş gedib Birləşmiş Ştatların Ali Məhkəməsinə qədər böyüdü, ancaq bununla bağlı qərarsa seçkilərdən sonraya saxlanıldı. Hər halda, seçkilərə az qalmış senator Trambul Nebraska qanunun bir müdafiəçisindən xahiş elədi ki, ayrı-ayrı ərazilərdə əhalinin konstitusion qayda üzrə, öz sərhədləri daxilində köləliyi ləğvetmə ixtiyarı barədə qoy öz fikrini Senatda söyləsin. Cavab qısa oldu: "Buna yalnız Ali Məhkəmə cavab verə bilər".

Nəhayət, Seçkilər gəlib çatdı. Cənab Byukenen[62] qələbə qazandı və yuxarıda adları çəkilən qərarlar da həyata keçirildi. Bu artıq ikinci addım idi…

Yadınızdadırmı, andiçmə məqamı gəlib yetişsə də, məhkəmənin qərarı hələ ortada yox idi; bununla belə gələcək prezident özünün andiçmə bəyanatında qəbul olunacaq qərarın necəliyindən asılı olmayaraq ona itaət göstərməyə çağırdı. Üstündən bir neçə gün keçəndən sonra isə Məhkəmənin qərarı qüvvəyə mindi.

Nebraska qanun layihəsinin möhtərəm müəllifi Dred Skottun işində Ali Məhkəmənin qərarını dəstəkləyən bir nitq söyləməyə imkan tapdı və bu qərarın bütün rəqiblərini kəskin şəkildə suçladı. Təzə seçilən prezident də yaranan şəraitdən faydalanıb hansısa Sillimana yazdığı məktubda, həmin qərara haqq qazandırdı və bu barədə özgə bir rəyin mövcudluğuna hətta öz təəccübünü bildirdi.

Nəticədə, Lekompton Konstitusiyasının Kanzas əhalisi tərəfindən qəbul olunub-olunmaması üstündə prezidentlə Nebraska qanun layihəsinin müəllifi arasında inciklik yarandı. Bu dartışmada Stiven Duqlas deyirdi ki, ən vacibi insanlara bu məsələdə səsvermə hüququ verilsin, bundan sonra

Satış üçün nəzərdə tutulmayıb

isə quldarlığın qalıb-qalmamağı onunçün heç bir rol oynamır. Burdan aydın görünür ki, onun ərzi-halı, camaatın hüsn-rəğbətini qazanmaqdan özgə məqsəd güdmür… Nebraska doktrininin özülündən yalnız bu prinsip qalıb. Dred Skott barədə qərara rəğmən, "skuatter[63] sərbəstliyi" artıq özünü tükəndirib, suya düşən kağız evcik kimidir. O seçkiləri udmağa kömək edəndən sonra, necə deyərlər, küləklə sovrulub gedib.

Stiven Duqlasın son vaxtlar respublikaçılarla birlikdə Lekompton Konstitusiyasına qarşı mübarizəsini Nebraska doktrini ilə yaxınlaşdıra bilən heç nə yox idi. Əslində o mübarizə, xalqın öz konstitusiyasını yaratmaq hüququnu müdafiə edir və bu məsələdə Duqlasın respublikaçılarla həmrəyliyini göstərirdi.

Senator Duqlasın "mənimçün fərqi yoxdur" siyasəti ilə Dred Skott məsələsindəki bəzi müddəaların əlaqəsi, irəliyə can atan mexanizmin hissəsidir. Üçüncü addım da elə bu oldu. Beləliklə, həmin mexanizmin başlıca ünsürləri bunlardır:

Birincisi: Məhkəmənin hökmünə görə, Afrikadan qul sifətilə gətirilmiş, yaxud qul nəslindən olan hər hansı qaradərili kölə, heç bir vaxt Birləşmiş Ştatların Konstitusiyasında nəzərdə tutulan mənada hansısa Ştatın vətəndaşı sayıla bilməz. Bu bəndin qayəsi – "hər bir Ştat vətəndaşının digər Ştata məxsus imtiyaz və sərbəstliyə hüququ çatır", – deyən Birləşmiş Ştatlar Konstitusiyasından zəncilərin əlini üzməkdir.

İkincisi: Məhkəmə qərar çıxardı ki, "Birləşmiş Ştatlar Konstitusiyasına əsasən" nə Konqres, nə də heç bir ərazi qanunvericilik qurumunun Birləşmiş Ştatların hər hansı bölgəsində quldarlığı ləğv etməyə ixtiyarı yoxdur. Həmin bənd vətəndaşlara ərazidə istənilən miqdarda qul saxlamağa icazə verir, belə sahibkarlığın daha geniş yayılmasına şərait yaradırdı.

Üçüncüsü: Azad Ştatın ərazisində saxlanan qulun sərbəstliyi barədə qərarı heç də Birləşmiş Ştatlardakı cəmi məhkəmələr deyil, sahibkar tərəfindən qulun gətirildiyi, özü də quldarlığın hökm sürdüyü Ştatın məhkəməsi çıxarır. Həmin maddə təcili yerinə yetirilməyə də bilər, ancaq vaxtı çatanda xalqın seçkilərdəki göstərdiyi etimaddan sonra o müəyyən məntiqi nəticə ortaya qoymalıdır. Belə ki, azad İllinoys Ştatında Dred Skottun sahibkarı onun başına qanuna müvafiq nə oyun gətirmişdisə, heç İllinoys olmasın, lap özgə bir azad Ştatda, hər hansı digər quldar şəxs bir yox, minlərlə kölənin başına istədiyi oyunun min qatını gətirə bilər.

Bütün bunların səsinə səs verən Nebraska doktrini yaxud da onun qalıqları, ən azı Şimalda elə bir ictimai rəy formalaşdırmağa çalışır ki, "səsvermə quldarlığı ləğv edəcək ya yox, bunun artıq əhəmiyyəti yoxdur". Bütün bunlar birmənalı şəkildə bizim harda olduğumuzun və hara üz tutduğumuzun bariz göstəricisidir…

Satış üçün nəzərdə tutulmayıb

Bəs xalqın hüququnu aydınca büruzə verən düzəliş necə oldu ki, rədd edildi?

Artıq indi bəllidir ki, o vaxt səslənən hər hansı etiraz kəlməsi, seçkilərə təsir göstərə biləcək, "tamamilə azad" arqumentlərə xələl gətirə bilərdi. Bəs onda bir ayağı gedəri olan prezident Ali Məhkəmənin qərarını necə olub ki, bəyənib? O məqamda əlavə dəlil-sübutlar niyə bir qırağa qoyulub? Yeni prezident axı nə üçün həmin qərarı dəstəkləməyə çağırdı? Bu – ipə-sapa yatmayan, qızmış ata minməzdən əvvəl onu ehmalca tumarlamağa bənzəyir. Belə at öz miniyini yəhərdən tullaya da bilər. Prezident, eləcə də başqaları həmin qərara tərəfdar çıxmaqla, tələskənlik göstərmədilərmi?

Biz, əlbəttdə, qəti şəkildə deyə bilmərik ki, bütün bu tədbirlərin hamısı, sən demə, əvvəlcədən tərtib olunmuş planın bir hissəsiymiş. Lakin biz görürük ki, budur, müxtəlif zaman və məkanlarda, tutaq ki, Stiven, Franklin, Rocer və Ceyms adlı müxtəlif fəhlələr tərəfindən yonulub bir-birinə pərçimlənmiş tirlər hazırlayıblar. Biz eyni zamanda görürük ki, qurulmuş vəziyyətdə bu tirlər evin, yaxud dəyirmanın karkasını təşkil edir, və bu karkasda bütün hissələr öz yerindədir, inşaatın ölçülərinə əməl olunub. Orda artıq, ya da əksik görükən hissələr yox dərəcəsində olsa da, gələcəkdə öz yerini tutmuş olacaq. Belə olan təqdirdə heç də inanmamağa haqqımız yoxdur ki, Stiven, Franklin, Rocer və Ceyms sözü ta əvvəldən bir yerə qoyublarmış və baltanın ilk zərbəsindən xeyli əvvəl düşünülmüş plan ya da bəyənilmiş layihə əsasında çalışıblarmış...

Mənbə: Roy P.Basler, ed., Collected Works of Abraham Lincoln, vol. 2 (1953), 461-68.

Satış üçün nəzərdə tutulmayıb

23. Həyat Yoldaşına Məktub (1861)

Sallivan Ballou

Doğma ölkəyə məhəbbət yalnız amerikalılara xas deyil, lakin demokratik cəmiyyətdə öz vətəndaşlarını müharibəyə göndərmək qərarı adi diktator fərmanından daha çox şey tələb edir. 1861-ci ildə münaqişənin hər iki tərəfindəki insanlar öz prinsipləri uğrunda həyatlarını qurban verməyə hazır idilər. Cənublular öz ştatlarının hüquqları və çoxlarının kainatın təbii qaydası saydığı quldarlıq üzərində qurulmuş cəmiyyət uğrunda vuruşurdular. Şimallıların yalnız cüzi hissəsi müharibəyə quldarlıqla mübarizə naminə gedirdi, lakin çoxları İttifaqı qoruyub saxlamaq üçün mübarizə aparmağa və ölməyə hazır idi.

Bu cür döyüşçülərdən biri mayor Sallivan Ballou *(Sullivan Ballou)* idi. Rod-Aylendin İkinci Könüllü alayının tərkibində olan Ballounun o vaxt 32 yaşı vardı. O, yetimçilik və yoxsulluq içində böyüsə də, böyük ümidlər verən hüquqşünas karyerasına yol aça bilmişdi. O və onun arvadı Sara öz oğulları – Edqar və Villi üçün yaxşı güzəran təmin etmək istəyirdilər. Möhkəm əqidəli respublikaçı və Avraam Linkolnun sadiq tərəfdarı olan Ballou 1861-ci ildə könüllü olaraq orduya yazılmış, iyunun 19-a isə öz xidmət yoldaşları ilə birgə Providensdən Vaşinqtona yola düşmüşdü.

Paytaxtın yaxınlığındakı düşərgədən o öz arvadına ehtiraslı məhəbbət və İttifaqın əhəmiyyəti haqqında düşüncələrlə dolu məktub yazmışdı. Bu məktub yalnız 129 ildən sonra, Ken Börnsin prodüserlik etdiyi "Vətəndaş müharibəsi" adlı çoxseriyalı televiziya verilişində oxunduqdan sonra ümummilli şöhrət qazanmışdı. Bu məktubda üslub gözəlliyi və hisslərin dərinliyi ictimai şüuru təlatümə gətirmiş və bir daha amerikalılara demokratiyanı müdafiə etməyin heç də asan iş olmadığını göstərmişdir.

Ballou bu məktubu iyulun 14-də Manassas şəhərinə göndərilmə ərəfəsində yazmışdı. Bir həftədən sonra o və onun başçılıq etdiyi alayın 27 əsgəri Bul Ran yaxınlığındakı döyüşdə həlak oldular.

Satış üçün nəzərdə tutulmayıb

HƏYAT YOLDAŞINA MƏKTUB

Əzizim Sara,

Çox şeydən hiss olunur ki, biz tezliklə, bəlkə də sabah yola düşəcəyik. Vəziyyət elə gətirə bilər ki, daha sənə yaza bilmərəm, buna görə istəyirəm ki, mən artıq olmayandan sonra bu sətirlər sənin gözlərin qarşısında olsun.

Yürüşümüz bir neçə gün çəkə və xeyli xoş ola bilər, lakin o həm də təhlükələrlə dolu və mənim üçün ölümcül ola bilər. Bunlar məndən yox, Allahdan asılıdır. Lazım olsa, mən döyüş meydanında həlak olmağa hazıram. Mənim iştirak etdiyim mübarizənin ədalətliliyinə heç bir şübhəm yoxdur. Qətiyyət və igidlik məni tərk etməyib. Bilirəm ki, hazırda hökumətimizin qələbəsi Amerika sivilizasiyası üçün çox vacibdir və bizdən əvvəl bu ağrılar və məhrumiyyətlər yolu ilə keçənlərə biz nə qədər çox şey borcluyuq. Və mən, hökumətimizə kömək etmək və onun qarşısında öz borcumuzu yerinə yetirmək üçün sözün əsl mənasında həyatımın bütün nemətlərini qurban verməyə hazıram.

Lakin, əzizim, düşünəndə ki, öz həyatımın nemətlərindən məhrum olmaqla, sənin də xoşbəxtliyinə son qoya, onu dərd və qayğılarla əvəz edə bilərəm, pis oluram. Xatırlayanda ki, mən özüm yetim böyümüşəm və indi öz sevimli övladlarımı bu aqibətə düçar edə bilərəm, pis oluram. Məqsədimin bayrağı küləkdə vüqarla dalğalanmaqda ikən, sənə və uşaqlarımıza sonsuz məhəbbətimin ölkəmə olan məhəbbətimlə qızğın, lakin mənasız çarpışmasına kənardan tamaşa etməyim ola bilsin ki, mənim zəifliyimdir.

Ətrafımda iki min insanın yatdığı, onların bir çoxununsa ola bilsin ki, yuxudan axırıncı dəfə həzz aldığı bu yay axşamında nələr duyduğumu təsvir etmək çətindir və mən ölümün öz məşum nizəsi ilə yaxınlaşmaqda olduğunu hiss edərək, Allaha, ölkəmə və sənə üz tuturam.

Özüm özümə izah etmək istəyirdim ki, nə üçün sevdiklərimin xoşbəxtliyini təhlükəyə qoyuram, ancaq bunun heç bir izahını tapa bilmirdim. Ölkəyə və həmişə müdafiə etdiyim prinsiplərə pak məhəbbət, "ölüm qorxusundan da yüksək olan şərəf" bütün varlığıma hakim kəsilib və mən daha özümlə bacara bilmirəm.

Sara, sənə olan sevgim sonsuzdur, bu sevgim elə güclü tellərlə sənə bağlıdır ki, onu yalnız bir qadir Allah qıra bilər və bununla belə, öz ölkəmə məhəbbətim məni coşqun külək kimi yerindən oynadır, döyüş meydanına aparır.

Satış üçün nəzərdə tutulmayıb

Sənlə birgə keçirdiyim o möcüzəli anlar məni tərk etmir; mən Tanrıya və sənə ona görə minnətdaram ki, bu anlardan uzun zaman həzz ala bilmişəm. Mənim üçün bunlardan və Allahın xeyir-duası ilə bizim hələ uzun illər bir-birimizi sevəcəyimizə və yan-yörəmizdə oğullarımızın necə böyüyüb kişiləşdiyini görə biləcəyimizə olan ümidlərdən ayrılmaq çox çətindir. Mən İlahi vəhydən çox şey tələb edə bilmərəm, lakin nəsə mənə pıçıldayır ki, ola bilsin bu mənim balaca Edqarımın duasıdır, mən öz doğmalarımın yanına sağ və salamat qayıdacağam. İşdir, mən qayıtmasam, əzizim Sara, heç vaxt unutma ki, mən səni necə sevmişəm və yadında saxla ki, döyüş meydanında son nəfəsim məni tərk edəndə, o sənin adını pıçıldayacaq.

Mənim səhvlərimi və sənə yetirdiyim ağrını bağışla. Mən çox vaxt necə də axmaq olmuşam! Mən sənin xoşbəxtliyində olan hər bir ləkəni sevinc hissiylə öz göz yaşlarımla silərdim, səni və mənim uşaqlarımı müdafiə etmək üçün dünyanın şər qüvvələriylə var gücümlə vuruşardım. Lakin buna imkan yoxdur. Bütün çətinlikləri sən özün, təkbaşına dəf etməli olanda, mən səmada sənin üzərində uçacaq, görüşəcəyimiz və bir daha ayrılmayacağımız anı səbirlə gözləyəcəyəm.

Fəqət, Sara! Hərgah ölənlərin yer üzünə qayıtmaq və gözə görünmədən öz sevdiklərinin yanında yaşamaq imkanı varsa, mən həmişə sənin yanında olacağam. Aydın gündüzlər və qaranlıq gecələr, ağır dəqiqələr və xoşbəxt anlarda da daim sənin yanında olacağam. Və əgər sən, yanaqlarını yüngülcə mehin necə sığalladığını hiss etsən, bil ki, bu mənim nəfəsimdir, əgər sən gicgahlarında sərin havanı hiss etsən, bil ki, bu mənim ruhumdur.

Sara, mənə matəm saxlama, zənn et ki, mən harasa getmişəm və mütləq qayıdacağam, gözlə məni.

Oğullarımıza gəldikdə isə, onlar da mənim kimi, ata məhəbbəti və qayğısının nə olduğunu bilmədən böyüyəcəklər. Balaca Villi çox kiçikdir və çətin ki, uzun zaman məni yadda saxlasın, lakin mavi gözlü Edqarım bizim birgə əyləncələrimizi uzun zaman yaddan çıxarmayacaq. Sara, mən sənin analıq qayğıkeşliyinə və oğullarımın xarakterinin formalaşmasında sənin köməyinə hədsiz inanıram. Mənim hər iki anama – sənin və mənim anama çatdır ki, mən Tanrıdan onlara xeyir-dua verməsini rica etmişəm. Sara, mən səni orada gözləyəcəyəm. Yanıma gəl və uşaqlarımızı da özünlə gətir.

Sallivan.

Mənbə: Brown University Alumni Quarterly (Nov. 1990): 38-42.

Satış üçün nəzərdə tutulmayıb

Satış üçün nəzərdə tutulmayıb

24. Azadlıq İntibahnaməsi (1863)

Avraan Linkoln

Linkoln və Şimal ştatları müharibəyə, kölələri azad etməkdən daha çox, İttifaqı qoruyub saxlamaq məqsədilə girdilər. Lakin tezliklə kölələrin azad edilməsi müharibənin əsas məqsədinə çevrildi. Nə Konqres, nə də prezident dəqiq bilmirdi ki, bu sahədə hansı səlahiyyətlərə malikdirlər; Dred Skottun işi üzrə məhkəmə qərarına əsasən, onların bu barədə heç bir səlahiyyəti yox idi. Lakin Linkoln belə hesab edirdi ki, Konstitusiya İttifaqa, onun saxlanılması üçün zəruri olan istənilən səlahiyyətləri verir və o, baş komandan kimi, bu səlahiyyətlərdən istifadə etmək hökmünə malikdir.

1862-ci ilin payızında İttifaq ordusunun Antiitam yaxınlığında qələbəsindən sonra Linkoln, 1 yanvar 1863-cü ildən qiyamçı ştatlarda bütün kölələrin azadlığa buraxılmasını təsdiq edən ilk intibahnaməni *(Emancipation Proclamation)* imzaladı. Hərbi və təbliğat tədbiri qismində düşünülmüş azad etmə haqqında İntibahnamə daha çox rəmzi məna daşıyırdı, belə ki, bu layihəni həyata keçirmək üçün federal hökumətin əlində lazımi vasitələr yox idi. Lakin sənəd Cənub ştatlarına və bütün dünyaya dürüst və aydın şəkildə bəyan edirdi ki, müharibə yalnız İttifaqın qorunub saxlanması üçün deyil, həm də köləlik institutuna son qoyulması naminə aparılır. Nəticədə, İttifaq ordusu cənub ərazilərini tutduqdan sonra İntibahnamə gerçəkliyə çevrildi və minlərlə qul hücumda olan federal qoşunlar tərəfindən azadlığa buraxıldı.

Əlavə məlumat üçün oxuyun: John Hope Franklin, The Emancipation Proclamation (1963); Herman Belz, Emancipation and Equal Rights (1978); and LaWanda Cox, Lincoln and Black Freedom (1981).

Satış üçün nəzərdə tutulmayıb

AZADLIQ İNTİBAHNAMƏSİ

Nəzərə alaraq ki, Birləşmiş Ştatların prezidenti tərəfindən Rəbbimizin anadan olmasının 1862-ci ilində sentyabrın 22-də elan edilən intibahnaməyə bir sıra məsələlərlə yanaşı, aşağıdakılar da daxil idi:

> "Rəbbimizin anadan olmasının 1863-cü ilində yanvarın ilk günündən Birləşmiş Ştatlara qarşı qiyamda iştirak edən adamların yaşadığı hər hansı Ştatda, yaxud onun müəyyən hissəsində kölə kimi saxlanılan bütün şəxslər bu tarixdən və həmişəlik azaddırlar; Birləşmiş Ştatların icra hakimiyyəti (hərbi və dəniz komandanlığı da daxil olmaqla) bu şəxslərin azadlığını tanıyır və müdafiə edir, onların heç birinə qarşı, azadlıq qazanmaq uğrunda hər hansı hərəkətlərinə qarşı heç bir təzyiq göstərməyəcəyini öhdəsinə götürür"...
>
> "İcra hakimiyyəti yuxarıda göstərilmiş ilin yanvar ayının 1-dən etibarən öz intibahnaməsi ilə əhalisinin Birləşmiş Ştatlara qarşı qiyam vəziyyətində olduğu ştatları, yaxud ştatların bir hissəsini (əgər belələri varsa) müəyyən edəcəkdir. Əgər hər hansı Ştat, yaxud onun əhalisi həmin gün üçün səlahiyyətli seçicilərin əksəriyyəti tərəfindən seçilmiş nümayəndələri vasitəsilə Birləşmiş Ştatların Konqresində təmsil olunarsa, bu fakt (açıq şəkildə ziddiyyət təşkil edən digər faktların olmaması şərti ilə) həmin Ştatın və onun əhalisinin Birləşmiş Ştatlara qarşı qiyam qaldırmadığını göstərən şəksiz sübut hesab olunacaqdır"...

Ona görə də bu gün — Rəbbimizin anadan olduğunun 1863-cü ilində yanvarın 1-də mən — Birləşmiş Ştatların prezidenti Avraam Linkoln mənə verilmiş hakimiyyətə uyğun olaraq Birləşmiş Ştatların hakimiyyəti və hakimiyyətə qarşı qaldırılmış faktiki silahlı qiyam vaxtı ordu və hərbi dəniz donanmasının baş komandanı kimi və göstərilən qiyamı yatırmaq üçün zəruri və vacib tədbir kimi... elan edirəm ki, aşağıdakı ştatlar, yaxud ştatların ayrı-ayrı hissələri Birləşmiş Ştatlara münasibətdə qiyam vəziyyətindədirlər:

Arkanzas, Texas, Luiziana (Yeni Orlean şəhəri də daxil olmaqla, Sent-Bernar, Plakuimin, Cefferson qəsəbələrindən başqa), Missisipi, Alabama, Florida, Corciya, Cənubi Karolina, Şimali Karolina və Virciniya (Qərbi Virciniya kimi fərqləndirilən 48 dairədən başqa) və onların bu intibahnaməyə əhəmiyyət verməyən və həmin vəziyyətdə qalan digər hissələri.

Satış üçün nəzərdə tutulmayıb

Səlahiyyətimə uyğun olaraq və yuxarıda göstərilən məqsədin naminə mən əmr edir və elan edirəm ki, yuxarıda müəyyən edilən ştatlar və ştatların ayrı-ayrı hissələrində kölə kimi saxlanılan bütün şəxslər bundan belə azaddırlar; hərbi və dəniz komandanlığı da daxil olmaqla, Birləşmiş Ştatların icra hakimiyyəti yuxarıda göstərilən şəxslərin azadlığını tanıyacaq və müdafiə edəcəkdir.

Mən bu cür azad olmuş adamlara bununla əmr edirəm ki, zəruri özünümüdafiə istisna olmaqla, hər hansı zorakılığa əl atmaqdan çəkinsinlər; məsləhət görürəm ki, bütün mümkün olan hallardan sərfəli ödəniş müqabilində əməklə məşğul olsunlar.

Mən sonra elan edir və hamıya bildirirəm ki, bu adamlar yararlıdırlarsa, Birləşmiş Ştatların silahlı qüvvələrinə, fortların qarnizonlarına, mövqelərə, stansiyalara, gəmilərə və digər yerlərə xidmətə qəbul olunacaqlar.

Və ədalətli saydığımız, Konstitusiyanın hərbi zərurət haqqında müddəası ilə təmin olunan bu aktı mən bəşəriyyətin haqq məhkəməsinin və qadir Allahımızın ali iltifatının ixtiyarına verirəm.

Deyilənləri təsdiq edərək mən öz imzamı qoyur və ona Birləşmiş Ştatların möhürünü basıram.

Vaşinqton şəhərində,
Rəbbimizin anadan olmasının 1863-cü ilində yanvarın 1-də
və Amerika Birləşmiş Ştatlarının müstəqilliyinin
səksən yeddinci ilində yerinə yetirilmişdir.

Avraam Linkoln

Mənbə: John G. Nicolay and John Hay, Complete Works of Abraham Lincoln, vol. 9 (1905), 161.

26. Milliqana aid *Ex Parte*[64] (1866)

Satış üçün nəzərdə tutulmayıb

Demokratiya hətta müharibə dövründə də öz əsas prinsiplərini qoruyub saxlamalıdır, əks halda o, vətəndaşların əldə etmək üçün çarpışdığı şeyləri itirə bilər.

Müharibə həmişə daxili siyasi həyatı həddən artıq gərginləşdirir. Müharibə dövründə çox olur ki, şəxsi azadlıqlar dövlət mənafeyi ilə ziddiyyətə girir.

Vətəndaş müharibəsi də vətəndaşların şəxsi və siyasi həyatına hökumətin müdaxiləsinin artmasına səbəb oldu. Buna misal olaraq, ingilis-amerikan hüququnun "ulu qaydası" olan *Habeas Corpus* hüququnun Linkoln tərəfindən ləğvini qeyd etmək olar. Bu qaydaya görə, qanunlara dürüst əməl olunmadan həbs edilmiş adamlar məhkəmə tərəfindən həbsdən azad edilməlidir. Müharibə dövründə hökumətin yalnız bir neçə hərəkəti lazımi məhkəmə araşdırmasına məruz qalmışdı, amma İttifaqın qələbəsindən sonra, Ali Məhkəmə müharibənin gedişində meydana çıxan işlərə böyük diqqət göstərməyə başladı.

Lambden P. Milliqan *(Milligan)* vətənə xəyanət ittihamı ilə İndiana hərbi tribunalı tərəfindən ölüm cəzasına məhkum olunmuşdu. Linkoln hökmün icra edilməsini təxirə salmışdı, lakin Linkolnun qətlindən sonra, yeni prezident Endrü Conson *(Andrew Johnson)* hökmü təsdiq etdi. Milliqanın vəkilləri 1863-cü ildə qüvvəsi bərpa edilmiş *Habeas Corpus* hüququna əsasən onun azad edilməsini tələb edirdilər. Lakin federal Region Məhkəməsi *(Circuit Court)* müəyyən edə bilmirdi ki, mülki məhkəmələr hərbi tribunalların qərarlarına təzədən baxmaq hüququna malikdir, ya yox. Bu məsələ texniki məsələ kimi görünsə də, müharibə qurtarandan sonra Ali Məhkəməyə verilən Milliqanın işi Məhkəməyə imkan yaratdı ki, dövlətin hərbi səlahiyyətlərinin sərhədləri barədə öz fikrini desin.

Ali Məhkəmə elə bir qərar qəbul etdi ki, bir çox alimlər bunu vətəndaş azadlıqlarının Konstitusiya müdafiəsi sahəsində dönüş nöqtəsi adlandırmağa başladılar: *Mülki məhkəmələrin və hökumətin öz işini normal qaydada davam etdirdiyi ərazilərdə hərbi idarə üsulu mülki məhkəmələri əvəz edə bilməz.* İndiana həmişə loyal Ştat olmuşdu, bütün müharibə dövründə onun hökuməti və məhkəmələri normal fəaliyyət göstərmişdi. Buna görə Ali Məhkəmə qərara gəldi ki, belə şəraitdə hərbi məhkəmələrin mülki əhalini mühakimə etmək hüququ yoxdur.

Milliqanın işinə aid qərar məhkəmələrə ixtiyar verdi ki, bir tərəfdən vətəndaşlarla Konqres, digər tərəfdən isə prezidentlə silahlı qüvvələr arasında mübahisələrə qarışsın.

Şübhə yoxdur ki, Linkoln hökuməti müharibənin gedişində Şimal ştatlarında baş verə biləcək iğtişaş təhlükəsinə həddən artıq kəskin reaksiya vermişdi. İcra hakimiyyətinin, çox vaxt Konqreslə razılaşdırılmayan, bu əsassız hərəkətlərinə yalnız vətəndaş müharibəsindən doğan fövqəladə şəraitlə haqq qazandırmaq olar.

Satış üçün nəzərdə tutulmayıb

Əfsus ki, məhkəmələrin cavab reaksiyası gecikdi, yalnız müharibə qurtarandan sonra meydana gəldi. Lakin, bu işə aid qərar müharibə dövründə hökumətin gələcək fəaliyyəti üçün mühüm presedent oldu. Xoşbəxtlikdən, o vaxtdan bəri Birləşmiş Ştatlar müharibə dövründə daxili təhlükəsizliyin təmin olunması ilə bağlı Linkolnun rastlaşdığı problemlərdən qaça bilib.

Əlavə məlumat üçün oxuyun: Charles Fairman, Reconstruction and Reunion, 1864-1888: Part One (1971); Stanley I. Kutler, Judicial Power and Reconstruction Politics (1968); and S. Klaus, ed., Milligan's Case (1929).

MİLLİQANA AİD *EX PARTE*

Hakim Devis Ali Məhkəmənin rəyini açıqladı:

Lambden P. Milliqan 10 may 1865-ci ildə Birləşmiş Ştatların İndiana Region Məhkəməsinə ərizə verərək guya qeyri-qanuni olan həbsdən azad olunmasını tələb edib…

Milliqan təkid edir ki, göstərilən Hərbi Komissiyanın nə irəli sürülən, nə də hər hansı başqa ittiham əsasında onu mühakimə etmək səlahiyyəti olmayıb, çünki o, Birləşmiş Ştatların vətəndaşıdır və İndiana Ştatının vətəndaşıdır. Milliqan iddia edir ki, qiyam baş verən zaman o, vətəndaşlarının dövlətə qarşı çıxdığı hər hansı başqa Ştatın sakini olmayıb, ona görə də, onun Birləşmiş Ştatların Konstitusiyası ilə təminat verilən hüququna əsasən, onu andlılar məhkəməsi mühakimə etməli idi…

Bu işdə əsas məsələnin əhəmiyyətini qiymətləndirməmək olmaz, çünki bu, dövlət quruluşunun əsaslarına və amerikan azadlığının əsasını təşkil edən prinsiplərə toxunur.

Bu azğın qiyam zamanı cəmiyyətdə yaranan əhval belə sırf hüquqi məsələlərin həllində vacib olan sakit ağılla qərar qəbul olunmasına imkan vermirdi. İctimai təhlükəsizliyin təmin olunduğu indiki zamanda isə bir çox başqa məsələlər kimi bu məsələni, qərəzsiz məhkəmə qərarının formalaşmasına mane olan amillərin təzyiqi və ya əsəbilik olmadan müzakirə etmək və qərar qəbul etmək olar. Artıq bu gün isə biz, tam və əsaslı araşdırmanın bütün vacibliyini dərk edərək, verilən işə baxa bilərik…

Satış üçün nəzərdə tutulmayıb

Milliqanın ərizəsində göstərilən faktlar və onun təqdim etdiyi materiallar əsasında, Məhkəmə aşağıdakı məsələni həll etməlidir: Hərbi Komissiyanın onu mühakimə etmək və onun işinə aid hökm çıxartmaq səlahiyyəti olubmu?

Hər hansı qiyamçı Ştatın sakini və ya hərbi əsir olmayan, amma iyirmi il ərzində İndiana Ştatının vətəndaşı olan Milliqan heç vaxt orduda və ya donanmada qulluq etməyib. O öz evində olarkən Birləşmiş Ştatların hərbi hakimiyyətləri tərəfindən tutulub, həbs edilib və ona qarşı irəli sürülən ittihamlar əsasında İndiana Ştatı Hərbi Dairəsi komandanın rəhbərlik etdiyi Hərbi Komissiya tərəfindən boğazdan asılmaqla ölüm cəzasına məhkum edilib. Bu şəxsin işinə baxmaq və ona iş kəsmək üçün deyilən tribunalın ixtiyarı və qanuni səlahiyyətləri olubmu?

Məhkəmə qarşısında heç vaxt xalqın hüquqları ilə bu qədər sıx bağlı olan belə ciddi məsələ durmayıb, ona görə ki, Birləşmiş Ştatların cinayət törətməkdə şübhəli bilinən hər bir vətəndaşı, anadan olandan ona verilən hüquqa əsasən, yalnız qanuna uyğun surətdə mühakimə edilə və cəzalandırıla bilər. Qanun cinayətə görə cəza üçün vasitələr nəzərdə tutmalıdır. Bu vasitələr təsirli deyilsə onda bu, hətta cəmiyyəti ən çox qorxudan cinayət hallarında da cəzasızlığa gətirə bilər. Eyni zamanda, insan hüquqları qanunla müdafiə olunur və əgər bu müdafiəni aradan götürsək, onda bu hüquqlar qəddar hakimlərin və ya özündən çıxmış kütlənin əlinə keçər.

Əgər belə hərbi məhkəməyə izn verən qanun varsa, onda biz bu işə qarışmamalıyıq, amma belə qanun yoxdursa, bu cür məhkəmələri etibarsız elan etmək bizim borcumuzdur. Bu məsələyə aid qərar çoxsaylı və inandırıcı dəlillərdən və ya hüquqi presedentlərdən asılı deyil. Bu presedentlər bizə yalnız azadlıq uğrunda bu mübarizənin tarixi miqyasını və mülki əhalinin hərbi məhkəmələrdən müdafiə olunmasının vacibliyini göstərir. Dövlətimizin baniləri həmin mübarizənin tarixi ilə tanış idilər və xalqın hökmdarlardan əsrlər ərzində əldə etdiyi bütün hüquqları yazılan Konstitusiyada təsbit etdilər. Bu məsələ Konstitusiya və onun əsasında qəbul edilmiş qanunlarla həll edilməlidir. Konstitusiyanın cinayət hüququnun icra edilməsinə aid müddəaları son dərəcə aydındır və onları əksinə şərh etmək və ya onların əsl mənasını şübhəyə almaq mümkün deyil. Konstitusiyanın baxılan işə tətbiq olunan müddəalarında deyilir: "İmpiçment qaydası ilə baxılan işlər istisna olmaqla, cinayətlər haqqında bütün işlər andlılar məhkəməsinə aiddir" , bu, Konstitusiyaya IV, V və VI düzəlişlərlə təsdiq olunur.

Milliqanın işində Konstitusiya ilə zəmanət verilmiş hər hansı bir hüququn pozulmasına yol verilibmi? Əgər yol verilibsə, hansı?

Satış üçün nəzərdə tutulmayıb

Hər bir məhkəmə prosesi məhkəmə hakimiyyətinin icrasıdır; lakin Milliqanı mühakimə edən Hərbi Komissiya öz hakimiyyətini hansı mənbədən götürüb? Şübhəsiz ki, ona ölkənin məhkəmə hakimiyyəti hüququ verilməyib, axı Konstitusiyada aydın deyilir ki, məhkəmə hakimiyyəti "Ali Məhkəməyə və Konqres tərəfindən müəyyən edilmiş aşağı instansiyalı məhkəmələrə məxsusdur". Bu komissiya isə iddia edə bilməz ki, o, "Konqres tərəfindən müəyyən edilmiş məhkəmədir". Hərbi Komissiyaya prezidentin mandatı ilə də səlahiyyət verilməyib, ona görə ki, prezident yalnız qanuna tabedir və qanunların yaradılmasını deyil, ancaq icrasını nəzərdə tutan müəyyən vəzifələrə malikdir. Həmçinin, "Komissiyanın öz mühakimə hüququnun mənbəyi hesab edə biləcəyi hər hansı yazılmamış cinayət kodeksi" də mövcud deyil.

Amma deyirlər ki, Komissiyanın mühakimə hüququ "müharibə qayda və qanunlarından" əmələ gəlir.

Bu qanunların hansılar olduğunu, haradan meydana gəldiyini, harada və kimlərə qarşı işlədilə biləcəyini araşdırmağın heç bir mənası yoxdur; öz idarəçiliyini saxlayan ştatların, eləcə də məhkəmələri fəaliyyət göstərən və məhkəmələrin işinə heç nə mane olmayan ştatların vətəndaşlarına bu qanunlar tətbiq oluna bilməz. Bu məhkəməyə məlumdur ki, İndiana həmişə federal hakimiyyəti müdafiə edib, Ştatın məhkəmələri də həmişə işlərə açıq baxılmasını təmin edib və ədaləti qoruyub. Biz onu da bilirik ki, hüquqi qaydalara əsasən, heç bir müharibə qanunu vətəndaşın hərbi sahədən kənarda etdiyi hər hansı cinayətinə görə hərbi tribunalın keçirilməsini tələb edə bilməz. Konqres heç kimə belə hüquq verə bilməz. Bizim qanunverici məclisimizin xeyrinə qeyd etmək lazımdır ki, o, ölkədə arabir baş verən gərginliyə baxmayaraq, bu cür qərar verilməsinə cəhd belə göstərməyib.

Deməli, "Konqres tərəfindən təyin edilməmiş" və "nümunəvi əxlaqına görə müəyyən edilmiş hakimlərdən ibarət" olmayan məhkəmə Milliqana iş kəsəndə Konstitusiyanın ən aydın müddəalarından biri pozulub. Sübut etməyə çalışırlar ki, Hərbi Komissiyanın fəaliyyətinin əsaslandırılması hərbi vəziyyət haqqında qanunlardan çıxır. Bu əsaslandırılma belə səslənir: "Müharibə dövründə silahlı qüvvələrin komandanı (əgər onun fikrincə, ölkənin mənafeyi bunu tələb edirsə), hərbi dairənin hüdudlarında bütün mülki hüquqlarını və onların müdafiə üsullarını ləğv etmək, vətəndaşları və hərbi qulluqçuları öz şəxsi mülahizəsinə görə mühakimə etmək səlahiyyətinə malikdir. Bu qanuni səlahiyyəti həyata keçirərkən o, yuxarı vəzifəli zabit və Birləşmiş Ştatların prezidenti istisna olunmaqla heç kim tərəfindən məhdudlaşdırılmamalıdır".

Bu əsaslandırmanı düzgün hesab etsək, onda (istər xarici, istərsə də daxili) hərbi konflikt zamanı ölkənin əlverişlilik məqsədilə hərbi dairələrə

Satış üçün nəzərdə tutulmayıb

bölünməsi təqdirində, dairələrdən birinin komandiri öz mülahizəsinə görə, göstərilmiş sərhədlər çərçivəsində və ehtiyac yarandıqda, həmçinin yuxarı vəzifəli zabitin razılığı ilə qüvvədə olan qanunları hərbi güc ilə əvəz edə bilər və heç bir qayda olmadan, öz mülahizəsinə görə adamları cəzalandıra bilər.

Yuxarıda göstərilən əsaslandırmanın özündən onun nə dərəcədə təhlükəli olması görünür, çünki əgər o düzgün olsaydı, onda bu, respublika hökumətinin iflasa uğramasını və qanunla müdafiə olunan azadlığın sona çatmasını bildirərdi. Bu əsaslandırılmanın daxil edildiyi hərbi vəziyyət haqqında qanunlar Konstitusiyanın bütün zəmanətlərini sarsıdır və əslində "hərbi vəziyyəti müstəqil və mülki hakimiyyətə nisbətən üstün" edir. Böyük Britaniya kralının bu qaydanı tətbiq etmək cəhdi bizim əcdadlarımız tərəfindən elə ciddi pozuntu kimi qiymətləndirildi ki, onlar öz istiqlaliyyəti barədə bəyanat verməyə onları vadar edən əsas səbəb kimi bu pozuntunu göstərdilər. Mülki abadlıqlar və hərbi vəziyyət barədə bu cür qanunlar eyni zamanda fəaliyyətdə ola bilməz; onların ziddiyyəti barışmazdır və onlar toqquşduqda onlardan biri məhv olmalıdır.

Təcrübə göstərir ki, bu millət həmişə sülhlə yaşaya bilmir; digər tərəfdən, onun belə ümid etməyə əsasları yoxdur ki, ona həmişə Konstitusiyanın prinsiplərinə həqiqətən sadiq olan müdrik və insanpərvər hakimlər rəhbərlik edəcək. Azadlığa nifrət edən və qanuna xor baxan, iddialarla dolu, şərəfsiz adamlar sözsüz ki, Vaşinqtonun və Linkolnun yerinə gələ bilər; əgər bu baş versə və biz yenidən müharibə girdabına düşsək, onda insan azadlığı müdhiş bir vəziyyətə düşər. Əcdadlarımız bizi bundan qoruya bilməsəydilər, onlar özlərinə göstərilən etimadı doğrultmazdılar. Dünya təcrübəsindən onlar bilirdilər ki, yaratdıqları millət uzunmüddətli müharibələrə cəlb oluna bilər. Onlar həm də bilirdilər ki, kimin əlində olmasından asılı olmayaraq, qeyri-məhdud hakimiyyət azad insanlar üçün təhlükəlidir. Bu və bundan az əhəmiyyətli olmayan digər səbəblərdən, onlar, uğrunda vuruşduqları hüquqi təminatları Konstitusiyaya yazaraq bu təminatlara nail oldular və zaman göstərdi ki, bu tamamilə vacib imiş. *Habeas Corpus Akt* istisna olmaqla bu təminatların heç biri Prezident, Konqres və ya Məhkəmə hakimiyyəti tərəfindən ləğv edilə bilməz.

Hər bir dövlətin təhlükəsizliyi üçün vacibdir ki, bizim təzəcə aradan qaldırdığımız böhran kimi böyük böhranlar dövründə *Habeas Corpus* prinsipini ləğv edə bilən hər hansı bir hakimiyyət olsun. Hər bir müharibədə irəli elə bir adamlar çıxa bilir ki, onlar əvvəllər qüsursuz ad qazansalar da, əslində olduqca mənəviyyatsızdılar. Bu adamlar, hakimiyyətin qorunması istiqamətində qanuni hökumətin göstərdiyi fəaliyyəti sabotaj etməyə və həmvətəndaşlarını öz düşmənlərini məhv etməyə çağıra bilər; və bu adamların təsiri son dərəcə təhlükəli ola bilər. Fövqəladə vəziyyətlərdə

Satış üçün nəzərdə tutulmayıb

açıq və ətraflı məhkəmə araşdırmasına vaxt çatışmaya bilər, digər tərəfdən belə adamlara maneəsiz hərəkət etmək imkanı verilməsi ölkə üçün həddən artıq təhlükəli ola bilər. Bu halda hökumət qəti hərəkət etməli, ona mane olan adamları həbs etməli və onlara *Habeas Corpus* hüququnu tətbiq etməməlidir. Konstitusiyada bu barədə daha heç nə deyilmir. Orada deyilmir ki, vətəndaş *Habeas Corpus* hüququndan məhrum olunduqdan sonra o, ümumi hüquq normalarından fərqli olan hər hansı qaydada mühakimə olunur; bu nəzərdə tutulsaydı, onda Konstitusiyada birbaşa yazılardı. Bu sənədi yazan görkəmli adamlar vətəndaş azadlığının əsaslarını qeyri-məhdud hakimiyyətin zorakılığından qorumağa çalışıblar; tarixin dərsləri bu müdrik insanlara öyrədib ki, qərəzsiz andlıların apardığı məhkəmə, hakimiyyətin qanunsuz hərəkətlərindən və sui-istifadəsindən vətəndaşların qorunması üçün yeganə üsuldur. Bunu başa düşərək, onlar bircə *Habeas Corpus* hüququ istisna olmaqla bütün hüquqları toxunulmaz etmişlər. Ancaq bəziləri iddia edir ki, müharibə dövründə ölkənin təhlükəsizliyi hərbi vəziyyət haqqında qanunları genişləndirməyi tələb edir. Bu belə olarsa, yəni *vətənin təhlükəsizliyi yalnız azadlıqdan imtina edilməsi bahasına təmin oluna bilərsə, onda inamla demək olar ki, belə vətəni qorumağa dəyməz.* Amma xoşbəxtlikdən, bu belə deyil.

Məsələ onda deyil ki, əgər ölkədə müharibə gedirsə və mülki hakimiyyət devrilibsə, fövqəladə vəziyyət haqqında qanunu tətbiq etmək lazımdır, ya yox. Məsələ onda da deyil ki, qiyamçı ştatları tərk-silah etmək və qiyamı yatırtmaq üçün hərbi başçı hansı idarə üsullarından istifadə edəcək. Lakin hərbi hakimiyyətlər bizdən daha böyük səlahiyyətlər tələb edirlər. Son qiyam dövründə vəziyyət tələb edirdi ki, loyal ştatlar müəyyən hərbi dairələrə daxil olunsun və onlara komandanlar təyin edildi. İddia olunur ki, bu fakt özü həmin ştatları müharibə meydanına çevirib və İndianaya düşmən tərəfindən müdaxilə təhlükəsi qaldığına görə, orada hərbi vəziyyət barədə qanunlar tətbiq edilib.

Lakin bu fikir real vəziyyətdən irəli gəlmirdi. İndiana ərazisində hərbi hissələr yaradılsa da, onlardan tamam başqa yerlərdə, yəni qanunların işləməsinə imkan verilməyən, hökumət orqanlarının iflic vəziyyətə düşdüyü yerlərdə istifadə olunurdu. Düşmən İndiananın ərazisinə soxulmamışdı, hətta soxulmuşdusa da, bu müdaxilə artıq qurtarıb. Məhz bu faktlardan çıxış edərək hərbi vəziyyət tətbiq olunmasının qanuniliyini araşdırmaq lazımdır. Yalnız müdaxilə təhlükəsinə görə hərbi vəziyyət tətbiq etmək olmaz. Təhlükə real olmalıdır və baxılan dövrdə davam etməlidir *(actual and present),* müdaxilə özü doğrudan da baş verməli və məhkəmələrin bağlanmasına və mülki hakimiyyətin devrilməsinə gətirməlidir.

Satış üçün nəzərdə tutulmayıb

Aydın deyil ki, nəyə görə ölkənin təhlükəsizlik maraqları İndianada hərbi vəziyyətin tətbiq olunmasını tələb edirdi. Onun vətəndaşları xəyanətə hazırlaşırdılarsa, onları hələlik həbsə almaq, sonra – dövlət və məhkəmələr buna hazır olanda isə məhkum etmək olardı. Dəlillərin müzakirəsi hərbi tribunallarda da, mülki məhkəmələrdə də gedə bilər; və əgər hakimlər qanuni sübutlar əsasında qərar çıxartmaq istəyirlərsə, onda hüquqi təhsili olmayan adamlardan ibarət hərbi tribunala nisbətən, "[Konqres tərəfindən] təyin edilmiş və təsdiq olunmuş" məhkəmə hər hansı şəxsi, sözsüz ki, daha obyektiv mühakimə etməyə qabildir.

Yuxarıda deyilənlərdən bu nəticə çıxır ki, hərbi vəziyyət haqqında qanunların tətbiq edilə bildiyi hallar var. Əgər xarici müdaxilə və ya vətəndaş müharibəsi vaxtı məhkəmələr əslində bağlanılıbsa və cinayətin mühakiməsini lazımi prosedur əsasında aparmaq mümkün deyilsə, onda ordunun və cəmiyyətin müdafiəsi məqsədi ilə, aktiv hərbi əməliyyatlar meydanında mülki hakimiyyəti hərbi hakimiyyətlə əvəz etmək qərarını vermək lazımdır. Ərazidə hərbi hakimiyyətdən başqa heç bir hakimiyyət qalmadığına görə hərbi vəziyyət barədə qanunların tətbiqinə yol verilə bilər; amma o, yalnız qanunların qüvvəsi bərpa olunmayan dövrdə tətbiq oluna bilər. Bu hərbi vəziyyət müvəqqəti şəraitlə bağlı tətbiq edildiyinə görə, onun müddəti bu şəraitin davam etmə müddəti ilə məhdudlaşmalıdır. Lakin hərbi hakimiyyət mülki məhkəmələrin fəaliyyəti bərpa olunandan sonra da saxlanılarsa, bu, hakimiyyətin kobudcasına qəsb edilməsi deməkdir. Ədalət mühakiməsini lazımi qaydada və maneəsiz icra etməyə qabil olan açıq məhkəmələr fəaliyyət göstərən yerdə hərbi vəziyyət haqqında qanunlar tətbiq edilə bilməz. O, həm də real döyüş əməliyyatları baş verən ərazi ilə məhdudlaşır.

Mənbə: 4 Wallace (1866), 2.

Satış üçün nəzərdə tutulmayıb

Sənaye Amerikası

Vətəndaş müharibəsindən Birinci Dünya müharibəsinədək keçən müddətdə Birləşmiş Ştatlarda intensiv inkişaf müşahidə olunurdu. Təkcə 1870-ci ildən 1900-cü ilə qədər olan müddətdə əhalinin sayı ikiqat artaraq 38,6 milyondan 76 milyona çatmışdı. Bu artımın xeyli hissəsi Avropadan olan immiqrantların sayəsində mümkün olmuşdu. Buna görə də, Amerika onların özlərini dolandıra bilməsinə imkan vermək üçün ölkənin tarixində ən liberal torpaq proqramı qəbul etdi. Əvvəllər əsasən kənd təsərrüfatı ölkəsi olan Amerika çox sürətlə urbanizasiyaya uğradı. Bu dəyişikliklərin hərəkətverici qüvvəsi ölkə iqtisadiyyatının sənayeləşməsi idi. Ölkə əhalisinin sayı ikiqat artmış olduğu otuz il müddətində zavodların və dəyirmanların məhsuldarlığı dörd dəfə artmışdı. Yeni texnologiyalardan və yeni mallardan istifadə edilməsi sayəsində amerikalılar daha yaxşı və daha çox yaşamağa başlamışdılar. Sənaye dünyasında həyat səviyyəsinin artmasını hətta adi fəhlələr də hiss edirdilər.

Lakin bu tərəqqi ölkəyə çox baha başa gəldi. Zavodlar havanı və suyu çirkləndirirdi, şaxtalarda və zavodlarda iş şəraiti isə heç də təhlükəsiz deyildi. Ayrı-ayrı zavodlarda və fabriklərdə əmək şəraiti dəhşətli vəziyyətdə idi – minlərlə insan öz dolanışığını təmin etmək üçün sutkada 12 saat və daha çox işləyirdi.

Amerikalıların əksəriyyətini ən çox narahat edən isə sənayeləşmənin siyasi həyata təsiri məsələsi idi. Vətəndaş müharibəsinə qədər pul milli siyasətdə mühüm rol oynamırdı (yeri gəlmişkən xatırladaq ki, həmin dövrdə Amerikada yalnız bir milyoner vardı və bu şəxs Con Cakob Astor *(John Jacob Astor)* idi). Şəhərlərin, kəndlərin və daha kiçik yaşayış məntəqələrinin siyasi həyatında əsas rol oynayan qüvvə yerli elita idi. Lakin Ştat səviyyəsində və bütün ölkə səviyyəsində siyasət həqiqətən demokratik siyasət idi. Bəs, hədsiz dərəcədə varlı insanlar siyasi arenaya çıxmaq istəsəydilər, onda nə baş verərdi? Sərvətlərin bu cür təmərküzləşməsi şəraitində orta imkanlara malik olan vətəndaş öz siyasi hüquqlarını qorumaq iqtidarındadırmı?

O dövrün islahatçıları korrupsiyanın demokratiyanı üstələyə biləcəyindən ehtiyat edərək çalışırdılar ki, siyasi sistem təmiz olmaqla yanaşı, həm də ondan hamı bərabər

Satış üçün nəzərdə tutulmayıb

dərəcədə istifadə edə bilsin. İslahatçılar arasında sənayeləşmənin əleyhdarları az idi; Birləşmiş Ştatlarda İngiltərədəki ludditlər[65] hərəkatı ilə müqayisə edilə biləcək bir hərəkat yox idi. İslahatçılar hədsiz sərvətin də əleyhinə deyildilər, çünki onların əksəriyyəti böyük istehsalatların genişlənməsinin labüd olması fikri ilə barışmışdılar.

Lakin iqtisadi baxışların müxtəlifliyinə baxmayaraq, bütün islahatçılar Birləşmiş Ştatları açıq və demokratik cəmiyyət kimi qoruyub saxlamağa çalışırdılar və irəlidə görəcəyimiz kimi, həmin cəhd çox müxtəlif formalarda təzahür edirdi.

Əlavə məlumat üçün oxuyun: Robert Wiebe, The Search for Order, 1877-1920 (1967); Morton Keller, Affairs of State (1977); John W. Chambers, The Tyranny of Change (1980); and Richard Abrams, The Burdens of Progress (1978).

27. Morrill Aktı (1862)

Cənub İttifaqın tərkibindən çıxandan sonra İttifaqın tərkibində qalmış Şimal ştatları qanunvericilik aktları qəbul etməyə başladılar. Cənublular 1860-cı ilə qədər həmin qanunvericilik aktlarının qəbul edilməsinə Konqresdə mane olurdular. Belə aktların çoxu, məsələn, trans-qitə dəmir yolu çəkilişi üçün icazə barədə akt qərb ərazilərinin iqtisadi tərəqqisinə və genişlənməsinə şərait yaradırdı.

Belə qanunlardan ikisini Konqres 1862-ci ildə qəbul etmişdi. "Torpaqların sakinlərə paylanması haqqında akt" *(The Homestead Act)* ölkənin hər bir vətəndaşına və ya ölkənin vətəndaşı olmaq niyyətində olan hər bir şəxsə 160 akr[66] dövlət torpağı almaq, beş il həmin torpaq sahəsində yaşayandan sonra isə onu nominal dəyərinə girovdan çıxarmaq imkanı verirdi. Bu akt Amerikanın tarixində insanların torpaqlarda məskunlaşmasına və torpağı öz mülkiyyətlərinə almalarına imkan vermiş ən səxavətli torpaq aktı oldu.

Elə həmin ildə qəbul edilmiş və ölkənin qərbindəki yeni ştatların öz vətəndaşları üçün kolleclər açmasına imkan vermiş Morill Aktı da çox mühüm sənəd idi. Hələ müstəmləkələr dövründən başlayaraq, ümumi ibtidai təhsil Amerikaya xas olan demokratik təfəkkü-

Satış üçün nəzərdə tutulmayıb

rün əsas ideyalarından biri olmuşdu. 1860-cı illər ərəfəsində ali məktəbdən istifadə imkanı get-gedə genişlənirdi, siyasətçilərin və maarifçilərin çoxu istəyirdi ki, bütün gənc amerikalılar mütərəqqi təhsil almaq imkanına malik olsunlar.

Hələ 1857-ci ildən həmin aktın qəbul edilməsinə çalışan, özü Vermontdan olan konqresmen Castin Morrillin (*Justin Morrill*) sayəsində Konqres İttifaqın tərkibində qalmış ştatların hər birinə onun Konqresdəki nümayəndə heyətinin hər üzvü üçün 30 000 akr dövlət torpağı ayrılmasını nəzərdə tutan akt qəbul etdi. Konstitusiyaya görə hər bir ştatın ən azı iki senatoru və bir nümayəndəsi olduğu üçün, hətta ən kiçik ştatların da hərəsi 90 000 akr torpaq aldılar. Ştatlar bu torpaqları satmalı, əldə edilən vəsait hesabına tikinti, kənd təsərrüfatı və hərb elmi sahəsində kolleclər yaratmalı idilər. Morrill Aktına müvafiq olaraq, 70-dən çox "torpaq" kolleci *("land grant" colleges)* yaradıldı. 1890-cı ildə qəbul edilmiş daha bir akta əsasən, torpaq sahələrinin ayrılması 16 cənub ştatına da şamil edildi.

Torpaq kolleclərinin əhəmiyyəti böyükdü. Başlanğıcda onlar kənd təsərrüfatı məktəbləri və texniki məktəblər kimi nəzərdə tutulmuş olsalar da, ştatların əlavə yardımı sayəsində bu kolleclərin çoxu inkişaf edərək iri ştat universitetlərinə çevrilmiş və uzun illər boyu milyonlarla amerikalının təhsil almasına imkan yaratmışdılar.

Əlavə məlumat üçün oxuyun: Allen Nevins, The State Universities and Colleges (1962); Fred F. Harderoad, Colleges and Universities for Change (1987); and Ralph D. Christy, A Century of Service: Land-grant Colleges and Universities, 1890-1990 (1992).

MORRİLL AKTI

Bəzi ştatlarda və ərazilərdə kənd təsərrüfatı və texniki elmlər sahəsində kolleclər yaratması məqsədilə onlara dövlət torpaqları verilməsi barədə Akt.

Amerika Birləşmiş Ştatlarının Konqresində birləşmiş Senat və Nümayəndələr Palatası tərəfindən qərara alınır ki, aşağıda göstərilən məqsədlər üçün bəzi ştatlara dövlət tərəfindən torpaq sahəsi verilir; hər bir Ştata onun hər bir senatoru və Konqresdəki hər bir nümayəndəsi üçün 1860-cı ildə əhalinin siyahıya alınmasına uyğun olaraq 30 000 akr torpaq verilməlidir, bu şərtlə ki, bu Akta müvafiq olaraq tərkibində mineral resurslar olan sahələr paylanmayacaq və pul ilə alınmayacaqdır.

Satış üçün nəzərdə tutulmayıb

Maddə 2. Həmçinin qərara alınır ki, yuxarıda göstərilən torpaqlar öyrənildikdən sonra ştatlar arasında ayrı-ayrı sahələr şəklində və ya hər birinin ölçüsü bir sahənin dörddəbir hissəsindən az olmayan hissələr şəklində bölüşdürüləcəkdir. Əgər Ştatın mülkiyyətində olan torpaqlar bir akrın qiyməti 1,25 dollar olmaqla satılmalıdırsa, bu halda hər bir Ştat üçün ayrılmış torpaq sahəsi məhz bu cür torpaqlardan ayrılacaqdır. Bu halda daxili işlər naziri bu cür torpaqları olmayan hər bir Ştata torpaq sahəsinin çatışmayan miqdarını təsdiq edən sertifikat verməyə borcludur. Yuxarıda göstərilən ştatlar bu sertifikatı satmalı, əldə edilmiş vəsaiti isə yalnız bu aktda göstərilən məqsədlər üçün sərf etməlidirlər…

Maddə 4. Həmçinin qərara alınır ki, yuxarıda göstərilən torpaqların və ya onların çatışmayan miqdarı üçün sertifikatların satışından əldə edilən bütün vəsait Birləşmiş Ştatların dövlət istiqrazlarına və ya ştatların özlərinin istiqrazlarına sərmayə qoyulacaq, bu şərtlə ki, əldə edilən mənfəət istiqrazların dəyərinin 5 faizindən az olmasın və bu qayda ilə sərmayə qoyulan vəsait daimi fond təşkil etsin. Bu fondun kapitalı heç vaxt (bu aktın 5-ci maddəsində qeyd edilən hallar müstəsna olmaqla) azalmayacaq və bu fonddan əldə edilən qazanc həmin fondun yaranmasına sərmayə qoymuş hər bir Ştat tərəfindən ən azı bir kollecin yaradılması, ona kömək edilməsi və dəstəklənməsi məqsədilə istifadə ediləcəkdir; bu kollecdə digər elmi və klassik fənlərdən əlavə (hərbi taktika da daxil olmaqla), kənd təsərrüfatının və texniki elmlərin həyatda müxtəlif məşğuliyyət və peşə sahibləri üçün zəruri olan, sənaye siniflərinin sərbəst inkişafı və praktiki yaranması məqsədilə Ştatın Qanunverici Məclisi tərəfindən məqsədəuyğun hesab edilən sahələri də öyrədiləcəkdir...

Altı. Birləşmiş Ştatların hakimiyyətini tanımayan və ya Birləşmiş Ştatlara qarşı qiyam qaldıran ştatların heç biri bu Aktda göstərilən üstünlüklərdən istifadə edə bilməz...

Mənbə: U.S. Statutes at Large 12 (1862): 503.

Satış üçün nəzərdə tutulmayıb

28. Pendlton Qanunu (1883)

Vətəndaş müharibəsindən sonrakı ilk illərdə federal hakimiyyət orqanlarında xidmət çox da populyar deyildi, çünki məmurların seçilməsi və onların fəaliyyətinə nəzarət sistemi irrasional idi. XIX əsrin əvvəllərində təşəkkül tapmış bu sistem məşhur "Bal tutan barmaq yalayar" zərb-məsəli əsasında yaranmışdı. Əlbəttə, bu, məmur vəzifələrinə təyin edilən adamların hamısının əliəyri olması demək deyildi. Xeyr, məmurların çoxu təmiz adamlar idi, lakin sistem özü çox səmərəsiz idi. Bununla belə, vəzifə rotasiyası ideyası cəmiyyətdə "demokratik ideya" hesab edilirdi. 1829-cu ildə prezident Endryu Cəkson bununla əlaqədar demişdi:

> "Rəsmi vəzifə tutmaq məsələsində heç bir kəs başqa vətəndaşlardan artıq hüquqa malik deyildir... Bütün dövlət qulluqçularının vəzifə borcları o qədər aydın və sadədir, yaxud hər halda o qədər aydın və sadə tərtib edilməlidir ki, ağlı başında olan hər bir adam həmin vəzifələri yerinə yetirə bilsin".

Lakin istər 1829-cu ildə, istərsə də 50 ildən sonra həqiqi vəziyyət belə deyildi. Kadrların daimi axıcılığı dövlət qulluğunda xidmət təcrübəsi toplamağa imkan vermirdi. Hər dəfə seçkilər keçirilərkən hökumət məmurları vahiməyə düşür və öz işlərinə sədaqət hiss etmirdilər, çünki onların xidmət müddəti, adətən, çox qısa olurdu. Henri Kley demişkən, seçkilərdən sonra məmurlar "vəba xəstəliyi yayılmış Qahirənin sakinlərinə oxşayırlar, bu dəfə kimin əcəli çatacağını heç kəs bilmir".

İllər keçdikcə bu qüsurlar daha ciddi və nəzərəçarpan olurdu. Siyasi liderlər tələb edirdilər ki, onların vəzifəyə təyin etdikləri məmurlar öz vaxtlarını və pullarını partiyanın işlərinə sərf etsinlər. Hər növbəti seçkidən sonra qalib gələn siyasətçilər vəzifə hərisləri tərəfindən əhatə olunurdu, idarəetmə strukturlarına təsir uğrunda prezidentlə konqres arasında qalmaqallar isə adi hala çevrilmişdi. 1880-ci illərdə Vaşinqtonda çıxan qəzetləri vərəqləyəndə orada aşağıdakı məzmunlu elanlara rast gəlmək olardı:

> "Məvacibi ildə 1 000 dollar olmaqla DÖVLƏT QULLUQÇUSU İŞİ AXTARIRAM. Hər kəs mənə belə bir vəzifə tapsa, ona 100 dollar verərəm".

Federal bürokratik aparat genişləndikcə vəziyyət daha da mürəkkəbləşirdi. Cəksonun prezidentliyi dövründə 20 000 məmur federal büdcədən məvacib alırdı. Vətəndaş müharibəsinin axırlarında bu rəqəm artaraq 53 000, 1884-cü ildə 131 000, 1891-ci ildə isə 166

Satış üçün nəzərdə tutulmayıb

000 çatmışdı. İşsizlər prezidentləri sözün hərfi mənasında mühasirəyə alırdılar. Ceyms Qarfild *(James Garfield)* prezident olanda aşkar etdi ki, vəzifə əldə etmək istəyənlər onu "quzğunlar yaralı bizonu təqib etdiyi kimi" izləyirlər.

Bundan əlavə, hökumətdə yeni vəzifələr xüsusi vərdişlər tələb edirdi. 1880-ci illərin əvvəllərində yazı makinaları tətbiq edilməyə başlandı. Bu o demək idi ki, indən belə klerk işi ala bilmək üçün təkcə savadlı olmaq və qəşəng xətlə yazmağı bacarmaq kifayət etməyəcək. "Ştatlar arasında Ticarət üzrə Komissiya" və ixtisaslaşdırılmış kənd təsərrüfatı idarələri qəbilindən olan hökumət idarələri yaradılanda həm də elmi biliklərə tələbat yarandı; dövlət qulluqçularının seçilməsi üçün tətbiq edilən köhnə praktika isə savadlı mütəxəssisləri işə cəlb etməyə şərait yaratmırdı.

1877-ci ildə Nyu-Yorkda dövlət qulluqçularının hərəkatı başlandı. Bu hərəkat ictimaiyyətin sanballı dəstəyini qazanmasına baxmayaraq, siyasətçilər onu dəstəkləməkdən imtina edirdilər. Lakin vəzifə əldə etməyə ümidini itirmiş Çarlz Gityu *(Charles Guiteau)* prezident Qarfildi qətlə yetirəndən sonra dövlət qulluğu ilə bağlı problemlərin cəmiyyətdə doğurduğu hiddəti nəzərə almamaq mümkün deyildi.

Pendlton Qanununa əsasən, bəzi vəzifələr seçkilərdə qalib gəlmiş namizədə və ya onun mənsub olduğu partiyaya seçkilərin gedişində xidmətlər göstərmiş şəxslərin təyin edildiyi vəzifələrin siyahısından çıxarıldı və məxsusi Mülki Xidmət Komissiyası *(Civil Service Commission)* yaradıldı. Bu Komissiya dövlət qulluqçularını seçərkən namizədlərin siyasi əlaqələrini deyil, onların şəxsi keyfiyyətlərini nəzərə almalı idi. İllər keçdikcə sözügedən təsnifata daxil edilən vəzifələrin sayı artdı və nəticə etibarilə, Amerikada səriştəli və təcrübəli dövlət bürokratiyası yarandı. 1883-cü ildə həmin təsnifata daxil edilmiş iş yerlərinin sayı 15 000-dən az olduğu halda 1897-ci ildə MakKinlinin *(William McKinley)* prezidentliyi dövründə bu rəqəm artıq 86 000-ə çatmışdı. Bu o demək idi, bütün federal qulluqçuların təqribən yarısı təsnifat vəzifələrini tuturdu. Bu gün dörd min (dövlət qulluqçularının ümumi sayının 10% qədər) "siyasi vəzifə" istisna olmaqla, federal vəzifələrin demək olar ki hamısı mülki xidmət sistemi vasitəsilə idarə edilir.

Əlavə məlumat üçün oxuyun: Ellen C. DuBois, Feminism and Suffrage (1978); Eleanor Flexner, Century of Struggle (rev. ed. 1975); and Lois W. Banner, Elizabeth Cady Stanton (1980).

Satış üçün nəzərdə tutulmayıb

PENDLTON QANUNU

Birləşmiş Ştatların Mülki Xidmətini nizamlayan və təkmilləşdirən qanun (1883)

Qanun olsun... Prezident Senatın məsləhəti və razılığı ilə Mülki Xidmət Komissiyasının üzvü kimi üç nəfəri (onların ikisindən çoxu eyni partiyanın üzvü olmamaqla) təyin etmək səlahiyyətinə malikdir və komissiyanın bu üç üzvü Birləşmiş Ştatların Mülki Xidmət Komissiyasını təşkil etməlidir. Yuxarıda göstərilən komissiya üzvləri Birləşmiş Ştatların hər hansı digər rəsmi vəzifəsini tutmamalıdır.

2-ci fəsil. Yuxarıda göstərilən komissiya üzvlərinin vəzifələri:

Birincisi. Bu qanunun həyata keçirilməsi üçün zəruri qaydaların hazırlanmasında prezidentə onun tələbi ilə kömək etmək. Və yuxarıda göstərilən qaydalar elan edildikdən sonra bu qaydaların aid ola biləcəyi departament və ofislərdə Birləşmiş Ştatların bütün vəzifəli şəxsləri bu qaydaların və onlara hər hansı düzəlişin yerinə yetirilməsində bütün mümkün vasitələrlə yardımçı olmağa borcludurlar.

İkincisi. Bu qaydalar, digər şeylərlə yanaşı, yaxşı administrasiya şəraitinin tələb etdiyi kimi, aşağıdakıları da təmin və tələb etməlidir:

1. Namizədlərin keçirilən imtahana uyğun olaraq təsnif edilmiş, yaxud gələcəkdə ediləcək mülki xidmətə yararlı olduğunu müəyyən etmək üçün açıq yarış imtahanları. Bu imtahanlar əməli xarakter daşımalı, imtahan edilən adamın uyğun qabiliyyətini və onun iddia etdiyi vəzifəni yerinə yetirməyə yararlı olduğunu imkan daxilində qərəzsiz müəyyən edən fənnə aid olmalıdır.

2. Qruplara bölünmüş, yaxud bölünəcək bütün ofislər, vəzifələr, iş yerlərini bu imtahanlarda ən yüksək nəticələrə nail olmuş namizədlər tutmalıdır.

3. Yuxarıda deyilmiş mülki xidmətə Vaşinqtonda departamentlərə təyinatlar müxtəlif Ştatlar, Ərazilər və Kolumbiya Dairəsi arasında əhalinin sonuncu siyahıyaalmaya uyğun sayına görə mütənasib bölünməlidir...

4. Hər bir qəti təyinatdan, yaxud işəgötürmədən qabaq sınaq müddəti olmalıdır.

5. Dövlət xidmətində olanlardan heç kəs hər hansı siyasi fonda vəsait köçürməməli, kiməsə siyasi yardım göstərməməlidir, o özü də bu işləri etmədiyinə görə işdən azad edilə, yaxud təqib edilə bilməz.

Satış üçün nəzərdə tutulmayıb

6. Yuxarıda göstərilən Xidmətdə olan hər hansı şəxs özünün rəsmi səlahiyyətlərindən, hər hansı şəxsin, yaxud təşkilatın siyasi fəaliyyətinə təsir, yaxud müdaxilə etmək üçün istifadə etmək hüququna malik deyildir...

7. Müvafiq hallarda komissiya qeyri-rəqabət imtahanları da keçirəcəkdir. Bu vaxt təyinata uyğun gələn adamlar öz aralarında rəqabət aparmayacaqlar. Bu halda boş yerin olması haqqında elana bu imtahanın komissiya üzvləri müəyyən olunmuş qaydaları da əlavə etməlidir.

Üçüncüsü. Yuxarıda göstərilən komissiya prezidentin müəyyən edə biləcəyi qaydalara uyğun olaraq bu cür imtahanlar üçün normalar müəyyənləşdirməli və onların gedişinə nəzarət etməlidir.

3-cü fəsil. ...Vaşinqtonda və imtahan keçiriləcək Ştat və Ərazilərin bir və ya daha çox yerində komissiya şöbə və ya ofisin rəhbərləri ilə əvvəlcədən məsləhətləşib onlarda işləyən dövlət qulluqçularından ibarət və üç nəfərdən az olmamaqla imtahan komissiyaları yaratmalıdır...

6-cı fəsil. Bu qanun qəbul olunandan sonra altmış gün ərzində maliyyə naziri... klerklərinin sayı əlliyə bərabər olmalı olan hər bir gömrük dairəsində... vergi müfəttişləri, hərbi dəniz komandirləri, gömrük xidməti, yaxud qiymətqoyanlar tərəfindən işə qəbul edilən müxtəlif klerk və şəxsləri dərəcələr üzrə yerləşdirməlidir. Və sonra maliyyə naziri prezidentin göstərişi ilə... istənilən gömrük dairəsində vaxtaşırı bu cür təsnifat keçirməlidir.

7-ci fəsil. Bu qanunun qəbulundan altı ay keçdikdən sonra heç bir vəzifəli şəxs... imtahansız, yaxud xüsusi olaraq imtahandan azad edilmədən... təyin edilməməli, yaxud onun dərəcəsi dəyişdirilməməlidir.

Lakin burada əks olunanların heç birinə prezidentə (yuxarıda göstərilən statusun 1758-ci bölməsində) verilmiş və bu qanuna zidd olmayan səlahiyyətlərin pozulması kimi baxılmamalıdır.

Hakimiyyətin icraedici qolundan olmayan vəzifəli şəxs, yaxud fəhlə kimi işə götürülən hər hansı şəxs təsnifata daxil edilmir.

Senatda təsdiq edilməli olan istənilən adam Senatın xüsusi göstərişi olmadan təsnifata daxil edilmir və imtahan vermir.

8-ci fəsil. Çoxlu məstedici içkilər içən adam bu qanunun təsir dairəsindəki dövlət xidmətinə təyin edilməməli, yaxud orada saxlanılmamalıdır...

Satış üçün nəzərdə tutulmayıb

9-cu fəsil. Bu qanunun təsiri altına düşən dövlət vəzifələrində bir ailənin iki, yaxud daha çox üzvü işləyirsə, ailənin başqa üzvü buraya təyin edilə bilməz.

10-cu fəsil. İmtahan komissiyasının üzvləri namizədlərin şəxsi keyfiyyətlərinə dair təqdimatlar istisna olmaqla, senatorlardan, yaxud Konqres üzvlərindən namizədin işə qəbul olunması haqqında heç bir xahiş qəbul etməməlidir.

11-ci fəsil. Birləşmiş Ştatların istənilən hakimiyyət qolundan olan dövlət qulluqçularının heç biri... hər hansı dövlət qulluqçusundan, yaxud Birləşmiş Ştatların Xəzinəsindən əmək haqqı və ya mükafat alan şəxsdən birbaşa, yaxud dolayısı ilə hər hansı muzd, yaxud ianə, ya da siyasi məqsədlərlə vəsait almamalıdır...

Mənbə: *U.S. Statutes at Large* 22 (1883): 403.

29. Xalq Partiyasının Platforması (1896)

On doqquzuncu əsrin axırlarında ümumi həyat səviyyəsinin yüksəlməsi fermerlərdən yan keçmişdi və onlar özlərini sənayeləşmə prosesinin qurbanları hesab edirdilər. 1870-ci illərdən başlayaraq, fermerlər özlərinin hökumətdə və iqtisadiyyatda korrupsiya adlandırdıqları, böyük biznes və dəmir yollarıyla əlaqələndirdikləri vəziyyəti aradan qaldırmaq üçün müxtəlif üsullarla səmərəli siyasi hərəkat təşkil etməyə çalışırdılar. Əslində isə fermerlərin bu vəziyyəti daha çox sənayeləşmə ilə əlaqədar olmayan amillərdən irəli gəlmişdi. Bu cür amillər arasında, məsələn, beynəlxalq dənli bitkilər və buğda bazarlarında qiymətlərin dəyişməsini qeyd etmək olar. Lakin çox vaxt hissiyyat reallıqdan daha güclü olur. Amerikalı fermerlər də elə hesab edirdilər ki, onların əcdadlarının qurduğu demokratik sistem dağılmaqdadır.

Aqrar yönümlü siyasi hərəkatların ən uğurlusu Xalq Partiyası *(People's Party)* və ya Populist Partiya *(Populist Party*) idi. 1892-ci ildə keçirilən seçki kampaniyasından sonra Amerikanın siyasi sisteminin tərkib hissəsinə çevrilmək üçün ki-

Satış üçün nəzərdə tutulmayıb

fayət qədər güclənmiş olan bu partiyanın əsas qüvvələri ölkənin aqrar mərkəzi sayılan Cənub və Orta Qərb Ştatlarında cəmləşmişdi. Hərçənd partiyanın liderləri Şərqdən olan fəhlələri də cəlb etməyə çalışırdılar.

Xalq Partiyasının 1896-cı ildə qəbul etdiyi platforma bir neçə səbəbdən əlamətdardır. Əvvələn, bu platforma fermerlərin iyirmi il müddətində mövcud sistemdən narazılığını yekunlaşdırırdı. Onların fikrincə, bu sistem fermerlərin ehtiyaclarına məhəl qoymadan onları amansızcasına istismar edirdi. Lakin fermerləri narazı salan təkcə böyük biznes deyildi. Populistlər belə hesab edirdilər ki, hökumətlə böyük biznesin alyansı Amerika demokratiyasını puç edə bilər. Buna görə də, onların bütün təkliflərinin iki məqsədi vardı: kənd təsərrüfatına iqtisadi təzyiqi zəiflətmək və ətrafda hər şeyi korrupsiyaya qoşan, özü də başdan-ayağa korrupsiyaya qurşanmış bu alyansı aradan qaldırmaq yolu ilə demokratiyanı bərpa etmək...

Bu cür tələblər o dövr üçün radikal hesab edilsə də, həmin tələblərin çoxu, məsələn, senatorların birbaşa seçilməsi və diferensiasiyalı gəlir vergisinin tətbiq edilməsi, sonrakı bir neçə onillik ərzində siyasi sistemə daxil edilmiş və qanuniləşdirilmişdi. Xalq Partiyasının platforması Birinci Dünya müharibəsi ərəfəsində ölkədə həyata keçirilən islahatların təməlini qoymuşdur. 1896-cı il seçkilərindən sonra Xalq Partiyasının çox hissəsi demokratlar partiyasına qoşulduğuna görə, o öz mövcudluğunu başa vurdu.

Əlavə məlumat üçün oxuyun: John D. Hicks, The Populist Revolt (1931); Richard Hofstadter, The Age of Reform (1955); and Lawrence Goodwyn, The Populist Movement (1978).

XALQ PARTİYASININ PLATFORMASI

Satış üçün nəzərdə tutulmayıb

Ümummilli qurultaya toplaşmış Xalq Partiyası respublikanın baniləri tərəfindən bəyan edilmiş prinsiplərə və bu partiyanın 1892-ci ildə qəbul etdiyi platformada öz əksini tapmış ədalətli dövlətin əsas prinsiplərinə sadiq olduğunu təsdiq edir.

Biz görürük ki, indiki və əvvəlki hökumətlərin köməyi sayəsində ölkə dərin milli böhrana uğramışdır. Bunu biz dörd il əvvəl qəbul etdiyimiz bəyannamədə açıqlamışıq. Bu gün bizim hər birimiz təxirəsalınmaz vətənpərvər tədbirlər görməyə borcluyuq. Biz başa düşürük ki, ölkəmiz siyasi müstəqilliyə malik olduğuna baxmayaraq, ölkədə xalq hakimiyyəti üçün zəruri olan funksiyaların və konstitusiya nəzarətinin bərpa edilməsi yolu ilə maliyyə müstəqilliyi və sənaye müstəqilliyi də əldə edilməlidir. Dövlət qulluqçularımız bu funksiyaları əslində korporativ monopoliyalara həvalə ediblər. Avropanın maliyyə alverçilərinin bizim qanunvericiliyə təsiri Amerika xalqının səsindən daha güclü olmuşdur. İcra Hakimiyyətindən və şəxsi əlaqələrdən bizim qanunvericilik orqanlarını pul gücünə ələ gətirmək və xalqın əzmini qırmaq üçün istifadə edilmiş və bunun nəticəsində demokratiyanın xarabalıqları üzərində plutokratiya[67] bərqərar olmuşdur. Biz ata-babalarımızın düşündüyü dövləti bərpa etmək üçün, eləcə də indiki və gələcək nəsillərin rifahı və tərəqqisi naminə, elə iqtisadi və maliyyə sistemin yaradılmasını tələb edirik ki, həmin sistemdə biz öz həyatımızın sahibi olaq və Avropanın nəzarətindən asılı olmayaq. Bu məqsədə nail olmaq üçün biz aşağıdakı prinsiplərin həyata keçirilməsini tələb edirik:

Maliyyə sahəsi

1. Biz tələb edirik ki, möhkəm və sağlam milli valyuta yalnız ümumi hökumət tərəfindən və emission bankların müdaxiləsi olmadan buraxılsın. Milli valyuta bütün borcların – həm dövlət, həm də şəxsi borcların ödənilməsi vasitəsi olmalıdır; o, qanuni dövlət ödənişləri vasitəsilə əhali arasında bölüşdürülən ədalətli, birqiymətli və səmərəli vasitəyə çevrilməlidir.

2. Biz tələb edirik ki, xarici dövlətlərin razılığını gözləmədən gümüş və qızıl sikkələr indiki 16:1 nisbətində sərbəst və qeyri-məhdud həcmdə buraxılsın.

3. Biz tələb edirik ki, dövriyyə vəsaitlərinin həcmi biznesin və əhalinin tələbatını ödəmək üçün zəruri həddə qədər dərhal artırılsın; biz həmçinin tələb edirik ki, əməyin və məhsulların ədalətli dəyəri bərpa olunsun.

4. Biz dövlət borcunun artmasına gətirib çıxaran istiqrazlar satışını pisləyirik və hesab edirik ki, indiki hökumətinin bu addımına ehtiyac yoxdur

Satış üçün nəzərdə tutulmayıb

və o, qanuna əsaslanmır. Biz tələb edirik ki, Konqresin müvafiq icazəsi olmadan yeni istiqrazlar buraxılmasına son qoyulsun.

5. Biz elə bir qanun qəbul olunmasını tələb edirik ki, o, Birləşmiş Ştatların qanuni pul sikkələrinin özəl razılaşmalar əsasında dövriyyədən çıxarılmasının qarşısını alsın.

6. Biz tələb edirik ki, Dövlət öz borc öhdəliklərini ödəyərkən pulun növünü özü seçsin. Biz indiki və əvvəlki hökumətləri ona görə pisləyirik ki, onlar bu seçim hüququnu dövlətin borc öhdəliklərinin sahiblərinə verirdilər.

7. Biz gəlir vergisi üçün dərəcələr tətbiq olunmasını tələb edirik ki, verginin dərəcəsi əmlakın məbləğinə müvafiq olsun. Biz Ali Məhkəmənin gəlir vergisi barəsində bu yaxınlarda qəbul etdiyi qərarı Konstitusiyanın düzgün şərh edilməməsi və Konqresin vergitutma barədə qərarlar çıxarmaq kimi qanuni hüququna qəsb edilməsi kimi qiymətləndiririk.

8. Biz tələb edirik ki, Dövlət əhalinin əmanətlərinin etibarlı saxlanması və maliyyə əməliyyatlarının sadələşdirilməsi üçün poçt-əmanət bankları yaratsın.

Dəmir yolları və teleqraf

1. Nəqliyyat sektoru ictimai zərurət olduğu üçün dəmir yollarının sahibi Dövlət olmalıdır və Dövlət dəmir yolunu xalqın mənafeyinə uyğun tərzdə idarə etməlidir. Bu halda Dövlət heç kimə üstünlük verməməli, bütün istifadəçilərə eyni münasibət bəsləməlidir. Nəhəng dəmir yolu korporasiyalarının vətəndaşın siyasi hüquqlarını və şəxsi azadlıqlarını pozan və boğan diktatına və siyasi hakimiyyətinə son qoyulmalıdır. Mülkiyyətin bu növü üçün sahibkarlıq hüququ tədricən və sağlam dövlət siyasətinə zidd olmayan ruhda verilməlidir.

2. İctimai dəmir yolunda Birləşmiş Ştatların payı (hansı ki, ictimai vəsaitlər hesabına, eləcə də torpaqların "Pasifik" dəmir yolu şirkətinə təqdim edilməsinə görə əldə edilmiş vəsait hesabına alınıb) özgəninkiləşdirilə, girov qoyula və ya satıla bilməz. Bu dəmir yollarının təsis edilməsi barədə qanunlarda deyildiyi kimi, həmin payı qorumaq və onu ümumi rifah naminə müdafiə etmək lazımdır. Əgər dəmir yolu şirkəti Dövlət qarşısındakı borcları ödəmək iqtidarında deyildirsə, Birləşmiş Ştatlar onun əmlakına həbs qoymaq hüququna malik olmalıdır. Dəmir yolu şirkətinin girov qoyulmuş əmlakı satılacağı təqdirdə Dövlət öz payını geri götürməli və ya öz mənafelərini müdafiə etməklə həmin əmlakı ağlabatan qiymətə girovdan çıxarmalıdır. Dövlət dəmir yollarından bir ovuc adamın mənafeləri

Satış üçün nəzərdə tutulmayıb

üçün deyil, bütün xalqın xeyrinə, həyatın mühafizəsi və mülkiyyətin qorunması barədə müvafiq müddəalara uyğun olaraq istifadə etməlidir. Dövlət bütün əlaqədar tərəflərə eyni hüquqlar və imtiyazlar verməli, gediş-gəliş və daşımalar üçün eyni qiymətlər tətbiq etməlidir.

3. Biz borcların ödənilməsinin indiki sxemini pisləyir və mövcud qanunların ruhuna və məqsədlərinə uyğun olaraq icra edilməsini tələb edirik.

4. Təzə xəbərlərin çatdırılması üçün teleqraf və poçt zəruridir, Dövlət onlara sahiblik etməli və onları xalqın mənafeyi naminə idarə etməlidir.

İctimai torpaqlar

1. Ədalətli siyasət tələb edir ki, istər ştatların, istərsə də bütövlükdə Dövlətin qanunvericiliyi hər bir ağıllı və vicdanlı vətəndaşın öz evinə malik olmasına imkan versin. Buna görə də, torpaq al-ver məqsədləri üçün inhisarlaşdırıla bilməz. Hazırda dəmir yolu və digər korporasiyalara məxsus olan və onların istifadə etmədikləri bütün torpaqlar qanuni yolla Dövlətə qaytarılmalı və yalnız həmin torpaqlarda məskunlaşacaq insanlara verilməlidir. Torpaq üzərində inhisar və torpağa əcnəbilərin sahib olması qadağan edilməlidir.

2. Biz, Daxili İşlər Nazirliyinin köməyi ilə "Pasifik" dəmiryol şirkətinin bir sıra vicdanlı sakinləri öz evlərindən, şaxtaçıları isə öz iş yerlərindən məhrum etməsinə imkan vermiş fırıldaqları pisləyirik. Biz tələb edirik ki, Konqres, tərkibində mineral resurslar olan torpaqların idarəetməyə verilməsini qadağan edən qanun qəbul etsin.

3. Biz tələb edirik ki, Dövlətə məxsus bütün torpaqlarda vicdanlı məskunlara "Torpağın məskunlara paylanması haqqında" Milli qanunda *(National Homestead Law)* nəzərdə tutulduğu kimi, pulsuz evlər verilsin;

və, hindu rezervasiyaları üçün (onların torpaqları məskunlaşmaq üçün açıqdırsa) heç bir istisna tətbiq edilməsin;

və bu gün patentləşdirilməmiş torpaqların hamısı bu tələbə tabe edilsin.

Referendum

Biz Konstitusiya ilə etibarlı şəkildə təminatlandırılmış təşəbbüslər və referendumlar vasitəsilə qanunların "birbaşa" qəbul olunmasının tərəfdarıyıq.

Prezidentin və senatorların xalq tərəfindən birbaşa seçilməsi

Satış üçün nəzərdə tutulmayıb

Biz tələb edirik ki, Birləşmiş Ştatların prezidenti, vitse-prezidenti və senatorları birbaşa səsvermə nəticəsində xalq tərəfindən seçilsinlər...

Ərazilər

Biz Ərazilərdə və Kolumbiya mahalında[68] özünüidarə tətbiq edilməsinin, eləcə də bu Ərazilərin tezliklə Ştatlar qismində İttifaqa qəbul edilməsinin tərəfdarıyıq.

Dövlət qulluqçularının məvacibi

Bütün dövlət qulluqçularının məvacibi əməyin və onun nəticələrinin dəyərinə müvafiq olmalıdır.

Məşğulluğun Dövlət tərəfindən təmin edilməsi

Sənayedə tənəzzül dövründə istifadəsiz qalmış işçi qüvvəsindən, imkan daxilində, Dövlət tərəfindən yaradılmış iş yerlərində istifadə edilməlidir.

Məhkəmələrin özbaşınalığı

Vətəndaşlar məhkəməyə tabe olmayanda onları həbsə göndərən və insanın sərbəstliyini məhdudlaşdıran məhkəmələr çoxlu özbaşınalıqlara yol verir, – bunun qarşısını alan qanunlar olmalıdır.

Pensiyalar

Biz İttifaq ordusunun bütün əlil əsgərlərinə pensiya verilməsinin tərəfdarıyıq.

Namuslu seçkilər

Biz hesab edirik ki, seçki hüququ və azad seçkilər xalqın iradəsi ilə idarə edilən dövlət üçün həyati əhəmiyyət kəsb edir. Xalq partiyası bəzi ştatlarda seçki hüququnun vətəndaşlardan kütləvi şəkildə alınmasını antidemokratik və antirespublikaçı hərəkət kimi pisləyir. Və biz bəyan edirik ki, həmin Ştatların qanunverici məclisləri ümumi, azad və ədalətli seçkilər keçirilməsini və səslərin düzgün hesablanmasını təmin etməyə borcludurlar.

"Əsas problem" – maliyyə məsələsidir

Yuxarıda adları çəkilən prinsiplər bizim partiyanın platformasını təşkil edir və biz həmin prinsiplər naminə mübarizə aparacağıq. Eyni zamanda

Satış üçün nəzərdə tutulmayıb

biz etiraf edirik ki, indiki kampaniyada əsas problem – maliyyə məsələsidir. Bu mühüm və spesifik məsələni müzakirə etmək üçün biz bu məsələdə bizimlə həmrəy olan bütün təşkilatları və bütün vətəndaşları əməkdaşlığa dəvət edirik.

Mənbə: National Party Platforms, 1840-1972 (Johnson and Porter, eds., 1973), 104.

Satış üçün nəzərdə tutulmayıb

30. Müller Oreqon Ştatına Qarşı (1908)

1890-cı illərin axırlarından Birinci Dünya müharibəsinə qədər mövcud olmuş Tərəqqi hərəkatının *(Progressive movement)* əsas məqsədi sənayeləşmənin neqativ nəticələrini – ətraf mühitin çirklənməsini, fəhlə sinfinin amansızcasına istismar edilməsini, istehlakçıların hüquqlarının pozulması və siyasi sistemdə korrupsiya hallarını aradan qaldırmaqdan ibarət idi. İslahatçılar, ştatların qanunvericilik məclislərindən başlayaraq, çoxsaylı qanunlar, o cümlədən istehsalatda təhlükəsizlik texnikası, fəhlələr iş yerində xəsarət aldıqda onlara kompensasiyalar ödənilməsi, minimal əmək haqqı və iş gününün maksimum müddəti haqqında qanunlar qəbul etdilər.

Lakin mühafizəkarlar həmin proqramların bəzilərini məhkəmələrdə ləğv etməyə nail oldular. Onlar məhkəmələrə iddia ilə müraciət edərək bildirirdilər ki, bu islahatlar insanın xüsusi mülkiyyət hüququnu pozur və qanunverici məclislər insanların həmin mülkiyyət barədə necə sərəncam verməli olduğunu göstərməli deyildilər. Məhkəmələr "azad muzdlu əmək" anlayışını təsdiq edərək bildirdilər ki, işəgötürənlər və işçilər sazişi Ştatın müdaxiləsi olmadan bağlamalıdırlar. Lakin məhkəmələr onu da etiraf etdilər ki, ştatlar məcburetmə hüququna da malikdirlər və onlar bu hüququn köməyi ilə vətəndaşların sağlamlığını və təhlükəsizliyini qorumaq məqsədilə özəl biznesle işçi qüvvəsi arasında münasibətlərə müdaxilə edə bilərlər.

1905-ci ildə Loxnerin *(Lochner)* Nyu-York Ştatına qarşı qaldırdığı işdə Ali Məhkəmə sadə səs çoxluğu ilə qərara aldı ki, çörəkxana işçilərinin iş gününün müddətini on saatla məhdudlaşdıran qanun Konstitusiyaya ziddir, çünki bu tədbirin işçilərin sağlamlığına və təhlükəsizliyinə heç bir dəxli yoxdur. Eyni zamanda, Məhkəmə etiraf etdi ki, əgər həmin qanunun həqiqətən vətəndaşların sağlamlığının və təhlükəsizliyinin qorunmasına xidmət etməsi sübuta yetirilərsə, bu cür tədbirlərə haqq qazandırıla bilər.

Oreqon Ştatının hakim dairələri camaşırxanalarda və fabriklərdə işləyən qadınlar üçün on saatlıq iş günü tətbiq edəndə müəssisələrin sahibləri bu qərarı tənqid edərək bildirdilər ki, Nyu-York Ştatında

Satış üçün nəzərdə tutulmayıb

olduğu kimi burada da həmin Qanunla qadınların təhlükəsizliyi və sağlamlığı arasında heç bir əlaqə yoxdur. Oreqon Ştatının hakim dairələri bu qanunu müdafiə etmək üçün bostonlu məşhur vəkil, ictimai mənafelərin müdafiəçisi kimi artıq yaxşı tanınmış Luis D.Brendisə *(Louis D. Brandeis)* müraciət etdilər. O, Loxnerin işində güclə nəzərə çarpan, yuxarıda göstərilən "əl yeri"ndən möhkəm yapışdı. Brendis bilirdi ki, əgər bu qanunla işçilərin sağlamlığı və təhlükəsizliyi arasında əlaqə olmasını sübut edə bilsə, məhkəmə həmin qanunu tanımalı olacaqdır. O, həmin iş üzrə faktlar əsasında tamamilə qeyri-adi bir məruzə hazırladı. Brendis yüz səhifəlik bu məruzəsində ənənəvi hüquqi presedentlərə cəmi iki səhifə həsr etməklə, uzun müddətli iş gününün qadınların sağlamlığına sosioloji, iqtisadi və psixoloji təsirini ətraflı təhlil etmişdi.

Ali Məhkəmənin hakimi Brüer (Brewer) nəinki vəkilin fikri ilə razılaşdı (hərçənd, bu faktın özü hədsiz dərəcədə qeyri-adi bir hadisə idi), o həm də bu qənaətə gəldi ki, kişilərdən fərqli olaraq qadınlar istehsalatda həqiqətən xüsusi müdafiə olunmağa ehtiyac duyurlar. Brendisin strategiyası öz təsirini göstərdi, lakin bu strategiya yalnız konkret hal üçün yararlı idi və Brendis özü heç də elə hesab etmirdi ki, qadınlar özlərinin statusuna görə kişilərdən həqiqətən aşağı səviyyədədirlər, yaxud onlardan asılıdırlar.

Brendisin məruzəsinin və həmin məruzə üzrə çıxarılmış qərarın ən mühüm nəticəsi isə ondan ibarət oldu ki, bu qərar sosial şəraitin və siyasi qaydaların yaxşılaşdırılması üçün qanunvericilikdən istifadə etməyə çalışan gələcək islahatçılar üçün presedentə çevrildi. Müller *(Muller)* işının isə qanunun gündəlik həyatın təsirlərinə daha artıq dərəcədə həssas olmasını təmin etməklə, onu daha da demokratikləşdirdi. Bu iş üzrə qəbul edilmiş qərar hakimləri gələcəkdə özlərinin qəbul etdiyi qərarların real aləmə və real insanların həyatına təsirini nəzərə almağa sövq edirdi.

Əlavə məlumat üçün oxuyun: Philippa Strum, Louis D. Brandeis: Justice for the People (1984); Alpheus T. Mason, "The Case of the Overworked Laundress", in Quarrels That Have Shaped the Constitution (1975).

Satış üçün nəzərdə tutulmayıb

MÜLLER OREQON ŞTATINA QARŞI

Hakim Bruner Ali Məhkəmənin rəyini açıqladı

Biz bundan əvvəl Loxnerin Nyu-York Ştatına qarşı qaldırdığı işdə (1905-ci il) müəyyən etmişdik ki, çörəkxanada işləyən fəhlənin həftədə 60 saatdan və ya gündə 10 saatdan çox işləməli olmadığını və bundan çox işləməyə haqqı olmadığını müəyyənləşdirən qanun Ştatın məcburetmə hüququnu aşır və insanın öz fəaliyyəti ilə bağlı kontrakt bağlamaq hüquqlarına və azadlıqlarına ağlasığmaz şəkildə, ifrat dərəcədə və özbaşınalıqla müdaxilə edilməsi deməkdir. Beləliklə, bu qanun etibarsız və Federal Konstitusiyaya zidd hesab edilmişdir.

Lakin iddiaçı əsassız olaraq belə hesab edir ki, həmin qərar bu gün bizim qarşımızda duran məsələdə də həlledici rol oynamalıdır. Halbuki məsələyə bu cür yanaşmada nəzərdə tutulur ki, iş gününün müddəti müəyyən edilərkən cins fərqi nəzərə alınmalı deyildir.

Bu qəbildən olan işlərdə vəkillər öz mövqelərini müdafiə etmək üçün, yəqin ki, indiki vəziyyətin müzakirəsindən başlayardılar. Lakin həmin qanunun Konstitusiyaya müvafiq olması məsələsini müzakirə etməyə başlamazdan əvvəl prosedur məsələlərinə, eləcə də məhkəmə ilə bağlı olmayan mənbələrdən aldığımız məlumatlara diqqəti cəlb etmək pis olmazdı.

Cənab Luis D.Brendisin Cavabdehi müdafiə etmək üçün tərtib etdiyi məruzə bütün bu məsələlərin kifayət qədər sanballı toplusudur.

Müəllifin istinad etdiyi hüquqi normalar və məlumatlar, texniki baxımdan, bəlkə də rəhbər tutulmalı deyildir, ola bilsin ki, bizim nəzərdən keçirdiyimiz bu qanunun Konstitusiyaya müvafiqlik məsələsinə həmin məlumatlarda ya ötəri toxunulur, ya da heç toxunulmur. Buna baxmayaraq, həmin məlumatlar hamılıqla qəbul olunmuş belə bir fikri təsdiq edir ki, qadının fizioloji quruluşu və təbii funksiyaları onun işləyə biləcəyi şəraiti məhdudlaşdıran və ciddi müəyyənləşdirən xüsusi qanun qəbul olunmasını tələb edir. Hərçənd, konstitusiya məsələləri dəyişkən ictimai rəyin kö-

Satış üçün nəzərdə tutulmayıb

məyi ilə həll edilmir, çünki yazılı Konstitusiyanın əsas dəyəri məhz qanunvericilik hərəkətlərinə qoyulan məhdudiyyətlərin dəyişməz olmasından ibarətdir, bu isə xalq hakimiyyətinin daimi və sabit olmasını təmin edir. Eyni zamanda, əgər mühüm bir fakt mübahisə predmetidirsə və bu cür faktları müşayiət edən şəraitlə bağlı xüsusi konstitusiya məhdudiyyətləri varsa, bu məsələ ilə əlaqədar, cəmiyyətdə geniş yayılmış və qərarlaşmış rəy barəsində də düşünməyə dəyər. Biz bu məsələyə aidiyyəti olan bütün məlumatları hüquqi baxımdan nəzərdən keçirəcəyik.

Bu Məhkəmə tərəfindən dəfələrlə elan edildiyi kimi, işgüzar saziş bağlamaq hüququ insanın şəxsi azadlığının bir hissəsidir və bu hüquq Federal Konstitusiyaya XIV düzəlişlə qorunur. Eyni zamanda, dəqiq müəyyən edilmişdir ki, bu azadlıq mütləq azadlıq deyildir və bütün sazişlərə şamil edilmir, həmçinin müəyyən edilmişdir ki, Ştat, (XIV düzəlişin müddəaları pozulmamaq şərtilə) işgüzar saziş bağlanarkən insanın sərbəstliyini çox cəhətdən məhdudlaşdırmaq hüququna malikdir.

Aşkardır ki, qadının fizioloji strukturu və analıq funksiyalarını yerinə yetirməsi ilə əlaqədar, o, salamat qalmaq uğrunda mübarizədə daha əlverişsiz vəziyyətdə olur. Qadın ana olduqda bu vəziyyət daha aşkar nəzərə çarpır. Lakin hətta bunsuz da (çoxsaylı tibbi araşdırmalar da bunu təsdiq etmişdir) hər gün uzun müddət ayaq üstə olmaq qadının sağlamlığına mənfi təsir göstərir. Nəslin davam etdirilməsindən ötrü qadının sağlamlığı vacib olduğu üçün qadının fiziki sağlamlığı məsələsi ictimai maraq obyektinə, irqin gücünün və sağlamlığının qorunub saxlanması məqsədilə göstərilən qayğının obyektinə çevrilir...

Müxtəlif cinslərin nümayəndələrinin bədən fiziologiyası onların yerinə yetirdiyi funksiyalara, fiziki qüvvəyə, uzun müddət (xüsusən ayaq üstə) əməklə məşğul olmaq qabiliyyətinə, həyat tonusunun irqimizin gələcək maddi rifahına təsirinə, insanın öz hüquqlarını müdafiə etməsinə imkan verən qətiyyətinə görə, eləcə də salamat qalmaq uğrunda mübarizəni davam etdirmək qabiliyyətinə görə bir-birindən fərqlənir. Bu cinsi fərqlərə görə, müvafiq məsələlərə qanunvericilikdə müxtəlif yanaşmalar olmasına haqq qazandırılır və qadınların çiyinlərinə düşən yükün müqabilində müvafiq kompensasiya ödənilməsini nəzərdə tutan yanaşmalar dəstəklənir...

Biz bu mülahizələri əsas tutaraq və Loxnerin Nyu-York Ştatına qarşı iddiası barədə iş üzrə qəbul edilmiş qərarın qanuniliyinə əsla şübhə etmədən, belə hesab edirik ki, Oreqon Ştatının burada nəzərdən keçirilən qanunu Federal Konstitusiyaya zidd deyildir, çünki o, camaşırxanada qadın əməyinə hörmət bəslənilməsinə əsaslanmışdır.

Satış üçün nəzərdə tutulmayıb

Mənbə: 208 U.S. 412 (1908).

Satış üçün nəzərdə tutulmayıb

31. Yeni Millətçilik[69] (1910)

Teodor Ruzvelt

Öz prezidentliyi dövründə Teodor Ruzvelt *(Theodore Roosevelt)* əyani sübut etdi ki, islahatların irəliləyişi üçün Ağ Ev nə qədər çox iş görə bilər. Ruzvelt hesab edirdi ki, prezident xalqın səsini eşitməlidir, lakin o, sadəcə olaraq, izdihamın ardınca getməklə kifayətlənməməli, həm də onlara rəhbərlik etməlidir. Ruzveltin varisi Vilyam Hovard Taft *(William Howard Taft)* Ruzveltin güman etdiyindən qat-qat mühafizəkar çıxdı və buna görə artıq 1910-cu ilə yaxın Ruzvelt 1912-ci il seçkilərində yenidən öz namizədliyini irəli sürmək haqqında düşünməyə başladı. Həmin ilin yayı və payızını Ruzvelt ölkənin qərb bölgələrinə səfərlərdə keçirdi. Hər yerdə onu vətəndaş kütlələri salamlayır və 1912-ci il seçkilərində Taftla mübarizəyə girişməyə çağırırdılar. Məhz bu səfər zamanı Ruzvelt, "Yeni millətçilik" adlandırdığı və onun seçki kampaniyasının əsasını təşkil etməli olan mütərəqqi islahatlar haqqında öz anlamını xülasə etməyə başladı.

"Yeni millətçilik" konsepsiyası heç də prezidentlik kampaniyası üçün uydurulmuş bəlağətli söz yığını deyildi, bu, Amerika cəmiyyətinin və ölkənin idarə olunmasında dövlətin rolunun ətraflı düşünülmüş təhlilindən ibarət idi. Ruzvelt özünün ikinci prezidentliyi dövründə fəhmlə bu istiqamətdə gedirdi, lakin bu problemin ona lazım olan dəqiq tarixi və fəlsəfi təhlilini Herbert Krolinin "Amerika həyatının vədi" *(Herbert Croly, The Promise of American Life*) (1909) kitabında tapdı. Krolinin yazdığına görə Amerikanın siyasi həyatında iki istiqamət mövcuddur və o bunları Hamilton və Cefferson istiqamətləri adlandırırdı. Kroli belə hesab edirdi ki, birinci istiqamət ictimai şüurda güclü dövlət, aristokratiya və xüsusi imtiyazlar haqqında təsəvvür yaratdığı halda, Cefferson istiqaməti üçün səciyyəvi olan zəif dövlət konsepsiyası demokratiya, bərabər hüquqlar və imkanlar təsəvvürü yaradır.

Kroli bu istiqamətlərin qarışığından – Ceffersonun məqsədlərinə nail olmaq üçün Hamiltonun vasitələrindən istifadə etməyə çağırırdı. O, hesab edirdi ki, bu, yeni problemlər – sənayeləşdirmə dövrünün problemləri ilə qarşılaşmış amerikalılar üçün həyati – mühüm məsələdir.

Bu kitab Ruzvelti bərk həyəcana gətirdi, belə ki, onun bir çox dumanlı ideyaları orada elmi dürüstlüklə təsvir edilmişdi. 31 avqust 1910-cu ildə Kanzas Ştatında, Ossovatomidə söylədiyi məşhur nitqində Ruzvelt öz gələcək 1912-ci il seçkiqabağı kampaniyasının əsas ideyasını bəyan etdi.

O belə hesab edirdi ki, köhnə millətçilik (dövlət siyasətinin köhnə

Satış üçün nəzərdə tutulmayıb

üsulları) kiçik bir qrup insanın tamahkar mənafelərinə xidmət edirdi. Buna görə o, dinamik demokratiyaya əsaslanan, kapitalın təmərküzləşməsi şəraitində hərəkət etməli olan və nəhəng sənaye birliklərin – korporasiyaların hakimiyyətinə qarşı duran "Yeni millətçilik" konsepsiyası ilə çıxış etdi. Fəhlə və istehlakçıların maraqlarını müdafiə etmək üçün Ruzvelt korporasiyaların Federal Hökumətin tam nəzarəti altına alınmasını təklif etdi.

Bu nitqin əhəmiyyəti onun seçki-qabağı kontekstindən daha çox, özündə yeni "Ümumi rifah dövləti"nin[70] siyasi və intellektual rüşeymlərini daşımasındadır.

Əlavə məlumat üçün oxuyun: William Harbaugh, Power and Responsibility: The Life and Times of Theodore Roosevelt (1961); John Morton Blum, The Republican Roosevelt (1954); George E. Mowry, The Era of Theodore Roosevelt (1958).

YENİ MİLLƏTÇİLİK

Biz bu gün bura, hər bir insanın hüquqları uğrunda uzun sürən hərəkat tarixinin ən mühüm mərhələlərindən birini – cəmiyyətdə insaniyyətin bərqərar olmasını qeyd etmək üçün yığışmışıq. Bizim ölkə, bu şanlı Respublika, hərgah orada əsl demokratiya zəfər çalmasaydı, hərgah orada xalq hökuməti zəfər çalmasaydı və son nəticədə, hər bir insanın ən yaxşı keyfiyyətlərinin üzə çıxması imkanlarına təminat verən iqtisadi sistem qələbə çalmasaydı, bizim ölkə, – bu şanlı Respublika, – puça çıxacaqdı. Elə buna görə Amerika tarixi bu gün bütün dünya tarixinin başlıca xəttidir; mənim həmvətəndaşlarım, sizlərdən hər kəs yalnız öz ölkəsinin nailiyyətlərinə görə deyil, həm də ona görə məsuliyyət daşıyır ki, bu ölkə bütün bəşəriyyətin maraqları naminə inkişaf edib çiçəklənsin.

Ölkəmizin tarixində iki böyük böhran olub: birincisi, onun təzəcə yaradıldığı və sağ qala bildiyi dövrdə və ikincisi, böyük gərginlik zamanlarında ki, onun da ən yüksək nöqtəsi Vətəndaş müharibəsi idi. Bu müharibənin nəticələri əvvəllər edilənlərin düzgünlüyünü sübuta yetirməli idi. Siz, Şanlı Ordunun insanları, siz, Vətəndaş müharibəsinin mübarizləri, nəinki öz nəslinizi əbədiləşdirdiniz, nəinki öz həyatınızı bugünkü nəslin xoşbəxtliyi yolunda qurban verdiniz, siz həm də Vaşinqtonun və onun silahdaşlarının müdrikliyini sübut etdiniz. Belə ki, onların yaratdığı bu respublika elə ilk sınaq döyüşündə

Satış üçün nəzərdə tutulmayıb

çilik-çilik olsaydı, onda dünya Vaşinqtonun işini özünü doğrultmamış sayardı. Məhz siz Vaşinqtonun işini başa çatdırdınız, çünki məhz siz Avraam Linkolnun qarşıya qoyduğu yüksək amallara yetə bildiniz.

Bizim ikinci tarixi sınağımız həmişəlik Con Braunun[lxxi] adı ilə bağlı olacaq, Kanzas isə tariximizin böyük dramının birinci pərdəsinin vaqe olduğu teatr səhnəsini xatırladacaq. Kanzasdakı hadisələr nəticəsində bəlli oldu ki, bizim ölkə sözdə də, əməldə də vəhdətə və azadlığa sadiq ola bilər və biz hər necə olsa da, vahid demokratik dövlət qurmalıyıq. Bəli, sözdə 1776-cı il İstiqlaliyyət Bəyannaməsi vardı, lakin 1865-ci ilə qədər sözümüzlə əməlimiz bir-birinə düz gəlmirdi, sözlər isə əmələ çevrilmədikdə öz mənasını itirir. Hər işdə bu cür olmalıdır, lakin dostlar, ilk növbədə siyasətdə belə olmalıdır. Verilən sözə əməl etməmək – şəxsi münasibətlərdə yetərincə pis şeydi, siyasətdə isə bu, qat-qat dəhşətlidir. Seçkiqabağı kampaniyanın gedişində camaat qarşısında verdiyi vədlərə əməl etməyən insan hörmətə layiq deyil və əgər o, vəd verir və buna əməl etmirsə, onu ictimai həyatdan qovun getsin. Mən burda keçmişin şanlı əməllərini əsasən ona görə xatırlayıram ki, bunlar bizi bu gün də iş görməyə sövq edir. Mən keçmişin insanlarını, qismən onların haqqını vermək, ən çox da onların bizim gələcəyimiz üçün nümunə ola biləcəklərinə görə yad edirəm.

Bu, qəhrəmancasına mübarizə idi və bu cür istənilən mübarizədə labüd olduğu kimi, onun da öz qaranlıq və dəhşətli cəhətləri var idi. Çox xeyirli işlər görülmüşdü, ancaq şər əməllər də az olmamışdı və bu cür inqilablar dövründə bu da qaçılmazdır ki, eyni bir adam həm xeyir, həm də bəd işlər görə bilər. Xoşbəxtlikdən dövlətimiz, biz, Birləşmiş Ştatlar xalqı vahid bir tam kimi, yamanlığı unutmaq, ya olmasa onu acısız xatırlamaq və nəzərlərimizi iftixar hissiylə nailiyyətlərimiz üzərində cəmləmək zorundayıq. Hətta adi vaxtlarda da az adam tapılar ki, həyat problemlərinə qeyri-şəffaf şüşə arxasından deyil, obyektiv baxa bilsin; bu şüşə üstəlik xalq qəzəbiylə çirklənib bulandıqda, hətta aramızdakı ən yaxşılarını, ən cəsurlarını belə görmək qabiliyyətini itirməyə başlayır.

Dönüb arxaya baxarkən, hamımız, son nəticədə Qərbin həll etdiyi çəkişmədə Şimalın da, Cənubun da insanlarının nümayiş etdirdiyi şəksiz fədakarlıq, təmənnasızlıq və ədalətə olan məhəbbəti yüksək qiymətləndirməyə qabilik. Biz göy libaslıların da, boz libaslıların da bərabər dərəcədə nümayiş etdirdiyi mərdlik, səmimiyyət və sədaqət qarşısında öz heyranlığımızı bildirməyə hazırıq. Və bu insanların bir-birləri ilə vuruşmalı olduğuna görə duyduğumuz kədər belə bir inamla ovudulur ki, onların nəsilləri bundan sonra, həm müharibədə, həm də həyatın dinc dövrlərində olduğu kimi, bizim vahid ölkəmizin inkişafı və rifahı naminə yalnız çiyin-çiyinə vuruşacaqlar. Və onların hamısı eyni dərəcədə, mənsub olduqları ölkənin şərəf və nüfuzunu yüksəklərə qaldırmaq ideyası ilə alışıb yanacaqlar. Böyük Respublika Ordusunun veteranlarına gəldikdə isə, onlar heç bir başqa respublikanın vətəndaşının layiq olmadığı hörmət və şərəfə layiqdirlər. Belə ki, Respublikanın nəyi varsa, buna görə

Satış üçün nəzərdə tutulmayıb

onlara borcludur, Respublika öz varlığına görə onlara minnətdardır. Sizin və yoldaşlarınızın həmin o iğtişaş dövründə etdiyiniz şücaətlər sayəsində biz bu gün başımızı dik tuta bilirik və bir-biriylə düşmənçilik edən bir yığın xırda birliyə deyil, indiyədək yer üzündə hökm sürmüş dövlətlərin ən şanlısına mənsubluğumuza görə qürur hissi duyuruq.

Mən bu keçmiş döyüşləri yalnız tarixi baxımdan nəzərdən keçirmirəm. Biz bu gün hər şeydən əvvəl, yarım əsr bundan qabaq əldə etdiyimiz bilikləri tətbiq etmək istəyirik. Əgər biz bu gün keçmişin böyük xadimlərinin böhranlı vəziyyətdən çıxmasına kömək etmiş həmin o keyfiyyətləri nümayiş etdirməyə çalışmasaq, onda bu şərəfli insanlara yalandan sədaqət göstərməyin nə mənası?!

Ədəb-ərkanlı vətəndaşların bir yerə yığışaraq, vaxtı ilə Con Braunla birgə və Linkolnun başçılığı altında mübarizə aparan insanların xatirəsini necə yad etdiklərinə və elə həmin bu ədəb-ərkanlı toplumun eyni bir vaxtda, XX əsrin problemlərini Linkoln dövrü ruhunda həll etməyə çalışanları necə ağzı köpüklənə-köpüklənə ittiham etməsinə tamaşa etmək həm kədərli, həm gülməlidir.

Bizim bu qədər borclu olduğumuz insanlar nəsli arasında əlbəttə ki, ən çox borclu olduğumuz şəxs Linkolndur.

Biz bu insana həm də ona görə borcluyuq ki, bizim bugünkü mübarizəmizi də, ondan çıxış yolunu da o, irəlicədən görə bilmişdi. O, deyirdi: "Hesab edirəm ki, yer üzündə insan durduqca, onun borcu təkcə öz vəziyyətini yaxşılaşdırmaq deyil, həm də bütün insanlığın vəziyyətinin yaxşılaşdırılmasına kömək etməkdir".

Bir də deyirdi: "Əmək daha yüksəkdə durur və kapitaldan asılı deyildir. Kapital yalnız əməyin məhsuludur və əməksiz onun mövcudluğu mümkün ola bilməzdi. Əmək kapitaldan yüksəkdə durur və o, daha böyük hörmətə layiqdir".

Bu sözləri mən demiş olsaydım, o zaman bir kommunist təşviqatçısı kimi daha böyük (indikindən də böyük) töhmətə layiq olardım. Fəqət, bu sözləri Linkoln deyib. Mən yalnız onun dediklərini təkrar edirəm və bu, fikrin yalnız bir hissəsidir, kapitalistin eşitməli olduğu hissədir. İndi isə qoy fəhlə də ona aid olan hissəni eşitsin. "Kapitalın da öz hüquqları var və bu hüquqlar hər hansı başqa hüquqlar qədər müdafiə edilməlidir... Bütün bunlar mülkiyyət sahiblərinə qarşı müharibəyə gətirib çıxarmamalıdır. Mülkiyyət əməyin məhsuludur... mülkiyyət arzu olunandır; o, dünyada lazımlı nemətdir".

Daha sonra Linkoln üçün səciyyəvi olan fikir gəlir: "Yol vermək olmaz ki, yoxsullar başqalarının evlərini dağıtsınlar, qoy onlar səylə zəhmət çəksinlər və öz evlərini öz əlləri ilə tiksinlər, qoy öz nümunələri əsasında göstərsinlər ki, onların evi tikildikdən sonra dağıntıya məruz qalmayacaq".

Mənə belə gəlir ki, Linkolnun bu sözlərlə bizim də mənimsəməli olduğumuz yanaşmanı nümayiş etdirib; o özünün nisbi qiymətlərində əmək və kapital, insan hüquqları və mülkiyyət hüququ arasındakı nisbəti göstərib. Bundan

Satış üçün nəzərdə tutulmayıb

əlavə, Linkoln bir çox başqa şeylərdə olduğu kimi, öz nitqində də bu gün bizim üçün əvəzsiz olan müdrik rəhmdillik və mərhəmət dərsini verib. Lakin bu müdrik rəhmdillik və mərhəmət heç vaxt onun ürək və biləyinin möhkəmliyinə xələl gətirməyib. Biz bu gün qarşımızda duran gerçək münaqişəyə köməksiz halda göz yuma bilmərik. Qarşımızda problem durur və biz ya mübarizə aparmalı, ya da təslim olmalıyıq.

İnsan həyatının yaxşılaşdırılması naminə aparılan hər bir ağıllı mübarizədə ən başlıca, bir çox hallarda isə yeganə obyekt – *imkanların bərabərliyinə* mümkün qədər daha çox nail olmaqdır. Bu böyük məqsəd uğrundakı mübarizədə xalqlar vəhşilikdən sivilizasiyaya doğru uzun yol keçir, mədəniliyin, maarifin bir mərhələsindən digərinə adlayırlar. Tərəqqinin ən başlıca faktorlarından biri – *xüsusi imtiyazların aradan götürülməsidir.* Sağlam azadlıq uğrunda istənilən mübarizənin mahiyyəti həmişə ondan ibarət olub və olmalıdır ki, hər hansı bir insandan və ya insanlar birliyindən hakimiyyət hüququnu, varidatı, vəzifə və toxunulmazlığı, bunlar cəmiyyətin rifahı naminə xidmət nəticəsində qazanılmadığı təqdirdə, tutub almaqdır. Vətəndaş müharibəsində biz bunun uğrunda döyüşmüşük, indi də bunun uğrunda mübarizə aparırıq.

Bəşəriyyətin inkişafının bir çox mərhələlərində, qazandığından varı çox olanlar və qazandığından varı az olanlar arasındakı bu konflikt tərəqqinin əsas şərti olmuşdur. Bizim günlərdə bu münaqişə azad insanların özünüidarə hüququna sahib olmaq və onu özündə saxlamaq uğrunda mübarizə, azad dövləti xalqın iradəsini qırmaq mexanizminə çevirən xüsusi maraqlar əleyhinə mübarizə formasını almışdır. Hər bir mərhələdə və istənilən hallarda bu mübarizənin mahiyyəti – imkanların bərabərləşdirilməsi, imtiyazların yox edilməsi və ayrılıqda götürülmüş hər bir insanın həyat və vətəndaşlığının onun özü üçün, eləcə də bütün cəmiyyət üçün maksimum dərəcədə qiymətli etməkdən ibarətdir. Bunda yeni bir şey yoxdur. Bu gün mənim dinc həyatda əldə etmək istədiklərimin hamısı, sizin, uğrunda Vətəndaş müharibəsində döyüşdüyünüz şeylərdir. Mən istəyirəm ki, bugünkü dinc həyatımıza da, vaxtilə ordumuza qələbələr gətirmiş ruh hakim kəsilsin. Tam ədalətə nail olmaq mümkünsüzdür, lakin ordunun idarə olunmasının yaxşılaşdırılması üzrə səylər ilk növbədə qarşıya qoyulmuş vəzifəni yerinə yetirməyə qadir olan insanların yüksək mövqeyə gətirilməsi üçün yönəldilmişdir. O vaxtlar heç kəsin ağlına belə gəlməzdi ki, Qrantın, Şermanın, Tomasın yaxud Şeridanın[lxxii] uğurlarına paxıllıq etsin, çünki, onlar buna layiq idi. Narazılıq o zaman baş qaldırır ki, kimisə layiq olmadığı halda qabağa sürürlər.

Bütün vətəndaşlar üçün imkanların real bərabərliyinə nail olduqdan sonra, bu bizi iki böyük nəticəyə gətirib çıxaracaq.

Birincisi, hər kəs üçün özünü tam realizə etmək imkanı, onun qabiliyyətlərinin, hansısa xüsusi imtiyazların köməyi olmadan, yaxud digər insanların xüsusi imtiyazları tərəfindən heç bir əngəl törədilmədən ən yüksək səviyyəyə

Satış üçün nəzərdə tutulmayıb

çatması üçün geniş imkanlar açacaq və bu onun özü üçün layiqli həyat qurmasına, ona və onun ailəsinə əslində qazandıqları qədər nemətlərə malik olmaq üçün zəruri şərait yaradacaqdır.

İkincisi, imkanların bərabərliyi cəmiyyətin də uduşda qalması deməkdir, bu, o deməkdir ki, hər bir vətəndaşın özünün ən yaxşı keyfiyyətlərini nümayiş etdirə bildiyinə görə cəmiyyət də uduşda qalacaqdır. Axı istənilən insan digər insanların imtiyazları ilə əzildikdə, o, cəmiyyətə, onun layiq olduğu şəkildə xidmət edə bilməyəcək.

Mən namuslu saziş tərəfdarıyam. Lakin mən deyəndə ki, namuslu saziş tərəfdarıyam, mən yalnız onu nəzərdə tutmuram ki, tərəflər oyun qaydalarına əməl etməlidir, həm də onu nəzərdə tuturam ki, bu qaydaları elə şəkildə dəyişmək lazımdır ki, onlar imkanların daha böyük bərabərliyini və eyni yaxşı əməyə görə eyni əmək haqqını təmin edə bilsinlər. İndi isə, ola bilsin ki, Kanzasın ehtiyacı olmadığı bir xəbərdarlığı diqqətinizə çatdırmaq istəyirəm. Mən deyəndə ki, kasıblar üçün namuslu saziş tərəfdarıyam, mən, özləri üçün işləməyə həvəsləri olmadığına görə kasıb qalmış insanlar üçün namuslu sazişi nəzərdə tutmuram. Əgər şans verilmiş insan öz həyatını yaxşılaşdırmağa cəhd etməmişsə, o, səhnəni tərk etməlidir. Yəqin ki, siz, Müzəffər Ordunun insanları, siz də həmçinin döyüşənləri mükafatlandırmaq və işdən yayınanları cəzalandırmaq istərdiniz. Elə deyilmi?!

Və bu o deməkdir ki, hökumətimiz həm dövlət, həm də ştatlar səviyyəsində xüsusi mənafelərin məşum təsiri və nəzarətindən azad olmalıdır. Vətəndaş müharibəsindən əvvəl bizim siyasi bütövlüyümüzü pambıq və quldarlıq mənafeləri hədələdiyi kimi, indi də biznesin xüsusi maraqları insanları hədsiz asılılıqda saxlayır və korrupsiyaya alışdırır. Bu mənafelər hökumətə də təsir edərək, onu kimlərinsə tamahkar məqsədləri üçün fəaliyyət göstərməyə vadar edir. Biz siyasəti bu cür mənafelər cəngindən xilas etməliyik. Bu bizim bu günə olan vəzifələrimizdən biridir. Özü də bu zaman, bütün xüsusi mənafelər də həmçinin müdafiə hüququna – tam, ədalətli və qəti müdafiə hüququna malikdir və əgər bu cür mənafeləri təmsil edən hər hansı bir insanı azğınlıq edən kütlə tərəfindən qanlı divan hədələmiş olarsa, bu insanın kim olmasından, ona həqarət bəsləyib-bəsləməməyimdən, məndə həqarət doğuran bu insanın nə dərəcədə varlı olmasından asılı olmayaraq, mən heç şübhəsiz onun müdafiəsinə qalxardım və ümid edirəm ki, əgər sözünüzlə əməliniz düz gəlirsə, siz də bu cür edərdiniz. Yenə də yalnız ədalət naminə! Hər bir xüsusi mənafenin müdafiə edilmə hüququ var, lakin Konqresdə, məhkəmədə və ya hər hansı bir dövlət idarəsində onun səs vermək hüququ yoxdur. Konstitusiya ilə mülkiyyətin müdafiəsinə təminat verilib və biz bu öhdəliyi yerinə yetirməyə borcluyuq. Lakin hər hansı bir korporativ maraq üçün səsvermə hüququ verilməyib.

O kəs mülkiyyətin dostu, əsl konservator sayılır ki, bu mülkiyyətin Respublikanın sahibi deyil, nökəri olduğunu təsdiq etsin; təsdiq etsin ki, insanın

Satış üçün nəzərdə tutulmayıb

yaratdığı hər bir şey ona ağalıq yox, xidmət etməlidir. Birləşmiş Ştatların vətəndaşları özlərinin yaratdıqları nüfuzlu kommersiya qüvvələrinə effektli nəzarət etməyə qadir olmalıdır.

Lakin bu korporasiyalar nə qədər ki siyasi fəaliyyətlə məşğul olur, onların üzərində effektli nəzarət mümkün olmayacaq. Buna son qoymaq – çətin və uzunmüddətli vəzifədir, lakin buna nail olmaq mümkündür.

Korporasiya işlərində tam və səmərəli aşkarlığa nail olmağımız vacib şərtdir, çünki insanlar dəqiq bilməlidir ki, korporasiyalar qanunlara tabedirmi və ictimaiyyət onların rəhbərlərinə etibar edirmi. Korporativ fondların siyasi məqsədlər üçün birbaşa və ya dolayı yolla istifadə olunmasına qadağa qoyan qanunların qəbul edilməsi vacibdir. Və bundan da vacibi odur ki, bu cür qanunlara ciddi əməl olunsun. Korporasiyaların siyasi məqsədlər üçün xərcləri, xüsusilə ictimai xidmət sahəsi ilə məşğul olan korporasiyaların xərcləri siyasi sistemimizdə korrupsiyanın əsas mənbələrindən birinə çevrilib.

Tamamilə aydın olub ki, bizim üçün, təkcə, məsələn, dəmir yolu ilə məşğul olan bu cür korporasiyaların kapitalı üzərində deyil, həm də ştatlar arasında bizneslə məşğul olan bütün korporasiyaların kapitalı üzərində dövlət nəzarəti vacibdir. Mən istəməzdim ki, dövlətimiz dəmir yolları korporasiyasının əlinə keçsin. Bunun yeganə alternativi, mülkiyyətin fiziki qiymətləndirilməsi[lxxiii] də daxil olmaqla, bütün faktların tam öyrənilməsinə əsaslanan mükəmməl və səmərəli tənzimləmədir. Fiziki qiymətləndirmə qəti tariflərin müəyyən edilməsi zamanı tələb olunmur, lakin o, namuslu kapitalın əsası qismində çox vacibdir. Biz artıq başa düşürük ki, imtiyazlar yalnız müəyyən vaxtlarda və yalnız dövlətə müvafiq kompensasiyanın ödənilməsi şərtilə verilə bilər. Mən əminəm ki, ictimai korporasiyalar barəsində həyata keçirilməli olan nəzarət və idarəetmənin bu cür növü və səviyyəsi bundan az olmayan dərəcədə, həyat təminatı sahəsində, yəni ət istehsalı, neft və kömür çıxarılması sahəsində və ya bu istehsalatlar üçün vacib olan fəaliyyət sahələrində işləyən korporasiyaları da əhatə edir. Məndə heç bir şübhə yoxdur ki, bu sahələrə nəzarət edən insan bizdən çox da fərqlənmir. Və şübhə etmirəm ki, o da uğur qazanmaq istəyir, lakin bununla belə, onun üzərində yetərincə nəzarət vasitələrinə malik olmaq istərdim ki, uğur qazanmaq cəhdində ona kömək edə bilim.

Düşünürəm ki, korporasiyaların əməkdaşları, xüsusilə müdiriyyəti, onların korporasiyasının qanunu pozması hallarında, şəxsi məsuliyyət daşımalıdır.

Sənaye birlikləri – siyasi qərarla ləğv edilməsi mümkün olmayan sarsılmaz iqtisadi qanunların nəticəsidir. Bu cür birlikləri qadağan etmək cəhdləri çox vaxt uğursuzluğa düçar olub. Bu vəziyyətdən çıxış yolu sənaye birliklərinin qarşısını almaqda deyil, ictimai rifah naminə onların üzərində tam nəzarətin həyata keçirilməsində axtarmaq lazımdır. Buna görə, korporasiya işləri üzrə Federal Büro üstün əhəmiyyətə malik olan təsisatdır. Onun səlahiyyətlərini və deməli, səmərəsini, habelə Ştatlararası Ticarət Komissiyasının effektivliyini

Satış üçün nəzərdə tutulmayıb

xeyli genişləndirmək və artırmaq lazımdır. Biz bu təsisatlardan öz vəzifələrinə məsuliyyətlə yanaşılmasını tələb etməkdə haqlıyıq. Hazırda ümummilli bankların işindən və idarə olunmasından razı olduğumuz qədər də, dəmir yollarının və ştatlararası fəaliyyət göstərən biznesin lazımi iş keyfiyyətinə əmin olmalıyıq. Adları çəkilən bu iki institut üzərində nəzarət eyni dərəcədə təsirli olmalıdır. Hepbörn Aktı *(Hepburn Act)*, habelə bu akta dair Konqresin son iclasında qəbul edilmiş düzəlişlər irəliyə doğru böyük addımdır, lakin biz bununla kifayətlənməməliyik.

Tariflərin müəyyən edilməsində istifadə olunan hazırkı metodlar halında xüsusi mənafelərin həddən artıq böyük rol oynaması haqqında xalq arasında söz-söhbət gəzir. Bunu yəqin ki, həm iri, həm də kiçik xüsusi maraqlara şamil etmək olar. Bu cür yanaşma tamahkarlığa əsaslanır və təbii ki, kiçik mənafelərlə müqayisədə iri maraqların payına daha çox qazanc düşür, lakin bu heç də o demək deyil ki, kiçik mənafelər ondan az tamahkardır. Konqresin borcu yalnız cəmiyyətin bütövlükdə mənafelərinin nəzərə alına biləcəyi siyasəti işləyib hazırlamaqdır. Bunun üçün tariflər üzrə, hər cür siyasi təzyiqdən və ya biznesin hədsiz təsirindən tam müdafiə oluna bilən ekspert komissiyası yaradılmalıdır. Bu cür komissiya, əsl həqiqətdə, əməyin burdakı dəyərindən ibarət olan istehsalatın dəyəri ilə əməyin xaricdəki dəyəri arasındakı real fərqi aşkar edə bilərdi. Hətta bu komissiya sürətlə işləsə belə, düşünürəm ki, planları birbir, tədricən nəzərdən keçirmək düzgün olardı. Tarif siyasətinin ümumi korrektəsi isə hökmən, ictimai maraqların yerli və xüsusi maraqlarla əməkdaşlığına və qarşılıqlı asılılığına gətirib çıxaracaqdır.

Ştatlar səviyyəsində, xüsusilə milli səviyyədə mənfəətin namussuz yolla əldə edilməsi üzərində təsirli nəzarətin olmaması son dərəcə varlı və iqtisadi cəhətdən nüfuzlu insanlar sinfinin yaranmasına gətirib çıxarır, bu, sayca kiçik qrupun əsas məqsədi isə öz hakimiyyətini saxlamaq və gücləndirməkdən ibarətdir. Buna görə başlıcası bu insanlara öz hakimiyyətlərini – ümumi firavanlığa xidmət etməyən hakimiyyətlərini saxlamağa və cəmləşdirməyə imkan verən şərait dəyişdirilməlidir. Bizim, öz var-dövlətini öz şəxsi gücü və ağlı sayəsində və öz həmvətənlərinin ictimai rifahının maraqlarını nəzərə almaqla əldə etmiş insanlara qarşı heç bir iddiamız yoxdur. Məni dinləyən yoldaşları yenə öz təcrübələrinə müraciət etməyə çağırıram. Yadınıza salın ki, ordunu qələbəyə aparmaqla vəzifə və rütbələrə layiq görülmüş böyük sərkərdələrə siz nəinki paxıllıq etmir, əksinə, onları mədh edirdiniz. Bizim təsadüfdə də bu cürdür. İndi, bu dinc dövrdə biz də heç kəsin var-dövlətinə paxıllıq və etiraz etmirik, lakin bu şərtlə ki, həmin varidat namuslu yolla qazanılmış olsun və ondan düzgün istifadə edilsin. Bundan başqa, *bu sərvətin cəmiyyətin ziyanına qazanılmaması hələ hər şey demək deyil. Biz bu var-dövlətə o zaman yol verə bilərik ki, o,*

Satış üçün nəzərdə tutulmayıb

cəmiyyətə fayda gətirmiş olsun. Mən başa düşürəm ki, bu, ölkənin sosial və iqtisadi həyatına dövlətin daha fəal müdaxiləsi siyasətini ehtiva edir, lakin biz etiraf etməyə məcburuq ki, dövlətin rolunun bu cür gücləndirilməsi zəruri şərtdir.

Bir kimsə namussuz yolla heç bir dollar da qazanmamalıdır. Alınan hər bir dollar, bu məbləğdə göstərilmiş xidmətlərin (birjada alverin deyil) məhz xidmətlərin əvəzinə ödənilməlidir. Hədsiz böyük var-dövlət, öz böyük ölçülərinə görə onu mahiyyətcə də, səviyyəcə də, adi vətəndaşlarda olan cüzi vəsaitdən fərqləndirən keyfiyyəti qazanmış olur. Deməli, böyük var-dövlətə diffirensial gəlir vergisi qoyulmalıdır və daha bir vergi: daha asan yığa biləcəyimiz və effektiv olan bu vergi – böyük var-dövlətə qoyulan differensial miras vergisidir. Bu vergini, yayınmadan lazımınca müdafiə etmək və var-dövlət böyüdükcə onu artırmaq lazımdır.

Birləşmiş Ştatların vətəndaşları vaxtaşırı maliyyə sarsıntıları ilə üzləşirlər, halbuki, maliyyənin möhkəmliyi səviyyəsinə görə bizə yaxın ölkələr əsasən bundan yaxa qurtara bilirlər. Mən elə bir səbəb görmürəm ki, başqaları bu əzablardan yaxa qurtara bildiyi halda, biz ona görə əzab çəkməkdə davam etməliyik. Öz maliyyə sistemimizi mümkün qədər tez tədqiq etməli və onu elə səylə və səmərəli şəkildə yenidən qurmalıyıq ki, daha gələcəkdə, həlledici məqamlarda valyutamız bizi pis vəziyyətdə qoymasın.

Bir daha təkrar etməyə dəyməz ki, bizim üçün sülhün ən etibarlı qarantı olan və ölkəmizin hüdudlarından kənarda bizə hörmətlə yanaşmanın təmin edə biləcək güclü ordu və kifayət qədər böyük donanma gərəkdir. Mən, ümid etdiyim qədərində tərəqqipərvər olduqlarına inandığım həmvətəndaşlarımı bir məsələdə xüsusi xəbərdar etmək istəyirəm. Mən istəyirəm ki, onlar bizim daxili maraqlarımızın qeydinə qalmaqda davam etsinlər və mən, həmçinin, istəyirəm ki, onlar daim Sem dayının[lxxiv] xaricdəki mənafelərini nəzərdə saxlasınlar. Millətlər arasında ədalət və düzlük, eyni bir millətin insanları arasındakı ədalət və düzlüyün əsaslandığı prinsiplərə əsaslanır, bir fərqlə ki, beynəlxalq meydanda hər bir ölkə yalnız özünə güvənə bilər. Əgər siz öz ölkənizdə təzyiqə məruz qalsanız, polisə müraciət edə bilərsiniz, əgər Sem Dayı təzyiqə məruz qalsa, o özü üçün polis olmalıdır və mən istərdim ki, başqa xalqların bizim barəmizdəki dinc təşəbbüslərini dəstəkləyə bilmək üçün o, kifayət qədər güclü olsun. Mən xalqlar arasında dostluğa və xoş iradəyə inanıram, lakin insanlar arasındakı dostluq kimi, xalqlar arasında dostluq da hörmət və məhəbbət, dözümlük və etibara əsaslanmalıdır. Və mən, Amerika dövlətinin başqa ölkələrə münasibətdə ədalətli olması üçün çalışmayan hər bir amerikalıya görə xəcalət hissi duyacağam; o özü, şəxsi həyatda kiməsə münasibətdə necə hərəkət edərdisə, öz dövlətindən başqalarına qarşı da bu cür ədalətli münasibəti tələb etməlidir. Bizim daha zəif ölkələrə qarşı ədalətsiz olduğumuzu görmək

Satış üçün nəzərdə tutulmayıb

mənim üçün çox ağırdır, lakin daha güclü dövlətin bizə pislik etməsinə müticəsinə imkan verdiyimizi görmək mənim üçün ölümdən betərdir.

Mən konservasiya[lxxv] haqqında gələn dəfə daha ətraflı danışacağam. Konservasiya həm inkişafı, həm də müdafiəni bildirir. Mən bu nəslin bizim torpağımızda təbii ehtiyatları çıxarmaq və işlətmək hüququ və vəzifəsini tanıyıram; lakin mən, gələcək nəsillərə də mənsub olan bu sərvətin boş-boşuna sərf edilməsinə və ya talan olunmasına etiraz edirəm. Mən sizdən yalnız bir şeyi – hər bir fermerin öz işləri barədə hərəkət etdiyi kimi xahiş edirəm. Mənim, torpağı tükəndirən və onu öz uşaqları üçün yararsız vəziyyətdə qoyub gedən fermerlərə yazığım gəlir. O fermer alqışa layiqdir ki, torpağın onu dolandırmasına və onun uşaqlarının təhsil almasına kömək etməsinə nail ola bilsin. Özü də bu zaman o, torpağı öz uşaqları üçün, onu ilk dəfə əldə etdiyindən daha yaxşı vəziyyətdə qoyub gedir. Bütün bu deyilənlər ölkəyə də aiddir.

Həm də mən belə hesab edirəm ki, təbii ehtiyatlar yalnız bir qrup insanın mənafeyi üçün inhisara alınmamalı, bütün xalqın rifahı üçün işlədilməlidir və yəqin, bədxahlarım bu məsələdə də məni inqilabçılıqda ittiham edəcəklər.

Artıq çoxlarının yadında deyil ki, 100 il bundan əvvəl, dövlətin öz torpaqlarının mümkün qədər çox sayda vətəndaşa satması uğrunda çıxış edən mütərəqqi ictimai xadimlər vardı. Dövlət buna görə böyük qazanc götürür, insanlar isə öz ehtiyacları üçün istifadə edə biləcəkləri torpağı əldə edirdilər. Bu cür qərarların demokratikliyi onda idi ki, torpaq kiçik sahələr halında yalnız onu əkib becərənlərə və orada yaşayanlara verilirdi. İndi isə biz öz su ehtiyatımız, meşələrimiz və şaxtalarımızla birgə belə bir vəziyyətlə üzləşmişik ki, təbii ehtiyatların konservasiyası ilə çoxları ancaq bu şərtlə razıdır ki, gələcəkdə onlara bu ehtiyatlardan istifadə etmək hüququ verilmiş olsun. Xüsusi mənafelərin siyasi həyatdan silinməsi zərurətini meydana gətirən əsas səbəblərdən biri də elə budur. Böyük müharibənin gedişində dövlətimizin müdafiəsi məsələsini nəzərə almasaq, bizim üçün ən vacibi – torpağın qayğısını çəkmək və onu, ilk dəfə aldığımız vaxtlarda olduğundan daha yaxşı vəziyyətdə gələcək nəsillərə vermək və onları bu torpaqdan bizdən də yaxşı bəhrələnməyi və bu ənənəni sonrakı nəsillərə ötürməyi öyrətməkdir.

Konservasiya çox mühüm mənəvi məsələdir, belə ki, bu anlayış dövlətin təhlükəsizliyinin təmin edilməsi üzrə vətənpərvərlik borcunu da, nəsillərin varisliyi məsələsini də əhatə edir. Bunu da əlavə edim ki, xalqımızın sağlamlığı və həyat qabiliyyətinin qorunub saxlanması onun meşələri, suları, torpaqları və təbii ehtiyatlarının mühafizəsindən az əhəmiyyət daşımır və bu böyük məsələnin həllində ümummilli hökumət mühüm rol oynamalıdır.

Ölkənin fermerləri qarşısında duran mühüm vəzifələr haqqında mən əvvəllər də danışmışam. Bu vəzifələr təkcə fermer təsərrüfatının idarə olunması işinin fermer arvadları və uşaqlarının rifahı naminə yaxşılaşdırılması ilə əlaqədar deyil, o, həm də təsərrüfatın idarə olunmasının yeni metodlarına yiyə-

Satış üçün nəzərdə tutulmayıb

lənməyi və fermada həyat şəraitinin yaxşılaşdırılmasını nəzərdə tutur. Bu böyük vəzifənin əsas ağırlığı təbii ki, böyük fermer təşkilatlarının üzərinə düşür. Və mən buna şadam. Çünki inanıram ki, onlar bu işin öhdəsindən yaxşı gələ biləcəklər. Artıq vaxtı çatmış məsələdir ki, müxtəlif ştatların kənd təsərrüfatı nazirlikləri və ABŞ Kənd Təsərrüfatı Nazirliyi, habelə, kənd təsərrüfatı kollecləri və araşdırma mərkəzləri öz fəaliyyətlərini genişləndirsinlər və ora fermer təsərrüfatçılığının bütün sahələrini daxil etsinlər, daha ötən illərdə olduğu kimi yalnız kənd təsərrüfatı bitkilərinin istehsalı məsələsi ilə kifayətlənməsinlər. İndi isə fermerlərə müraciət etmək istəyirəm. Mən istəyirəm ki, onlar öz fermalarını mümkün olduğu qədərində gözəlləşdirsinlər; yadda saxlasınlar ki, təkmilləşmə fermanın həm içində, həm çölündə getməlidir; yadda saxlasınlar ki, fermerin arvadı fermanın işlərində fermerin özü qədər iştirak etməlidir.

Təbii ki, istənilən ifratçılıq irticaya gətirib çıxarır; bu, islahatçıları da, irticaçıları da düşündürməlidir. Biz indi mülkiyyətlə xalq rifahı arasında qarşılıqlı münasibətlərin yeni konsepsiyası ilə üzləşmişik. Bu ona görə baş verir ki, mülkiyyət hüququnun bəzi müdafiəçiləri insan hüquqlarını saya almamaqla ağını çıxarırlar. İnsanın qazancı ilə müqayisədə onun istənilən hüququnu ikinci dərəcəli şey hesab edən şəxs kənara çəkilməli və yolu insan firavanlığının müdafiəçilərinə verməlidir; çünki məhz axırıncılar ədalətli surətdə hesab edirlər ki, insanın mülkiyyəti cəmiyyətin üstün hüquqlarından birinə – mülkiyyətdən istifadəni cəmiyyətin firavanlığı üçün zəruri olan dərəcədə tənzimləmək hüququna tabedir.

Lakin mən hesab edirəm ki, biz bundan da o yana gedə bilərik. Sərvətin cəmiyyətin maraqları naminə istifadə olunmasının tənzimlənməsi hüququ bütün dünya birliyi tərəfindən tanınır. Gəlin onda, sərvətin əsas elementi olan əmək şəraitinin ictimai firavanlıq naminə tənzimlənməsi hüququnu da tanıyaq. Başlıcası, hər bir insanın həyatda cəmiyyətə ən çox fayda verə biləcəyi yeri tapa bilməsi üçün ona imkan yaratmaqdır. Ona şans verin. Lakin əgər onun özü buna qabil deyilsə, onu qabağa sürməyin. Büdrəyənlərə kömək edin. Kimsə özü gedə bilmirsə, əlbəttə, onu qucaqda aparmağa dəyməz, lakin insan buna layiqdirsə, əlinizdən gələn köməyi ondan əsirgəməyin, təki o, nəyə qabil olduğunu göstərmək üçün imkan əldə etsin.

İnsan o zaman yaxşı vətəndaş ola bilər ki, o öz ehtiyaclarını ödəyə bilmək üçün tələb olunduğundan da çox qazansın, onun iş müddəti yetərincə qısa olsun və onun işdən sonra, cəmiyyətin idarə edilməsi ilə məşğul olmaq və ümumi problemlərin həllinə kömək etmək üçün kifayət qədər vaxtı və gücü qalsın. Biz ağır şəraiti yaratmaqla, külli miqdarda insanın yaxşı vətəndaş olmasına imkan vermirik. Ölkəmizin, uşaq və qadın əməyini tənzimləyə bilən əmək mühafizəsi haqqında əhatəli Ştat qanunlarına və ümummilli qanunlara ehtiyac var. Ölkəmizin ümumtəhsil məktəblərində adi kitab təhsilindən daha çox gündəlik həyat və əmək təliminə kəskin ehtiyac var. Biz, fəhlələr üçün sanitariya şəraitini yaxşılaşdırmalı və

Satış üçün nəzərdə tutulmayıb

həm ştatlar daxilində, həm də ümummilli səviyyədə sənaye və ticarət sahəsində təhlükəsizlik texnikasından geniş istifadə etməliyik. Həmçinin, dostlar, zəhmətkeşlərin elə öz mənafeyi naminə biz həm izdiham tərəfindən zorakılıq aktları əleyhinə, həm də, korporativ tamahkarlıq əleyhinə qalxmalıyıq; muzdlu fəhlələrin zorakılıq, ədalətsizlik və özbaşınalığı əleyhinə, eləcə də hiyləgər, acgöz və təkəbbürlü sahibkarlar əleyhinə qalxmalıyıq. Əgər mən öz həmvətəndaşlarımdan yalnız bir şeyi xahiş etməli olsaydım, onda xahiş edərdim ki, onlar, hansı islahatları tələb etmələrindən asılı olmayaraq, yadda saxlasınlar ki, həmişə iki tərəf mövcuddur və onlar hər iki tərəfi ədalətli olmağa səsləməlidirlər. Kapitalistlərin korrupsiyasını görən və pisləyən, lakin lazımi məqamlarda, xüsusən seçki ərəfəsində özünü qanunsuzluq və kütləvi zorakılıq əleyhinə söz söyləməyə məcbur edə bilməyən dövlət xadimləri mənə gərək deyil. Mənə o insanlar da gərək deyil ki, hakim, nüfuzlu nəşrlərin redaktoru və ya sadəcə olaraq, varlı və nüfuzlu vətəndaş kimi, kütləvi zorakılığı görüb pisləsələr də, biznesdəki ölçüyə gəlməz korrupsiya haqqında məsələ qaldırılanda özlərini lallığa və karlığa vururlar.

Mənim islahatların ifratçılığı və buna reaksiya haqqında dediklərimi də unutmayın. Unutmayın ki, mülkiyyət hüququndan savayı heç nəylə maraqlanmayan irticaçıya tam hakimiyyət versəniz, o, ətrafında nə varsa, uçurub dağıdacaq. Və inkişafımızın problemləri ilə əlaqədar məndə belə bir məsələ də narahatlıq doğurur: mən istəməzdim ki, xalqımız yaxşı rəhbərlərin yoxluğu ucbatından, xoş niyyətlərdən dəm vuran acgözlərin ardınca getməyə məcbur olsunlar. Burada, Kanzasda çıxan bir qəzet tez-tez məni ittiham edir ki, guya mən Uoll Stritin əlində oyuncağam, o, eyni zamanda mənim sosialist olmağım haqqında rəyi qəzəblə rədd edir, belə ki, qəzetin fikrincə, bu, sosialistləri haqsız böhtanlamaq olardı.

Dövlətin effektivliyi bir çox faktorlara söykənir. Bu effektivlik konservasiya prinsipindən geniş istifadənin zəruri nəticəsidir. Əvvəl-axır, uğurumuzu da, uğursuzluğumuzu da o, həll edir.

Dövlətin effektivliyi yalnız təbii ehtiyatlara və insanlara bağlı deyildir, o həm də eyni dərəcədə dövlət institutları ilə əlaqədardır. Hər bir Ştat, öz ərazisindəki əhali ilə əlaqədar olan məsələlərlə səmərəli surətdə məşğul olmağı bacarmalıdır; ümummilli xarakterli məsələlər isə ümummilli səviyyədə həll edilməlidir. Qanunu pozanlar üçün sığınacaq ola biləcək heç bir neytral ərazi qalmamalıdır; bu xüsusən, böyük varidata sahib olanlara aiddir, belə ki, onlar ələ aldıqları kələkbaz qanunşünasların köməyilə hər iki yurisdiksiyadan yaxa qurtarmağın yollarını bilirlər. Dövlətin qanunvericilik yığıncağı öz borcunu yerinə yetirməyə və məqbul qərarlar qəbul etməyə qabil olmadıqda, onda ümummilli səviyyədə yeganə mümkün olan şey – federal məhkəmə sisteminin, ştatlara, onların yerlərdə öz səlahiyyətlərini həyata keçirməsinə qadağa qoyan sırf neqativ fəaliyyətidir.

Satış üçün nəzərdə tutulmayıb

Mən hədsiz mərkəzləşdirmənin tərəfdarı deyiləm, lakin istəyirəm ki, geniş və gələcəyə tuşlanmış millətçilik ruhunda, ümumən xalqın xeyri naminə işləyək. Biz hamımız amerikalıyıq. Bizim ümumi maraqlarımız bizim qitəmiz qədər böyükdür. Burada, Kanzasda mən Nyu-Yorkda yaxud Corciyada danışacağım kimi danışıram, belə ki, ən mühüm problemlər – hamıya eyni dərəcədə aid olan problemlərdir. Ümummilli dövlət bütün Amerika xalqına mənsubdur və bütün Amerika xalqının maraqlarını ən təsirli şəkildə yalnız ümummilli dövlət müdafiə edə bilər. Mən inanıram ki, bizim can atdığımız təkmilləşməyə əsas etibarilə ümummilli dövlət vasitəsilə nail olmaq olar.

Amerika xalqı haqlı olaraq yeni millətçiliyi tələb edir, çünki biz onsuz heç vaxt yeni problemlərin öhdəsindən gələ bilmərik. Yeni millətçilik ümummilli maraqları qrupların və şəxslərin maraqlarından yüksək tutur. O, yerli qanunvericilik yığıncaqlarının ümummilli problemləri də yerli problemləri həll etdikləri üsulla həll etmək cəhdlərinin nəticəsi olan hərcmərcliyə dözmək istəmir. O bundan artıq dərəcədə, yerli tamahkar mənafelərə və varlıların qulluğunda duran dələduz qanunşünaslara dövlətin fəaliyyətini çıxılmazlığa salmağa imkan verən gücsüzlüyə dözmək istəmir. Yeni millətçilik icra hakimiyyətini ictimai rifah halına görə məsul hesab edir; o tələb edir ki, məhkəmə sistemi mülkiyyətin mühafizəsindən daha çox, insanın rifahı haqqında düşünsün; o tələb edir ki, qanunvericilik orqanı hansısa bir sinfi və ya qrupu deyil, əhalinin bütün təbəqələrini təmsil etsin. Mən inanıram ki, həm mülkiyyəti, həm də insan rifahını müdafiə etməyə qadir olan dövlət qurmaq olar.

Böyük mənada, hər iki halda məqsədlər eynidir, lakin bunların arasında seçim etmək lazım gələrsə, mən sizin Vətəndaş müharibəsində etdiyiniz kimi, mülkiyyətə deyil, insan faktoruna üstünlük verərdim. Mən dividentlərin əhəmiyyətini saya almamaq fikrindən uzağam. Lakin hesab edirəm ki, o, insandan az əhəmiyyətlidir. Bununla belə, mən, gəlirin onun üçün heç bir əhəmiyyəti olmadığını iddia edən islahatçıya rəğbət bəsləyə bilmərəm. Əlbəttə, iqtisadi firavanlıq vacib şərtdir, belə ki, insan bütün hallarda özünü və ailəsini dolandırmağa məcburdur. Mən yaxşı başa düşürəm ki, islahatçılar özləri ilə iqtisadi pozuntu gətirməməlidir, əks halda onların islahatı iflasa uğraya bilər. Lakin biz müvəqqəti çətinliklərə hazır olmalıyıq, özü də fərqi yoxdur ki, bu çətinliklər, əllərində bıçaq bizə qarşı çıxanlar tərəfindən, yoxsa başqa səbəblərdən doğrulub. İslahatlar əleyhinə çıxanlar gec-tez başa düşəcəklər: bir halda ki, millətimizin fəaliyyəti bir ovuc yeyib piylənmiş varlıdan və siyasətdə, biznesdə xudbin materializmin təntənəsindən savayı heç nə hasilə gətirmədikdə, iqtisadi bərbadlıq özünün ən pis formasında təzahür edəcəkdir və bu, labüddür.

Siyasi institutlarımız mükəmməl olsaydılar, o zaman onlar həyatın bütün sahələrində pulun siyasi ağalığının qarşısını alardılar. Bizim siyasi nümayəndələr daha fəal və çalışqan olmalı, xidmət etdikləri xalq qarşısında daha çox məsuliyyət duymalıdırlar. Həmçinin vətəndaşların öz şəxsi işlərində daha fəal

Satış üçün nəzərdə tutulmayıb

olmaları vacibdir. Birbaşa ilkin seçkilər bu istiqamətdə atılan mühüm addım kimi qiymətləndirilə bilər; buna həmçinin korrupsiya ilə mübarizə haqqında qanun kömək edə bilər; belə bir qanun, özünün daha namuslu rəqibinə qarşı mübarizədə ağına-bozuna baxmadan pul xərcləyən kəsləri də üstünlükdən məhrum etməyə imkan verir. Çox vacibdir ki, seçki kampaniyasının gedişində əldə edilmiş və xərclənmiş bütün pullar haqqında, təkcə seçkilərdən sonra deyil, ondan əvvəl də hesabat verilsin. Siyasi fəaliyyəti sadələşdirmək və onu hər bir vətəndaş üçün maksimum mümkün etmək üçün hər cür qeyri-müəyyənlikdən azad etmək lazımdır. Düşünürəm ki, şərəfsiz və səriştəsiz dövlət qulluqçularının vaxtında kənarlaşdırılması, istənilən hallarda ən çox uyğun olan ən sadə və səmərəli üsulla həyata keçirilməlidir.

Bizimki kimi nümayəndəli hökumətin təməl prinsiplərindən biri ondan ibarətdir ki, xalqın hakimiyyətə gətirdiyi insanlar hansısa mənafe qruplarına deyil, onları seçənlərə xidmət etməlidirlər. Hesab edirəm ki, seçilən yaxud təyin olunan hər hansı bir dövlət qulluqçusunun yerli korporasiyalara hansısa xidməti göstərmək, ondan bilavasitə və ya dolayısı ilə kompensasiya almaq ixtiyarı yoxdur; bu cür tələb ştatlar daxilində də faydalı ola bilərdi.

Dövlətin məqsədi – xalqın firavanlığıdır. Maddi tərəqqi və millətin güclənməsi o halda arzu olunandır ki, bu, bütün ləyaqətli vətəndaşların mənəvi və maddi firavanlığına kömək etmiş olsun. Əgər bizim orta vətəndaşımız, kişi və ya qadın, namusludursa, ağıllı qərarlar qəbul edə bilirsə, yüksək ideallarla yaşayır və ictimai həyatda fəal iştirak edirsə və ən vacibi öz ailəsində sağlam həyat tərzi sürürsə, yetirdiyi sağlam uşaqları üçün yaxşı ata və ya anadırsa, bu halda, yalnız bu halda biz öz sivilizasiyamızı uğurlu saya bilərik. Hesab edirəm ki, bizdə səmimi və daimi mənəviyyat duyğusu olmalıdır və artıq bizdə belə bir duyğu var; mənəviyyat duyğusu olmadan ən müdrik qanunvericilik və ya rəhbərlik heç nəyə qadir deyil.

Digər tərəfdən, biz hökmən öz sosial və iqtisadi qanunvericiliyimizi qoruyub saxlamalıyıq, çünki bunsuz, yalnız mənəvi çağırışlara əsaslanan istənilən təkmilləşmə yarımçıq və qısamüddətli olacaqdır. İzn verin, yenə Müzəffər Ordunun nümunəsinə müraciət edim. Hərgah siz başıpozuq və dağınıq kütlədən ibarət olsaydınız, heç vaxt qələbə çala bilməzdiniz. Sizə generallar lazım idi; sizə səriştəli rəhbərlik və yaxşı intendantlar – bacarıqlı insanlar lazım idi. Siz yaxşı xatırlayırsınız ki, ümumi uğur üçün müxtəlif cəbhələrdə uğur qazanmaq lazım idi. Sizə Vaşinqtonda da, döyüş meydanında da, baş qərargahda da yaxşı rəhbərlik tələb olunurdu. Həmin administrasiya və həmin rəhbərlik olmasaydı, siz uğur qazana bilməyəcəkdiniz; lakin adi əsgər də döyüşməyə hazır olmasaydı, bütün bunlar qara quruşa dəyməzdi. Adi əsgər vuruşmağa mənən hazır olmalı idi, əks halda ondan tələb olunanı edə bilməzdi. Son nəticədə müvafiq təşkilatın və rəhbərliyin olması əlbəttə ki, vacib idi, lakin bundan da vacib olanı adi əsgərin döyüş qabiliyyəti, onun xarakteri idi. Bu xarakter isə dinc həyatda formalaşır. Biz şəxsi həyatda nə qədər namuslu və təmiz adam olsaq

Satış üçün nəzərdə tutulmayıb

da, lazımi qanunlar olmasa, yaxud bu qanunlardan düzgün istifadə edilməsə, biz millət kimi tərəqqi edə bilmərik. Bu vacib şərtdir, lakin bu, bizi yaxşı vətəndaş edən keyfiyyətləri əvəz etməməli, yalnız onu tamamlamalıdır. Son nəticədə, kiminsə karyerasının ən mühüm tərkib hissələri – məcmu halında insan xarakterini formalaşdıran keyfiyyətlərdən ibarətdir. İnsanda bu keyfiyyətlər olmasa, o zaman insanın uydurduğu heç bir qanun, bu qanunun hətta ən güclü və ən cəsur adamlar tərəfindən icrası belə ona kömək edə bilməz.

Bizdə düzgün xarakter olmalıdır – elə bir xarakter ki, xüsusən ailədə adamı daha yaxşı edir, elə bir xarakter ki, insanı yaxşı ata, yaxşı qonşu edir. Hər bir insanda bu cür xarakter olmalıdır, lakin buna əlavə olaraq, lazımi qanunlar və bu qanunların lazımi icrası gərəkdir, məhz bu şərtlərin məcmusu vətəndaş üçün həmin keyfiyyətlərin inkişafına ideal şərait yaradır. Millətimizin əsas vəzifəsi – vətəndaşlığın xüsusi tipini yaratmaqdır, bunun üçünsə biz tərəqqiyə nail olmalıyıq və bu zaman bizim dövlət qulluqçuları sözün əsl mənasında mütərəqqi insan olmalıdırlar.

Mənbə: Theodore Roosevelt, New Nationalism (1911); 3-33.

Satış üçün nəzərdə tutulmayıb

Köləlikdən Azadlığa Gedən Yolda

1870-ci illərdə, Vətəndaş müharibəsi başa çatandan sonra qaradərili kişilərin və qadınların qəlbində işıqlı gələcəyə ümid yarandı, lakin bunun əvəzinə az qala bir əsr davam etmiş hüquqi, iqtisadi və sosial ayrı-seçkilik dövrü başlandı. Konstitusiyaya XIV Düzəlişə (1870) görə, ölkənin bütün vətəndaşlarından ötrü qanunla bərabər müdafiə imkanı nəzərdə tutulmasına baxmayaraq, həqiqətdə Amerikadakı zəncilər azadlıq nemətindən çox cüzi istifadə edir, əvvəlki kimi yenə də ağdərili əksəriyyət tərəfindən ikinci növ canlılar hesab edilən autsayder vəziyyətində qalırdı.

1890-cı illərdə Cənubda hüquqi cəhətdən təsbit edilmiş seqreqasiya[76] sistemi yaradıldı. Bu sistemdə zəncilər daha aşağı statusa malik idi. Eyni zamanda, Ali Məhkəmə "ayrı, lakin bərabər" anlayışını təsdiq edərək bildirdi ki, XIV Düzəlişin "bərabər müdafiə" haqqında müddəası irqlər arasında sosial deyil siyasi bərabərlik təmin edilməsi üçün nəzərdə tutulub. Afrika mənşəli amerikalılar qat-qat pis şəraitdə yaşamaqdan əlavə, həm də ağdərili əhalinin malik olduğu bir sıra hüquqlardan məhrum edilmişdilər.

Mülki hüquqlar müdafiəçiləri seqreqasiyanı həmişə pisləyirdilər, onlar seqreqasiyanın aradan qaldırılması üçün məhkəmələrdə uzun müddət davam edən və çox çətinliklə irəliləyən bir kampaniya başladılar. İkinci Dünya müharibəsi onların mübarizəsinə yeni təkan verdi. Nasizmə qarşı mübarizədə amerikalıların çoxunu öz ölkələrində irqçilik probleminə yeni mövqedən baxmağa məcbur etdi. Nəhayət, Amerika Afrika mənşəli amerikalılara ağdərili əhali ilə bərabər siyasi və mülki hüquqlar verməyə başladı. Bu mübarizə çox ləng gedirdi və tərəqqi güclə nəzərə çarpırdı, amma hər halda tərəqqi vardı və bu gün Amerika zəncilərinin vəziyyəti 50 il əvvəlki dövrlə müqayisədə xeyli yaxşılaşmışdır. Üstəlik, vaxtilə hüquqi cəhətdən təsbit edilmiş, Cənub ştatlarından olan zəncilərin səsvermədə iştirak etmələrinə imkan verməyən

Satış üçün nəzərdə tutulmayıb

və onların ayrıca məktəblərdə oxumasını nəzərdə tutan irqçilik məhkəmələrin qəbul etdiyi qərarlar və mülki qanunvericilikdə dəyişikliklər edilməsi nəticəsində tamamilə ləğv olunmuşdur.

Mülki hüquqlar uğrunda mübarizə Amerika demokratiyasının tarixində ən mühüm səhifələrdən biridir, çünki bu mübarizə milyonlarla amerikalıya tamdəyərli vətəndaş statusu vermişdir. Lakin heç kəs deyə bilməz ki, bu mübarizə başa çatmışdır və ya bu gün Afrika mənşəli amerikalılar tam hüquq bərabərliyinə nail olmuşlar. Ölkədə əsrlər boyu davam etmiş ayrıseçkiliyin qalıqları hələ də hiss edilir. Bu gün əsas məsələ zəncilərin səs vermək və ya məktəb seçmək hüququna malik olmasından ibarət deyil, əsas məsələ – onların inkişafına şərait yaratmaq üçün daha hansı tədbirlər görülməli olduğunu müəyyənləşdirməkdən ibarətdir. Bu sualın cavabı çox da sadə və aydın deyildir, lakin bu cür sualların yaranması faktının özü demokratik prosesin uğurlu olmasını təsdiqləyən əsas göstəricidir.

33. Plessi Fergüssona Qarşı (1896)

Qullar azad ediləndən sonrakı ilk onilliklərdə Amerika tarixçiləri arasında irqi seqreqasiyanın mənşəyi barədə mübahisə başlandı. Alimlərin bir qismi iddia edir ki, Vətəndaş müharibəsindən sonrakı dövrdə seqreqasiya Cənubda irqi münasibətlərin labüd modeli olmamışdır. Ağdərili quldarlar və qaradərili qullar bu müharibədən əvvəl də birlikdə yaşayır və işləyirdilər, lakin 1870-ci və 1880-ci illərdə irqi münasibətlərin çoxsaylı modelləri mövcud idi. Hərçənd Cənub ştatlarında ta 1890-cı illərə qədər sosial, iqtisadi və siyasi seqreqasiya sistemini müəyyənləşdirən xüsusi hüquqi sistem yaradılmamışdı, lakin ağların zəncilərə nifrət hissi irqlərarası münasibətləri iki əsrdən artıq müddətdə sarsıtdı. Tamamilə aşkardır ki, irqçilik ənənələrinin, ağ irqin zəncilərə münasibətdə nifrət hissinin və Şimal qoşunları çıxıb gedəndən sonra zənci azlığın özlərini qorumaq iqtidarında olmamasının nəticəsində, keçmiş qullar lap əvvəldən əlverişsiz vəziyyətə düşdülər.

Satış üçün nəzərdə tutulmayıb

Müharibə başa çatandan dərhal sonra bütün Cənub ştatları keçmiş qulları nəzarət altında saxlamaq üçün xüsusi qanunlar qəbul etdilər. İttifaq bu qanunları ləğv edəndən sonra ağdərili cənublular zəncilər üzərində öz üstünlüklərini qoruyub saxlamaq üçün başqa vasitələrdən istifadə etməyə başladılar. Cənub ştatlarının qanunverici məclisləri eyni bir cinayətin törədilməsinə görə ağdərililərlə müqayisədə zəncilər üçün daha sərt cəza tədbirləri nəzərdə tutan cinayət məcəllələri qəbul edirdilər. Bundan əlavə, borca görə məcburi əmək sistemi yaradılmışdı və bu sistem XX əsrin əvvəllərinə qədər mövcud olmuşdu.

1878-ci ilə aid işlərin birində Ali Məhkəmə qərara almışdı ki, ştatlar dəmir yolunda, tramvaylarda və gəmilərdə seqreqasiyanı qadağan edə bilməzlər. On iki ildən sonra Ali Məhkəmə Missisipi Ştatının qəbul etdiyi, ştatlar arasında işləyən nəqliyyat vasitələrində seqreqasiyanın tətbiq olunmasını tələb edən qanunu bəyəndi. Məhkəmə bu addımı atmaqla faktiki olaraq Cənubun irqi ayrı-seçkilik məsələsi barədə tələblərinə güzəşt etmiş oldu.

Seqreqasiyanın ilkin dövründə ən məşhur işlərin birində Plessi və Fergüsson bir-birinə qarşı çıxış edirdi. Hakim Billinqs *Braun (Billings Brown)* iddia edirdi ki, irqi seqreqasiya Vətəndaş müharibəsi dövründə quldarlığın ləğv edilməsi və keçmiş qulların hüquqlarının müdafiə edilməsi məqsədilə Konstitusiyaya edilmiş XIII və XIV düzəlişlərin heç birinə zidd deyildir.

Doğrudur, məhkəmənin qərarında heç yerdə "ayrı, lakin bərabər" sözü işlədilmirdi, lakin seqreqasiya barədə qanunlarda ağdərililərlə zəncilərin ayrı yaşaması nəzərdə tutulduğuna baxmayaraq, məhkəmənin bu qərarı "hüquq bərabərliyini pozulmadığı hallarda", faktiki olaraq, həmin qanunlara bəraət qazandırırdı.

Hakim Harlan *(Harlan)* özünün məşhur və bəlağətli nitqində məhkəmənin bu qərarına etiraz ifadə etmişdi. Bu etirazın mahiyyəti ondan ibarət idi ki, ştatlar vətəndaşların yalnız ictimai yollardan və ya ictimai nəqliyyat vasitələrindən istifadə etmək arzusuna görə onların barəsində cinayət cəzaları tətbiq etmək hüququna malik deyildirlər. Bu cür qanunlar Vətəndaş müharibəsi dövründə Konstitusiyaya edilmiş düzəlişlərin mahiyyətini heçə endirirdi. Lakin "Konstitusiya rənglər arasında fərq qoymur" deyən hakim Harlanın çağırışları eşidilməmiş qaldı.

Satış üçün nəzərdə tutulmayıb

Əlavə məlumat üçün oxuyun: C. Vann Woodward, The Strange Career of Jim Crow (2d ed., 1966); William Gillette, Retreat from Reconstruction (1979); and Charles A. Lofgren, The Plessy Case (1987).

Satış üçün nəzərdə tutulmayıb

PLESSİ FERGÜSSONA QARŞI

Hakim Braun Ali Məhkəmənin rəyini açıqladı.

Baxdığımız iş Luiziana Ştatının Baş Assambleyası tərəfindən 1890-cı ildə qəbul edilmiş, ağ və rəngli irqlərin nümayəndələri üçün ayrı-ayrı dəmir yol qatarlarından istifadə edilməsini nəzərdə tutan aktın Konstitusiyaya uyğun olub-olmaması barədədir. Bu aktın Konstitusiyaya uyğun olması ona görə şübhə doğurur ki, o, guya, quldarlığı ləğv edən XIII Düzəlişə və irqlərarası münasibətlərdə ştatlar tərəfindən hər hansı bir məhdudlaşdırıcı aktın qəbul olunmasını qadağan edən XIV Düzəlişə ziddir.

1. Aşkardır ki, bu akt köləliyi və məcburi əməyi (bu əməyin cinayətə görə cəza olduğu hallar istisna olunmaqla) ləğv edən XIII Düzəlişə zidd deyildir...

XIV Düzəlişin mətni bu məhkəmənin diqqətini ilk dəfə sallaqxanalar barədə işlə əlaqədar cəlb etmişdi... Lakin həmin iş irqlər arasında qarşılıqlı münasibətlər məsələsi ilə deyil, xüsusi imtiyazlar məsələsi ilə bağlı idi. Bu Düzəlişdə rəngli irqin nümayəndələrinə konkret hansı hüquqların verilməsi göstərilmirdi, o yalnız, zənciləra ümumiyyətlə vətəndaşlıq hüququ verir; Birləşmiş Ştatların və ştatların özlərinin vətəndaşlığını müəyyən edir; Birləşmiş Ştatların vətəndaşlarının imtiyazlarını və toxunulmazlığını ştatların ona düşmən ruhlu – İttifaqın vətəndaşlığını ştatların vətəndaşlığından ayıran qanunvericiliyindən qoruyurdu.

Heç şübhəsiz, bu Düzəlişin məqsədi hər iki irqin qanun qarşısında tam bərabərliyini təmin etməkdən ibarət idi, lakin həmin Düzəliş öz təbiətinə görə irqi seqreqasiyanın ləğv edilməsini və ya siyasi deyil, sosial bərabərlik bərqərar edilməsini nəzərdə tuta bilməzdi. İrqlərin kontaktının labüd olduğu yerlərdə onların ayrılmasına imkan verən və hətta bunu tələb edən qanunlar qəbul edilməsi hələ o demək deyildir ki, irqlərdən biri digərinə nisbətən daha imtiyazlı hesab edilir. Bu qanunlar, həmişə olmasa da, əsas etibarilə, ştatların qanunverici məclislərinin səlahiyyətinə aiddir və onlar həmin qanunları ictimai asayişi qorumaq üçün qəbul edirlər. Ağdərili və qaradərili uşaqların ayrı-ayrılıqda oxumaları üçün məktəblər yaradılması buna ən geniş yayılmış nümunədir. Bu cür məktəblərin yaradılması rəngli irqin siyasi hüquqlarını çoxdan bəri və çox diqqətlə müdafiə edilən ştatların məhkəmələri tərəfindən də Konstitusiyaya uyğun hesab edilmişdir...

Burada məsələ bu aktın XIV Düzəlişə zidd olub-olmamasından deyil, onun məqbulluğundadır və qanunverici hakimiyyət bu məsələdə çox ehtiyatla davranmalıdır.

Satış üçün nəzərdə tutulmayıb

Qanunverici hakimiyyət qanunun məqbul və ədalətli olmasını müəyyən edərkən, ictimai rifah naminə, sülhün və ictimai asayişin qorunub saxlanması naminə qərarlaşmış praktika, adət və ənənələr çərçivəsində hərəkət edə bilər. Bu baxımdan, biz deyə bilmərik ki, bu akt Kolumbiya mahalında qaradərili uşaqlar üçün ayrıca məktəblər yaradılmasını tələb edən və Konstitusiyaya müvafiq olmasına bizim şübhə etmədiyimiz Konqres aktları ilə müqayisədə XIV Düzəlişə daha çox ziddir. Fikrimizcə, iddiaçının dəlillərinin yanlışlığı belə bir fərziyyədən ibarətdir ki, irqlərin məcburi qaydada ayrılması nəticəsində qaradərili irqin hüquqları tapdalanmış olur. Belədirsə, bunun səbəbi həmin aktda bu cür yazılması deyil, səbəb odur ki, rəngli irq həmin aktı düzgün mənalandırmır. İddiaçının dəlilinə görə, rəngli irq Ştatın qanunvericilik məclisində dominant qüvvəyə çevrilərsə (bir neçə dəfə belə hallar olmuşdur və çox güman ki, gələcəkdə də olacaqdır) və buna oxşar qanun qəbul edərsə, o, ağ dərili irqi hüququ tapdalanmış vəziyyətə salmış olacaqdır. Biz əminik ki, ağ dərili irq bu fərziyyə ilə ən azı razılaşmayacaq.

Bu dəlil həm də onu nəzərdə tutur ki, qabaqcadan hasil edilmiş qərəzli ictimai rəylər qanunvericilik yolu ilə aradan qaldırıla bilər və bərabər hüquqlar ağ irqdən ayrı yaşayan zəncilərə verilə bilməz. Biz bu fikirlə razılaşa bilmərik.

Əgər hər iki irq öz aralarında sosial bərabərlik şərtlərini razılaşdırmalı olsa, bu, təbii oxşarlığın, qarşılıqlı hörmətin və könüllü razılığın nəticəsi olmalıdır... Qanunvericilik irqi instinktlərin kökünü kəsə bilməz və ya fiziki fərqləri aradan qaldıra bilməz. Bunu etmək cəhdləri indiki vəziyyəti yalnız daha da gərginləşdirə bilər. Hər iki irqin mülki və siyasi hüquqları eynidirsə, onda bir adam mülki və siyasi hüquqlar sahəsində digərinə nisbətən ikinci dərəcəli adam ola bilməz. Lakin, irqlərdən biri özünün sosial statusuna görə digərindən aşağıdırsa, onda Birləşmiş Ştatların Konstitusiyası onları eyni müstəviyə qoya bilməz…

Hakim Harlanın etirazı.

Luizianada Birləşmiş Ştatların vətəndaşları olmayan müxtəlif irqlərin nümayəndələri yaşaya bilsələr də, bu aktdakı "ağ və rəngli irq" sözləri Birləşmiş Ştatların həmin Ştatda yaşayan bütün vətəndaşlarını əhatə edir. Beləliklə, qarşımızdakı Ştat qanununda dəmir yol qatarlarının sərnişin vaqonlarında iki irqin ayrılması nəzərdə tutulur və bir irqə mənsub vətəndaşın digər irqin nümayəndələri üçün nəzərdə tutulmuş vaqona girməsi cinayət hesab edilir…

Satış üçün nəzərdə tutulmayıb

Bütün vətəndaşlara verişmiş mülki hüquqlara gəldikdə, fikrimcə, Birləşmiş Ştatların Konstitusiyası hər hansı hakimiyyət orqanlarının bu cür hüquqlara malik olan insanların irqi mənsubiyyətini nəzərə almalarını qadağan edir. Hər bir ləyaqətli insan öz irqi ilə fəxr edir və başqalarının hüquqlarını pozmadan, öz irqini müdafiə etmək üçün hər hansı hərəkətlər etməyi özünə borc sayır. Lakin mən, vətəndaşların mülki hüquqları pozulmadığı halda hər hansı qanunvericilik orqanının və ya məhkəmənin onların irqi mənsubiyyəti ilə bağlı qərar qəbul etmək hüququna malik olması ilə razı deyiləm. Bizim burada nəzərdən keçirdiyimiz qanun nəinki ölkənin və Ştatın vətəndaşlığı ilə bağlı hüquq bərabərliyi prinsipinə, hətta Birləşmiş Ştatların hər bir vətəndaşının şəxsi azadlıqlarına da ziddir...

Ağ irq bu ölkədə özünü üstün hesab edir. Həqiqətən, ağ irq öz nüfuzuna görə, nailiyyətlərinə, təhsilinə, rifahına və hakimiyyətinə görə dominantlıq edir. Və mən şübhə etmirəm ki, o, öz irsini qoruyub saxlasa və konstitusion azadlıq prinsiplərinə riayət etsə, həmişə bu cür üstün vəziyyətdə qalacaqdır. Lakin Konstitusiya baxımından, qanun baxımından, bu ölkədə vətəndaşların dominant və ya hakim sinfi yoxdur. Bizdə kastalar yoxdur. Bizim Konstitusiya insanların dərisinin rənginə görə onlar arasında fərq qoymur və o, vətəndaşların sinfi təbəqələşməsi ilə barışmır. Mülki hüquqlara gəldikdə isə hamı qanun qarşısında bərabərdir. Ən zəif insanlar ən nüfuzlu insanlara bərabər tutulur. Qanun insanı yalnız insan kimi müəyyən edir və onun Konstitusiyada təsbit olunmuş mülki hüquqlarını müdafiə edərkən bu insanın cəmiyyətdəki mövqeyini və ya dərisinin rəngini nəzərə almır. Mən təəssüflənirəm ki, ölkənin əsas qanununun axırıncı müdafiəçisi olan bu məhkəmənin gəldiyi qənaətə görə, Ştat vətəndaşların mülki hüquqlarının həyata keçirilməsini irqi mənsubiyyət əsasında tənzimləməyə haqlıdır. Hesab edirəm ki, haçansa bugünkü qərar da elə bu məhkəmə tərəfindən Dred Skottun işi üzrə çıxarılmış qərar kimi biabırçı qərar hesab ediləcəkdir... Ondan qorxmaq lazımdır ki, bu qərar nəinki qaradərili vətəndaşların hüquqlarının tanınmasına müxtəlif hücumlar üçün stimula çevriləcək, həm də belə bir fikir yaradacaqdır ki, Ştatın qanunundan istifadə etməklə Birləşmiş Ştatların xalqı Konstitusiyaya son düzəlişləri qəbul edərkən öz qarşısına qoyduğu nəcib məqsədlərə xəyanət etmək olarmış. Həmin düzəlişlərdən birində göstərilir ki, zəncilər həm Birləşmiş Ştatların, həm də yaşadıqları ştatların vətəndaşlarıdır, ştatlar zəncilərin imtiyazlarını və toxunulmazlığını məhdudlaşdıra bilməz. Səkkiz milyon zəncinin burada olması nəticəsində altmış milyon ağdərili heç bir təhlükəyə məruz qalmır. İki irqin taleyi bir-biri ilə ayrılmaz şəkildə bağlıdır və hər iki irqin mənafeyi tələb edir ki, ölkənin ümumi hökuməti qanunun irqi nifrət təzahürlərinə şərait yaratmasına imkan verməsin.

Satış üçün nəzərdə tutulmayıb

Ştatın bu qanununun mahiyyətinə görə, qaradərili vətəndaşların statusu o qədər aşağıdır ki, onların hətta ağdərili vətəndaşlarla eyni vaqonda olmağa da haqqı yoxdur. Bundan da artıq irqi nifrət yaradan və etimadsızlıq hissini əbədiləşdirən nə ola bilər? Luiziana Ştatının qəbul etdiyi qanunun həqiqi mənası bundan ibarətdir...

Əgər ümumi istifadə üçün yaradılmış ictimai nəqliyyatda iki irqin təması nəticəsində hər hansı fəlakət baş vermiş olsa belə, bu fəlakət mülki hüquqları irqi mənsubiyyət əsasında tənzimləyən qanunun gətirəcəyi fəlakətlə müqayisədə ölçüyəgəlməz olacaqdır. Biz lovğalanırıq ki, dünyanın heç bir xalqı bizim xalq qədər azad deyildir. Lakin bizim qanunlar, faktiki olaraq, məcburi əməyi və soydaşlarımızın bütöv bir sinfinin statusunun azaldılmasını təsdiq etdiyi halda bu cür lovğalanmanı başa düşmək çətindir...

Mən bu fikirdəyəm ki, Luiziana Ştatının qanunu bu Ştatın istər ağdərili, istərsə də qaradərili vətəndaşlarının şəxsi azadlığı ilə bir araya sığışmır; bu qanun Birləşmiş Ştatların Konstitusiyasının hərfi mənasına ziddir. Əgər bir neçə ştatda buna oxşar qanunlar qəbul edilsə, vəziyyət hədsiz dərəcədə xoşagəlməz olacaqdır. Çox ehtimal ki, ölkəmizdə kölələk institutu aradan qaldırılacaq, lakin ştatların öz mənfur qanunları ilə müqəddəs azadlığı məhdudlaşdırmaq və bütün vətəndaşlara bərabər verilmiş mülki hüquqları irqi mənsubiyyət əlamətinə görə tənzimləmək imkanı qalacaqdır. Beləliklə, ştatlar bu gün Birləşmiş Ştatların xalqı adlanan siyasi birliyin tərkib hissəsi olan amerikalıların bütöv bir sinfini əlverişsiz vəziyyətə sala biləcəklər. Söhbət o xalqdan gedir, hansı ki, dövlətimizi özü üçün və öz nümayəndələri vasitəsi ilə idarə edir.

Mənbə: 163 U.S. 537 (1896).

Satış üçün nəzərdə tutulmayıb

34. "Karolin Prodakts" Şirkəti Barədə Haşiyə (1938)

Harlan Fisk Stoun

1937-ci ildə Birləşmiş Ştatlarda konstitusiya böhranı başlandı. Ali Məhkəmənin hakimlərinin mühafizəkar əksəriyyəti məhkəmə hakimiyyətinin səlahiyyətlərindən istifadə edərək, Böyük Depressiyanın nəticələrini aradan qaldırmaq məqsədi güdən iqtisadi islahatlar barədə qanunları ləğv edirdi. Prezident Franklin D. Ruzvelt *(Franklin Delano Roosevelt)* Ali Məhkəmənin yeni hakimlərinin təyin edilməsini nəzərdə tutan plan işləyib hazırladı, lakin Konqres "məhkəmənin doldurulması" barədə bu planı dəstəkləməkdən imtina etdi. Ruzvelt bu döyüşü uduzsa da, bütövlükdə müharibəni uddu: bir il ərzində məhkəmənin bir neçə üzvünün istefa verməsi nəticəsində o, Ali Məhkəməyə liberal əhval-ruhiyyəli daha gənc hakimlər təyin etdi.

İqtisadi islahatların tərəfdarları ilə mühafizəkar hakimlər arasında çoxdan davam edən qarşıdurma 1938-ci ildə qısa bir müddətdə heç dərəcəsinə endi. Ali Məhkəmə iqtisadi qanunvericiliyin Konstitusiyaya müvafiqliyi məsələsinə baxandan sonra elan etdi ki, əgər Konqresə müəyyən sahədə (məsələn, ştatlar arasında ticarət üzərində nəzarət məsələsində) səlahiyyət verilmişdirsə, məhkəmə Konqres tərəfindən müəyyən edilmiş ticarət qaydalarına şübhə etməməlidir. Bundan əlavə, Ali Məhkəmənin baxışına tamamilə yeni xarakterli işlər təqdim edildi. XX əsrin birinci yarısında Ali Məhkəmə əsasən iqtisadi azadlıq məsələlərinə baxırdısa, həmin əsrin qalan hissəsində fərdi hüquq və azadlıqlar məsələsi ön plana keçmişdir.

Bu transformasiya prosesinin ən mühüm məqamını tam dəqiqliklə göstərə bilərik. Həmin məqam – Amerikanın məhkəmə tarixində ən mühüm sənəd hesab edilən bir haşiyədir. İlk baxışda heç nə ilə əlamətdar olmayan, südün tərkibinin federal səviyyədə tənzimlənməsi ilə əlaqədar bir işdə (Birləşmiş Ştatlar "Karolin Prodakts" şirkətinə qarşı) hakim Harlan Fisk Stoun *(Harlan Fiske Stone)* bəyan etmişdi ki, Konqres ştatlar arasında ticarəti tənzimləmək üçün bütün səlahiyyətlərə malik idi və əgər südün tərkibi barədə minimal standartlar Konqres tərəfindən müəyyən edilmişdirsə, bu məsələ, artıq, hakimiyyətin məhkəmə qolunun səlahiyyəti deyil, qanunvericilik qolunun səlahiyyətinə aiddir.

Lakin bu bəyanatdan dərhal sonra Stoun özünün sonradan dil-

Satış üçün nəzərdə tutulmayıb

lər əzbəri olmuş dördüncü haşiyəsini bəyan etdi. Həmin haşiyəyə görə, iqtisadi tənzimləmə ilə əlaqədar olmayan işlərdə məhkəmənin işin hallarını daha ciddi təhqiq etmək hüququ saxlanılırdı. Dördüncü haşiyə siyasi prosesin vicdanlı aparılması ilə əlaqədar işlərdə və ya irq, etiqad, status, din və cins kimi "şübhəli" təsnifatlarla bağlı işlərdə Ali Məhkəmənin sonradan qəbul etdiyi qərarların əsasını qoymuş oldu. Məhkəmə fərdi azadlıqların pozulmadığını yəqin etmək üçün bu xarakteristikalarla əlaqədar qanunları diqqətlə yoxlamağı öz öhdəsinə götürdü.

Doğrudur, məhkəmə o vaxta qədər də vətəndaşların şəxsi azadlıqları ilə bağlı bir neçə işə baxmışdı, lakin bu Haşiyə məhkəmə tərəfindən vətəndaşların hüquq və azadlıqlarının, eləcə də demokratik siyasi proseslərin vicdanlı aparılmasının təmin edilməsində dönüş nöqtəsi oldu .

Əlavə məlumat üçün oxuyun: Alpheus T. Mason, Harlan Fiske Stone: Pillar of the Law (1956); Learned Hand, "Chief Justice Stone's Conception of the Judicial Function", 46 Columbia Law review 696 (1946).

"KAROLİN PRODAKTS" ŞİRKƏTİ BARƏDƏ HAŞİYƏ

Dördüncü Haşiyə.

Qanunun Konstitusiyada nəzərdə tutulan qadağaların (məsələn, XIV Düzəliş baxımından eyni dərəcədə spesifik hesab edilən ilk on düzəlişdəki qadağaların) əhatə dairəsinə daxil olmasını güman etmək üçün əsaslar olduqda Konstitusiyaya uyğunluq prezumpsiyasının təsir dairəsi məhdudlaşır. (Konkret misallar göstərilmir).

Aşkardır ki, ayrı-seçkiliyə qarşı mübarizəyə istiqamətlənmiş siyasi prosesləri məhdudlaşdıran qanun XIV Düzəlişin müddəalarına uyğunluq baxımından digər qanunların əksəriyyəti ilə müqayisədə daha ciddi məhkəmə ekspertizasına məruz qalmalıdır...

Həmçinin bu da aşkardır ki, bu cür mühakimələr dini, etnik və ya irqi azlıqlar barədə qanunlara da şamil edilir. Bu da aşkardır ki, azlıqlara münasibətdə qərəzli mövqe azlıqların müdafiəsini təmin edən siyasi proseslərin gedişini ciddi məhdudlaşdırır və bu cür hallar məhkəmədə daha ciddi araşdırılmalıdır.

Mənbə: 304 U.S. 144 (1938).

Satış üçün nəzərdə tutulmayıb

35. Sərəncam № 9981 (1948)

Harri S.Trumən

İkinci Dünya müharibəsi dövründə Afrika mənşəli amerikalılar şikayətlənirdilər ki, xaricdə ayrı-seçkiliyə qarşı mübarizə aparıldığı halda ölkənin daxilində ayrı-seçkiliyə dözmək olmaz. Bu çıxışlara cavab olaraq 1941-ci ilin iyun ayında Prezident Ruzvelt bir fərman vermişdi. Həmin fərmana görə, zəncilər hərbi zavodlarda tədris proqramlarından bərabər hüquqla istifadə edə bilməli idilər; müdafiə təyinatlı müəssisələrdə işə düzəlmək üçün zəncilərə münasibətdə ayrıseçkilik qadağan edilirdi və Ədalətli İşədüzəltmə Komissiyası (FEPC) yaradılmışdı. Lakin Konqresin sanballı komitələri cənubluların nəzarəti altında olduğu üçün prezident bundan artıq heç nə edə bilmədi. Üstəlik, müharibə davam etdiyinə görə vətəndaş hüquqları məsələsi ikinci plana keçmiş oldu.

Müharibə başa çatandan sonra Ruzveltin varisi Harri Trumən (*Harry Truman*) çoxsaylı problemlərlə üzləşdi və Konqres müharibə dövründə yaradılmış bu idarəni bağlamaq qərarına gələndə prezident buna mane ola bilmədi. Sonradan o, Konqresə müraciətlə daimi FEPC yaradılmasını xahiş etdi, 1946-cı ilin dekabr ayında isə öz sərəncamına əsasən, Mülki Hüquqlar üzrə Prezident Komissiyası yaratdı. Bu Komissiya ona "Birləşmiş Ştatlarda mülki hüquqların müdafiəsi üçün ən səmərəli vasitə və prosedurlar" tövsiyə etməli idi.

1947-ci ilin oktyabr ayında Komissiya "Bu hüquqlar təmin edilməlidir" adlı hesabat və ölkənin gələcək nəslinin vətəndaşlıq hüquqlarının təmin edilməsi planını işləyib hazırladı. Komissiya zəncilərə münasibətdə çoxsaylı məhdudiyyətlər olmasını göstərərək, vətəndaşın irqindən, dərisinin rəngindən və milliyyətindən asılı olmayaraq onun təhsil almaq, işə düzəlmək və layiqli mənzil almaq sahəsində bərabər imkanlara malik olmasını tələb edirdi. Komissiya digər təkliflərlə yanaşı məhkəməsiz cəzalandırmaya *(anti-lynching law)* və can vergisinə qarşı *(anti-poll tax law)* qanunlar, daimi FEPC yaratmağı və Ədliyyə Nazirliyinin mülki hüquqlar məsələləri üzrə şöbəsini möhkəmlətməyi təklif etmişdi.

1948-ci il fevralın 2-də Harri Trumən çox cəsarətli bir hərəkət edərək Konqresə məktub göndərdi və Komissiyanın tövsiyələrinin tezliklə həyata keçirilməsini tələb etdi. Cənublular bu qərarın qəbul edilməsini ləngidəcəkləri barədə hədə-qorxu gəlsələr də, Trumən Konqresdən dəstək ala bilmədikdə

Satış üçün nəzərdə tutulmayıb

ölkənin icra hakimiyyətinin başçısı kimi ona verilmiş imkanlardan istifadə etdi. O, hər şeydən əlavə, hökumətin mülki hüquqlar şöbəsini möhkəmlətdi, federal məhkəməyə ilk qaradərili hakim, digər yüksək vəzifələrə bir neçə zənci təyin etdi və ən əhəmiyyətlisi, 1948-ci il iyulun 26-da o, silahlı qüvvələrdə seqreqasiyanın aradan qaldırılması barədə aşağıdakı sərəncamı imzaladı .

Əlavə məlumat üçün oxuyun: Ellen C. DuBois, Feminism and Suffrage (1978); Eleanor Flexner, Century of Struggle (rev. ed. 1975); and Lois W. Banner, Elizabeth Cady Stanton (1980).

SƏRƏNCAM № 9981

Silahlı qüvvələrdə vətəndaşlarla davranışda bərabərliyin və onların imkanlarının bərabərliyinin təmin edilməsi üzrə prezident komissiyasının yaradılması haqqında

Ən yüksək demokratiya standartlarına əməl edilməsinin, Birləşmiş Ştatların Silahlı Qüvvələrində xidmət edənlərin hamısı üçün bərabər davranışın və bərabər imkanların vacibliyini nəzərə alaraq, eləcə də, Birləşmiş Ştatların Konstitusiyası və qanunları ilə Birləşmiş Ştatların Prezidenti kimi mənə etibar edilmiş hakimiyyətdən istifadə edərək və Silahlı Qüvvələrin Baş Komandanı kimi, *qərara alıram*:

1) İrqindən, dərisinin rəngindən, dini etiqadından və milliyyətindən asılı olmayaraq, Silahlı Qüvvələrdə xidmət edənlərin hamısı üçün "vətəndaşlarla davranışda bərabərliyin və onların imkanlarının bərabərliyinin təmin edilməsi" Prezidentin rəsmi siyasəti hesab edilsin. Bu siyasətin həyata keçirilməsinə mümkün qədər tezliklə, lakin işin səmərəliliyinə və ordunun mənəvi ruhuna ziyan vurmadan və tələb olunan dəyişikliklərin təmin edilməsi üçün zəruri olan vaxt nəzərə alınmaqla başlamalı.

2) Milli Hərbi İdarə yanında Silahlı Qüvvələrdə "Bərabər Davranışın və Bərabər İmkanların Təmin Edilməsi Üzrə Prezident Komitəsi" adlı, prezident tərəfindən təyin edilən yeddi nəfərdən ibarət məsləhət komitəsi yaradılsın.

3) Komitənin mövcud qaydaları, prosedurları və onların Silahlı Qüvvələrdə həyata keçirilməsi praktikasını yaxşılaşdırmağın və bu sərənca-

Satış üçün nəzərdə tutulmayıb

mın yerinə yetirilməsi məqsədi ilə onlara dəyişikliklər edilməsinin mümkünlüyünü müəyyən etməsi üçün onları öyrənməsinə prezidentin adından icazə verilir. Komissiya Hərbi Hava Qüvvələri naziri ilə məsləhətləşərək və komitə üzvlərinin fikrincə, bu sərəncamın yerinə yetirilməsini təmin etməyə imkan verən tövsiyələri Prezidentə və ölkənin hərbi rəhbərliyinə təqdim edəcəkdir.

4) Federal dövlətin icra hakimiyyətinin bütün departamentləri Komitə ilə əməkdaşlıq etməyə və onun tələb edə biləcəyi hər hansı informasiyanı və ya xidmətləri ona təqdim etməyə borcludurlar.

5) Komitənin xahişinə əsasən, Silahlı Qüvvələrin və ya hər hansı başqa departamentin və ya federal dövlətin icra hakimiyyəti agentliyinin qulluqçuları şəxsən komitəyə gəlməli və komitənin işində zəruri olan hər hansı sənədləri ona təqdim etməlidirlər.

6). Komitə Prezident onu öz sərəncamı ilə ləğv edənə qədər mövcud olacaqdır.

Harri S.Trumən

Mənbə: Fed. Register 13 (1948): 4313.

Satış üçün nəzərdə tutulmayıb

36. Braun Təhsil Üzrə Şuraya Qarşı (1954)

Mülki hüquqların qorunması sahəsində ölkənin aparıcı təşkilatı olan "Qaradərili Əhalinin İnkişafı üzrə Milli Assosiasiya" (NAACP) heç şübhəsiz, "ayrı, lakin bərabər" prinsipinin qanuni sayılması ilə barışa bilməzdi. Buna görə də 1940-cı və 1950-ci illərdə NAACP bir sıra məhkəmə prosesləri başlatmışdı. Həmin proseslərin mahiyyəti ondan ibarət idi ki, ictimai müəssisələrdə qaradərili və ağdərili insanlar üçün ayrı-ayrı yerlər nəzərdə tutulması bərabərlik prinsipini pozur. "MakLorin Oklahoma Ştatı Universitetinin idarə heyətinin üzvlərinə qarşı" (1950) adlı işdə Ali Məhkəmə Universitetin qaradərili tələbələrin dərslərə gəlməsinə icazə verən, lakin bu halda ağdərili tələbələrdən təcrid olunmalarını tələb edən qaydasını yekdilliklə ləğv etdi. Elə həmin gün Məhkəmə "Svett Peynterə qarşı" adlı iş üzrə belə bir qətnamə qəbul etdi ki, Texas Ştatı tərəfindən qaradərili tələbələrin Texas Universitetinin prestijli hüquq fakültəsinə qəbul edilməsi məqsədilə onlardan ötrü ayrıca hüquq fakültəsi açılması bərabərlik prinsipi ilə bir araya sığmır. Hakimlərin ictimai müəssisələrdə seqreqasiya barədə təsəvvürlərindən asılı olmayaraq, onlar hüquq fakültələrinin sabiq məzunları kimi, yaxşı bilirdilər ki, bu məşhur hüquq fakültəsi necə olmalıdır. Beləliklə, Məhkəmə ilk dəfə olaraq, qaradərili tələbələrin ağdərili tələbələr üçün Universitetə qəbul edilməsi barədə qərar qəbul etdi.

Bu qərar qəbul ediləndən sonra NAACP və onun baş hüquq məsləhətçisi Turqud Marşal *(Thurgood Marshall)* qərara gəldi ki, hakimlər ictimai müəssisələrdəki yerlərdən və xidmətlərdən ağdərili və qaradərili adamların ayrı-ayrılıqda istifadə etməsinin ədalətli sayıla bilib-bilməyəcəyi məsələsinə baxmağa hazırdırlar. 1952-ci ildə NAACP "Plessi Fergüsona qarşı" (1896) işində əsas götürülmüş seqreqasiya doktrinasının ədalətli olmasını şübhə altına alan beş iddia ilə Ali Məhkəməyə müraciət etdi. Vətəndaş müharibəsi dövründən bəri havadan asılı vəziyyətdə qalmış bir məsələ özünün təxirə salınmadan həll olunmasını tələb edirdi: Afrika mənşəli amerikalılar Amerikanın ictimai-siyasi həyatında nə kimi yer tutacaqlar?

Bəzi sənədlərdən məlum olur ki, hakimlərin bir hissəsi seqreqasiyanı ədalətsiz hesab etdiklərinə baxmayaraq, Plessinin işi üzrə Ali Məhkəmənin qərarını ləğv etməyə hazır deyildilər. Buna görə də 1953-cü ildə Məhkəmə həmin işlərin hamısını təkrar baxış üçün qaytardı və tərəflərdən xahiş etdi ki,

Satış üçün nəzərdə tutulmayıb

bəzi mübahisəli məsələlərə xüsusi diqqət yetirsinlər. İşə məhkəmədə təkrar baxışa bir neçə həftə qalmış Ali Məhkəmənin sədri, Plessinin işi üzrə qərarın ləğv edilməsinin əleyhinə olan Vinson *(Vinson)* qəflətən vəfat etdi. Ali Məhkəmənin yeni sədri Erl Uorren *(Earl Warren)* ustalıqla hərəkət edib, 1954-cü il mayın 17-də Məhkəmənin yekdilliklə tarixi qərar qəbul etməsinə nail oldu.

Şübhə yoxdur ki, "Braun Təhsil Şurasına qarşı" *(Brown v. Board of Education)* işi üzrə çıxarılmış və məktəblərdə irqi seqreqasiyanın ləğv edilməsi ilə nəticələnmiş qərar Amerika tarixində ən mühüm məhkəmə qərarlarından biridir. Qaradərili irqin nümayəndələrini tamdəyərli insanlar hesab etməyən qanunların mövcud olduğu heç bir dövlət özünü demokratik dövlət saya bilməzdi. Lakin bu qərarda məhkəmə hakimiyyətinin səlahiyyətləri ilə bağlı bir sıra yeni məsələlər də qaldırılmışdı. Bu qərarın əleyhdarlarının bir qismi iddia edirdi ki, Məhkəmənin bu qərarı nə qədər mənəviyyatlı və demokratik olsa da, bütövlükdə məhkəmə hakimiyyətinin nüfuzuna ziyan vurur. Digər tənqidçilər iddia etməyə başladılar ki, Məhkəmə kifayət qədər neytral mövqe tutmamışdır və bundan əlavə, o, qeyri-korrekt sosioloji araşdırmaların nəticələrinə həddən çox əsaslanır[77].

Lakin hazırda Federal Region Məhkəməsinin (federal circuit court) hakimi vəzifəsini tutan C.Harvi Vilkinson *(J. Harvie Wilkinson)* bu cür tənqidi çıxışların çoxunu təkzib edərək bildirir ki, Braunun işi "humanist iş idi, ölkəmizin tarixində ən humanist işlərdən biri idi. Bu, bərabərlik məsələsində Məhkəmənin vahid nöqteyi-nəzərinə nail olmaq baxımından, çox böyük bir siyasi addım idi, bundan əlavə, həmin qərar göstərdi ki, Məhkəmə millətin bütün nümayəndələrinə bərabər münasibət bəsləyir".

Bu qərarın sayəsində millət 80 ildən də çox bundan əvvəl unudulmuş bir problemə – vətəndaşların qanuna əsasən, bərabər müdafiə olunması probleminə yenidən müraciət etdi və qaradərili azlığın amerikanın ictimai-siyasi həyatına tam inteqrasiya edilməsi üçün səy göstərməyə başladı.

Əlavə məlumat üçün oxuyun: Richard Kluger, Simple Justice: The History of Brown v. Board of Education and Black America's Struggle for Equality (1976); Mark Tushnet, The NAACP's Strategy Against Segregated Education, 1925-1950 (1987); and Daniel M. Berman, It is So Ordered: The Supreme Court Rules on School Segregation (1966).

Satış üçün nəzərdə tutulmayıb

BRAUN TƏHSİL ŞURASINA QARŞI

Ali Məhkəmənin sədri Uorren Məhkəmənin rəyini açıqladı:

Bu işlər bizə Kanzas, Cənubi Karolina, Virciniya və Delaver ştatlarından daxil olmuşdur. Bu işlərin hər birində qaradərili azlığın nümayəndələri Məhkəmədən xahiş edirlər ki, Məhkəmə onların yaşadıqları ərazilərdə yerləşən dövlət və ictimai məktəblərdə *(public schools)* ağdərili uşaqlarla birgə təhsil almaq hüquqlarının müdafiəsində onlara kömək etsin. Bu işlərin hər birində həmin ştatların irqi seqreqasiya tətbiq olunmasını tələb edən və ya buna icazə verən qanunlarına müvafiq olaraq iddiaçıların ağdərili uşaqlar üçün nəzərdə tutulan məktəblərə qəbul edilməsindən imtina olunmuşdur. İddiaçılar bildirirlər ki, seqreqasiya onları Konstitusiyaya XIV Düzəlişə müvafiq olaraq malik olduqları qanun tərəfindən bərabər müdafiə olunmaq hüququndan məhrum edir. İddiaçılar hesab edirlər ki, bu cür məktəblər "bərabər" deyildir və "bərabər" ola bilməzlər və buna görə də iddiaçılar qanun əsasında bərabər müdafiə olunmaq imkanından məhrum edilmişlər. Bu iş 1952-ci ildə məhkəmə sessiyasında dinlənilmişdir. İndiki məhkəmə sessiyasında təkrar dinləmə aparılmış və bu dinləmə Məhkəmə tərəfindən qaldırılan bəzi məsələlər nəzərə alınmaqla keçmişdir.

Təkrar dinləmə, əsas etibarilə, 1868-ci ildə XIV Düzəlişin qəbul edilməsinə şərait yaratmış hallara həsr edilmişdir. Dinləmələrdə XIV Düzəlişin Konqresdə qəbul edilməsinə şərait yaratmış diskussiyalar, bu Düzəlişin müxtəlif ştatlar tərəfindən ratifikasiya edilməsi, eləcə də irqi seqreqasiyanın mövcud praktikası və Düzəlişin tərəfdarlarının və əleyhdarlarının baxışları diqqətlə öyrənilmişdir. Biz yəqin etmişik ki, bu diskussiyalar, eləcə də apardığımız təhqiqat məsələyə müəyyən qədər işıq saldığına baxmayaraq, bunlar qarşımızda dayanan problemin həll edilməsi üçün kifayət deyildir. Çıxardığımız nəticələr, ən yaxşı halda, anlaşıqlı olmayan nəticələr kimi səciyyələndirilə bilər. Heç şübhəsiz, müharibədən sonra qəbul edilmiş Düzəlişlərin ən qızğın tərəfdarları həmin Düzəlişlərin köməyi ilə "Birləşmiş Ştatlarda doğulmuş və ya orada naturallaşmış bütün insanlar" arasında hər hansı hüquqi qeyri-bərabərliyi aradan qaldırmaq istəyirdilər. Bu da şübhəsizdir ki, Düzəlişlərin əleyhdarları həmin Düzəlişlərin hərfi mənasına və ruhuna qəti etiraz edir və onların qüvvəsini maksimum dərəcədə məhdudlaşdırmağa çalışırdılar. O ki qaldı Konqresin və ştatların qanunverici məclislərinin qalan üzvlərinin münasibətlərinə, bunu indi azacıq da olsa, dəqiq müəyyən etmək mümkün deyildir.

Satış üçün nəzərdə tutulmayıb

Düzəlişin məktəblərdə seqreqasiya hallarına tətbiq edilməsi məsələsində aydınlıq olmamasının bir səbəbi də həmin dövrdə dövlət və ictimai təhsil sisteminin *(public education)* statusu ilə bağlıdır. Cənubda ümumi vergitutma sayəsində maliyyələşdirilən pulsuz ümumi məktəblərin dəstəklənməsi praktikası hələ kifayət qədər güclü deyildi. Ağdərili uşaqların təhsili əsas etibarilə ayrı-ayrı qrupların əllərində cəmləşmişdi. Zəncilər üçün məktəblər yox dərəcəsində idi və onların praktiki olaraq hamısı savadsız idi. Üstəlik, bəzi ştatlarda zəncilərin hər hansı şəkildə təhsil alması ümumiyyətlə, qadağan edilmişdi. Müqayisə üçün deyə bilərəm ki, bu gün zəncilərin çoxu istər elm, incəsənət və biznes sahələrində, istərsə də hər hansı başqa peşəkar sahələrdə çox böyük uğurlar qazanmışlar. Şimalda dövlət məktəbləri daha geniş yayılmışdır, lakin Konqresdə debatlar zamanı Düzəlişlərin Şimal ştatlarında ictimai həyata təsiri məsələsi, demək olar ki, nəzərdən keçirilməmişdir. Unutmayaq ki, o dövrdə Şimalda da dövlət məktəblərində şərait indiki vəziyyətdən çox uzaq idi. Tədris proqramı primitiv idi, kənd yerlərində məktəblərin keyfiyyəti çox aşağı səviyyədə idi, bir sıra ştatlarda təhsil müddəti ildə cəmi üç ay davam edirdi. Dərsə gəlməyin məcburi olması isə əslində tətbiq edilmirdi. Buna görə də XIV Düzəlişin tarixi ilə dövlət təhsil sistemi arasında əlaqənin çox cüzi olması heç də təəccüblü deyildir ki.

XIV Düzəliş ratifikasiya ediləndən dərhal sonra onun şərhi ilə əlaqədar baxılmaq üçün qəbul edilmiş ilk işlərə baxarkən məhkəmə bu Düzəlişi zənci irqinin Ştat tərəfindən hər hansı şəkildə ayrı-seçkiliyə məruz qalmasını qadağan edən hüquqi norma kimi qiymətləndirmişdir. "Ayrı, lakin bərabər" doktrininə məkhəmədə yalnız 1896-cı ildə baxılmışdı və bu doktrin təhsillə deyil, nəqliyyatda seqreqasiya ilə əlaqədar idi. Bu Məhkəmə ictimai təhsil sahəsində "ayrı, lakin bərabər" doktrini ilə əlaqədar altı işə baxmışdır. "Kaminq Qraflığın Təhsil Şurasına qarşı" və "Qonq Lum Raysa qarşı" işlərində "ayrı, lakin bərabər" doktrinin özünün qanuni olması mübahisə doğurmurdu. Sonrakı işlərin hamısı ali təhsil müəssisələri ilə bağlı idi. Həmin işlərdə aşkar edilmiş bərabərsizlik ondan ibarətdir ki, ağdərili tələbələrlə eyni ixtisas səviyyəsinə malik olan zəncilərin ağdərili tələbələrin istifadə etdiyi imtiyazlardan istifadə etmələrinə imkan verilmirdi. Bu işlərin heç birində zənci iddiaçının xeyrinə qətnamə çıxarmaq üçün "ayrı, lakin bərabər" doktrininə təkrar baxılmasına ehtiyac yox idi. "Svett Peytnerə qarşı" işində isə Məhkəmə "Plessi Fergüssona qarşı" işinin dövlət tədris müəssisələrində təhsil halına tətbiq edilə bilməyəcəyi barədə qəsdən qərar çıxarmamışdır.

İndi baxdığımız işlərdə bu məsələ bilavasitə qarşıda durur. "Svett Peyntnerə qarşı" işindən fərqli olaraq burada sübutlar vardır ki, zəncilər və ağdərili tələbələr üçün məktəblərdə dərs otaqları, dərs proqramı, müəllimlərin ixtisas səviyyəsi və məvacibi, eləcə də digər maddi amillərlə bağlı

Satış üçün nəzərdə tutulmayıb

məsələlərdə şərait ya artıq bərabərləşdirilmişdir, ya da bərabərləşdirilir. Buna görə də qərarımız təkcə zəncilər və ağlar üçün məktəblərdə həmin maddi amillərin müqayisəsinə əsaslanmamalıdır. Bunun əvəzinə biz həmin seqreqasiyanın dövlət təhsili sisteminə təsirinə fikir verməliyik. Bu problemə münasibətdə yadda saxlamaq lazımdır ki, indi biz həmin Düzəlişin qəbul edildiyi 1868-ci ildə və hətta Plessinin işinin yarandığı 1896-cı ildə də yaşamırıq. Biz dövlətimizin təhsil sisteminə onun inkişafı və onun indiki dövrdə Amerika cəmiyyətinin həyatında yeri məsələsinə baxmalıyıq. Yalnız bu halda biz dövlət məktəblərində seqreqasiyanın iddiaçıları qanun tərəfindən bərabər müdafiə olunmaq hüquqlarından məhrum edib-etmədiyini müəyyən edə bilərik.

Bu gün təhsil Ştat hökumətinin və yerli özünüidarə orqanlarının qarşısında duran ən mühüm vəzifələrdən biridir. İcbari məktəb təhsili barədə qanunlar, eləcə də təhsil üçün sanballı məsrəflər bizim demokratik cəmiyyət üçün təhsilin əhəmiyyətinin qəbul olunmasını nümayiş etdirir. Ən adi vəzifələrin həyata keçirilməsi üçün, hətta orduda qulluq zamanı da təhsil lazımdır. Təhsil məsuliyyətli vətəndaşlığın təməlidir. Bu gün məktəb təhsili uşağın mədəni dəyərlərə yiyələnməsi, onun gələcəkdə peşə öyrənməsi və ətraf aləmə uyğunlaşması üçün əsas vasitədir. Əgər bugünkü uşaq təhsil almaq imkanına malik olmasa o, həyatda heç nəyə nail ola bilməyəcək. Ştat hökumətinin uşaq üçün yaratmalı olduğu bu imkanlar bütün vətəndaşların bərabər dərəcədə malik olmalı olduğu bir hüquqdur.

Beləliklə, biz məsələnin mahiyyətinə yaxınlaşdıq: seqreqasiya məktəblərdə azlıqları təmsil edən uşaqları təhsil almaq üçün bərabər imkanlardan, hətta fiziki vasitələr və digər maddi amillər eyni olduğu halda da, məhrum edirmi? Bizim fikrimizcə, bəli, məhrum edir. Svettin işində qərara alınmışdır ki, hüquq fakültəsində zəncilərin seqreqasiyası nəticəsində onlara bərabər təhsil imkanları verilməsi mümkün olmur. Burada Məhkəmə əsas etibarilə "obyektiv ölçülməsi mümkün olmayan, lakin hüquq fakültəsində təhsilin səviyyəsi barədə aydın təsəvvür yaradan keyfiyyətləri" rəhbər tutmuşdur. MakLorinin işində Məhkəmə tələb etmişdir ki, hüquq fakültəsinə qəbul edilmiş hər bir zənciyə münasibət bütün başqa tələbələrə münasibət kimi olsun. Məhkəmə bu qərarı qəbul edəndə də tələbənin təhsil almaq, müzakirələrdə iştirak etmək, digər tələbələrlə fikir mübadiləsi aparmaq və bütövlükdə öz peşəsini öyrənmək qabiliyyəti kimi mücərrəd mülahizələri rəhbər tutmuşdur. Yuxarı sinif şagirdlərinə və ali məktəb tələbələrinə münasibətdə bu cür amillər xüsusilə vacibdir. Qaradərili uşaqların onlarla eyni biliklərə malik olan yaşıdlarından ayrılması həmin uşaqlarda tam dəyərli olmamaq hissi yaradır, bu isə onların qəlbinə və ruhuna sağalmaz yaralar vura bilər. Bu cür ayrılmanın qaradərili uşaqların təhsil imkanlarına təsiri Kanzasda keçirilən məhkəmə tərəfindən əyani nümayiş

Satış üçün nəzərdə tutulmayıb

etdirildi, lakin Məhkəmə iddiaçı zəncilərin əleyhinə qərar çıxarmağa məcbur oldu:

> "Dövlət məktəblərində qaradərili və ağdərili uşaqların ayrılması qaradərili uşaqlara neqativ təsir göstərir. Bu ayrılmaya qanunla icazə verildikdə həmin təsir qat-qat çox neqativ olur, çünki irqlərin ayrılması siyasəti adətən zənci irqinin tamdəyərli olmaması ideyasına əsaslanır. Tamdəyərli olmamaq hissi uşağın təhsil almaq arzusunda da öz əksini tapır. Deməli, qanunla icazə verilmiş seqreqasiya qaradərili uşağın təhsilini və zehni inkişafını ləngidir və onu "birgə təhsil" sistemi tətbiq olunan məktəbdə əldə edə biləcəyi üstünlüklərdən məhrum edir".

1896-cı ildə "Plessi Fergüsona qarşı" işinə baxılarkən psixologiya elminin inkişaf səviyyəsindən asılı olmayaraq, yuxarıda sitat gətirdiyimiz fikir bizim zəmanədə alimlər tərəfindən geniş dəstəklənir. "Plessi Fergüsona qarşı" işində bu fikrə zidd olan hər hansı başqa fikirlər isə bizim dövrümüzdə rədd edilmişdir.

Biz bu qənaətə gəlmişik ki, dövlət təhsil sistemində "ayrı, lakin bərabər" doktrinasına yer olmamalıdır. Ayrılıqda təhsil alma vasitələri qeyribərabərliyə səbəb olur. Buna görə də biz belə hesab edirik ki, iddiaçılar və seqreqasiyaya məruz qalan digər vətəndaşlar qanun əsasında bərabər dərəcədə müdafiə olunmaq üçün XIV Düzəlişlə zəmanət verilən hüquqlarından məhrum edilmişlər. Təkcə bu fakt, bu cür seqreqasiyanın XIV Düzəlişin digər müddəasına – "lazımi məhkəmə proseduru" qaydasına da zidd olmasını iddia etmək üçün tamamilə kifayətdir.

Belə hərəkətlər insanların bütöv bir sinfinə aid olduğu üçün, həmin qərarın geniş miqyasda tətbiq edilməsi nəzərdə tutulduğu üçün və bu qərar həyata keçirilərkən çoxsaylı yerli amillər mövcud olduğu üçün Məhkəmənin müvafiq sərəncamlarının və qərarlarının ifadə edilməsi heç də asan məsələ deyildir. İşə təkrar baxış zamanı lazımi qərar axtarışı hökmən əsas məsələyə – dövlət təhsil sistemində seqreqasiyanın Konstitusiyaya müvafiq olub-olmaması məsələsinə çevrilirdi. *Biz iddia edirik ki, bu cür seqreqasiya vətəndaşları qanun tərəfindən bərabər müdafiə olunmaq imkanından məhrum edir.* Məhkəmənin sərəncamının ifadəsində tərəflərin dəstəyinə bel bağlamaq üçün Məhkəmə bu işləri yenidən dinlənilməli olan işlərin siyahısına daxil edir və biz tərəfləri özlərinin yeni dəlillərini təqdim etməyə çağırırıq... Bizim qərarımız belədir.

Mənbə: 347 U. S. 483 (1954).

Satış üçün nəzərdə tutulmayıb

37. Kuper Aarona Qarşı (1958)

Braunun işində Ali Məhkəmə yalnız onu qət edə bilmişdi ki, seqreqasiya vətəndaşların qanun əsasında bərabər müdafiə olunması barədə Konstitusiya müddəasına ziddir. Lakin Məhkəmə bu qərarın həyata keçirilməsinin heç də asan olmayacağını başa düşdüyündən, bundan sonra hansı konkret addımlar atılmalı olduğunu birlikdə müzakirə etmək üçün cənub ştatlarına və federal hökumətə müraciət etdi. Artıq "II Braun" işi kimi məşhurlaşmış bu işdə Məhkəmə qətiyyətlə Cənub ştatlarını məktəblərdə seqreqasiyanı tezliklə aradan qaldırmağa çağırmışdı.

Ali Məhkəmənin öz qərarını həyata keçirməsi üçün onun nə qılıncı, nə də pulu var – o, ya özünün mənəvi hakimiyyətinə, ya da Prezidentin və Konqresin köməyinə ümid bəsləyə bilər. Lakin Braunun hər iki işi üzrə qərarlar çıxarılandan sonrakı müddətdə istər icra hakimiyyəti, istərsə də qanunverici hakimiyyət Məhkəməyə kömək etməyə tələsmirdi. Prezident Duayt Eyzenhauer *(Dwight Eisenhower)* belə hesab edirdi ki, federal hökumət ştatların işlərinə müdaxilə etməməlidir, Konqresdəki cənublular isə seqreqasiyanın ləğv edilməsi barədə qanun layihəsinə baxılmasını ləngitmək və onu ümumiyyətlə rədd etmək üçün bir sıra tədbirlər görmüşdülər.

Lakin hər halda, yaranmış şərait prezident Eyzenhaueri hərəkətə gəlməyə məcbur etdi. 1957-ci ilin payızında Arkanzas Ştatındakı Litl Rok *(Little Rock)* şəhərinin "Məktəb Təhsili üzrə Şura"sı Məhkəmənin yuxarı siniflərdə oxuyan zəncilərin "Yuxarı sinif şagirdləri üçün Mərkəzi Məktəb"ə qəbul edilməsi barədə qərarına tabe oldu. Lakin Ştat qubernatoru Orvil Faubus *(Orville Faubus)* Milli Qvardiyaya əmr etdi ki, qaradərili yeniyetmələr məktəbə buraxılmasın. Məhkəmə həmin yeniyetmələrin məktəbdə məşğələlərə buraxılmasını yenidən tələb edəndə isə Faubus məktəbi mühasirəyə almış qoşunları geri çağırmağı qərara aldı. Qaradərili yeniyetmələr ilk dəfə dərsə gələndə hiddətlənmiş kütlə məktəbə hücum etdi və bu yeniyetmələr məktəb binasını tərk etməyə məcbur oldular. Eyzenhauer federal hakimiyyətin necə tapdalanmasını artıq kənardan müşahidə edə bilməzdi. O, Litl Roka min nəfər de-

Satış üçün nəzərdə tutulmayıb

santçı göndərilməsini əmr etdi, Arkanzas Ştatının Milli Qvardiyasının on min əsgərini federal hakimiyyətin nəzarəti altına götürərək həmin qüvvələrdən bu məktəbdə qaradərili yuxarı sinif şagirdlərinin müdafiə edilməsi və asayişin qorunması üçün istifadə etdi.

Eyzenhauer qoşunları yalnız dərs ilinin sonunda oradan çıxartdı, sonra isə Arkanzasda baş vermiş iğtişaşlar nəticəsində yaranmış "Kuper Aarona qarşı" işində Ali Məhkəmə Braunun işinin yarandığı vaxtdan etibarən ilk dəfə məktəblərdə seqreqasiyanın aradan qaldırılmasını tələb etdi. Lakin Ştat bəyan etdi ki, o, iddiada göstərilən tərəflərin heç biri olmadığı üçün məhkəmənin qərarına tabe olmağa borclu deyildir. Bundan əlavə, Arkanzasda belə hesab etdilər ki, Konstitusiyanın şərh edilməsi məsələsində Ştatın qubernatoru və Ali Məhkəmə ilə eyni hakimiyyətə malikdirlər.

Lakin Ali Məhkəmə Braunun işində seqreqasiyanın Konstitusiyaya zidd olması barədə qərarını nəinki qəti təsdiq etdi, həmçinin Məhkəmənin doqquz üzvünün hamısı tərəfindən imzalanmış bəyanat verdi. Ali Məhkəmə özünün bu bəyanatında Konstitusiyanı qəti şərh etmək səlahiyyətinə malik olduğunu təsdiq etdi və həm Arkanzas Ştatına, həm də bütün millətə xatırlatdı ki, 1803-cü ildən başlayaraq, Ali Məhkəmənin o zamankı sədri Con Marşallın təbirincə desək, qanunların şərh edilməsi məhkəmə hakimiyyətinin səlahiyyəti və vəzifəsidir.

"Kuper Aarona qarşı" işi üzrə qərar cənub ştatlarının Braunun işi üzrə qərara tabe olmaları və məktəblərdə seqreqasiyanı ləğv etməyə başlamaları üçün həmin ştatlara verilmiş möhlətin başa çatması demək idi. Kuperin işi üzrə qərar qəbul ediləndən sonra Ali Məhkəmə artıq cənub ştatlarının hoqqabazlıqlarına dözməkdən imtina edirdi. Qanun tələb edirdi ki, seqreqasiyaya son qoyulsun. Ali Məhkəmə Kuperin işindən sonrakı bir sıra işlərdə bir-birinin ardınca deseqreqasiyanın başlanmasını tələb edən qərarlar çıxarmışdı.

Əlavə məlumat üçün oxuyun: Tony Freyer, The Little Rock Crisis (1984); Benjamin Muse, Ten Years of Prelude (1964).

Satış üçün nəzərdə tutulmayıb

KUPER AARONA QARŞI

Ali Məhkəmənin Sədrinin və hakimlər Blek, Frankfurter, Duqlas, Barton, Klark, Harlan, Brennan və Uitteykerin şəxsində Məhkəmənin rəyi[78].

Bu iş bizə gəlib çatana qədər o, bizim federal dövlət sisteminizin dəstəklənməsi ilə bağlı bir sıra çox mühüm məsələlər irəli sürmüşdür. Bu işə qubernatorun və Ştatın qanunverici məclisinin belə bir fikri daxil edilmişdir ki, əgər federal məhkəmənin çıxardığı qərar Birləşmiş Ştatların Konstitusiyasının məhkəmə tərəfindən şərhi əsasında çıxarılmış olarsa, bu halda Ştatın hakimiyyət orqanları həmin qərara tabe olmağa borclu deyildirlər. Konkret olaraq bu işə Arkanzas Ştatının qubernatorunun və qanunverici məclisinin belə bir iddiaya əsaslanan hərəkətləri daxil edilmişdir ki, Məhkəmənin "Braun Təhsil Şurasına qarşı" işi üzrə çıxardığı qərar onlara şamil edilmir. Məhkəmənin sözügedən qərarında bildirilirdi ki, XIV Düzəliş uşaqların irqi mənsubiyyətini səbəb göstərərək onların məktəblərə getməsinə maneçilik törətmək üçün ştatların öz hakimiyyətindən istifadə etmələri qadağan olunur.

Bu gün Litl Rok şəhərinin "Məktəb Təhsili üzrə Şura"sı bizə çağırış edir ki, məktəblərdə seqreqasiyaya son qoyulmasına dair planın qüvvəsi Ştatın seqreqasiya ilə bağlı qanunlarına məhkəmədə baxılana qədər təxirə salınsın. Biz bu çağırışı rədd edirik.

Biz bu işə 1958-ci il sentyabrın 11-də baxmışdıq. Ertəsi gün biz Arkanzas Ştatının Səkkizinci dairəsinin Apelyasiya Məhkəməsinin qərarını yekdilliklə təsdiq etdik. Dairə məhkəməsi özünün əvvəlki qərarında bu planın qüvvədə olmasını iki il yarım təxirə salmaq barədə iddiaçının tələbini dəstəkləmişdi. Qarşıdakı bazar ertəsi, 15 sentyabr 1958-ci ildə məktəblərdə məşğələlər başlanana qədər Şuranın öz planını müəyyənləşdirə bilməsi üçün biz dərhal bu məsələdə öz dəstəyimizi bildirməyi təxirə salan qərar qəbul etdik. Məhkəmənin bütün üzvlərinin fikri belədir.

Biz Dairə Məhkəməsinin qərarının ləğv edilməsi barədə Apelyasiya Məhkəməsinin qərarını təsdiq etməklə məktəb təhsili məsələləri üzrə Şurasının və Məktəblər Müdirinin mövqeyini şərtsiz qəbul etmişik. Onlar aparılmış məhkəmə araşdırmasına tam etimad göstərmişdir və Arkanzasda kədərli nəticələrlə başa çatmış hadisələrə onların münasibəti bizi qane edir.

Biz həmçinin Dairə Məhkəməsinin 1957-1958-ci dərs ilində Mərkəzi Məktəbdə yuxarı sinif şagirdləri üçün yaradılmış şərait barədə və bu məktəbdə təhsil alan bütün tələbələrin – həm ağdərililərin, həm dəqaradərili-

Satış üçün nəzərdə tutulmayıb

lərin təhsil prosesinə ciddi ziyan vurulması barədə gəldiyi nəticələrlə razılaşmışıq, əgər ötənilki şərait dəyişməsə bu vəziyyət gələcəkdə də təhsilə mane olacaqdır.

Lakin unutmayaq ki, təsvir edilən şərait Arkansaz Ştatının Braunun işi üzrə bu Məhkəmənin çıxardığı qərarı tanımayan qanunverici və icra hakimiyyətinin aktları ilə birbaşa bağlıdır və Arkansazda zor tətbiq edilməsi ilə müşayiət olunan protestlərə həmin aktlar səbəb olmuşdur. Şura Ali Məhkəməyə müraciətində vəziyyəti belə təsvir edir: "Ştatın qanunverici, icra və məhkəmə hakimiyyətləri Litl Rok məktəblərində seqreqasiyanın aradan qaldırılmasına qarşı çıxmış, hərbçilərin köməyinə əl atmış, federal qanunvericiliyi və federal məhkəmələri pisləyən bəyanatlar vermişlər. Onlar həmçinin ictimai asayişin bərpa edilməsi üçün Ştatın hüquq-mühafizə və məhkəmə orqanlarından düzgün istifadə edə bilməmişlər".

Şuranın üzləşdiyi kədərli vəziyyəti nəzərə alaraq onun halına acımaq olar, lakin şuranın nə qədər xoş niyyətləri rəhbər tutmasından asılı olmayaraq Ştatın digər məsul orqanlarının hərəkətləri bizi məcbur edir ki, deseqreqasiya planının müvəqqəti dayandırılması barədə şuranın xahişini rədd edək. Şuranın üzvləri Ştatın hakimiyyət orqanlarının nümayəndələridir və Ştatın digər rəsmi şəxsləri kimi həmin nümayəndələrin də haqqı yoxdur ki, XIV Düzəlişə uyğun olaraq vətəndaşların qanun tərəfindən bərabər müdafiə olunmaq hüququndan imtina etsinlər.

Vətəndaşların Konstitusion hüquqları qubernatorun və qanunverici məclisin hərəkətləri nəticəsində baş vermiş iğtişaşlar və zorakılıq üzündən qurban verilə və ya təxirə salına bilməz. Bu məhkəmə qırx bir il bundan əvvəl irqi seqreqasiyanın başqa bir aspekti ilə bağlı işdə (Byukanan Uarliyə qarşı) yekdilliklə bəyan etmişdi:

> "Bu işdə göstərilən seqreqasiya irqi münaqişələri aradan qaldırmaqla ictimai asayişin möhkəmlənməsinə şərait yaratmalıdır. Lakin ictimai asayişin qorunub saxlanması nə qədər arzu edilən və əhəmiyyətli olsa da, o, vətəndaşları federal Konstitusiya ilə zəmanət verilən və qorunan hüquqlardan məhrum edən qanunlar və normativ aktlar qəbul edilməsi yolu ilə təmin olunmamalıdır".

Beləliklə, qanun və qayda zənci uşaqların konstitusion hüquqlarından məhrum edilməsi yolu ilə dəstəklənməməlidir. İşdəki sənədlərdən aşkar görünür ki, kənardan kömək olmasa, Şuranın vəziyyətə nəzarət etmək iqtidarında olmaması Ştatın hərəkətlərinin nəticəsidir. Buna görə də Məhkəmədə dinləmələr zamanı Ştatın etiraf etdiyi kimi, mövcud çətinlikləri yalnız Ştat hökumətinin görəcəyi tədbirlər vasitəsilə aradan qaldırmaq olar.

Satış üçün nəzərdə tutulmayıb

Burada hüquqi prinsiplər sadədir. XIV Düzəlişdə deyilir ki, heç bir Ştat onun yurisdiksiyasının hüdudları daxilində olan hər kəsin qanun əsasında bərabər müdafiə olunmaq hüququndan imtina edə bilməz...

Bu deyilənlər həmin işin bağlanması üçün tamamilə kifayətdir. Lakin biz Ştatın qubernatorunun və qanunverici məclisinin belə bir iddiasına da cavab verməliyik ki, onlar Braunun işi üzrə bizim qərarımıza tabe olmağa borclu deyildirlər. Burada yalnız Konstitusiyanın həmin doktrinanı müəyyənləşdirən bir neçə əsas müddəasını xatırlamaq kifayətdir.

Konstitusiyanın VI maddəsində deyilir ki, Konstitusiya "ölkənin ali qanunudur". 1803-cü ildə hakim Marşall "Marbüri Medisona qarşı" adlı məşhur işdə Konstitusiyanı "millətin əsas və ali qanunu" hesab edən Məhkəmənin yekdil fikrini ifa də edərək bəyan etmişdi ki, "qanunların şərhi məhz məhkəmə hakimiyyətinin səlahiyyəti və borcudur". Bu qərarla belə bir əsas prinsip təsbit edildi ki, federal məhkəmələr Konstitusiyanın şərhi məsələsində ali səlahiyyətə malikdirlər. O vaxt dan bəri həm bu Məhkəmə, həm də ölkə həmin prinsipə riayət etmişdir və bu prinsip bizim Konstitusiya sisteminin daimi və ən mühüm xüsusiyyəti olmuşdur. Beləliklə, Braunun işində XIV Düzəlişin bu Məhkəmə tərəfindən şərhi də ölkənin ali qanunudur, Konstitusiyanın VI maddəsi isə, hətta Konstitusiyada və ayrı-ayrı ştatların qanunlarında ona zidd olan qərarlar olduqda belə, məcburi qüvvəyə malikdir. Konstitusiyanın VI maddəsinin 3-cü bəndinə müvafiq olaraq, Ştatın qanunverici, icra və məhkəmə hakimiyyətini təmsil edən hər bir vəzifəli şəxs and içərək bu Konstitusiyaya ria yət edəcəyini öhdəyə götürür.

Heç bir qanunverici, icra və məhkəmə hakimiyyətinin heç bir nümayəndəsi özünün Konstitusiyaya riayət etmək öhdəliyini pozmadan Konstitusiyanın müddəalarına etiraz edə bilməz. Bununla əlaqədar, hakim Marşal Ali Məhkəmənin bütün üzvləri adından bəyan etmişdi: "Əgər ştatların qanunverici məclisləri öz istəklərinə görə Birləşmiş Ştatların qərarlarını ləğv edə bilərlərsə və bu qərarlarla verilən hüquqları ləğv edə bilərlərsə, onda Konstitusiyanın heç bir mənası yoxdur…" (Birləşmiş Ştatlar Pitersə qarşı). Əgər qubernator öz fərmanları ilə federal məhkəmənin qərarlarını ləğv etmək səlahiyyətinə malikdirsə, onda, 1923-cü ildə Ali Məhkəmənin sədri Hyuzun *(Hughes)* dediyi kimi, "aşkardır ki, ölkənin ali qanunu Birləşmiş Ştatların Konstitusiyası yox, qubernatorun fərmanları sayılmalıdır və Ştatın səlahiyyətlərinin məhdudlaşdırılması barədə konstitusiya müddəaları yalnız boş sözlərdir…". (Sterlinq Konstantinə qarşı).

Təhsil üçün məsuliyyət, əsas etibarilə, ştatların üzərinə düşür, lakin bu da şəksizdir ki, Ştatın hər hansı başqa fəaliyyəti kimi, bu səlahiyyətlərin də həyata keçirilməsi federal Konstitusiyanın tələblərinə uyğun olmalıdır.

Satış üçün nəzərdə tutulmayıb

Konstitusiyanı dövlət yaratmışdır, onun da məqsədi – qanun qarşısında hamının bərabər olmasıdır. XIV Düzəliş bu idealın təcəssümüdür. Seqreqasiyaya yol verilən məktəblərin Ştat tərəfindən dəstəklənməsi həmin Düzəlişin belə bir müddəasına tamamilə ziddir ki, hər hansı şəxsin qanun əsasında bərabər müdafiə olunmaq hüququnu heç bir Ştat rədd edə bilməz. Yeniyetmələrin məktəblərdə irqi seqreqasiya obyektinə çevrilməmək hüququ bu cür hüquqlardan biridir. Bu hüquq o qədər fundamental, o qədər ümumidir ki, hətta "lazımi məhkəmə proseduru" konsepsiyasını da əhatə edir.

Braunun işi üzrə son qərar yekdilliklə və yalnız bu iş iki dəfə dinlənilib hərtərəfli araşdırılandan sonra qəbul edilmişdir. Braunun işi üzrə birinci qərar çıxarılandan sonrakı müddətdə bizim Məhkəməyə üç yeni hakim gəlmişdir. Onlar da birinci qərarın qəbul olunmasında iştirak etmiş digər hakimlərlə tam razılaşırlar ki, bu qərar düzgündür və Konstitusiyada deyildiyi kimi, əsas qanuna görə bütün vətəndaşlar üçün təminat verilən azadlıqların qorunması üçün ştatların Məhkəməyə tabe olması zəruridir. Ədalət məhkəməsi qarşısında hamının bərabər olması barədə bizim konstitusion idealımız məhz bu yolla həyata keçirilir.

Mənbə: 358 U.S. 1 (1958).

Satış üçün nəzərdə tutulmayıb

38. “Mənim Bir Arzum Var” (1963)

Martin Lüter Kinq (kiçiyi)

Qara amerikalıların intizarına baxmayaraq, “Braun” məhkəmə işi ölkəni heç də silkələmədi. Belə ki, nə ştatların qanunvericilik yığıncaqları, nə də Konqres onların tərəfində dayanmaq həvəsində oldu. Nəhayət, prezident Con Fitscerald Kennedi *(John Fitzgerald Kennedy)* belə qərara gəldi ki, yalnız vətəndaş hüquqları haqda güclü qanun afroamerikalıların bərabər hüquqlarını müdafiə edə bilər. 1963-cü ilin 11 iyununda o, Konqressə “özümüzə rəva bildiyimiz münasibətləri bərqərar edən” qanun layihəsini təqdim etdi. Cənubdan olan nümayəndələr həmin qanunun Konqresdəki komitə mərhələsində dayandırmağı bacardılar və belədə vətəndaş hüquqları uğrunda hərəkatın liderləri məsələyə siyasi təzyiq yollarını axtarmağa məcbur oldular.

Fəal hüquq müdafiəçisi kimi ad çıxarmış, məşhur həmkar lideri A.Filip Randolf ictimaiyyətin diqqətini bu məsələyə yönəltmək üçün Vaşinqtona yürüş təklifini irəli sürdü. Bütün irqlərdən olan insanların vətəndaş hüquqlarına münasibətdə yekdilliyini sübuta yetirmək naminə A. Filipp Randolf həmin yürüşdə ağların, qaraların birgə iştirakını vacib saydı. Doğrudan da, müxtəlif, əvvəllər bir-birinə şübhə ilə yanaşan hüquq-mühafizə qrupları o yürüşə qoşulmağa razılıq verdilər. “Tünd dərili əhali üzrə milli inkişaf assosiasiyası”, “İrqi bərabərlik konqresi”, “Cənub xristian liderləri konfransı”, “Zorakılığa qarşı tələbələrin koordinasiya komitəsi” və “Şəhərlər liqası” öz aralarındakı ziddiyyətləri kənara qoyub birgə işləmək əzmində oldular. Bəzi fəallar isə birlik naminə hətta öz radikal mövqelərini yumşaltdılar; onlar, yürüşün vətəndaş hüquqları haqda akta təkan verəcəyinə ümid bəsləyən Kennedi iqtidarı ilə əməkdaşlıq da qurdular.

1963-cü il avqustun 28-i buludsuz bir gündə Vaşinqtondakı Linkoln memorialının önünə toplaşan, özü də 50 mini ağlardan ibarət 250 minlik izdiham “iş və azadlıq” tələbini irəli sürdü. Çıxış edənlərin arasında demək olar ki, cəmiyyətin bütün təbəqələrindən nümayəndələr vardı – həmkarların Valter Ruter kimi lideri, ruhanilər, Sidney Puatye və Marlon Brando kimi ekran ulduzları, müğənni Coan Baez və başqaları. Hər natiqə 15 dəqiqə vaxt ayrılsa da, günün əsl qəhrəmanı “Cənub xristian liderlər konfransı”ndan olan tanınmış gənc

Satış üçün nəzərdə tutulmayıb

öndər oldu. Martin Lüter Kinq ayrı-seçkilik zəncirinə giriftar olmuş cəmiyyətdə öz azadlığını qazanmaq ümidiylə yaşayan afro-amerikalıların çəkdiyi iztirablar haqqında çox müxtəsər, adicə bir nitq hazırlamışdı. O, elə kürsüdən düşmək istəyirdi ki, müğənni Mahaliya Cəkson yerindən harayladı: "Martin, sən öz arzundan danış! Aç de onlara!" Nümayişçilərin çağırışından ruhlanan Kinq Amerika vətəndaş hüquqları tarixində bir mərhələ sayılan nitqini söylədi – hər cürə irq və rəngdən olan müxtəlif taleli insanların arzusunda olduğu, azad və demokratik bir ölkəyə çevriləsi Amerikadan danışdı.

Əlavə məlumat üçün oxu: Herbert Garfinkel, When Negroes March: The March on Washington… (1969); Taylor Branch, Parting the Waters: America in the King years? 1954-1963 (1988); Stephen B. Oates, Let the Trumpet Sound: The Life of Martin Luther King Ir. (1982).

"MƏNİM BİR ARZUM VAR!"

Millətimizin azadlığı uğrunda mübarizə tarixində azman bir hadisə kimi qalası bu nümayişdə sizinlə bir yerdə olduğuma görə xoşbəxtəm!

Yüz il bundan əvvəl, rəmzi olaraq abidəsinin kölgəsinə yığışdığımız böyük amerikalı Avraam Linkoln Azadlıq bəyannaməsini imzaladı. Bu əlamətdar sənəd haqsızlığın dözülməz əsarəti altında inləməkdə olan milyonlarla qul-zəncilərin qəlbində ümid işığı yandırdı. Bu, köləliyin uzun gecəsindən sonra sevincə açılan dan yerinə oxşayırdı.

Ancaq indi, üstündən yüz il keçəndən sonra müdhiş fakt qarşısında qalmışıq. Belə ki, zənci xalqı hələ də azadlıqdan məhrumdur.

Yüz il ötsə də zəncilərin həyatı yenə ayrı-seçkilik və ögeylik buxovları ilə düyünlənib.

Yüz il keçsə də zəncilər yenə tərəqqi okeanının ortasındakı səfalət adasında ömür sürməkdədir. Zənci indi də amerikan cəmiyyətinin lap dibində çürüməkdə, öz ölkəsində qaçqın həyatı yaşamaqdadır. Bizim bura bugünkü gəlişimiz də ondan ötrüdür ki, hamının diqqətini bu dəhşətli vəziyyətə cəlb eləyək.

Satış üçün nəzərdə tutulmayıb

Ölkəmizin paytaxtında toplaşmağımız, – bir növ bizə verilmiş çekin ödənişini tələb etməkdir. Yəni dövlətimizin bünövrəsini quranlar Konstitusiyada və İstiqlal Bəyannaməsindəki dəyərli sözlərə imza atmaqla, xalqa, hər bir amerikalının payına düşən ödənişli çek vermiş oldular. Bu, insanlara, bəli, ağlı-qaralı bütün insanlara yaşamaq, azadlıq, xoşbəxtliyə can atmaq haqqına zəmanət verən bir öhdəçilik oldu.

Bu gün hamıya bəllidir ki, Amerika həmin öhdəçiliyi pozur, hər halda dərisi tünd olan vətəndaşlara verdiyi sözün üstündə dayanmır. Həmin öhdəçiliyə sadiq qalmaq bir qırağa, zənci xalqına verdiyi çek də saxta çıxıb və "zəmanəti yoxdur" dərkənarı ilə ona qaytarılıb. Ancaq biz inanırıq ki, ölkəmizdə ədalət bankı tamamilə iflasa uğramayıb. İnanılmazdır ki, məmləkətimizin əlində olan böyük imkanlar xərclənib qurtarıb. Odur ki, bizə paylanmış çeklərin əsl haqqını, yəni öz azadlığımızı, salamatlıq və ədl payımızı almağa gəlmişik! Həm də bu müqəddəs yerə yığışmaqda bir məqsədimiz də odur ki, məsələnin təxirəsalınmazlığını bir daha Amerikaya xatırladaq. Biz bundan beləsinə özümüzü qradualizm[79] həbləri ilə ovundura bilmərik. Vəd verilmiş demokratiyanı həyata keçirməyin vaxtı gəlib çatıb. Seqreqasiyanın qaranlıq dərəsindən irqi ədalətin günəşli yoluna çıxmağın zamanı yetişib.

Bu məsələnin həllini gecikdirmək, yaxud da zənci xalqının qətiyyətinə barmaqarası baxmaq çox xatalıdır. Azadlıq və bərabərliyin təzə nəfəsli payızı zəncilərin qanuni narazılıq yayını əvəzləyənə qədər bu qızmar fəsil davam edəcəkdir. 1963-cü il son deyil, başlanğıcdır! Zəncilərin "köpünü alıb" guya ki, onları sakitləşdirmək, sonra da ölkəni əvvəlki məcrasına yönəltmək istəyənlər kökündən yanılır. Zəncilər əsl vətəndaşlıq haqqını qazanmayana qədər Amerika dinclik, rahatlıq nə olduğunu bilən deyil. Ədalətin günəşi doğmayana qədər həyəcan dalğaları məmləkətimizin özüllərini yırğalayıb yerindən oynadacaqdır.

Mən ədl sarayının qapısına gəlmiş öz xalqıma da bir neçə kəlmə demək istərdim. Boynumuza düşən bu mücadilədə biz gərək hər hansı bir ağılsız hərəkət etməyək. Biz öz azadlıq təşnəmizi dərd və nifrət camından içməklə yatırmamalıyıq. Mübarizəmiz ən uca ləyaqət və intizam çərçivəsində aparılmalıdır. Ən ciddi etirazımız belə fiziki zorakılıq səviyyəsinə enməməlidir. Bizə qarşı güc tətbiq olunarsa, buna bir daha ruhumuzun əzəməti ilə cavab verməliyik. Zənci xalqını bürüyən görünməmiş sərt ovqat gərək-

Satış üçün nəzərdə tutulmayıb

dir ki, bütün ağlara qarşı çevrilməsin, çünki bizim ağdərili qardaşlarımızdan çoxusu – hansı ki, onlar da bu gün bizimlə bir cərgədədir, – o gümandadırlar ki, onların da taleyi bizimki ilə bağlıdır, onların da azadlığı bizim azadlığımızın ayrılmaz bir hissəsidir. Biz təkbaşına addımlaya bilmərik.

Madam ki, addımlayırıq, daima irəli gedəcəyimizə and içməliyik. Geriyə yolumuz yoxdur! İnsan haqları uğrunda mübarizlərdən: "Siz nə vaxt razı qalacaqsınız?" deyə soruşanlar da tapılır. Nə qədər ki zəncilər ağlagəlməz polis qəddarlığının qurbanı olacaq, biz razı qalmaq fikrində bulunmuruq. Nə qədər ki bizim yorğun-arğın qardaşlarımız yolüstü motellərə və şəhərdəki otellərə buraxılmır, biz razı qala bilmərik. Zənci ailəsinin hər hansı yerdəyişməsi, balaca qettodan daha irisinə köçməkdən başqa bir şey deyilsə, biz niyə razı olmalıyıq ki?! Missisipidəki zənci səs verməkdən məhrumdursa, Nyu-York zəncisinin səs verəcəyi bir nəfər yoxdursa, nə səbəbə razı qalmalıyıq? Bəli, ədalət və ləyaqət bir sel kimi qabağına çıxan bəndləri hələ ki, süpürüb atmayıb, biz narazıyıq və narazılığımız səngiməyəcək!

Xəbərim var – bura gəlməzdən əvvəl sizlərdən çoxunuz ağır sınaqlardan keçmisiz, başınız bəlalar çəkib. Bəziləriniz qaranlıq məhbəslərdən yenicə qurtulmusunuz; bir paranız elə bölgələrdən gəlmisiniz ki, azadlığa can atmağınız ucbatından oralarda təqiblərə, polis amansızlığına məruz qalmısınız. İrqçi terrorun qurbanlarına çevrilmisiniz! Ancaq işinizi davam etdirməkdə olun! İnanın ki, çəkdiyiniz iztirablar öz bəhrəsini verəcəkdir!

Missisipiyə qayıdın, Alabamaya, Cənubi Karolinaya, Corciya və Luizianaya – gəldiyiniz yerlərə dönün! Şimal şəhərlərinin gettolarına, viranələrinə çıxın gedin, ancaq yadınızdan çıxarmayın ki, indiki vəziyyət dəyişilə bilər, daha doğrusu dəyişilməlidir. Qoy bir daha ümidsizlik uçurumuna yuvarlanmayaq!

Ey mənim dostlarım! Sizdən nə gizlədim, məhrumiyyət və çətinliklərə baxmayaraq, hələ də mənim bir arzum var və o, "amerikan arzusuna" əsaslanır.

Bu gün belə bir arzum var ki, günlərin bir günü ölkəmiz "bütün insanlar bərabər yaranıblar" prinsipiylə yaşamaq naminə qəddini düzəldib yüksələcəkdir. Bir gün gələcək ki, Corciyanın qırmızı təpələrində keçmiş qul balaları ilə quldar balaları qardaşlıq süfrəsində bir-birilə çörək kəsəcəklər!

Satış üçün nəzərdə tutulmayıb

Arzum budur ki, haqsızlıq və sıxıntılar içində çapalayan Missisipi Ştatı günlərin bir günü azadlıq və ədalət vahəsinə çevrilsin!

Arzum budur ki, mənim dörd uşağım günlərin bir günü elə bir ölkədə yaşasınlar ki, onlara dərilərinin rənginə görə yox, şəxsiyyətlərinə görə qiymət versinlər! Belə bir arzum var...

Arzum budur ki, bu gün qubernatoru dişlərini qıcadıb bizi "məhv etmək" niyyətində olan Alabama Ştatını sabahısı ağlı-qaralı oğlanların, qızların əl-ələ verib bacı-qardaş kimi gəzib-dolandığı məkan kimi tanısınlar. Bu gün belə bir arzum var!...

Elə bir günün arzusundayam ki, onda çöllər qabaracaq, dağlar enəcək! Dərə-təpə yerlər hamarlanacaq, dolama yollar düz gedəcək və "Tanrı möcüzəsi zühur edəcək və hamı bunu öz gözüylə görəcək!"

Ümidimiz bundadır! Elə bu inamla Cənuba qayıdıram. Bu inamla biz naümidlik dağından ümid qayasına yol açırıq. Bu inam, niyyətimizdəki kəskin dissonansı gözəl bir qardaşlıq simfoniyasına çevirməkdə bizə yardımçı olacaq. Bu inam, bizə birlikdə işləməyə, birlikdə ibadət etməyə, birlikdə mübarizə aparmağa, bir yerdə həbsxanaya düşməyə, bir gün xilas olacağımızı bilərəkdən azadlığın təəssübünü birlikdə çəkməyə kömək göstərəcək! Və bu elə bir gün olacaq ki, Tanrının bütün bəndələri məşhur sözlərə yeni məna qataraq belə oxuyacaqlar:

> "Yurdum, azadlığın şirin torpağı, səni vəsf edirəm!
> Əcdadlarımızın üz qoyduğu torpaq,
> zəvvarların öyüncü – torpaq,
> Qoy dağlar başından azadlığın sədası gəlsin!"[80].

Amerika böyük millət olmaq istəyirsə, bu arzu gerçəkləşməlidir!

Qoy azadlıq sədası Nyu-Hempşirin təpələrindən gəlsin!

Qoy azadlıq sədası Nyu-Yorkun əzəmətli təpələrindən gəlsin!

Qoy azadlıq sədası Pensilvaniyadakı Alleqan dağlarından gəlsin!

Qoy azadlığın sədası Koloradonun qarlı qayalarından gəlsin!

Qoy azadlığın sədası Kaliforniyanın gözəl yamaclarından gəlsin!

Təkcə oralarda yox: qoy azadlığın səsi Corciyanın daşında-qayasında əks-səda versin!

Qoy azadlığın gur səsi Tennesidəki Lukaut dağına düşsün!

Qoy azadlığın sədası Missisipinin hər bənd-bərəzindən aşsın!

"Qoy dağlar başından azadlığın səsi gəlsin!"

Satış üçün nəzərdə tutulmayıb

Bu əməlimiz baş tutsa, yəni azadlığa köks dolusu cingildəməyə izn versək, onu hər kənddə-kəsəkdə, hər bir şəhərdə və ştatda səsləndirə bilsək, elə bir günü yaxınlaşdırarıq ki, həmin məqamda ağlar-qaralar, yəhudilər və bütpərəstlər, protestantlar və katoliklər, Tanrının bütün bəndələri əl-ələ tutar və köhnə zənci nəğməsini oxuyarlar:

Azad olduq axırı.
Axır ki, azad olduq.
Şükür olsun ulu Tanrı,
Biz azadıq axırı![81]

Mənbə: New-York Times, August 29, 1963

Satış üçün nəzərdə tutulmayıb

39. Mülki Hüquqlar Haqqında Akt (1964)

1963-cü ildə Con Kennedinin öldürülməsi vətəndaş hüquqları uğrunda mübarizə aparan fəalların çoxuna böyük zərbə oldu. Harri Trumənin dövründən sonra Kennedi zəncilərin hüquq bərabərliyi üçün çalışan ilk prezident idi, onu əvəz edən Lindon Beyns Conson (*Lyndon Baines Johnson)* haqqında isə az məlumat vardı. Conson 1957-ci il Mülki Hüquqlar haqqında Aktın həmmüəllifi olsa da, bu hələ kafi deyildi və heç kəs bilmirdi ki, Texasdan çıxmış bu şəxs Kennedinin siyasətini davam etdirəcək, yoxsa öz cənublu dostlarının yedəyində gedəcək.

Lakin 1963-cü ilin 27 noyabrında prezident kimi ilk dəfə Konqresə və Amerika xalqına müraciət edən Conson, öldürülən Kennediyə abidə olaraq, mülki hüquqlar barədə qanunu qəbul etməyə çağırdı. O, "Gəlin davam etdirək" deyərək vəd etdi ki, "[Kennedi tərəfindən] belə fədakarlıqla müdafiə olunan ideya və ideallar həyata keçirilməlidir və keçiriləcək".

Kennedi ayrı-seçkiliyə qarşı öz mübarizəsinin ideoloji əsaslandırılmasında güclü olduğu kimi, Lindon Conson da parlament mübarizəsinin ustası idi və bu sahədə öz parlaq istedadından, eləcə də prezidentlik nüfuzundan bu qanunun müdafiə olunmasında istifadə etdi.

1964-cü ilin 10 fevralında Nümayəndələr Palatası böyük səs çoxluğu ilə (130-a qarşı 290) bu qanunu qəbul etdi. Lakin hamı başa düşürdü ki, əsas mübarizə Senatda olacaq, çünki onun reqlamenti qanunların qəbul olunmasını həddən artıq uzatmağa imkan verir. Əvvəllər bu reqlament cənublulara insan hüquqları sahəsində az qala bütün qanun layihələrini rədd etməyə imkan vermişdi. Lakin Conson Senatı yola gətirmək üçün özündə olan bütün imkanlardan istifadə etdi. Bundan əlavə, mülki hüquqlar uğrunda hərəkatın liderləri bu qanunun qəbul edilməsini müdafiə etmək üçün kütləvi kompaniya apardılar, o cümlədən Konqres binası yanında bütün dinlərin və irqlərin liderlərinin də iştirak etdiyi böyük nümayiş keçirtdilər. Bu strategiya özünü doğrultdu və iyunda Senat bu qanun ətrafında müzakirələri artıq uzatmamaq qərarına gəldi. Bir neçə həftədən sonra qanun layihəsi qəbul edildi və mülki hüquqlara aid milli qanunvericiliyin ən mühüm tərkib elementinə çevrildi. 1964-cü ilin 2 iyulunda prezident Conson bu qanun layihəsini təsdiq etdi.

Hər halda bəzi konqresmenlər Ali Məhkəmənin qanunu Konstitu-

Satış üçün nəzərdə tutulmayıb

siyaya zidd saya biləcəyindən ehtiyatlanırdılar, axı 1883-cü ildə Ali Məhkəmə o vaxt təzə qəbul edilmiş vətəndaş hüquqları barədə aktın qəbulunu Konqresin səlahiyyət çərçivəsindən kənar hesab edib ləğv etmişdi. Lakin bu dəfə hər şey yaxşı keçdi. Ali Məhkəmə təcili olaraq iki işi müzakirəyə qəbul etdi və hər ikisində XIV Düzəlişlə Konqresə verilən səlahiyyətləri (Amerika zəncilərinin mülki hüquqlarının müdafiə edilməsi) yekdilliklə müdafiə etdi.

"Mülki Hüquqlar haqqında Akt"ın aşağıda çap edilmiş II fəsli qanunun canını təşkil edir. Fəsil *ictimai istifadə yerlərində* ayrı-seçkiliyin qadağan olunmasına həsr edilib və ona uyğun olaraq afroamerikalılar restoranlardan, mehmanxanalardan və digər ictimai müəssisələrdən daha qovula bilməzdilər.

Əlavə məlumat üçün oxuyun: Charles and Barbara Whalen, The Longest Debate: A Legislative History of the 1964 Civil Rights Act (1985); Carl M. Brauer, John F. Kennedy and the Second Reconstruction (1977); and Doris Keans, Lyndon Johnson and the American Dream (1976).

MÜLKİ HÜQUQLAR HAQQINDA AKT

II Fəsil

Bölmə 201. (a) Hər bir şəxs irqinə, dərisinin rənginə, dininə və ya milli mənşəyinə görə ayrı-seçkiliyə və seqreqasiyaya məruz qalmadan bu bölmədə təyini verilən *ictimai istifadə yerlərinin* istənilən hissəsindəki yerlərdən, mallardan, xidmətlərdən, rahatlıqdan, imtiyazlardan və üstünlüklərdən istifadə etməkdə tam və bərabər hüquqlara malik olmalıdır.

(b) Adları aşağıda verilmiş əhaliyə xidmət müəssisələrindən hər biri, əgər onun fəaliyyəti kommersiya ilə bağlıdırsa və ya əgər onun tərəfindən ayrı-seçkilik və seqreqasiya Ştatın qanunu ilə müdafiə olunursa (bu Fəsildə müəyyən edilmiş mənada) *ictimai istifadə yerləri* sayılır:

(1) binanın daxilində yerləşib, əslində bu yerin sahibi tərəfindən tutulmuş beş və daha az kirayə verilən otağı olan müəssisələrdən başqa,

Satış üçün nəzərdə tutulmayıb

bütün karvansaralar, mehmanxanalar, motellər və mənzil kirayə verən digər müəssisələr;

(2) restoranlar, kafeteriyalar, qəlyanaltılar, bufetlər, qazlı su satılan piştaxtalar və binalarda yerləşən digər ictimai iaşə müəssisələri, o cümlədən, istisnasız olaraq pərakəndə ticarət və benzindoldurma stansiyaları içərisində olan yerlər;

(3) kinoteatrlar, teatrlar, konsert salonları, idman meydançaları, stadionlar və digər əyləncə müəssisələri;

(4) (A) (i) bu yarımbölmədə adları çəkilən hər hansı müəssisənin ərazisində fiziki olaraq yerləşən və ya (ii) ərazisində adları çəkilən hər hansı müəssisənin fiziki olaraq yerləşdiyi istənilən müəssisə və (b) belə müəssisələrin sahiblərinə xidmət göstərən istənilən müəssisə.

(c) Bu fəsildə verilmiş tərifə əsasən, hər hansı müəssisənin fəaliyyəti o halda kommersiya fəaliyyəti sayılır ki, əgər

(1) o, (b) yarımbölməsinin (1) paraqrafında sadalanmış müəssisələrdən biridirsə;

(2) əgər o, (b) yarımbölməsinin (2) paraqrafında sadalanmış müəssisələrdən biridirsə, yəni ştatlar arasında səyahət edən şəxslərə pulla nəqliyyat xidməti göstərir və ya təklif edir, yaxud da ərzaq, benzin və ya digər mal alveri edir;

(3) əgər o, (b) yarımbölməsinin (3) paraqrafında sadalanmış müəssisələrdən biridirsə, yəni o, pulla film, əyləncəli tamaşalar göstərir, idman yarışları, sərgilər və ya digər əyləncə tədbirləri keçirir;

(4) əgər o, (b) yarımbölməsinin (4) paraqrafında sadalanmış müəssisələrdən biridirsə, yəni bu müəssisə digər müəssisənin ərazisində yerləşərək ticarət fəaliyyəti ilə məşğul olur və ya bu müəssisənin ərazisində (bu yarımbölmədə müəyyən edilmiş mənada) kommersiya fəaliyyəti ilə məşğul olan müəssisə yerləşir. Bu bölmədə "kommersiya" anlayışı ştatlar arasında, yaxud Kolumbiya Mahalı ilə hər hansı Ştat, və ya hər hansı xarici dövlət arasında, yaxud ərazi və ya mülklə hər hansı Ştat və ya Kolumbiya Mahalı arasında, ya da hər hansı başqa Ştatın, Kolumbiya Mahalının və ya xarici dövlətin ərazisindən keçməklə bir Ştatın [coğrafi] məntəqələri arasında səyahəti, ticarəti, nəqliyyatı, kommersiyanı, daşınmanı və ya kommunikasiyanı bildirir.

Satış üçün nəzərdə tutulmayıb

d) Bu fəsildə verilən tərifinə əsasən, Ştatın qanunları ilə müdafiə edilən ayrı-seçkilik və seqreqasiya deyəndə hər hansı bir müəssisənin Ştatın qanunları ilə müdafiə edilən elə hərəkətləri nəzərdə tutulur ki, bu ayrı-seçkilik və seqreqasiya (1) qanun, əsasnamə, sərəncam və ya qayda bəhanəsi ilə; və ya (2) Ştat və ya inzibati-ərazi vahidi tərəfindən adət-ənənə bəhanəsi ilə; yaxud (3) Ştatın və ya inzibati-ərazi vahidinin qanunları əsasında həyata keçirilir.

(e) Müəssisənin xidmətlərinin bu müəssisənin müştərilərinə və sahiblərinə (b) yarımbölməsində təsvir edilən qaydada göstərildiyi hallar istisna olmaqla, bu Fəslin müddəaları xüsusi klublara və kütləvi olmayan digər müəssisələrə aid edilmir.

Bölmə 202. Belə müəssisə və ya yerlərdən hər hansı birində olan bütün vətəndaşlar irqinə, dərisinin rənginə, dininə və ya milli mənşəyinə görə Ştatın və ya hər hansı təsisatın, yaxud inzibati-ərazi vahidinin qanunları, əsasnamələri, sərəncamları və ya qaydalarının tələbləri əsasında həyata keçirilən hər cür ayrı-seçkilikdən və seqreqasiyadan azad olmaq hüququna malikdir.

Bölmə 203. Heç kimin ixtiyarı yoxdur ki,

(a) hər hansı bir şəxsin hüquq və imtiyazlarını rədd etsin, tanımasın və ya rədd etməyə, yaxud tanımamağa cəhd etsin; və ya hər hansı bir şəxsi 201 və 202-ci bölmələrdə qeyd edilmiş hüquq və imtiyazlardan məhrum etsin və ya məhrum etməyə cəhd göstərsin;

(b) hər hansı bir şəxsin 201 və 202-ci bölmələrdə qeyd edilmiş hüquq və imtiyazlarının həyata keçirilməsinə mane olmaq məqsədilə onu qorxutsun, hədələsin və ya məcbur etsin, yaxud da qorxutmağa, hədələməyə və ya məcbur etməyə cəhd göstərsin;

(c) 201 və 202-ci bölmələrdə qeyd edilmiş hüquq və imtiyazlarını həyata keçirtdiyinə və ya həyata keçirtməyə təşəbbüs göstərdiyinə görə hər hansı bir şəxsi cəzalandırsın və ya cəzalandırmağa cəhd göstərsin.

Mənbə: U.S. Statutes at Large 78 (1964): 241.

Satış üçün nəzərdə tutulmayıb

40. Amerikanın vədi (1965)

Lindon B. Conson

1868-ci ilin XIV Düzəlişi, azad olan qulların lazımi hüquqlarını necə təmin etmədisə, 1964-cü il Vətəndaş Hüquqları Aktı da eləcə, həmin qulların sonrakı törəmələrinə onların cəmiyyətdəki qanuni yerini göstərə bilmədi. Hələ 1860-cı ildə, irqçilərin müqavimətini tamam qırmaq istəyən Konqres XV Düzəlişə imza atdı ki, bu da seçki hüquqlarında irqi ayrı-seçkiliyə son qoymalıydı. Ondan bir əsr sonra, yəni 1960-cı ildə, həmin vədi axıracan yerinə yetirməyin vaxtı nəhayət ki, gəlib çatdı.

Vətəndaş hüquqları müdafiəçiləri anladılar ki, irqi ayrı-seçkiliyi yasaqlayan qanunlar, yaxud bu sahədə çıxarılan məhkəmə qərarları öz-özlüyündə afroamerikalıları ölkədəki, siyasi həyatın tamhüquqlu iştirakçılarına çevirməyə qadir deyil. Ölkədə əsl iqtisadi və siyasi bərabərlik əldə etməkdən ötrü zənciləra də seçki qutularının başında eyni imtiyaz verilməliydi.

Vətəndaş Hüquqları Aktının (1964) birinci fəslində seçicilərin qeydiyyatında rast gəlinən ayrı-seçkiliyə qarşı xüsusi müddəalar nəzərdə tutulub. Lakin məsələnin sərt qoyuluşuna baxmayaraq, həmin sənəd Cənubda bu baxımdan vəziyyəti kökündən dəyişə bilmədi. Qanuna necə əməl olunduğunu yerlərdə və ayrı-ayrı qraflıqlarda yoxlamaq üçün Ədliyyə Nazirliyinin əməkdaşları çatmırdı, gözü qorxmuş zənciləsə qanundan kömək ummağa cürət etmirdilər. Cənubdakı liderlərin müqaviməti ucbatından bir seçici kimi zəncilərin qeydiyyatı[82] yenə də aşağı səviyyədə qalırdı; məsələn, Missisipi Ştatında belə seçicilərin yalnız 6 faizi qeydiyyatdan keçə bilmişdi.

Ancaq zaman Cənubun əksinə dövran eləyirdi. Sonradan "Azadlığın yayı" adlandırılan 1964-cü ilin yay fəsli ölkəyə vətəndaş hüquqları cəhətdən əlamətdar bir qanun bəxş etməklə yanaşı, həm də misli görünməmiş elə bir amansızlıq dalğası doğurdu ki, bu məsələnin həllini heç cürə ləngitməyə dəyməzdi. Həmin ilin ən üzücü olaylarından biri də bu oldu ki, zənci seçicilərinin qeydiyyatına dəstək vermək üçün durub Missisipiyə gələn üç nəfər hüquq müdafiəçisinin üçü də qətlə yetirildi; onlardan ikisi – Endryu Qudmən və Maykl Şverner ağdərili, Ceyms Çeyni isə zənciydi *(Andrew Goodman, Michael Schwerner, James Chaney)*. Qətlə yetirilən hüquq müdafiəçilərinin cəsədləri gözdəniraq bir tikinti bəndində basdırılmışdı. Federal Təhqiqatlar Bürosu (FBI) aşkara çıxardı ki, bu müdhiş cinayətdə hətta yerli hüquq-mühafizə orqanlarının da əli varmış...

1964-cü ilin payızında prezident Conson seçki hüquqları ilə bağlı sərt qanun hazırlamaq barəsində sərəncam imzaladı və elə 1965-ci ilin yanvarında "Birliyin durumu" *(State of*

Satış üçün nəzərdə tutulmayıb

the Union) adlı özünün ilaşırı müraciətində Konqresdən xahiş etdi ki, bu qanunun qəbulunu çox da gecikdirməsinlər. Ancaq Konqres heç də tələsmək fikrində deyildi və odur ki, Alabama Ştatındakı Selma şəhərində Martin Lüter Kinqin rəhbərliyi altında həmin qanunun müdafiəsinə qalxan nümayiş küçələrə çıxdı. Alabamanın hökumət dairələri zorakılığa əl atıb nümayişçilərin üstünə yeridi. Dövlət televiziyası ilə birbaşa yayımlanan polis özbaşınalığı amerikalıların ciddi narazılığına səbəb oldu və bunun üstündən bir neçə saat keçəndən sonra minlərlə könüllü Kinqin yürüşünə qoşulmaq üçün Cənuba üz tutdu.

Belə bir böhran vəziyyətində Prezident yenidən Konqresə müraciət elədi. Həmin hadisələri incələyən bir çox tədqiqatçıların fikrincə, bəlkə də o müraciət Consonun ən parlaq nitqi sayılmağa layiqdir. Belə ki, onun çıxışı kövrək və bəlağətli olmaqdan savayı, həm də Teodor Ruzveltin təbirincə desək, "başçı kürsüsü"ndən məharətlə faydalanır, prezidentliyin mənəvi nüfuzunu amerikan demokratiyasının inkişafında bir vasitəyə çevirirdi. Cənubdakı iqtidarın zorakılığına qarşı ümumi narazılıq, eləcə də Consonun siyasi məharəti ona gətirib çıxardı ki, Konqres 1965-ci il avqustun 5-də seçki hüquqları barədə xüsusi qanun qəbul etmək məcburiyyətində qaldı.

1965-ci il "Mülki Hüquqlar Haqqında Akt"ı, yaxud 1965-ci il "Seçki Hüquqları Haqqında Akt" kimi tanınan həmin qanun Federalların yerlərdə, xüsusilə Cənubdakı hökumət dairələrinin, bu vaxtadək görünməmiş tərzdə işinə müdaxilə etməyə imkan qazandırdı. Halbuki, o vaxtacan seçicilərin qeydiyyatı və qeydəalınmanın meyarları yerlərdə ayrı-ayrı ştatların ixtiyarında idi. İndi isə hər hansı bir qraflıq qaradərili seçicilərin 50 faizindən aşağı qismini qeydiyyatdan keçirirdisə, bu irqi ayrıseçkiliyin təzahürü kimi qiymətləndirilirdi. Elə olan tərzdə qeydiyyatın gedişinə nəzarət Ədliyyə Nazirliyinin sərəncamına verilirdi.

Qanun qüvvəyə mindi. Cənub ştatlarının çoxunda başa düşdülər ki, cəmiyyətdə əvvəlki kimi ayrı-seçkilik aparmaq daha mümkün deyil. Odur ki, elə bəri başdan qaradərili seçicilərin qeydə alınmasında qarşıya çıxan maneələri elə özləri aradan qaldırmağa çalışırdılar. Ədliyyə Nazirliyi, irqçilərin hələ də ayağını dirədiyi 62 qraflıqda işə qarışmalı oldu. O vaxta qədər qaraların ən az qeydə alındığı Missisipi Ştatında səsvermədə iştirak edən zəncilərin sayı üç il ərzində 6-dan 44 faizə çatdı. Vəziyyət o qədər yaxşılaşdı ki, Cənub ştatlarında daha sıx yaşayan zəncilər öz şəhərlərində mer, şerif və idarəetmə üzvlərini seçməyə başladılar. Hətta o vaxtacan qatı irqçi təkin tanınmış alabamalı Corc Uolles *(George Wollase)* kimi adamlar da qaradərili seçicilərin səslərini qazanmağa cəhd göstərirdilər.

Belə durum zəncilərin və ümumiyyətlə, vətəndaşların seçki hüquqları uğrunda öz həyatını belə əsirgəməyən, yatmış ictimai şüuru oyadan Martin Lüter Kinq kimi insanların cəsarəti ilə yanaşı bir şəxsiyyət kimi Lindon Consonun da böyük xidməti sayəsində başa gəlmişdi. L.Conson özünün məşhur nitqində zəncilərin

Satış üçün nəzərdə tutulmayıb

bərabər hüquqlu vətəndaşlıq iddiasına haqq qazandırmaqla, onu da açıq-aydın göstərdi ki, demokratik bir cəmiyyətdə qaradərili vətəndaşlara ögey münasibət heç cürə ədalətli sayıla bilməz.

L.Consonun öz nitqində köhnə kilsə himnindən sitat gətirməsi ən biganə kəslərin belə ürəyinə rəhm gətirdi və həmin "Biz bunun öhdəsindən gələcəyik!"[83] deyimi vətəndaş hüquqları uğrunda hərəkatın himninə çevrildi.

Əlavə məlumat üçün oxuyun: David Garrow, Protest at Selma (1978); Doug McAdam, Freedom Summer (1988); and Stephen Lawson, Black Ballots: Voting Rights in the South, 1966-1969 (1976).

AMERİKANIN VƏDİ

Cənab spiker, cənab sədr, Konqres üzvləri!

Bu gün mən insan ləyaqətindən və demokratiyanın taleyindən bəhs edəcəyəm!

Mən hər iki partiyanın üzvlərini, hər cürə irq və inanc sahibi olan amerikalıları, bu ölkənin hər tərəfindən olan nümayəndələri sözümə dəstək verməyə çağırıram.

Bəzən tarix və tale müəyyən bir anda, müəyyən bir nöqtədə üst-üstə düşür ki, bu da insanın əbədi azadlıq axtarışında dönüş məqamı sayılır. Vaxtilə Leksinqtonda və Konkordda[84] belə olub. Bir əsr bundan əvvəl Appomatoksda[85] da beləydi. Alabamanın Selma şəhərində ötən həftə biz yenidən bununla üz-üzə gəldik.

Orda cana doymuş kişilər və qadınlar Amerikada vətəndaş hüquqlarının tapdalanmasına qarşı özlərinin dinc etirazını bəyan etdilər. Onların çoxu amansızcasına döyüldü. Bir Allah bəndəsi öldürüldü. Selmada baş verənlərə görə xəcalət çəkirik. Uzun illərdən bəri milyonlarla Amerikalı bizimlə bərabər hüquqlarından məhrum edildiyinə görə utanıb-qızarmalıyıq. Bu gün burda baş verənlər, bizim demokratiyamıza bəslənən ümid və inamı yaşatmaqdadır. Biz də bura ona görə yığışmışıq ki, əsarətdə inləyən insanların ah-naləsi və etirazları yer üzündə ən böyük millətin ən möhtəşəm dövlətindən imdad diləyir.

Bu ölkə qarşısında bizim əzəli-özəli böyük vəzifələrimiz var – əyrini düzəltmək, ədaləti bərqərar etmək və insana qulluq etmək!

Satış üçün nəzərdə tutulmayıb

Yaşadığımız əsrdə biz dərin böhranlardan keçmişik. Ömrümüz azman sualların müzakirəsi ilə ötüb keçməkdədir; hərb və sülh, tərəqqi və tənəzzül! Ancaq bunlar çox nadir hallarda Amerikanın qəlbinə bərk toxunub. İndiyənəcən yalnız artım və zənginliyimiz, rifah, yaxud təhlükəsizlik problemləri ilə üzüzə gəlmişik. Ancaq, bu gün biz milli dəyərlərimizlə istəkli xalqımızın mahiyyətinə xələl gətirən əngəllərlə toqquşmaq məcburiyyətində qalmışıq.

Amerika zəncilərinin bərabər hüquqları məhz belə bir problemdir. Sizi inandırıram, biz bütün düşmənlərimizin burnunu ovsaq da, var-dövlətimiz başdan aşıb, ulduzları fəth etsək belə, heyiflər olsun ki, yenə də ədalətli cəmiyyət, nümunə göstəriləsi millət ola bilməyəcəyik! Məmləkətimiz könlü qırıq insana bənzəyəcək. Yaxşı deyilib: "Cümlə cahana sahib çıxıb, öz vicdanını itirən insanın qazancı heç nədir!"[86]

Bu zənci, Cənub ya Şimal problemi deyil. Bu bütün Amerikanın dərdidir. Bu gün biz bura demokratlar ya respublikaçılar adı altında deyil, amerikalılar kimi yığılmışıq. Bəli, bu dərdə əlac axtaran amerikanlar kimi toplaşmışıq.

Biz dünyada ilk millətik ki, yaranandan bəri qarşımızda dəqiq məqsədimiz olub. Həmin məqsədi ifadə eləyən parlaq deyimlər hələ də istər Şimalda, istər Cənubda hər bir amerikalının qəlbində səslənməkdədir. "Bütün insanlar bərabər yaranıb", "İdarə olunanların razılığı ilə idarə", "Mənə ya azadlıq verin, ya da öldürün!". Bunlar sadəcə, müdrik kəlamlar, yaxud da gəlişi gözəl sözlər deyil. Amerikanlar iki əsrdir ki, bu deyimlərin naminə döyüşür, qurban gedir və günün bu günü də öz həyatları bahasına bizim azadlığımızın keşiyində dayanmaqdadır.

Həmin deyimlər elə bir vəddir ki, bunların arxasında hər bir vətəndaş özünün insan ləyaqətini qoruyub saxlaya bilər. Ləyaqətsə var-dövlətlə, hökmlə, ya vəzifə ilə ölçülmür. Ləyaqətin məğzi ondan ibarətdir ki, hər bir insan özünə qarşı, başqalarına bəslənən münasibəti umur. Bəli, insanın azad-asudə yaşamağa, özünə rəhbər seçməyə, uşaqlarına təhsil verməyə, imkanı və bacarığı daxilində öz ailəsini dolandırmağa ixtiyarı çatır. Dərisinin rənginə, irqinə, dininə və mənşəyinə görə insana yanaşmaq, onun ümidini qırmaq həm ədalətsizlikdir, həm də öz canını Amerikanın azadlığı uğrunda fəda etmiş kəslərə qarşı hörmətsizlikdir!

Səsvermə hüququ

Bizim əcdadlarımız inanırdı ki, demokratiyanın təməlində insan haqlarına alicənab münasibət dayanır. Olan-qalan hüquqların içərisində özümüzə başçı seçmək ən adi şeydir. Bizim ölkənin tarixi – mahiyyətcə elə həmvətənlərimizin hamısına həmin hüququn təqdim olunma tarixidir. Əlbəttə, mülki hüquqlarda bir çox məsələlər dedikcə mürəkkəb və dolaşıqdır, ancaq səsvermə hüququn-

Satış üçün nəzərdə tutulmayıb

da mübahisə doğuracaq heç nə yoxdur və ola da bilməz. Hər bir amerikan vətəndaşının səsvermə hüququ vardır. Bu hüququ inkar etməyə heç bir səbəb yoxdur, ola da bilməz. Və bu hüququ təmin etmək məsul bir vəzifədir.

Bununla belə, gəlin sizinlə birgə amansız reallığa nəzər salaq. Bizim ölkənin bir çox guşələrində elə kişilər və qadınlar vardır ki, sözügedən hüquqdan məhrumdurlar – çünki onlar zəncidir.

Zəncini bu hüquqdan məhrum etməkdən ötrü ağlasığmaz bəhanələr fikirləşib tapırlar. Qeydiyyata gələn qaradərili vətəndaşa gah deyirlər ki, gecikmisən, bəzən get-gələ salırlar, gah da kargüzarın orada olmadığını söyləyirlər. İşdi, qaradərili vətəndaş inad göstərib qeydiyyat aparan məmurun yanına gedib çıxsa, yenə onu saymayacaqlar, – bəhanələri də bu olacaq ki, nəsə soyadını düz yazmayıb və yaxud da anketi dolduranda hansısa kəlməni ixtisarla yazıb və sairə... Lap anketi düz doldursa belə, onu testdən keçirəcəklər. Testdən keçib-keçməməsi isə yenə də qeydiyyat məmurunun əlindədir.

Bu əsnada zənciyə az qala bütün Konstitusiyanı əzbər dedirtdirir, ondan qanunvericilikdə ən mürəkkəb müddəaların şərhini tələb edirlər. Hətta kollec diplomu belə qaradərili vətəndaşın yaxasını yazı-pozu sınağından, sorğu-sualdan xilas eləyə bilmir.

Məsələ burasındadır ki, bütün bu maneələrdən yeganə xilas yolu yalnız ağdərili olmaqdır.

Təcrübə göstərir ki, mövcud qanunlarımız irqi ayrı-seçkiliyə qarşı ardıcıl mübarizə aparmaqdan ötrü səmərəsizdir. Yazılmış qanunlar ki, – elə mən özüm də üç belə qanunun işlənməsində iştirak eləmişəm, – əgər yerli hökumətlər qəti surətdə istəmirsə, həmin qanunlar o hüququ təmin etməkdə acizdir.

Odur ki, bizim borcumuz, yəqin hamımıza bəllidir. Konstitusiyamızda deyilir ki, heç bir insan öz dərisinin rənginə və irqinə görə səsdən məhrum edilə bilməz. Biz hamımız Tanrıya and içmişik ki, bu Konstitusiyanın bütün bəndlərinə tabe olacaq və onu yerinə yetirəcəyik. Öz andımıza əməl etməyin zamanı artıq gəlib çatıb.

Səsin hüquqi zəmanəti

Çərşənbə günü mən səsvermə hüququna maneçilik törədən əngəlləri aradan qaldıran qanun layihəsini Konqresin müzakirəsinə çıxarıram.

Bu layihənin başlıca prinsipləri demokratlar və respublikaçıların partiya rəhbərlərinə elə günü sabah təqdim olunacaq. Onların tanışlığından sonra, sənəd qanun layihəsi şəklində bura veriləcək. Dostlarla, köhnə həmkarlarımızla yenidən görüşmək, müzakirə açmaq, bu xüsusda mülahizə yürütmək indidən məndə xoş duyğular oyadır.

Satış üçün nəzərdə tutulmayıb

Onu da deyim ki, özlüyümdə həmin qanun layihəsinin ətraflı təhlilini hazırlamışam, onu katibimə sabah verəsiydim, səhərə saxlamayıb elə bu gün çatdıracağam. Ancaq, əvvəlcə əsas müddəalara siznən bir yerdə, lütfən nəzər yetirmək istərdim.

Bu qanun layihəsindən məqsəd zənciləri səs hüququna möhtac qoyan, aşağıdan tutmuş, yuxarıya qədər Federal, Ştat və yerli seçkilərdə ortaya çıxan əngəlləri çıxdaş eləməkdir. Bu qanun layihəsi sadə, vahid bir qəlib yaratmaqla, kim nə qədər cəhddə bulunsa da Konstitusiyanı pozmağa qəti imkan verməyəcək. Ayrı-ayrı ştatların rəhbərləri qeydiyyatdan imtina edərlərsə, bu layihə Birləşmiş Ştatların hökumət nümayəndələrinə ixtiyar verir ki, həmin vətəndaşları yerli rəhbərlərin başının üstündən qeydə alsın.

Bu qanun layihəsi əslində seçki hüququna buxov olan hər cürə gərəksiz məhkəmə çəkişmələrinə son qoyur. Və ən nəhayət, adı çəkilən layihə, qanuni qeydiyyatdan keçən hər bir vətəndaşın səsvermədə iştirakına şərait yaradır.

Bu qanunun tam gücü ilə işləməsi üçün vasitələr və üsullar barədə bütün Konqres üzvlərinin rəyini dinləmək maraqlı olardı, – ümidvaram ki, mən onları eşidəcəyəm. Həm də qazandığımız təcrübə göstərir ki, biz yeganə düzgün yolu tutmuşuq. İşinə Federal hökumətin qarışmağından narahatlıq keçirənlərə yerlərdə seçkilərə nəzarəti əlindən vermək istəməyən kəslərə cavabımız sadədir – öz seçki məntəqələrinizi bütün vətəndaşların üzünə açın! Dərilərinin rəngindən asılı olmayaraq camaata qeydiyyatdan keçməyə və səs verməyə şərait yaradın! Bu torpağın hər bir insanına əsl vətəndaşlıq hüququ bəxş eləyin!

Qəti addım atmaq vaxtı çatıb

Burda məsələ Konstitusiyada deyil; qayəmiz kifayət qədər aydındır. Məsələ mənəviyyatda da deyil... Gün kimi aydındır ki, öz həmvətənlərini səsdən məhrum eləmək ədalətsizlikdir. Məsələnin nə Ştat hüququna, nə də Federal dövlət hüququna dəxli var. Bu, sadəcə, insan haqqı uğrunda mübarizədir. Buna görə də verəcəyiniz cavab məndə zərrəcə şübhə doğurmur.

Prezidentin [Kennedinin] axırıncı dəfə vətəndaş hüquqları barədə Konqresə göndərdiyi qanun layihəsində federal seçkilərə dair əsasnamə vardı. Hansı ki, Konqres onu 8 ay müzakirədən sonra qəbul elədi. Mənə gəlib çatanda isə, oradan seçki hüququnun məğzi Konqresmenlər tərəfindən çıxarılmışdı.

Bu gün bu xüsusda heç bir ilişik, heç bir alver və könülsüzlük ola bilməz. Amerikanların hər hansı seçkilərdə iştirakına heç cürə sədd çəkə bilmərik və çəkməməliyik. Üstəlik bir 8 ay da oturub gözləməyə möhlətimiz yoxdur, ola da bilməz. 100 ildir bu qanuna müntəzirik, artıq gözlədiyimiz yetər! Odur ki, sizdən ricam budur, – mənə dəstək verin, gecə-gündüz, lazım gəlsə istirahət günləri də elə işləyək ki, bu qanun axır ki, qəbul olunsun. Bu – xahiş-minnətdən daha artıq bir şeydir. Ölkəmizin dərd-sərini görəndə başa düşürsən ki,

Satış üçün nəzərdə tutulmayıb

ictimai şüurumuz çaşqındır, millətimiz narahatlıq keçirir və belə getsə, tarix bizimlə çox sərt şəkildə haqq-hesab çəkəsidir.

Biz bunun öhdəsindən gələcəyik!

Bu qanunu qəbul etməklə müraciətimiz sona yetmir.

Selma şəhərində baş verənlər daha böyük bir hərəkatın zərrəsi olmaqla, Amerikanın hər ştatına, hər guşəsinə nüfuz etməkdədir. Amerikan zənciləri amerikan həyat tərzinin bütün nemətlərindən dadmağa çalışırlar. Onların mübarizəsi bizim mübarizəmiz olmalıdır. Təkcə zəncilər deyil, elə bizim özümüz də fanatizm və ədalətsizliyin mənfur məngənəsindən qurtulmalıyıq.

Və biz bunun öhdəsindən gələcəyik!

Əslim cənublu olduğundan, mən bilirəm, irqi barışmazlıqdan yaxa qurtarmaq nə qədər çətindir. Bizim cəmiyyətin strukturunu və qarşılıqlı münasibətləri dəyişməyin çətinliyindən də xəbərim var. Zəncilərin azadlığa çıxmasından yüz ildən çox müddət keçməsinə baxmayaraq, onlar hələ də büsbütün azad olmayıblar.

Yüz il bundan əvvəl, Amerikanın böyük prezidenti Avraam Linkoln "Azadlıq Bəyannaməsinə" qol çəkib. Lakin bu, adi bəyannamədir, hələ ki, öz həllini tapan fakt deyil. Bəli, zəncilərə bərabərlik vəd olunan vaxtdan yüz ildən çox ötüb, ancaq onların hələ də bərabər hüquqları yox dərəcəsindədir. Bir əsrdir ki, vəd verilib, ancaq vədə əməl olunmayıb.

Artıq ədalət məqamı yetişib. Əminəm ki, onun bərqərar olmasına heç bir qüvvə mane ola bilməyəcək. Bunu Tanrı da istəyir, bəndə də! Haqq öz yerini tutan kimi hər bir amerikalı da səadətə qovuşacaq.

Bu gün əziyyət çəkən təkcə zəncilər deyil. Hələ nə qədər ağdərili uşaq təhsil üzünə həsrətdir, qismətinə kasıblıq düşən o qədər ağdərili ailələr var ki! Hələ orasını demirəm ki, öz qüvvəmizi, həm də xeyli vəsaiti nifrət-vəhşət divarlarını bərkitməyə xərclədiyimizdən qorxu-səksəkə içində yaşayan ağbənizli insanlar elə bilirsiz azdır?

Odur ki, sizə də, xalqa da üzümü tutub deyirəm: sizi keçmişdən yapışıb qalmağa təhrik edənlər, əslində sizi gələcəkdən məhrum etmək istəyənlərdi.

Böyük, zəngin və çalışqan olan bu ölkə yüksəlişə, təhsilə ümidləri doğrultmağa belə hamıya eyni cürə imkan qazandırır: istər ağa, istər qaraya; Şimala, Cənuba, fermerə də, şəhərliyə də; dilənçilik, nadanlıq, xəstəliklər – gözümüzün düşməni bax bunlar olmalıdır! Düşmən deyəndə ağlımıza bunlar gəlməlidir – sizinlə bizim həmvətənlərimiz, qonum-qonşularımız yox! Biz bütün bu bəlaların öhdəsindən gəlməliyik!

Amerikan problemi

Qoy heç kəs öz qonşusunun dərd-sərinə barmaqarası baxıb sevinməsin. Amerikada elə bir guşə yoxdur ki, orada bərabərlik vədi axıracan yerinə yetirilmiş

Satış üçün nəzərdə tutulmayıb

olsun. Amerikanlar istər Buffaloda, Birmingemdə, Filadelfiyada, istərsə Selmada azadlıq uğrunda mücadilə aparırlar.

Bu vahid bir dövlətdir. Selmada, ya Sinsinatidə baş verənlər hər bir amerikalını narahat etməlidir. Hər birimiz özümüzə və içərisində yaşadığımız əhatəyə nəzər yetirək, ölkənin harasında olur olsun, haqsızlığı aradan qaldırmaq üçün öz qüvvəmizi əsirgəməyək.

Bu məsələni, bu tarixi məkanda müzakirə etdiyimiz bir zamanda, aralarında İvo Cimada[87] vuruşmuş şəxslərin də olduğu Cənublular, "Köhnə şöhrət"i[88] dünyanın ucqar guşələrinə aparıb, onu ləyaqətlə geri qaytaranlar Şərqdən, Qərbdən çıxan adamlar hazırda inanca, irqə, yurd yerinə fərq qoymadan Vyetnamda çiyin-çiyinə döyüşürlər. Hələ 20 il bundan əvvəl Amerikanın hər tərəfindən olan bu cür insanlar çox-çox uzaqlarda bizim uğrumuzda canlarından keçmişlər.

Bizə hədələr biçən ümumi təhlükə və qurbanlara nəzər yetirəndə, görürük ki, Cənub öz fədakarlığı ilə heç də möhtəşəm respublikamızın başqa bölgələrindən geridə qalmır, əksinə bəzi hallarda daha irəlidir.

Mənim zərrəcə şübhəm yoxdur ki, Böyük göllərdən tutmuş Meksika körfəzinəcən, Qızıl qapıdan Atlantik sahillərinə qədər – ölkənin hər yerindən olan insanlar cümlə amerikanların azadlığı uğrunda birgə mübarizə aparacaqlar. Bu hər birimizin borcudur və mən inanıram ki, hər birimiz bu borcu yerinə yetirəcəyik.

Sizin prezidentinizin də hər bir amerikalıdan xahişi budur!

Demokratik proseslərdən tərəqqiyə

Bu mübarizənin əsl qəhrəmanı amerikan zəncisidir. Bizim millətin şüurunu oyadan da elə onun etirazı, xətt-hərəkəti, mərdliyi, əsirgəmədiyi qurbanlardır. Zənci nümayişləri diqqəti haqsızlığa yönəldib, dəyişmələrə, islahatlara yol açıb. Bizi Amerikanın vədinə əməl etməyə çağıran da odur. Heç kəs şəkk gətirməsin ki, bəli, biz belə bir tərəqqiyə məhz onun cəsarəti və amerikan demokratiyasına bəslədiyi inam sayəsində nail olmuşuq.

Axı bərabərlik uğrunda gedən mübarizənin özəyində demokratik təbəddülata inam dayanır. Bərabərlik silah gücündən, ya göz yaşardan qazdan ibarət deyil, mənəvi haqdan asılıdır. Zordan yox, qayda-qanuna hörmətdən doğur.

Sizin prezidentinizə təzyiq göstərilib və yenə də göstəriləcək. Ancaq bu gün, söz verirəm, harada lazım gəldi, mübarizədən çəkinməyəcəyik: məhkəmələrdə, Konqresdə və insanların qəlbində!

Biz necə olur olsun, söz və yığıncaq azadlığını qorumalıyıq. Amma, söz azadlığı, burda deyildiyi kimi adamla dolu teatrda ehtirasları coşdurmamalı, yığışmaq sərbəstliyi isə nəqliyyatın hərəkətinə maneçilik törətməməlidir. Öz etirazımızı bəyan etməyə, ya yürüş keçirməyə onda ixtiyarımız çatar ki, bizimlə qonşuluqda yaşayanların konstitusion hüquqları pozulmasın. Nə qədər ki

Satış üçün nəzərdə tutulmayıb

bu vəzifədə qalmağa mənə icazə verilib, bütün bu hüquqların keşiyində dayanmaq niyyətindəyəm.

Biz zorakılığa qarşı mücadilə aparasıyıq, bilirik ki, can atdığımız dəyərləri – qanuna hörməti, tərəqqini, gələcəyə inamı məhz zorakılıq əlimizdən alır.

Hər yerdə, o cümlədən Selmada biz barışığa can atırıq, onunçün dua eləyirik. Çalışırıq ki, qayda-qanun olsun. Birlik olsun. Ancaq bizə nə qanunu pozmaq və ya qorxu gücünə qazanılan sülh lazımdır, nə də haqq səsini boğmaqla əldə olunan birlik!

Əmin-amanlığı azadlıq bahasına almaq olmaz! Başqa şəhərlərdə, o cümlədən Selmada məsələnin ədalətli barış həllini tapmalıyıq. Yaddan çıxarmayaq ki, mənim bu nitqimdən sonra polis, FTB, mühafizə çəkilib gedəcək, siz gecikdirmədən bu qanunu qəbul eləyəcəksiz və istər Selmanın, istərsə də başqa şəhərlərin əhalisi yenə bir yerdə yaşayıb, bir yerdə çörək qazanacaqlar.

Millətin diqqəti harasa başqa bir səmtə yönələndə, o şəhərdəkilər öz yaralarını elə özləri sağaltmalı, yeni bir cəmiyyət qurmağa çalışmalıdırlar.

Cənubun tarixi sübuta yetirir ki, zorakılıq at oynadanda buna əncam çəkmək çətindir. Nə yaxşı ki, hər iki irqdən olan insanlar ötən ikinci günü özlərinin təmkinini qoruyub saxlaya biliblər və bu gün də saxlayırlar.

"Hüquq" özlüyündə "imkan" olmalıdır.

Sizə təqdim etdiyim qanun, yəqin ki, mülki hüquqlar haqqında qanun kimi tanınacaq. Daha doğrusu, təqdim edəcəyim proqramın əsas hissəsi, sözün əsl mənasında mülki hüquqlardan bəhs edir. Onun məqsədi hər cürə irqdən olan insanlara ümid verməkdir.

Belə ki, bütün amerikalılar səsvermə hüququna malik olmalıdır. Bu haqqı onlara biz verəcəyik.

Bütün amerikalıların, irqindən asılı olmayaraq adicə vətəndaşlıqdan irəli gələn təzminatları olmalıdır və o təzminatlar olacaq da...

Ancaq nəzərinizə çatdırmaq istərdim ki, həmin təzminatların həyata keçməsindən ötrü adicə ədliyyə hüququndan daha ziyadə şeylər gərəkdir. İlk növbədə savad və sağlam bədən! Həm də gərək fərli yurd-yuvan olsun, özünə iş tapasan ki, dilənçiliyin caynağına keçməyəsən.

İnsanlara yazıb-oxumaq öyrətməyiblərsə, aclıqdan taqətləri yoxdursa, xəstəliklərini müalicə etməyə imkan tapılmırsa, ömürləri ümidsiz bir səfalət içində keçirsə, onda ölkənin inkişafına vətəndaşlar nə səmərə verə bilər ki?!

Bəli, biz qapıları hər cürə imkanın üzünə açmaq istəyirik. Özü də həmin qapıdan keçmək üçün istər qara olsun, istər ağ, – hamıya kömək əli uzatmaq niyyətindəyik.

Hökumətin məqsədi

Satış üçün nəzərdə tutulmayıb

Kolleci bitirəndən sonra mənim birinci iş yerim Texas Ştatındakı balaca şəhər olan Kotullada meksikano-amerikan məktəbində müəllimlik olub. Uşaqların arasında ingiliscə bilən az idi, elə mən də ispanca bilmirdim. Şagirdlər kasıb balaları idi, çox vaxt məktəbə də ac gəlirdilər. Uşaqlıqdan elə özlərinə qarşı ögey münasibətin ağrı-acısını dadmışdılar. Başa düşmürdülər ki, insanların onları niyə gözləri götürmür, amma onlar əmin idilər ki, bu belədir, – mən bunu onların gözündən oxuyurdum. Dərsdən sonra evə nahara çox vaxt piyada gəlirdim. Heyifsilənirdim ki, onlara heç cürə kömək eləyə bilmirəm. Hər halda bildiklərimi onlardan əsirgəmirdim ki, heç olmasa həyatda çətinliyə tab gətirsinlər.

Uşağın çöhrəsində yalavaclıq və nifrət nişanəsi görəndə bizə daha çox təsir eləyir.

Dediyim vaxt, yəni 1928-ci ildə heç düşünməzdim ki, 1965-ci ildə bax burda duracağam, yatıb yuxuma da girməzdi ki, bir vaxt dərs dediyim şagirdlərin oğul-uşaqlarına, eləcə də ölkədəki bir çox belə adamlara yardımçı olmaq imkanı qazanacağam.

Bəli, indi buna imkanım çatır. Sizdən nə gizlədim, öz imkanımdan istifadə etmək fikrindəyəm. Ümidvaram ki, o imkandan mənimlə yanaşı siz də fayda götürəcəksiz.

Ölkəmiz bu planetdə bütün zamanlarda mövcud olmuş məmləkətlərin ən varlısı, ən qüvvətlisidir. Keçmiş səltənətlərin gücü bizimkiylə müqayisədə heç nədir. Ancaq mən, imperiyalar quran qüdrət və qənimət sahibliyinə can atan prezident olmaq istəmirəm! Əksinə, elə bir prezident olmaq ürəyimdən keçir ki, içərisində yaşadığımız dünyadan baş çıxarmağı uşaqlara öyrədə bilim. Mən acları doyuran bir prezident olmaq istəyirəm ki, onlar müftəxor deyil, vergi ödəyiciləri olsunlar. Mən həyatda kasıba öz yolunu tapmağa köməklik göstərən, hər bir vətəndaşın bütün seçkilərdə səsvermə haqqını müdafiəyə qalxan prezident olmaq istəyirəm.

Nifrəti öz qəlbindən qovanlara bütün irqlərdən, bölgə və partiyalardan olan insanlar arasında məhəbbət yaradanlara əl yetirən prezidentlik könlümün istəyidir.

Mən bu torpaqda qardaş qırğınına çevrilən müharibəyə son qoyan prezident olmaq ümidindəyəm.

Bəli, mən sizin hüzurunuza, möhtərəm spiker – Montana Ştatı senatoru; çoxluğun lideri – İllinoys Ştatından olan senatorun; azlığın lideri – cənab Mak-Kullokun və hər iki partiyadan olan başqa üzvlərin xahişi ilə gəlmişəm. Mən bura, vaxtilə müharibə veteranları üçün maddi yardıma veto qoyan prezident F.D.Ruzvelt kimi gəlməmişəm; ya dəmir yolu haqqında qanunu qəbul tələbi ilə prezident Trumən kimi təşrif buyurmamışam. Yalnız bircə xahişlə qarşınız-

Satış üçün nəzərdə tutulmayıb

dayam ki, üstündə birgə çalışdığımız məsələnin həllində mənim və bizim xalqın tərəfini tutasız. Çox istərdim ki, məsələnin müsbət həlli Konqresin, həm respublikaçılar, həm də demokratların adına yazılsın!

Bu salonun divarları arxasındakı 50 ştatda bizim xidmətində dayandığımız insanlar yaşayır. Kim bilir, indi öz evlərində bizə qulaq asa-asa onların qəlbində neçə dərin duyğular, sözlə ifadə olunmayan ümidlər baş qaldırmaqdadır?!

Biz öz təcrübəmizdən bilirik ki, onları xoşbəxtliyə aparan yol nə qədər çətindir və hər bir ailə bu yolda hələ nə qədər problemlər həll etməlidir...

Onların ümidləri əsasən özlərinədir, amma mən istərdim ki, onlar həm də bizim hər birimizə bel bağlasınlar.

Birləşmiş Ştatların gerbində belə bir cümlə var: "Tanrı işimizə xeyir-dua verib".

Ancaq Tanrı bizim cəmi əməllərimizə xeyir-dua verə bilməz. Onun iradəsinin nədən ibarət olduğunu düzgün tapmaq bizim borcumuzdur. Hər halda mən inanıram ki, bu gün təməlini qoyduğumuz niyyət həqiqətən Tanrının istəyincədir. O, bunu bəyənir və öz xeyir-duasını bizdən əsirgəmir.

Mənbə: Lyndon B. Johnson, Public Papers of the Presidents of the United States: Lyndon Johnson, vol. 1 (1965), 281.

Satış üçün nəzərdə tutulmayıb

41. Kaliforniya Universitetinin İdarə Heyətinin üzvləri Bakkeyə qarşı (1978)

1964-cü və 1965-ci illərdə mülki hüquqlar haqqında aktlar qəbul ediləndən sonra prezident Conson bu qənaətə gəldi ki, irqi azlıqlara münasibətdə onilliklər boyu davam etmiş ayrı-seçkilikdən xilas olmaq üçün yalnız hüquqi maneələrin aradan qaldırılması kifayət deyildir və onlara bir qədər kömək etmək, bəzi pozitiv tədbirlər – affirmativ aksiyalar *(affirmative action)* həyata keçirmək lazımdır.

1965-ci il sentyabrın 24-də Conson federal hökumətin podratçı firmalarına irqi azlıqların nümayəndələrini işə daha çox cəlb etməyi və onların xidmət üzrə irəliləməsinə daha çox şərait yaratmağı bir vəzifə kimi tapşıran fərman verdi. İki ildən sonra Conson özünün digər fərmanı ilə diskriminasiya əleyhinə əvvəlki fərmanların şamil edildiyi əhali kateqoriyasına qadınları da əlavə etdi.

1970-ci və 1980-ci illərdə affirmativ aksiyalar cəmiyyətdə ciddi fikir ayrılıqlarına səbəb olurdu, lakin bununla əlaqədar yaranmış diskussiyaları ümumi demokratiya prosesinin yalnız bir hissəsi hesab etmək olar.

Affirmativ aksiyaların tərəfdarlarının iddiası, müxtəsər şəkildə, ondan ibarətdir ki, təhsil və işədüzəlmə sahələrində əvvəllər mövcud olmuş diskriminasiya ucbatından, qadınlar və irqi azlıqlar yaxşı məktəblərdə oxumaq, münasib iş tapmaq və ya xidməti irəliləyişə nail olmaq üçün qeyri-bərabər şəraitə düşürlər. Deməli, əvvəlki diskriminasiyanın nəticələrini aradan qaldırmaq üçün kolleclər və işəgötürənlər qadınlara və azlıqların nümayəndələrinə münasibətdə lütfkarlıq göstərməli, onların arasından namizədlər axtarmalı və ya işə qəbul, yaxud məktəbə daxil olmaq zamanı onlar üçün kvotalar müəyyən etməlidirlər. Onların fikrincə, diskriminasiyanın nəticələrini yalnız azlıqları əhalinin əsas qrupuna cəlb etməklə tam aradan qaldırmaq mümkündür.

Affirmativ aksiyaların əleyhdarları əvvəllər bu azlıqların diskriminasiyaya məruz qalmış olmasını inkar etmirlər, lakin onlar iddia edirlər ki, işə və ya kollecə daxil olmaq şansından bu qayda ilə məhrum edilən ağdərili kişi haqsız yerə əziyyət çəkir: yüz və ya iki yüz il bundan əvvəl mövcud olmuş quldarlığa onun heç bir dəxli olmamışdır və ola bilsin ki, bugünkü diskriminasiyaya da onun heç bir dəxli yoxdur. Bütövlükdə cəmiyyətin cinayətlərinə görə nə üçün kim isə cəzalandırılmalıdır və əksinə, azlığın nümayəndəsinin əcdadlarına bir neçə onillik bundan əvvəl tətbiq edilmiş haqsızlıqlara görə indi o nə üçün üstünlük əldə etməlidir?

Bu məsələ Ali Məhkəməyə gedib çıxdı və əvvəlcə hakimlərin fikirləri haçalaşdı: hakimlərdən dördü belə hesab edirdi ki, faktiki olaraq irqlərə bölünməni tanıyan affirmativ aksiyalar ABŞ Konstitusiyasına XIV Dü-

Satış üçün nəzərdə tutulmayıb

zəlişə müvafiqdirlər; digər dörd hakim isə iddia edirdi ki, adamların hər hansı şəkildə irqlərə bölünməsi 1964-cü ildə qəbul edilmiş Mülki Hüquqlar Haqqında Akta ziddir. Hakim Lüis Pauellin *(Lewis Powell)* fikrincə, affirmativ aksiyalar yaxşıca götür-qoy edilmiş olsa, onlar həm Konstitusiyaya, həm də ölkənin qanunlarına tamamilə müvafiq ola bilər. O, klassik keçid həlli işləyib hazırladı: irqi mənsubiyyət müəyyən imtiyazlar almaq üçün bir faktor ola bilər, lakin o, çoxsaylı faktorların yalnız biri ola bilər. Onun bu qərarı qaldırılan suallara cavab verməsə də, affirmativ aksiyaların bir qismini qəbul etməyə və azlıqlara köməyin dərəcəsi haqqında fikirləşməyə başlayan həm məhkəməyə, həm də cəmiyyətə kömək etdi.

Əlavə məlumat üçün oxuyun: Boris I. Bittker, The Case for Black Reparations (1973); Allen P. Sindler, Bakke, DeFunis and Minority Admissions: The Quest for Equal Opportunity (1978); Melvin I. Urofsky, A Conflict of Rights: The Supreme Court and Affirmative Action (1991).

KALİFORNİYA UNİVERSİTETİNİN İDARƏ HEYƏTİNİN ÜZVLƏRİ BAKKEYƏ QARŞI

Hakim Pauell Ali Məhkəmənin qərarını açıqladı.

Bu iş İddiaçı (Deyvisdəki Kaliforniya Universitetinin tibb fakültəsi) tərəfindən həyata keçirilən tələbə qəbulunun xüsusi proqramı ilə bağlıdır. Bu proqram azlıqları təmsil edən müəyyən sayda tələbənin qəbul edilməsi üçün nəzərdə tutulmuşdur. Kaliforniya Ştatının Ali Məhkəməsi bu proqramı qanunsuz hesab etmiş və İddiaçıya abituriyentlərin irqi mənsubiyyətinin nəzərə alınmasını qadağan edərək, [ağdərili] abituriyent Bakkenin qəbul olunmasını təmin etmək barədə əmr vermişdir. Mən aşağıda şərh edilən səbəblərə görə belə hesab edirəm ki, Kaliforniya məhkəməsinin qəbul proqramını qanunsuz hesab edən və Cavabdehin tibb fakültəsinə qəbul edilməli olması barədə qərarını təsdiq etmək lazımdır. Aşağıda ayrıca şərh ediləcək səbəblərə görə hakimlər Styuart, Renqkvist və Stivens bu fikrə şərikdirlər. Mən onu da qeyd etməliyəm ki, aşağıda şərh edilən səbəblərə görə, məhkəmə qərarının Universitetə abituriyentlərin irqi mənsubiyyətini "hər hansı şəkildə" nəzərə almağı qadağan edən hissəsi ləğv edilməlidir. Bu fikrə hakimlər Brennan, Uayt, Marşall və Bləkmun da şərikdirlər.

Beləliklə, bu qərar qismən təsdiq edilməli və qismən ləğv olunmalıdır. Həmin proqramda irqi təsnifat nəzərdə tutulduğu üçün Kaliforniya Ali

Satış üçün nəzərdə tutulmayıb

Məhkəməsi ciddi ekspertiza keçirilməsini zəruri hesab etmişdi. Sonra məhkəmə İddiaçı tərəfindən bu proqramdan istifadə edilməsinə bəraət qazandırılması üçün əsas kimi göstərilmiş səbəbləri nəzərdən keçirmişdir. Məhkəmə razılaşır ki, azlıqların tibb sahəsinə inteqrasiya etmələri və azlıqların nümayəndələrinə yardım göstərmək arzusunda olan hakimlərin sayının artması həqiqətən Ştatın mənafelərinə uyğundur, lakin Məhkəmə belə hesab etmişdir ki, həmin proqram bu məqsədlərə nail olmaq üçün heç də ən münasib vasitə deyildir. Kaliforniya Məhkəməsi Ştatın Konstitusiyasına və federal qanunvericiliyə əsaslanaraq belə hesab etmişdir ki, Konstitusiyanın Bərabər Müdafiə haqqında müddəasına görə *(Equal Protection Clause)*, "heç bir namizəd öz irqinə görə, ixtisasca ondan aşağı səviyyədə olan digərinin xeyrinə rədd edilə bilməz və qəbul irqi üstünlüklərə əsaslanmayan standartlar üzrə aparılmalıdır"…

III. A. Xüsusi qəbul proqramının məhkəmə ekspertizasının düzgünlüyü barədə tərəflər arasında fikir ayrılığı yaranır. Lakin lap əvvəldən, tərəflər arasında həmin proqramın xarakterinin təyin edilməsinin düzgünlüyü barədə də fikir ayrılığı vardır. İddiaçı (Universitet) bu proqramı tibb fakültəsində azlıqların nümayəndələrinin sayını artırmaq üçün "məqsəd" hesab etməyi üstün tutur. Cavabdeh (Mister Bakke), eləcə də Ştat Məhkəməsi isə bu proqramı irqi kvota hesab edir. Lakin bu məna müxtəlifliyinə baxmayaraq, şübhə yoxdur ki, həmin qəbul proqramı irqi və ya etnik mənsubiyyət əlamətinə əsaslanmışdır. Azlıqların nümayəndələri üçün (hətta onlar çox zəif hazırlığa malik olsalar da) 16 yer ayrılmışdır. Ağdərili abituriyentlər bir-biri ilə yalnız qalan 84 yer uğrunda rəqabət apara biləcəyi halda azlıqların nümayəndələri elan edilmiş 100 yerin hamısı uğrunda rəqabət apara bilərdilər. Bizim bunu "məqsəd" və ya "kvota" adlandıracağımızdan asılı olmayaraq, aydındır ki, həmin proqramda bölgü irqi və ya etnik mənsubiyyət əsasında aparılmışdır…"

Konstitusiyaya XIV Düzəlişin qarantiyaları[lxxxix] hamıya şamil edilir. Bu Düzəlişin dili kifayət qədər aydındır. Vətəndaşların bərabər müdafiəsinin qarantiyası bir nəfərə bir cür, başqa birisinə isə yalnız onun dərisinin rəngini əsas götürərək başqa cür münasibət bəslənməsini nəzərdə tuta bilməz. Əgər onlara münasibət eyni deyildirsə, bu münasibət bərabər deyildir. Bununla belə, iddiaçı bildirir ki, məhkəmə həmin proqramın Konstitusiyaya müvafiq olub-olmaması barədə ekspertizanı düzgün aparmamış və əsassız olaraq, ağdərili kişiləri siyasi çoxluqdan xüsusi müdafiə edilməyə ehtiyacı olan "təcrid edilmiş və ya qapalı azlığın" nümayəndələrinə bərabər tutmuşdur.

Lakin irqi və ya etnik prinsip üzrə bölgüyə əsaslanan sistemlərin bizim tərəfimizdən konstitusion ekspertizası aparılarkən biz heç vaxt həmin qrupların "təcrid edilmiş və ya qapalı" olmasını nəzərə almamışıq. Bu

Satış üçün nəzərdə tutulmayıb

məhkəmə də elə hesab etmir ki, "təcrid olunmaq və ya qapalılıq" özlüyündə özünə qarşı düşm ənçilik hissləri oyada bilər... Buna baxmayaraq, irqi və etnik təsnifatlar bu əlavə xarakteristikalardan asılı olmayaraq ciddi ekspertiza edilməlidir. Biz hələ ən ilk məhkəmə işləri zamanı bəyan etmişdik ki, hər hansı irqi ayrı-seçkilik bizdə şübhə oyadır və buna görə də onlar diqqətlə təhqiq olunmalıdır.

B. Artıq 30 ildir ki, bu məhkəmə quldarlıq və irqi ayrı-seçkilik dövrlərini yaşamış bir ölkədə bütün vətəndaşların "qanunla hamı üçün bərabər müdafiəsini" təmin etmək üçün Bərabər Müdafiə barədə müddəanı şərh etmək kimi çox mühüm bir missiyanı yerinə yetirir. Bu sahədə məhkəmələrin qəbul etdikləri ən mühüm qərarlar zəncilərin Amerika cəmiyyətinin əsas hissəsindən təcrid olunmasının hələ də davam etməsinə cavab olaraq qəbul edildiyi üçün, bu qərarları dominantlıq edən ağ irq tərəfindən zənci azlığa münasibətdə həyata keçirilən ayrı-seçkiliyə qarşı yönəlmiş qərarlar kimi səciyyələndirmək olar. Lakin bu heç də o demək deyildir ki, həmin qərarlar irqi xarakteristikalardan asılıdır. Bunu demək kifayətdir ki, bu Məhkəmə "vətəndaşlar arasında yalnız onların mənşəyi ilə əlaqədar, institutları hüquq bərabərliyi doktrinasına əsaslanan azad xalqa yabançı olan məhdudiyyətləri" ilbəil sistematik olaraq rədd etmişdir.

İddiaçı bizi ilk dəfə olaraq, Bərabər Müdafiə haqqında müddəaya daha məhdud baxışları qəbul etməyə və belə bir fikirlə razılaşmağa çağırır ki, əgər ağdərili "çoxluğa" münasibətdə ayrı-seçkilik "nəcib məqsədlər" güdürsə, bu cür ayrı-seçkilik şübhə doğura bilməz. Lakin azadlığımızın saatını geriyə, 1868-ci ilə qaytarmaq mümkün deyil. Bütün vətəndaşların bərabər müdafiəsinə qarantiya verilməsi hər hansı bir qrup üçün digər qruplarla müqayisədə daha artıq müdafiə nəzərdə tutulmasını iddia etmək gecdir. "XIV Düzəliş təkcə "zəncilərin" "ağlar tərəfindən" diskriminasiya edilməsinə qarşı, yəni təkcə ikisinifli cəmiyyət nəzəriyyəsinə qarşı yönəlməmişdir. Əgər biz "ikisinifli nəzəriyyə"nin apardığı süni bölgünü XIV Düzəlişə müvafiq olmasını qəbul etsək, onda irqi və etnik azlığın statusunun müəyyən edilməsi ilə əlaqədar qarşısıalınmaz çətinliklər yaranacaqdır. "Çoxluq" və ya "azlıq" anlayışları müvəqqəti təsnifatı və siyasi mülahizələri əks etdirir. Yuxarıda deyildiyi kimi, ağdərili "çoxluq" özü müxtəlif azlıqlardan ibarətdir. Onların əksəriyyəti göstərə bilər ki, tarixdə onlara münasibətdə dövlət və müəyyən şəxslər tərəfindən diskriminasiya halları olmuşdur. Bu qrupların heç də hamısı irqi və etnik münaqişə hallarında xeyirxah münasibət və məhkəmənin tolerantlığı ilə rastlaşmırdı. Bu halda qalan yeganə "çoxluq" əslində yeni azlıq – anqlosaks protestantlar azlığı olardı.

Hansı qrupların "məhkəmə tərəfindən xüsusi müdafiəyə" layiq olmasını və hansı qrupların buna layiq olmamasını əsaslandırılmış şəkildə mü-

Satış üçün nəzərdə tutulmayıb

əyyən etmək mümkün deyil. Məhkəmə müxtəlif azlıqlara vurulmuş ziyanın və qərəzliliyin dərəcəsini müəyyən etməlidir. Cəmiyyət tərəfindən yol verilə bilən həddən artıq dərəcədə əziyyətlərə məruz qalanlar digər qrupların nümayəndələri hesabına imtiyazlı təsnifat hüququna malikdirlər. Bu təsnifat ciddi məhkəmə ekspertizasından azad olacaqdır. Verilən imtiyazlar zəruri nəticələr doğurmağa başlayanda və əvvəlki diskriminasiyanın nəticələri aradan qaldırıldıqda yeni hüquqi təsnifata zərurət yaranacaqdır; lakin həmin təsnifatı işləyib hazırlamaq üçün müəyyən sosioloji və siyasi təhlil aparılmalıdır, bu isə, hətta yeni təsnifat siyasi cəhətdən mümkün və cəmiyyət üçün arzu edilən olduqda belə, məhkəmənin səlahiyyət dairəsinə daxil deyildir.

Üstəlik, imtiyaz ideyasının özü ilə əlaqədar ciddi hüquqi problemlər mövcuddur. Əvvəla, imtiyaz deyilən amillərin həqiqətən xeyir verib-verməyəcəyi heç də həmişə aydın olmur. Müəyyən qrupun ümumi mənafelərini qorumaq məqsədilə həmin qrupun ayrı-ayrı üzvlərinə tətbiq edilən əziyyətləri qanuniləşdirmək barədə tələblə məhkəmələrə müraciət etmək olar. Lakin Konstitusiya belə bir fikri dəstəkləmir ki, fərdlərin etnik qruplarının sosial statusunu möhkəmlətmək məqsədilə onlardan dözülməz qurbanlar verilməsini tələb etmək olar.

İkincisi, imtiyazlar verən proqramlar müəyyən qrupların xüsusi dəstək almadan özlərinin uğur qazanmaq iqtidarında olmamaları barədə ümumi stereotipləri yalnız möhkəmlədə bilər.

Üçüncüsü, belə bir hal ədalətsizlikdir ki, Cavabdeh qismində olan təqsirsiz adamlar öz sələflərinin yol verdikləri səhvlərə görə cavab verməyə, kiminsə yükünü daşımağa məcburdurlar. Əgər biz Bərabər Müdafiə haqqında müddəanın mahiyyətini bu dəyişkən mühakimələrə tətbiq etsək, onda belə bir qaydanı konstitusion prinsip kimi qəbul etməyə məcbur olacağıq ki, irqi və etnik təsnifatın məhkəmə ekspertizası siyasi vəziyyətin dəyişməsindən asılı olacaqdır. Bu cür təsnifatlara münasibətdə konstitusion dözümlülüyün hədsiz dərəcəsi isə irqi və etnik ziddiyyətləri yumşaltmaq əvəzinə, əksinə, onları daha kəskinləşdirə bilər. Bundan əlavə, konstitusion prinsiplərin dəyişkən siyasi və sosial mühakimələrdən asılı olması Konstitusiyanın nəsildən-nəslə ardıcıl tətbiq edilməsi şansını azaldır, bu isə Konstitusiyanın ağlabatan şərhinin əsas elementidir.

İnsana irqi və ya etnik diskriminasiyadan hüquqi müdafiə olunmaq imkanı verilir, çünki bu diskriminasiya ayrıca bir şəxsiyyət kimi onun hüquqlarını pozur, bu müdafiə ona hər hansı qrupun üzvü olduğu üçün verilməmişdir. Konstitusion standartlar yalnız birinci halda hamı üçün bərabər qaydada tətbiq edilə bilər. Müəyyən təsnifatın zəruri olması barədə siyasi mühakimələr konstitusion balansa təsir göstərə bilər, lakin əsas üsul

Satış üçün nəzərdə tutulmayıb

dəyişməz qalacaqdır. Bu belə də olmalıdır, çünki həmin siyasi mühakimələr demokratik proses çərçivəsində rəqabət aparan tərəflərin əldə etdiyi mürəkkəb kompromisin məhsuludur və siyasi mühakimələr insanın irqi və etnik mənşəyinə aid olduqda bu insanın haqqı var ki, onun üzərinə qoyulan yükün dövlətin əsas mənafelərinə müvafiq olub-olmamasını məhkəmə tərəfindən müəyyən etsin.

Biz belə hesab edirik ki, şübhəli təsnifatdan istifadə edilməsinə haqq qazandırmaq üçün Ştat onun məqsədinin və mənafeyinin həm Konstitusiyaya uyğun, həm də mühüm olduğunu göstərməlidir və bu təsnifatın tətbiq edilməsi onun "məqsədinə nail olmaq və ya onun mənafeyini qorumaq üçün zəruridir". Beləliklə, tələbələrin xüsusi qəbul proqramı aşağıdakı məqsədləri güdür:

(i) "tibb fakültəsində və bütövlükdə təbabət peşəsində ənənəvi azlıqların tarixən çatışmazlığının azaldılması";

(ii) cəmiyyət tərəfindən diskriminasiyanın nəticələrinə qarşı mübarizə;

(iii) kifayət qədər tibbi xidmət edilməyən icmalarda praktiki fəaliyyətlə məşğul olan həkimlərin sayının artırılması;

(iv) tələbələr heyətinin etnik müxtəlifliyindən səmərə əldə edilməsi.

Şübhəli təsnifatdan istifadə edilməsini əsaslandırmaq üçün bu məqsədlərdən hansının kifayət qədər əhəmiyyətli olmasını qərara almaq lazımdır.

A. Əgər İddiaçının məqsədi müəyyən tələbə kollektivinin daxilində hər hansı qrupun yalnız irqi və ya etnik mənsubiyyət əlamətinə görə təmsil edilməsindən ibarətdirsə, bu cür məqsəd kifayət qədər əhəmiyyətli olmayan və qanunsuzluğu göz qabağında olan məqsəd kimi rədd edilməlidir. İrqi və ya etnik mənsubiyyətə görə hər hansı qrupa üstünlük verilməsi diskriminasiyadan başqa bir şey deyildir. Konstitusiya bunu qadağan edir.

B. Əlbəttə, ayrı-seçkiliyin nəticələrinin aradan qaldırılmasında və mümkün olduqda bu sahədə vəziyyəti yaxşılaşdırmaqda Ştatın marağı qanuni və əhəmiyyətlidir. Məktəblərdə deseqreqasiya halları[xc] dövlətin bu vəzifəsinin vacibliyini təsdiq edir. Bu məsələ, kökləri uzaq keçmişdə itibbatan "ictimai diskriminasiya" deyilən amorf konsepsiyanın nəticələrini aradan qaldırmaq cəhdləri ilə müqayisədə daha konkretdir. Əgər məhkəmələr, qanunverici və ya inzibati orqanlar tərəfindən qaydaların pozulması ilə bağlı konkret faktlar yoxdursa, biz müəyyən azlıqların nümayəndələrinin diskriminasiya qurbanları statusu alaraq, onlara dəymiş zərərin digər günahsız fərdlərin hesabına ödənilməsini tələb edən təsnifata haqq qazandıra bilmərik… Bu cür qanun pozuntuları yoxdursa, dövlətin bir fərdin ziyanına olaraq başqa bir fərdə kömək etmək üçün heç bir ciddi marağı da yoxdur. Deməli, bu cür ziyan vurulması üçün hökumətin heç bir bəraəti də yoxdur.

Satış üçün nəzərdə tutulmayıb

İddiaçı bu cür pozuntuları aşkar etmək iqtidarında deyildir və buna onun haqqı da yoxdur. İddiaçının əsas missiyası nə qanun yaratmadır, nə də konkret qanun pozuntuları ilə bağlı pretenziyaların məhkəmə qaydasında araşdırılması, onun əsas missiyası təhsildir.

C. İddiaçı bildirir ki, onun proqramının bir məqsədi də pis tibbi xidmət göstərilən icmalarda tibbi xidmət yaxşılaşdırmaqdan ibarətdir. Belə güman etmək olar ki, bəzi hallarda Ştatın öz vətəndaşları üçün səhiyyə xidmətlərinin yaxşılaşdırılmasında marağı bu cür təsnifatdan istifadə edilməsinə bəraət qazandırmaq üçün zəruri və kafidir. Lakin biz xüsusi qəbul proqramının bu məqsədə xidmət etdiyini göstərən heç bir sübut görmürük. İddiaçı göstərə bilməmişdir ki, o, müdafiə olunmamış vətəndaşlara tibbi xidmətin keyfiyyətini yaxşılaşdırmaq üçün müəyyən etnik qrupların nümayəndələrinə bütün başqa etnik qrupların nümayəndələri ilə müqayisədə üstünlük verməyə məcbur olmuşdur. İddiaçı göstərməmişdir ki, onun təsnifatı problemin həllinə mühüm təsir göstərə bilər.

D. İddiaçının güddüyü dördüncü məqsəd rəngarəng tələbə kollektivi yaratmaqdan ibarətdir. Ali təhsil müəssisəsi üçün bu məqsəd, əlbəttə, Konstitusiyaya görə yol verilə biləndir. Düzdür, "Akademik azadlıq"[xci] ayrıca konstitusion azadlıq deyildir, lakin artıq çoxdandır ki, o, Konstitusiyaya I Düzəlişə əsasən xüsusi qaydada müdafiə olunan azadlıq hesab edilir. Universitetin öz təhsil prosesini formalaşdırmaq azadlığı tələbə heyətinin seçilməsinə də aiddir. Deməli, İddiaçı Universitetə, ideyalar mübadiləsi kimi mühüm prosesə daha çox töhfə verə biləcək tələbələr seçmək hüququ verilməsini tələb etməklə, özünə I Düzəlişdə təsbit olunmuş konstitusion mənafe ilə haqq qazandırır. Bu halda hesab edilməlidir ki, İddiaçı onun missiyasının həyata keçirilməsi üçün son dərəcə vacib olan məqsədə nail olmağa can atır.

Kimsə deyə bilər ki, bu cür ideyalar mübadiləsi təhsilin məsələnin professional tərəfi üzərində təmərküzləşdiyi tibb fakültəsində ixtisaslaşma ilə müqayisədə ali məktəblərin birinci – ümumtəhsil kurslarında daha səmərəli olur. Lakin bizim ənənələr və təcrübə sübut edir ki, hətta bu səviyyədə də rəngarənglik və müxtəliflik olmalıdır. Həkimlər əhalinin bütün təbəqələrinə xidmət edirlər. Hər hansı qeyri-ənənəvi etnik birliyə, coğrafi əraziyə və ya mədəniyyətə mənsub olan tələbə peşə öyrənərkən onun təcrübəsi, baxışları və ideyaları o biri tələbələri də zənginləşdirər və onlar insanlara xidmət etmək kimi mühüm missiyalarını daha dərindən anlayarlar.

Lakin etnik müxtəliflik uğurlu tələbə kollektivinin formalaşmasında çoxsaylı amillərdən yalnız biridir. Doğrudur, öz sıralarına kimi qəbul etməyə dəyməsi məsələsini Universitet özü həll etməlidir, lakin vətəndaşların şəxsi azadlıqlarını qoruyan konstitusion məhdudiyyətlərə məhəl qoymamağa heç kəsin haqqı yoxdur. Cavabdeh iddia edir və məhkəmə də bununla razıdır ki, bu ikibaşlı qəbul proqramı Konstitusiyaya XIV Düzəlişə

Satış üçün nəzərdə tutulmayıb

əsasən ona verilmiş hüquqları pozan irqi ayrı-seçkilikdir. Tələbələrin müxtəlifliyi mənafeyi qəbul proqramı kontekstində daha vacib olduğu üçün, məsələ ondan ibarətdir ki, tələbələrin müxtəlifliyini formalaşdırmaq üçün məhz irqi təsnifat zəruridirmi?

V. A. Belə güman etmək olar ki, hər bir sinifdə ayrı-ayrı etnik qrupların nümayəndələri üçün müəyyən sayda yer saxlanması tələbələrin etnik heyətinin çox müxtəlif olmasına xidmət edəcəkdir. Lakin İddiaçının guya müxtəlifliyə nail olmağın yeganə səmərəli vasitəsinin bundan ibarət olmasını bildirməsi çox böyük səhvdir.

Konstitusiyaya I Düzəlişdə bu qədər ["Akademik azadlıq" kimi] yüksək qiymətləndirilən təhsildə müxtəlifliyin təmin edilməsi üçün irqi mənsubiyyəti nəzərə alan başqa universitetlərdə qəbul proqramlarının işlənib hazırlanması təcrübəsi sübut edir ki, müxtəlifliyə nail olmaq üçün hər hansı azlığa konkret sayda yer ayrılması zəruri deyildir. Bu cür qəbul proqramlarında irqi və ya etnik mənsubiyyət müəyyən abituriyent üçün "plyus" sayıla bilər, lakin bu, həmin abituriyenti mövcud yerlərə başqa namizədlərlə rəqabət aparmaq zərurətindən azad edə bilməz. Hər hansı qaradərili namizədin məsələsi onun sinifdəki müxtəlifliyə töhfəsi baxımından nəzərdən keçirilə bilər, lakin bu halda onun irqi mənsubiyyət amili, məsələn, italyan mənşəli amerikalı olan başqa bir namizəd təhsildə plüralizm məsələsinə daha artıq xeyir gətirə biləcək keyfiyyətlərini nümayiş etdirə bilirsə, birinci abituriyent üçün həlledici sayılmayacaqdır. Bu cür keyfiyyətlər qisminə müstəsna şəxsi istedadlar, unikal iş və xidmət təcrübəsi, liderlik potensialı, yetkinlik, başqasının halına acımaq, çətinlikləri aradan qaldırmaq, yoxsullarla ünsiyyətdə olmaq bacarığı və bir sıra başqa mühüm vərdişlər aid ola bilər. Deməli, bu qayda üzrə işləyən qəbul proqramı hər bir namizədin qabiliyyətlərini nəzərə almaqla müxtəlifliyin bütün zəruri elementlərini saya salmaq və onları eyni vəziyyətə qoymaq üçün kifayət qədər çevik proqramdır. Namizədin hər hansı bir keyfiyyətinə istinad edilməsi isə tələbə kollektivinin və yeni yaradılan sinfə düşmək arzusunda olan namizədlərin heyətindən asılı olaraq ildən-ilə dəyişə bilər.

B. Ümumiyyətlə aşkardır ki, Deyvisdəki Universitetin xüsusi qəbul proqramı əvvəllər məhkəmə tərəfindən heç vaxt bəyənilməyən irqi təsnifatdan istifadə edir. Bu proqramda zənci, asiyalı və çikano[xcii] olmayan namizədlərə açıq-aşkar bildirilir ki, onlar sinifdəki müəyyən sayda yerləri tutmaq üçün müsabiqədən tamamilə kənar edilmişlər. Onların istər kəmiyyət, istərsə də keyfiyyət göstəricilərindən, o cümlədən tədris prosesinin müxtəlifliyinə potensial töhfələrindən asılı olmayaraq, bu yerlərin artıq bronlanmış olduğu namizədlərlə yarışmaq üçün heç bir şansı yoxdur. Eyni zamanda imtiyazlı namizədlər bütün yerlər uğrunda rəqabət apara bilərlər. İddiaçının proqramının ən kobud qüsuru – Konstitusiyaya XIV Düzəlişlə zəmanət verilən şəxsi hüquqlara məhəl qoyulmamasıdır. Əlbəttə, bu cür hüquqlar mütləq xarakter daşımır, lakin Ştatda imtiyazların bölgüsü insanın dərisinin rəngindən və ya onun mənşəyindən asılı olduqda Ştat göstərməlidir ki, Ştatın mühüm mənafeyinin təmin edilməsi üçün bu cür təsnifat zəruridir. İddiaçı bunu edə bilməmişdir. Bu səbəbdən,

Satış üçün nəzərdə tutulmayıb

Kaliforniya Məhkəməsinin qərarını qəbul proqramının Konstitusiyaya XIV Düzəlişə müvafiq olaraq qanunsuz hesab edilməsi hissəsi qüvvədə saxlanmalıdır.

C. Kaliforniya Ali Məhkəməsinin qərarına əsasən, namizədlərin irqi mənsubiyyətinin nəzərə alınması İddiaçıya tamamilə qadağan edilmişdir. Lakin biz bunu yəqin edə bilmədik ki, Ştatın irqi və ya etnik mənşəyə əsaslanan daha ədalətli qəbul proqramından istifadə etməklə qanuni yolla təmin edilə biləcək mənafeləri ola bilməz. Bu səbəbdən, Kaliforniya Məhkəməsinin qərarı namizədlərin irqi mənsubiyyətini hər hansı başqa şəkildə nəzərə almağı İddiaçıya qadağan edən hissəsi etibarsız sayılmalıdır.

VI. Cavabdehin tibb fakültəsinə qəbul edilməsi barədə məhkəmə sərəncamı almaq hüququna gəldikdə, İddiaçı etiraf edir ki, o, məhkəməyə sübut edə bilməmişdir ki, bu qanunsuz qəbul proqramı olmasaydı Cavabdeh Universitetə qəbul edilməyəcəkdir. Deməli, Cavabdeh məhkəmədən bu cür sərəncam almaq hüququna malikdir və məhkəmənin qərarının bu hissəsi qüvvədə saxlanmalıdır.

Mənbə: 438 U.S. 265 (1978).

Satış üçün nəzərdə tutulmayıb

Özünüifadə Azadlığı

Konstitusiyaya I Düzəliş amerikalıların hüquqlarının ən mühüm təminatı və demokratik dövlət quruculuğunda əsas vasitədir. Bu Düzəliş dini etiqad azadlığını, dövlət tərəfindən müəyyən edilmiş dindən imtina etmək azadlığını, söz və mətbuat azadlığını, dinc toplaşmaq hüququnu və dövlətə şikayətlərlə müraciət etmək hüququnu müdafiə edir.

Bu hüquq və azadlıqlar öz fikrini ifadə etməyin bütün formalarını əhatə edir və Konstitusiyanın müəllifləri inanırdılar ki, demokratik cəmiyyətdə öz fikrini azad şəkildə, hakimiyyət orqanlarından qorxmadan ifadə etmək hüququ dövlətin idarə olunmasında və ona nəzarət etməkdə vətəndaşların həqiqi və səmərəli iştirakının əsasıdır. Tomas Cefferson inanırdı ki, dövlət məmurlarının fəaliyyətini diqqətlə izləyən azad mətbuat bu yolla hakimiyyəti istibdada yuvarlanmaqdan çəkindirir.

Lakin bu məsələyə başqa baxış da var: on səkkizinci əsrdən başlamış ta bizim zəmanəyə qədər, bəzi şərhçilər öz fikrini məhdudiyyətsiz, tam sərbəst ifadə etmək hüququnu tənqid edir, bəzi gurultulu məhkəmə prosesləri isə öz fikrini ifadə etmək azadlığının hüdudlarının müəyyən olunmasına həsr edilmişdir.

Amerikaya köçüb gələnlər özləri ilə birlikdə həm kilsə ilə cəmiyyət arasında qarşılıqlı münasibətlərə, həm də söz və mətbuat azadlığı üçün ümumi hüquqda müəyyən edilən hədlərə ingilissayağı münasibət də gətirmişdilər. Dövlət tərəfindən müəyyən edilən yeganə və vahid kilsə institutu həm İngiltərədə, həm də Avropanın bütün qalan ərazisində çox geniş yayılmış və əsrlər boyu mövcud olmuşdur. Burada istər kilsə rəhbərlərinə, istərsə də dünyəvi hakimiyyət orqanlarına Tanrı tərəfindən göndərilmiş və öz ümumi vəzifələrini yerinə yetirməkdə bir-birini dəstəkləyən təsisatlar kimi baxırdılar. Belə hesab edilirdi ki, cəmiyyətdə bir neçə din olması – bir neçə kral olması kimi bir vəziyyətdir; dinlərin çoxsaylı olması isə, taxt-taca namizədlərin çoxsaylı olması kimi, cəmiyyətdə parçalanmaya gətirib çıxara biləcək bir amil hesab edilirdi.

Britaniyalı köçkünlər Şimali Amerikaya gələndə özləri ilə bərabər, dövlət tərəfindən müəyyən edilmiş yeganə kilsə ideyasını da gətirmişdilər. Bu cür kilsə din sahəsində inhisarçılıq hüququna malik olur və dövlət tərəfindən müdafiə olunur. O, dövlət tərəfindən müəyyən edilmiş vergilərin köməyi ilə, həm də maliyyə baxımından dəstəklənir. Özlərinin yeni məskənlərində "Anqlikan kilsəsinin korrupsiyaya qurşanmasından" yaxa qurtarmağa çalışan puritanlar da dövlət tərəfindən müəyyən edilmiş yeganə kilsənin

Satış üçün nəzərdə tutulmayıb

mövcudluğunun zəruriliyinə ürəkdən inanırdılar, lakin hesab edirdilər ki, bu kilsədə onların özlərinin etiqad bəslədiyi məzhəb təbliğ olunmalı idi. Anqlikan kilsəsi Virciniyada və digər çoxsaylı koloniyalarda da İngiltərədə olduğu kimi yüksək statusa malik idi, lakin Amerikada Anqlikan kilsəsi ilə yanaşı, onunla rəqabət aparan başqa dini cərəyanlar da mövcud idi. Avropada təqibə məruz qalan dissident dini sektaların nümayəndələri Amerikaya gəlib çatanda öz dini doktrinalarını təbliğ etməyə və özlərinə tərəfdarlar toplamağa başlamışdı. Amerika inqilabı dövründə hətta hakimiyyət orqanları tərəfindən müəyyən edilmiş kilsələrin də heç biri əhaliyə təsir məsələsində inhisarçılığa ümid bəsləyə bilməzdi. Müxtəlif dini qrupların sayı o qədər artmışdı ki, amerikalılar bir-birinə əks baxışlara dözümlü münasibət bəsləməyi öyrənməli oldular.

Buna müvafiq olaraq, koloniyalarda söz və mətbuat azadlığına ingilissayağı münasibətdə də dəyişikliklər baş vermişdi. İngiltərədə böhtan haqqında qanun çox aydın idi: əgər dərc etdiyiniz fikir birisinin nüfuzuna zərər vurur və ya dövlət məmurunun təmiz adam olmasını şübhə altına alırdısa, onda, dediyinizin həqiqiliyindən asılı olmayaraq, sizi "böhtana" görə mühakimə edə bilərdilər. Böhtan məsələsi ilə əlaqədar, naşir Con Piter Zingerin *(John Peter Zenger)* məhkəmə prosesi (1734) bu qaydada amerikalılara xas olan ilk sanballı modifikasiya etmiş oldu. "Araqızışdırıcı böhtanda" *(Seditious libel)* günahlandırılan Zinger tələb etdi ki, məhkəmə təkcə onun qubernator barəsində dediyi fikrin çap edilməsi faktının özünün müəyyən olunmasını yox, həm də çap olunmuş fikrin həqiqətə uyğun olub-olmamağını aydınlaşdırsın və əgər bu fikir həqiqətə uyğundursa, onda məhkəmə Zingerin günahsızlığını elan etsin.

Zinger bu işi uddu və o vaxtdan etibarən, çap edilmiş fikrin həqiqiliyi böhtan barəsində məhkəmə işlərində kafi müdafiə vasitəsi oldu. Böyük Britaniyada bu qayda ta on doqquzuncu əsrə qədər qəbul edilməmişdi.

Lakin "araqızışdırıcı böhtan" və "dövlətin təməlini laxladan fikirlər" anlayışları hətta I Düzəliş qəbul edilməndən sonra da Amerika qanunvericiliyinin tərkib hissəsi kimi qalırdı. 1798-ci ildə "Qiyama təhrikçilik haqqında Qanun" *(Sedition Law)* qəbul edildi. Bu qanun söz azadlığı məsələsinə ingilissayağı münasibətə tam uyğun idi. Sonradan – Birinci Dünya müharibəsinin gedişində qəbul edilmiş "Qiyama təhrikçilik haqqında akt" *(Sedition Act)* isə, əsas etibarilə, dövləti tənqid edənləri susdurmaq üçün istifadə olunurdu. Müharibə ilə əlaqədar "Abrams Birləşmiş Ştatlara qarşı" (1919) işindən başlayaraq, məhkəmələr tədricən bu məsələyə köhnə, ingilissayağı münasibətdən imtina etməyə və müasir, amerikansayağı münasibəti tətbiq etməyə başladılar. Məsələyə bu mövqedən yanaşdıqda, şəxsin öz fikrini ifadə etmək azadlığı dövlət və ya başqa birisi üçün nə qədər təhqiramiz olmasından asılı olmayaraq norma sayılmalıdır və dövlətin ideyalara senzura tətbiq etməyə haqqı yoxdur.

I Düzəlişlə qorunan hüquqların inkişafı hələ başa çatmayıb. Yeni

Satış üçün nəzərdə tutulmayıb

qarşılıqlı ictimai münasibətlər; müxtəlif dini əqidələr; çoxlarının inamına görə dinin dövlət tərəfindən dəstəklənməli olması; hər şeyi bilmək istəyən mətbuatla öz sirlərini açıqlamaq istəməyən hakim dairələr arasında əbədi münaqişə; eləcə də informasiyanın əldə edilməsi və yayılması işinə yeni texnologiyaların tətbiq edilməsi ilə əlaqədar, Birinci Düzəlişin mənası və hüdudları barədə mübahisələr daim davam edir və bu cür mübahisələr demokratik cəmiyyət üçün həmişə əhəmiyyətlidir.

42. Virciniya Ştatında Dini Azadlıq Haqqında Qanun (1786)

Virciniya Ştatında İngiltərənin hakimiyyət orqanları ilə sıx əlaqə saxlayan Anqlikan kilsəsi inqilabın qələbəsindən dərhal sonra dövlətdən ayrılmışdı. Sonra belə bir sual yarandı: "Yeni hakimiyyət orqanları tanınmış kilsələrin hamısını dəstəkləmək üçün əhalidən vergi tutulmasını davam etdirməlidirlərmi?". Bu ideya özünə müəyyən qədər tərəfdarlar tapdı. Onlar dövlət tərəfindən müəyyən edilmiş kilsənin əleyhinə olsalar da, belə hesab edirdilər ki, din dövlət xəzinəsi tərəfindən dəstəklənməlidir.

Lakin Virciniyanın digər sakinlərinin nəzərində, əhalidən ötrü dinin dövlət tərəfindən müəyyən edilməsi qəsbkarlıq təsiri bağışlayırdı. Tomas Cefferson və Ceyms Medison (sonradan onların hər ikisi ABŞ prezidentləri olmuşdur) israr edirdilər ki, dini əqidələr fərdin müstəsna vicdan məsələsi olmalı və dövlət tərəfindən hər hansı müdaxilədən müdafiə olunmalıdır. Hər hansı dini fəaliyyət tamamilə könüllü olmalıdır. Onlar nəinki əhalinin dövlət tərəfindən müəyyən edilmiş, lakin onlar üçün yabançı olan kilsəni dəstəkləmək üçün vergi ödəməli olmasına etiraz edir, həm də vətəndaşların öz kilsələrinin xeyrinə onlardan vergi tutulmasının əleyhinə idilər. Cefferson belə hesab edirdi ki, kilsə və dövlət bir-birindən həmişə uca sədlə ayrılmalıdır.

Mətni aşağıda verilən qanun layihəsini 1779-cu ildə Cefferson hazırlamışdı, lakin məhz Medison layihəni 1786-cı ildə Virciniya Ştatının qanunverici məclisində məharətlə qəbul elətdirmişdir. Bu qanun hələ də Virciniya Ştatının Konstitusiyasının tərkib hissəsidir. Sonralar həmin qanun ştatların əksəriyyəti tərəfindən Virciniya Ştatında olduğu kimi qəbul edilmiş, eləcə də Hüquqlar haqqında Konstitusiya Billində dini etiqad

Satış üçün nəzərdə tutulmayıb

azadlığı haqqında müddəanın əsası olmuşdur.

Həm Cefferson, həm də Medison bu qanunu özlərinin həyatda qazandığı ən yüksək uğur hesab edirdi. Cefferson vəsiyyət etmişdi ki, onun baş daşında Birləşmiş Ştatların Prezidenti və digər yüksək vəzifələr tutması deyil, İstiqlal Bəyannaməsinin, Dini Etiqad Azadlığı Haqqında Qanunun müəllifi və Virciniya Ştatı Universitetinin banisi olması yazılsın.

Əlavə məlumat üçün oxuyun: William Lee Miller, The First Liberty: Religion and the American Republic (1985); Leonard W. Levy, The Establishment Clause and the First Amendment (1986); Merrill D. Peterson and Robert C. Vaughn, eds., The Virginia Statute for Religious Freedom: Its Evolution and Consequences in American History (1988).

VİRCİNİYA ŞTATINDA DİNİ AZADLIQ HAQQINDA QANUN

Nəzərə alaraq ki, ulu Tanrı idrakı azad yaratmış və onun gələcəkdə də azad qalmasını istəmişdir, bunun üçün də onu məhdudiyyətlərə yatımsız etmişdir;

müvəqqəti cəzalar, yaxud çətinliklər, ya da vətəndaş hüquqlarından məhrum etməklə ağla təsir göstərmək cəhdləri yalnız ikiüzlülük hallarının yaranmasına və şərəfsiz addımların atılmasına gətirib çıxarır, bu isə müqəddəs dinimizi Yaradanın niyyətlərindən uzaqdır, Yaradan canımızın və ruhumuzun sahibi olmasına, hər şeyə qadir olmasına baxmayaraq, dini bu və ya başqasına zorla qəbul etdirməyə üstünlük verməmişdir;

özünün baxışlarını yeganə düzgün və xətasız baxış kimi təqdim edərək onu başqalarına qəbul etdirən qanunverici hakimiyyət, dini və mülki rəhbərlər bu hərəkətləri ilə günah edirlər;

qəbul etmədiyi baxışların yayılmasına görə pul verməyə insanı məcbur etmək günah və müstəbidlikdir;

insanı hətta öz dininə məxsus hər hansı müəllimə yardıma təhrik etmək də onu əxlaq nümunəsinə əməl etmək istədiyi konkret pastora yardım göstərmək azadlığından məhrum edir...;

mülki hüquqlarımız fizika, yaxud həndəsə sahəsində baxışlarımızdan asılı olmadığı kimi, dini baxışlarımızdan da asılı deyildir; buna görə də insanın bu və ya digər dini təlimə etiqada, yaxud onu qəbul etmədiyinə görə ictimai eti-

Satış üçün nəzərdə tutulmayıb

maddan kənar elan olunması, məsul vəzifələr tutub müvafiq ödənc almaq imkanından məhrum edilməsi başqa vətəndaşlar kimi malik olduğu təbii hüquqlardan... ədalətsizcəsinə məhrum edilməsi deməkdir;

insanların baxışları mülki hakimiyyətə tabe və onun yurisdiksiyasına daxil deyil;

mülki hakimiyyətə insanların dünyagörüşü sahəsinə müdaxilə etməsinə, hər hansı prinsipləri yanlış hesab edərək onların təbliğ edilməsinə, yaxud yayılmasına mane olmaq imkanının verilməsi bütün dini azadlığı dərhal məhv edə biləcək təhlükəli bir yanlışlıqdır, belə ki, bu halda şəksiz hakim rolunda çıxış edən mülki hakimiyyət öz baxışlarını mühakimə meyarlarına çevirəcək və başqalarının baxışlarını özününkünə uyğun gəlib-gəlməməsinə görə bəyənəcək, yaxud rədd edəcəkdir;

vəzifəli şəxslər mülki hakimiyyətin ədalətli niyyətlərinə əsaslanaraq yalnız o vaxt müdaxilə edə bilərlər ki, kiminsə prinsipləri sülhün və mövcud asayişin pozulmasına yönəldilən aşkar hərəkətlərlə nəticələnsin;

və nəhayət, həqiqət güclüdür və onu öz ixtiyarına buraxdıqda qalib gəlir; o, yanlışlıqlara qarşı möhkəm və davamlı sipərdir, insanların müdaxiləsi onu əsas silahından — diskussiya və mübahisələr azadlığından məhrum etməsə, heç bir münaqişə ona təhlükəli deyildir; açıq şəkildə təkzib etmək mümkün olduqda səhvlər təhlükəli olmur...

Biz, Virciniyanın Baş Assambleyası bu qanunu təsdiq edirik. Bu qanuna görə, kimsəni hər hansı dini ibadət yerlərinə getməyə, yaxud onlara yardım göstərməyə məcbur etmək qadağandır, həmçinin kimsəyə dini baxışlarına, yaxud əqidəsinə görə zor tətbiq etmək, onun fəaliyyətini məhdudlaşdırmaq, təzyiq göstərmək, yaxud şəxsiyyətinə xələl yetirmək, əmlakına zərər vurmaq, onu hər hansı başqa cür iztirablara düçar etmək olmaz;

bu qanuna görə, bütün insanlar dini etiqadlarında azaddırlar və dini məsələlərə dair öz baxışlarını sərbəst şəkildə müdafiə edə bilərlər, bütün bunlar heç bir halda insanların mülki hüquqlarını məhdudlaşdırmamalı, yaxud hər hansı formada onlara təsir etməməlidir.

Əlbəttə, bizə məlumdur ki, bu Assambleya yalnız adi qanunların qəbul olunması üçün seçilmişdir və bizim Assambleya ilə eyni səlahiyyətlərə malik sonrakı assambleyaların aktlarını məhdudlaşdırmaq ixtiyarına sahib deyildir, buna görə də bu aktın ləğvedilməz olduğunu elan etməyin qanuni gücü olmazdı, lakin biz bəyan etməkdə azadıq və bəyan edirik ki, bu sənəddə müdafiə olunan hüquqlar insanın "təbii hüquqlar"ıdır və gələcəkdə bu sənədin ləğv olunmasına, yaxud məhdudlaşdırılmasına yönəlmiş akt qəbul olunarsa, bu, "təbii hüquq"un pozulması demək olacaqdır.

Mənbə: W.W. Hening, ed., Statutes at Large of Virginia, vol. 12 (1823): 84-86.

Satış üçün nəzərdə tutulmayıb

43. Abrams Birləşmiş Ştatlara Qarşı

Şəxsin öz fikrini sərbəst ifadə etməsi barədə Konstitusion hüquqlarına tərif vermək üçün Ali Məhkəmənin ilk cəhdləri 1918-ci ildə qəbul edilmiş "Qiyama təhrikçilik haqqında qanun" barədə hökmlərin sayının getgedə artması ilə bağlı bir sıra işlərlə əlaqədar idi. İş elə gətirdi ki, "dünyanı demokratiya üçün daha təhlükəsiz etməli olan müharibə" ölkənin bütün tarixində vətəndaş hüquqlarının ən kobud şəkildə pozulması prosesinə təkan verdi. Əlbəttə, dövlət onun təməlini dağıtmaq cəhdlərindən özünü müdafiə etmək hüququna malikdir. Lakin elə təsəvvür yaranırdı ki, yeni qanunlar casusların hərəkətlərindən daha çox, hökuməti tənqid edənlərə qarşı yönəlmişdir. Federal qanunların və ştatların qanunlarının həddən artıq geniş əhatəli torlarına düşən radikalların, pasifistlərin və müxalifət əhval-ruhiyyəli digər vətəndaşların sayı get-gedə artırdı. Qiyama təhrikçilik barədə qanunlar üzrə çıxarılan hökmlərin ümumi sayı minlərlə ölçülürdü; Baş Prokurorun məlumatına görə, 1919-cu və 1920-ci illərdə baxılmış bu cür işlərin sayı 1956-ya, həmin işlər üzrə çıxarılmış hökmlərin sayı isə 877-yə bərabər olmuşdur.

1919-cu ildə "Şenk Birləşmiş Ştatlara qarşı" işində "Qiyama təhrikçilik haqqında qanun"a ilk dəfə meydan oxundu. Həmin işdə məşhur sosialist lider gəncləri hərbi xidmətdən imtina etməyə çağırdığına görə ittiham olunmuş və məhkum edilmişdi. Ali Məhkəmə bu hökmü yekdilliklə dəstəklədi, Ali Məhkəmənin sədri Oliver Uendell Holms *(Oliver Wendell Holmes)* isə köhnə britan qaydalarından çox da uzağa getmədi. Həmin qaydaya görə, söz və mətbuat azadlığı, olsa-olsa, ilkin senzuranın olmaması deməkdir, yəni hər kəs ağlına gələni danışmaqda və yazmaqda sərbəstdir, lakin buna görə onu mühakimə də edə bilərlər. O vaxt Holms öz məşhur nitqində demişdi: "Söz azadlığı hüdudsuz deyildir. Adamla dolu teatrda heç kəs "Yanğın" deyə qışqıra bilməz".

O vaxt Holmsun təklif etdiyi test sonrakı 50 ildə bütün nitq ekspertizaları üçün əsas olmuşdu:

"Hər bir konkret halda söylənilən konkret fikir onun söyləndiyi şərait və bu fikrin xarakteri nəzərə alınmaqla, zərərli nəticələr baş verməsi üçün elə aşkar və qaçılmaz təhlükə *(clear and present danger)* yarada bilərmi ki, Konqresin həmin zərərli nəticələrin qarşısını almaq hüququ olsun? Bu, hadisənin nə dərəcədə yaxın və təhlükənin nə dərəcədə real olmasından asılıdır".

Şenkin işini aşkar bir məsələ hesab edən Holms akademiya mühitində böyük hörmət bəslədiyi adamlar tərəfindən tənqid ediləndə çox təəccüblənmişdi. Məsələn, Çikaqo Universitetinin professoru Ernst Froynd *(Ernst Freund)* bəyan etmişdi ki, "əks fikrə qarşı dözümlülük – alicənablıq məsələsi deyil, siyasi dərrakə məsələsidir". Hüquqşünasların həmişə hörmət etdiyi Holms bu cür etirazları başa düşə bilmədi və o, Harvard

Satış üçün nəzərdə tutulmayıb

Universitetinin hüquq fakültəsinin professoru Zəkəriyyə Çafi (oğul) *(Zechariah Chafee Jr.)* ilə görüşərək bu problemi onunla müzakirə etməyə razılaşdı. Çafi Holmsu inandırdı ki, söz azadlığı çox mühüm milli mənafelərə xidmət edir və söz azadlığının məhdudlaşdırılması nəticəsində ölkəyə qeyri-populyar doktrinaların doğura biləcəyi ehtimal edilən mücərrəd təhlükələrlə müqayisədə daha çox zərər vurula bilər. Doğrudan da, tezliklə Çafinin arqumentləri öz bəhrəsini verdi.

Cakob Abrams *(Jacob Abrams)* və onun məsləkdaşları 1918-ci ilin yayında Rusiyaya qoşun göndərmiş Vilson hökumətini tənqid edən pamfletlər yaydıqlarına görə mühakimə edildilər. Hökumət həmin pamfletlərin hərbi idarənin fəaliyyətinə real zərər vurmasını sübut edə bilməsə də, aşağı instansiya məhkəməsinin radikallara qarşı qərəzli münasibət bəsləyən hakimi Abramsı və onun məsləkdaşlarını təqsirkar hesab etmişdi. Bu işə Ali Məhkəmədə baxılarkən yeddi hakim Holmsun "aşkar və qaçılmaz" barədə testini tətbiq etməklə, hökmü müdafiə etmək qərarına gəlmişdi, lakin Holms və onunla həmrəy olan hakim Luis D.Brendis *(Louis D. Brandeis)* əksəriyyətin qərarına zidd olan fikirlə çıxış etdilər. Bu zidd fikir insanın öz fikrini ifadə etmək azadlığına müasir hüquqi münasibətin çıxış nöqtəsi hesab edilir.

Əlavə məlumat üçün oxuyun: Richard Polenberg, Fighting Faiths: The Abrams Case, the Supreme Court, and Free Speech (1987); Paul Murphy, World War I and the Origins of Civil Liberties in the United States (1979); Zechariah Chafee, Jr., Free Speech in the United States (1920; rev. ed. 1941); Robert K. Murray, Red Scare (1955).

ABRAMS BİRLƏŞMİŞ ŞTATLARA QARŞI

Hakim Holms razılaşmır.

Bu ittiham aktı yalnız iki vərəqənin dərc edilməsi faktı üzərində qurulmuşdur ki, həmin vərəqələr barəsində mən bir qədər sonra söhbət açacağam. İttihamnamənin birinci bəndi Almaniya ilə müharibə dövründə Birləşmiş Ştatlarda idarəetmənin forması haqqında təhqiramiz vərəqələrin dərc edilməsi ilə, eləcə də birinci vərəqənin hazırlanması və çap edilməsi üçün gizli qəsdlə bağlıdır. İttihamnamənin ikinci bəndi müharibə dövründə idarəetmə formalarını məsxərəyə qoyan vərəqələr nəşr edilməsi, həmçinin iki vərəqənin hazırlanması və çap edilməsi üçün gizli qəsdlə bağlıdır. İttihamnamənin üçüncü bəndi

Satış üçün nəzərdə tutulmayıb

Birləşmiş Ştatların bu müharibədə iştirak etməsi əleyhinə hərəkatı dəstəkləmək üçün və bu məqsədlə həmin vərəqələri çap etmək üçün gizli qəsdə aiddir. İttihamnamənin dördüncü bəndi hərbi istehsalı azaltmaq məqsədilə təhrikçilik hərəkətləri və yuxarıda adını çəkdiyim ikinci vərəqənin çap edilməsi yolu ilə buna nail olmaq cəhdi barədədir.

Həmin vərəqələrin birincisində deyilir ki, prezidentin qorxaqlıq edərək Rusiyaya müdaxilə barədə susması Vaşinqtonda var-dövlət sayəsində nüfuz və hakimiyyət sahibi olmuş bandanın riyakarlığını açıb göstərmişdir. Vərəqədə deyilir ki, "alman militarizmi Rusiyada inqilabı boğmaq üçün özünə qohum olan kapitalizmlə əlbir olmuşdur, istibdad rejimləri özlərinin ümumi düşməni olan maariflənmiş fəhlə sinfi yaranana qədər bir-birinə qarşı mübarizə aparır, lakin həmin andan etibarən bu rejimlər öz qüvvələrini birləşdirərək ümumi düşmənlərini məhv etməyə yönəldirlər. İndi militarizm də Rusiyada inqilabı boğmaq üçün, açıq şəkildə olmasa da, kapitalizmlə əlbir olmuşdur". Vərəqədə deyilir ki, dünya fəhlələrinin yalnız bir düşməni var, o da kapitalizmdir. Amerika fəhlələrinin Rusiya fəhlələri ilə vuruşması – Amerika fəhlələri üçün cinayətdir. Vərəqənin sonunda deyilir: "Qəflət yuxusundan ayılın, bütün dünya proletarları!", "Qəflət yuxusundan ayılın, ey inqilabçılar!" Daha sonra: "Bizi Almaniyanın tərəfdarları adlandırmaq – absurddur. Ey riyakar müstəbidlər, bilin ki, Almaniya militarizminə biz sizdən daha artıq nifrət bəsləyirik. Alman militarizmini pisləməyə hər şeydən qorxan Ağ Evdən daha çox, bizim əsasımız var".

"Ayılın, ey proletarlar!» adlanan və təhqiramiz ruhda yazılmış ikinci vərəqədə bildirilir ki, Amerika öz müttəfiqləri ilə birlikdə Çexoslovakiya qoşunlarının bolşeviklərə qarşı mübarizəsinə kömək etmək üçün Rusiya üzərinə yürüş edəcək və bu dəfə riyakarlar rus mühacirlərini və Rusiyanın Amerikadakı dostlarını aldada bilməyəcəklər. Vərəqədə rus mühacirlərinə müraciətlə onların müharibəni bəyənməsi və dəstəkləməsi üçün aparılmış yalançı hərbi təbliğata tüpürmələri təklif edilir. Vərəqədə daha sonra deyilir ki, mühacirlərin hərbi məqsədlər üçün xərclədikləri və ya xərcləməyə hazırlaşdıqları vəsait hesabına təkcə Almaniyaya qarşı deyil, həm də Rusiya fəhlə sovetlərinə qarşı tuşlanacaq güllələr istehsal ediləcəkdir. Daha sonra: "Ey hərbi zavod fəhlələri, sizin istehsal etdiyiniz güllələr, süngülər və toplar təkcə almanlara qarşı deyil, həm də azadlıq uğrunda mübarizə aparan sizin rusiyalı qardaşlarınıza qarşı yönələcəkdir". Vərəqədə daha sonra rus mühacirlərinə müraciətlə "Rusiyaya inkvizitor ekspedisiyası" göndərilməsinə razılıq verməməyə çağırış vardır. Vərəqədə bildirilir ki, Rusiyada inqilabın boğulması "Rusiya üzərinə hücumun siyasi tərkib hissəsidir". Vərəqənin sonunda deyilir: "Ey fəhlələr, bu vəhşi müdaxiləyə bizim cavabımız ümumi tətildən ibarət olmalıdır!". İnqilabi ruh barədə, heç nədən qorxmamaq barədə çağırışlardan sonra ümumi kəlmələr gəlir: "Vay o insanların halına ki, onlar tərəqqi yolunu kəsmək istəyəcəklər. Yaşasın həmrəylik! Yaşasın üsyan!"

Satış üçün nəzərdə tutulmayıb

İkinci vərəqədə, həqiqətən, yaxın adamları qətlə yetirmək üçün güllə istehsal edən hərbi zavodların mövcud olması vurğulanır, eləcə də ümumi tətilə çağırışlar, müharibə aparmaq üçün zəruri olan məhsulların istehsalını azaltmaq barədə çağırışlar var. 16 may 1918-ci il tarixli Akta, 533 №li Qanunun 74-cü və 40-cı bəndlərinə, eləcə də 1917-ci il tarixli 3 N-li Akta düzəlişlər bölməsinə müvafiq olaraq, bu cür çağırışlar edilməməlidir. Lakin bu hərəkətin cinayət hesab edilməsi üçün "istehsalın azaldılması yolu ilə Birləşmiş Ştatların bu müharibəni aparmasına ziyan vurmaq və ya ona mane olmaq niyyəti" sübut edilməlidir. Mənə belə gəlir ki, bu cür niyyətin olması sübut edilməmişdir.

Əlbəttə, mən başa düşürəm ki, adi hüquqi diskussiya çərçivəsində işlədilən "niyyət" sözü edilən hərəkətin bütün nəticələrini başa düşməkdən artıq bir məna daşımır. Mülki məsuliyyətin və cinayət məsuliyyətinin ümumi prinsipini təmin etmək üçün hətta bu da çoxdur. İnsan cinayət törədərkən öz hərəkətlərinin, şəxsən onun qabaqcadan hiss edə bilib-bilməyəcəyindən asılı olmayaraq, hansı nəticələr törədə biləcəyini dərk edirsə, həmin insanı ümumi qanunlar əsasında zərəri ödəməyə məcbur etmək, onu həbsxanaya salmaq və hətta asmaq olar. Lakin daha dəqiq desək, əgər müəyyən hərəkətin məqsədi məhz müəyyən nəticələrə nail olmaqdan ibarət deyildirsə, deməli, bu hərəkət həmin nəticələrin yaranması məqsədilə edilmir. Hətta müəyyən hərəkəti edən insanın özü üçün də aşkar ola bilər ki, onun hərəkətinin nəticələri hökmən baş verəcəkdir və hətta bu insan sonradan öz əməlindən peşman olsa belə, buna görə məsuliyyət daşımalı olacaqdır. Lakin əgər insanın məqsədi məhz həmin nəticələri doğurmaqdan ibarət deyildirsə, deməli, insan həmin nəticələri doğurmaq niyyəti ilə hərəkət etmir. Hərçənd, onun əməllərində daha dərin motivlərin olması tamamilə mümkündür.

Mənə belə gəlir ki, bu qanunverici aktın müddəalarını ciddi şəkildə və təhrifə yol verilmədən şərh etmək lazımdır. Əks halda o, absurd təsiri bağışlayacaqdır. Vətənpərvərlər elə hesab edə bilərlər ki, biz əslində lazım olduğundan daha çox təyyarə və ya top istehsal etməklə pulumuzu havaya sovururuq. Buna görə də onlar həmin məhsulların istehsalının azaldılmasını tələb etməkdə haqlı olacaqlar və hətta məlum olsa ki, istehsalın bu cür azaldılması, onların fikrincə, Birləşmiş Ştatların müharibə aparmasına mane olur və ya buna mane ola bilər, onda onların bu cür hərəkəti cinayət hesab edilə bilməz. Mən etiraf edirəm ki, gətirdiyim dəlillər bütün suallara tam cavab vermir, lakin mənim nə fikirləşdiyimi göstərmək və bu məsələnin daha mühüm aspektinə keçmək üçün həmin dəlillər kifayətdir.

Mən Konstitusiyaya I Düzəlişi nəzərdə tuturam. Həmin Düzəlişdə deyilir ki, Konqres söz azadlığını məhdudlaşdıran qanunlar qəbul edə bilməz. Şenkin, Froberkin və Debisin bu məhkəmə tərəfindən baxılmış işlərindəki hüquqi məsələlərin düzgün həll edilməsinə mənim şübhə etməyim üçün heç vaxt əsas olmamışdır. Mən, eləcə də, əsla şübhə etmirəm ki, Birləşmiş Ştatlar hökuməti

Satış üçün nəzərdə tutulmayıb

Konstitusiyaya istinadən adam öldürmək niyyətinə görə cəzaya haqq qazandıran səbəb əsasında da, aşkar və qaçılmaz təhlükə törədən, yaxud törətməyə hazırlaşan və Konstitusiyaya görə qarşısını almalı olduğu dərhal və ciddi bəlaya səbəb ola bilən *nitqə* görə də cəza verə bilər. Bu səlahiyyətlər, şübhəsiz, sülh dövrünə nisbətən müharibə vaxtı daha çox genişlənir, belə ki, müharibə başqa dövrlərdə mövcud olmayan təhlükələri ortaya gətirir. Lakin söz azadlığı prinsipi istər müharibəyə xas olan hallarda, istərsə də digər hallarda pozulmamalıdır. Qaçılmaz yamanın real təhlükəsi, yaxud onun hətta yerinə yetirilməsi niyyətinə görə Konqres özünüifadə azadlığına məhdudiyyət qoymaq səlahiyyətinə malikdir, lakin bu, şəxsi hüquqlara toxunmamalıdır. Konqres, şübhəsiz, xalqın rəyini dəyişdirmək cəhdlərinin hamısını qadağan edə bilməz. Axı heç kəs belə hesab etməyəcəkdir ki, naməlum bir şəxs tərəfindən axmaq bir vərəqənin gizli şəkildə nəşr olunması aydın və qaçılmaz təhlükə təşkil edə bilər; yaxud bu vərəqədə verilən fikirlər dövlət qurumlarına mane ola, ya da bunu etməyə real imkanı ola bilər.

Bu çağırışların sabotaj məqsədilə çap olunması böyük təhlükədən xəbər verə, yaxud hər halda, cəhd kimi nəzərdən keçirilə bilərdi. Beləliklə, mən mümkün hesab edirəm ki, ikinci vərəqə ittihamın dördüncü maddəsində göstərilən məqsədlər üçün (qiyama çağırış) çap olunmuşdusa, cəzalandırmaq üçün əsas ola bilər. Lakin mənə tam aydındır ki, axırıncı dediyimdən başqa heç nə bu vərəqələri qanunun təsiri altına sala bilməz.

Cəhd tərkibinə malik olmaq üçün həqiqi niyyətin olması (artıq dediyim mənada) zəruridir, bu halda da real cinayətin ortaya çıxması üçün həmin şəxsin sonrakı hərəkətləri tələb olunur...

Bu, cəhdin uğurunun başqalarından asılı olduğu hallarda zəruridir, belə ki, əgər belə bir niyyət yoxdursa, fəaliyyətinə baxılan şəxsin məqsədi qarşısı alınmalı olan təhlükələri həyata keçirmədən əldə oluna bilər. Və Rusiya inqilabına qarşı müdaxiləyə yol verməmək niyyəti apardığımız müharibəyə heç bir maneə törətmədən təmin oluna bilər...; tamamilə aydındır ki, vərəqələrin yeganə məqsədi Birləşmiş Ştatların apardığı müharibədə ona mane olmaqdan deyil, Rusiyaya kömək etməkdən və xalq hakimiyyətinə qarşı Amerikanın müdaxiləsinə son qoymaqdan ibarətdir...

Bu məhkəmə prosesində iki vərəqənin nəşr olunmasına görə iyirmi illik həbs cəzası kəsilmişdir, mən isə əminəm ki, bu vərəqələrin çap olunması üçün cavabdehlərin hökumətin Birləşmiş Ştatların Konstitusiyasını çap etmək üçün malik olduğu hüquqları qədər hüquqları var. Bu, həmin Konstitusiyadır ki, müttəhimlər indi ona əbəs yerə istinad etməyə çalışırlar... Müttəhimlər ittihamnamədə göstərilənlərə görə yox, müdafiə etdikləri əqidələrinə görə cəzaya məruz qalacaqlar. Bu cahil və kal əqidələrin məhkəmə işinin obyektinə çevrilməsinə baxmayaraq, heç kəsin ittiham irəli sürülərkən onları hətta nəzərə çatdırmağa hüququ yoxdur.

Satış üçün nəzərdə tutulmayıb

Özünüifadənin təqib olunması məntiqli görünə bilər. Özünün haqlı olduğuna və gücünə tam əmin olan və can-başla müəyyən nəticəni əldə etmək istəyən şəxs öz istəklərinə hüquqi görünüş verir və hər hansı müxalifəti boğur. Əks fikrə dözümlülüyünüz elə təsir bağışlaya bilər ki, siz nitqləri ümumən o qədər də təsirli saymırsınız...; yaxud nəticə əldə etmək üçün can-başla çalışmırsınız, yaxud öz qabiliyyətinizə və verilmiş prinsiplərə tam əmin deyilsiniz. Lakin insanlar hadisələrin gedişi ilə artıq çox mənəmlik edən etiqadların məhv edildiyini başa düşəndə belə bir nəticəyə gələ bilərlər ki, ...ən yüksək fayda ideyaların azad mübadiləsi yolu ilə daha asan əldə olunur, həqiqət üçün ən yaxşı sınaq onun bazar rəqabəti şəraitində qəbul oluna bilmək qabiliyyətindən ibarətdir, həmçinin həqiqət üzərimizdə öz ümidlərimizi reallaşdıra biləcəyimiz yeganə təməldir. Hər halda, bizim Konstitusiyanın nəzəriyyəsi belədir. Bu, eksperimentdir, onun kimi bizim bütün həyatımız da eksperimentdir. Hər il, bəlkə də hər gün biz qeyri-mükəmməl biliklərə əsaslanan hansısa peyğəmbərliyə ümid edərək xilasımızı risk altına qoymalı oluruq.

Nə qədər ki bu eksperiment sistemimizin bir hissəsini təşkil edir, biz nifrət etdiyimiz və təhlükəli saydığımız fikirlərin azadlığının məhdudlaşdırılması cəhdlərinə qarşı daimi sayıqlığımızı qoruyub saxlamalıyıq. Əgər bu baxışlar... əsaslandırılmış real məqsədlərə müdaxilə təhlükəsi yaratmırsa və bu fikirlərin ifadə olunmasına dərhal son qoyulması ölkənin xilası üçün zəruri deyilsə, məhz yuxarıda deyilən kimi hərəkət etməliyik.

Mən hökumətin belə bir mövqeyi ilə razı deyiləm ki, guya [Konstitusiyamıza] Birinci düzəliş [Britaniya] Ümumi Hüququnun "Qiyamçı iftiralar haqqında" müddəasını qüvvədə saxlayır. Tarix bunun əksini sübut edir. Birləşmiş Ştatların bir çox illərdən sonra "Qiyamçı aksiyalar haqqında" 1798-ci il qanunu ilə çıxarılmış hökmlərə görə günahlarını etiraf etməsi və tutulmuş cərimələri geri qaytarması məndə bu əminliyi yaradır.

Yalnız zərərli çağırışlara dözümlülüyü dərhal təhlükəli edən fövqəladə şərait "Konqres söz azadlığını məhdudlaşdıran... qanunlar qəbul etməməlidir" prinsipindən kənara çəkilməyə imkan verir. Əlbəttə, mən hamısı bu cümlədə nəzərdə tutulan özünüifadə və çağırışlar azadlığı haqqında danışıram. Və çox təəssüf ki, cavabdehlərin bu hökmlə Birləşmiş Ştatların Konstitusiyasının verdiyi hüquqlardan məhrum edilməsinə tam inamımı daha təsirli sözlərlə ifadə edə bilmirəm.

Cənab hakim Brendis bu rəylə razı olduğunu bildirir.

Mənbə: 250 U.S. 616 (1919).

Satış üçün nəzərdə tutulmayıb

44. Uitni Kaliforniya Ştatına Qarşı (1927)

Kaliforniyada tanınmış bir ailənin nümayəndəsi olan Anita Uitni *(Anita Whitney)* Ştat hökumətinin fikrincə, hakimiyyətin zorla devrilməsini təbliğ edən "Kommunist Fəhlə Partiyası"nın yaradılması ilə bağlı əməllərdə ittiham edilərək bu Ştatın 1919 ildə qəbul edilmiş "Cinayət sindikalizmi haqqında" qanununa *(1919 Criminal Syndicalism Act)* əsasən məhkum edilmişdir. Uitni bildirirdi ki, nə o özü, nə də partiyanın digər təşkilatçıları həmin partiyanı zorakılıq alətinə çevirmək niyyətində olmamışdı.

Ali Məhkəmə iki səsə qarşı yeddi səs çoxluğu ilə bu hökmü təsdiq etdi. Hakim Senford çoxluq adından Məhkəmənin qərarını ifadə edərək hakim O.V.Holmsun "aşkar və qaçılmaz təhlükə haqqında" testini bu işə tətbiq etdi və daha irəli gedərək bəyan etdi ki, Ştat "düşmənçilik xarakterli bəyanatlar vermək, cinayətkarlığı qızışdırmaq, ictimai asayişi pozmaq, dövlətin əsaslarını təhlükəyə məruz qoymaq və onun devrilməsi barədə hədə-qorxu gəlmək" yolu ilə söz azadlığından sui-istifadə edənləri cəzalandırmaq səlahiyyətinə malikdir. Başqa sözlə desək, əgər birisinin sözlərində "neqativ tendensiya" varsa, bu sözlərə görə həmin şəxsi cəzalandırmaq olar.

Uitninin məsələsinin xüsusilə məşhurlaşması hakim Luis Brendisin çoxluğun fikrinə "razı fikri" ilə əlaqədardır. Hüquqşünasların çoxu Brendisin fikrini Ali Məhkəmə üzvünün söz azadlığını müdafiə etmək üçün ən bariz çıxışı hesab edirdi (xatırladaq ki, Brendis və hakim O.V.Holms öz razılıqlarını bildirmiş olsalar da, bu razılıq yalnız texniki səbəblər üzündən çoxluğun fikri ilə üst-üstə düşmüşdür, lakin mahiyyət etibarilə onların fikri Ali Məhkəmənin hakimlərinin əksəriyyətinin fikrindən kəskin fərqlənirdi).

Abramsın işində Holms söz azadlığını ümumi mənada müdafiə etməyə çalışaraq, belə hesab edirdi ki, qeyri-populyar ideyalar da "ideyalar bazarında" rəqabət aparmaq imkanına malik olmalıdır. Lakin Brendis söz azadlığının xeyrinə daha konkret dəlillər irəli sürmüşdü. Onun fikri söz azadlığı ilə demokratik proses arasında qarşılıqlı əlaqəyə əsaslanırdı. Vətəndaşlar ölkənin idarə olunması prosesində iştirak etməyə borcludurlar, lakin bu borcu yalnız o halda yerinə yetirmək olar ki, vətəndaşlar hökumətin siyasətini tənqid etdiklərinə görə təqib olunacaqlarından ehtiyat etməsinlər. Hökumət vətəndaşları qeyri-populyar ideyalar yaydığına görə cəzalandırırsa, o, azadlığı boğur, bu isə son nəticədə demokratik proseslərin boğulmasına gətirib çıxarır. Deməli, söz azadlığı nə isə mücərrəd xoş

Satış üçün nəzərdə tutulmayıb

niyyət deyil, o, demokratik cəmiyyətin əsasını yaradır.

Burada Brendis dolayısı ilə "aşkar və qaçılmaz təhlükə" haqqında testin çərçivəsindən kənara çıxır və "cavabların vaxtı" adlanan yeni testin tətbiq olunmasında israr edir: *əgər söylənilmiş ideyanı müzakirə etmək üçün tamdəyərli imkan varsa, söz azadlığından irəli gələn heç bir hədə "aşkar və qaçılmaz təhlükə" hesab edilə bilməz.* Brendis tam söz azadlığını dəstəkləyərək belə hesab edir ki, qanunverici məclislər həqiqətən təhlükəli özünüifadəni məhdudlaşdırmaq hüququna malik olsalar da, onlar bu təhlükənin təbiətini dəqiq müəyyən etməlidirlər. Qeyri-populyar ideyalar qarşısında sadəcə, qorxuya düşmək kifayət deyildir.

İyirmi il keçəndən sonra Vilyam O. Duqlas *(William O. Douglas)* deyirdi ki, əgər Brendis bir qədər çox yaşasaydı, o, heç şübhəsiz, "aşkar və qaçılmaz təhlükə" testini də lazımınca demokratik hesab etməyərək ondan imtina edərdi; Uitninin məsələsi faktiki olaraq 1950-ci və 1960-cı illərdə hakimlər Duqlas və Huqo L.Blək *(Hugo L. Black)* tərəfindən tutulan mövqeyi qabaqcadan müəyyən etmiş oldu. Onlar belə hesab edirdilər ki, söz azadlığı Konstitusiyaya I Düzəliş vasitəsilə tamamilə müdafiə olunmuşdur. Brendisin nitqinin mətni aşağıda dərc edilir. Bu nitqində o, çox uzağa getmir, amma nəticə etibarilə, onun baxışları 1969 ildə "Brandenburqun Ohayo Ştatına qarşı" işində Ali Məhkəmə tərəfindən qəbul edilmişdi.

Əlavə məlumat üçün oxuyun: Harry Kalven, Jr., A Worthy Tradition: Freedom of Speech in America (1988); Thomas Emerson, The System of Freedom of Expression (1970); Vincent Blasi, "The First Amendment and the Ideal of Civil Courage: The Brandeis Opinion in Whitney v. California", 29 William and Mary Law Review 653 (1988); Philippa Strum, Brandeis: Beyond Progressivism (1993).

UİTNİ KALİFORNİYA ŞTATINA QARŞI

Hakim Brendis razılaşır, hakim Holms da ona qoşulur.

Bu hüquq pozuntusu, qanuna görə, qəsdlər və qanunsuz toplantılarla bağlı əvvəlki cinayətlərdən kəskin fərqlənən bir cinayətdir. Sindikalizmi təbliğ edən təşkilatın formalaşmasına sadəcə, şərait yaradılması, bu cür təşkilatda iştirak etmək və ya bu məqsəd naminə başqaları ilə birləşmək halları bizdən tələb edir ki, cinayətin keyfiyyətini dinamik şəkildə qiymət-

Satış üçün nəzərdə tutulmayıb

ləndirək. Tutaq ki, müəyyən təhlükəli baxışlar söylənilmişdir, lakin cəmiyyət həmin baxışları özünün doktrinası kimi qəbul etməyə də bilər. Beləliklə, müttəhimlər hakimiyyət orqanlarının təhqir edilməsinə, ara qarışdırmağa və ya qəsdə görə deyil, ictimai asayiş üçün təhlükə yaratsa da, çox uzaq təhlükə yaradan hazırlıq hərəkətlərinə görə cəzalandırılmalıdırlar. Ştatın tətbiq etdiyi qadağanın yeniliyi ondan ibarətdir ki, burada qanun cinayətkar sindikalizm praktikasına qarşı və hətta onun bilavasitə təbliğ edilməsinə qarşı deyil, cinayətkar sindikalizmin təbliğ olunmasını təklif edənlərlə hər hansı şəkildə birləşməyə qarşı yönəlmişdir.

Bunun əksi barədə çox inandırıcı dəlillər olmasına baxmayaraq aşkardır ki, Konstitusiyaya XIV Düzəlişin "lazımi məhkəmə proseduru" barədə müddəası prosedur xarakterli məsələlərlə yanaşı, həm də maddi hüquqla *(substantive law)* əlaqədar məsələlərə də şamil edilir. Beləliklə, azadlıq anlayışının əhatə etdiyi bütün əsas hüquqlar onlara ştatlar tərəfindən müdaxilədən Federal Konstitusiya vasitəsilə qorunur. Əlbəttə, söz azadlığı, hər hansı ideyaları yaymaq hüququ əsas hüquqlardandır. Vətəndaşları bu hüquqlardan məhrum etmək və onları məhdudlaşdırmaq olmaz. Lakin söz azadlığı və yığıncaqlar azadlığı əsas hüquqlar olduğuna baxmayaraq, onlar öz təbiətlərinə görə mütləq hüquqlar deyil. Əgər həmin hüquqların həyata keçirilməsinin məhdudlaşdırılması dövlətin parçalanmaqdan və ya siyasi, iqtisadi, yaxud mənəvi xarakterli ciddi ziyandan müdafiə edilməsi üçün zəruri olarsa, onda həmin hüquqların həyata keçirilməsi məhdudlaşdırıla bilər. Lakin aydındır ki, söz azadlığı, qarşısının alınması dövlətin konstitusion borcu olan müəyyən real, aşkar və qaçılmaz təhlükə yaranmasına gətirib çıxara bilməzsə, məhdudiyyət tətbiq edilməsinə haqq qazandırıla bilməz...

Qanunvericilik məclisinin funksiyası ondan ibarətdir ki, müəyyən konkret vaxtda və müəyyən konkret şəraitdə cinayətkar sindikalizmi təbliğ edən təşkilatın yaradılmasının və ya bu cür təşkilatda iştirakın "real ziyan vura biləcək aşkar və qaçılmaz təhlükə" olub-olmadığını müəyyənləşdirsin. Kaliforniya qanunvericilik məclisi burada nəzərdən keçirilən qanunu qəbul etməklə həmin suala təsdiq cavabı vermişdir... Şübhə yoxdur ki, qanunverici orqan ilk növbədə xüsusi müdafiə tədbirləri görülməsini tələb edən təhlükənin mövcud olub-olmamasını qət etməlidir. Lakin qanun yalnız müəyyən faktlar mövcud olduqda işlədiyi halda bu cür qanunun qəbul edilməsi faktının özü hələ o demək deyildir ki, bu cür faktlar artıq mövcuddur. Qadağanedici qanunlar dəfələrlə yanlış tətbiq edilmişdir, çox vaxt konkret iqtisadi fəaliyyətlə bağlı hallarda azadlığın məhdudlaşdırılması zəruri olmamışdır. Lakin söhbət əmlak hüquqlarından deyil, söz azadlığı

Satış üçün nəzərdə tutulmayıb

və yığıncaqlar azadlığı kimi əsas şəxsi hüquqlardan gedəndə məhkəmələrin səhv qanunları ləğv etmək səlahiyyətləri də eyni dərəcədə mübahisəsizdir.

Bu Məhkəmə hələlik elə bir standart müəyyən etməmişdir ki, ona əsasən mövcud təhlükənin reallığını; bu təhlükənin uzaq da olsa, hər halda mövcud olmasını; söz və yığıncaq azadlığının məhdudlaşdırılmasına haqq qazandırmaq üçün ziyanın hansı dərəcəsinin kifayət qədər ciddi hesab edilə biləcəyini təyin etmək mümkün olsun. Bu məsələlər barədə düzgün nəticəyə gəlmək üçün biz yadda saxlamalıyıq ki, dövlətə çoxluq tərəfindən yanlış və təhlükəli hesab etdikləri sosial, iqtisadi və siyasi doktrinaların yayılmasını qadağan etmək hüququ verilməyib.

Müstəqilliyimizi qazananlar belə hesab edirdilər ki, dövlətimizin son məqsədi – onun vətəndaşlarının öz qabiliyyətlərini inkişaf etdirə bilmələri üçün onlara tam azadlıq verməkdən ibarətdir; onlar hesab edirdilər ki, dövlətin idarə edilməsi prosesində güc tətbiq edilməsi metodlarına deyil, məşvərət metodlarına üstünlük verilməlidir. Onlar azadlığı həm məqsəd, həm də məqsədə çatmaq üçün vasitə hesab edirdilər. Onlar hesab edirdilər ki, "xoşbəxtliyin açarı azadlıq, azadlığın açarı isə igidlikdir"[93]. Onlar hesab edirdilər ki, istədiyin kimi düşünmək və düşündüyün kimi danışmaq imkanı siyasi həqiqətin axtarılması və yayılması üçün əvəzedilməz vasitələrdir; söz azadlığı və yığıncaq azadlığı olmasa, hər hansı müzakirə faydasızdır; bu cür azadlıqlar olduqda müzakirə təhlükəli doktrinaların yayılmasından etibarlı müdafiə vasitəsidir; azadlıq üçün ən böyük təhlükə xalqın ətalətli olmasıdır; *ictimai debatlar siyasi borcdur* və Amerika siyasi sisteminin əsas prinsipi məhz bundan ibarətdir.

Onlar bilirdilər ki, insan tərəfindən yaradılan bütün təsisatlar riskə məruz qalırlar. Lakin onlar bunu da bilirdilər ki, asayişi təkcə cəza təhdidi vasitəsilə təmin etmək mümkün deyil; təfəkkürün, ümidin və təxəyyülün boğulması təhlükəlidir; *qorxu əsarət doğurur, əsarət nifrət doğurur, nifrət dövlətin sabitliyi üçün təhlükədir və təhlükəsizliyin təmin edilməsi yolu – problemlərin və onların həlli vasitələrinin sərbəst müzakirəsidir.* Onlar ictimai diskussiyaların gedişində tətbiq edilən zəkanın qüvvəsinə inanaraq qanunun zorla qəbul etdirdiyi qaradinməzlikdən yan keçirdilər; onlar bunu "güc arqumenti"nin ən pis təzahürü hesab edirdilər. Onlar çoxluğun kortəbii şəkildə yaranan tiraniyasının təhlükəli nəticələrini başa düşərək, Konstitusiyanı elə dəyişdilər ki, söz və yığıncaq azadlığına təminat verilsin.

Ziyan vurula biləcəyindən qorxmaq, öz-özlüyündə, söz azadlığının və yığıncaqlar azadlığının boğulmasına haqq qazandıra bilməz. İnsanlar əcinnələrdən qorxur və qadınları yandırırdılar. Sözün vəzifəsi – insanları

Satış üçün nəzərdə tutulmayıb

bu cür irrasional qorxu buxovlarından azad etməkdir. Söz azadlığının boğulmasına haqq qazandırmaq üçün söz azadlığının həyata keçirilməsinin ciddi ziyan vuracağını təsdiq edən ciddi dəlillər olmalıdır. Yaranmış təhlükənin qaçılmaz olduğunu güman etmək üçün ciddi əsaslar olmalıdır. Aradan qaldırılmalı təhlükənin həqiqətən ciddi olmasından ehtiyat etmək üçün tutarlı dəlillər olmalıdır. Qüvvədə olan qanunun ünvanına hər bir tənqidi qeyd, müəyyən mənada, həmin qanunun pozulması ehtimalını artırır. Qanun pozuntularına qarşı dözümlülük də bu ehtimalı artırır. Bu cür pozuntuların bəyənilməsinin ifadə edilməsi də bu ehtimalı artırır. Beləliklə, sindikalizmin öyrədilməsi yolu ilə cinayətkar davranışın təbliğ edilməsi bu ehtimalı artırır. Hüquq pozuntularını dəstəkləyən çıxışlar həmin ehtimalı daha çox artırır. Lakin hüquq pozuntuları mənəvi baxımdan nə qədər qüsurlu olsalar da, əgər onların dəstəklənməsi barədə çıxışlar cinayətkar əməllərə sövq etmirsə və bu təbliğatdan sonra dərhal hərəkət ediləcəyini göstərən heç bir əlamət yoxdursa, həmin çıxışlar söz azadlığının məhdudlaşdırılması üçün əsas deyildir. Nəzərə almaq lazımdır ki, "təbliğat" və "araqızışdırıcılıq" arasında, "hazırlıq" və "cəhd" arasında, "toplantı" ilə "qəsd" arasında çox böyük fərq var. Aşkar və qaçılmaz təhlükə barədə qorxuları təsdiq etmək üçün göstərmək lazımdır ki, ya ciddi zorakılıq baş verə bilərdi və ya bu cür zorakılıq barədə çağırışlar olmuşdur, ya da əvvəllər baş vermiş hallar belə güman etməyə əsas verir ki, bu cür təbliğat zorakılığa gətirib çıxara bilər.

Müstəqilliyimizi inqilabi yolla əldə edənlər qorxaq adamlar olmamışdır. Onlar siyasi dəyişikliklərdən qorxmurdular və azadlıq bahasına asayiş yaratmağa can atmırdılar. Cəsur və müstəqil, xalq üsul-idarəsi prosesində tətbiq edilən azad və qorxubilməz zəkanın qüdrətinə inanan insanlar üçün söz azadlığından irəli gələn heç bir təhlükə, həmin təhlükənin söylənilmiş ideyaları tamdəyərli müzakirə etmək imkanı yaranmazdan daha əvvəl gerçəkləşə biləcəyi dərəcədə yaxın olduğu hallar müstəsna olmaqla, aşkar və qaçılmaz təhlükə hesab edilə bilməzdi. Elə bir vaxt gəlsə ki, müzakirə sayəsində yanlış qərarları və yanılmaları ifşa etmək mümkün olacaq, savad sayəsində şərin qarşısını almaq mümkün olacaq, onda yəqin ki, belə hallarda əsas vasitə güc tətbiq edilməklə bərqərar olmuş sakitlik deyil, söz azadlığı olacaqdır. Repressiyaya yalnız fövqəladə hallar haqq qazandıra bilər. Biz hakimiyyətlə azadlığı barışdırmaq istəyiriksə, onda qayda belə olmalıdır. Fikrimcə, Konstitusiyamız məhz bunu tələb edir. Deməli, söz və yığıncaq azadlığının məhdudlaşdırılması üçün kifayət qədər əsas olmadığı halda onları məhdudlaşdıran qanuna şübhə etməyə hər bir amerikalının haqqı var.

Satış üçün nəzərdə tutulmayıb

Üstəlik, əgər gözlənilən ziyan həqiqətən ciddi ziyan deyildirsə, onda səmərəli demokratiya üçün zəruri olan bu funksiyaların qadağan edilməsinə hətta yaranmış təhlükə də haqq qazandıra bilməz. Söz və yığıncaq azadlığının qadağan edilməsi o qədər ciddi tədbirdir ki, cəmiyyətə dəyə biləcək cüzi ziyanın qarşısını almaq üçün həmin tədbirdən istifadə edilməsi səhv olardı. Zorakılıq tədbirləri heç olmazsa ona görə konstitusiyaya zidd ola bilər ki, bu cür tədbirlər cəmiyyəti nə qədər səmərəli qorusalar da, onlar hədsiz sərt və amansız tədbirlərdir. Eyni qayda ilə, bir vətəndaşın başqa bir vətəndaşın mülkünün ərazisinə hər hansı şəkildə daxil olmasının nəticələrindən, niyyətlərindən və məqsədlərindən asılı olmayaraq, Ştat, asayişi qorumaq üçün, bu cür daxilolmanı cinayət hesab edə bilər. Ştat bu cür daxilolma "cəhdinə", "qəsdinə" və ya "təhrikçiliyə" görə də həmin insanı cəzalandıra bilər. Tutaq ki, bir cəmiyyətin yığıncağında piyadaların nişanlanmamış, hasarlanmamış, boş bir əraziyə daxil olmağa mənəvi haqqı olması təbliğ və müdafiə olunur; tutaq ki, bu cəmiyyətin apardığı təbliğatın nəticəsində xüsusi mülkiyyətə müdaxilə edilməsinə gətirib çıxara biləcək təhlükə mövcuddur, buna baxmayaraq insanı yalnız həmin yığıncaqda könüllü iştirak etməsinə görə cəzalandıran qanunun bu Məhkəmə tərəfindən konstitusion qanun hesab edilməsini təsəvvür etmək çətindir.

Deyilmiş sözün zorakılıq doğura biləcəyi və ya xüsusi mülkiyyətə ziyan vura biləcəyi ehtimalı söz azadlığının məhdudlaşdırılmasına haqq qazandırmaq üçün hələ kifayət deyil. Buna haqq qazandırmaq üçün Ştata ciddi ziyan vurulması ehtimalı olmalıdır. Azad insan üçün onu hüquq pozuntusundan çəkindirən adi amil – həmin insanın söz və yığıncaq azadlığının məhdudlaşdırılması deyil, savadı və qanunu pozulmasına görə cəzadır.

Kaliforniyada qəbul edilmiş qanun Ştat Konstitusiyasının fövqəladə hallara dair qanunvericilik haqqında tələbinə uyğundur. Lakin bu, indiki anda və indiki şəraitdə Federal Konstitusiyaya müvafiq olaraq həmin qanunun tətbiq edilməsi üçün zəruri şəraitin mövcud olub-olmaması barədə araşdırmalar aparmağın mümkünlüyünü istisna etmir. İlk baxışda yaxşı təsir bağışlayan qanunun tətbiqi zamanı onun çatışmazlıqları aşkar edilə bilər və onun konstitusion ekspertizası həmin qanunun tətbiq edildiyi işdə konkret faktların olub-olmamasından asılıdır. Söz və yığıncaq azadlığının ehtimal edilən məhdudlaşdırılması olduqda Ştat sübut etməyə borcludur ki, bu məhdudlaşdırma həmin anda aşkar təhlükə olması üzündən tətbiq edilmişdir; əgər bu təhlükə ümumiyyətlə mövcud olmuşdursa, Ştat sübut etməlidir ki, bu təhlükə qaçılmaz olmuşdur və gözlənilən ziyan o qədər ciddi olmuşdur ki, qanunverici məclis tərəfindən tətbiq olunmuş sərt məhdudiyyətlərə əsas verirdi. Kaliforniyanın qanunverici məclisi tərəfindən

Satış üçün nəzərdə tutulmayıb

qəbul edilmiş və Ştatın Ali Məhkəməsi tərəfindən dəstəklənmiş qanun yuxarıda göstərilən şərtlərin yerinə yetirilməsinə şübhə etməyə imkan verir.

Bu işə baxılarkən 1919 ildə – miss Uitni onun məhkəməyə cəlb edilməsi ilə nəticələnmiş hərəkətləri etdiyi vaxt Kaliforniyada aşkar və qaçılmaz əhəmiyyətli zərər vurulması təhlükəsinin mövcud olub-olmadığını aydınlaşdırmaq zəruridir. O tələb edə bilərdi ki, məsələ ya məhkəmə tərəfindən, ya da andlı iclasçılar tərəfindən həll edilsin. O bildirmişdi ki, onun barəsində tətbiq edilmiş qanun Federal Konstitusiyaya ziddir, lakin o iddia etmirdi ki, bu qanun tətbiq edilə bilməz, çünki bu halda aşkar və qaçılmaz əhəmiyyətli ziyan təhlükəsi yox idi. Miss Uitni həmçinin tələb etməmişdir ki, məhkəmə və ya andlılar onun işində tətbiq edilmiş qanunun söz azadlığını və ya yığıncaq azadlığını məhdudlaşdırmış olduğunu etiraf etsinlər.

Digər tərəfdən, işdə olan sübutlar əsasında məhkəmə və ya andlılar bu cür aşkar və qaçılmaz təhlükənin mövcud olmasını etiraf etməli idilər. Mən Məhkəmənin bu fikri ilə razılaşa bilmərəm ki, uzaq gələcəkdə kütləvi aksiyalar yolu ilə proletar inqilabı arzusunu müdafiə etmək üçün yaradılmış siyasi partiyada üzvlük hüququnun Konstitusiyaya XIV Düzəlişlə qorunan hüquq deyildir, lakin bu işdə hər halda "Dünya Fəhlələrinin Beynəlxalq İttifaqı" partiyasının üzvlərinin bu cür ağır cinayətlər törətmək barədə gizli niyyətlərinin mövcud olmasını göstərən başqa sübutlar vardı; bir nümayəndəsi də miss Uitni olan təşkilatın öz fəaliyyəti ilə bu cür niyyətləri rəğbətləndirəcəyini göstərən dəlillər də vardı. Bu şəraitdə Ştatın qərarı ləğv edilə bilməz.

Bizim bu işə baxmaq səlahiyyətimiz… təkcə Federal Konstitusiyada təminat verilən hüquqlardan imtina edilib-edilməməsi məsələsi ilə deyil, miss Uitni tərəfindən lazımi qaydada təqdim edilmiş konkret iddiaların rədd edilməsi ilə məhdudlaşır. Biz burada, bəzən aşağı instansiya məhkəmələrinin kriminal işlərə dair qərarlarında kobud səhvə yol verilib-verilmədiyini yoxlayarkən malik olduğumuz səlahiyyətlərə malik deyilik, hərçənd məhkəmə prosesinin gedişində heç bir şikayət verilməmişdir. Biz ehtimal edilən səhvlərə baxmaqla məşğul ola bilmərik, buna görə də mən razıyam ki, Ştat məhkəməsinin qərarı təsdiq edilməlidir.

Mənbə: 274 U.S. 357 (1927)

Satış üçün nəzərdə tutulmayıb

45. Niar Minnesota Ştatına Qarşı (1931)

Konstitusiyaya I Düzəliş nəinki söz azadlığını müdafiə edir, həm də mətbuat azadlığının dəqiq hüdudlarını müəyyənləşdirir. Mətbuat azadlığı sahəsində müasir Amerika hüququ "Niar Minnesota Ştatına qarşı" adlı məşhur işlə başlanır. Faktiki olaraq bu işdə Con Miltondan[94] başlamış Bləkstouna[95] və O.U. Holmsa qədər mətbuat azadlığına baxışların bütün inkişaf tarixi əks olunmuşdur.

Minnesota Ştatında qəbul olunmuş qanuna görə, ictimai asayişin pozulması hesab edilən "kinli, qalmaqallı və böhtanlı" *(malicious, scandalous or defamatory)* materialların dərc edilməsinə məhdudiyyət qoymaq, bu cür materialların dərc edilməsinin qarşısını almaq olardı. Bu tədbir məxsusi olaraq, şayiələr yaymaqla yanaşı, yerli siyasətçiləri və biznesmenləri ifşa edən biabırçı faktlar da dərc edən "Sətidey Press" adlı bulvar qəzetinə qarşı yönəlmişdi. Ştatın məhkəmələri bu qəzetin dərc olunmasına "məhdudiyyəti" məmnuniyyətlə tətbiq etdilər. Onda qəzet Birləşmiş Ştatların Ali Məhkəməsinə apelyasiya şikayəti verərək bildirdi ki, onun Konstitusiyaya Birinci düzəlişlə təminat verilən hüquqları pozulmuşdur.

Bu iş barəsində Ali Məhkəmənin qərarı iki nöqteyi-nəzərdən əhəmiyyətlidir. Əvvələn, bu iş Hüquqlar haqqında Billdə nəzərdə tutulan təminatların təkcə federal hakimiyyətə deyil, həm də ştatların hakimiyyətinə şamil edilməsi barədə bir neçə il əvvəl başlanmış işin davamı idi. Bu proses aşağıdakı qaydada əsaslandırılırdı: düzdür, Konstitusiyaya I Düzəlişdə göstərilir ki, "Birləşmiş Ştatların Konqresi ..... məhdudlaşdıran qanunlar qəbul edə bilməz", lakin bundan başqa Ali Məhkəmə özünün bir sıra qərarlarında qət etmişdi ki, lazımi məhkəmə proseduru barədə Konstitusiyaya XIV Düzəlişin müddəası Hüquqlar haqqında Billin müddəalarını da əhatə edir və buna görə də həmin müddəaların ştatlara münasibətdə tətbiq olunmasını nəzərdə tutur. Nəticədə Konstitusiyaya I Düzəliş hazırda faktiki olaraq belə səslənir: "İstər ABŞ Konqresi, istərsə də ştatların qanunvericilik məclisləri ..... məhdudlaşdıran qanunlar qəbul edə bilməzlər".

İkincisi, Ali Məhkəmə mətbuat azadlığı haqqında Konstitusiya müddəasının mənasını açıqlayaraq qərara almışdır ki, hökumət mətbuatda materialların dərc olunmasına ilkin məhdudiyyətlərin tətbiq olunması səlahiyyətinə malik deyildir, yəni dövlət mətbuatı senzuraya məruz qoymaq və materialla-

Satış üçün nəzərdə tutulmayıb

rın dərc edilməsinin qarşısını almaq hüququna malik deyildir. Doğrudur, bu o demək deyildir ki, yanlış və böhtan xarakterli materialların dərc edilməsinə görə qəzeti məsuliyyətə cəlb etmək olmaz, lakin bu məsələ məhkəmədə həll edilməli və həmin məhkəməyə müvafiq sübutlar təqdim olunmalıdır. İcra hakimiyyəti hər hansı materialların böhtan xarakterli olması barədə qərar çıxarmaq və bu səbəbdən həmin materialların dərc olunmasını dayandırmaq səlahiyyətinə malik deyildir.

Ali Məhkəmənin bu qərarı hər hansı yeni qanun qəbul edilməsi ilə nəticələnmədi, lakin həmin qərar mətbuat azadlığı barəsində əvvəlki anlayışı daha da genişləndirdi və bir daha təsdiq etdi. Ali Məhkəmənin sədri Hyuz *(Hughes)* özünün müsbət qərarında Bləkstounun bu fikrini sitat gətirmişdi ki, "mətbuat azadlığı artıq dərc edilmiş olan cinayətkar məzmunlu materialların dərc edilməsinə görə təqibin olmamasından ibarət deyil, hər hansı ilkin məhdudiyyətlərin olmamasından ibarətdir".

Əlavə məlumat üçün oxuyun: Fred W. Friendly, Minnesota Rag (1981); E. Greald, The Press and the Constitution, 1931-1947 (1948); Harry Kalven, Jr. A Worthy Tradition: Freedom of Speech in America (1988).

NİAR MİNNESOTA ŞTATINA QARŞI

Ali Məhkəmənin Sədri Hyuz məhkəmənin rəyini açıqladı.

Bu məsələ ilə bağlı prosedur detalları nəzərə alınmasa, onda nəzərdən keçirilən qanunun mahiyyəti və nəticəsi bundan ibarətdir ki, hər hansı qəzet və ya digər dövri nəşr qalmaqallı və böhtan xarakterli (məsələn, dövlət qulluqçularını vəzifə cinayətləri törətməkdə günahlandıran) materiallar dərc etdiyinə görə iqtidar onu məhkəməyə verə bilər və əgər həmin nəşrin sahibi və ya naşir bu materialların həqiqət olduğunu inandırıcı şəkildə göstərən sübutlar təqdim etmək iqtidarında deyildirsə və ya bunu etmək istəmirsə, onda onun qəzeti və ya dövri nəşri qadağan olunur, həmin qəzetin və ya dövri nəşrin gələcəkdə çap olunması isə hüquq pozuntusu sayılır. Lakin mahiyyət etibarilə bu elə senzuradır.

Satış üçün nəzərdə tutulmayıb

Söhbət hər hansı materialların dərc edilməsi ilə bağlı məhdudiyyətlər prosedurunu həyata keçirməyə imkan verən qanunun tarixən qəbul edilmiş və təminat verilmiş mətbuat azadlığı konsepsiyasına müvafiq olub-olmamasından gedir. Konstitusion müdafiə dərəcəsi müəyyən edilərkən demək olar, hər yerdə belə hesab edilirdi ki, bu zəmanətin əsas məqsədi materialların dərc edilməsi ilə bağlı ilkin məhdudiyyətlərin qarşısını almaqdan ibarətdir. İngiltərədə senzorların qanunla tətbiq edilmiş hakimiyyətinə qarşı mübarizə mətbuatda senzuranın ləğvi ilə başa çatdı[96]. Bləkstoun mətbuat azadlığının zəruriliyini və onun mahiyyətini belə təsvir etmişdir: "Mətbuat azadlığı azad dövlət üçün son dərəcə zəruridir; lakin mətbuat azadlığı cinayətkar xarakterli materialların dərc edilməsinə görə cəzanın olmaması demək deyil, yalnız hər hansı ilkin məhdudiyyətlərin olmaması deməkdir. Hər bir azad insanın öz baxışlarını ictimaiyyət qarşısında ifadə etmək hüququna malik olması mübahisəsizdir və bunun qadağan edilməsi mətbuat azadlığını boğmaq deməkdir. Lakin əgər dərc edilən materiallar yalan, zərərli və qanunsuz materiallardırsa, onda naşir özünün düşüncəsizliyinə görə məsuliyyət daşımalıdır". Bləkstounun bu bəyanatının bəzi şərhçilər tərəfindən tənqid edilməsi heç də onunla bağlı deyildi ki, "ilkin məhdudiyyətlərdən azad edilmə" bəlli və xüsusi diqqətə layiq olan ideya sayılmırdı. Bu tənqid əsasən onunla əlaqədar idi ki, bu cür azad edilmə Ştatın Konstitusiyası və Federal Konstitusiya ilə təminat verilən azadlıq konsepsiyasını tam əhatə etmirdi...

Bundan əlavə, bəziləri etiraz edərək bildirirdilər ki, Bləkstoun ilkin məhdudiyyətlərdən azad edilmə məsələsini həddən artıq geniş şərh etmişdir. Belə çıxırdı ki, hər hansı ilkin məhdudiyyətlər qadağan olunmalıdır. Doğrudan da bu tənqid əsaslı idi. Mətbuatın hətta ilkin məhdudiyyətlərdən müdafiə edilməsi hədsiz deyildir və buna yalnız müstəsna hallarda yol verilə bilər. Heç kəs mübahisə etməz ki, hakimiyyət silahlı qüvvələrin yaraqlanmasına mane olan hərəkətlərin qarşısını almaq və ya hərbi nəqliyyatın yerdəyişməsi, qoşunların sayı və olduğu yer barədə məlumatların dərc olunmasını qadağan etmək hüququna malikdir. Eyni qayda ilə, təhqiramiz materiallar dərc edilərkən ən adi abır-həya normalarına riayət etmək yaxşı olardı. İctimai həyatın təhlükəsizliyi yalnız o halda qoruna bilər ki, qanuni hakimiyyəti zorla devirmək və ya zorakılıq tətbiq edilməsi barədə çağırışlar olmasın... Lakin yuxarıda göstərilən ilkin məhdudiyyətlər burada nəzərdən keçirilən işlərə tətbiq edilə bilməz.

Yuxarıda göstərilən məhdudiyyətlərin müstəsna təbiəti tarixən Federal Konstitusiyada təsbit edilmiş söz azadlığının ümumi konsepsiyasını məxsusi vurğulayır. Bu konsepsiyaya görə, mətbuat azadlığı, həmişə olmasa da, mətbuatın ilkin məhdudiyyətlərdən, yəni senzuradan azad olmasını

Satış üçün nəzərdə tutulmayıb

nəzərdə tutur. Fəaliyyətləri və davranışı ictimai müzakirə və mətbuatda sərbəst debatların mövzusu olan dövlət qulluqçuları saxta ittihamlardan qəzetlərin və dövri nəşrlərin fəaliyyətini məhdudlaşdıran hərəkətlər vasitəsilə deyil, onlara vurulmuş ziyanın ödənilməsini və müvafiq cəza tədbirləri görülməsini nəzərdə tutan böhtan haqqında qanunlarla müdafiə olunurlar. Mətbuat azadlığından qatı qalmaqalçılar da istifadə edə bilər, lakin təkcə buna görə, məmurların vəzifə cinayətləri barəsində materialları dərc edən mətbuata ilkin məhdudiyyətlər qoymaq olmaz. Bu cür materialların dərc edilməsindən müdafiə olunmaq üçün Konstitusiyaya zidd olmayan müvafiq tədbirlər vardır.

Qanunda naşirə icazə verilmişdir ki, o, məhkəmənin qadağan barədə hökmü çıxarılmadan dərc edilmiş materiallarının həqiqətə uyğun olmasını, onların xoş niyyətlərlə və bəraət qazandırıla biləcək məqsədlərlə çap olunmasını göstərsin. Lakin təkcə buna görə bu qanuna haqq qazandırıla bilməz.

Əgər bu cür qanun həqiqi qanun hesab edilərsə, qanunverici məclis "lazımi məhkəmə proseduru" barədə konstitusion tələbi bir kənara qoyaraq, qərar qəbul edə bilər ki, qəzetin naşirini istənilən vaxtda məhkəmə və ya hər hansı məmur qarşısında cavab verməyə məcbur etmək və naşirdən tələb etmək olar ki, ya dərc etdiyi məlumatların və ya yalnız dərc etmək niyyətində olduğu məlumatların həqiqiliyini təsdiqləyən dəlillər təqdim etsin, bu materialın xoş niyyətlə dərc edilməsini təsdiq etsin, ya da onun qəzeti qadağan olunsun. Bunu fərz etsək, qanunverici məclis bəraət verilən məqsədləri özbaşına təyin etmək mexanizminə çevrilər və buna müvafiq olaraq, nəşrləri məhdudlaşdıra bilər. Bu isə tam senzura tətbiq edilməsi istiqamətində bir addım atılmasından başqa heç nə olmayacaqdır.

Yuxarıda deyilənlərə əsasən, biz belə hesab edirik ki, qanun bu işə aid hissədə Konstitusiyaya XIV Düzəlişlə zəmanət verilən mətbuat azadlığını pozur...

Qərar ləğv edilir.

Mənbə: 283 U.S. 697 (1931).

Satış üçün nəzərdə tutulmayıb

46. Qərbi Virciniya Ştatının Təhsil Şurası Barnettə Qarşı (1943)

Konstitusiyaya I Düzəlişdə din haqqında iki müddəa var. Onlardan biri hər hansı rəsmi dinin hökumət tərəfindən təyin edilməsini qadağan edən "dinin təyin edilməsi haqqında" müddəadır *(establishment of religion)* (bax: bu kitabda növbəti material); ikinci müddəa – "icra azadlığı" haqqında müddəadır *(free exercise)*. Bu müddəa dini mərasimlərin icrası azadlığının hökumət tərəfindən məhdudlaşdırılmasını qadağan edir. "İcra azadlığı" tələbi qismən "öz fikrini ifadə etmək azadlığı" tələbləri ilə üst-üstə düşür. Beləliklə, dini hüquqlarla bağlı bəzi mühüm məhkəmə işlərində "söz azadlığı" və "icra azadlığı" vahid bir tamın hissələri kimi hesab edilirdi.

Din sahəsində hüququn əsas elementi ilk dəfə 1879-cu ildə Ali Məhkəmənin sədri Morrison Ueyt *(Morrison Waite)* tərəfindən ifadə edilmiş "etiqad" və "fəaliyyət" arasında dəqiq həddqoyulmasıdır. Konstitusiyaya I Düzəlişdə dini etiqad azadlığının hökumət tərəfindən məhdudlaşdırılması birmənalı şəkildə qadağan edilməsinə baxmayaraq, bu Düzəliş İctimai asayişə və təhlükəsizliyə təhlükə doğuran hərəkətlərə ştatlar tərəfindən qadağan qoyulmasını istisna etmir. Ueyt nümunə kimi göstərirdi ki, əgər müəyyən təriqətin üzvləri insanın qurban kəsilməsinə inanırlarsa, hökumət bu inamı məhdudlaşdıra bilməz, lakin eyni zamanda hökumət, dini etiqad azadlığı haqqında müddəanı pozmadan, qurban kəsilməsinin özünü qadağan edə bilər. "Etiqad"a və "fəaliyyət"ə münasibətin müxtəlif olması prinsipinin bu günə qədər öz aktuallığını saxlamasına baxmayaraq, Ali Məhkəmə etiraf etməyə başlamışdır ki, bəzi hallarda bu anlayışlar üst-üstə düşür.

Yehova Şahidləri sektası Birləşmiş Ştatlarda nisbətən kiçik sektadır, lakin dini azadlığın təşəkkül tapmasına şərait yaratmış bir sıra mühüm məhkəmə işləri məhz bu sekta ilə bağlıdır. Yehova Şahidləri Ştatın hakimiyyət orqanları tərəfindən hər hansı nəzarət olmadan öz etiqadlarını əhali arasında təbliğ etmək hüququnu *(right to proselytize)* (yəni "fəaliyyət azadlığını") müdafiə edirdilər. Onlar bu cür təbliğatı öz əqidə azadlıqlarını (yəni "etiqad azadlığı"nı) həyata keçirmək üçün zəruri hesab edirlər. Ali Məhkəmə bəzi işlərdə sektanın bu tələblərini dəstəkləmişdir. Hərçənd, bu halda Məhkəmə Dini Etiqad Azadlığı haqqında müddə-

Satış üçün nəzərdə tutulmayıb

alardan daha çox, söz azadlığı haqqında müddəalara əsaslanırdı. Bununla belə, Məhkəmənin bu qərarları dini etiqad azadlığı sahəsində müasir hüququn təməlini qoymuş oldu.

Dini mərasimlərin icra edilməsi azadlığı ilə bağlı ilk işlərdən ən məşhuru Yehova Şahidləri sektasının Amerika bayrağını salamlamaqdan imtina etməsi nəticəsində yaranmışdır[97]. Sekta hər hansı təsvirlərə pərəstiş edilməsinin Bibliyada qadağan olunmasını hərfi mənada yozaraq, belə hesab edir ki, bayraq da bu cür təsvirdir. "Maynersvill dairə məktəbi Qobitisə qarşı" (1940) işdə hakim Feliks Frankfurter *(Felix Frankfurter)* məktəb müdiriyyətinin belə bir tələbini dəstəkləmişdir ki, bütün şagirdlər səhərlər bayrağın salamlanması mərasimində iştirak etməyə borcludurlar. Frankfurter sekta üzvlərinin dini mərasimlərin icra edilməsi azadlığı iddialarını demək olar ki, tamamilə rədd edərək əlavə etmişdir ki, vətəndaşlıq borcu dini etiqadlardan daha vacibdir. Qeyd etmək lazımdır ki, Qobitisin işi üzrə qərar qəbul edilərkən Avropa artıq müharibədə, Birləşmiş Ştatlar isə fəal silahlanmaqda idi. Bu dövrdə vətənpərvərlik hissləri çoxlarının, o cümlədən Ali Məhkəmənin səkkiz üzvünün qəlbinə hakim kəsilmişdi. Yalnız hakim Harlan Fisk Stoun *(Harlan Fiske Stone)* öz narazılığını ifadə edərək bildirmişdi ki, bayrağı salamlamağa məcbur etmək – din və söz azadlığının pozulması deməkdir.

Sektanın üzvləri kompromisə getməkdən imtina etdilər və cəmiyyətdə onlara ifrat dərəcədə düşmən münasibət bəslənilməsinə baxmayaraq onlar öz dini əqidələrindən geri çəkilməyə hazırlaşmırdılar. Lakin Amerikanın müharibəyə qoşulması ilə əlaqədar güclənmiş vətənpərvərlik ab-havasında Yehova Şahidləri öz etiqadlarını müdafiə etmək üçün çox məhrumiyyətlərə dözməli olmuşdular: məhrumiyyətlərin qanunsuz təqib edilməsi, o cümlədən sekta üzvlərinə çoxsaylı fiziki təzyiq göstərilməsi halları qeydə alınmışdır. Bununla belə, sekta üzvlərinin hər yerdə təqibə məruz qalması tezliklə cəmiyyətdə "yəhudi probleminin birdəfəlik həll edilməsi üçün" Hitlerin tətbiq etdiyi üsullar barədə Avropadan gələn məlumatlarla assosiasiya edilməyə başladı.

Nəticədə Ali Məhkəmə bayrağın salamlanması ilə bağlı daha bir işi baxılmaq üçün qəbul etdi. Lakin bu dəfə məhkəmə tamam əks qərar qəbul etdi. Hakim Cəkson *(Jackson)* Holmsun "aşkar və qaçılmaz təhlükə haqqında" testindən istifadə edərək bu qənaətə gəlmişdi ki, sekta üzvlərinin bayrağı salamlamaqdan imtina etməsi heç kəsə zərər vurmamış, heç kəsin hüquqlarını pozmamış və ictimai asayiş üçün təhlükə yaratmamışdır. Konstitusiyaya I Düzəlişin müəlliflərinin bir

Satış üçün nəzərdə tutulmayıb

niyyəti bəlkə də heç bir başqa işdə bu dərəcədə dəqiq açıqlanmamışdır ki, dini etiqad azadlığı təkcə dövlət tərəfindən təyin edilmiş kilsənin olmaması demək deyildir, bu həm də o deməkdir ki, hər bir vətəndaş, başqalarının hüquqlarını pozmamaq şərtilə, öz mülahizəsinə görə, nəyə istəsə sitayiş edə də bilər, etməyə də bilər. Cəksonun fikrincə, demokratiya təkcə əksəriyyətin müxtəlif etiqadlara münasibətdə dözümlü olmasını deyil, həm də azlıqların cəmiyyət qarşısında heç bir qorxu hiss etmədən öz etiqadlarından irəli gələn tələbləri yerinə yetirməkdə qeyri-məhdud sərbəstliyə malik olmasını tələb edir .

Əlavə məlumat üçün oxuyun: David Manwaring, Render Unto Ceasar: The Flag Salute Controversy (1962); Leo Pfeffer, Curch, State and Freedom (1967 rev. ed.).

QƏRBİ VİRCİNİYA ŞTATININ TƏHSİL ŞURASI BARNETTƏ QARŞI (1943)

Hakim Cəkson Ali Məhkəmənin rəyini açıqladı.

Birləşmiş Ştatların və Qərbi Virciniyanın apelyasiya üzrə cavabdeh olan vətəndaşları Birləşmiş Ştatların Dairə Məhkəməsinə həm öz adlarından, həm də oxşar vəziyyətə düşmüş başqa insanların adından ərizə ilə müraciət edərək bayrağın salamlanması barədə qanunların və müddəaların Yehova Şahidləri barəsində tətbiq olunmasını məhdudlaşdıran qərar çıxarılmasını xahiş etmişlər. Məxsusi bir qrup olan Yehova Şahidləri belə hesab edirlər ki, Allahın buyurduğu əbədi qanunlar müvəqqəti dövlət tərəfindən tətbiq edilən qanunlara münasibətdə ali qüvvəyə malikdirlər. Onların dini etiqadları Musanın Kitabının 20-ci surəsinin 4-cü və 5-ci ayələrinə əsaslanır. Həmin ayələrdə deyilir: "Yuxarıda göydə, aşağıda yerdə və yerdən də aşağıda suda olanı və onun hər hansı təsvirini özün üçün büt hesab etmə, onlara itaət və qulluq etmə". Onlar belə hesab edirlər ki, bayraq da "təsvirdir" və buna görə də onu salamlamaqdan imtina edirlər.

Bu inama etiqad bəsləyən uşaqları məktəblərdən xaric etmişlər və ya məhz bu səbəbdən onları məktəbdən xaric etməklə hədələyirlər. Hakimiy-

Satış üçün nəzərdə tutulmayıb

yət orqanları həmin uşaqları azyaşlı canilər üçün islah müəssisələrinə göndərməklə hədələyirlər. Bu uşaqların valideynləri cinayət təqibinə və ya cinayətə şərait yaratdıqlarına görə cinayət məsuliyyətinə cəlb ediləcəkləri barədə hədə-qorxulara məruz qalırlar.

Şübhə yoxdur ki, bayrağa sədaqət andı öz fikrini sözlə ifadə etmək formasıdır. Simvolizm ideyaların ötürülməsinin primitiv, lakin səmərəli üsuludur. Müəyyən sistemin, fikrin, ictimai təsisatın rəmzi olan hər hansı emblemdən və ya bayraqdan istifadə edilməsi ideyaların insanlar arasında yayılması üçün əlverişli üsuldur. Hərəkatlar və xalqlar, siyasi partiyalar, həmkarlar ittifaqları və dini birliklər öz ideyalarını hər hansı bayraq və ya rəmz ilə, rəng və ya şəkil ilə əlaqələndirməyə çalışırlar. Dövlət insanlara səlahiyyətlər, funksiyalar və taxt-tacdan və hökmdar əsasından, uniforma və qara mantiyalardan istifadə etməklə hökm etmək imkanı, kilsə isə xaçdan, minbərdən və məqbərədən, eləcə də dini libasdan istifadə etməklə hökm etmək imkanı verir. Dövlətin rəmzləri çox vaxt siyasi ideyaları, dini rəmzlər isə ilahiyyatla bağlı ideyaları əks etdirir. Bu rəmzlərdən çoxu hörmət və ehtiram ifadə edilməsini: salamlama, başını tərpətmək və ya baş geyiminin çıxarılması, təzim etmək kimi hərəkətlərin icrasını nəzərdə tutur. İnsan bu rəmzlərə özünəməxsus məna verir. Onlardan bəziləri həmin rəmzləri görəndə məmnunluq və ilham hiss edir, başqaları isə bu rəmzləri kobud və təhqiramiz hesab edirlər.

Onu da qeyd etmək lazımdır ki, bayrağın məcburi qaydada salamlanması və ona məcburi qaydada and içilməsi həm də insanın müəyyən etiqadın həqiqiliyini etiraf etməsini nəzərdə tutur. Bir məsələ aydın deyil: məktəblilərin öz əqidələri buna zidd olduğu halda bu qayda onların bu proseduru icra etməyə məcbur edilməsinə imkan verirmi, yoxsa məktəblilər heç bir inamları olmadığı halda sözlərin və heç bir mənası olmayan testlərin köməyi ilə öz razılıqlarını yalnız imitasiya edəcəklərsə, bu məqbul olacaqdırmı? Bizim zəmanədə senzura tətbiq edilməsi və özünüifadə azadlığının boğulması halları geniş yayılmışdır, hərçənd Konstitusiyamıza görə bu cür hallara yalnız Ştat tərəfindən qarşısı alına və cəzalandırıla biləcək hərəkətlər real və qarşısıalınmaz olduqda yol verilir. Kiminsə and içməyə məcbur edilməsinə haqq qazandırmaq üçün kimisə susmağa məcbur etmək halında olduğundan daha çox əsas tələb edilir. Lakin bu işdə məcburiyyət həyata keçirilərkən əsla sübut edilmir ki, bayrağın salamlanması mərasimində passiv iştirak etməmək özünüifadənin boğulması ilə bağlı hərəkətlərə haqq qazandıra biləcək "aşkar və qaçılmaz təhlükə" yaradır. Əgər biz bayrağı salamlamağa məcbur etməyə haqq qazandırırıqsa, onda biz bunu təsdiq etməyə məcburuq ki, insanın düşündüklərini demək hüququnu müdafiə edən Hüquqlar Haqqında Bill hakimiyyət orqanlarına

Satış üçün nəzərdə tutulmayıb

da ixtiyar vermişdir ki, insanı onun düşünmədiklərini deməyə məcbur etsinlər.

Konstitusiyaya I Düzəliş hakimiyyət orqanlarına ixtiyar verirmi ki, onlar vətəndaşları bu cür mərasimi yerinə yetirməyə məcbur etsinlər? – bu sualın cavabı bizim həmin mərasimi yaxşı, pis, yoxsa sadəcə, zərərsiz mərasim hesab etməyimizdən asılıdır. Çox güman ki, hər hansı vətənpərvərlik ideyasına daxil olan məqamlar çoxlarının xoşuna gəlmir və əksinə, çoxlarının zəruri hesab etdiyi məqamlar həmin ideyada yoxdur. Buna görə də, həmin ideya müxtəlif çalarlar və şərhlər kəsb edir.

Hakimiyyət orqanları vətəndaşları hər hansı vətənpərvərlik ideyasına məcbur etmək hüququna malikdirsə, məhkəmə bu ideyanın mahiyyətinə baxa bilməz, həmin ideya əsas etibarilə hakimiyyət orqanlarının mülahizəsində saxlanılmalıdır. Onlar bu ideyanı tətbiq etmək və ya ona dəyişikliklər etmək səlahiyyətinə malikdirlər. Deməli, Amerika vətəndaşlarının hər hansı etiqadı qəbul etməyə və ya bu etiqada əsasən nəzərdə tutulan mərasimdə iştirak etməyə məcbur edilməsi ilə bağlı hərəkətlərin qanuniliyi hakimiyyətin səlahiyyəti məsələsidir və bu məsələyə bizim həmin mərasimin xeyirli olub-olmaması barədə rəyimizdən asılı olmayaraq baxılması zəruridir...

Hakimiyyəti məhdud olan dövlət heç də hökmən zəif dövlət olmayacaqdır. Hüquqların müdafiəsinə təminat verilməsi hər şeyə qadir olan dövlətdən qorxmaq və ona şübhə ilə yanaşmaq hisslərini azaldır və bizim bu məhdud dövlətdə özümüzü təhlükəsiz hiss etməyimizə imkan verir, bu isə nəticə etibarilə belə dövlətin dəstəklənməsinə gətirib çıxarır. Hüquqlar Haqqında Bill vasitəsilə dövlətin üzərinə qoyulan məhdudiyyətlər olmasaydı, bizim Konstitusiyanın ratifikasiyadan keçmək şansı yəqin ki, az olardı. Bu gün həmin hüquqların təmin edilməsi hələ o demək deyildir ki, biz daha zəif dövlətin xeyrinə seçim edirik. Bu, dövlət tərəfindən təyin edilmiş və tarixdə çox faciəli nəticələrə gətirib çıxarmış vahid təfəkkürdən imtina və düşünmək azadlığına riayət edilməsi deməkdir.

Bu gün baxdığımız işin canı məhz bu prinsipi təcəssüm etdirir. Əgər dövlətin sərbəst təhsil sistemi dünyəvi ideallara zidd deyildirsə və siyasi baxımdan neytraldırsa, bu sistem hər hansı sinfə, etiqada, partiyaya və ya fraksiyaya münasibətdə qərəzli və ya düşmən sistem ola bilməz. Lakin əgər təhsil sistemi hər hansı ideologiyanı zorla qəbul etdirməyə çalışırsa, onda hər bir partiya həmin ideologiya üzərində nəzarət etməyə çalışacaq və əgər buna nail ola bilməsə, onda həmin ideologiyanın təsirini azaltmağa çalışacaqdır. Hakimiyyətin konstitusion yolla məhdudlaşdırılmasına riayət edilməsi bu məhdudiyyətlərin aid olduğu sahədə dövlətin zəifləməsinə gətirib çıxarmayacaqdır...

Satış üçün nəzərdə tutulmayıb

Qobitisin işi üzrə bu Məhkəmənin əvvəlki rəyinin mahiyyəti ondan ibarət idi ki, bu işin aid olduğu sahədə "məhkəmələr dəqiq və xüsusən müəyyən səlahiyyətə malik deyildirlər"; azadlıqların müdafiə edilməsi təkcə məhkəmələrin deyil, həm də qanunverici məclislərin vəzifəsidir və Konstitusiya baxımından, "bu mübahisəni məhkəmə müstəvisinə keçirməkdənsə, ictimai rəy forumunda və qanunverici məclis qarşısında müdrik qanunlar qəbul edilməsinə nail olmaq" daha məqsədəuyğun olardı, çünki "bizdə siyasi dəyişikliklərin həyata keçirilməsi üçün kifayət qədər təsirli vasitələr vardır".

Hüquqlar Haqqında Billin əsas məqsədi – bəzi mövzuları mübahisəli məsələlərin gündəliyindən çıxarmaqdan, bu mövzuları çoxluq və hakimiyyət orqanları üçün əlçatmaz etməkdən, onları məhkəmələrin rəhbər tutmalı olduğu hüquqi prinsiplər kimi bərqərar etməkdən ibarət idi. İnsanın yaşamaq hüququ, təhlükəsizlik, mülkiyyət, söz azadlığı, mətbuat azadlığı, dini etiqad və yığıncaqlar azadlığı hüququ, eləcə də başqa əsas azadlıqları səsvermə nəticəsində təsdiq edilməli deyildir və onlar hər hansı seçkilərin nəticələrindən asılı deyildir.

Tərəflərin bütün dəlillərini götür-qoy edərək Konstitusiya XIV Düzəlişin "lazımi məhkəmə proseduru haqqında" müddəası ilə I Düzəlişin müddəalarının çatdırılma vasitəsi və XIV Düzəlişin özlüyündə tətbiq edildiyi işlər arasında hədd qoyulmalıdır. Həm XIV, həm də I Düzəlişə zidd olan qanunun təhlili təkcə XIV Düzəlişlə işləyəndə daha çox aydın olur. Birinci halda I Düzəlişdəki konkret qadağalardan irəli gələn oriyentirlər yarananda XIV Düzəlişin "lazımi məhkəmə proseduru" haqqında müddəalarının aydın olmayan bir sıra məqamları aradan qalxır. Məsələn, Ştatın nəyin ictimai fayda hesab edilməli olduğunu müəyyən etmək hüququ ("lazımi məhkəmə proseduru" haqqında müddəaya uyğun olduqda) qanunverici məclisin "rasional" hesab etdiyi hər hansı məhdudiyyətlər qoymaq səlahiyyətindən ibarət ola bilər. Lakin bu cür inandırıcı olmayan əsaslar söz və mətbuat azadlığını, yığıncaqlar və dini etiqad azadlığını poza bilməz. Bu hüquqları yalnız Ştatın qanuni yolla müdafiə edə biləcəyi maraqlar üçün ciddi və yaxın təhlükənin qarşısını almaq məqsədilə məhdudlaşdırmaq olar. Qeyd etmək lazımdır ki, XIV Düzəliş ştatların işlərinə bilavasitə aid olduğuna baxmayaraq, məhz I Düzəlişin məhdudlaşdırıcı prinsipləri bu işdə həlledici əhəmiyyət kəsb edir.

Bizim vəzifəmiz – hakimiyyətin hərəkətləri ilə bağlı hallarda Hüquqlar Haqqında Billi rəhbər tutmaq vəzifəmiz hüquqların bu cür pozulmasının baş verdiyi sahədə səlahiyyətlərimizdən asılı deyildir. Əlbəttə, XVIII əsrdə liberal dövlət modelinin bir hissəsi hesab edilən Hüquqlar Haqqında Billdə təsbit olunmuş böyük prinsipləri XX əsrin problemlərini həll etməyə

Satış üçün nəzərdə tutulmayıb

cəhd göstərən hakimiyyət orqanlarının konkret fəaliyyətinin məhdudlaşdırılmasından ibarət hesab etmək düzgün deyil. Bu prinsiplərin yetişdiyi zəmin bizə həm də belə bir fəlsəfə vermişdir ki, cəmiyyətin özəyi məhz şəxsiyyətdir, onun azadlığı isə hökumət tərəfindən heç bir məhdudiyyət qoyulmaması nəticəsində əldə edilir və hökumətə yalnız vətəndaşların işlərinə cüzi nəzarət etmək və onlarla mülayim rəhbərlik etmək səlahiyyətini etibar etmək olar. Bu gün biz həmin hüquqlar üçün elə zəmin yaratmalıyıq ki, orada "*laissez-faire*" konsepsiyası[98] və ya müdaxilə etməmək (ən azı iqtisadi məsələlərə müdaxilə etməmək) prinsipləri artıq təsir göstərməsin və sosial tərəqqiyə nail olmaq get-gedə daha artıq dərəcədə dövlət nəzarətinin genişlənməsi və gücləndirilməsi yolu ilə cəmiyyətin inteqrasiyasından asılı olsun. Bu dəyişmiş şərait çox vaxt bizi etibarlılıq presedentlərindən məhrum edir və bizə elə vəzifələr həvalə edir ki, biz həmin vəzifələri öz təşəbbüsümüzlə öz üzərimizə götürməzdik. Lakin bu məsələlərdə biz öz sərişt əmizə görə deyil, bizə həvalə edilmiş vəzifələrə görə hərəkət edirik. Burada biz, dövlət təhsili sahəsində sərişt əmiz az olduğuna görə məhkəmə qərarı çıxarmaqdan imtina edə bilmərik, çünki azadlığa qəsb edilməsi barədə işə baxılarkən bu Məhkəmənin tarixi funksiyası məhz bundan ibarətdir...

Nəhayət, icazə verin, Qobitisin işi üzrə keçən dəfə qəbul edilmiş qərarın əsas hissəsinə müraciət edək. Həmin qərarda deyilirdi ki, "milli birlik milli təhlükəsizliyin əsasıdır", hakimiyyət orqanları "milli birliyə nail olmaq üçün zəruri vasitələri seçmək hüququna malikdirlər", yəni "milli birliyin təmin edilməsi üçün" bu cür məcburiyyət tədbirləri Konstitusiyaya uyğun hesab edilməlidir... Bu işdə bizim cavabımız həmin fikrin doğru olub-olmamasından asılıdır. Biz burada hakimiyyət orqanları tərəfindən inandırmaq yolu ilə və təqdirəlayiq nümunələrlə rəğbətləndirə biləcək milli birliyin zəruriliyi məsələsinə baxmırıq. Lakin bizi maraqlandıran başqa məsələdir: milli birliyə nail olmaq üçün məcburiyyətə yol verilə bilərmi?

Hər hansı məqsədi dəstəkləmək üçün hamını eyni cür düşünməyə məcbur edən insanlar arasında yaxşılar da çox olub, pislər də. Vətənpərvərlik nisbətən yeni hadisədir, lakin başqa dövrlərdə və başqa yerlərdə irqi təhlükəsizlik və ərazi təhlükəsizliyi, hər hansı sülalənin və ya rejimin dəstəklənməsi və ya müəyyən mənəvi nicat planı məqsədə çevrilmişdir. Birliyə nail olmaq üçün göstərilən ilk kövrək cəhdlər boşa çıxdığı üçün birliyə nail olmağa ümid edənlər get-gedə daha sərt olmağa məcbur idilər. Birliyə nail olmaq istiqamətində dövlətin təzyiqi artdıqca kimlərin və hansı şəkildə birliyindən söhbət getməsi məsələsi ilə bağlı fikir ayrılıqları

Satış üçün nəzərdə tutulmayıb

da kəskinləşirdi. Təhsil alan gəncləri öz ətrafında birləşdirməli olan doktrina və ya proqram işlənib hazırlanması prosesində cəmiyyətdə yaranan parçalanma hər hansı provokasiya nəticəsində yaranan parçalanmadan daha dərin, daha ciddidir.

Bu cür birliyi zorla qəbul etdirmək üçün göstərilən bütün cəhdlərin tamamilə hədər olması Romanın timsalında aşkar görünmüşdü. Bunu Romanın bütpərəstliyin yolunda maneə hesab etdiyi xristianlığın kökünü kəsmək cəhdləri timsalında; dini və sülalə birliyi vasitəsi hesab edildiyi inkvizisiyanın timsalında; Rusiyada birlik vasitəsi hesab edildiyi Sibir sürgünlərinin timsalında və bizim indiki totalitar əleyhdarlarımızın baş tutmamış çoxsaylı cəhdləri timsalında görmək olardı.

Fikir ayrılıqlarından məcburiyyət vasitəsilə yaxa qurtarmağa çalışanlar son nəticədə onlarla razı olmayanların hamısını aradan götürməyə çalışırlar. Məcburiyyət nəticəsində yaranan fikir birliyi isə yalnız qəbiristanda yekdilliyə gətirib çıxarır.

Nə qədər bayağı səslənsə də, deməliyik ki, bizim Konstitusiyaya I Düzəliş məhz elə tərtib edilmişdir ki, bu kədərli nəticədən xilas olmaq üçün preventiv tədbirlər görülməlidir. Amerikanın dövlət konsepsiyasında və ya hakimiyyətin təbiətində və mənşəyində heç bir mistisizm yoxdur. Biz hökuməti idarə edilənlərin razılığı ilə yaradırıq, Hüquqlar Haqqında Bill isə hakimiyyət sükanı arxasında olanların bu cür razılığa məcburetmə yolu ilə nail olmalarına əsla imkan vermir. Burada hakimiyyət ictimai rəyə nəzarət etmir, əksinə, ictimai rəy hakimiyyətə nəzarət edir.

Bu işin çətinliyi onun həlli prinsiplərinin kifayət qədər aydın olmamasından ibarət deyil. Çətinlik ondan ibarətdir ki, haqqında söhbət gedən bayraq – bizim bayrağımızdır. Buna baxmayaraq, biz belə hesab edirik ki, intellektual və mənəvi rəngarənglik azadlığının və ya hətta ziddiyyətlərin rəngarəngliyi azadlığının cəmiyyətdə parçalanma yaradacağından qorxmadan, dövlətin səlahiyyətlərinə konstitusion məhdudiyyətlər tətbiq edilə bilər. Əgər biz inansaydıq ki, bu cür mərasimlərin könüllü və ya kortəbii olması vətənpərvərliyi zəiflədə bilər, onda biz öz sistemimizi – azad zəkalara inama əsaslanan sistemi şübhə altına alardıq. Biz intellektual unikallığa və zəngin mədəni müxtəlifliyə ancaq bəzi ekssentrik və qeyri-ənənəvi yanaşmalar hesabına nail ola bilərik (necə ki, biz buna görkəmli şəxsiyyətlərin sayəsində nail olmuşuq). Bu cür yanaşmalar başqaları üçün və Ştat üçün indiki halda artıq dərəcədə zərərsiz olduqda, bunun əhəmiyyəti o qədər də çox deyildir. Lakin "başqalarından fərqlənmək azadlığı" əhəmiyyətsiz şeylərlə məhdudlaşmır, çünki əks halda azadlığın yalnız adı qalardı.

Satış üçün nəzərdə tutulmayıb

Həqiqi azadlığın mövcud olması – mövcud qaydanın özəyini təşkil edən məsələlərdə başqalarından fərqlənmək hüququnda təzahür edir.

Əgər bizim Konstitusiya bürcündə bir hərəkətsiz ulduz varsa, bu, belə bir müddəadan ibarətdir ki, ranqından asılı olmayaraq heç bir rəsmi şəxs siyasətdə, vətənpərvərlikdə, dində və təfəkkürün başqa sahələrində nəyin həqiqət olmasını müəyyən edə bilməz və ya vətəndaşları məcbur edə bilməz ki, onlar müəyyən etiqada sadiq olduqlarını sözlə və ya əməlləri ilə göstərsinlər. Hətta bu qaydadan bəzi istisnalar mövcud olsa belə, bu işdə həmin istisnalar tətbiq edilə bilməz.

Hesab edirik ki, yerli hakimiyyət orqanlarının vətəndaşları bayrağa and içməyə və onu salamlamağa məcbur etməklə bağlı hərəkətləri onların səlahiyyətlərinin konstitusion məhdudluğunu pozur və onlar vətəndaşların intellektual və mənəviyyat sahələrinə müdaxilə edirlər, halbuki Konstitusiyaya I Düzəlişə görə, bu sahələrə hakimiyyət orqanları tərəfindən heç bir nəzarət edilməli deyildir.

Maynersvill dairə məktəbinin Qobitisə qarşı işi üzrə Ali Məhkəmənin əvvəlki qərarı, eləcə də ondan əvvəl qəbul edilmiş bir neçə qərar ləğv edilir və Qərbi Virciniya Ştatının reqlament müddəalarının ləğv edilməsini nəzərdə tutan qərar təsdiq edilir.

Mənbə: 319 USA 624 (1943)

Satış üçün nəzərdə tutulmayıb

47. Engel Vitaleyə Qarşı (1962)

Uzun illər boyu Amerikanın hər yerində məktəblərdə dərs günlərinin hər biri müəyyən mərasimlə başlanırdı. Şagirdlər öz müəllimlərinin rəhbərliyi altında bayrağa sədaqət andı içir, qısa dua oxuyur, "Amerika" və ya "Üzərinə ulduzlar səpilmiş bayraq" adlı vətənpərvərlik himnləri, bəzən də Bibliyadan müəyyən ayələr oxuyurdular. Bu mərasimin seçimi konkret Ştatın qanunlarından, yerli ənənələrdən, eləcə də müəllimlərinin və ya məktəb direktorlarının üstünlük verdiyi dəyərlərdən asılı idi.

Nyu-York Ştatının Təhsil Şurası hər hansı dini təriqətə aidiyyəti olmayan dövlət məktəbləri üçün dua mətnini hazırlayarkən müxtəlif dini qrupların nümayəndələrinin dini heysiyyətinin təhqir edilməsinə yol verməməyə çalışmışdı. Lakin məktəblərin birində valideynlər bu cür andın mətnini "həm onların özlərinin, həm də uşaqlarının dini etiqadlarına, dinlərinə və ya dini ənənələrinə zidd" hesab etdilər. Bununla belə, Ştatın ali məhkəmə instansiyası duanın həmin mətnini dəstəklədi və bu zaman bunu əsas göstərdi ki, Ştatın qanunları şagirdləri əsla məcbur etmir ki, onlar öz valideynlərinin etirazlarına rəğmən dua oxusunlar.

Lakin Birləşmiş Ştatların Ali Məhkəməsi bu qəbildən olan növbəti işə baxarkən belə hesab etmişdi ki, Ştat tərəfindən icazə verilmiş və Ştat tərəfindən maliyyələşdirilən dua oxunuşu özlüyündə nə qədər zərərsiz olsa da, dövlətin hər hansı dini müəyyən etməsini qadağan edən Konstitusiyaya I Düzəlişin ruhuna və tələblərinə ziddir. Hakim Blək *(Black)* bildirmişdi ki, dua oxunması, heç şübhəsiz, dini fəaliyyətdir və Ştat bu fəaliyyəti tətbiq etməklə Konstitusiyada təsbit olunmuş "dinin təyin edilməsinə qadağa"nı pozmuşdur.

Engelin işi üzrə Ali Məhkəmənin qərarı qəzəblə tənqid olundu. Bu tənqidi çıxışlar bəzən sakitləşsə də, indiyə qədər tam səngiməyib. Birləşmiş Ştatlarda çoxlarının fikri belədir ki, dövlət dini rəğbətləndirməlidir, dövlət tərəfindən hər hansı doktrinanın və ya hər hansı kilsənin təyin edilməsi məqsədəuyğun olmasa da, dövlət kilsəyə mülayim münasibət bəsləməli və bütün dinləri eyni dərəcədə dəstəkləməlidir. Çoxlarının fikrincə, məktəbdə oxunan dua özünü "Allahın altında bölünməz" sayan millət üçün tamamilə təbii və tarixi ənənədir.

Ali Məhkəmənin qərarına tərəfdar çıxanlar da vardı. Çoxları belə hesab edirdi ki, Məhkəmə tamamilə haqlıdır, çünki din hər bir kəsin

Satış üçün nəzərdə tutulmayıb

şəxsi işidir və şəxsi işi olaraq qalmalıdır. Əgər müəllim öz şagirdlərinin dua oxumalarına rəhbərlik edirsə, onlar çətin ki, dua oxumağa razı olmadıqlarını bildirəcək və ya dua oxumaqdan çəkinəcəklər. Deməli, şagirdlər dua oxumağa məcbur ediləcəklər, bu isə Konstitusiyaya I Düzəlişin aşkar şəkildə pozulması deməkdir. Bu mübahisə hələ də davam edir və Engelin işi barədə qərar həm onun tərəfdarları üçün, həm də əleyhdarları üçün demokratik cəmiyyətdə dini etiqad azadlığının nə demək olması məsələsinin bir mərhələsidir..

Əlavə məlumat üçün oxuyun: Francis J. Sorauf, The Wall of Se paration: The Constitutional Politics of Church and State (1976); J. H. Laubach, School Prayers: Congress, the Court and the Public (1969); Leonard W. Levy, The Establishment Clause: Religion and the First Amendment (1986).

ENGEL VİTALEYƏ QARŞI

Hakim Blək Ali Məhkəmənin qərarını açıqladı.

Cavabdeh, Nyu-York Ştatının Nyu-Hayd Parkdakı 9 №-li dairənin "Pulsuz Məktəb Təhsili Şurası"nın şəxsində, Ştatın qanun larına müvafiq qaydada hərəkət edərək, Məktəb dairəsinin başçısına hər bir dərs gününün əvvəlində hər bir sinifdə və müəllimlərin iştirakı ilə aşağıdakı duanın oxunmasını tapşırmışdır: "Ulu Tanrı, biz Səndən asılı olmağımızı qəbul edirik və Səndən özümüzə, valideynlərimizə, müəllimlərimizə və ölkə mizə xeyir-dua diləyirik".

Hər gün tətbiq edilən bu prosedur Ştatın Təhsil Şurasının, Ştatın Konstitusiyasına müvafiq olaraq yaradılmış və Nyu-York Ştatının qanunverici məclisi tərəfindən dövlət məktəb təhsili sisteminə münasibətdə geniş nəzarət, icra və sərən cam səlahiyyətləri verilmiş hökumət idarəsi olan Təhsil Şura sının tövsiyəsinə əsasən qəbul edilmişdir. Duanın mətni bu idarənin nümayəndələri tərəfindən tərtib edilmiş və həmin idarənin tərtib etdiyi "Məktəblərdə mənəvi və əxlaqi təhsil proqramı" çərçivəsində dərc edilmişdir. Tərtibçilər bildirirdilər ki, "fikrimizcə, azad iradəli bütün kişilər və qadınlar bu sözlərlə razılaşarlar və biz onları bu proqramın həya ta keçirilməsinə kömək etməyə çağırırıq"...

Biz belə hesab edirik ki, Nyu-York Ştatı, Təhsil Şurasının üzvləri tərəfindən tərtib edilmiş bu duanın oxunmasını rəğbətləndirmək üçün dövlət

Satış üçün nəzərdə tutulmayıb

məktəb təhsili sistemindən istifadə etməklə, dinin dövlət tərəfindən müəyyən edilməsinə qadağan qoyulması ilə əsla bir araya sığmayan hərəkətlər etmişdir. Aşkardır ki, Allahdan xeyir-dua almaq üçün hər gün ona müraciət edilməsi barədə Nyu-York Ştatının proqramı, bu duanın mətnindən göründüyü kimi, dini fəaliyyətdir. Bu müraciət – Tanrıya etiqadın təntənəli şəkildə etiraf edilməsi və Tanrıdan xeyir-dua diləməkdir. Bu cür müraciətlər həmişə dini təbiətə malik olmuşdur. Cavabdehlərdən heç biri bunu inkar etmir və bu məhkəmə bunu dəqiq təsdiq etmişdir...

İddiaçılar onu da bildirirlər ki, bu duadan istifadə olunmasını tələb edən və ya ona icazə verən Ştat qanunları dinin dövlət tərəfindən müəyyən olunmasına qadağan qoyulması barə də müddəaya zidd olan qanunlar kimi ləğv edilməlidir, çünki bu dua dini etiqadların rəğbətləndirilməsi üçün hökumət proqramı çərçivəsində hökumət nümayəndələri tərəfindən tərtib edilmişdir. Bu səbəbdən, iddiaçılar belə hesab edirlər ki, dövlət məktəb təhsili sistemində bu duadan istifadə edilməsi dinin dövlətdən konstitusion yolla ayrılması qaydasının pozulmasıdır. Biz bu fikri dəstəkləyirik, çünki biz belə hesab edirik ki, hər hansı dini müəyyən edən qanunlara konstitusion yolla qadağan qoyulması ən azı o deməkdir ki, bu ölkədə dövlət heç kəsdən ötrü rəsmi, dövlətin həyata keçirdiyi dini proqramlar çərçivəsində oxunmalı olan dualar hazırlamamalıdır.

Tarixən dövlət tərəfindən tərtib edilmiş duaların müxtəlif dini mərasimlər zamanı oxunmağa məcbur edilməsi bizim ilk məskunlarımızın çoxunu İngiltərəni tərk edərək Amerikada dini azadlıq axtarmağa məcbur etmişdir. Hökumətin sərəncamına əsasən tərtib edilmiş və İngiltərə Parlamentinin 1548-ci və 1549-cu illərdə qəbul etdiyi aktlarla təsdiq edilmiş "Ümumi dualar məcmuəsi"ndə duaların, eləcə də dövlət tərəfindən maliyyələşdirilən anqlikan kilsəsində həyata keçirilən müxtəlif dini mərasimlərin forması və məzmunu müfəssəl təsvir edilmişdir...

Mənbə: 370 U.S. 421 (1962)

Satış üçün nəzərdə tutulmayıb

48. "Nyu-York Tayms" Korporasiyası Birləşmiş Ştatlara Qarşı (1971)

Demokratiya şəraitində azad mətbuatla dövlət arasında münasibətlər həmişə gərgin olur. Dövlətin fikrincə, məxfi qalmalı məsələlər və jurnalistlərin fikrincə, xalqın bilməli olduğu məsələlər bir-birinə uyğun gəlmir. Bu münaqişə "Pentaqon sənədləri" adı ilə məşhur işdə daha aydın şəkildə təzahür etmişdi.

1967-ci ildə müdafiə naziri Robert S. Maknamara *(Robert S. McNamara)* Birləşmiş Ştatların Vyetnamda müharibəyə necə qoşulması mövzusunda genişmiqyaslı təhqiqat aparılması barədə əmr vermişdi. 36 nəfərdən ibarət tədqiqat qrupu bir ildən artıq müddətdə 47 cilddən, 4000 səhifəlik sənədli şahid ifadələrindən və 3000 səhifəlik təhlildən ibarət hesabat hazırlamışdı. Müdafiə Nazirliyinin iqtisadçısı, bu müharibədən hədsiz dərəcədə məyus olmuş D. Elsberq *(Daniel Ellsberg)* həmin təhqiqatın əsas bölmələrinin üzünü çıxarıb mətbuata təqdim etmişdi. 1971-ci il iyunun 13-də "Nyu-York Tayms" qəzeti "Pentaqon sənədləri"nin ilk bölmələrini dərc etdi və Nikson hökuməti dərhal bu sənədlərin dərcinin davam etdirilməsini qadağan etməyə çalışdı.

"Niar Minnesotaya qarşı" adlı işdə Ali Məhkəmənin sədri Hyuz göstərmişdi ki, materialların dərcinin qabaqcadan məhdudlaşdırılmasına qadağa müəyyən hallarda qüvvədə olmamalıdır. Hyuz deyirdi: "Heç kəs mübahisə etməz ki, silahlı qüvvələrin komplektləşdirilməsinə mane olan hərəkətlərin qarşısını almaq və ya hərbi nəqliyyatın hərəkəti, qoşunların sayı və onların olduğu yer barədə məlumatların dərc edilməsinə qadağa qoyulması – hökumətin hüququdur". Ədliyyə Nazirliyi bu nəzəriyyəyə əsaslanaraq, həmin materialların "Nyu-York Tayms"da dərc olunmasının davam etdirilməsinə müvəqqəti qadağa qoyulması *(temporary injunction)* barədə qərar qəbul etdi. Lakin dərhal "Vaşinqton Post" qəzeti həmin materialların dərcini bərpa etdi və administrasiya bu qəzeti məhkəməyə verəndə "Boston Qloub" *(The Boston Globe)* qəzeti həmin işi öz üzərinə götürdü. Çox gözlənilməz olsa da, Ali Məhkəmə apelyasiyalara baxılması prosesini sürətləndirməyi qərara aldı və iyunun 26-da tərəflərin şifahi arqumentlərini dinlədi, dörd gündən sonra, iyunun 30-da, yəni "Nyu-York Tayms" qəzetindəki ilk materiallar dərc ediləndən cəmi 17 gün sonra Ali Məhkəmə öz qərarını çıxardı.

Ali Məhkəmənin bu cür tələskənlik etməsi bir neçə səbəbdən

Satış üçün nəzərdə tutulmayıb

əlamətdardır. Əsas məsələ budur ki, həm hökumət, həm də Ali Məhkəmə bu məsələnin həllinə böyük əhəmiyyət verirdi. Bu cür tələskənlik qismən onunla da izah edilir ki, Məhkəmə üzvlərinin əksəriyyəti vahid fikrə gələ bilmirdilər. Bunun əvəzinə, Ali Məhkəmə öz qısa qərarını elan etdi. Qərarda qeyd edilirdi ki, ilkin məhdudiyyətlərin zəruri olmasını sübut etmək kimi ağır bir yük məhz hökumətə həvalə edilmişdir, lakin bu işdə hökumət bunu sübut edə bilməmişdir. Sonra ayrı-ayrı hakimlər mətbuat azadlığı məsələsinə öz baxışlarını şərh etdilər.

Elsberq "Pentaqon sənədləri"ni mətbuata təqdim etməklə ictimaiyyətə bildirmək istəyirdi ki, hökumət Vyetnam müharibəsi barədə ikili standartlarla işləyir və yalan danışır. Bu nəzəriyyəyə görə, xalq öz hökumətinin əməllərini "bilmək hüququ"na malikdir. Müharibənin əvvəlində Cənubi Vyetnamda səfir vəzifəsini tutmuş general Maksvell Teylor *(Maxwell Taylor)* bu ideyanın əleyhinə çıxış etdi. O bildirirdi ki, insanın məlumat almaq hüquqları "onun yaxşı vətəndaş olmaq və öz borcunu yerinə yetirmək üçün bilməsi zəruri olan şeylərlə məhdudlaşır, lakin dövlət sirlərini bilmək ona əsla lazım deyil, çünki bu, həm dövlətə, həm də dolayısı ilə vətəndaşın özünə zərər vura bilər".

Ali Məhkəmənin bəzi üzvləri, xüsusən hakim Potter Styuart *(Potter Stewart)* "vətəndaşların məlumatlandırılmaq hüququ"na inanırdı. Styuartın irəli sürdüyü nəzəriyyəyə görə, mətbuatın çox mühüm ictimai funksiyası var, o, vətəndaşların bilməyə hüququ olan informasiyanı əldə etməsində onlara kömək etməyə borcludur. Məhkəmənin heç də bütün üzvləri bu funksional nəzəriyyəni dəstəkləmədi, lakin Ali Məhkəmənin sədri Burger sonradan bildirmişdi ki, səslərin bölünməsinə baxmayaraq, hakimlər "əslində yekdil olmuşdu". Bu, çox cəhətdən düz idi. Hakimlərin hamısı ilk dəfə Niarın işində tətbiq edilmiş mətbuat azadlığının ilkin məhdudlaşdırılmasının qadağan edilməsi barədə əsas prinsipi dəstəkləyirdi və bütün hakimlər (hər hansı mövzuda və hər hansı vaxtda hər hansı hökumət senzurasına qəti etiraz edən hakimlər Blək və Duqlasdan başqa) razılaşmışdılar ki, hökumət mətbuatı senzuraya məruz qoymamalıdır və xüsusi hallar istisna olmaqla, nəşrə heç bir ilkin məhdudiyyət tətbiq edilməməlidir.

Əlavə məlumat üçün oxuyun: Martin Shapiro, ed., The Pentagon Papers and the Courts... (1972); Archibald Cox, The Courts and the Constitution (1987); S.J.Ungar, The Paper and the Papers (1972).

Satış üçün nəzərdə tutulmayıb

"NYU-YORK TAYMS" KORPORASİYASI BİRLƏŞMİŞ ŞTATLARA QARŞI

Məhkəmənin qərarı

Biz "Birləşmiş Ştatlar Vyetnam müharibəsi barədə qərarları necə qəbul edirdi" adlı məxfi araşdırmanın məzmununun "Nyu-York Tayms" və "Vaşinqton Post" qəzetləri tərəfindən dərc edilməsinə Birləşmiş Ştatlar hökumətinin qadağan qoymağa çalışdığı işlərin aşağı instansiyalı məhkəmədən tələb edilməsi barədə qərar çıxarmışıq.

"Bu Məhkəmənin baxmalı olduğu özünüifadə azadlığının ilkin məhdudlaşdırılması ilə bağlı hər hansı sistem konstitusiyaya uyğun olmaq baxımından şübhə doğurur". "Beləliklə, bu cür məhdudiyyətlər tətbiq edilməsinə bəraət qazandırılması kimi ağır yükü" hökumət daşıyır.

"Nyu-York Tayms" işində Federal Dairə Məhkəməsi, eləcə də "Vaşinqton Post" işində Federal Dairə Məhkəməsi və Apelyasiya Məhkəməsi belə hesab etmişlər ki, hökumət bu vəzifənin öhdəsindən gələ bilməmişdir. Biz bu fikirlə razıyıq.

Bunu əsas götürərək biz qərara alırıq ki, Kolumbiya Mahalının Federal Apelyasiya Məhkəməsinin qərarı qüvvədə qalır. İkinci Regionun Apelyasiya Məhkəməsinin sərəncamı ləğv edilir və Apelyasiya Məhkəməsi tərəfindən Dairə Məhkəməsinin qərarına müvafiq qərar çıxarılması üçün iş birinci instansiyaya qaytarılır[xcix]. Bu Məhkəmə tərəfindən 1971-ci il iyunun 25-də tətbiq edilmiş məhkəmə icraatının dayandırılması barədə qərar ləğv edilir. Məhkəmə fərmanları dərhal icra edilməlidir.

Qərar qəbul edildi.

Hakim Blək, daha sonra hakim Duqlas razılaşır.

Fikrim belədir ki, hökumətin "Vaşinqton Post"a qarşı iddiaları rədd edilməlidir və "Nyu-York Tayms»"a qarşı nəşrlə bağlı qadağa işlər bu Məhkəməyə daxil olandan dərhal sonra heç bir müzakirəsiz rədd edilməlidir. Mən hesab edirəm ki, qəzetlərə qarşı bu qadağanın qüvvədə qaldığı hər bir əlavə dəqiqə Konstitusiyaya I Düzəlişin çox kobud şəkildə və əsassız olaraq pozulmasına gətirib çıxarır… Mən təəssüflənirəm ki, buradakı həmkarlarımdan bəziləri həqiqətən belə hesab edirlər ki, qəzetlərin informasiya dərc etməsini qadağan etmək olar. Bu fikir Konstitusiyaya I Düzəlişə tamamilə ziddir… Yalnız azad və heç nə ilə məhdudlaşdırılmayan mətbuat hökumətin yalanını səmərəli şəkildə açıb göstərə bilər. Hesab edirəm ki, prezidentin məhkəmələrə müraciət etmək yolu ilə informasiya dərc edilməsinin dayandırılması kimi "ayrılmaz səlahiyyətləri" Konstitusiyaya I Düzəlişi tamamilə mənasız edir. "Təhlükəsizlik" dolaşıq və qeyri-

Satış üçün nəzərdə tutulmayıb

müəyyən anlayışdır və təməli Konstitusiyaya I Düzəlişdə qoyulmuş əsas qanunlara məhəl qoymamaq üçün bu anlayışdan istifadə etmək olmaz…

Hakim Duqlas razılaşır, hakim Blək də ona qoşulur.

Hesab edirəm ki, Konstitusiyaya I Düzəliş dövlətin mətbuat azadlığını məhdudlaşdırmasına heç bir imkan vermir. Üstəlik, "Tayms" və "Post"un dərc etmək istədiyi məruzənin çap olunmasını mətbuata qadağan edən heç bir qanun yoxdur. Axı Konqres "Casusluq haqqında Akt"ı qəbul edərkən, həmin Aktın müxtəlif bölmələrində informasiyanın "dərc edilməsi" və "oğurlanması" arasında dəqiq həddi qoymuşdur.

Beləliklə, hökumətin malik olduğu hər hansı səlahiyyətlər" ona xas olan konstitusion səlahiyyətlər"ə müvafiq olmalıdır. Müharibə aparmaq səlahiyyəti "müharibəni uğurlu şəkildə aparmaq səlahiyyətini" nəzərdə tutur. Lakin "müharibə aparmaq səlahiyyəti" yalnız "müharibə elan edilməndən" sonra yaranır. Konstitusiyanın I maddəsinin 8-ci bölməsinə əsasən, "müharibə elan etmək" səlahiyyətləri prezidentə deyil, Konqresə verilir. Heç yerdə göstərilməmişdir ki, prezident "müharibə elan edə" bilər. Və [Konqres müharibə elan etmədiyinə görə] biz burada həmin işə baxılmasına Konqresin müharibə elan etmək hüququnun necə təsir göstərə biləcəyi məsələsini həll etməməliyik.

Ola bilsin ki, məxfi informasiyanın açıqlanması ciddi nəticələr törədə bilər. Lakin bu, mətbuat azadlığına ilkin məhdudiyyətlər tətbiq edilməsi üçün kifayət deyildir…

Konstitusiyaya I Düzəlişin əsas məqsədi – hökumətə sərf etməyən informasiyanı gizlətmək məqsədilə mətbuata dövlət təzyiqi kimi geniş yayılmış bir praktikanı qadağan etməkdən ibarət idi. İndi xalq arasında bizim Vyetnamda vəziyyətimiz barədə qızğın mübahisələr gedir. Dövlət məsələlərinin açıq müzakirə edilməsi dövlətimizin həyat qabiliyyətli olması üçün çox vacibdir. Artıq bir həftədən çox davam edən məhkəmə icraatının dayandırılması "Niar Minnesotaya qarşı" işində müəyyən edildiyi kimi, Konstitusiyaya I Düzəlişə etinasızlıqdır.

Hakim Brennan razılaşır.

Bütün bu işlərin lap əvvəlindən etibarən, onlarda yol verilmiş əsas səhv – qadağa barədə, hətta qadağa müvəqqəti də olsa, qərar qəbul edilməsi olmuşdur. Bu işlərdə hökumətin əsas arqumenti o idi ki, sözügedən materialların dərc edilməsi milli mənafelərə müxtəlif yollarla "zərər vuracaq", zərər vura "bilər" və ya bunu etməyə "qadirdir". Lakin Konstitusiyaya I Düzəliş mümkün və ya ehtimal edilən nəticələrdən qorxmağa əsasən mətbuat azadlığına hər hansı ilkin məhkəmə məhdudiyyətləri tətbiq etməyə imkan vermir. Bu da həqiqətdir ki, baxdığımız hallar olduqca məhdud bir

Satış üçün nəzərdə tutulmayıb

kateqoriyalı işlərin mövcud olmasını göstərir; bu kateqoriyaya aid işlərdə Konstitusiyaya I Düzəlişin məhkəmə məhdudiyyətlərinə qoyduğu qadağa rədd edilə bilər. Bu cür işlər yalnız o halda yarana bilər ki, dövlətimiz "müharibə vəziyyətində" olsun, onda "heç kəs mübahisə etməz ki, hökumət silahlı qüvvələrin komplektləşdirilməsinə mane olan hərəkətlərin qarşısını almaq və ya hərbi nəqliyyatın hərəkət cədvəli, qoşunların sayı və onların yerləşdiyi yer barədə məlumatın dərc edilməsinə qadağa qoymaq hüququna malikdir". Lakin hətta indiki vəziyyəti müharibə vəziyyətinə bərabər tutmaq olsa və ya mövcud silahlardan, hətta dinc vaxtda da, istifadə edilməsi təhlükəsi nüvə fəlakətinə gətirib çıxara biləcək informasiyanın yayılmasına qadağa qoyulmasına haqq qazandırsa belə, nə birinci, nə də ikinci halda hökumət sübut edə bilməmiş və ya heç olmasa bizi inandırmağa cəhd göstərə bilməmişdir ki, göstərilən materialların dərc edilməsi bu cür nəticələrə gətirib çıxara bilər… Nə qədər ki hökumət bunu aşkar sübut edə bilmir, ilkin məhdudiyyətlərə qadağa qoyulması barədə Konstitusiyaya I Düzəlişin tələblərinə riayət edilməlidir.

Hakim Styuart razılaşır, hakim Uayt da ona qoşulur.

Həm müdafiə, həm də beynəlxalq siyasət sahəsində icra hakimiyyətinin məhdudlaşdırılmasının yeganə təsirli vasitəsi ölkə vətəndaşlarının maarifləndirilməsidir. Bu səbəbdən, sayıq, məlumatlı və azad mətbuat Konstitusiyaya I Düzəlişin əsas məqsədinə daha tam uyğun gəlir. Lakin bu da aydındır ki, uğurlu beynəlxalq siyasət və müdafiə siyasəti məxfiliyin gözlənməsini və sirlərin qorunmasını tələb edir. Fikrimcə, indiki vəziyyəti dilemma adlandırmaq mümkündürsə, bu dilemmadan yalnız bir çıxış yolu ola bilər. Hakimiyyət kimin əlindədirsə, məsuliyyət də onun üzərinə düşür. İcra hakimiyyətinin öz səlahiyyətlərini uğurla həyata keçirməsi üçün zəruri olan daxili təhlükəsizlik səviyyəsini müəyyən etmək və bu səviyyəni saxlamaqdan ibarət müstəsna hüquq məhz icra hakimiyyətinə məxsusdur. İcra edilməli sərəncamlar qəbul edilməsi və onların həyata keçirilməsi yolu ilə beynəlxalq siyasət və müdafiə siyasəti aparılması üçün zəruri olan məxfiliyin qorunması (qanunvericiliyin tələbi kimi deyil, icra hakimiyyətinin suverenliyinin təzahürü kimi) icra hakimiyyətinin konstitusion borcudur. Lakin bu o demək deyildir ki, burada Konqres və məhkəmələr heç bir rol oynamır. Əlbəttə, dövlət mülkiyyətinin mühafizəsi və onun sirlərinin qorunması üçün Konqres müvafiq cinayət qanunları qəbul etmək səlahiyyətinə malikdir…

Lakin bu işlərdə vəzifəmiz hər hansı xüsusi qərarları tövsif etmək və ya hər hansı qanunları tətbiq etmək deyildir. Bunun əvəzinə bizdən xahiş edirlər ki, konstitusiyaya görə məhkəmə hakimiyyətinə deyil, icra hakimiyyətinə həvalə edilmiş funksiyanı yerinə yetirək. Bizdən sadəcə olaraq xahiş edirlər ki, icra hakimiyyətinin fikrincə, dövlətin mənafelərinə ziyan

Satış üçün nəzərdə tutulmayıb

vura biləcək materialların dərc edilməsini iki qəzetə qadağan edək. Mən əminəm ki, icra hakimiyyəti bəzi sənədlər barəsində haqlıdır. Lakin mən iddia edə bilmərəm ki, hər hansı materialların açıqlanması dövlətimizə birbaşa, bilavasitə və aradan qaldırıla bilməyəcək ziyan vuracaqdır. Deməli, Konstitusiyaya I Düzəlişə müvafiq olaraq Ali Məhkəmə bu işlər üzrə yalnız bir düzgün qərar qəbul edə bilər və mən Məhkəmənin fikrinə şərikəm.

Hakim Uayt razılaşır, hakim Styuart da ona qoşulur.

Mən bugünkü qərarla razıyam, lakin burada deyilən arqumentlərdən yalnız mətbuata bizim konstitusiya sistemi ilə verilmiş azadlığın – ilkin məhdudiyyətlərdən azadlığın dönmədən qorunması haqqında arqumenti düzgün hesab edirəm. Mən iddia etmirəm ki, I Düzəliş hökumətin planları və fəaliyyəti barədə informasiyanın dərc edilməsinə qadağan qoyulmasına heç bir şəraitdə yol vermir. Bundan əlavə, yayılmasını hökumətin hədsiz dərəcədə təhlükəli hesab etdiyi materialları öyrəndikdən sonra bu qənaətə gəlmişəm ki, həmin sənədlərin açıqlanması ictimai mənafelərə ciddi zərər vura bilər. Üstəlik, mən əminəm ki, onların açıqlanması məhz bu cür nəticəyə gətirib çıxaracaqdır. Bununla belə, mən razıyam ki, Birləşmiş Ştatlar hökuməti həmin materialların dərc edilməsinə qadağa qoyulmasının zəruriliyini inandırıcı şəkildə sübut edə bilməmişdir. Bu cür hallarda ilkin məhdudiyyətlər tətbiq edilməsinə Konqresin aydın və konkret göstərilən icazəsi olmadığı şəraitdə bunun sübut edilməsi isə son dərəcə zəruridir.

Hakim Marşall razılaşır.

Bu işdə əsas məsələ belədir: bu Məhkəmənin və ya Konqresin qanunlar yaratmaq səlahiyyətləri varmı? Əlbəttə, müəyyən hallarda bu Məhkəmə milli təhlükəsizliyə (bu anlayışın necə tövsif edilməsindən asılı olmayaraq) ziyan vuran materialların dərc edilməsinin qarşısını almaq vasitəsi kimi, "ədalət hüququ"na *(Equity Jurisdiction)* müraciət edə bilər. Lakin bu Məhkəmə Konqresin qadağan etməyə bilərəkdən lüzum görmədiyi fəaliyyətin qarşısını almaq üçün öz hakimiyyətindən istifadə etsəydi, bu, hakimiyyət bölgüsü konsepsiyası ilə əsla bir araya sığmazdı. Bundan əlavə, icra hakimiyyəti "milli təhlükəsizliyin" qorunması ilə əlaqədar onun Konqresdən aldığı səlahiyyətlərdən istifadə etmək əvəzinə bu cür təhlükəli hərəkətlərin qarşısını almaq üçün Məhkəmənin səlahiyyətlərinə müraciət etsəydi, onda hakimiyyət şaxələrinin bərabər hüquqlu olması barədə fundamental prinsip pozulmuş olardı… Aydındır ki, Konqres hökumət məmurlarının uydurduqları hər hansı "hüquq pozuntusu" barədə Məhkəmədən qadağa almaq istəyən hökumətin indi müraciət etdiyi səlahiyyətləri bu Məhkəməyə verməkdən bilərəkdən imtina etmişdir…

Satış üçün nəzərdə tutulmayıb

Hakim Harlan razılaşmır, Ali Məhkəmənin sədri hakim Bləkmun da ona qoşulur.

Hesab edirəm ki, Ali Məhkəmə bu işlərə baxılmasına məsuliyyətsiz tələskənliklə yanaşmışdır. Həm İkinci Regionun Apelyasiya Məhkəməsi, həm də Kolumbiya Mahalının Apelyasiya Məhkəməsi iyunun 23-də qərar çıxarmışdır. İşin tələb edilməsi barədə "Nyu-York Tayms"ın vəsatəti, işə sürətlə baxılması barədə tələb və qadağanın müvəqqəti ləğv edilməsi barədə ərizə bu Məhkəməyə iyunun 24-də səhər saat 11 radələrində təqdim edilmişdir. "Vaşinqton Post"un işi üzrə qadağanın müvəqqəti ləğv edilməsi barədə vəsatət də iyunun 24-də axşam saat 7:15 radələrində təqdim edilmişdir. Dinləmələrin iyunun 26-da saat 11-ə təyin edilməsi barədə Ali Məhkəmənin sərəncamı mənə dinləmələrin vaxtına 24 saatdan az qalmış verilmişdir. Mən yalnız Ali Məhkəmənin daha artıq emosional davranışının qarşısını almaq üçün bu dinləməyə qoşuldum. "Post"un işi barədə qeyd kargüzar tərəfindən iyunun 25-də gündüz saat 1-ə az qalmış, "Tayms"ın işi barədə qeyd isə ən tezi axşam saat 7-8 radələrində icra edilmişdir. Tərəflərin yazılı izahatları iyunun 26-da, dinləmələrin vaxtına 2 saatdan da az qalan bir vaxtda alınmışdır.

Görün, bu qısa müddətdə nə qədər hadisə baş vermişdir! Və bütün bunlar Konstitusiyaya I Düzəlişdə təminat verilən ilkin məhdudiyyətlərə yol verilməməsi naminə edilmişdir. Bu işlərin fövqəladə əhəmiyyəti və mürəkkəbliyi Ali Məhkəməni məcbur etməli idi ki, bu qədər tələskən qrafikdən imtina etsin…

Bütün bunlar – faktlarla bağlı, qanun və məhkəmə araşdırmaları ilə bağlı mürəkkəb məsələlərdir. Burada səhv qərar qəbul edilməsi çox ağır nəticələrə gətirib çıxara bilər. Bu işdə həm bizə, həm aşağı instansiya məhkəmələrinə, həm də işdə iştirak edən tərəflərə ayrılmış vaxt bu işlərə lazımınca diqqətlə baxılması üçün əsla kifayət deyildir. Bu cür mühüm işlərin (mənim Ali Məhkəmədə qulluq etdiyim dövrdə üzləşməli olduğum bütün işlərdən bəlkə də ən əhəmiyyətliləri bu işlərdir) lap əvvəldən ictimaiyyət tərəfindən güclü təzyiq altında həll edilməsi faktının özü bütün məhkəmə prosesinin sabitliyini şübhə altına qoyur.

Bu işin mahiyyəti üzrə qərar qəbul etməyə borclu olduğuma baxmayaraq, mən Ali Məhkəmənin fikirləri və bu qərarı ilə razılaşa bilmərəm. Bu işi öyrənmək üçün mənə verilmiş məhdud zaman çərçivəsində mən narazılığımın səbəblərini yalnız qısaca şərh edə bilərəm. Mənə aydındır ki, məhkəmələrin xarici işlər sahəsində hökumətin fəaliyyəti ilə bağlı qərarlar qəbul etmək səlahiyyətləri çox məhduddur. Fikrimcə, bu, bizim konstitusiya sistemimizin əsasını təşkil edən hakimiyyət bölgüsü prinsipindən irəli gəlir. Razıyam ki, Konstitusiyaya I Düzəlişi siyasi təzyiqdən qorumaq məhkəmə hakimiyyətinin borcudur. Razıyam ki, məhkəmə hakimiyyəti

Satış üçün nəzərdə tutulmayıb

borcunu yerinə yetirərkən icra hakimiyyətindən mübahisə obyektinin həqiqətən prezidentin xarici siyasət səlahiyyətlərinə aid olduğunu təsdiqləyən kifayət qədər sübutlar almalıdır. Konstitusiyaya görə, "məhkəmə nəzarətindən tam imtina edilməsi" qadağan olunmuşdur. Üstəlik, məhkəmə hakimiyyəti bunu tələb etməyə haqlıdır ki, icra hakimiyyətinin müvafiq bölməsinin başçısı (indiki halda dövlət katibi və ya müdafiə naziri) şəxsən öyrəndikdən sonra sübut etsin ki, bu məlumatların açıqlanması milli təhlükəsizliyə aradan qaldırıla bilməyəcək ziyan vuracaq.

Fikrimcə, məhkəmə hakimiyyəti bu iki işin hüdudlarından kənara çıxmaq və həmin materialların dərcinin milli təhlükəsizliyə göstərə biləcəyi təsiri müstəqil müəyyən etmək iqtidarında deyildir…

Hətta müəyyən şəraitdə məhkəmə hakimiyyəti icra hakimiyyətinin qərarına yenidən baxa bilərsə, yenə də aşkardır ki, bu halda həmin qərarlara bu cür yenidən baxılması sahəsi ciddi məhdudlaşdırılmalıdır… Gələcəkdə buna oxşar halların hər birində mən nəşrin qadağan edilməsi müddətinin məhkəmə proseduru tam yerinə yetirilənə qədər uzadılmasına tərəfdar olacağam. Mən inana bilmərəm ki, ilkin məhdudiyyətlərdən istifadə olunmasını qadağan edən doktrina hakimlərin ümummilli əhəmiyyət kəsb edən işlərdə tam məsuliyyətlə hərəkət etmələri üçün kifayət qədər *status quo* vaxtını dəstəkləmələrinə mane ola bilər.

Mənbə: 403 U.S. 713 (1971).

Satış üçün nəzərdə tutulmayıb

VIII HİSSƏ

Dünya İlə Üz-Üzə

Yeni İngiltərəyə gələn ilk avropalı mühacirlər öz vətənlərində tərk etdikləri cəmiyyətdən daha əxlaqlı, yeni cəmiyyət yaratmaq istədilər. Bu yeni cəmiyyət Bibliyada adı çəkilən müqəddəs "təpədə şəhər" və bütün bəşəriyyət üçün mayak rolunu oynamalı idi. Lovğalıq kimi görünən bu arzu, demək olar ki, Amerikanın bütün tarixi boyu səslənib. İstiqlaliyyət Bəyannaməsini imzalayan şəxslər öz inqilablarına bir hakimiyyət formasını digəri ilə əvəz etmək istəyən sadə məsələ kimi baxmırdılar. Onlar bütün dünyaya göstərmək istəyirdilər ki, müəyyən prinsiplər – onlar üçün dəyişməz olan azadlıq və demokratiya prinsipləri uğrunda mübarizə aparırlar. Bu şəxslərin çoxu on ildən bir qədər çox keçəndən sonra baş verən Fransa inqilabını öz alovlarından alışan məşəl kimi alqışladılar. Avraam Linkoln da böyük Vətəndaş müharibəsinin gedişində Amerika dövlət sistemini "Bəşəriyyətin son və ən gözəl ümidi" adlandırdı.

Bəziləri Amerikanın xarici siyasətini demokratik idealizmlə milli maraqlara real qayğının bir qarışığı hesab edir. Azadlıq, demokratiya və azad sahibkarlıq kimi amerikan idealları, amerikalıların fikrincə, dünyada ən dəyərli ideallardır və onlar hesab edirlər ki, digər millətlər də bu ideallara can atmalıdır. Belə fəlsəfəyə görə, Amerikanın iştirak etdiyi müharibələrə nəcib məqsədlər uğrunda aparılan mübarizə kimi baxılırdı. Amerikalıları ədalət və demokratiya uğrunda döyüşdüklərinə inandırmaq mümkün olanda, sözsüz ki, onlar özlərini daha rahat hiss edirdilər.

Başqa bir nəzər nöqtəsini həm peşəkar olmayanlar, həm də özlərini "realist" adlandıran bəzi alimlər irəli sürür. Onlar hesab edirlər ki, Birləşmiş Ştatlar öz keçmiş xarici siyasətində çox tez-tez sadəlövhlük edib: amerikalılar demokratik cəmiyyətdə yaşayıb və qalan dünyanın reallıqlarını bilməyiblər, bunun nəticəsində onların xarici siyasəti izolyasiyanizm (ölkə xaricindəki mənasız müharibələrdən ölkəni təcrid etməyə can atmaq) və dünyanı özlərinə oxşar şəklə salmaq məqsədilə həyata keçirilən döyüşkən internasionalizm siyasəti arasında tərəddüd edib.

Çox güman ki, həqiqət haradasa bunların arasındadır, lakin hər halda "realistlərin" nəzər nöqtəsinə daha yaxındır. Aydındır ki,

Satış üçün nəzərdə tutulmayıb

Amerika maraqlarının daha mükəmməl analizi ölkənin müharibələrdə və bəzi xarici avantüralarda daha az iştirakına gətirərdi. Lakin bu da həqiqətdir ki, amerikan idealları sadəcə, abstraksiya deyil, əslində onlar amerikan xarici siyasətinin müəyyən edilməsində vacib rol oynayır.

İstiqlaliyyət qazanandan sonra keçən bir əsrdən artıq müddətdə Birləşmiş Ştatlara xaricdə baş verən təhlükəli hadisələrə cəlb olunmaqdan qaçmaq xoşbəxtliyi nəsib olub. Xarici aləmlə əlaqə yaratmağa gözəl imkanlar verən Atlantik və Sakit okeanları, eyni zamanda ölkəni qalan dünyadan qoruyan təbii maneələr olmuşdur. İstiqlaliyyət qazanmış nəslin nail olmaq istədiyi də bu idi. Birləşmiş Ştatların 1803-cü ildə Luiziananın geniş ərazisini Fransadan uğurla satın almasını da burada qeyd etmək lazımdır. Genişlənmək üçün lazım olan sahə kimi bu ərazi amerikalıların bir neçə nəslini təmin etmişdir. Avropa ölkələri Yeni Dünyada olan müstəmləkələrinin əhəmiyyətli hissəsini itirdikləri zaman Birləşmiş Ştatlar onlara "Şimali və Cənubi Amerika artıq Avropanın müdaxilə obyekti ola bilməz" bəyan etməsi üçün kifayət qədər güclü idi.

Lakin Dünya dəyişilirdi və Birləşmiş Ştatlar da tədricən, çox həvəssiz də olsa dəyişməyə məcbur idi. Öz arzusu xilafına ölkə iki Dünya müharibəsinə girdi və sonra, IX hissədə göstərəcəyimiz kimi, o, qırxillik Soyuq müharibəyə cəlb olundu.

Amerikanın xarici siyasətinin demokratiyanın bütün dünyada yayılmasına yönəldilməsi fikri sadəlövh görünsə də, o həm amerikalılar üçün, həm də başqa millətlər üçün son dərəcədə önəmli idi. İstiqlaliyyət Bəyannaməsi onun müəlliflərinin ona daxil etmək istədiklərindən daha çox məna daşıdığı kimi, dünyanın idarə edilməsi barədə 14 maddədə bəyan edilən Vudro Vilson planı, qarşılıqlı təhlükəsizlik və Atlantik Xartiyası barədə Franklin Ruzveltin ideyaları və həmçinin, beynəlxalq işlərdə düzgünlüyün vacibliyinə Cimmi Karterin inamı ilkin məqsədlərində nəzərdə tutulduğundan xeyli yüksək məna daşıyırdı.

Arsız adamlar bizə deyə bilərlər ki, bütün deyilənlər yalnız gurultulu sözlərdir, bunlar amerikan imperializmini və ekspansionizmini maskalamaq məqsədi güdür. Lakin hər halda sözün də qiyməti var: ölkənin daxili siyasətini müəyyən edən nəcib bəyannamələr kimi demokratik xarici siyasətin vacibliyi barədə bəyanatlar da milli xarakterin formalaşdırılmasına kömək edir .

Satış üçün nəzərdə tutulmayıb

Satış üçün nəzərdə tutulmayıb

49. Vida Müraciəti (1796)

Corc Vaşinqton

Corc Vaşinqtonun Birləşmiş Ştatların ilk prezidenti olmağa daha çox şansı var idi. Həqiqətən də, çoxları Konstitusiyanın ratifikasiyasını yalnız ona görə dəstəkləyirdi ki, yeni dövlətin başçısının məhz Vaşinqtonun olacağına əmin idi. Və Vaşinqton öz fəaliyyəti ilə sübut etdi ki, o, bacarıqlı, hətta böyük prezidentdir. O, yeni dövlətin təməlini qoydu və ölkəni bir sıra daxili və xarici böhranlardan çıxardı.

Bir çox müasirləri kimi Vaşinqton da siyasi partiyaların əhəmiyyətini anlamır və onlara etibar etmirdi. O, partiyaları daxili sabitliyi sarsıdan qurumlar sayırdı. Vaşinqtonun prezidentliyi dövründə, onun bəzi hərəkətlərinə cavab olaraq ölkədə siyasi partiyalar formalaşmağa başlayarkən, o, kəsdirə bilmədi ki, tezliklə partiyalar Amerika xalqının əlində əsas alətə çevriləcək və mühüm ictimai məsələlərin müzakirəsi və həlli elə bu alətin vasitəsilə həyata keçiriləcək. Və məhz partiyaların xalqa güclü ziyan vura biləcəyi qorxusu Vaşinqtonu öz vida müraciətini yazmağa sövq etdi.

1790-cı illərin əvvəllərində iki siyasi partiya yaradıldı: bunlardan biri – Vaşinqtonun iqtisadi və xarici siyasətini dəstəkləyən "Federalistlər", digəri isə bu siyasətin əleyhinə çıxan Ceffersonun "Respublikaçılar"ı idi. Federalistlər maliyyə naziri Aleksandr Hamiltonun *(Alexander Hamilton)* Mərkəzi Bankın yaradılması planını, habelə sənaye istehsalının inkişafına təkan verə biləcək tarif və vergi siyasətini dəstəkləyirdi; respublikaçılar Hamiltonun planında nəzərdə tutulmuş güclü dövlət əleyhinə idilər və sənayeçiləri deyil, fermerləri müdafiə edirdilər. Xarici siyasətdə hər iki tərəf istəyirdi ki, Böyük Britaniya və Fransa arasında getdikcə güclənən qarşıdurmada Birləşmiş Ştatlar bitərəf mövqe tutsun, lakin ürəkdə, federalistlər ingilislərə, respublikaçılar isə fransızlara rəğbət bəsləyirdilər[100]. Vaşinqtonun müraciəti qismən də olsa, partiyalararası ziddiyyətlərin nəticəsində Birləşmiş Ştatların da bu beynəlxalq münaqişəyə sürüklənə biləcəyindən ehtiyatlanması ilə bağlı idi.

Müraciətin üçdə ikisi daxili məsələlərə və siyasi partiyaların yaranmasına həsr olunmuşdu. Vaşinqton Birləşmiş Ştatları həqiqətən böyük dövlət etməyin konkret yolları barədə öz görümünü diqqətə çatdırırdı. O, hamını öz partiya baxışlarını bir kənara qoyaraq, xarici öhdəliklərdən tam azad olan, ümumi xeyir və "Amerika mahiyyəti" naminə birləşməyə çağırdı: Birləşmiş Ştatlar yalnız Amerika maraqları üzərində köklənməlidir; Amerika bütün ölkələrlə ticarət üçün açıq olmalı, lakin bu zaman beynəlxalq münaqişələrə sürüklənməkdən çəkinməlidir. Bəzi fikirlərin əksinə olaraq Vaşinqton burada xalqı təcridə deyil, onun üzə-

Satış üçün nəzərdə tutulmayıb

rinə hər hansı bir minnət qoya biləcək ittifaqlardan çəkinməyə çağırırdı. O, Amerika İnqilabı zamanı Fransa ilə bağlanmış müqavilənin icrasını dəstəkləməyə çağırsa da, bu müqavilənin nəticəsində yaranmış problemlər göz qabağında idi. Vaşinqton hesab edirdi ki, Birləşmiş Ştatlar "başqaları üçün deyil, özü üçün çalışmalıdır".
Bu müraciət qısa bir müddətdə "ilahi vəhylər" sırasında yer tutdu. Sonrakı onilliklər ərzində hər il bu nitqi Konqresdə ucadan oxuyur, uşaq dərsliklərində dönə-dönə nəşr edir, qol saatlarında nəqş edir və qobelenlərdə ipək sapla toxuyurdular. Bir çox amerikalılar, ələlxüsus sonrakı nəsillərin nümayəndələri Vaşinqtonun məsləhətlərini İncil kəlamı kimi qəbul edirdilər. Bitərəf qalmaq və ya xarici problemlərə cəlb olunmaq barədə mübahisələr yaranarkən amerikalılar məhz bu nitqə istinad edirdilər. Həqiqətən də, Birləşmiş Ştatlar 1949-cu ilə qədər xarici dövlətlərlə heç bir müttəfiqlik müqaviləsinə imza atmadı.

Əlavə məlumat üçün oxuyun: Burton I. Kaufman, ed., Washington's Farewell Address: The View from the 20th Century (1969); Paul A. Varg, Foreign Policies of the Founding Fathers (1963); Alexander De Conde, Entangling Alliances (1958).

VİDA MÜRACİƏTİ

Dostlar və həmvətənlər,

Birləşmiş Ştatların icra hakimiyyətinin başçısı vəzifəsinə ölkənin yeni vətəndaşının seçilməsi vədəsi yetişir. Elə bir vədə ki, siz öz sağlam düşüncənizə müraciət edərək, çox yüksək etimada layiq görülən şəxsi seçməlisiniz. Buna görə mənə belə gəlir ki, seçim edəcəyiniz şəxslər sırasında prezident vəzifəsi üçün səsə qoyulmamaq haqqında öz şəxsi qərarımı sizə çatdırmağım yerinə düşərdi, ələlxüsus, bunun seçkiqabağı durumdan xalqın baş açmasına köməyi dəyərsə…

Mən bu mürəkkəb işi yerinə yetirmək üçün öz vəzifəmə başlayarkən, keçirdiyim hisslər haqqında artıq sizə danışmışam. Bu gün bu səlahiyyətləri üstümdən götürərkən, mən sadəcə, deyə bilərəm ki, dövlətin təşkili və idarə olunması üçün gücüm çatan hər şeyi etmişəm. Elə ilk gündən bilik və təcrübəmin azlığını (öz gözlərimdə, elə ətrafdakıların gözündə də) bildiyimə görə, mənim özümə inamımı daha da zəiflətmişdi. Və yaşımın günbəgün artan yükü getdikcə daha tez-tez, bu qədər vacib və arzuolunan hesab etdiyim istefanı yadıma salır. Xidmətlərimin müvəqqəti də olsa fayda gətirməsi hissindən

Satış üçün nəzərdə tutulmayıb

məmnuniyyət duyaraq, mən həm də onunla dinclik və təsəlli tapıram ki, düzgün seçim və sağlam düşüncə mənə siyasi meydandan vaxtında getməyi məsləhət görür, vətənpərvərliyim isə buna etiraz etmir…

Bəli, getmək vaxtım çatıb. Lakin sizin rifahınız haqqında, mənim həyatımdan sonra da davam edəcək qayğı və bu qayğıya xas olan təhlükə qarşısında qorxu, məni uzun düşüncə və müşahidələrin bəhrəsi olan bəzi mülahizələrimi sizin mühakimənizə verməyi sövq edir; bu mülahizələr xalqımızın uzun müddətli tərəqqisi üçün mənə çox önəmli görünür…

Azadlıq eşqi hər birimizin qəlbinə elə sirayət edib ki, bunu bir daha təkrar və ya təsdiq etməyə heç bir ehtiyac duymuram. Lakin bizi vahid xalq edən dövlət vəhdəti də bizim üçün əzizdir. Bu belə də olmalıdır, çünki vəhdət bizim gerçək müstəqilliyimizin əsas dayağıdır; ölkə daxilində sabitliyin və onun hüdudları kənarında əmin-amanlığın, təhlükəsizliyinizin, firavanlığınızın və nəhayət, bu qədər yüksək qiymətləndirdiyiniz azadlığın təməlidir. Lap öncədən asan görmək olar ki, bizim bu həqiqətə olan inamımızı sarsıtmaq üçün çox şeylər ediləcək, çünki sizin siyasi "qala"nızda o elə bir mühüm nöqtədir ki, xarici və daxili düşmənlərimizin bütün həmlələri ona qarşı yönəldiləcəkdir (baxmayaraq ki, bu çox vaxt gizlicə və satqıncasına ediləcəkdir). Ümumi və şəxsi xoşbəxtlik üçün sizin milli vəhdətinizin böyük əhəmiyyətini düzgün qiymətləndirmək çox vacibdir; bu vəhdətə səmimi qəlbdən, bütün varlığınızla və fədakarcasına sadiq olmaq, bu barədə, sizin siyasi təhlükəsizliyinizin və tərəqqinizin rəhni kimi danışmaq və düşünməyi öyrənmək; onun qorunması qayğısına qeyrətlə qalmaq; hansısa hallarda guya onun daha lazım olmayacağına dair istənilən eyhamları rədd etmək, ölkəmizin hansısa hissəsini ayırmaq və ya bizi bir-birimizə bağlayan müqəddəs telləri zəiflətmək yolunda istənilən cəhdləri qəzəblə rədd etmək çox vacibdir. Sizin marağınız bundadır və hər biriniz buna can atmalısınız. Doğuluş və ya seçim üzrə bu ölkənin vətəndaşları olmaqla siz, ona fədakarcasına sədaqətli olmalısınız. Vətəndaşlığınız üzrə hər birinizə məxsus olan amerikalı adı həmişə sizdə iftixar və vətənpərvərlik hissi oyatmalıdır. Cüzi fərqlərlə hamınızın eyni bir dini, ənənələri, vərdişləri və siyasi prinsipləri vardır. Siz vahid məqsəd naminə bir yerdə vuruşmusunuz və bir yerdə qələbə çalmısınız. Müstəqilliyiniz və azadlığınız birgə işin və birgə səylərin, ümumi hədələr, əzablar və uğurların bəhrəsidir.

Lakin bütün bu dəlillər, onların sizin hisslərinizə nə dərəcədə güclü təsir göstərməsindən asılı olmayaraq, bilavasitə maraqlarınızla bağlı olan dəlillərdən az önəmlidir. Ölkəmizin hər bir guşəsi vəhdətin müdafiəsi və qorunması üçün ən inandırıcı dəlillərə malikdir.

Cənubla məhdudiyyətsiz qarşılıqlı münasibətləri saxlayan və vahid dövlətin bərabər qanunları ilə mühafizə olunan Şimal bu cür münasibətlər sayəsində dəniz və ticarət əməkdaşlığı üçün əlavə xeyli resurslar, habelə sənayenin istehsal sektorunun inkişafı üçün qiymətli xammal əldə edir. Cənub isə Şimalla bu cür ünsiyyətin gedişatında öz kənd təsərrüfatını və ticarətini inkişaf etdirir. Şimalın dənizçilərini müəyyən dərəcədə öz kommunikasiyalarına cəlb edən Cənub öz gəmiçiliyini inkişaf etdirir; və Cənub ümummilli gəmiçiliyin

Satış üçün nəzərdə tutulmayıb

əsas kütləsinin inkişafına və artımına kömək etdikcə, həm də, hələlik yetərincə inkişaf etməmiş öz gəmiçiliyini möhkəmlədəcəkdir. Həmin yolla, Şərq Qərblə əməkdaşlıq edərək, artıq xaricdən gətirilən və evdə istehsal edilən malları satmaq iqtidarındadır və daxili yerüstü və dəniz kommunikasiyaları yaxşılaşdırıldıqca, ticarətin bu növü durmadan inkişaf edəcəkdir. Qərb isə Şərqdən ona inkişaf və komfort üçün lazım olan şeyləri alır. Lakin bu da vacibdir ki, Şərqdən gələn malların satışı üçün etibarlı bazarların mövcudluğu İttifaqın Atlantik sahillərinin dənizçilik qüdrətindən asılı olacaqdır ki, burada da birinci yerə vəhdətimizdən irəli gələn maraqların sarsılmaz birliyi qoyulur. Qərbin üstünlük qazana biləcəyi istənilən digər yol, istər bu, onun daxili resursları, istərsə də hər hansı bir xarici dövlətlə dönük və qeyri-təbii əlaqələri ilə bağlı olsun, hökmən uğursuzluğa məhkumdur.

Müvafiq olaraq, ölkəmizin hər hissəsi ittifaqın vəhdətində bilavasitə və birbaşa maraqlıdırsa, onun bütün hissələri bir yerdə götürüldükdə, bu vahid vasitələr və səylər kütləsi hesabına daha böyük gücə, daha böyük resurslara, xarici hədələrə qarşı daha böyük təhlükəsizliyə, xarici dövlətlər tərəfindən öz əmin-amanlığının daha az pozulmasına nail olacaqlar. Və ən qiymətlisi budur ki, bu cür vəhdətin sayəsində onlar özlərini elə öz ixtilaf və müharibələrindən qoruyurlar, halbuki bir-birləri ilə vahid idarə etmə ilə bağlı olmayan qonşu dövlətlər bu cür münaqişələrə tez-tez məruz qalırlar. Bu ixtilaflar bəzən birbirləri arasında adi rəqabət nəticəsində yarana bilər, lakin xarici alyanslara üzvlüklə və ya onların qarşısında hansısa müəyyən öhdəliklərlə daha da dərinləşə bilər. Bu yolla ölkəmizin müxtəlif hissələri özlərində getdikcə artıb böyüyən hərbi strukturlar yaratmaq zərurətindən yaxa qurtara bilərlər, bu cür strukturlara isə istənilən dövlət quruluşunda, azadlıq hissi yaddır və onlar "azad respublika" anlayışını qəbul etmək belə istəmirlər. Məhz bu mənada ittifaq məhz azadlığınızın əsas dayağı kimi nəzərdən keçirilməlidir. Və sizin azadlığa olan sevginiz bu vəhdəti qoruyub saxlamaqda sizə kömək etməlidir…

Ümumi dövlətin bu cür nəhəng sahəni birləşdirib idarə edə bilməsinə sizdə şübhə varsa, qoy bu suala təcrübə cavab versin. Bu mövzu üzrə əsassız fikir yürütmək cinayətə bərabər olardı. Bu məsələ ciddi öyrənmə tələb edir. Bir halda ki, ölkəmizin bütün hissələrinin birləşməsi üçün bu cür inandırıcı və aşkar səbəblər mövcuddur və neqativ təcrübə yoxdur, ölkənin hansısa guşəsində, ölkəmizi birləşdirən telləri zəiflətməyə çalışanların yerliçi vətənpərvərliyinə biz ciddi baxa bilmərik.

İttifaqımız üçün ən ciddi problemlər onunla bağlıdır ki, tərəfləri coğrafi əlamətlərə görə bölmək, onları şimallılara və cənublulara, Atlantik sahillərindən və Qərbdən gələnlərə ayırmaq cəhdlərinə rast gəlinir.

Bizi inandırmağa çalışırlar ki, guya onların baxışları ilə yerli maraqlar arasında gerçək fərqlər mövcuddur. Müəyyən dairədə nüfuz qazanmaq üçün yerli partiya digər dairələrin məqsəd və baxışlarını təhrif etməyə çalışır və bu cür təhriflərlə mübarizə aparmaq çox çətindir. Onlar qardaşlıq hisslərivlə bağlanmalı olan kəsləri yad kimi qələmə verməyə səy edirlər.

Satış üçün nəzərdə tutulmayıb

İttifaqımızın effektiv və möhkəm olması üçün vahid dövlət gərəkdir. İttifaqın ayrı-ayrı hissələri arasında alyanslar nə qədər möhkəm olsa da, onlar ittifaqı əvəz edə bilməz. Onlar hökmən bütün dövrlərdə və bütün alyanslar üçün qaçılmaz olan münaqişələr və daxili çəkişmələrlə üzləşəcəklər. Bu mühüm həqiqəti dərk etməklə siz birinci cəhdlə[101] müqayisədə daha uğurlu addım ataraq, İttifaqın bütün hissələrinin yaxınlaşmasına və ümumi vəzifənin həllinə kömək etməyə qabil olan Konstitusiyanı qəbul etmisiniz.

Dürüst və yetkin təhlilin nəticəsində yaradılmış bu dövlət sizin heç bir təsirə və qorxuya boyun əyməyən seçiminizin bəhrəsidir. Bu dövlətin sizin etimadınıza və dəstəyinizə ümid etməyə tam haqqı var, belə ki, o öz prinsiplərində, öz səlahiyyətlərinin bölgüsündə tam azaddır; belə ki, bu dövlət özündə gücü və təhlükəsizliyi birləşdirir və öz fəaliyyətini yaxşılaşdırmaq haqqında müddəaları daşıyır. Onun hakimiyyətini tanımaq, onun qanunlarına tabe olmaq və onun hərəkətləri ilə razılaşmaq bizim ümumi borcumuzdur və bu borc həqiqi azadlığın tələblərindən irəli gəlir. Bizim siyasi sistemimizin təməlini xalqın öz dövlət quruluşunu yaratmaq və dəyişdirmək hüququ təşkil edir. Lakin qüvvədə olan Konstitusiya – xalqın aydın ifadə olunmuş iradəsi ilə dəyişdirilənə qədər – hamı üçün müqəddəs olmalıdır. Xalqın dövlət yaratmaq hüququ haqqında ideyanın özü hər bir vətəndaşın, yaradılmış dövlətə tabe olmaq vəzifəsini ehtiva edir.

Dövlətinizin qorunub saxlanması və hazırkı firavanlığınızın sabitliyi üçün dövlətin qanuni hakimiyyətinin əleyhdarları ilə daim mübarizə aparmaq azdır, həm də onun prinsiplərinə dair hər cür yeniliklərə, bunlar nə qədər əsaslandırılmış olsa belə, səylə müqavimət göstərmək gərəkdir. Məsələn, bu prinsiplərə təcavüz etməyin üsullarından biri – Konstitusiyaya, dövlət sistemini zədələyə biləcək və adi qaydada devrilməsi mümkün olmayan şeyləri poza biləcək dəyişikliklərin daxil edilməsidir.

Hər hansı dəyişiklik etmək həvəsinə düşərkən, unutmayın ki, başqa institutların xassələrinin müəyyənləşdirilməsində olduğu kimi, dövlət xassələrinin təyinatında da zaman və ənənə çox mühüm rol oynayır. Yadda saxlayın ki, ölkənin dövlət quruluşunun həqiqi xüsusiyyətlərinin müəyyənləşdirilməsi üçün ən etibarlı meyar – təcrübədir; sadə fərziyyələr və yoxlanılmamış rəylər əsasında asanlıqla həyata keçirilən dəyişikliklər sonradan sonsuz dəyişikliklərə gətirib çıxara bilər. Və nəhayət, yadda saxlayın ki, bu cür nəhəng ölkədə ümumi işimizi səmərəli idarə etmək üçün elə bir dövlətə malik olmaq lazımdır ki, onun gücü sizin tam azadlığınıza zidd olmasın. Səlahiyyətlərin lazımi qaydada bölündüyü və tənzimləndiyi dövlətdə azadlıq etibarlı şəkildə qorunur. Dövlət, fraksiyaçıların onu parçalamaq cəhdlərinə qarşı duruş gətirmək iqtidarında olmalıdır, o hər bir vətəndaşa göstərməlidir ki, qanunların sərhədləri haradan keçir və o, hamı üçün şəxsi hüquqların və mülkiyyətin tam və sabit riayət olunmasını təmin etməlidir.

Mən yuxarıda, Ştatın daxilində partiyaların, onların coğrafi ayrı-seçkiliyi həyata keçirmələri ilə bağlı təhlükəli fəaliyyəti barədə söhbət etmişdim. İndi

Satış üçün nəzərdə tutulmayıb

isə izn verin, sizi bunun daha müfəssəl xarakteristikası ilə tanış edim və bütövlükdə partiya ruhunun məhvedici nəticələri barədə rəsmi surətdə sizi xəbərdar edim. Bu ruh, bədbəxtlikdən, bizim təbiətimizdən ayrılmazdır və insan şüuruna xas olan ehtiraslarda kök salıb. O, bütün dövlətlərdə, ən müxtəlif formalarda – az və ya çox dərəcədə ifadə edilmiş, nəzarətdə olan və ya itaətə gətirilmiş formada mövcuddur; lakin xalq hökumətində o, xüsusilə aşkar ifadə edilib və onun qatı düşməni sayılır… O, dövlət şuralarını dağıdır və idarəçilik işini zəiflədir. O, cəmiyyətdə əsassız qısqanclıq oyadır və yalançı həyəcanlar doğurur; bütövün bir hissəsini digərinə qarşı qaldırır; gözlənilməz üsyanlara və qiyamlara gətirib çıxarır. O, partiya ehtirasları kanalları vasitəsilə hökumətin özünə yol tapan xarici təsir və korrupsiya üçün qapıları taybatay açır. Beləliklə, bir ölkənin siyasəti və iradəsi digərinin siyasətinə və iradəsinə tabe etdirilir.

Belə fikir mövcuddur ki, azad ölkələrdə partiyalar hökumətin hakimiyyətinin qarşısını alan mühüm mexanizmdir və azadlıq ruhunun dəstəklənməsinə xidmət edir. Müəyyən mənada bu bəlkə də belədir. Monarxiya xarakterli dövlətlərdə isə vətənpərvərlik bu partiya ruhuna kömək edir və hətta onu həvəsləndirir. Lakin xalq hökumətində, tamamilə seçkili xarakterli dövlətlərdə bu ruh həvəsləndirilməməlidir. Xalq hökuməti öz təbiəti etibarilə, müxtəlif xeyirxah məqsədlər üçün yetərincə bu cür ruha malik olur, lakin onun həddən çox bolluğunun təhlükəli olmasını nəzərə alaraq, ictimai rəy vasitəsilə onu yumşaltmaq və zəiflətməyə çalışmaq lazımdır. Tamamilə söndürülməsi mümkün olmayan oda oxşayan bu ruh bizdən daim sayıqlıq tələb edir ki, o, alovlanaraq böyük yanğına çevrilməsin, əks halda o bizi qızdırmaq əvəzinə məhv edə bilər.

Bu da vacibdir ki, azad ölkədə təfəkkür ənənəsi hakimiyyətdə olanlara öz konstitusion sahələri çərçivəsindən kənara çıxmalarına imkan verməsin; onların bir təsisatın səlahiyyətlərinin icrası zamanı başqa təsisatın hüquqlarını pozmasına mane olsun. Hakimiyyətdən sui-istifadə ruhu hakimiyyətin bir qisim şəxsin əlində cəmlənməsinə səbəb olur ki, bu da dövlət formasından asılı olmayaraq, əsl despotizmin yaranmasına gətirib çıxarır… Əgər xalqın fikrincə, konstitusion hakimiyyət düzgün bölünmürsə və ya dəyişdirilmirsə, bunu Konstitusiyada nəzərdə tutulmuş üsulla düzəltmək olar. Lakin dəyişikliklərin qeyri-qanuni üsullarla edilməsinə yol verməyin; bu üsullar hansısa bir halda hətta fayda gətirə bilər, lakin əsasən onlar azad dövlətin dağıdılmasının başlıca alətidir. Daimi problemlərlə mübarizədə presedent həmişə yarımçıq və ya ötəri faydadan yüksəkdə durmalıdır.

Siyasi çiçəklənməyə aparan ənənələr və faktorlar arasında din və əxlaq əvəzolunmaz dəyərlərdir. İnsana və vətəndaşa, onun vəzifə borcunu yerinə yetirməkdə kömək edən bu faktorları saya salmayan, insan xoşbəxtliyinin bu böyük dayaqlarını sarsıdan kəsləri vətənpərvərliyə çağırmaq əbəsdir.

Adi siyasətçi, eləcə də dindar insan bu dəyərlərə eyni dərəcədə hörmət etməyə və onları əziz tutmağa borcludur. Bu dəyərlərin şəxsi və ictimai həyata bütün təsirini izləmək çətindir. Sadəcə soruşmaq olar: "Məhkəmə araşdırması

Satış üçün nəzərdə tutulmayıb

gedişində verilən and anında insanda dini məsuliyyət hissi olmursa, mülkiyyətin, nüfuzun, insan həyatının təhlükəsizliyinə necə təminat vermək olar?" Və gəlin bir anlığa təsəvvür edək ki, əxlaqı dinin köməyi olmadan da qorumaq mümkündür. Biz bu fikrə təhsilin insan zəkasına təsiri ilə haqq qazandırmağa nə qədər çalışsaq da, şüur və təcrübə, milli mənəvi ruhun dini prinsiplərdən kənarda təntənə çala biləcəyini düşünməyi bizə qadağan edir.

Şübhəsiz ki, əxlaq tərbiyəsi demokratik dövlətin zəruri ünsürüdür. Bu qayda az və ya çox dərəcədə azad dövlətin bütün növlərinə şamil edilə bilər. Azad dövlətin səmimi və sadiq tərəfdarı olan kəs onun əsaslarını sarsıtmaq cəhdlərinə laqeyd tamaşa edə bilərmi?

Daha sonra, biliklərin yayılmasına kömək edən institutların ön plana çəkilməsi çox vacibdir. Dövlət, ictimai rəyi vacib saydığı qədərində də, onu maarifləndirməyə çalışmalıdır. İctimai etimadın qədrini bilmək və onu əziz tutmaq vacibdir – dövlətin güc və təhlükəsizliyinin mənbəyi bundadır. Buna nail olmanın üsullarından biri bu etimaddan son dərəcə ehtiyatla istifadə etməkdir. Lazımsız xərclərdən qaçmaq üçün əmin-amanlığı saxlamaq vacibdir, lakin unutmayın ki, gözlənilən təhlükəyə hazırlıq üçün vaxtında xərc çəkilməsi, bu təhlükənin nəticələrinin aradan qaldırılması üzrə tədbirlərin görülməsindən qat-qat ucuz başa gəlir.

Elə bu cür də, borcların yığılıb böyüməsindən qaçmaq lazımdır. Lakin bu o demək deyil ki, biz hansısa xərclərdən çəkinməliyik. Lakin dinc dövrdə, borclardan xilas olmaq üçün təsirli tədbirlər görülməlidir.

Labüd müharibələr nəticəsində yığılıb qalmış borclardan xilas olmağa, özümüz çəkməli olduğumuz yükü gələcək nəsillərin üzərinə qoymamağa çalışmaq lazımdır…

Bütün ölkələrə etibar və ədalətlə yanaşın. Hamı ilə münasibətdə sülhü və harmoniyanı təbliğ edin. Bunu din və əxlaq da tələb edir. Məgər ləyaqətli siyasət bunu tələb etməyə bilərmi? Yalnız azad, maarifpərvər və yaxın gələcəyin böyük ölkəsi bütün bəşəriyyət üçün, xalqın ədalət və nəcibliyin köməyilə idarə oluna bilməsi barədə bu cür alicənab və misilsiz nümunə göstərə bilər. Kim şübhə edə bilər ki, zaman keçdikcə, bu cür planın nəticələri istənilən müvəqqəti üstünlüklər itkisini artıqlaması ilə ödəyə bilər? Heç ola bilərmi ki, İlahi qüvvə xalqın əbədi xoşbəxtliyini onun fəzilətləri ilə bağlamasın? Ən azı bunu insan təbiətini nəcibləşdirən hisslər tələb edir. Baxmayaraq ki, gördüyümüz kimi, insan təbiəti qəbahətlərlə doludur.

Bu planın həyata keçirilməsi zamanı, müəyyən millətlərə daimi və köhnə ədavət hissinin və digər millətlərə hədsiz meylin aradan qaldırılmasından vacib iş yoxdur. Bunun əvəzinə, hamıya ədalətli və dostcasına münasibət bəsləmək lazımdır. Kimə qarşısa hədsiz nifrət və ya hədsiz bağlılıq duyan xalq müəyyən mənada kölədir; o öz ədavətinin və ya bağlılığının köləsidir. Hətta bu anlayışlardan birinin olması kifayətdir ki, xalqı öz borc və mənafeləri yolundan azdırmaq mümkün olsun. Bir xalqın digərinə düşmən münasibəti onları qarşılıqlı təhqirlərə, bir-birinə ziyan vurmağa, inciklik və düşmənçilik üçün

Satış üçün nəzərdə tutulmayıb

səbəblər axtarmağa, habelə təsadüfi və ya cüzi fikir ayrılıqları üzündən təkəbbür və inadkarlığın nümayişinə sövq edir.

Bir xalqın digərinə həddən artıq bağlılığı da bu cür fəsadlar doğurur. Bir xalqın digərinə rəğbəti əsassız yerə hansısa ümumi mənafelərin olması görüntüsünü yaradır və başqa xalqlar barəsində özgə düşmənçiliyini təlqin edir. Bütün bunlar bir xalqı heç bir əsas və bəraət olmadan, digər xalqın apardığı müharibəyə və ya onun daxili çəkişmələrinə cəlb edə bilər. Bu cür ikili münasibət həm də müəyyən dövlətlərin xeyrinə güzəştlər edilməsinə, digər dövlətlərdən isə bunun əsirgənilməsinə gətirib çıxarır ki, bu da güzəşt edən dövlətə daha böyük ziyan vurur, belə ki, o özü üçün saxlamalı olduğu şeydən lazımsız yerə əlini üzməli olur, digər tərəfdən, hamı üçün bərabər dərəcədə nəzərdə tutulmuş imtiyazlar barədə rədd cavabı almış dövlətlərdə bizə qarşı paxıllıq, qısqanclıq və intiqamçılıq hisslərini oyadır; müəyyən ölkələrə tərəfgirlik edən iddialı, korrupsiyaya qurşanmış və saxtakar vətəndaşlara öz ölkəsinin mənafelərini həyasızcasına satmağa və qurban verməyə imkan yaradır. Bu cür fəaliyyət hətta bəzən onlara populyarlıq gətirir: guya onlar bunu borc hissinə, "ictimai rəyə hörmətə" görə edirlər. Əsl həqiqətdə isə onları hərəkətə gətirən sarsaq iddialar, acgözlük və kor-koranə rəğbətdir…

Azad xalqın sayıqlığı həmişə məkrli xarici təsirə qarşı yönəlməlidir (həmvətənlərim, and verirəm ki, mənə inanasınız), belə ki, tarix və təcrübə göstərir ki, xarici təsir respublika dövlətinin ən qatı düşmənlərindən biridir. Lakin faydalı olması üçün bu sayıqlıq qərəzsiz olmalıdır, əks halda o özü arzuolunmaz təsir alətinə çevrilə bilər. Hər hansı bir əcnəbi dövlətə qarşı hədsiz rəğbət və digəri barədə hədsiz qərəzli münasibət ona gətirib çıxarır ki, bu hisslərin təsiri altına düşmüş xalq biri ilə münasibətdə yalnız təhlükə, digəri ilə münasibətdə yalnız firavanlıq mənbəyini görür. Dostbazlığın fitnələrinə müqavimət göstərən əsl vətənpərvərlər bir qayda olaraq şübhə və həqarət hədəfinə çevrilir, xalqın bütün rəğbəti və etimadı isə onun mənafelərini satan dələduzların payına düşür.

Xarici dövlətlərlə münasibətlərimizin əsas qaydası ondan ibarətdir ki, onlarla ticarət münasibətlərini inkişaf etdirərkən, biz onlarla mümkün qədər az siyasi münasibətlərə girməliyik. Gəlin, artıq öz üzərimizə götürdüyümüz öhdəliklərə vicdanla əməl edək və gəlin, bununla da əl saxlayaq.

Avropanın bizimlə heç bir və ya demək olar heç bir əlaqəsi olmayan bir sıra öz mühüm maraqları var. Avropa ölkələri daim öz aralarında müxtəlif mübahisə və münaqişələrə girəcəklər və bu zaman bunların səbəbləri bizim üçün həmişə yad olacaqdır. Buna görə bizim üçün ağılsızlıq olardı ki, Avropanın dəyişkən siyasəti və ya onun cari rəğbət və ya düşmənçiliklərindən irəli gələn problemləri ilə süni əlaqələrlə əl-qolumuzun bağlanmasına imkan verək.

Avropadan coğrafi uzaqlığımız və fərqli mövqeyimiz başqa kursla, başqa yolla getməyimizə imkan verir. Biz bundan sonra da vahid xalq kimi qalsaq və bizim səmərəli işləyə bilən hökumətimiz olsa, xarici qüvvələrin bizə maddi ziyan vurma yönündə istənilən cəhdlərinin qarşısını ala biləcəyimiz, hamıya

Satış üçün nəzərdə tutulmayıb

qarşı qərəzsiz, ədalətli münasibətimizin bizə ümumi hörmət gətirəcəyi, hərbçi dövlətlərin bizim hesabımıza faydalanmağın mümkünsüzlüyünü dərk edərək, bizi provakasiya etmək riskinə getməyə ürək eləməyəcəyi, ədalət prinsipləri üzərində qurulan şəxsi mənafelərimizdən asılı olaraq sülh və müharibə arasında özümüzün seçim edə biləcəyimiz gün çox da uzaqda deyil.

Bu cür mürəkkəb vəziyyətdə biz nə üçün özümüzü hansısa üstünlüklərdən məhrum etməliyik? Nə üçün bizə mənsub olan şeylərdən əcnəbilərin xeyrinə imtina etməliyik? Nə üçün öz taleyimizi Avropanın hansısa hissəsinin taleyi ilə bağlamalı, öz əmin-amanlıq və tərəqqimizi Avropanın iddiaları, rəqabət və mənafelərindən yaxud şıltaqlığından asılı vəziyyətə salmalıyıq?

Siyasətimiz ondan ibarət olmalıdır ki, xarici dünyanın hər hansı bir hissəsi ilə hansısa əbədi alyanslardan kənarda duraq – mən seçim azadlığını özümüzdə saxlamağı nəzərdə tuturam. Elə düşünməyin ki, mən artıq mövcud olan müqavilələrə riayət etməməyə çağırıram. Mən belə hesab edirəm ki, ictimai, eləcə də şəxsi işlərdə "ən yaxşı siyasət düzlükdür". Buna görə təkrar edirəm: bizim xarici dövlətlərlə artıq bağladığımız müqavilələrə dönmədən riayət olunmalıdır. Lakin hesab edirəm ki, bunların uzadılmasına ehtiyac yoxdur və əks halda bu, sağlam düşüncəyə zidd olardı.

Təhlükəsizliyimizi lazımi qaydada təmin etməyə qabil olan zəruri institutları yaratmaqla, biz fövqəladə hallar üçün nəzərdə tutulmuş müvəqqəti alyanslara etibar etməklə riskə gedə bilmərik.

Bütün ölkələrlə harmoniyanı və azad münasibətləri bizim siyasətimiz, insaniyyətimiz və şəxsi maraqlarımız tələb edir. Bizim ticarət siyasətimiz də qərəzsiz olmalı və kimlərəsə xüsusi nemətlər və imtiyazlar verilməsinə əsaslanmamalıdır; o, hadisələrin təbii gedişinə dayaqlanmalı, ticarət axınına təbii müxtəliflik verməli, zora əl atmamalıdır.

Ticarətə sabit yön vermək, ticarətçilərimizin hüquqlarını müəyyən etmək və onlara hökumət yardımını vermək üçün ticarət siyasətimiz müvafiq səlahiyyətlərdən istifadə etməklə, müqaviləvi qaydaları – halların və tərəflərin qarşılıqlı razılığının bizə imkan verə biləcəyi ən yaxşı qaydaları yaratmalıdır. Lakin bu qaydalar müvəqqəti xarakter daşımalıdır – onlara yenidən baxılmalı və hətta konkret situasiyadan asılı olaraq onlar ləğv edilməlidir.

Yadda saxlayın: başqa dövlətdən daim təmənnasız kömək ummaq böyük səhv olardı; çünki adətən bu cür köməyin əvəzini ölkə öz müstəqilliyinin bir hissəsi ilə ödəməli olur; bu cür köməyi qəbul etməklə o, bu köməyin haqqını ödəsə də, haqqın guya yetərincə olmamasına görə təqsirləndirilir.

Dövlətlər arasında təmənnasız yardım gözləmək və buna ümid etməkdən kobud səhv ola bilməz. Bu xülyadan bizi yalnız təcrübə sağalda bilər, yalnız ədalətli məğrurluq bizi ondan xilas edə bilər.

Mən başçılıq etdiyim hökumətin fəaliyyətini nəzərdən keçirərkən hər hansı qəsdən yol verilmiş səhvləri görməsəm də, bununla belə, qüsurların olmaması ilə öyünə bilmərəm, düşünürəm ki, onlar az olmayıb. Onların necəliyindən asılı olmayaraq, mən Tanrıdan səmimi-qəlbdən rica edirəm ki, bu qüsurların

Satış üçün nəzərdə tutulmayıb

nəticələrini yüngülləşdirsin. Mən həmçinin bu ümiddəyəm ki, ölkəm mənim səhvlərimə güzəştlə yanaşacaq və həyatımın 45 ilini öz ölkəmə sədaqətli xidmətə həsr etdiyimi nəzərə alaraq yol verdiyim bütün səhvləri yaddaşından siləcək, necə ki, mən özüm yaxın gələcəkdə yaddaşlardan silinəcəm.

Bu və digər məsələlər barədə ölkəmizin alicənablığına ümid edərək və ona olan coşqun məhəbbətdən (özü üçün və əcdadlarının bir neçə nəsli üçün vətən saydığı ölkəyə bu cür məhəbbət təbiidir) ilhama gələrək, məmnuniyyət hissi ilə öz istefamı gözləyirəm və mən onu, qəlbimin bu əbədi məskəninin, birgə qayğı, zəhmət və riskimizə görə bizə verilmiş bu xoşbəxt mükafatın – azad dövlətin idarəçiliyi altında, ədalətli qanunların icrasında həmvətənlərimlə birgə aldığım həzz hissinə kədər qatmadan həyata keçirməyə söz verirəm.

Mənbə: J.D. Richardson, ed., Compilation of Messages and Papers of the Presidents, vol.1 (1907), 213.

Satış üçün nəzərdə tutulmayıb

50. Monro Doktrini (1823)

1815-ci ildə həm Napoleon müharibələri sona yetdi, həm də Yeni Dünyada ispan ağalığı tənəzzülə uğradı. Belə ki, 1815-ci illə 1822-ci illər arasında Xose Marti *(Jose de San Martin)* Argentinanı müstəqilliyə çıxardı, Bernardo O'Hiqqins *(Bernardo O'Higgins)* Çilidə, Simon Bolivar *(Simon Bolivar)* isə Venesuelada öz həmyerlilərini müstəmləkə zəncirindən xilas elədi. Yeni respublikaların hər biri hamıdan əvvəl Birləşmiş Ştatlar tərəfindən tanınılmağa çalışırdı və amerikanların çoxu onlara haqq qazandırırdı.

Ancaq istər prezident Ceyms Monro *(James Monroe)*, istərsə də onun dövlət katibi Con Kuinsi Adams *(John Quinsy Adams)* gələcəyi hələ sual altında olan yeni ölkələr uğrunda hərbə qoşulmaq fikrində deyildilər. Digər Avropa dövlətləri münaqişəyə girişməzdən əvvəl, Birləşmiş Ştatlar hökuməti neytral mövqedə dayanıb, istər İspaniyaya, istərsə onun sözəbaxmayan müstəmləkələrinə öz aralarında mübahisəni qol gücünə həll etməyə imkan qazandırmışdı.

Böyük Britaniya İspaniyaya monarxiya sirdaşı olmaqla, yaranası yeni bazarları da əldən vermək istəmirdi; axı Cənubi Amerika, o zamanlar ingilis malları üçün Birləşmiş Ştatlardan daha sərfəli alıcı sayılırdı. Odur ki, Rusiya ilə Fransa, Yeni Dünyadakı müstəmləkələr uğrunda İspaniyanın tərəfini saxlamağı İngiltərəyə təklif eləyəndə, London bu planın üstünə veto qoydu.

O zaman Birləşmiş Ştatlar Floridanı almaq barədə İspaniya ilə danışıqlar aparırdı və həmin razılıq qüvvəyə minən kimi, Monro iqtidarı təzə latınamerikan respublikalarının tanınmasını tezləşdirdi. 1822-ci ildə Argentina, Çili, Peru, Kolumbiya və Meksikanın müstəqilliyi ABŞ tərəfindən tanındı.

1823-cü ildə Fransa İspaniyanı öz taxt-tacında Burbonlar sülaləsini yenidən bərqərar etməyə çağırdı, əvəzində isə söz verdi ki, yeni respublikalara qarşı mübarizədə "Müqəddəs ittifaqın" tərkibinə daxil olan Rusiyanı, Prussiyanı və Avstriyanı İspaniyanın köməyinə yetirsin. Belə bir plan Britaniya hökumətini dəhşətə gətirdi, çünki bu plan baş tutsaydı, general Volf *(Wolfe)*, baş nazir Pitt *(Pitt)* və Fransanı Yeni Dünyadan təcrid etmək istəyən XVIII əsrin digər britan liderlərinin niyyəti boşa çıxar və əksinə, Fransa Amerika torpaqlarında öz gücünü yenidən bərpa etmiş olardı.

Britaniya xarici işlər naziri Corc Kanninq *(George Canning)* Fransa və İspaniyanın təcavüz planlarına qarşı Birləşmiş Ştatlarla Böyük Britaniya ilə birləşmək təklifini irəli sürdü. Cefferson və Medison Monronu bu təklifə razı salmağa çalışsalar da, Con Kuinsi Adams həmin fikrə şübhə ilə yanaşdı. Adams, bundan

Satış üçün nəzərdə tutulmayıb

savayı Alyaskadan başlayaraq Sakit okean sahili boyunca, o zaman Meksikaya məxsus olan Kaliforniyaya qədər öz təsir gücünü artırmağa çalışan Rusiyanın cəhdlərindən xeyli narahatlıq keçirirdi.

1823-cü ilin 7 noyabrında Adams Nazirlər Kabinetindəki görüşdə Kanninqin təklifinə qarşı əsaslı dəlillər gətirərək belə söylədi: "Britaniya hərbi gəmisinin quyruğuna qoşulub sürünmək əvəzinə, Rusiya və Fransa qarşısında götürdüyümüz öhdəlikləri yerinə yetirsəydik, daha ləyaqətli görükərdi".

Onun müstəqil siyasətin xeyrinə gətirdiyi arqumentlər nəhayət ki, üstünlük qazandı. Monro 1823-cü il dekabrın 2-də Konqresə müraciətində öz fikrini açıqladı; biz bunu həmişə "Monro doktrinası" adlandırmışıq, halbuki bunu Adamsın adı ilə bağlasaydıq, daha düzgün olardı.

Əslində Birləşmiş Ştatlar Köhnə Dünya ölkələrinə bəyan edirdi ki, avropalılar Amerika qitəsinə müstəmləkəçilik gözü ilə baxmağı tərgitməlidir. Odur ki, Yeni Dünyada Avropa siyasi təsirini hər vasitə ilə yaymaq cəhdi Birləşmiş Ştatlar tərəfindən "əmin-amanlığımıza və təhlükəsizliyimizə hədə kimi qiymətləndiriləcək". Birləşmiş Ştatlar Avropanın daxili işlərinə, orada gedən müharibələrə qarışmaq fikrində deyil, – əmindir ki, Avropa da Şimali və Cənubi Amerikanın işlərinə müdaxilə etməkdən vaz keçəcəkdir.

Bu doktrinin dəqiq siyasi istiqamət almağından ötrü on illər gərək olsa da, hər halda vaxtilə Adams tərəfindən müəyyən edilmiş amerikan müstəqil xarici siyasət prinsipi o dərəcədə yaşarı oldu ki, sonra gələn iqtidarlar belə, o qəlibdən çıxa bilmədilər. Qeyd eləyək ki, həmin siyasətin bir uğuru da onun amerikanla yanaşı, britan maraqlarına da uyğun gəlməsiydi və həmin siyasət sonrakı 100 il ərzində ingilis hərbi-dəniz donanması tərəfindən müdafiə olunurdu .

Əlavə məlumat üçün oxuyun: Dexter Perkins, The Monroe Doctrine, 1823-1826 (1927); Samuel Flagg Bemis, John Quincy Adams and the Foundations of American Foreign Policy (1949); Ernest R. May, The Making of the Monroe Doctrine (1975).

MONRO DOKTRİNİ

İmperatorun buradakı nümayəndəsi vasitəsilə edilmiş, Rusiya İmperator hökumətinin bizə müraciətinə cavab olaraq ərz edirəm: bu məsələyə dair cəmi təlimat və ixtiyarat Birləşmiş Ştatların Sankt-Peterburqdakı nümayəndəsinə verilibdir. Bu qitənin şimal-qərb sahili boyunca hər iki dövlətin hüquq və maraqlarına uyğun danışıqların təşkili də ona həvalə olunub.

Satış üçün nəzərdə tutulmayıb

İmperator həzrətləri oxşar təklifi Böyük Britaniya hökumətinə də göndərib və həmin təklif rəğbətlə qarşılanıb. Birləşmiş Ştatlar belə bir xoş məramla özünün İmperator həzrətlərinə olan dostluq əlaqələrinə son dərəcə əhəmiyyət verdiyini, İmperator dövləti ilə qarşılıqlı anlaşmaya cani-dildən hazır olduğunu nəzərə çatdırır. Belə bir razılığın təməlini müzakirə edəndən sonra Birləşmiş Ştatların hüquq və maraqlarına uyğun olaraq, o nəticəyə gəlirik ki, azadlıq və istiqlal bəyan etmiş və onları qoruya bilmiş amerikan qitələrinə bundan beləsinə hər hansı Avropa dövləti müstəmləkəçilik subyekti kimi baxmamalıdır…

Ötən sessiyamızda İspaniya və Portəgizin öz ölkələrində insanların rifahını yaxşılaşdırmaq yolunda həyata keçirdiyi ardıcıl tədbirlər xüsusi olaraq qeyd edildi. Fəqət nə qədər cəhd göstərilsə də, etiraf olunmalıdır ki, həmin səylər heç də gözlənilən nəticəni verməyib. Yer kürəsində bizim hərtərəfli əlaqə və ümumi köklərlə bağlandığımız bəzi guşələrdə baş verən hadisələri diqqətlə izləməkdəyik. Ölkəmizin vətəndaşları Atlantikanın o tayında yaşayan soydaşlara dost olmaqla yanaşı, onların hər birinə hürriyyət və səadət arzulayır. Biz Avropa ölkələrinin öz aralarında apardığı müharibələrdə heç vaxt iştirak etməmişik və iştirak etmək fikrimiz də yoxdur. Biz ancaq hüquqlarımız pozulanda, ya da təhlükə ilə rastlaşanda cavab qaytarmağa və ya müdafiəni gücləndirməyə məcbur olmuşuq.

Amma bizim yarımkürədə baş verən hadisələr, təbii ki, bizim üçün xüsusi maraq kəsb eləyir və bunun səbəbi hər bir qərəzsiz və vəziyyətdən baş çıxaran müşahidəçiyə aydındır. Koalisiyaya daxil olan ölkələrin siyasi sistemi Amerikadan köklü şəkildə fərqlənir. Həmin fərq müxtəlif idarə sistemlərinin mahiyyətindən doğur. Yeri gəlmişkən, onu deməliyik ki, bizim sistem böyük əziyyət və çoxlu sayda qurbanlar bahasına araya-ərsəyə gəlib; vətəndaşlarımızın intellektual qüvvəsi və qabiliyyəti sayəsində bu sistem inkişaf edib, gündən-günə möhkəmlənib. Elə o səbəbdən də tərəqqimiz görünməmiş vüsət alıb və biz bu sistemi heç cürə təhlükə qarşısında qoya bilmərik. Ona görə də deməyə ixtiyarımız çatır ki, (bu səmimi sözlər həm də Avropa dövlətləri ilə dostluq münasibətlərini saxlamaq naminə vacibdir) öz siyasi sistemini bizim yarımkürənin hər hansı bucağına yaymaq cəhdi, tərəfimizdən əmin-amanlığımıza və təhlükəsizliyimizə hədə kimi qiymətləndiriləcək.

Bunun hər hansı Avropa ölkəsinin mövcud olan müstəmləkəsinə və yaxud tabeçiliyində olan ərazisinə aidiyyəti yoxdur, hansı ki, biz onların işinə qarışmırıq, qarışmaq fikrində də deyilik. Fəqət hər hansı dövlət öz müstəqilliyini elan edibsə və onun qədrini bilirsə, (əgər qanuni yolla əldə olunan müstəqilliyi biz tanımışıqsa) avropa dövlətlərindən hər hansı biri-

Satış üçün nəzərdə tutulmayıb

nin onu əsarət və nəzarətdə saxlamaq cəhdinə Birləşmiş Ştatlara qarşı saymazlığın təzahürü hesab edəcəyik. Bizim tanıdığımız o yeni dövlətlərlə İspaniya arasında gedən müharibədə biz artıq öz bitərəfliyimizi bəyan etmişik və nə vaxtsa əmin-amanlığımızı təmin etməkdən ötrü səriştəli hökumət üzvlərinin rəyinə görə Birləşmiş Ştatlar lazımi gedişlər gedənə qədər, həmin mövqedən əl çəkmək fikrində deyilik.

İspaniyada və Portəgizdə baş verən son hadisələr Avropada vəziyyətin qeyri-sabitliyinə bir sübutdur. Bu vacib fakt onu göstərir ki, koalisiya ölkələri, özlərinə münasib prinsiplər özülündə, İspaniyanın daxili işlərinə zor gücünə müdaxilə etmək barədə ciddi şəkildə düşünüb-daşınmalıdır. Bu prinsiplərə güvənən həmin müdaxilənin dərinliyi, siyasi quruluşu koalisiya dövlətlərindən fərqlənən, Birləşmiş Ştatlara isə bəlkə də heç bənzəməyən, yenicə müstəqillik qazanmış dövlətlərin marağına, onların hüquqlarına aid məsələdir.

Avropaya qarşı siyasətimiz uzun müddət bu qitəni səksəkədə saxlayan müharibələrin erkən çağında formalaşıb və dəyişilməz olaraq qalır.

Bu siyasət hər hansı bir ölkənin işinə qarışmamağı üstün tutur. Yəni – *de fakto* mövcud olan hər hansı bir dövlətin bizə nisbətdə legitimliyini tanımaq; onunla dostluq münasibətlərini irəli aparmaqla, həmin münasibətlərin ardıcıl, açıq və dürüst şəkildə inkişaf; ölkələrdən hər birinin qanuni tələblərinə ehtiram və hər hansı təcavüzlə barışmazlıq. Bununla belə, Amerikan qitələrinə nisbətdə bizim siyasətimiz köklü surətdə fərqlənir. Koalisiya ölkələrinin siyasi sistemini (əmin-amanlığımıza və təhlükəsizliyimizə xələl gətirmədən) bu qitələrin heç harasında yaymaq mümkün deyil. Heç birimiz inanmarıq ki, nə vaxtsa cənub soydaşlarımız belə bir sistemi öz xoşları ilə qəbul etsinlər. Biz, həmçinin, amerikan dövlətlərinin işinə hər cürə müdaxiləyə də seyrçi qismində qala bilmərik. İspaniyanın güc və ehtiyatını, həm də aradakı məsafəni müqayisədən sonra açıq-aydın bəlli olur ki, İspaniya bu yeni dövlətləri heç vaxt fəth edə bilməyəcək. Ancaq nə olursa olsun Birləşmiş Ştatlar siyasəti ondan ibarətdir ki, məsələdən çıxış yolunu məhz münaqişə aparan tərəflərin özləri tapmalıdır.

Ümidvarıq ki, qeyri dövlətlər də eynilə bu yolu daha sərfəli sayacaqlar.

Mənbə: J.D. Richardson, ed., Compilation of the Messages and Papers of the Presidents, vol. 2 (1907), 287.

Satış üçün nəzərdə tutulmayıb

51. "XIV Bənd"lik Nitq (1918)

Vudro Vilson

Birləşmiş Ştatlar "Böyük müharibəyə" qoşulmaq istəmirdi və prezident Vudro Vilsonun *(Woodrow Wilson)* hökuməti öz ölkəsinin neytral vəziyyətdə qalması üçün əlindən gələni etmişdi. Lakin son nəticədə "Antanta" dövlətlərinin israrlı çağırışlarına və Almaniyanın sualtı qayıqlarının əməliyyatlarının bərpa edilməsinə cavab olaraq 1917-ci ilin aprel ayında Birləşmiş Ştatlar "Üçlər İttifaqı"na müharibə elan etdi.

Avropa ölkələri bir neçə il idi ki, müharibəyə hazırlaşırdı və gizli sazişlərin mürəkkəb şəbəkəsi müxtəlif millətləri birləşdirmişdi. Həm Antanta, həm də Üçlər İttifaqı öz düşmənlərinin müstəmləkə ərazilərini ələ keçirməyə çalışırdı, lakin Birləşmiş Ştatlar bu sazişlərin heç birində iştirak etmirdi və prezident Vudro Vilson bütün qüvvəsini sərf edərək, bu müharibəni başa çatdırmaq üçün elə yollar axtarırdı ki, bütün düşmən tərəflər yeni, sabit dünyanın qurulmasında bərabər əsasda iştirak edə bilsinlər. Amerika bu münaqişəyə qovuşandan əvvəl də, ondan sonra da Vilson müharibə aparan tərəfləri bu müharibədə öz məqsədlərini açıq bəyan etməyə çağırırdı, lakin bu məqsədlərin çoxu ərazi iddiaları ilə bağlı olduğundan, vuruşan tərəflərin hər ikisi bundan imtina edirdi.

Nəhayət, səbr kasası dolub daşan Vilson sabit dünya qurmağın əsas şərtlərindən ibarət proqramla 1918-ci il yanvarın 8-də Konqres qarşısında çıxış etdi. Sonradan "XIV bənd" adlanan bu proqramda dəniz gəmiçiliyinin azadlığı, gizli sazişlərdən imtina edilməsi, öz müqəddəratını təyin etmək prinsipinin həyata keçirilməsi, müxtəlif ərazi dəyişiklikləri barədə təkliflər və ən əhəmiyyətlisi – sülhün təmin edilməsi naminə güc tətbiq etmək mexanizminə malik olması nəzərdə tutulan Millətlər Liqası yaratmaq barədə təklif vardı.

"XIV bənd" proqramı bir neçə səbəbə görə xüsusi əhəmiyyət kəsb edirdi. Əvvəlan, bu proqram Amerikada "proqressivizm" adı ilə məşhur olan daxili islahatın məqsədlərinin çoxunu xarici siyasətə şamil edirdi. Sərbəst ticarət, gizli sazişlərdən imtina edilməsi, demokratiya və öz müqəddəratını təyin etmək anlayışları, sadəcə olaraq, islahatçıların iyirmi il müddətində dəstəklədikləri daxili siyasi islahatlar proqramının variantları idi. İkincisi, "XIV bənd" proqramının müddəaları müharibə iştirakçılarının hər hansı biri tərəfindən aşkar bəyan edilmiş yeganə məqsədlər idi. Beləliklə, həmin məqsədlər Almaniyanın təslim olması barədə sazişin əsası və sülh müqaviləsi

Satış üçün nəzərdə tutulmayıb

bağlanmasına nail olmaq üçün yeganə meyarlar oldu.

Ən əhəmiyyətli məqam isə bundan ibarət idi: o dövrdə ölkələrin çoxunda belə hesab edirdilər ki, xarici siyasətdə yalnız tamahkar maraqlar rəhbər tutulmalıdır. Vilson isə özünün "XIV bənd" proqramında bildirirdi ki, demokratik cəmiyyətin xarici siyasəti əxlaqa və etikaya əsaslanmalıdır. Sonrakı dövrdə Amerika hökumətləri bu nöqteyi-nəzərə heç də həmişə şərik çıxmırdı, lakin Amerika prezidentlərinin çoxu Vilsonun bu inamına şərik idi ki, mənəviyyat məsələsi ölkənin istər daxili, istərsə də xarici siyasətində mühüm rol oynamalıdır.

Əlavə məlumat üçün oxuyun: Arthur S. Link, Wilson the Diplomatist (1957); Arthur Walworth, Woodrow Wilson and His Peacemakers (1983).

"XIV BƏND"

Cənab Konqres üzvləri,

Arzumuz və amalımız ondan ibarətdir ki, dinc yolla tənzimləmə prosesi başlandıqda bu proses tam aşkar olmalı və burada hər hansı gizli sazişlərə yol verilməməlidir. Ərazilərin zəbt edilməsi və sərhədlərin genişləndirilməsi dövrü bir də geri qayıtmayacaq. Müəyyən dövlətlərin mənafelərini əks etdirən məxfi sazişlər, gözlənilmədən bütün dünyada əmin-amanlığı poza biləcək sazişlər dövrü də artıq keçmişdə qalmışdır. Bu elə bir xoşbəxt an olacaqdır ki, hər bir siyasi və ictimai xadim, əgər həmin şəxsin təfəkkür tərzi çoxdan ötüb keçmiş zəmanə səviyyəsində donub qalmamışdırsa, aydın başa düşəcəkdir ki, bu gün bütün dünyada ədalət və sülh istəyən hər bir millət üçün öz məqsədlərini həyata keçirmək məqamı yetişmişdir.

Biz bu müharibəyə ona görə qoşulduq ki, törədilən haqsızlıqlar bizim yaralı yerimizə toxunur, bu ədalətsizlik aradan qaldırılmayınca və dünya birdəfəlik və həmişəlik müdafiə olunmayınca, bizim öz insanlarımız rahat olmayacaqlar.

Biz bu müharibəyə qoşulmaqla heç bir tamahkar məqsəd güdmürük. Biz zorakılığın və işğalçı müharibələrin əleyhinəyik. Məqsədimiz – dünyanı insanları mövcud olması üçün yararlı və təhlükəsiz etmək, hər bir sülhsevər xalq üçün, xüsusən bizim xalq kimi sakit yaşamaq, öz təsisatlarını yaratmaq, ədalət məhkəməsinə və dünyanın digər xalqları ilə vicdanlı sazişlərə inanan hər bir sülhsevər xalq üçün dünyanı təhlükəsiz etməkdir.

Satış üçün nəzərdə tutulmayıb

Bu məqsədin həyata keçirilməsində dünyanın bütün xalqları tərəfdaşlardır, bizə gəldikdə isə biz tam aydınlıqla başa düşürük ki, başqaları üçün ədalət olmasa, bizim üçün də ədalət olmayacaq.

Beləliklə, bizim proqramımız – ümumi sülh proqramıdır. Biz belə hesab edirik ki, o, yeganə mümkün proqramdır və bu proqram aşağıdakılardan ibarətdir:

I. Aşkarlıq şəraitində müzakirə edilmiş açıq sülh sazişləri bağlanmalıdır, bu sazişlər bağlanandan sonra hər hansı gizli beynəlxalq sazişlər olmayacaq, diplomatiya isə hamının gözü qarşısında və açıq fəaliyyət göstərəcəkdir.

II. İstər dinc vaxtda, istərsə də müharibə dövründə, beynəlxalq müqavilələrin icra edilməsi üçün bəzi dənizlərin beynəlxalq qüvvələr tərəfindən qismən və ya tamamilə bağlanacağı hallar istisna olmaqla, ərazi sularından kənarda dənizlərdə gəmiçilik tam sərbəst olmalıdır.

III. Sülhün tərəfdarı olan və onu qoruyub saxlamaq naminə öz səylərini birləşdirən bütün dövlətlər üçün, imkan daxilində, bütün iqtisadi maneələr aradan qaldırılmalı və ticarət üçün bərabər şərtlər yaradılmalıdır.

IV. Ölkədə silahların ölkənin təhlükəsizliyinə müvafiq olan minimal həddə qədər azaldılacağına etibarlı zəmanət olmalıdır.

V. Suverenliklə bağlı bütün məsələlərin həlli zamanı əhalinin mənafeyinin, ərazisi barədə hüquqların müəyyən edilməli olduğu dövlətin ədalətli tələbləri ilə müqayisədə eyni dərəcədə əhəmiyyətli olması prinsipinə ciddi riayət edilməlidir; müstəmləkələrlə bağlı bütün mübahisələr sərbəst, təmiz niyyətlə və tamamilə qərəzsiz şəkildə həll edilməlidir.

VI. Rusiyanın bütün əraziləri azad edilməli və Rusiya ilə bağlı bütün məsələlər elə həll edilməlidir ki, onun siyasi inkişafı və dövlət siyasəti barədə müstəqil qərarlar qəbul etməsi üçün tam və maneəsiz imkanlar əldə etməsində başqa dövlətlər tərəfindən tam və sərbəst kömək ediləcəyinə zəmanət verilsin, Rusiyanın özü üçün seçəcəyi idarəetmə tərzində onun azad millətlər birliyinə qəbul olunması təmin edilsin və üstəlik, Rusiyanın ehtiyac hiss etdiyi və arzuladığı bütün məsələlərdə ona hər cür kömək göstərilməsi təmin edilsin. Qarşıdakı aylarda Rusiyaya qardaş olmalı başqa millətlər tərəfindən göstərilən münasibət onların xeyirxah duyğularının Rusiyanın ehtiyaclarını başa düşmələrinin və onları öz mənafelərindən ayırmaq bacarığının sınağa çəkiləcəyi dövr bu millətlərin müdriklik və tamahsızlıq göstəricisi olacaqdır.

VII. Bütün dünya razılaşar ki, Belçika azad edilməli və onun bütün başqa azad millətlərlə bərabər malik olduğu suverenliyi məhdudlaşdırmağa cəhd göstərilmədən, bu ölkə bərpa olunmalıdır. Xalqlar arasında qarşılıqlı

Satış üçün nəzərdə tutulmayıb

münasibətlərdə rəhbər tutulmaq üçün, bu xalqların özlərinin qəbul etdikləri qanunlara etimadın bərpa edilməsi üçün heç bir başqa addım bundan artıq kömək edə bilməz. Bu addım atılmasa, beynəlxalq hüququn bütün strukturu və hüquqi qüvvəsi həmişəlik məhv olacaqdır.

VIII. Fransanın bütün ərazisi azad edilməli və işğalçı hissələr geri qaytarılmalı, 1871-ci ildə Prussiya tərəfindən Elzas-Lotaringiya barəsində Fransaya vurulmuş, 50 il müddətində bütün dünyada əmin-amanlığı pozmuş pislik aradan qaldırılmalıdır ki, ümumi mənafe naminə dinc münasibətlər yenidən bərqərar ola bilsin.

IX. İtaliya sərhədləri aşkar nəzərə çarpan etnik sərhədlər əsasında yenidən müəyyən edilməlidir.

X. Biz Avtsriya-Macarıstan xalqlarını da başqa millətlər arasında özünün zəmanətli yeri olan xalqlar kimi görmək istəyirik. Bu xalqlar inkişaf etmək üçün ən geniş muxtariyyət əldə etməlidirlər.

XI. Rumıniya, Serbiya və Çernoqoriya azad edilməli, işğal edilmiş ərazilər geri qaytarılmalıdır. Serbiyanın dənizə sərbəst və etibarlı çıxış imkanı olmalıdır. Balkanlardakı müxtəlif dövlətlərin qarşılıqlı münasibətləri dostcasına, tarixən müəyyən edilmiş mənsubiyyət və etniklik prinsiplərinə müvafiq olaraq müəyyən edilməlidir. Balkanlardakı müxtəlif dövlətlərin siyasi və iqtisadi müstəqilliyinə və ərazi bütövlüyünə beynəlxalq qarantiyalar müəyyən edilməlidir.

XII. Bugünkü Osmanlı İmperiyasının türk hissələri təminatlı və möhkəm suverenliyə malik olmalı, lakin hazırda türklərin tabeliyində olan digər xalqlar muxtar şəkildə inkişaf etmək üçün birmənalı qarantiya almalı və onların mövcudluğuna şərait yaradılmalıdır. Dardanell boğazı gəmilərin sərbəst keçməsi və bütün dövlətlərin ticarət aparması üçün beynəlxalq qarantiyalarla daim açıq olmalıdır.

XIII. Əhalisinin polyak olması mübahisə doğurmayan bütün əraziləri özündə birləşdirən müstəqil Polşa dövləti yaradılmalıdır. Polşa dövlətinin dənizə sərbəst və etibarlı çıxışı təmin edilməli, onun siyasi və iqtisadi müstəqilliyinə, eləcə də ərazi bütövlüyünə beynəlxalq müqavilə əsasında qarantiya verilməlidir.

XIV. İstər böyük, istərsə də kiçik dövlətlərin siyasi müstəqilliyinə və ərazi bütövlüyünə qarşılıqlı qarantiyalar yaradılması məqsədilə xüsusi sazişlər əsasında dövlətlərin ümumi birliyi yaradılmalıdır.

Satış üçün nəzərdə tutulmayıb

Biz şər qüvvələrə qarşı və ədalətin bərqərar olması uğrunda bu mübarizədə özümüzü imperialistlərə qarşı birləşmiş bütün dövlətlərin və xalqların yaxın tərəfdaşı hesab edirik. Bizim məqsəd və mənafelərimiz eynidir. Biz hamımız birlikdə axıra qədər mübarizə aparacağıq.

Biz, bu tədbirlər və sazişlər naminə mübarizə aparmaq əzmindəyik və buna nail olana qədər mübarizə aparacağıq. Biz yalnız ədalət naminə, ədalətli və sabit sülh yaradılması naminə mübarizə aparırıq. Bu sülh yalnız müharibənin əsas səbəbləri aradan qaldırıldıqda qoruna bilər. Təəssüf ki, bu proqram həmin səbəbləri aradan qaldırmır. Biz almanların böyüklüyünə qısqanmırıq və bu proqramda Almaniyanın böyüklüyünə xələl gətirə biləcək heç nə yoxdur. Biz Almaniyanın yüksək keyfiyyətli təhsilinə və ya Almaniyanın nailiyyətlərini mümkün etmiş dinc sahibkarlığa görə narahatlıq hiss etmirik. Biz ona pislik arzulamırıq və onun qanuni nüfuzuna və ya gücünə mane olmağa çalışmırıq. Biz Almaniyaya qarşı istər silah vasitəsilə, istərsə də düşmənçilik xarakterli ticarət tədbirləri ilə mübarizə aparmaq istəmirik. Əgər o bizimlə və digər sülhsevər dövlətlərlə ədalətli və qanuni sazişlər, vicdanlı əqdlər bağlamaq istəyirsə, biz buna mane olmayacağıq. Biz yalnız bunu istəyirik ki, o, bizim indi yaşadığımız yeni dünyanın xalqları arasında özünə hakim mövqe tələb etməyib, başqaları ilə bərabər yer tutsun.

Bununla belə, biz ona öz institutlarını hər hansı şəkildə dəyişməsini və ya modifikasiya etməsini təklif etmirik, lakin biz Almaniya nümayəndələrinin danışıqlarda kimin adından – Reyxstaqdakı əksəriyyətin adından, yoxsa müharibə partiyasının və imperiya iddiasında olan insanların adından danışdıqlarını açıq soruşmalıyıq və bu, Almaniya ilə bizim qarşılıqlı münasibətlərimizdə ilkin şərt kimi zəruridir.

Bizim təkliflərimiz kifayət qədər konkretdir və bu təkliflərlə bağlı hər hansı şübhələr və suallar üçün əsas yoxdur. Burada təsvir etdiyim proqramın ana xətti bir aşkar prinsipdir. Bu, bütün xalqlar və millətlər üçün ədalət prinsipidir, yəni onların istər zəif, istərsə də güclü millətlərə və xalqlarla münasibətlərdə bərabər azadlıq və bərabər təhlükəsizlik hüququna malik olması prinsipidir. Bu prinsip bərqərar olmayınca beynəlxalq ədalət strukturunun heç bir hissəsi bərqərar ola bilməz. Birləşmiş Ştatların xalqları yalnız bu prinsip əsasında fəaliyyət göstərə bilər, onlar özlərinin bütün həyatını, şərəfini və malik olduqları hər şeyi bu prinsipin qorunmasına sərf etməyə hazırdırlar. Bəşəriyyətin azadlığı uğrunda bu böyük və həlledici müharibədə ən yüksək mənəvi gərginlik məqamı yaranmışdır və amerikalılar öz güclərini, öz yüksək ideallarını, vicdanlı və sədaqətli olmalarını sınağa çəkməyə hazırdırlar.

Mənbə: Arthur S. Link et al., eds., The Papers of Woodrow Wilson, vol. 45 (1984), 536.

Satış üçün nəzərdə tutulmayıb

52. Şarlotsvilldəki Nitq (1940)

Franklin D. Ruzvelt

Birinci Dünya müharibəsi qurtarandan sonra bağlanan sülh müqaviləsi amerikanların könlündən olmadı və inamsızlıq doğurdu. Çoxları belə hesab edirdi ki, öz ideallarına sadiq olan Birləşmiş Ştatlar "dünyanı demokratiya üçün daha xatasız etməkdən ötrü" müharibəyə girsə də, Köhnə Dünya dövlətləri öz səltənət və xırıd bazarını genəltmək xətrinə vuruşurdular. 1930-cu illərdə mətbuatdakı dartışmalar, eləcə də Konqresdəki müzakirələr amerikanları öz fikrində qətiləşdirdi ki, əslində Birləşmiş Ştatlar da həmin müharibəyə bankir və silah istehsalçılarının maraqlarına görə girişibdir. Amerika tarixində ən dərin ruh düşkünlüyünü də nəzərə alsaq, 1930-cu illərdə amerikanların könüllü olaraq hər şeydən təcrid olunma siyasətini də asanca başa düşərik. Həm də "Böyük Müharibə" qovğasına düşüb-çıxmış insanlardan ibarət güclü pasifist hərəkatı bir daha o əhvalı qabarıq göstərdi ki, Birləşmiş Ştatlar ölkədən qıraqda cövlan edən işlərə qarışmasa yaxşıdır. Düzdür, bir çoxları faşizmin hədə-qorxusundan narahat olsa da, amerikalıların əksəri bu fikirdəydi ki, "o bizim işimiz deyil, qoy ona avropalılar özləri əncam çəksinlər".

Franklin Ruzvelt əvvəlcə belə bir münasibətə ürəyində sevinirdi, çünki belə bir ovqat, ona diqqəti millət üçün təxirəsalınmaz problem saydığı iqtisadiyyatın bərpasına yönəltməyə imkan yaradacaqdı.

1930-cu illərin ortalarında nasist Almaniyası və faşist İtaliyası baş qaldıranda, Ruzvelt başa düşdü ki, Birləşmiş Ştatlar hadisələrdən kənarda qala bilməz, istər-istəməz o məsələyə qarışmalıdır. 1937-ci ildən başlayaraq, Ruzvelt Konqresin konfliktə qarışmağa qadağa qoyan "Bitərəflik haqqında Akt"ını yumşaltmaq yolunda siyasi döyüşlər aparmaqdaydı.

Ancaq Hitlerin Polşaya soxulmağıyla İkinci Dünya müharibəsi başlandı, amerikan ictimai rəyi də dəyişmələrə uğradı. Əhalinin çox hissəsi əvvəlki kimi müharibəyə girişmək tərəfdarı olmasa da, hər halda, antihitler koalisiyasına maddi yardım naminə səslər getgedə güclənirdi. Ruzvelt bir vasitəçi sifətilə çıxış edəcək Benito Mussolinini İtaliya dövlətini müharibəyə qoşmaq cəhdindən çəkindirmək istədi. Ancaq Mussolini müharibə həvəsində idi, Hitlerə söz vermişdi ki, kənarda dayanıb baxmayacaq. Ruzvelt bu ərəfədə Virciniya Ştatındakı Şarlotsvill *(Charlottesville)* şəhərində ölkənin xarici siyasəti

Satış üçün nəzərdə tutulmayıb

barədə nitq irad etməliydi. Qatara minmək əsnasında Ruzveltə xəbər çatdırdılar ki, İtaliya artıq Fransaya müharibə elan eləyib.

Şarlotsvilldəki nitqində Ruzvelt əvvəlkindən fərqli olaraq, bir çox incə məqamlara toxundu. Vəd verdi ki, Lüftvaffenin[102] ardıcıl bombardmanlarına məruz qalan İngiltərəyə öz köməyini əsirgəməyəcək. Mahiyyətcə bu nitq, Amerikanın dünya siyasətinə qayıtması demək idi; Birləşmiş Ştatlar bilavasitə döyüşməsə də, hər halda, bitərəf ölkə də sayıla bilməzdi.

Əlavə məlumat üçün oxuyun: Hans L. Trefousse, Germany and American Neutrality, 1939-1941 (1951); Robert A. Divine, The Reluctant Belligerent: American Entry into World War II (1965); Robert Dallek, Franklin D. Roosevelt and American Foreign Policy, 1932-1945 (1979).

ŞARLOTSVİLLDƏKİ NİTQ

Rektor Nyukomb, Virciniya Universitetindəki əziz dostlar!

Amerikada yetişən hər hansı gənc nəsildə ətraf dünyaya bir çox suallar doğur. Bu suallar çox halda həm sadə, həm də mürəkkəbdir – yəni neyləməli, hansı məqsədi tutub getməli və bunun üçün hansı imkanlar arayıb-axtarmalıyıq?

Ancaq bizim respublikanın tarixində mütəmadi olaraq başqa suallar da meydana çıxır – həmin suallar təkcə bir nəfərə, ya bütöv bir nəslə deyil, ümumiyyətlə, amerikan xalqının gələcəyinə aiddir.

İndi də artıq belə məqam gəlib yetişib. Bu gün Amerikanın cavan kişiləri, qadınları özü-özlərinə ürəkdən gələn, narahatlıq doğuran belə bir sual verirlər: "Ölkəmizin sabahı görən necə olacaq?"

Bəli, bu gün onlar bu məsələni daha nigaranlıqla gündəmə gətirirlər. Belə ki, cavan nəsli təkcə bizim respublikanın deyil, dünyada demokratik şəraitdə yaşayan azad insanların yaratdığı demokratik idarə üsulunun, bir sözlə, başqa demokratik dövlətlərin taleyi maraqlandırır.

Məncə, onların niyə həyəcan keçirdiyini biz düzgün başa düşməliyik. Axı cavan nəsil istər şifahi, istər yazılı şəkildə söylənən nitqləri dinləyir və söylənən nitqlərdə bəziləri təlqin eləyir ki, "şəxsiyyət azadlığı, azad seçim,

Satış üçün nəzərdə tutulmayıb

ədalət üstündə qurulan dünya" kimi ideyalar guya artıq çürüməkdə, yox olmaqdadır!

Bəli, bu gün onlar müxtəlif cəfəngiyatı dinləməyə və bu haqda oxumağa məcburdurlar. O cəfəngiyata görə yalançı liderlərin yönəltdiyi qüvvəyə, zora inam guya ən effektiv və yaşarı sistem yaradır; bu sistem bütün dünyanı belə fəth eləyə bilər. Təəssüf ki, həmin zor fəlsəfəsinin, özülündə demokratik institutlar, şəxsi azadlıq dayanan bir sıra ölkələri də necə bürüdüyü hamının gözü qarşısındadır.

Təbii ki, cavan nəslin özündə, hər şeydən əvvəl, sual doğur ki, bu zor fəlsəfəsinin dünyada belə sürətlə yayılması nəhayətdə hara gətirib çıxara bilər?!

Məsələn, bu gün, necə deyərlər, maşın əsrinin necə bərqərar olduğunu və bunun hara aparıb çıxardığını açıq-aydın müşahidə etməkdəyik. İnsanların maşınlar üstündə göz olduğu yerlərdə intensiv tərəqqi baş verir, çünki orada insanlar ağadır, maşınlarsa nökər.

Ancaq indiki, yeni zorakılıq sistemində sahibkar bəşər övladı deyil, nəzarət, xalqın heç bir razılığı olmadan, hökmranlıq sürən xırda bir qrupun əlindədir.

Məsuliyyətsiz fatehlərin əlində maşınlar ağalara çevrilir, adi insanlarsa, həm nökərdirlər, həm də qurban. Bu cür hakimiyyət 300 ildən artıq bir müddətdir ki, bizim cavan ölkənin söykəndiyi mənəvi dəyərləri açıq-aydın özü də ikrahla rədd eləyir.

Belə görünür ki, bu təzə fəlsəfə, kökləri Ceymstaun[103] və Plimut Roka[104] gedib çıxan xalqın həyat və düşüncə tərzi ilə barışa bilmir.

Qədim torpaqdan lap əvvəllər, ya da sonralar qopub gələnlər okeanın o tayındakı əcdadlarının yurdunda azadlığın belə tar-mar olmasına laqeyd yanaşa bilməzdilər.

Haqqında bəhs olunan təhlükənin əhali tərəfindən qavranması ya tədricən baş verər, ya da, son aylarda olduğu kimi, Birləşmiş Ştatların əhalisini qəflətən sarsıda bilər. Belə bir təhlükənin varlığı, xüsusilə son vaxtlar özünü beynəlxalq aləmdə daha aydın və dürüst şəkildə büruzə verir. O təhlükə hətta elə bir şəklə düşər ki, dairə getdikcə daralar və yalnız amerikanlar əvvəlki inamlarını qoruyub saxlamaq imkanını özlərində saxlayarlar.

Bəziləri yanlış olaraq elə fikirləşir ki, zorakılıq fəlsəfəsi tüğyan eləyən aləmdə Birləşmiş Ştatlar tənha bir ada kimi yaxasını qırağa çəksə yaxşıdır. Mən deyərdim ki, belə bir ada – dünyadan təcrid olunmaq istəyənlərin və buna səs verənlərin xülyasıdır. Şəxsən mənim üçün, eləcə də güman edirəm ki, amerikalıların əksəri üçün bu cür ada, gecə gözü qarabasma, özü

Satış üçün nəzərdə tutulmayıb

də azadlığı əlindən alınan insanlar üçün nəhayətsiz bir gecə vəhşətidir. Bu vəhşət məncə, əl-ayağı qandallanıb həbsxanalara atılmış, özlərinin amansız, xudpəsənd əcnəbi ağalarından bir qarın çörək uman ac-yalavac insanların vəhşətidir.

Təbii ki, öz-özümüzə belə bir sual meydana çıxır. Bu zindanın tikintisini necə dayandırmaq olar və nə çarə qılaq ki, biz də onun içinə düşməyək.

Gəlin, tərəddüd keçirmədən bir sıra həqiqətləri üzə çıxaraq. Vahid bir millət kimi çoxumuz (eyni zamanda, Amerika qitəsindəki digər millətlər də həmçinin) əminik ki, zor və nifrət tanrısına xidmət göstərənlərin quruda və suda çaldıqları qələbə Qərb dünyasındakı demokratiya ünsürlərini puça çıxara bilər. Elə bu səbəbdən də, öz qanı və canı bahasına o cür mənfur qüvvələrə qarşı mübarizə aparan xalqlara həqiqi mənada rəğbətimiz var.

Birləşmiş Ştatların xalqı və hökuməti İtaliya hökumətinin hazırda Avropada qızışmaqda olan müharibəyə qoşulmağından hədsiz dərəcədə təəssüflənir, həqiqi mənada narahatlıq hissi keçirir.

Üç ay bundan əvvəl İtaliya hökumət başçısı mənə yazmışdı ki, məhz İtaliyanın Avropa münaqişəsini cilovlamaq yolunda göstərdiyi səylər nəticəsində, Aralıq dənizi həndəvərində yaşayan 200 milyondan çox əhali müharibənin iztirab və dərdlərindən yaxa qurtarıb.

Mən də öz növbəmdə İtaliya hökumət başçısına məlumat verdim ki, müharibənin qarşısını almaq yolunda onların cəhdləri Birləşmiş Ştatların istər hökuməti, istər xalqı tərəfindən böyük rəğbət hissi ilə qarşılanıb. Həm də ümidvar olduğumu bildirdim ki, İtaliya həmin siyasəti bundan sonra da ardıcıl olaraq davam etdirəsidir. Orasını da çatdırdım ki, Birləşmiş Ştatlar hökumətinin fikrincə, münaqişəni Aralıq dənizi bölgəsində genişləndirmək cəhdi konflikti daha da dərinləşdirər, bu alov Yaxın Şərq və Afrika ölkələrini bürümüş olar. Belə hal baş verərsə, nəticədə müharibə teatrının nə boyda vüsət alacağını heç kəs əvvəlcədən bilə bilməz.

Biz belə düşünürdük ki, İtaliya bu məsələdə marağı olan dövlətlər arasında danışıqlar üçün özül rolunu oynamağa qadirdir; elə bu səbəbdən də, İtaliya hökumət başçısına göndərdiyim bəyanatda ərz elədim ki, Fransa və Böyük Britaniya dövlətləri ilə bu mövzuda danışıqlar əsnasında, əgər istəsə, mənim tərəfdaşlığıma bel bağlasın. Həm də orasını başa saldım ki, Birləşmiş Ştatlar belə danışıqlarda irəli sürülən təkliflər və bağlanmış sazişlərə görə məsuliyyət daşımır. Bununla belə, üstəlik onu da vəd elədim ki, İtaliya özünü müharibəyə qoşulmaqdan saxlasa, onda biz məsələdə ma-

Satış üçün nəzərdə tutulmayıb

raqlı tərəflərdən tələb edəcəyik ki, ortada olan razılıqlar qeydsiz-şərtsiz yerinə yetirilsin və bütün konfranslarda İtaliyanın sözü müharibədə iştirakçı dövlətlərdən birinin sözü kimi hesaba alınsın.

Bizim və eləcə də bütün bəşəriyyətin təəssüfünə rəğmən İtaliyanın hökumət başçısı təkliflərimizi qəbul etmək istəmədi və bu barədə bizi xəbərdar etmək fikrinə də düşmədi. Hökumətimiz Aralıq dənizi bölgəsində sülhü qorumaq üçün var-qüvvəsi ilə çalışır. Eyni zamanda, biz bəyan edirik ki, daha sabit dünya düzənini yaratmaq naminə İtaliya hökuməti ilə (belə bir imkan yaranarsa) əməkdaşlıq qurmağa həmişə hazırıq. İndicə dediyim sabitlik isə yalnız silahlanmanı dayandırmaq, daha liberal iqtisadi sistem qurmaqla dünya bazarı alış-verişində, xammal əldə olunmasında bərabər imkanlar hesabına başa gəlir.

Təbii ki, mən senyor Mussolini ilə təmasda olarkən, ona Birləşmiş Ştatların belə bir narahatlığını çatdırdım. Ərz elədim ki, Aralıq dənizi bölgəsində müharibənin alovlanması heç şübhəsiz bütün amerikan respublikalarında həyat səviyyəsinə, idarəçiliyə, istehsal və kommersiya sisteminə xeyli zərər vuracaqdır.

Buna baxmayaraq, İtaliya hökuməti lazım bildiyi kimi hərəkət eləyib, o cümlədən Almaniya qarşısında öz vədini yerinə yetirməyə çalışır. Bununla da, qeyri-dövlətlərin hüquq və təhlükəsizliyinə laqeydlik göstərir, müharibəyə məruz qalan ölkələrin əhalisinə yuxarıdan aşağı baxır. Görünür, İtaliya hökuməti özünün qanuni hesab etdiyi maraqlarına çatmaq üçün dinc vasitələr axtarıb tapmaq fikrində deyil.

Bu gün, yəni 1940-cı ilin 10 iyun günü, xəncər tutan əl xəncəri qonşunun kürəyinə saplayıb.

Bu gün, yəni 1940-cı ilin 10 iyun günü, Amerikada demokratiyanın ilk müəllimi sayılan bir kəs tərəfindən özülü qoyulan bu Universitetdə, okeanın o tayında azadlıq uğrunda çarpışan insanlar naminə dua eləyirik və yaxşılığa ümid bağlayırıq.

Bu birliyimizdə, bu amerikan birliyində iki yol tutub gedəcəyik. Birincisi, zor fəlsəfəsinə qarşı çıxanlara dövlətimiz maddi sarıdan yardım göstərəcək. Eyni zamanda, həmin o maddi ehtiyatlarımızı gələcəkdə bizə qarşı yönələ bilən hər cürə hədə-qorxuya cavab verməyə, fövqəladə vəziyyətlərdən çıxmaq üçün lazımi silah-sursata, bu sahədə təlimlərə sərf edəcəyik.

Dediyim məqsədlərə aparan bütün yollarımız hər cürə maneələrdən təmizlənməlidir. Bu məsələni ləngidə bilmərik, dolayısı yollar da bizə sərf eləmir. Bu yolda bütün işarələr və siqnallar bizi tələsdirir, daha qətiyyətlə irəli çağırır!

Satış üçün nəzərdə tutulmayıb

Bəli, hər bir təzə nəsil suallar verməlidir. Ancaq son aylar əsas sual elə bil ki, diqqətdən kənarda qalıb. Söhbət bütün amerikan xalqının gələcəyindən gedir.

Biz öz ölkəmizdə demokratiyanı genişləndirmək uğrunda cəhdlərimizi heç cürə səngidə bilmərik. Bəli, biz əvvəllər olduğu kimi indi də ölkəmizdə sosial-iqtisadi şəraitin, maddi rifahı daha da yaxşılaşdırmaq naminə böyük işlər görməliyik. Sadaladıqlarım özlüyündə milli müdafiə qabiliyyətimizin bir hissəsi sayılır.

Dediyim proqram daim inkişaf edir və yüksəlir. Bu proqram vətənimizin başının üstünü alan ən təhlükəli anlarda ölkənin müdafiəsinə can atan hər bir kişinin, hər bir qadının daşıdığı məsuliyyəti və bununçun yaranan imkanları nəzərdə tutur.

Mən hamını bu yolda mərdliyə, mətinliyə, dönməzliyə səsləyirəm. Azadlığa çatmaq üçün onu sevmək gərək! Millətimiz isə, əvvəllər olduğu kimi indi də azadlığın ehtiraslı aşiqidir.

Mənbə: Samuel Rosenman, ed., Public Papers and Addresses of Franklin D. Roosevelt, vol. 9 (1938-1950), 259.

Satış üçün nəzərdə tutulmayıb

53. Atlantik Xartiyası (1941)

Yaponlar 1941-ci ilin dekabrında Pirl Harbora hücum edənə qədər Birləşmiş Ştatlar müharibəyə qatılmadı. Lakin hələ 1941-ci ilin baharında Konqres Lend Liz *(Lend Lease)* proqramını bəyəndi və Şarlotsvilldə (Virciniya Ştatı) Ruzveltin vəd etdiyi kömək, həmin vaxt Uinston Çörçillin *(Winston Churchill)* baş nazir olduğu Böyük Britaniyaya gəlməyə başladı. Faşizmə qarşı müharibənin məqsədləri barədə birgə bəyanat qəbul etmək üçün 1941-ci ilin iyulunda Ruzvelt və Çörçill Nyufaundlənd sahilindəki Argentiya körfəzində, hərbi gəmidə ilk dəfə görüşdülər. Vudro Vilsonun "XIV bəndi" Birinci Dünya müharibəsində ölkənin məqsədlərini əks etdirdiyi kimi, Atlantik Xartiyası *(Atlantic Charter)* da müttəfiqlərin İkinci Dünya müharibəsində məqsədlərini əks etdirirdi.

Güman edilirdi ki, bir ay əvvəl Almaniyanın hücum etdiyi Sovet İttifaqı da Xartiyanı imzalayacaq. Lakin dövlətlərin, keçmişdəkindən fərqli olaraq, hərbi ittifaqlara söykənməkdən və nüfuz dairələri prinsipindən imtina etməli olduğu "vahid dünya" ideyası İosif Stalini çox da cəlb etmirdi; düzünü desək, bu ideyalar Çörçilli də o qədər ruhlandırmırdı. Yalnız Vilson hökumətinin üzvü olan Ruzvelt, münaqişələri həll edən və sülhü qoruyan demokratik bir beynəlxalq təşkilatın idarə edəcəyi vahid dünyanın mümkünlüyünə ürəkdən inanırdı.

Əlavə məlumat üçün oxuyun: James McGregor Burns, Roosevelt: The Soldier of Freedom (1970); Gaddis Smith, American Diplomacy During the Second World War (1964); and Robert Divine, Roosevelt and World War II (1969).

ATLANTİK XARTİYASI

Amerika Birləşmiş Ştatlarının Prezidenti və Birləşmiş Krallıqda Əlahəzrətin hökumətini təmsil edən Baş nazir mister Çörçill bir araya gələrək, öz ölkələrinin milli siyasətində bəzi ümumi prinsipləri – bütün dünyanın daha gözəl gələcəyinə olan öz ümidlərinin əsası hesab etdikləri prinsipləri bəyan etməyi vacib hesab edirlər.

Birinci, onların ölkələri nə ərazi, nə də hər hansı digər genişlənməyə can atır;

Satış üçün nəzərdə tutulmayıb

İkinci, onlar aidiyyəti olan xalqların azad ifadə edilmiş iradələri olmadan heç vaxt ərazi dəyişikliyini görməyi arzu etmirlər;

Üçüncü, onlar bütün xalqların öz hakimiyyət formasını seçmək hüququna hörmət edirlər; və onlar istəyirlər ki, özünüidarəetmə və suveren hüquqlarından zorla məhrum edilən xalqların bu hüquqları özlərinə qaytarılsın;

Dördüncü, özlərinin artıq mövcud olan öhdəliklərinə ehtiramla yanaşaraq onlar səy edəcəklər ki, böyük və ya kiçik, qalib və ya məğlub olmasına baxmayaraq bütün dövlətlər, iqtisadi çiçəklənmə üçün onlara vacib olan dünya xammal ehtiyatlarına yol və ticarətdə bərabər imkanlar əldə etsinlər;

Beşinci, onlar iqtisadi inkişaf, sosial təminat və əmək şəraitinin yaxşılaşdırılması məqsədilə dövlətlər arasında iqtisadi sahədə geniş əməkdaşlıq yaratmaq istəyirlər;

Altıncı, onlar ümid edirlər ki, Nasist diktaturasının qəti iflasından sonra, bütün ölkələrə özünün sərhədləri hüdudlarında təhlükəsiz mövcud olmaq imkanı və dünyanın hər bir guşəsində olan bütün insanlara qorxu və ehtiyacdan azad yaşamaq təminatı verən qərarlaşmış sülhü görəcəklər;

Yeddinci, bu sülh bütün insanlara maneəsiz olaraq açıq dənizləri və okeanları aşmaq ixtiyarı verməlidir;

Səkkizinci, həm praktiki, həm də mənəvi mülahizələrə görə dünyanın bütün dövlətləri güc tətbiqindən imtina etməlidir. Başqa dövlətləri təcavüzlə təhdid edən və ya təhdid etməyə imkanı olan dövlətlər quru, dəniz və hava silahlarından istifadəni davam etdirən halda gələcək sülh mümkün olmadığı üçün, onlar inanırlar ki, geniş və daimi fəaliyyət göstərən *ümumi təhlükəsizlik sisteminin* yaradılması vacibdir və belə ölkələrin tərksilah edilməsi zəruridir. Onlar həm də sülhsevər xalqların silahlanma yükündən azad olunmasını asanlaşdıran bütün digər səylərə kömək edəcək və imkan yaradacaqlar.

Franklin D. Ruzvelt
Uinston Çörçill

Mənbə: Samuel Rosenman, ed., Public Papers and Addresses of Franklin D. Roosevelt, vol.10 (1938-1950), 314.

Satış üçün nəzərdə tutulmayıb

54. Xarici Yardım və İnsan Hüquqları (1976)

1960-cı illərdəki insan hüquqları uğrunda hərəkat Amerikanın təkcə öz ölkəsində deyil, öz xarici siyasətində də insan hüquqlarına hörmət etməsinə nail oldu. Beynəlxalq Amnistiya *(Amnesty International)*, İnsan Hüquqları Müşahidəsi *(Human Rights Watch)* və Trans-Afrika[105] kimi "keşikçi itlər" əsas insan hüquqlarının təkcə açıq-aşkar avtoritar olan ölkələrdə deyil, həm də demokratik sayılan ölkələrdə pozulduğunu dünyaya car çəkirdi.

Eyni zamanda, Amerikanın xarici siyasətinin Vyetnam müharibəsindən sonra sayca artmış tənqidçiləri göstərirdilər ki, öz antikommunizmini bəyan etmiş istənilən diktatura avtomatik olaraq Amerikanın himayəsini və iqtisadi köməyini əldə edir.

Bu siyasətin əksinə olaraq belə bir ideya meydana çıxdı ki, Birləşmiş Ştatların xarici yardımı yalnız insan hüquqlarına hörmət edən demokratik rejimlərə göstərilə bilər. Amerikanın ölkə xaricindəki siyasəti, onun tənqidçilərinin fikrincə, ancaq keçmişdə, bu siyasət möhkəm mənəvi bünövrəyə malik olanda uğurlu olub. Amerikan "maraqlarının" diktaturaların himayə edilməsinə gətirib cıxara biləcəyi fikri həm praqmatik, həm də mənəvi mülahizələrə görə onları bərk narahat edirdi.

1976-cı ildə Konqres "Beynəlxalq təhlükəsizlik və silah ixracı üzərində nəzarət haqqında Qanun"a insan hüquqları barədə müddəanın daxil edilməsi üzərində prezident Cerald R. Fordun *(Gerald R. Ford)* qoyduğu vetonu aradan qaldırdı. Bəzi tənqidçilər bu müddəanın yalnız simvolik xarakter daşıdığını iddia edirdilər, lakin simvollar ictimai rəyin formalaşmasında böyük rol oynayır. Öz qərarı ilə Konqres bəyan etdi ki, Birləşmiş Ştatlar, demokratik bir ölkə kimi, öz evində müqəddəs saydığı prinsipləri xarici siyasətində də rəhbər tutmağa borcludur, yəni demokratiya bölünməzdir.

Əlavə məlumat üçün oxuyun: Samuel S. Kim, The Quest for a Just World Order (1984); Peter Brown and Douglas McLean, eds., Human Rights and U.S. Foreign Policy (1979); and Donald P. Kommers and Gilburt D. Loescher, eds., Human Rights and American Foreign Policy (1979).

Satış üçün nəzərdə tutulmayıb

BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK VƏ SİLAH İXRACI ÜZƏRİNDƏ NƏZARƏT HAQQINDA QANUN

III fəsil. Ümumi məhdudiyyətlər

İNSAN HÜQUQLARI

1961-ci il tarixli "Xarici yardım haqqında" qanunun 301-ci bölməsinin 502V yarımbölməsinə aşağıdakı düzəlişlər edilir:

502V yarımbölməsi. İnsan hüquqları. — (a)(1) BMT Xartiyasında əks olunmuş beynəlxalq öhdəliklərinə, Konstitusiya irsinə və ənənələrinə uyğun olaraq Birləşmiş Ştatların siyasəti irqindən, dilindən, yaxud dinindən asılı olmayaraq insan hüquqları və fundamental azadlıqlarına daha çox hörmətlə yanaşılmasına yardım və onu təqdir etməkdən ibarətdir. Buna görə də Birləşmiş Ştatların xarici siyasətinin başlıca məqsədi bütün ölkələrin beynəlxalq səviyyədə tanınmış insan hüquqlarına daha çox riayət etməsinə yardımçı olmaqdan ibarətdir.

(2) Beləliklə, Birləşmiş Ştatlarının siyasəti (bu bölmədə müəyyən olunmuş hallardan başqa) elə olmalıdır ki, beynəlxalq səviyyədə tanınmış insan hüquqlarını ardıcıl olaraq pozan hər hansı ölkəyə təhlükəsizlik baxımından heç bir yardım göstərilməsin.

(3) Bu siyasəti aparmaq üçün prezident Birləşmiş Ştatların Beynəlxalq Təhlükəsizlik Yardımına elə bir proqram formalaşdırmalı və həyata keçirməlidir ki, o, insan hüquqlarını müdafiə və inkişaf etdirsin və bu yardım proqramları ilə öz adamlarının beynəlxalq səviyyədə tanınmış hüquqlarını və köklü azadlıqlarını pozan hökumətlərlə... Birləşmiş Ştatların (ictimai rəy tərəfindən) eyniləşdirilməsinə imkan verməsin.

b) (Xarici işlər üzrə) Dövlət katibi hər bir maliyyə ili üçün təklif olunan və Təhlükəsizlik Yardımı Proqramı üçün təqdim edilən materialların bir hissəsi kimi təhlükəsizlik yardımı almaq üçün nəzərdə tutulan hər bir ölkədə beynəlxalq səviyyədə tanınmış insan hüquqlarına riayət olunması və onların bu hüquqlara münasibəti haqqında İnsan Hüquqları və (Dövlət Departamentinin) humanitar məsələlər üzrə kordinatorunun köməyi ilə hazırlanmış tam və bitkin hesabatı Konqresə təqdim etməlidir. Cənubi Afrika hökumətinin (a)(3) yarımbölməsinin şərtlərinə uyğunluğunu müəyyən edərkən və bu bölmənin tələblərinə uyğun hər hansı hesabatı, yaxud bəyanatı hazırlayarkən aşağıdakılar nəzərə alınmalıdır:

Satış üçün nəzərdə tutulmayıb

1) qeyri-hökumət təşkilatları da, məsələn, Beynəlxalq Qırmızı Xaç Komitəsi daxil olmaqla müvafiq beynəlxalq təşkilatların uyğun məlumatları;

2) istənilən bu cür təşkilat tərəfindən beynəlxalq səviyyədə tanınmış insan hüquqlarının güman edilən pozuntularının maneəsiz tədqiq edilməsinə icazə verilməsi istiqamətində bu cür hökumətlə əməkdaşlığın səviyyəsi.

(s)(1) Dövlət katibi Senatın, yaxud Nümayəndələr Palatasının qətnamələr vasitəsilə ifadə olunan sorğularına, yaxud Senatın Xarici Əlaqələr Komitəsinin, ya da Nümayəndələr Palatasının Beynəlxalq Əlaqələr Komitəsinin sorğusuna cavab olaraq..., belə sorğuda göstərilən ölkəyə aid insan hüquqları və humanitar məsələlər üzrə kordinatorun köməyi ilə hazırlanmış məlumatı 30 gün ərzində bu komitələrə təqdim etməli və aşağıdakıları əhatə etməlidir:

(A) bu ölkədə insan hüquqları və başlıca azadlıqlarına riayət və hörmət edilməsi haqqında bütün mümkün məlumat və yardım almalı olan hökumətin bu məsələ ilə bağlı fəaliyyətinin ətraflı təsvir edilməsi;

(V) Birləşmiş Ştatların —

(i) bu ölkədə insan hüquqlarına hörmət və əməl edilməsinə yardım göstərməsi və beynəlxalq səviyyədə tanınmış insan hüquqlarına zidd olan istənilən fəaliyyətin qarşısını almaq və

(ii) açıq, yaxud fərdi qaydada diqqəti ona cəlb etməli ki, Birləşmiş Ştatlar və bu cür ölkə üçün nəzərdə tutulan istənilən təhlükəsizlik yardımı bu (zərərli) fəaliyyətdən ayrıdır.

s) əgər dövlət katibinin fikrinə görə, bu fəaliyyətin əksinə olaraq —

i) bu ölkəyə təhlükəsizlik yardımının verilməsinin davam etdirilməsini tələb edən fövqəladə hallar mövcuddursa, bu halların təsviri və yardımın davam etdirilməsi həddi göstərilərək əlavə olunmalıdır... və

(ii) bu yardımın göstərilməsinin Birləşmiş Ştatların milli maraqlarına cavab verdiyini sübut edən faktlar əks olunmalıdır; və (D) bu komitə, yaxud Konqresin palatasının tələb etdiyi digər ətraflı məlumatın təqdim olunması...

(3) Əgər bu yarımbölmənin (1) paraqrafı ilə tələb olunan ölkə haqqında məlumat (Konqresə) 30 gün ərzində təqdim olunmasa... onda bu ölkəyə, ona bu yardımın qanunla müəyyən edildiyi hallar istisna olmaqla, bu ölkə

Satış üçün nəzərdə tutulmayıb

haqqında müvafiq məlumat verilməyincə, heç bir təhlükəsizlik yardımı göstərilməməlidir.

(4)(A) Əgər belə məlumat təqdim olunubsa, Konqres bundan sonra da istənilən vaxt bu ölkə üçün təhlükəsizlik yardımının kəsilməsi, məhdudlaşdırılması, yaxud davam etdirilməsi haqqında birgə qətnamə qəbul edə bilər. Əgər belə birgə qətnamə qəbul olunubsa, şəraitin tələblərinə uyğun olaraq bu yardım kəsilməli, məhdudlaşdırılmalı, yaxud davam etdirilməlidir...

(d) Bu bölmədə — (1) beynəlxalq səviyyədə tanınmış insan hüquqlarının "kütləvi surətdə pozulması" ifadəsi *işgəncələr, yaxud qəddar, qeyri-insani, alçaldıcı münasibət, yaxud cəzaları, ittiham və məhkəmə hökmünü təqdim etmədən uzunmüddətli həbsləri və insanın yaşamaq, azadlıq və təhlükəsizlik hüquqlarının inkar olunmasını* əks etdirir...

(e) 1961-ci il tarixli "Xarici yardım haqqında" qanunun 624-cü bölməsinə aşağıdakı yarımbölməni əlavə etməklə düzəliş daxil edilir:

(7)(1) (Xarici işlər üzrə) Dövlət Departamentində insan hüquqları və humanitar məsələlər üzrə kordinator vəzifəsi təsis edilir. Kordinator Senatın məsləhəti və razılığı ilə prezident tərəfindən təyin olunur...

(2) Bu kordinator xarici siyasətin yerinə yetirilməsi zamanı insan hüquqlarına və humanitar məsələlərə aid olan bütün materialları (qaçqınlara, hərbi əsirlərə və Birləşmiş Ştatların hərbi qüvvələrinin itkin düşmüş qulluqçularına dair materiallar da daxil olmaqla) daim müşahidə etməli və cəmləşdirməlidir...

(A) bu qanunun 116 və 502V bölməsinin tələblərinə uyğun olan hər bir ölkədə insan hüquqları və humanitar məsələlər haqqında ətraflı məlumat yığmalıdır;

(B) bu qanunun 502V bölməsində göstərilən bəyanat və hesabatları Konqresə təqdim etmək üçün hazırlamalıdır;

(C) bu qanunun 116 və 502V bölməsinə uyğun olaraq Dövlət katibi və Beynəlxalq İnkişaf Agentliyinin rəhbəri üçün tövsiyələr hazırlamalıdır...

1961-ci il tarixli "Xarici yardım haqqında" qanunun 302-ci bölməsinin 505(a) yarımbölməsinə nəticədə aşağıdakı yarımseksiyanı əlavə etməklə düzəliş daxil edilir:

Satış üçün nəzərdə tutulmayıb

(g)(1) Birləşmiş Ştatların siyasəti ondan ibarətdir ki, bu fəsildə nəzərdə tutulan yardım qanunları, normaları, rəsmi siyasəti, yaxud hökumətinin fəaliyyəti irqi, dini, etnik mənşəyi, yaxud cinsinə görə ABŞ-ın hər hansı vətəndaşının hərbi hazırlıq, yaxud müdafiə xidmətində iştirakına əngəl törədən xarici dövlətə verilməməlidir.

(2) (A) Bu fəsildə nəzərdə tutulan funksiyaları yerinə yetirən ölkənin heç bir agentliyi Birləşmiş Ştatlarda, yaxud xaricdə olmasından asılı olmayaraq işə adam götürərkən, yaxud istənilən belə funksiyanın yerinə yetirilməsində iştirak üçün heyət təyin edərkən, ayrı-seçkilik siyasətini, yaxud irqi, dini, etnik, ya da cinsi fərqlərə əsaslanan istənilən xarici hökumətin praktikasını əsas götürməməlidir...

(B) Bu agentlik tərəfindən bağlanılan hər hansı müqaviləyə belə bir müddəa daxil edilməlidir ki, bu müqavilə ilə iş görən heç bir şəxs, kollektiv, korporasiya, yaxud digər təşkilat həm Birləşmiş Ştatlarda, həm də xaricdə işə adam götürərkən, yaxud işə heyət təyin edərkən, ayrı-seçkilik siyasətinə, yaxud dini, etnik və ya cinsi fərqlərə əsaslanan hər hansı xarici hökumətin praktikasını əsas götürməməlidir...

(3) Prezident ABŞ-ın hər hansı vətəndaşının irqi, dini, yaxud cinsi fərqlərə görə hər hansı xarici dövlətə... (bu fəsillə nəzərdə tutulan) yardımın təmin edilməsi, yaxud (5-ci fəslə aid) təhsil və hazırlığa dair proqramlarda iştirakına xarici dövlət tərəfindən əngəl törədildiyi istənilən layihəyə dair məlumatı dərhal Nümayəndələr Palatasının spikeri və Senatın Xarici Əlaqələr Komitəsinin sədrinə çatdırmalıdır. Prezidentin bu məlumatları (A) istənilən belə ayrı-seçkiliyə dair fakt və təfsilatların təsviri, (B) buna qarşı yönəlmiş Birləşmiş Ştatların, ya agentliyin, ya da işverənin reaksiyası, (C) əgər varsa, bu reaksiyanın nəticələrini əhatə etməlidir.

(4)(A) Senatın Xarici Əlaqələr Komitəsinin, yaxud Nümayəndələr Palatasının Beynəlxalq Əlaqələr Komitəsinin sorğusuna uyğun olaraq Prezident 60 gün ərzində... insan hüquqları və humanitar məsələlər üzrə kordinatorun köməyi ilə hazırlanmış və sorğuda göstərilən ölkəyə aid olan məlumatı aşağıdakıları əhatə etməklə bu komitələrə çatdırmalıdır —

(i) bu ölkənin irqi, dini, etnik, yaxud cinsi fərqlərə əsaslanan və istənilən şəxsin (bu fəsillə nəzərdə tutulan) hər hansı yardımın və ya (5-ci fəslə aid) təhsilə, yaxud hazırlığa dair proqramın təmin edilməsi üzrə layihədə iştirakına əngəl törədən hökumətinin ayrı-seçkilik siyasəti və praktikası haqqında bütün mümkün məlumat;

(ii) Birləşmiş Ştatların buna reaksiyası və bu reaksiyanın nəticələri;

Satış üçün nəzərdə tutulmayıb

(iii) əgər prezidentin fikrinə görə, bütün bu siyasət və praktikaya baxmayaraq, — (I) bu yardımın, yaxud təhsil və ya hazırlıq proqramlarının davam etdirilməsini tələb edən fövqəladə hallar mövcuddursa, bu hallar və bu yardımın davam etməli olduğu hədd (bu bölmədə Konqres tərəfindən müəyyən edilən şərtlərə uyğun olaraq) təsvir edilməlidir və (II) bu yardımın, yaxud təhsil və ya hazırlığa dair proqramların davam etdirilməsinin Birləşmiş Ştatların milli mənafeyi üçün zəruri olduğunu göstərən faktlar təqdim olunmalıdır və

(iv) bu komitənin tələb edə biləcəyi istənilən məlumat təqdim olunmalıdır.

(B) Əgər (bu paraqrafın (A) yarımparaqrafına uyğun tələb olunan) ölkəyə yardım, yaxud hazırlıq proqramlarının davam etdirilməsinin zəruriliyi haqqında məlumat 60 gün ərzində çatdırılmasa... onda bu məlumat alınana qədər yardım, yaxud hazırlıq proqramları müvəqqəti dayandırılmalıdır.

(C) (i) Əgər (bu paraqrafın (A) yarımparaqrafına uyğun olaraq) yardım, yaxud hazırlıq proqramları haqqında məlumat çatdırılarsa, Konqres bundan sonra da istənilən vaxt bu yardımın, yaxud hazırlıq proqramlarının başa çatdırılması, yaxud məhdudlaşdırılması haqqında birgə qərar qəbul edə bilər…

Mənbə: U.S. Statutes at Large 90 (1976): 729.

Satış üçün nəzərdə tutulmayıb

55. İnsan Hüquqları və Xarici Siyasət (1977)
Cimmi Karter

Bizim dövrün prezidentlərindən çox azı Amerikanın xarici siyasətinin ən yüksək milli ideallara uyğun gəlməsinin vacibliyi ideyasına Cimmi Karter (*James Earl Carter*) kimi sadiq olub. Birləşmiş Ştatların hələ irqi münasibətlər və insan hüquqları sahəsində öz problemlərindən tam azad ola bilmədiyi bir vaxtda, Karterin xarici siyasəti digər ölkələrdən amerikalıların özlərinin can atdığı demokratiya və insan hüquqları səviyyəsinə çatmağı qətiyyətlə tələb edirdi. 1980-ci ildə Əfqanıstana Sovet müdaxiləsindən dərhal sonra Karter hökuməti Moskvadakı yay olimpiya oyunlarında Amerikanın iştirakından, etiraz əlaməti olaraq, imtina etdi.

Notr-Dam Universitetində (*Notre Dame University*) 1977-ci ilin iyunundakı nitqində Karter göstərdi ki, Amerikanın xarici siyasətində ideallar və reallıqlar, onun fikrincə, nədən ibarət olmalıdır. Bu çıxış, ölkənin ilk prezidenti Corc Vaşinqtonun həmin mövzuda çıxışından kökündən fərqlənirdi.

Əlavə məlumat üçün oxuyun: Jimmy Carter, Keeping Faith (1982); Robert C. Gray and Stanley I. Michalak, Jr., eds., American Foreign Policy since Detente (1984); Burton Kaufman, The Presidency of James Earl Carter (1992).

İNSAN HÜQUQLARI VƏ XARİCİ SİYASƏT

Mən ötən həftə Kaliforniyada ölkəmiz üçün gündəlikdə dayanan daxili məsələlərdən danışmışam: adamlarımızın ehtiyaclarını ödəmək üçün daha səmərəli fəaliyyət göstərməli; zəmanəmizin bədbinliyinin əksinə olaraq nümayiş etdirməliyik ki, hökumətimiz həm səriştəli, həm də daha humanist ola bilər.

Lakin mən bu gün xaricdə bizim hərəkətləri millətimizin səciyyəvi xüsusiyyətləri ilə birləşdirən bağlardan danışmaq istəyirəm. Mən inanıram ki, biz demokratik, köklü dəyərlərə əsaslanan gücümüzdən və nüfuzumuzdan humanist məqsədlər üçün istifadə edəcək xarici siyasətə malik ola bilərik. Biz həmçinin amerikalıların müdafiə etdikləri xarici siyasətə malik

Satış üçün nəzərdə tutulmayıb

ola bilərik. Və bu siyasət dəyişdirilərsə, onlar qabaqcadan məlumatlanacaq və onu başa düşəcəklər.

Mən siyasi sistemimizə inanıram. Demokratiyanın özünü doğrultduğunu bildiyimizə görə insan haqlarını öz əhalisi üçün çox görən hökumətlərin arqumentlərini rədd edirik...

Biz gücümüzə inanırıq, ona görə də nüvə silahlarının qarşılıqlı şəkildə məhdudlaşdırılmasına nail ola bilərik.

Demokratiyanın Hindistanda, Portuqaliyada, İspaniyada, Yunanıstanda son böyük nailiyyətləri göstərir ki, bizim bu sistemə inamımız əbəs deyildir. Öz gələcəyimizə əminlik yarandıqdan sonra biz bu ifrat "kommunizm qorxusundan" yaxamızı qurtarmışıq; qabaqlar bu qorxu bizi istənilən antikommunist diktatorun ağuşuna atırdı, indi isə mən şadam ki, vəziyyət dəyişir.

Tarixi ölçülərlə millətimizin[106] mövcud olduğu 200 il qısa bir dövrdür, bizim dünya zirvələrinə addımlarımız da bu yaxınlarda başlanmışdır. O, 1945-ci ildən Avropa və *köhnə dünya düzəni* xarabalıqlar içərisində olduğu vaxtdan başlayır. Bu vaxta qədər Amerika beynəlxalq işlərdən əsasən kənarda qalırdı. Lakin o vaxtdan biz fasiləsiz olaraq dünya hadisələrinin mərkəzində dayanırıq.

Bu dövr ərzində siyasətimiz iki prinsipə əsaslanmışdır: Sovet ekspansiyasının labüdlüyünə və onun qarşısını almalı olduğumuza inam və Atlantik okeanının hər iki tərəfində olan bütün antikommunist ölkələrin əlahiddə ittifaqının zəruriliyinə müvafiq inam. Bu sistem dəyişikliyə uğramadan uzun müddət qala bilməzdi. Tarixi cərəyanlar onun təməlini sarsıdırdı. Sovet İttifaqı ilə münaqişə təhlükəsi, rəqabətin daha geniş miqyas almasına baxmayaraq, azalmağa başlamışdır.

Vyetnam müharibəsi dərin mənəvi böhrana səbəb oldu, siyasətimizə və həyat tərzimizə inamı bütün dünyada zəiflətdi. Etimad böhranı bəzi liderlərimizin gizli bədbinliyinə görə daha da dərinləşdi.

Bir nəslin də ömründən az vaxt ərzində dünyada dramatik dəyişikliklərin şahidi olduq... Bəşəriyyətin əksəriyyətinin gündəlik həyatı və istəkləri dəyişmişdir. Müstəmləkəçiliyin sonu yetişir. İndi artıq müasir nəslin yaşadığı dövrdə formalaşmış 100-ə qədər yeni ölkədə milli kimliyin yeni məzmunu üstünlük təşkil edir. Biliklər daha geniş yayılmışdır. İnsanlar daha yüksək amallara can atırlar. Ənənəvi məhdudluqlardan azad olunduqca insanlar öz həyatlarında ilk dəfə olaraq sosial ədalətə can atırlar...

Bu, yeni dünyadır, lakin Amerika ondan ehtiyat etməməlidir. Bu, yeni dünyadır və biz onun formalaşmasına kömək etməliyik. Bu, yeni dünyadır və o, yeni Amerika xarici siyasətini — öz prinsiplərində düzgünlüyə, gələcəyə nikbinliyə əsaslanan siyasəti tələb edir...

Satış üçün nəzərdə tutulmayıb

Biz daha qlobal sabitlik üçün əsas kimi yalnız sənaye ölkələrinə arxalanan siyasət yeridə bilmərik. Biz siyasi cəhətdən oyanmış dünyanın yeni reallığına səs verməliyik...

Biz müxtəlif fırıldaqlarla bu siyasəti yeridə bilmərik. Bizim siyasət açıq olmalıdır; səmimi olmalıdır; əməli qlobal cəlbediciliyi ilə fərqlənməli və beş əsas prinsipə söykənməlidir... :

Birincisi, biz Amerikanın xarici siyasətinin əsas prinsipi kimi insan haqlarına sədaqətini təsdiq edirik. Mənşəyimizə, dinimizə, dərimizin rənginə, doğulduğumuz yerə və mədəniyyətimizə görə biz amerikalılar dünyanın heç bir millətində olmayan fərqlərə malikik. Bizi birləşdirən müqəddəs qan, yaxud torpaq birliyi yoxdur. Bütün yerdə qalanlardan daha çox bizi birləşdirən insan azadlığına inamdır. Qoy bütün dünya bilsin — millətimiz maliyyə çiçəklənməsindən daha böyük şeylərə nail olmağa çalışır. Bu o demək deyildir ki, biz xarici siyasəti yalnız sərt əxlaq prinsiplərinə söykənməklə yeritməliyik. Yaşadığımız dünya qeyri-mükəmməldir və həmişə belə qalacaqdır; bu dünya mürəkkəb və dolaşıqdır və həmişə belə olacaqdır.

Mən mənəvi çağırışların hədlərini yaxşı dərk edirəm. Biz xülyaya qapılmırıq ki, dəyişikliklər asan, yaxud tez gələ bilər. Lakin mən həmçinin inanıram ki, onları əks etdirən söz və ideyaların gücünü nəzərə almamaq səhv olardı. Bizim öz tariximizdə bu güc Tomas Peynin "Sağlam düşüncə"sindən Martin Lüter Kinqin "Mənim arzum var" həddinə qədər yol keçmişdir.

İnsanın ruhu üçün söz əməl deməkdir və öz fikrini ifadə etmək azadlığının adi bir şey kimi mövcud olduğu ölkələrdə yaşayan bizim kimi adamlara bunun nə qədər düzgün olduğunu təsəvvür etmək çətindir. Lakin totalitar ölkələrin liderləri bunu yaxşı başa düşürlər. Sözün əməl demək olduğunu o da sübut edir ki, bu cür ölkələrdə dissidentləri təqib edirlər.

Bütün bunlara baxmayaraq, dünyanın hər yerində şəxsiyyətin dövlət hakimiyyətinin özbaşınalığından qorunmasının xeyli yaxşılaşdığı müşahidə olunur. Bu meyli sezməmək bizim bütün dünyada təsirimizi və mənəvi nüfuzumuzu itirməyə bərabər olardı. Bu meylə başçılıq etmək isə əvvəllər malik olduğumuz mənəvi böyüklüyün bərpa olunması demək olardı.

Böyük demokratik ölkələr ona görə azad deyildir ki, güclü və varlıdırlar. Mən əminəm ki, biz azad olduğumuza görə güclü, nüfuzlu və varlıyıq...

İkincisi, biz demokratik ölkələrlə əlaqələri gücləndirmək istiqamətində ciddi addımlar atmışıq. Londondakı son görüşlərimizdə azad ticarətin inkişaf etdirilməsi, dünya pul sisteminin gücləndirilməsi və nüvə silahlarının yayılmasının qarşısını almaq yollarının axtarılması sahələrində iqtisadi əməkdaşlığımızı genişləndirmək haqqında razılığa gəlmişik. Biz yoxsulluq, inkişaf və qlobal tərəqqi məsələlərinin həll edilməsi ilə bağlı şimal-

Satış üçün nəzərdə tutulmayıb

cənub əlaqələrinə dair gələcək görüşlər üçün əməli təkliflər hazırlamışıq. Və biz ümumi müdafiəmizi yaxşılaşdırmaq və modernləşdirmək məqsədilə səylərimizi birləşdirmək qərarına gəlmişik.

Sizin üçün maraqlı olardı ki, NATO-nun bu görüşündə 25 il ərzində ilk dəfə olaraq iştirak edənlərin hamısı artıq demokratik ölkələrdir...

Üçüncüsü, biz Sovet İttifaqının strateji silahların sürətlə artmasının qarşısını almaq istiqamətində ümumi işə cəlb edilməsi üçün addımlar atmışıq. Bu sürətlə silahlanma təkcə təhlükəli deyil, həm də mənəvi cəhətdən zərərlidir. Biz buna son qoymalıyıq...

Dördüncüsü, biz Yaxın Şərqdə möhkəm sülhün bərqərar olması istiqamətində ciddi addımlar atırıq. Biz İsrail, Suriya, İordaniya və Misir liderləri ilə geniş məsləhətləşmələrdən sonra bəzi razılaşma nöqtələri və konsensusa doğru müəyyən irəliləyişlər aşkar etmişik. Danışıqlar davam etdiriləcəkdir...

Və beşincisi, biz dostlarımızın müəyyən narazılığına səbəb ola bilsə də, dünyada nüvə silahının və adi silahların yayılması təhlükəsinin qarşısını almağa çalışırıq...

Bu gün ölkəmizin milli siyasəti silahların satılmasına dair illik maliyyə göstəricilərinin azalmasından, müasir silahların satışına məhdudiyyət qoyulması və xarici dövlətlərlə birgə silah istehsalının səviyyəsinin aşağı endirilməsindən ibarət olacaqdır. O da vacibdir ki, azad və başqa ölkələrin də bizim səylərimizə qoşulmasına nail olmağa çalışırıq...

Yüz ildən artıq bundan əvvəl Avraam Linkoln deyirdi ki, millətimiz yarıkölə, yarıazad şəkildə qala bilməz. Bu gün isə biz dərk edirik ki, üçdə biri varlı və üçdə ikisi ac olan Yer kürəsi uzun müddət belə qala bilməz...

Qərbin demokratik ölkələri, OPEK ölkələri və inkişaf etmiş kommunist ölkələri daha səmərəli yardımın təmin olunması istiqamətində mövcud beynəlxalq institutlar çərçivəsində əməkdaşlıq edə bilərlər. Və bu, müharibənin çox gözəl alternatividir...

İcazənizlə, axırda fikirlərimi ümumiləşdirim: siyasətimiz Amerikanın tarixi rolunun dərk olunmasına əsaslanır. Siyasətimiz böyük dəyişikliklərə cavabdehdir. Siyasətimiz heç vaxt dəyişməyən mənəvi dəyərlərimizə söykənir. Siyasətimiz maddi zənginliyimizlə və hərbi qüdrətimizlə güclənir. Siyasətimiz bəşəriyyətə xidmət etmək üçün düşünülmüşdür. Və bu siyasət ümid edirəm ki, sizi amerikalı olduğunuzdan fəxr duymağa vadar edəcəkdir.

Mənbə: Jimmy Carter, Public Papers of the Presidents of the United States: Jimmy Carter, vol.1 (1977), 954.

Satış üçün nəzərdə tutulmayıb

56. Cənubi Afrikaya Qarşı Sanksiyalar (1986)

"Bur"lar adı ilə də məşhur olan hollandiyalı köçkünlər Cənubi Afrikaya on yeddinci yüzillikdə gəlmişdilər. İki yüz ildən sonra britaniyalılar da burada peyda oldular. İyirminci yüzilliyin əvvəllərində britaniyalılar hollandlara üstün gəldilər və 1910-cu ildə dörd müstəmləkəni – Transvaal, Azad Narıncı Dövlət, Yarımada Koloniyası və Natal müstəmləkələrini birləşdirərək Cənubi Afrika İttifaqını yaratdılar.

O vaxtadək bu ərazidə yaşayan bütün qaradərili afrikalılar ağların hakimiyyəti altına düşmüş və adətən imperiyanın hakimiyyət orqanları tərəfindən yerli əhaliyə qarşı tətbiq edilən məhdudiyyətlərlə üzləşmişdilər. Lakin aparteid adı ilə məşhur olan spesifik irqi ayrı-seçkilik siyasəti yalnız 1948-ci ildən başlayaraq tətbiq edilmişdir. Məhz həmin ildə D.F.Malan *(D.F.Malan)* başda olmaqla ifrat millətçi əhvalruhiyyəli yerli afrikanerlər[107] Cənubi Afrikada hakimiyyətə gəldilər. Sonrakı illərdə Malan hökuməti tərəfindən qəbul edilmiş bir neçə qanuna əsasən, qaradərili afrikalılar yalnız müəyyən vilayətlərdə – rezervasiyalarda yaşamalı və şəxsiyyət vəsiqələrini daim yanlarında gəzdirməli idilər. Onlar əsas vətəndaş hüquq və azadlıqlarından məhrum edilmişdilər.

Avropa ölkələrinin əksəriyyəti kimi, Birləşmiş Ştatlar da əvvəlcə aparteidin tətbiq edilməsinə ciddi əhəmiyyət vermirdilər, çünki bu siyasətin əsas fəlsəfəsi Amerikanın cənubunda tətbiq edilən seqreqasiya siyasətinə oxşayırdı. Birləşmiş Ştatlarda vətəndaş hüquqları uğrunda hərəkat, Asiyada və Afrikada müstəmləkəçiliyə qarşı mübarizə gücləndikcə həm ABŞ-ın özündə, həm də Birləşmiş Millətlər Təşkilatında aparteid əleyhinə səslər daha ucadan eşidilməyə başladı. Cənubi Afrikada dövlətin irqçilik siyasətinə qarşı mübarizəni Nelson Mandelanın *(Nelson Mandela)* başçılıq etdiyi Afrika Milli Konqresi (AMK) aparırdı. Mandela özü də daxil olmaqla AMK liderlərinin çoxu uzun illər həbsxanada qalmışlar.

1970-ci illərdə Cənubi Afrika hökuməti əvvəllər tətbiq etdiyi irqi məhdudiyyətlərin bəzilərini zəiflətməyə başladı, lakin bu dəyişikliklərin tempi AMK-nı qane etmirdi. Ölkədə hər iki tərəfi təmsil edən ekstremistlər tərəfindən geniş miqyaslı zorakılıqlar törədilir, yüzlərlə insan bu zorakılığın qurbanı olurdu. Hətta P.Botanın *(P. Botha)* hökuməti aparteidin ləğv edilməsi ideyasına sadiq görünməsinə baxmayaraq, bu sistemin əleyhdarları daha ciddi islahatlar aparılmasını və onların daha qısa müddətdə həyata keçirilməsini tələb edirdilər.

Xarizmatik anqlikan yepiskopu afrikalı Dezmond Tutu *(Desmond Tutu)* Qərbi Cənubi Afrikaya qarşı

Satış üçün nəzərdə tutulmayıb

əsasən iqtisadi xarakterli boykota çağırmaqla aparteid əleyhinə hərəkatı dəstəkləməyə ruhlandırırdı. Prezident Ronald Reyqan *(Ronald Reagan)* hökuməti isə sanksiyalar tətbiq edilməsinin əleyhinə çıxır, islahatı sürətləndirmək məqsədilə Cənubi Afrikaya tədricən təzyiq göstərməyi üstün tuturdu. Lakin sanksiyaların tərəfdarlarının fikrincə, bu cür siyasət kifayət deyildi: 1986-cı ildə Konqres Prezidentin vetosuna məhəl qoymadan, Cənubi Afrikadan əmtəə idxalını, eləcə də Cənubi Afrikaya Amerika investisiyalarını qadağan etdi.

Bu qərarın əleyhdarlarının fikrincə, həmin sanksiyalar rəmzi tədbir idi, sanksiyaların tərəfdarları isə iddia edirlər ki, bu cür sanksiyalar Cənubi Afrikada siyasi dəyişikliklərin sürətlənməsinə əhəmiyyətli dərəcədə təsir göstərmişdir. 1990-cı ildə Cənubi Afrika prezidenti F. de Klerk *(F. de Klerk)* ömrünün iyirmi yeddi ilini məhbəsdə keçirmiş Nelson Mandelanı azad etdi, AMK ilə danışıqlara başladı və aparteid haqqında qanunların əksəriyyətini yenidən nəzərdən keçirdi. 1992-ci ildə ölkənin ağdərili əhalisinin böyük əksəriyyəti de Klerkin aparteidin ləğv edilməsi və qaradərili çoxluğun siyasi hüquqlarının genişləndirilməsi siyasətinin lehinə səs verdi.

Əlavə məlumat üçün oxuyun: Margaret P.Doxey, Economics Sanctions and International Enforcement (1980); Richard A.Falk, Samuel S.Kim and Saul H.Mendlovitz, eds., The United Nations and a Just World Order (1991).

CƏNUBİ AFRİKAYA QARŞI SANKSİYALAR

Fəsil I. Birləşmiş Ştatların aparteidə son qoymaq siyasəti. Cənubi Afrika hökumətinə münasibətdə siyasət.

Bölmə 101. (a) Birləşmiş Ştatların Cənubi Afrika hökumətinə münasibətdə siyasəti dövlət sistemində qeyri-irqi demokratiya yaradılmasına gətirib çıxarmalı olan islahatlar keçirilməsinə yönəldilməlidir.

(b) Bu məqsədə nail olmaq üçün Birləşmiş Ştatlar Cənubi Afrika hökumətini aşağıdakı tədbirləri görməyə rəğbətləndirəcəkdir:

(1) mövcud fövqəladə vəziyyəti ləğv etməyə və bütün irqlərdən olan vətəndaşlar üçün qanun qarşısında bərabərlik prinsipinə hörmət etməyə;

(2) həmkarlar ittifaqlarının qaradərili liderlərini – Nelson Mandelanı, Qovan Mbekini (Govan Mbeki), Uolter Sizulunu (Walter Sisulu) və bütün siyasi məhbusları azad etməyə;

Satış üçün nəzərdə tutulmayıb

(3) bütün irqlərdən olan cənubi-afrikalılara siyasi partiyalar yaratmaq, siyasi fikirlərini ifadə etmək və siyasi prosesdə hər hansı başqa şəkildə iştirak etmək hüquqları verməyə;

(4) aparteid qanunlarının ləğv edilməsi qrafikini qəbul etməyə;

(5) Cənubi Afrikada gələcək siyasi sistem barədə Cənubi Afrikanın bütün irqi qruplarının nümayəndələri ilə danışıqlar aparmağa və

(6) qonşu dövlətlərə qarşı hərbi və hərbiləşdirilmiş əməliyyatlara son qoymağa.

(c) Birləşmiş Ştatlar bu bölmənin (b) yarımbölməsində ifadə edilmiş hərəkətləri bu aktda göstərilən iqtisadi, siyasi və diplomatik tədbirlər vasitəsilə rəğbətləndirəcəkdir. Birləşmiş Ştatlar Cənubi Afrika hökumətinə özünün münasibətini bu bölmənin (a) yarımbölməsində ifadə edilmiş məqsədlərə nail olmaq üçün Cənubi Afrikanın zəruri hərəkətlərinə və ya hərəkətsizliyinə müvafiq qaydada dəyişəcək.

Afrika Milli Konqresinə münasibətdə siyasət və sair məsələlər.

Bölmə 102. (a) Afrika Milli Konqresinə, Pan-Afrika Konqresinə və onların tərəfdarlarına münasibətdə Birləşmiş Ştatların siyasəti zorakılığa son qoyulmasını rəğbətləndirməli, bu isə Cənubi Afrikada qeyri-irqi və həqiqi demokratiyanın bərqərar edilməsi məqsədilə danışıqlara başlamağa gətirib çıxarmalıdır.

(b) Birləşmiş Ştatlar bu məqsədə nail olmaq üçün tədbirlər görməli, Afrika Milli Konqresini, Pan-Afrika Konqresini və onların tərəfdarları aşağıdakılara rəğbətləndirməlidir:

(1) Cənubi Afrika hökuməti və cənubi-afrikalıları təmsil edən digər qaradərili qruplarla danışıqların mümkün olması üçün terror fəaliyyətini dayandırmalı;

(2) aparteid dövründən sonrakı azad və demokratik Cənubi Afrikanın gələcək quruluşu barədə öhdəliklər qəbul edilməsinə nail olmalı;

(3) Cənubi Afrika problemlərinin dinc yolla həll edilməsi məqsədilə danışıqlara başlamağa razılıq verilməsinə nail olmalı;

(4) onların Cənubi Afrika Kommunist Partiyası ilə əlaqələrini yenidən araşdırmalıdır.

(c) Birləşmiş Ştatlar bu bölmənin (b) yarımbölməsində ifadə edilmiş hərəkətləri siyasi və diplomatik tədbirlər vasitəsilə rəğbətləndirəcəkdir. Birləşmiş Ştatlar Cənubi Afrika hökumətinə münasibətdə öz hərəkətlərini həm 101 (a) yarımbölməsində ifadə edilmiş məqsədlərə nail olmaq üçün Cənubi Afrika hökumətinin hərəkətlərinə və ya hərəkətsizliyinə müvafiq qaydada, həm də bu bölmənin (a) yarımbölməsində ifadə edilmiş məqsədlərə nail olmaq üçün AMK-nın və digər təşkilatların zəruri hərəkətlərinə və ya hərəkətsizliyinə müvafiq qaydada dəyişəcək.

Satış üçün nəzərdə tutulmayıb

Aparteid qurbanlarına münasibətdə siyasət.

Bölmə 103. (a) Birləşmiş Ştatlar aparteid qurbanlarına münasibətdə öz siyasətində həmin insanların təqib edilməsinin ən birinci səbəbi olan aparteid sisteminin ləğv edilməsi üçün iqtisadi, siyasi, diplomatik və digər təsirli tədbirlərdən istifadə etməlidir. Aparteid sisteminin ləğv edilməsini gözləyən Birləşmiş Ştatların bu sistemə qarşı mübarizədə sonradan istifadə edəcəyi vasitələr aparteid qurbanlarına – həm ayrı-ayrı fərdlərə, həm də təşkilatlara qarşı aparteid sistemi tərəfindən tətbiq edilmiş maneələrin aradan qaldırılması üçün kömək etməkdən, eləcə də onların post-aparteid Cənubi Afrikada öz ölkələrinin siyasi, sosial, iqtisadi və intellektual həyatında qanuni rollarını həyata keçirməyə bu Aktda göstərilən qaydada hazırlaşmalarına kömək etməkdən ibarət olmalıdır;

(b) Birləşmiş Ştatlar bu bölmənin (a) yarımbölməsində göstərilmiş məqsədlərə aşağıdakı yollarla nail olmağa çalışacaqdır:

(1) Cənubi Afrikada aparteid qurbanlarının (irqinə, dərisinin rənginə, cinsinə, dininə və siyasi oriyentasiyasına görə ayrı-seçkiliyə yol verilmədən) post-aparteid Cənubi Afrikada liderliyə hazırlanması üçün onların Cənubi Afrikada və Birləşmiş Ştatlarda zəruri təhsil almaq imkanı qazanmasında kömək etməklə;

(2) aparteid qurbanlarına yardım etməklə;

(3) məqsədləri Cənubi Afrikada aparteid qurbanlarına kömək etməkdən və ya aparteid qanunlarına qarşı zorakılığa əsaslanmayan hüquqi və siyasi mübarizəyə şərait yaratmaqdan ibarət olan şəxsləri və ya qrupları dəstəkləməklə;

(4) zorakılığa əsaslanmayan hərəkətlərinə görə Cənubi Afrikanın hökumət orqanları tərəfindən həbs edilmiş və ya tutulub saxlanmış şəxslərə birbaşa maliyyə yardımı göstərmək və "nekleysinq"[cviii] tipli terror aktları zamanı qətlə yetirənlərin ailələrinə kömək etməklə;

(5) Birləşmiş Ştatların Cənubi Afrikada qeyri-irqi demokratik cəmiyyət yaradılmasının şahidi olmaq arzusunu Cənubi Afrikanın ən ali rəhbərliyinin nəzərinə çatdırmaqla;

(6) Əgər Cənubi Afrika hökuməti aparteid qanunlarının ləğv edilməsi və qeyri-irqi demokratiyanın bərqərar olunması işində uğur qazanmaq iqtidarında olmasa, onda aparteid qurbanlarının hüquqlarını siyasi, iqtisadi və ya digər sanksiyalar vasitəsilə dəstəkləməklə; və

(7) bütün afrikalıların terror hücumundan təhlükəsizliyini dəstəkləmək və bu məqsədlə möhlət müəyyən etməklə. Həmin möhlət başa çatandan sonra Birləşmiş Ştatlar bu Aktın məqsədlərinə nail olmaq üçün terrorizmə şərait yaradanlara və bu cür qruplara sığınacaq verən ölkələrə qarşı siyasi tədbirlər tətbiq etməyə başlayacaqdır.

Cənubi Afrikanın digər ölkələrinə münasibətdə siyasət.

Satış üçün nəzərdə tutulmayıb

Bölmə 104. (a) Cənubi Afrika regionunun digər ölkələrinə münasibətdə Birləşmiş Ştatların siyasəti demokratik idarəetmə formasını, insan hüquqlarına tam hörmət bəslənməsini, beynəlxalq terrorizmə son qoyulmasını, siyasi müstəqilliyi və iqtisadi inkişafı təqdir etməlidir;

(b) Birləşmiş Ştatlar bu bölmənin (a) yarımbölməsində göstərilən məqsədlərə aşağıdakı yollarla nail olmağa çalışacaqdır:

(1) Namibiyanın müstəqilliyinin qorunmasına və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnaməsinə uyğun olaraq Namibiyada qeyri-irqi demokratiyanın bərqərar olmasına kömək;

(2) bütün əcnəbi silahlı qüvvələrin regiondan çıxarılmasına şərait yaratmaq;

(3) region dövlətlərini yaranmış fikir ayrılıqlarını dinc vasitələrlə tənzimləməyə rəğbətləndirmək;

(4) milli iqtisadiyyatların istehsal sektorlarının inkişafına, xüsusən qeyri-dövlət sektorunun iqtisadi fəallığına yönəlmiş ikitərəfli və çoxtərəfli iqtisadi yardım vasitəsilə iqtisadi inkişafa şərait yaratmaq;

(5) zəruri hallarda regiondakı bütün ölkələrdən həm onların öz vətəndaşlarının, həm də həmin ölkələrdə yaşayan vətəndaşlığı olmayan şəxslərin hüquqlarına hörmət etmələrini, xüsusən siyasi əqidələrinə görə təqib edilən və ya məhkəməsiz tutulub saxlanmış şəxslərin azad edilməsini təkidlə tələb etmək;

(6) zəruri hallarda regionun bütün ölkələrindən beynəlxalq terrorizmə qarşı təsirli tədbirlər görülməsini təkidlə tələb etmək və

(7) regional iqtisadi əməkdaşlığa və regionlararası nəqliyyat əlaqələrinin, eləcə də iqtisadi tərəqqi üçün zəruri olan digər infrastrukturun inkişafına şərait yaratmaq məqsədilə ölkə daxilində və digər regionlarda Amerikanın öhdəliklərindən irəli gələn məhdudiyyətlər çərçivəsində müvafiq yardımı təmin etmək.

"Cəbhəyanı" dövlətlərə münasibətdə siyasət.

Bölmə 105. Konqresin fikri belədir ki, prezident "cəbhəyanı" Afrika dövlətlərinin nəqliyyat sisteminin və ya Cənubi Afrika vasitəsilə digər iqtisadi əlaqələrinin pozulması zamanı onlara göstərilmiş təsirin nəticələrini, eləcə də bu cür təsirin azaldılması vasitələrini bu dövlətlərin hökumətləri ilə müzakirə etməlidir.

Bölmə 106. (a) (1) Birləşmiş Ştatların siyasəti bütün vətəndaşlara öz ölkəsinin idarə edilməsində tam iştirak etmək hüququ verməli olan gələcək siyasi sistemin layihəsini işləyib hazırlamaq üçün Cənubi Afrikanın bütün vətəndaşlarının nümayəndələri arasında danışıqlar aparılmasına şərait yaratmalıdır. Birləşmiş Ştatlar yəqin etmişdir ki, Cənubi Afrikadakı nüfuzlu və leqal siyasi partiyalar, o cümlədən bəzi təşkilatlar ləğv edilmişdir və buna görə də bu cür danışıqlarda bütün qanuni siyasi baxışların təmsil edilə bilməsi üçün Birləşmiş

Satış üçün nəzərdə tutulmayıb

Ştatlar bu cür təşkilatların fəaliyyətinin qadağan olunmasını ləğv etməyə çalışacaqdır. Birləşmiş Ştatlar həmçinin yəqin etmişdir ki, kommunistlər aparteidə qarşı mübarizə aparan bəzi təşkilatlara nüfuz etmişlər və kommunistlər bu cür təşkilatların rəhbər orqanlarının üzvləridir.

(2) Konqresin fikri belədir ki, bu məqsədə nail olmaq üçün ABŞ Prezidenti, ABŞ Dövlət Katibi və ya yüksəkvəzifəli digər müvafiq nümayəndələr Cənubi Afrikanın müxalifətçi təşkilatlarının, xüsusən qaradərili çoxluğu təmsil edən təşkilatların liderləri ilə görüşməli, lakin bununla kifayətlənməməlidir. Bundan əlavə, bu Aktda təsvir edildiyi tərzdə post-aparteid demokratiyasına keçməyə nail olmaq məqsədilə, Prezident Birləşmiş Ştatların əsas müttəfiqləri və digər əlaqədar tərəflərlə birlikdə danışıqlar aparılması naminə müxalifətçi siyasi liderləri Cənubi Afrika hökumətinin liderləri ilə barışdırmağa çalışmalıdır.

(b) Birləşmiş Ştatlar Cənubi Afrika hökumətini və danışıqların bütün iştirakçılarını bütün cənubi-afrikalıların siyasi partiyalar yaratmaq, siyasi fikirlərini ifadə etmək və siyasi prosesdə hər hansı başqa üsulla iştirak etmək hüquqlarına istər hökumət tərəfindən, istərsə də qeyri-hökumət təşkilatları tərəfindən cəza tədbirləri görüləcəyindən ehtiyat etmədən bu hüquqlara hörmət etməyə rəğbətləndirəcəkdir. Konqres belə hesab edir ki, zorakılığın dayandırılması danışıqlar aparılması üçün mühüm ilkin şərtdir. Birləşmiş Ştatlar münaqişənin bütün tərəflərini zorakılığı dayandırmağa razılıq verməyə çağırır.

(c) Birləşmiş Ştatlar zorakılığın dayandırılması barədə sazişə nail olmaq üçün səy göstərəcək və bu istiqamətdə görülən tədbirləri əlaqələndirmək üçün Qərbin əsas müttəfiqləri və region ölkələrinin hökumətləri ilə danışıqlara başlayacaqdır.

(d) Konqres belə hesab edir ki, əgər Birləşmiş Ştatlar və onun əsas müttəfiqləri olan Böyük Britaniya, Kanada, Fransa, İtaliya, Yaponiya və Qərbi Almaniya Cənubi Afrika hökuməti tərəfindən:

(1) fövqəladə vəziyyət rejiminin ləğv edilməsini və Nelson Mandela da daxil olmaqla siyasi məhbusların azad olunmasını elan etmək;

(2) Afrika Milli Konqresinin, Pan-Afrika Konqresinin, qaradərililərin özünüdərk hərəkatının və terrorizmə son qoymaq danışıqlarda və demokratik prosesdə iştirak etmək əzmində olan bütün başqa qrupların fəaliyyətinə qadağan qoyulmasını ləğv etmək;

(3) "Vilayət qrupları haqqında aktın"[cix], "Əhalinin qeydiyyatı haqqında aktın"[cx] ləğv edilməsi və houmləndlərin (homeland) sakinləri də daxil olmaqla bütün cənubi-afrikalılara vahid vətəndaşlıq verilməsi; və

(4) hakimiyyətin bir hissəsinin qaradərili çoxluğa verilməsi barədə danışıqlarda beynəlxalq təşkilatların vasitəçilər kimi iştirak etməsinə razılıq verməsi müqabilində Cənubi Afrikaya mərhələlər üzrə çoxtərəfli yardım göstərilməsi planının işlənib hazırlanması məqsədilə görüş keçirsəydilər, danışıqların başlanması barədə sazişə gəlmək sürətlənərdi.

Satış üçün nəzərdə tutulmayıb

Aparteidə qarşı mübarizədə beynəlxalq əməkdaşlığa münasibətdə siyasət.

Bölmə 107. (a) Konqres bu nəticəyə gəlmişdir ki, (1) aparteidə qarşı səmərəli mübarizə və Cənubi Afrikada terrorizmə son qoyulması üçün şərt kimi beynəlxalq əməkdaşlıq zəruridir və (2) Cənubi Afrikada yaranmış vəziyyət beynəlxalq münasibətlər üçün təhlükə doğurur və ABŞ-ın təhlükəsizliyinin əsas mənafelərini qorumaq üçün burada beynəlxalq əməkdaşlıq zəruridir.

(b) Buna müvafiq olaraq, Konqres Prezidentə müraciətlə, onu bütün fərdlər, qruplar və millətlər arasında bu cür beynəlxalq əməkdaşlıq üçün imkanlar axtarmağa çağırır.

"Nekleysinq" barəsində siyasət.

Bölmə 108. Konqres belə hesab edir ki, Afrika Milli Konqresi istənilən şəxsin istənilən ölkədə "nekleysinq" deyilən yandırma vasitəsilə qətlə yetirilməsini qətiyyətlə pisləməli və ona qarşı təsirli tədbirlər görməlidir.

Birləşmiş Ştatların səfiri Nelson Mandela ilə görüşməlidir.

Bölmə 109. Senat belə hesab edir ki, Birləşmiş Ştatların səfiri dərhal Cənubi Afrika hökumətinə müraciət edərək Birləşmiş Ştatların səfirinin Nelson Mandela ilə görüşməsi barədə sorğu verməlidir.

Qaradərili cənubi-afrikalıların Birləşmiş Ştatlardan olan işəgötürənlər tərəfindən muzdlu işə qəbul edilməsi və onların öyrədilməsi siyasəti.

Bölmə 110. (a) Konqres belə hesab edir ki: (1) aparteid siyasəti mənfur və mənəviyyatsız siyasətdir; (2) Birləşmiş Ştatlar demokratiya və şəxsi azadlıqlar barədə prinsipləri qətiyyətlə müdafiə edir; (3) Birləşmiş Ştatlar belə hesab edir ki, siyasi prosesdə bütün vətəndaşlar iştirak etməlidirlər; (4) azad, açıq və güclü iqtisadiyyat hamı üçün sosial bərabərliyə və iqtisadi inkişafa nail olmağın birinci şərtidir; və (5) Birləşmiş Ştatlar bütün dünyada insan hüquqlarının və insanların şəxsi ləyaqətinin qorunması və genişləndirilməsi siyasətinə sadiqdir.

(b) Konqresin fikri belədir ki, Birləşmiş Ştatlardan olan və Cənubi Afrikada işləyən işəgötürənlər aparteid siyasətinə və metodlarına qarşı fəal çıxış etməli, konkret olaraq qaradərili və rəngli cənubi-afrikalıları işə qəbul etməli və onlara inzibatçılıq vərdişlərini öyrətməlidirlər...

Fəsil III. Aparteid sisteminin ləğv edilməsi üçün Birləşmiş Ştatların fəaliyyəti. Krügerrandlar idxalının qadağan edilməsi.

Bölmə 301. Heç bir şəxs və heç bir bank Birləşmiş Ştatlara Cənubi Afrikanın hər hansı krügerrandlarını və ya Cənubi Afrikada zərb edilmiş və ya Cənubi

Satış üçün nəzərdə tutulmayıb

Afrika hökuməti tərəfindən satılmaq üçün təklif edilən hər hansı başqa qızıl pulları idxal edə bilməz.

Hərbi məqsədlər üçün nəzərdə tutulan malların idxalının qadağan edilməsi.

Bölmə 302. Cənubi Afrikada istehsal edilmiş heç bir silah, döyüş sursatı və hərbi nəqliyyat vasitələri, yaxud bu cür məmulatlar üçün hər hansı dəstələşdirici detallar Birləşmiş Ştatlara idxal edilə bilməz.

Cənubi Afrikaya kompüterlər ixracının qadağan edilməsi.

Bölmə 304. (a) Hər hansı kompüterlər, proqram təminatı, kompüterlərin istehsal edilməsi və ya onlara xidmət üçün nəzərdə tutulan mallar və ya texnologiyalar Cənubi Afrika hökumətinin aşağıda göstərilən idarələrindən hər hansı biri üçün ixrac edilə bilməz və ya onların tərəfindən istifadə edilə bilməz:

(1) Silahlı qüvvələr; (2) Polis; (3) Həbsxana sistemi; (4) Dövlət təhlükəsizlik agentləri; (5) Hərbi sənaye korporasiyası ARMSCOR və onun filialları və ya "Elmi və sənaye tədqiqatları şurası"nın hərbi araşdırmalarının nəticələri; (6) Aparteid qurbanlarına nəzarət edilməsi ilə məşğul olan hökumət idarələri; (7) Aparteidi həyata keçirən hər hansı hökumət idarəsi; (8) Bu bölmənin (1)-(7) bəndlərində göstərilən bölmələrdən hər hansı birinin hər hansı funksiyasını icra edən hər hansı yerli, regional və ya houmlənd tipli hökumət idarəsi.

(b) (1) Cənubi Afrikanın yalnız bu bölmənin (a) yarımbölməsində göstərilməyən hökumət idarələri və yalnız o halda kompüterlərdən istifadə edə bilərlər ki, bu kompüterlərin son tətbiqinin yoxlanılması sistemi həmin kompüterlərdən bu bölmənin (a) yarımbölməsində göstərilmiş idarələrin hər hansı biri tərəfindən heç bir funksiyanın yerinə yetirilməsi üçün həqiqətən istifadə edilməyəcəyinə təminat versin. (2) bu bölmədəki müddəaların yerinə yetirilməsi üçün ticarət naziri zəruri qaydalar və təlimatlar tətbiq edə bilər.

Cənubi Afrika hökumətinə kredit verilməsinin qadağan edilməsi.

Bölmə 305. (a) Birləşmiş Ştatların vətəndaşlarından heç kəs bilavasitə və ya dolayı yolla Cənubi Afrika hökumətinə və ya Cənubi Afrika hökumətinə məxsus olan və ya onun idarə etdiyi hər hansı korporasiyaya, şirkətə və ya digər təşkilata verilmiş hər hansı krediti təsdiq etmək və ya kreditin müddətini artırmaq və ya kredit vermək hüququna malik deyildir.

Cənubi Afrika ilə hava daşımalarının qadağan edilməsi.

Bölmə 306. (a) (1) Prezident Cənubi Afrika hökumətinə dərhal bildirməlidir ki, o, "ABŞ və Cənubi Afrika İttifaqı hökumətləri arasında onların əraziləri arasında hava daşımaları barədə" 23 may 1947-ci il tarixli sazişdə göstərilən

Satış üçün nəzərdə tutulmayıb

marşrutlara xidmət edilməsi üçün Cənubi Afrika hökuməti tərəfindən göstərilən hər hansı aviaşirkətin hüquqlarını dayandırmaq niyyətindədir.

(2) Bu Akt qüvvəyə mindikdən on gün sonra Prezident yuxarıda göstərilən Sazişə müvafiq olaraq Cənubi Afrika hökumətinin göstərdiyi hər hansı aviaşirkətin servis xidmətlərini həyata keçirmək hüququnun ləğv edilməsi barədə nəqliyyat nazirinə sərəncam verməlidir.

(3) Bu akt qüvvəyə mindikdən on gün sonra Prezident nəqliyyat nazirinə əmr etməlidir ki, yuxarıda göstərilən Sazişə əsasən, Birləşmiş Ştatların hər hansı aviaşirkəti tərəfindən Birləşmiş Ştatlarla Cənubi Afrika arasında hava daşımalarının həyata keçirilməsi birmənalı şəkildə qadağan edilsin.

Cənubi Afrika ilə nüvə materialları alverinin qadağan edilməsi.

Bölmə 307. (a) Qanunvericiliyin hər hansı başqa müddəasına baxmayaraq, (1) Nüvə tənzimləməsi üzrə Komissiya "Atom Enerjisi haqqında Aktın" 109 (b) bölməsinə müvafiq olaraq Komissiya tərəfindən müəyyən edilmiş və nüvə partlayış qurğularının yaradılması üçün istifadə edilən materialların ixracına nəzarət baxımından xüsusi diqqət yetirilməli olan məhsulların və ya onlardan istifadə vasitələrinin, xüsusi nüvə materiallarının və ya onların hər hansı mənbəyinin və ya yüksək həssaslığa malik olan nüvə texnologiyasının və ya hər hansı dəstləşdirici detalların, məmulatların və ya maddələrin Cənubi Afrikaya ixrac edilməsi üçün heç bir lisenziya verməməlidir.

Cənubi Afrikadan uran və kömür idxalının qadağan edilməsi.

Bölmə 309. (a) Qanunvericiliyin hər hansı başqa müddəasına baxmayaraq, (1) uran filizi, (2) uran oksidi, (3) kömür və Cənubi Afrikada istehsal edilmiş və ya hazırlanmış toxuculuq malları Birləşmiş Ştatlara idxal edilə bilməz.

(b) Bu bölmə bu Akt qüvvəyə mindikdən 90 gün sonra qüvvəyə minməlidir.

Cənubi Afrikada yeni investisiyaların qadağan edilməsi.

Bölmə 310. (a) Birləşmiş Ştatların vətəndaşlarından heç kəs Cənubi Afrikada bilavasitə və ya başqa şəxsin vasitəsilə hər hansı yeni investisiya qoya bilməz.

(b) Bu bölmənin (a) yarımbölməsində göstərilən qadağan tədbiri bu Akt qüvvəyə mindikdən 45 gün sonra qüvvəyə minməlidir.

(c) Bu bölmədə göstərilən qadağan tədbiri qaradərili cənubi-afrikalılara məxsus olan firmalara aid edilməməlidir.

Bu Aktın bəzi müddəalarının qüvvəsinə xitam verilməsi.

Satış üçün nəzərdə tutulmayıb

Bölmə 311. (a) Əgər Cənubi Afrika hökuməti:

(1) siyasi əqidələrinə görə təqib edilən və ya lazımi məhkəmə proseduru olmadan tutulub saxlanılmış bütün şəxsləri, o cümlədən Nelson Mandelanı həbsdən azad edərsə;

(2) bu Akt qüvvəyə mindiyi gün fövqəladə vəziyyəti ləğv edərsə və həmin fövqəladə vəziyyətə müvafiq olaraq tutulub saxlanmış bütün şəxsləri azad edərsə;

(3) demokratik siyasi partiyaların qadağan olunmasını ləğv edərsə və bütün irqlərdən olan cənubi-afrikalıların siyasi partiyalar yaratmaq, siyasi fikirlərini ifadə etmək və ya siyasi prosesdə hər hansı başqa üsulla iştirak etmək hüququ verərsə;

(4) "Vilayət qrupları haqqında Akt"ı və "Əhalinin qeydiyyatı haqqında Akt"ı ləğv edərsə və eyni niyyətlər güdən hər hansı başqa tədbirlər müəyyən etməzsə; və

(5) heç bir ilkin şərt irəli sürmədən qaradərili əksəriyyətin həqiqi nümayəndələri ilə namuslu danışıqlara başlamağa razılıq verərsə, bu fəslin, eləcə də 501(c) və 504 (b) bölmələrinin qüvvəsinə xitam veriləcəkdir.

(b) Prezident bu fəsildə və ya 501 (c) bölməsində və ya 504 (b) bölməsində nəzərdə tutulmuş tədbirlərdən hər hansı birini Nümayəndələr Palatasının Spikerinə və Senatın Xarici İşlər Komitəsinin Sədrinə Cənubi Afrika hökumətinin:

(1) bu bölmənin (a) yarımbölməsinin (1) paraqrafında göstərilən tədbirləri görməsi,

(2) bu bölmənin (a) yarımbölməsinin (2)-(5) paraqraflarında göstərilən dörd tədbirdən üçünü görməsi; və

(3) aparteid sisteminin ləğv edilməsi və qeyri-irqi demokratiyanın bərqərar olması işində ciddi tərəqqiyə nail olmasını müəyyən etdikdən və bu barədə məlumat verdikdən 30 gün sonra, əgər həmin 30 gün müddətində Konqres bu Aktın 602-ci bölməsinə müvafiq qərar qəbul etməzsə, bu bölmənin (b) yarımbölməsinə müvafiq olaraq, Nümayəndələr Palatası və Senat Prezidentin qərarını təsdiq etməyən birgə qərar qəbul etməzsə, həmin tədbirlərdən hər hansı birini dayandırmaq və ya dəyişdirmək hüququna malikdir.

(c) Birləşmiş Ştatların siyasəti bu Aktda adları çəkilən bütün icmaların nümayəndələri ilə danışıqları dəstəkləməkdən ibarət olmalıdır. Əgər Cənubi Afrika hökuməti ilkin şərtlər irəli sürmədən bu cür danışıqlara başlamağa razılıq verərsə, öz opponentlərinə qarşı əsassız zorakılığa son qoyarsa, post-aparteid azad və demokratik Cənubi Afrika qurulmasını təmin edən qanunların qəbul ediləcəyi barədə öz üzərinə öhdəliklər götürərsə və əgər bütün bunlara baxmayaraq Afrika Milli Konqresi, Pan-Afrika Konqresi və ya onların tərəfdaşları və ya başqa təşkilatlar bu danışıqlarda iştirak etməkdən imtina edərsə və ya Afrika Milli Konqresi, Pan-Afrika Konqresi və ya digər təşkilatlar:

(1) bu cür danışıqlar aparılan müddətdə əsassız zorakılığa son qoymaqdan imtina edərsə; və (2) azad və post-aparteid Cənubi Afrika yaradılmasını təmin edən qanunlar qəbul etmək barədə öhdəliklər götürməkdən imtina edərsə, bu

Satış üçün nəzərdə tutulmayıb

halda Birləşmiş Ştatlar həmin təşkilatların iştirakı olmadan danışıqlar aparılmasını dəstəkləyəcəkdir.

Zorakılığa və terrorizmə münasibətdə siyasət.

Bölmə 312. (a) Cənubi Afrikada zorakılığa münasibətdə Birləşmiş Ştatların siyasəti bu cür zorakılığa dərhal son qoyulmasına və aparteid sisteminin kökünün kəsilməsinə və Cənubi Afrikada qeyri-irqi demokratiyanın bərqərar olması ilə nəticələnməli olan danışıqlara şərait yaradılmasına yönəlməlidir.

(b) Birləşmiş Ştatlar silahsız mülki şəxslərə və ya bu cür fəaliyyətə şərait yaradan fərdlərə və ya qruplara kömək edən şəxslərə qarşı yönəlmiş terror aktlarına şərait yaradan şəxslərin təcrid edilməsinə yönəlmiş diplomatik və digər tədbirlər vasitəsilə bu məqsədə nail olmalıdır.

(c) Konqres bəyan edir ki, Cənubi Afrikada qaradərililər tərəfindən özlərinin qaradərili qardaşlarına qarşı tətbiq edilmiş mənfur "nekleysinq" və ona oxşar antihumanist əməllər bütün dünyada insanın qorxusuz və zorakılıqla tabe edilmədiyi şəraitdə yaşamaq hüququnu qiymətləndirən bütün insanlar üçün qeyri-məqbuldur.

Mənbə: U.S. Statutes at Large 100 (1986): 1086.

Satış üçün nəzərdə tutulmayıb

Soyuq Müharibə

Almaniya və Yaponiya üzərində 1945-ci ildə çalınan qələbənin sevinci çox keçmədi ki, qorxu ilə əvəz olundu. Belə ki, Amerikanın müttəfiqi olan Sovet İttifaqı birdən-birə dönüb onun düşməninə çevrildi və Soyuq Müharibə qırx ilə qədər çəkdi.

Soyuq Müharibə amerikan cəmiyyətinə, onun dövlət siyasətinə böyük dəyişmələr gətirdi. Bu müharibə amerikan xalqına, çətin də olsa, öz münasibət və baxışlarına yenidən nəzər yetirməyi tələqin etdi. Axı amerikalılar özlərinin xarici siyasətində yalnız ağ və qara rəngi görməyə alışmışdılar: hər hansı dövlət ya dostdur, ya da düşmən; yaxşı siyasət ya da pis siyasət, udulan, ya da uduzulan müharibə; Soyuq Müharibə dövründə amerikan xarici siyasəti mahiyyətcə Harri Trumən tərəfindən düşünülmüş "cilovlama siyasəti"nə *(containment policy)* söykənirdi. Bu siyasətin əsas məqsədi Sovet İttifaqının nüfuz dairəsini Şərqi Avropa çərçivəsində cilovlamaq idi; kommunist qüvvələri daha uzağa gedəcəyi təqdirdə, Birləşmiş Ştatların əsas vəzifəsi Sovet İttifaqını yalnız öz yerində oturtmaq idi…

Soyuq Müharibə amerikanlara imkan yaratdı ki, Marşall planını əldə rəhbər tutub səxavət göstərsinlər, həm də ölkənin öz daxili siyasətində ciddi dəyişmələr aparsınlar. Koreya müharibəsinin tən ortasında o qədər də rəğbət qazanmayan prezident, məşhur generalı tutduğu vəzifədən azad etməklə, mülki rəhbərliyin hərbçilərdən bir baş yuxarı olduğunu sübuta yetirdi. Ali Məhkəmə öz hərbi səlahiyyətlərindən istifadə etmiş prezidentin bu təşəbbüsünü antikonstitusion hərəkət kimi qiymətləndirdi; amerikan tarixində Vətəndaş müharibəsindən bəri indiyəcən belə bir məqama rast gəlinməmişdi. Elə bu məqamdaca makkartizm öz üzünü göstərdi; qısa, ancaq dəhşətli bir zaman kəsiyində kütlə şüuru – demokratiyanın astar üzü meydan suladı. Ancaq millət Soyuq Müharibə dövrünü yaşayıb qurtardı. Eyni zamanda, cəmiyyətin bəzi demokratik prinsipləri də əksinə, möhkəmlənmiş oldu.

Satış üçün nəzərdə tutulmayıb

57. Marşall Planı (1947)

1947-ci il iyunun 5-də dövlət katibi Corc Marşall *(George C. Marshall)* özünün Harvard Universitetindəki çıxışında sonradan "Marşall planı" kimi məşhurlaşan planın konturlarını cızdı.

Müharibənin səfalətini yaşamış Avropa çox ağır bir qışdan çıxmışdı. Avropa ölkələrində dönərli valyutaya satıla bilən mallar yox dərəcəsində idi, əlavə olaraq bu ölkələrin çoxundakı sosial-demokratik iqtidarlar liberal fikirli iqtisadçıların irəli sürdükləri ağrıverici bərpa tədbirlərini qəbul etmək niyyətində deyildilər. Əlbəttə, humanitar sahədə islahatlar həyata keçirməklə yanaşı, kommunizmin qərbə doğru yürüşünün qabağını alan əks addımlara ehtiyac duyulurdu.

Belə bir anda Birləşmiş Ştatlar Avropa dövlətlərinə 20 milyard dollarlıq yardım təklif etdi[111]. Ancaq bir şərtlə ki, Avropa dövlətləri bu yardımdan istifadəni çevik, planlı, həm də müştərək şəkildə həyata keçirsinlər. Avropa dövlətləri ilk dəfə idi ki, bir-biri ilə sıx şəkildə əməkdaşlıq qurmaqla, vahid iqtisadi qurum kimi fəaliyyət göstərəcəkdilər. Marşall həm də Sovet İttifaqına, eləcə də onun Şərqi Avropadakı müttəfiqlərinə də yardım təklif etdi. Fəqət, Stalin bu proqramı bir fənd kimi qəbul edərək bu yardımdan boyun qaçırdı. Stalinin mənfi cavabı ola bilsin bu planın Konqresdə qəbul olunmağında həlledici əhəmiyyət daşıdı.

Qeyd etmək lazımdır ki, Marşall planı amerikan iqtisadiyyatına da xeyir gətirdi. Çünki Avropa dövlətlərinə yardım şəklində ayrılan pullar məhz Birləşmiş Ştatlarda istehsal olunan məhsulların alınmasına xərclənməliydi və həmin məhsullar amerikan ticarət gəmilərində Atlantik okeanın o tayından bu tayına daşınmalı idi. Bu plan həqiqətən öz işini gördü. Artıq 1953-cü ilə qədər Birləşmiş Ştatlar Avropa iqtisadiyyatına 13 milyard dollar köçürmüşdü, elə bununla da Avropa iqtisadiyyatı doğrudan da dirçəlmiş oldu. Bundan əlavə, həmin proqram Qərbi Almaniyanı da əhatə edirdi ki, ölkənin qərb hissəsi yenidən Avropa işbirliyinə qatılmış oldu. (Planda yalnız iqtisadi yardım nəzərdə tutulmuşdu. Koreya müharibəsi qurtarana qədər hərbi sahədə yardım göstərilmirdi).

Avropanın bərpasından əlavə Marşall planı başqa bir Şuman planını da həyata keçirməyə imkan qazandırdı. Şuman planının nəticəsində öncə "Avroatom", "Kömür və polad birliyi" sonradan isə "Ümumi bazar" yaranmış oldu. Beləliklə, Şuman planı Avropanı inkişaf etdirərək sonradan onun iqtisadi-siyasi cəhətdən tərəqqisinə və birliyinə zəmin yaratdı.

Satış üçün nəzərdə tutulmayıb

Marşall planı xarici siyasətimizi xeyirxah və səxavətli görmək istəyənləri, həm də dünyanın reallıqlarından baş çıxaranları xeyli razı saldı; bu plan çox acların qarnını doyurdu, evsiz-eşiksizlərə yurd-yuva bəxş elədi. Ən başlıcası isə, Avropanı dirçəltməklə, kommunizmin qabağına keçilməz bir sədd çəkdi.

Əlavə məlumat üçün oxuyun: John Gimbel, The Origins of the Marshall Plan (1976); Imanuel Wexler, The Marshall Plan Revisited (1983); Michael Hogan, The Marshall Plan (1987).

MARŞALL PLANI

Centlmenlər, mən deməsəm də, sizə aydındır ki, dünyada vəziyyət son dərəcə gərgindir. Hər bir ağlı başında olan adam bunu hiss eləyir, duyur. Bir tərəfdən də, mətbuatın, radionun xalqa təqdim etdiyi saysız-hesabsız faktlar məsələni daha da qəlizləşdirir. Hər hansı insanın vəziyyətdən baş çıxarmağı əngələ düşür.

Düzdür, ölkəmizin insanları bədbəxtliyə düçar olmuş bölgələrdən çox uzaqdadır. Və əziyyət çəkən, iztirab içində çırpınan xalqların əhvalını başa düşmək bizlər üçün çətindir. Çoxumuzdan ötrü özgə dövlətlərdə yaşayanların fikrini-zikrini öz ölkələri, eləcə də dünya barədə niyyətlərini anlamaq mürəkkəbdir.

Avropada insan itkisini, dağılan şəhərləri, fabrikləri, şaxtaları, dəmir yollarını bərpa etmək üçün sərf olunan vəsait məqsədəuyğun şəkildə xərclənib. Ancaq son aylar məlum olub ki, Bütöv Avropa iqtisadi sisteminin bərpası göz önündəki dağıntıları bərpa etməkdən daha çətindir. Son on il ərzində Avropada yaşamaq hər adamın hünəri deyil. Bundan əlavə, total şəkildə aparılan silahlanma da bütün dövlət iqtisadiyyatının hər bir sahəsinə nüfuz edib. Avadanlıq sarıdan hər şey sınıq-salxaq vəziyyətdədir, yaxud da tamamilə köhnəlib. Faşist rejiminin dağıdıcı təzyiqi altında işləmək məcburiyyətində qalan hər bir müəssisə alman hərbi maşınına tabe edilmişdi. Əvvəlki kommersiya əlaqələri, şəxsi mülkiyyətlər, banklar, sığorta, eləcə də gəmiçilik şirkətləri müflis olduğundan, ya da milliləşdirildiyindən tamamilə öz fəaliyyətlərini dayandırıblar, yaxud da sadəcə olaraq, yararsız hala düşüblər. Ölkələrin çoxunda yerli pul vahidinə inam demək olar ki, itib. Müharibə dövründə Avropanın işgüzar qurumları tamamilə məhv edilib. Saydıqlarımın bərpası həm də ona görə gecikir ki, müharibədən iki il keçmiş olsa da, Almaniya və Avstriya ilə sülh danışıqları başa

Satış üçün nəzərdə tutulmayıb

çatdırılmayıb. Və əgər bütün bu mürəkkəb problemlərin həlli üçün dərhal tədbir görülsə belə ümumi vəziyyətdən bəlli olur ki, Avropa iqtisadi strukturunu işlək hala salmaqdan ötrü bizim gümanımızdan daha çox zaman və qüvvə sərf olunasıdır.

Dediyimiz problemin başqa vacib cəhəti də var. Bəllidir ki, kənddəki fermerlər öz məhsullarını şəhər əhlinə məxsus digər çoxişlənən mallara dəyişmək üçün istehsal edirlər. Əslində, müasir tərəqqinin özülündə məhz həmin cür əmək bölgüsü dayanır. Hazırda isə bu sistem tamamilə yox olmaq təhlükəsi qarşısındadır. Belə ki, şəhər və şəhərətrafı müəssisələr kənd təsərrüfatı məhsulları istehsal edən fermerlərlə dəyişmək üçün kifayət qədər mal ortaya çıxara bilmirlər. Xammal və yanacaq yoxa çıxıb. Maşın avadanlığı çatışmır, yaxud da yararsız haldadır. Fermer, kəndli satışda istədiyi malları tapmır. Beləliklə, onun öz məhsulunu satandan sonra qazandığı pul elə cibindəcə qalır, çünki istədiyi şeyi tapıb almaq mümkün deyil. Fermer belə təqdirdə məhsul əkib-becərdiyi tarlalara, sadəcə olaraq, əl gəzdirir onları mal-qara üçün örüş yerinə çevirir. Beləliklə, kəndli mal-qara üçün daha artıq yem istehsal etməyə məcbur olur, bununla da hər şeydən əvvəl özünü, öz ailəsini ərzaqla təmin edir. Əvəzində isə özünü və dediyimiz kimi ailəsini geyim-kecimlə, başqa çoxişlənən mallarla təmin etmək iqtidarında olmur. Eyni vəziyyət şəhər əhlinin də başına gəlir, yəni şəhərdə də nə doyunca yemək, nə də yanacaq tapılır. Belə olan təqdirdə, dövlət məcburdur ki, xarici valyuta ehtiyatlarından, kreditlərdən istifadə etsin və ölkədən qıraqda əhaliyə lazım olan ilk tələbat mallarını axtarsın. Bu proses ölkəni bərpa etmək üçün nəzərdə tutulan fondları müflisləşdirir. Belə bir vəziyyətə addımbaşı rast gəlirsən və bu vəziyyət heç də çıxış yolu sayıla bilməz. Məhsul dövriyyəsinə güvənən müasir əmək bölgü sistemi tamamilə dağılmaq ərəfəsindədir.

Həqiqət burasındadır ki, son 3-4 il ərzində Avropanın əcnəbi mallarına, xüsusilə də Amerika məhsullarına tələbatı o dərəcədə artıb ki, tələbat Avropanın bugünkü ödəmə qabiliyyətini qat-qat üstələyir. Bu minvalla, Avropanın əməlli-başlı əlavə yardıma ehtiyacı var, yoxsa çox dərin iqtisadi, sosial və siyasi böhrandan yan keçə bilməyəcək.

Biz bu əlverişsiz dairəni sındırmalı, Avropa xalqlarının öz ölkələrində, eləcə də, bütövlükdə qitədə iqtisadi yüksəlişə nail olmaq ümidini yenidən doğrultmalıyıq. Fəhlə, ya fermer öz istehsal etdiyi məhsulu etibarlı bir pul vahidinə dəyişmək inamı ilə yaşamalı və bu yolda səylə çalışmalıdır.

İnsanların çarəsizliyi müxtəlif cür başıpozuqluq yaradar, eyni zamanda, dünyada gərəksiz effektlər doğura bilər. Ancaq Birləşmiş Ştatların iqtisadiyyatı üçün həmin hadisələrin sonluğu hamı üçün aydın olmalıdır. Buna görə də, Birləşmiş Ştatlar bütün planetin iqtisadi sağlamlığını bərpa etmək üçün əlindən gələni əsirgəməməlidir. Çünki bunsuz dünyanın əmin-amanlığı, eləcə də siyasi sabitliyi mümkün sayılmaz. Siyasətimiz hər

Satış üçün nəzərdə tutulmayıb

hansı bir ölkəyə, ya doktrinə qarşı yönəlməyib. Biz yalnız aclığa, yoxsulluğa və çarəsizliyə çarə tapmağa çalışırıq. Siyasətimiz dünya iqtisadiyyatının bərpasına xidmət göstərir, bu isə, öz növbəsində, demokratik institutların varlığını mümkün edir. Yardımımız heç cürə yarımçıq olmamalıdır, çünki biz eyni vaxtda bir neçə böhranla üzləşmişik. Gələcəkdə dövlətimizin təqdim edəcəyi hər cürə kömək problemin adicə yumşalmasına deyil, onun kökündən həllinə can atmalıdır. Bərpa məsələsinə əl yetirmək istəyən hər hansı dövlət isə, mən əminəm ki, Birləşmiş Ştatlar tərəfindən başa düşüləcək, hərtərəfli rəğbət qazanacaqdır. Əksinə, başqa dövlətlərin iqtisadiyyatını dirçəltmək işinə pəl vurmaq niyyətində olan hər hansı dövlət qoy bizdən heç vaxt kömək ummasın. Hətta deyərdim ki, insan iztirablarını az qala əbədiləşdirmək istəyən, bundan siyasi, ya qeyri-faydalar götürmək iddiasında olan hər hansı bir hökumət, siyasi partiya, yaxud da qurumlar Birləşmiş Ştatlar tərəfindən özünün layiqli cavabını alacaqdır.

Ancaq belə görünür ki, Birləşmiş Ştatlar Avropanın bərpasına başlamazdan əvvəl, ilk növbədə Avropa ölkələrinin öz aralarında məxsusi razılıq yaranmalıdır. O razılıq mövcud şəraitə uyğun, həm də bizim dövlətin bu sahədə atdığı addımlara həmahəng səslənməlidir. Şübhəsiz ki, Avropa iqtisadiyyatını bərpa etmək barədə yalnız bizim hökumətimiz tərəfindən düşünülən proqram sərfəli, yeganə xeyirli proqram sayıla bilməz. Bu məsələ ilk növbədə avropalıların özlərinin işidir, yəni təşəbbüs də Avropa tərəfdən olmalıdır. Bizim ölkənin rolu isə avropalılara bu yöndə, yəni proqramın hazırlanmasında dəstək verməkdir. Belə bir proqram bütün Avropa dövlətləri ilə mümkün olmasa da, bəziləri ilə mütləq razılaşdırılmalıdır.

Birləşmiş Ştatların həyata keçirdiyi hər hansı siyasəti uğura yetirən amil – ortaya çıxan problemlərin həlli yolunda bizim xalqın məsələni bütün dərinliyi ilə dərk etməyindədir. Bu gün haqqında danışdığım çətinliklər xalqımızın uzaqgörənliyi, ölkəmizin öhdəsinə düşən müşkülləri çözə bilmək bacarığı nəticəsində vaxtında öz həllini tapacaq. Biz bu tarixi missiyamızı məğrurcasına başa düşür və anlayırıq.

Mənbə: Congressional Record, 30 June 1947

Satış üçün nəzərdə tutulmayıb

58. General Duqlas MakArturun İstefaya Göndərilməsi (1951)

İkinci Dünya müharibəsinin gedişində Koreya yarımadası – şimalda 38-ci paraleldə rusmeylli kommunist, cənubda isə Qərbmeylli olmaqla iki yerə bölündü. Elə bilirdilər ki, bu parçalanma müvəqqətidir. 1950-ci il iyunun 24-də Şimali Koreyanın silahlı qüvvələri bölgü xəttini adlayıb keçdi və Truman hökuməti Birləşmiş Millətlərə Şimali Koreya qoşunlarını təzədən 38-ci paralelə sıxışdırıb qaytarmaq üçün öz hərbi qüvvələrini təklif etdi[112].

BMT-nin hərbi qüvvələrinə general Duqlas MakArtur *(Douglas Macarthur)* rəhbərlik edirdi. Ona qədər general Yaponiyadakı amerikan qoşunların komandanı idi. Ancaq BMT qüvvələri çox tezliklə Şimali Koreya qoşunları tərəfindən mühasirəyə alındı və cənuba, liman şəhəri olan Pusana tərəf sıxışdırıldı. Ancaq MakArtur mahir bir fəndlə mühasirəni yarıb İnçxona hərbi dəniz desantı çıxardı. BMT qoşunları tezliklə nəinki 38-ci paraleli ələ keçirdi, hətta həmin xətti adlayıb şimala, Kommunist Koreyasını Çinin Mancuriyasından ayıran Yalutszyan çayına tərəf hərəkət etdilər.

MakArtur Koreya müharibəsini özlüyündə kommunizmə qarşı müqəddəs savaş kimi anlayırdı; o, durub-oturub, Formoza adasına qapanıb qalan Çan Kay-şının xilası barədə danışır, hətta düşmənə atom zərbələri endirməyi tələb eləyirdi. Belə cəhd istər Truməni, istərsə konfliktə qoşulan BMT-nin digər ölkə rəhbərlərini, həm də qərargah rəisləri komitəsini narahat etməyə bilməzdi. Harri Truman, eləcə də ölkə hərbçiləri Koreya əməliyyatını yalnız təcavüzkarın qabağını almaq üçün fikirləşmişdi. Fəqət, həmin əməliyyat amerikanların çoxunda məyusluq doğurdu. Bu cür "cilovlama siyasəti" əslində Koreya müharibəsində Birləşmiş Ştatların qəti qələbəsinə hesablanmamışdı. Adda-budda qazanılan müsbət nəticələr kifayət hesab edilirdi…

Amerikan siyasi sistemini yaşadan ənənələrdən biri hərbi rəhbərliyin mülki liderlərə tabeçiliyidir. Belədir ki, generallar özlərinin mülki rəhbərliyi ilə razılaşmadan heç bir siyasi bəyanat verə bilməzlər. Ancaq Yaponiyada hökm verməyə adətkərdə olan general MakArtur bu ənənəni pozdu, mülki rəhbərliyin başı üstündən Birləşmiş Ştatların Koreyadakı xətt-hərəkətinə dair ora-bura məktublar göndərdi. Məsələn, "Xarici müharibələr veteranları"na ünvanladığı

Satış üçün nəzərdə tutulmayıb

məktubda MakArtur belə bir təklif irəli sürürdü ki, Formoza adası Çinə qarşı hərbi yürüş başlamaqdan ötrü çox əlverişli yerdir. MakArtur eyni zamanda Truməni inandırmağa çalışırdı ki, Çin heç vaxt müharibəyə girməyəcək. Ancaq Çin müharibəyə girəndən sonra MakArtur Nümayəndələr Palatasının spikeri Co Martinə *(Joe Martin)* yazdığı məktubda israr edirdi ki, Birləşmiş Ştatlar qələbə naminə irimiqyaslı müharibə başlamalı, ilk növbədə isə Mancuriyadakı hərbi hədəfləri bombardman etməlidir. Məhz belə özbaşınalığına görə prezident Truman general MakArturu istefaya göndərdi. Bu da Truməni kommunist təcavüzünə münasibətdə xeyli fağır sayan konservatorların ciddi etirazına səbəb oldu. Ancaq Truman tamamilə haqlı idi. Belə ki, onun apardığı siyasətin bütövlükdə səhv, ya düzlüyündən asılı olmayaraq, Amerikan Konstitusiyası xarici siyasətdə külli-ixtiyarı hərbçilərə yox, məhz prezidentə verir. Trumənin izahatına görə, Koreyada təcavüzkarın qabağını almaqla Üçüncü Dünya müharibəsi təhlükəsini yoxa çıxarmaq heç də asan vəzifə deyildi; buna baxmayaraq, Birləşmiş Ştatlar məhz həmin siyasəti yeritməyi qərara aldı və heç bir hərbçi, hətta beşulduzlu general belə demokratik idarəçilik sisteminin əsaslarını pozmadan bu siyasətin əksinə çıxa bilməz .

Əlavə məlumat üçün oxuyun: Richard Rovere and Arthur M. Schlesinger, Jr., The General and the President (1951); John Spanier, The Truman-MacArthur Controversy (1959); Trumbull Higgins, Korea and the Fall of MacArthur (1960).

GENERAL DUQLAS MAKARTURUN İSTEFAYA GÖNDƏRİLMƏSİ

Bu gün axşam mən sizinlə Koreyada baş verənlər, və ümumiyyətlə bizim Uzaq Şərq siyasətimiz barədə açıq danışmaq istərdim.

Bilin ki, əslinə qalsa, biz Koreyada Üçüncü Dünya müharibəsinin qarşısını almağa çalışırıq.

Mən əminəm ki, ölkədə əhalinin çoxu hələ keçən iyunda bu barədə planımızı bəyənib. Əhalinin çoxu Koreya Respublikasının kommunist təcavüzkarlarına qarşı mübarizəsində onlara köməyimizə həqiqətən tərəfdardır. Ancaq bununla belə Koreya Respublikasına köməyimizə tərəfdar çıxanların əksəri bu gün bizim xətt-hərəkətimizin əsas səbəbini yaddan çıxarıblar.

Satış üçün nəzərdə tutulmayıb

Bəli, Koreyaya qoşun göndərməyimiz tamamilə haqqınadır. Bu keçən iyunda beləydi, elə bu günün özündə də dürüstdür. Həmin dürüstlüyün səbəbini bir daha sizə xatırlatmaq istərdim.

Kremldəki kommunistlər bütün dünyada azadlığın kökünü kəsmək üçün məşum bir tələ qurublar. Əgər onların düşündüyü baş tutsaydı, əsas qurbanlardan biri sözsüz ki, Birləşmiş Ştatlar olacaqdı. Hər bir kəsə bəlli olsun ki, Birləşmiş Ştatlar əlini qoynuna qoyub yadelli işğalçıların yolunu gözləmək fikrində deyil. Bizə bircə sualın cavabı lazımdır: ölkəmizə qarşı həmləni nə vaxt və hansı yollarla dəf edəcəyik?

Təhlükənin sovuşdurulması üçün ən yaxşı məqam, şəksiz ki, onun ilkin mərhələsidir. Bu bir yanğına bənzəyir. Belə ki, odu (o, hər yeri qarsalayan alova çevrilmədən) hələ xırda tonqal halında söndürülmək daha asandır.

Təcavüzkarın gözünün odunu almağın ən yaxşı vasitəsi – sülhsevər ölkələrin ona qarşı birgə həmrəyliyidir. Belə ölkələr sözü bir yerə qoymasa, yəqin ki, onların hər birisi təklikdə qurbana çevriləcək. Sözü bir yerə qoyub Birləşmiş Millətlər Təşkilatını da elə bu səbəbdən yaratdıq. İkinci Dünya müharibəsi qurtarandan sonrasına biz bu həqiqəti çox yaxşı qavrayası olduq. Sovet İttifaqının mürtəce planları Üçüncü Dünya müharibəsinə aparıb çıxarmamış onu bu yoldan çəkindirmək üçün demokratik dövlətlərlə əməkdaşlığı durmadan davam etdirməliyik.

Məsələn, biz Yunanıstanda bunu əyani şəkildə göstərə bilərik. Çünki o ölkə az qala beynəlxalq kommunizmin təcavüzünə məruz qalacaqdı.

O da ola bilərdi ki, Yunanıstana hücum Dünya müharibəsinə təkan verəydi. Ancaq ölkəmiz yunanların dadına çatdı. Birləşmiş Millətlər Təşkilatı yunan müqavimət hərəkatına həyan durdu. Bizim yaxından köməyimiz və yunan xalqının qətiyyəti sayəsində həmin təhlükə ocağı lap başlanğıcda söndürüldü.

Digər bir kommunist təhlükəsi Berlinin mühasirəsi oldu. Həmin mühasirə də xalqları hərbə sürükləyirdi. Ancaq konflikt yatırıldı, çünki azadlığın tamını dadmış insanlar kommunist təhlükəsindən qorxub çəkinmədilər.

Ancaq biz, hər halda, belə bir suala cavab tapmalıyıq ki, – kommunistlərin dünyanı işğal planını ümumi müharibə olmadan dağıtmaq olarmı? Dövlətimiz və eləcə də Birləşmiş Millətlər Təşkilatında bizimlə əməkdaşlıq quran digər ölkələr o fikirdədir ki, dediyim planı iflasa uğratmaqdan ötrü ən yaxşı imkan məhz Koreyada yaranıb və həmin plan məhz elə oradaca məğlubiyyətə düçar olmalıdır.

Elə məqsədimiz də o idi. Bəli, bu doğrudan da çətin, əzablı yoldur və biz hələ ki, niyyətimizi uğurla yerinə yetirməkdəyik.

Satış üçün nəzərdə tutulmayıb

İndiyə qədər biz Üçüncü Dünya müharibəsinin qarşısını ala bilmişik. Bu günəcən Koreyada müxtəsər vuruşlar aparmaqla təcavüzün qabağını almışıq və nə yaxşı ki, məsələ geniş müharibəsiz ötüşmək üzrədir. Eyni zamanda azad dünyanın kommunist təcavüzünə qarşı müqaviməti də xeyli püxtələşib.

Düşmənə ibrət dərsi verdik. O başa düşdü ki, təcavüz asan iş deyil, həm də ucuz başa gəlmir. Bundan savayı, biz bütün dünyada azad qalmaq istəyənlərin qəlbində ümidlər bitirdik. Artıq düşmən bilməmiş deyil ki, istiqlal müdafiəçiləri azadlıq uğrunda əldə silah döyüşməyi bacarır və bundan sonra da döyüşəcəklər.

Koreyada qətiyyətlə müqavimət göstərməyimiz istər Hind-Çində, istərsə də planetin başqa bölgələrində azadlıq sevərlərə dəstək oldu. Müqavimətimiz kommunist işğalının bütün planlarını alt-üst elədi.

Biz heç də istəmirik ki, Koreyadakı münaqişə get-gedə böyüsün. Dünya müharibəsi niyyətində olmamışıq, təzəsini başlamaq fikrində də deyilik. Bunun ən sərfəli yolu hamının düşüncəsinə onu yeritməkdir ki, biz, eləcə də demokratik məmləkətlər təcavüzə daima müqavimət göstərəcəyik.

Ancaq soruşa bilərsiz: biz təcavüzkarın dərsini vermək üçün niyə axı başqa addımlar atmırıq? Məsələn, Mancuriyanı, ya Çini niyə bombardman eləmirik? Axı Çin millətçilərinə[113] ölkənin quru ərazisinə çıxmağa da əl yetirməyi bacarardıq.

Biz həmin addımları atsaydıq, ümumdünya müharibəsinin qızışmasına təkan vermiş olardıq, halbuki biz bundan hər vasitəylə qaçmağa çalışırıq.

Biz dediyim addımları atsaydıq, bütün Asiya qitəsini bürüyən münaqişəyə qatılardıq. Bu səbəbdən də cahanşümul vəzifələrimiz daha da mürəkkəbləşərdi.

Kremlin də istədiyi elə odur ki, silahlı qüvvələrimiz Qırmızı Çinlə genişmiqyaslı müharibəyə girişsin.

Getməkdə olduğumuz yol geniş miqyaslı müharibədən qaçmaq kimi çox sərfəli və sınanmış yoldur. Elə bir yoldur ki, dünyada təhlükəsizliyi qorumaq, sülhü bərqərar etmək cəhətdən öhdəmizə düşən vəzifələrlə uyğun gəlir. Yunanıstan və Berlində qazandığımız təcrübə bir daha sübuta yetirir ki, seçdiyimiz yol əlverişli, ən gərəkli yoldur.

Kommunist hakim dairələri əmin olsalar ki, onlar Koreyada bizi məğlub edə bilməyəcəklər, yaxud inansalar ki, hərbi prosesi Koreyadan kənara

Satış üçün nəzərdə tutulmayıb

çıxarmağın mənası yoxdur, onda anlayacaqlar ki, güddükləri təcavüzü davam etdirmək sadəcə olaraq səfehlikdir. Sülhün təminatı da elə o zaman yaranmış olacaqdır. Bizimsə qapımız bu yolda hamının üzünə açıqdır.

Koreyada bu qəbildən sülhə nail olsaq Birləşmiş Millətlər Təşkilatının prinsip və məqsədlərinə zərrəcə xələl gəlməyəcək.

Mən Asiyada müharibə məsələsi barədə uzun-uzadı, həm də tərəddüd içində çox fikirləşmişəm. Bu məsələni ölkədəki ən bacarıqlı hərbi mütəxəssislərlə də məşvərət elədim və birmənalı şəkildə belə bir nəticəyə gəldim ki, getdiyimiz yol bizim üçün ən uyarlı, və ən dəqiq yoldur.

Fikrimcə, Koreya müharibəsini ölkə sərhədlərindən aşağıdakı səbəblər ucbatından kənara çıxarmaq olmaz: əvvəla, öz əsgərlərimizin həyatını əbəs yerə bada verə bilmərik; ölkəmizin, eləcə də azad dünyanın varlığını risk altına qoymağımız da yersizdir. Ən nəhayət, heç vəchlə Üçüncü Dünya müharibəsinə meydan açmaq da yaramaz.

Bir çox hadisələr açıq-aydın göstərdi ki, general MakArtur dediyim siyasətlə razı deyilmiş. Elə bu səbəbdən də general MakArturu tutduğu vəzifədən azad etdim ki, siyasətimizin məqsədi, həm də gerçək vəzifələrimiz barədə hər cürə şəkk-şübhə yaranmasın.

Açığını deyim ki, mən həmin qərarı dərin təəssüf içərisində qəbul etməyə məcbur oldum. Axı general MakArtur bizim ən nüfuzlu hərbi sərkərdələrimizdən biridir. Ancaq neynəməli, bütün dünyada sülhün taleyi hər hansı şəxsiyyətin nüfuzundan daha vacibdir.

Uzaq Şərq komandanlığında aparılan dəyişmələrə baxmayaraq həmin bölgədə Birləşmiş Ştatların siyasətində heç nə dəyişməyəcək. Biz Koreyada mübarizəmizi daha artıq qətiyyət və cəsarətlə aparıb müharibəni tez bir zamanda, özü də uğurla başa çatdırmalıyıq.

Ora təyin olunmuş yeni komandan general-leytenant Metyu Ricvey *(Matthew Ridgway)* həmin vəzifənin öhdəsindən layiqincə gələ bilən görkəmli hərbi lider sayılır.

Biz həmin bölgədə sülhü bərqərar etmək üçün hər hansı zamanda danışıqlar aparmağa hazırıq. Ancaq biz təcavüzkara heç bir güzəştə getməyəcəyik. Bizə sözün əsl mənasında sülh lazımdır.

Əsl sülhü isə tənzimləmə yolu ilə, özü də aşağıdakı amillərin əsasında əldə etmək mümkündür.

Birincisi, hərbi əməliyyatlar dayandırılmalıdır.

İkincisi, hərbi toqquşmaların meydana bir daha çıxmamağından ötrü konkret addımlar atılmalıdır.

Üçüncüsü, təcavüzə son qoyulmalıdır.

Bu amillər üstündə qurulan tənzimləmə Koreyanın birləşməsinə və xarici qoşunların ölkədən çıxarılmasına yol açardı.

Satış üçün nəzərdə tutulmayıb

Bununla belə, mən bizim hərbi məqsədlərimizə bir daha aydınlıq gətirmək istərdim. Əlbəttə, biz, dediyim kimi Koreyada baş verən mənfur müdaxiləyə qarşı vuruşacağıq. Eyni zamanda həmin konfliktin başqa ərazilərə yoluxmasına mane olmağa çalışacağıq. Əlbəttə, silahlı qüvvələrimizin təhlükəsizliyi naminə hərbi əməliyyatları hələ ki davam etdirmək fikrindəyik. Bu labüddür, çünki düşmən Koreya Respublikasını amansızcasına məhv etmək fikrindən əl çəkməyənə qədər belə mübarizədə israrlıyıq.

Beləliklə məqsədimiz – hücumu dəf etmək və sülhün təminatıdır.

Koreyada aparılan ağır mübarizənin timsalında bir daha görürük ki, dövlətlərin həmrəyliyi yüksək prinsip olmaqdan savayı, həm də təcavüzə qarşı ən effektiv mübarizə üsuludur. Koreyada təcavüzkarın məğlubiyyəti dünyanın sülh və əmin-amanlıq yolunda atacağı həlledici addımlardan biri ola bilər.

Birləşmiş Millətlər Təşkilatının Koreyadakı fəaliyyəti əslində – sülh uğrunda ardıcıl mübarizədir.

Demokratik ölkələr Üçüncü Dünya Müharibəsinə təhlükəni aradan qaldırmaq üçün birləşiblər. Belə bir müharibəni yalnız kommunist liderləri başlaya bilər. Bizim dövlətimiz, eləcə də müttəfiqlərimiz həmin müharibənin başlanmağı üçün heç bir məsuliyyət daşıyası deyil.

Biz münaqişənin sərhədini genişləndirmək istəmirik. Bu xətadan ötüşmək üçün əlimizdən gələni əsirgəməyəcəyik. Heç şübhəsiz ki, bununla da sülh, azadlıq və ədalət prinsiplərinə sadiq qaldığımızı bir daha sübuta yetirəcəyik.

Mənbə: Department of State Bulletin, 16 April 1951.

Satış üçün nəzərdə tutulmayıb

59. Yanqstaundaki "Şit ənd Tyub" Şirkəti Soyerə Qarşı (1952)

General MakArturun istefası barədə işdən sonra mülki hakimiyyət orqanlarının ordu üzərində nəzarət etməsi ənənəsi bərqərar olduğu halda "Poladın müsadirə edilməsi" haqqında iş ölkəyə bir daha xatırlatdı ki, prezident hətta müharibə dövründə də özünün konstitusion səlahiyyətlərindən kənara çıxa bilməz.

1952-ci ilin aprel ayında prezident Trumən ölkənin poladtökmə şirkətlərində keçirilməsi nəzərdə tutulan tətilin qarşısını almaq üçün həmin şirkətlərin üzərində həbs qoyulmasını əmr etmişdi. Prezident belə hesab edirdi ki, Koreyada münaqişə dövründə bu tətil ölkəyə çox böyük ziyan vura bilər. Doğrudur, tətil təhlükəsi yarandıqda prezidentə 80 günlük "dondurma" müddəti tətbiq etmək səlahiyyətləri verən Taft-Hartli Aktı *(Taft-Hartley Act)* vardı, lakin Trumən bu aktı tətbiq etməkdən vaz keçmişdi, çünki lap əvvəldən o, həmin aktın qəbul edilməsinin əleyhinə idi. O, həmin hadisə ilə əlaqədar Konqresin xüsusi qanun qəbul etməsini də xahiş etmədi, əvəzində isə Ali Baş Komandan kimi öz səlahiyyətləri əsasında həmin şirkətlər üzərində nəzarət qoymağı qərara aldı.

Poladtökmə şirkətləri bunu inkar etmirdilər ki, xüsusi hallarda hökumət onların əmlakına həbs qoymağa haqlıdır, lakin onlar iddia edirdilər ki, bu şirkətlərə qarşı hakimiyyətin başqa şaxəsi tətbiq edilməli idi. Nəticədə onlar konqresin səlahiyyətlərinə istinad edərək prezidenti Ali Məhkəməyə verdilər və əsas kimi də bunu göstərdilər ki, prezidentin hərəkətləri hakimiyyət bölgüsü haqqında konstitusion doktrini pozmuşdur. Ali Məhkəmənin üzvlərindən 6 nəfəri bu fikirlə razılaşdı və hakim Hyuqo Blək *(Hugo Black)* əksəriyyətin fikrini oxudu. Bu rəyə görə prezidentdən tələb edilirdi ki, müəyyən olunmuş qaydalara hətta müharibə dövründə də riayət edilsin.

Ölkədə hakimiyyətin üç şaxəsi arasında balansın bərpa olunmasına kömək etmiş "Yanqstaun işi" konstitusion baxımdan hələ də müasir dövrün ən əlamətdar məhkəmə işlərindən biridir. (Bu balans 1930-cu illərin depressiya dövrü başlanandan bəri, sonra isə həm

Satış üçün nəzərdə tutulmayıb

İkinci Dünya müharibəsi zamanı, həm də müharibədən sonrakı dövrdə qlobal təhlükəsizlik axtarışı illərində icra hakimiyyətinin təsirinin kəskin artması nəticəsində ciddi şəkildə pozulmuşdur).

Əlavə məlumat üçün oxuyun: D.F. Henderson, Courts for a New Nation (1971); Julius Goebel, Antecedents and Beginnings to 1801 (1971); the first volume of the Holmes Devise, History of the Supreme Court of the United States; and Maeva Marcus, ed., Origins of the Federal Judiciary (1992).

YANQSTAUN ŞƏHƏRİNDƏKİ "ŞİT ƏND TYUB" ŞİRKƏTİ SOYERƏ QARŞI

Hakim Blək Ali Məhkəmənin rəyini açıqladı.

Biz bir məsələni müəyyən etməliyik: prezident ticarət nazirinə ölkədəki metallurgiya kombinatlarının əksəriyyətini ələ keçirmək və onları idarə etməyə başlamaq barədə əmr verməklə... öz konstitusion səlahiyyətlərinin həddindən kənara çıxmamışdırmı? Bu metallurgiya kombinatlarının sahibləri bildirirlər ki, prezident fərmanı yeni qanunun tətbiq edilməsinə bərabərdir, lakin Konstitusiyada açıq-aşkar göstərilmişdir ki, bu funksiya prezidentə yox, Konqresə verilmişdir.

Hökumətin mövqeyi bundan ibarətdir: həmin fərman prezidentin bu qənaətlərinə əsaslanır ki, bu hərəkət polad istehsalının dayandırılması nəticəsində labüd olacaq milli fəlakətin qarşısını almaq üçün zəruridir və prezident belə bir təcili qərar qəbul etməklə icra hakimiyyəti başçısının və Birləşmiş Ştatların Silahlı Qüvvələrinin Baş Komandanının konstitusion səlahiyyətləri həddində hərəkət etmişdir.

Prezidentin bu cür fərman vermək səlahiyyətləri ya Konqresin müvafiq qanunvericilik aktlarından, ya da Konstitusiyanın özündən irəli gəlməlidir. Lakin indiki halda əmlak müsadirə edilmişdir və prezidentə əmlakı müsadirə etmək səlahiyyətləri verən heç bir qanun yoxdur. Konqresin hətta dolayısı ilə də olsa, bu cür səlahiyyətlər nəzərdə tutan hər hansı aktının mövcud olması da bizə məlum deyildir. Müəyyən şəraitdə prezidentə şəxsi əmlakın və daşınmaz əmlakın müsadirə edilməsini həyata keçirməyə həqiqətən imkan verən iki qanun mövcuddur… Lakin hökumət etiraf etmişdir ki, indiki halda bu cür şərait olmamışdır və prezident fərmanı bu qanunlardan hər hansı birinə əsaslanmamışdır…

Satış üçün nəzərdə tutulmayıb

Üstəlik, istehsalatın dayandırılmasının qarşısını almaq üçün əmək münaqişələrinin həlli zamanı hökumət tərəfindən "mülkiyyətin müsadirə edilməsi" hüququndan istifadə edilməsinə nəinki Konqresin hər hansı aktlarına əsasən icazə verilməmiş, hətta bu mübahisədən əvvəl Konqres əmək münaqişələrinin həllinin bu üsulundan istifadə olunmasını qanuniləşdirməkdən imtina etmişdir. 1947-ci ildə Taft-Hartli Aktı Konqresdə müzakirə edilərkən Konqres hökumətin xüsusi hallarda əmlakın bu cür müsadirə edilməsini həyata keçirməsinə imkan verən düzəlişin qəbul olunması təklifini rədd etmişdir. Bunun əvəzinə vasitəçilik, barışdırma, idarə heyəti tərəfindən həyata keçirilən təhqiqat, ictimai dinləmələr kimi ənənəvi metodlar əsasında razılığa gəlmək planı tərtib edilmişdi. Bəzi hallarda "dondurulma dövrü" deyilən müddətlər üçün zəruri olan müvəqqəti qadağalar (tətillər keçirilməsinə qadağalar) qoyulurdu. Və əgər bu tədbirlər səmərə verməsə, onda həmkarlar ittifaqları tətilə başlamaq hüququna malikdirlər…

Prezident belə bir fərman vermək səlahiyyətinə malik olsaydı, bu məsələ Konstitusiya müddəalarının hər hansı birində əks etdirilməli idi, lakin aşkardır ki, Konstitusiyanın aydın dili prezidentə belə bir hüquq vermir. Biz hesab edirik ki, prezidentin hakimiyyəti isə yalnız onun konstitusion səlahiyyətlərinin məcmusundan irəli gəlir. Burada Konstitusiyanın II maddəsinin müddəalarına xüsusi istinad edilir. Həmin maddədə göstərilir ki, "icra hakimiyyəti prezident tərəfindən həyata keçirilir"; prezident "qanunlara dəqiq riayət olunmasını təmin edir" və o, "Birləşmiş Ştatların ordusunun və donanmasının Baş Komandanıdır". Biz prezidentin həmin fərmanını onun silahlı qüvvələrin Baş Komandanı kimi malik olduğu hərbi səlahiyyətlərinin bir hissəsi hesab edə bilmərik. Hökumət bu nöqteyinəzəri hərbi əməliyyatlar meydanında gündəlik hərbi əməliyyatlara cəlb edilmiş hərbi sərkərdələrin geniş səlahiyyətlərinin dəstəkləndiyi bir sıra işlər timsalında irəli sürür. Lakin indiki halda bu nümunələr tətbiq edilə bilməz. Doğrudur, "hərbi əməliyyatlar meydanı" anlayışı çox qeyri-müəyyən anlayışdır, lakin biz öz konstitusiya sistemimizə sadiq qalaraq iddia edə bilmərik ki, "Silahlı Qüvvələrin Baş Komandanı əmək münaqişələrinin istehsalatın dayanmasına gətirib çıxarmasına yol verməmək məqsədilə xüsusi mülkiyyətin müsadirə edilməsi kimi müstəsna səlahiyyətlərə malikdir". Bu, hərbi hakimiyyətin işi deyil, ölkə qanunvericilərinin işidir.

Müsadirə haqqında həmin fərmanın qanuniliyi Konstitusiyanın prezidentə icra hakimiyyəti səlahiyyətləri verən müddəalarından da irəli gəlmir. Bir halda ki, Konstitusiyaya müvafiq olaraq prezidentə "qanunların danışıqsız icra olunmasını təmin etmək" səlahiyyəti həvalə olunur, onda bu səlahiyyət belə bir ideyanı rədd edir ki, prezident özü qanunlar verə bilər. Konstitusiya qanunyaratma prosesində prezidentin funksiyalarını

Satış üçün nəzərdə tutulmayıb

yalnız onun ağlabatan hesab etdiyi qanunları irəli sürmək və özünün məqsədəuyğun hesab etmədiyi qanunlara veto qoymaq hüququ ilə məhdudlaşdırır. Prezident tərəfindən həyata keçirilən qanunları məhz kimin qəbul etməli olması Konstitusiyada dəqiq və aydın göstərilmişdir…

Prezidentin bu fərmanı belə bir müddəaya uyğun deyildir ki, qanunyaratma fəaliyyəti Konqres tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq həyata keçirilməlidir. Əksinə, bu fərman belə bir fəlsəfəyə müvafiqdir ki, prezident hakimiyyəti guya prezidentin özü tərəfindən müəyyən edilmiş qaydalara uyğun olaraq həyata keçirilməlidir. Bir sıra qanunvericilik aktlarının preambulalarında olduğu kimi, bu fərmanın preambulasında da müəyyən siyasəti prezidentin hansı səbəblərə görə məqsədəuyğun hesab etməsi açıqlanır, bu siyasət rəhbər siyasət elan edilir və yenə də bir sıra başqa qanunvericilik aktlarında olduğu kimi, öz hökumətinin müəyyən nümayəndəsinə elan edilmiş siyasətə müvafiq və onun həyata keçirilməsi üçün zəruri olan əlavə qaydalar və müddəalar elan etmək səlahiyyəti verir. Konqresin bu cür fərmanlar qəbul etmək səlahiyyətinə malik olmasına şübhə yoxdur. Konqres ümummilli mənafe naminə xüsusi mülkiyyətin müsadirə edilməsini bəyan edə bilər. O, işçilərlə işəgötürənlər arasında münasibətləri tənzimləyən, əmək münaqişələrinin həlli qaydalarını müəyyən edən, iqtisadiyyatın bəzi sahələrində əməkhaqqının məbləğini və əmək şəraitini müəyyən edən qanunlar qəbul edə bilər. Konqresin bu qanunvericilik səlahiyyətinə, Konstitusiyaya görə, prezident və ya ordu tərəfindən nəzarət edilməməlidir.

İddia edilir ki, başqa prezidentlər də Konqres tərəfindən bəyənilmiş səlahiyyətlərə malik olmadıqları halda əmək münaqişələrinin həll edilməsi üçün xüsusi müəssisələrin müsadirə olunması üsulundan istifadə etmişlər. Lakin hətta bu belə də olsa, bu halda Konqres "Birləşmiş Ştatların hökuməti, onun hər hansı nazirliyi və ya vəzifəli şəxsi üçün" özünün Konstitusiyada təsbit edilmiş hakimiyyətini həyata keçirmək naminə zəruri qanunlar qəbul etmək kimi müstəsna konstitusion səlahiyyətlərini itirməmişdir.

Dövlətimizin baniləri ölkənin istər şad günündə, istərsə də kədərli dövründə qanunvericilik hakimiyyətini yalnız Konqresə etibar etmişlər. Tarixin çarxını geri döndərmək düz olmazdı, çünki bu seçim hakimiyyət (qeyri-məhdud hakimiyyət) qarşısında qorxu və azadlıq ümidi ilə müəyyən edilmişdir. Bizə isə yalnız bu qalır ki, "müsadirə" haqqında fərmanın qüvvədə qala bilməyəcəyi barədə öz qənaətimizi təsdiq edək.

Mənbə: 343 U.S. 579 (1952)

Satış üçün nəzərdə tutulmayıb

60. Senator Cozef Makkartiyə Etimadsızlıq Votumu (1954)

Amerika cəmiyyətini vaxtaşırı qorxu və vahimə bürüyürdü. Hərdən o, bu vahiməni şərəflə – demokratik prinsipləri pozmadan dəf edə bilmirdi. Birinci Dünya müharibəsi başa çatandan sonra (bax: 43-cü material) ölkəni bürümüş "Qırmızı vahimə" *(Red Scare)* yüzlərlə əcnəbi vətəndaşlara hücumlar edilməsi ilə nəticələndi. Onların çoxu guya radikal baxışlarına görə təhlükəli olduqları üçün həbsxanalara salındı və ölkədən deportasiya edildi. 1940-cı illərin axırlarında və 1950-ci illərin əvvəllərində Soyuq Müharibə daha bir "qırmızı vahimə" ilə nəticələndi. Lakin 1919-cu ildə ölkə üçün xaricdən heç bir təhlükə mövcud olmadığı halda, İkinci Dünya müharibəsindən sonrakı dövrdə belə bir təhlükə yaranmışdı – Qərb demokratiyası üçün həqiqətən təhlükəli olan kommunizm güclənmişdi.

Hələ müharibənin gedişində başlanmış "pozucu elementlər" ovu Konqres komitələrinin fəaliyyəti şəklində davam edirdi. Bu komitələr təhqiqatlar aparmaq səlahiyyətlərindən sui-istifadə edərək çox vaxt yalnız özlərinin siyasi opponentlərini təqib etməklə məşğul olurdu. 1950-ci ilin fevralında əvvəllər diqqəti cəlb etməyən və yaxın vaxtlarda Viskonsin Ştatından senator seçilmiş respublikaçı Cozef Makkarti *(Joseph McCarthy)* birdənbirə məşhurlaşdı: o, Qərbi Virciniya Ştatının Uillinq şəhərində çıxış edərkən bir vərəq kağızı qaldıraraq iddia etdi ki, həmin vərəqdə o dövrdə Dövlət Departamentində işləmiş 205 kommunistin adı vardır. Makkarti öz ittihamlarının heç biri barədə sübutlar təqdim etməsə də, sonrakı dörd il müddətində o, həmin mövzunu istismar edərək bildirirdi ki, bu mövzu Amerika cəmiyyəti üçün həyati əhəmiyyət kəsb edir.

Makkarti və onun köməkçiləri Roy Kon *(Roy Cohn)* və Devid Şayn *(David Schine)* ağlasığmaz ittihamlar irəli sürərək şahidləri qorxutmağa, Corc Marşall *(George Marshall),* Adlay Stivenson *(Adlai Stevenson)* kimi adamları hörmətdən salmağa, onlara qara yaxmağa başlamışdılar. Makkarti bu adamları "qərb sahilinin ərköyün elitası" adlandırırdı.

Makkarti Amerikanın ictimai həyatını bir neçə il terror etdi və hətta ona nifrət edən prezident Duayt Eyzenhauer də ona qarşı

Satış üçün nəzərdə tutulmayıb

çıxmağa cəsarət etmirdi. Lakin Viskonsin Ştatından olan senator son nəticədə səhvə yol verdi.

1954-cü ilin yanvar ayında Amerika tarixində ilk dəfə televiziya ilə işıqlandırılan Senat dinləmələrinin gedişində Makkarti dolayısı ilə Eyzenhauerin özünü tənqid etdi və müdafiə naziri Robert Stivensin *(Robert Stevens)* üzərinə açıq hücuma keçdi. İctimaiyyət Makkartinin hərəkətlərini hər gün müşahidə edirdi. O, heç bir fakt təqdim etmədən adamları qorxudur, onları hədələyirdi və kommunizmə qarşı mübarizədə onu haqlı hesab edənlər arasında Makkartinin dəstəkləyənlərin sayı sürətlə azalmağa başladı. Amerikanlar, necə deyərlər, ağıllarını başlarına yığdılar və "qırmızı vahimə" yoxa çıxmağa başladı. Senat bu qərara gəldi ki, Makkartinin senatda malik olduğu səlahiyyətlərdən sui-istifadə etməsi ilə daha barışmaq olmaz və dekabr ayında 22 səsə qarşı 65 səslə onun barəsində etimadsızlıq votumu qəbul etdi .

Əlavə məlumat üçün oxuyun: Richard Rovere, Senator Joe McCarthy (1959); Stanley Kutler, The American Inquisition (1982); Thomas C. Reeves, The Life and Times of Joe McCarthy (1982).

SENATOR COZEF MAKKARTİYƏ ETİMADSIZLIQ VOTUMU

Qərara alınır: Viskonsin Ştatından olan senator Cozef Makkarti "inzibati məsələlər üzrə" *(Rules and Administration*) komitənin "imtiyazlar və seçkilər üzrə" *(Privileges and Elections)* yardımçı komitəsi ilə onun senator olmaq etibarilə Senatın şərəf və ləyaqətinə zərər vurmuş davranışı ilə əlaqədar, həmin yardımçı komitəyə göndərilmiş işlərin araşdırılmasında əməkdaşlığı tənzimləyə bilməmiş, bunun əvəzinə onlara tapşırılmış vəzifələri yerinə yetirməyə çalışan yardımçı komitənin və onun üzvlərinin etimadından dəfələrlə sui-istifadə etmiş və beləliklə, Senat daxilində konstitusion proseslərə mane olmuşdur. Viskonsin Ştatından olan senator cənab C.Makkartinin bu cür davranışı Senatın ənənələrinə ziddir və müvafiq olaraq bizim tərəfimizdən pislənilir…

Maddə 2: Viskonsin Ştatından olan senator cənab C.Makkarti,

– ona etimadsızlıq votumu çıxarılması gedişində söylənilmiş ittihamların öyrənilməsi üzrə Senatın Xüsusi Komitəsi *(Select Committee)* hesabatla

Satış üçün nəzərdə tutulmayıb

çıxış etdikdən sonra (lakin bu hesabat hələ Senata təqdim edilməmiş) Xüsusi Komitənin sədri cənab Uotkinsə *(Watkins)* məktub yazaraq Xüsusi Komitənin üç üzvünü özlərini fəaliyyət qabiliyyətli olmamasını etiraf edə bilmədiklərinə görə onları "qəsdən yalan danışmaqda" və "dələduzluqda" günahlandırmışdır;

– 1954-cü il noyabrın 4-də mətbuatda bəyan etmişdir ki, 1954-cü il noyabrın 8-də başlanmalı olan Senatın fövqəladə sessiyası "linçləmə məclisi" olacaqdır;

– 1954-cü il noyabrın 7-də özünün televiziya və radio ilə çıxışında Senatın həmin sessiyasını "linçləmə yuvası" adlandırmışdır;

– 1954-cü il noyabrın 13-də mətbuatda bəyan etmişdir ki, Xüsusi Komitənin sədri (cənab Uotkins) "indiyə qədər eşitdiyim ən ağlasığmaz və qorxaq əməllərdə" təqsirkardır, daha sonra o əlavə etmişdir ki, "güman edirdim ki, o özünə ünvanlanmış suallara cavab verməkdən qorxacaqdır, lakin onun bu dərəcədə səfeh olmasını, bu barədə açıq bəyanat verəcəyini düşünmürdüm";

– bu Komitənin üzvlərini kommunist partiyasının "kölələri və agentləri", eləcə də "faktiki vəkilləri" kimi səciyyələndirərək bildirmişdir ki, sözügedən Komitə öz hesabatını yazarkən kommunist metodlarını təqlid etmiş, mühüm informasiyanı düzgün təqdim etməmiş, bununla da özünün Senata verilmiş tövsiyələrinə xoşagələn görkəm verməyə çalışmışdır (bu tövsiyələrin təsviri və onlardakı ittihamlar mətbuat üçün bəyanatda əks etdirilmiş və Konqresin 10 noyabr 1954-cü il tarixli hesabatlarında yerləşdirilmişdir);

– cənab Makkarti senator etikası prinsiplərini pozaraq Senata böhtan atmağa, ona qara yaxmağa, Senatda gedən konstitusion proseslərə mane olmağa və onun ləyaqətinə zərər vurmağa çalışmışdır;

və biz bu cür davranışı pisləyirik.

Mənbə: 83rd Congress, 2nd Session, Senate Resolution 301 (2 December 1954)

Satış üçün nəzərdə tutulmayıb

61. Demokratiya və Xarici Siyasət (1990)

Sovet İttifaqının çökməsi, Berlin səddinin və Şərqi Avropa kommunist blokunun – "Şər imperiyasının" süqutu amerikanların çoxu qarşısında belə bir sual qoydu –gələcəkdə ABŞ-ın xarici siyasəti necə olmalıdır? İkinci Dünya müharibəsi başa çatandan sonra təxminən 40 ildən artıq idi ki, Amerikanın xarici siyasəti kommunist ekspansiyasını "cilovlamaq" siyasəti üstündə qurulmuşdu. Dünyaya amerikan baxışı çox sadə idi: Yer üzündə xeyir və şər adında iki qüvvə mövcuddur və Birləşmiş Ştatlar öz nüfuzunu məhz kommunist şər-xatası ilə mübarizədə istifadə etməyə borcludur. "Cilovlama" prinsipi səmərəli oldu. Belə ki, Amerikanın hər iki siyasi partiyası və ictimaiyyəti belə xarici siyasətə dəstək verdi.

1980-ci ilin ortalarında amerikanların çoxu bu fikirdəydi ki, "gərginliyi azaltmaq" *(detente)* yolunda Sovet İttifaqı ilə Birləşmiş Ştatlar arasında hərbi sahədə güzəştlər nüvə müharibəsinin qarşısını almaq üçün ən yaxşı vasitədir. Bəs, dediyimiz ssenari öz aktuallığını itirəndən sonra görəsən, Amerikanın xarici siyasəti hansı prinsiplər üstündə qurulmalıdır?

Dövlət katibi Ceyms Beyker *(James Baker)* 1990-cı ilin martında "Beynəlxalq Siyasət üzrə İctimai Şura"da *(World Affairs Council)* söylədiyi nitqində məhz bu məsələyə toxundu. Onun irəli sürdüyü təklif sadə olduğu qədər də aydın idi – Birləşmiş Ştatlar bundan sonrakı xarici siyasətində əsas meyar olaraq demokratiya siyasətini daha qabarıq yeritməlidir. Belə bir xarici siyasət – dünyada rast gəlinən demokratik dəyərləri yaymaq və demokratiyanı mümkün edən iqtisadi islahatlara dəstək verməkdir. Hər hansı digər siyasət, Beykerin fikrincə, Birləşmiş Ştatların özülündə dayanan dəyərlərə zidd xarakter daşımış olacaqdır .

Əlavə məlumat üçün oxuyun: Walter LaFeber, America, Russia and the Cold War (1993 ed.); Michael R. Beschloss and Strobe Talbott, At the Highest Levels: The The Inside Story of the End of the Cold War (1993); Geir Lundestad and Odd Arne Westad, eds., Beyond the Cold War: New Dimensions in International Relations (1993).

Satış üçün nəzərdə tutulmayıb

DEMOKRATİYA VƏ XARİCİ SİYASƏT

Dallasdakı "Beynəlxalq Siyasət Şurası"nın üzvləri qarşısında çıxış etmək mənim üçün böyük şərəfdir. Amerika ərazisindəki buna bənzər başqa ictimai şuralar kimi bu təşkilat da bircə böyük məqsədə xidmət göstərir: bilgiləndirmək və müzakirə etmək. Bizim tez dəyişən dünyamızda bu vəzifə çox mürəkkəbdir. Amma hər halda istər burda, istərsə də başqa yerlərdə demokratiya cəmiyyətin məlumatlanmasından, ölkənin xarici siyasət xəttini müzakirədən, vətəndaşların həmin siyasətə kömək və dəstəyindən asılıdır.

Bu gün mən içərisində yaşadığımız dünyadan, onu necə dərk etməyimizdən, öz maraq və ideallarımızı necə qorumağımızdan danışmaq istərdim.

Təxminən bir il əvvəl prezident Buş (ata) vəzifəyə gələndə dünyada artıq əsməkdə olan azadlıq nəsimi barədə söz demişdi. Xəfif külək indi az qala fırtınaya çevrilib. Bütün dünyada sağlı-sollu əski diktaturalar yıxılıb və insanların səsləri nəhayət, eşidilmişdir. Xalqların tələbi sadə, son dərəcə aydın xarakter daşıyır: fikir azadlığı, söz azadlığı, vicdan azadlığı və iş azadlığı. Bütün bu azadlıqların cəmi hər hansı ölkədə demokratiyanın bərqərar olmasından, daha doğrusu, xalqın öz hökumətini özü seçmək sərbəstliyindən asılıdır.

Hətta mən deyərdim ki, azad və ədalətli seçkilərin timsalında, illər boyu xəyallarda bəslənən demokratik idealların necə həyata keçdiyini görəndə heyrət bizi bürüdü. Axı bilirsiz ki, İkinci Dünya müharibəsi başlanandan ta indiyə qədər demokratik dəyərlərin başı üstündən totalitar təcavüz qılıncı asılmışdı. İndi belə bir qorxu səngiyəndən və kölgələr əriyəndən sonra həmin dəyərlər özünü parlaq şəkildə büruzə verdi.

Artıq tamam yeni, əslində isə bizim respublikanın yaranışından özünü zaman-zaman göstərən köhnə mübahisələr bir daha qızışdı. Çoxları elə güman edir ki, demokratiyanın düşmənləri zəifləyəndən sonra artıq biz öz borcumuzu yerinə yetirmiş kimiyik. Əlimizi qoynumuza qoyub artıq öz içərimizdəki problemlərlə məşğul olmağın vaxtı çatıbdır. Belə adamlarla razı deyiləm. Köhnə dünyanın dağıdılmasında Amerikasız keçinmək olmadığı kimi, yeni dünyanın qurulmasında da Amerikasız keçinmək olmayacaq.

Hətta belə deyərdim: "cilovlama" dövründən sonra demokratiya dövrü gəlir. Köhnə diktaturaların çökmə dövrünün ardınca yeni demokratiyanın quruculuq əyyamı başlayır. Məhz buna görə də prezident Buş öhdəmizə düşən yeni vəzifəni "demokratiyanı yaymaq və möhkəmləndirmək" kimi müəyyən edib. Bu vəzifə həm ideallarımıza, həm də Amerikanın maraqlarına cavab verir.

Bu gün mən sizi demokratiya və demokratik xarici siyasət barədə beş prinsipimlə tanış etmək istərdim.

Birincisi odur ki, demokratiya deyəndə şəxsiyyətin hüquqları, eyni zamanda hər bir kəsin məsuliyyət hissi başa düşülür. Axı bir-birini əvəzləyən sistemlər, onların quruluşu, saysız-hesabsız proseslər barədə uzun-uzadı danışıqlar-

Satış üçün nəzərdə tutulmayıb

da şəxsiyyətin özü çox asan şəkildə yaddan çıxa bilər. Əslində isə demokratiyanın mahiyyəti azadlıq medalının iki üzü kimi şəxsiyyətin həm hüquqlarına, həm də onun məsuliyyətinə aid olunmalıdır. Hər bir bəşər övladı kamilliyə can atdığı kimi, istər qadın, ya kişi olsun hər bir kəsin çatışmayan, eləcə də üstün cəhətləri vardır. Bu yaxınlarda Çexoslovakiya prezidenti Havelin dediyi kimi, demokratik proses – ideallar dünyasına bizim bitib-tükənməyən səyahətimizdir. Elə bir səyahət ki, o, reallıqdan keçib gedir; elə bir reallıqdan ki, dünyanın, arzu etdiyimiz qədər, heç də həmişə ədalətli olmadığını nəzərimizə çatdırır.

Qədim zamanlarda ideal dövlət axtarışında bulunan filosof Platon "qoruqçular" deyilən elitanın idarəsinə tabe olan bir siyasi sistem tərəfdarı idi. Müdriklik təlimini almış bu insanlar ictimai məsələlərin həlli və mövcud ideallara uyğun ictimai əxlaqın müdafiəsi ilə məşğul idilər. Əlbəttə, demokratiya üçün müdriklik və ideallar vacibdir. Ancaq bunların hər biri təkcə elitanın yox, sadə insanların qəlbində, zehnində və əxlaqi keyfiyyətlərində öz yerini tapmalıdır. Biz, bizim hər birimiz demokratiyanın "qoruqçularından" biriyik. "İnsanlara etibar et!" demokratiyanın şüarı budur və "Biz Birləşmiş Ştatlar xalqı…" bu şüara uyğun olaraq yaşayırıq. Demokratiya kamil şəxsiyyətlərin kübarlığıdır, odur ki, şəxsiyyətin hüquqları gələcək demokratik sistemlərə bizim əsas meyarımız olaraq qalacaqdır.

Demokratiya haqqında ikinci qeydim odur ki, bu sistem çox nadir siyasi legitimliyə malikdir. Demokratiya insana arxalanır, amma bundan əlavə, burada hər bir insan onu demokratik bir dövlətin idarə etməsinə razılıq verməlidir. Belə bir dövlət nəticədə ən legitimdir – o, həm qanuni, həm də səmərəlidir.

Başqa idarə formalarından fərqli olaraq, demokratiya heç də birdəfəlik əldə olunan razılığa hesablanmayıb. Bu razılıq ədalətli, müntəzəm və azad seçkilər vasitəsilə təsbit olunur. Daha doğrusu, bu seçkilər "demokratik səyahətə bilet" kimi bir şeydir. Demokratik cəmiyyətdə qanun hökmranlıq eləyir. Eyni zamanda, burada müxtəlifliyə dözümlülük var; burada insan haqları həm despotik azlıqdan, həm də müstəbid çoxluqdan qorunur. Çoxluğun hökmü azlığın hüquqlarına hörmətlə yanaşmalıdır.

Demokratiyanın daha bir cəhəti vardır ki, biz onu yaddan çıxarmamalıyıq – bu onun daima özünü kamilləşdirməyə can atmağıdır.

Bilirik ki, müasir gerçəklik heç də həmişə demokratik ideallara uyğun gəlmir. Elə ölkəmizin tarixində də belə hallar tapmaq olar. Amma bununla belə, tarix sübuta yetirir ki, demokratik cəmiyyətdə tərəqqiyə aparan yolun qabağını uzun müddət kəsmək mümkün deyil. Demokratik yüksəliş prosesində özünü təzələmə və kamilləşmə keyfiyyəti həmişə mövcuddur və bu keyfiyyət bizə öz səhvlərimizi düzəltməyə, yolumuzun istiqamətini daha aydın seçməyə köməklik göstərir.

Satış üçün nəzərdə tutulmayıb

Demokratiya həmişə təzələnən legitimlik keyfiyyətinə malik olduğundan, o istər ölkə daxilində, istərsə də beynəlxalq ahəngdarlıq naminə, tərəqqini təmin etməyə qadirdir. Demokratik dəyərlərə güvənən, istiqlal qazanmış xalqlar çətin ki, bir-biri ilə vuruşsunlar.

Üçüncü qeydim ondan ibarətdir ki, demokratiya təkbaşına duruş gətirə bilməz. Həndəsədə olduğu kimi, ən sabit fiqur əlbəttə ki, üçbucaqdır. Uğurlu demokratiyanın siyasi həndəsəsi bizə tələqin edir ki, azad cəmiyyətə iqtisadi nailiyyətlər və həmçinin müəyyən təhlükəsizlik həddi dəstək olmalıdır. Müharibə və yoxsulluq, demokratik sistemin, demokratik dözümün və insan hüquqlarının qəddar düşmənləridir.

Avropada son illərdə baş verən demokratik inqilabların çoxusu, məhz ona görə baş verib ki, insanlar iqtisadi tərəqqinin iş yerlərindəki sərbəstlikdən və xüsusi mülkiyyət azadlığından asılı olduğunu anlayıblar. Özlüyündə isə belə azadlıqların hər biri insanlara daimi hesabat verən hökumətdən asılı vəziyyətdədir. "Rifahın artması sahibkarlıq ruhunun sıxışdırılması şəraitində də baş verə bilər" deyənlər insanlara nə çörək, nə də azadlıq bəxş edə biliblər.

Biz demokratiyanın siyasi özülü qoyulandan sonra belə, iqtisadiyyatı, eləcə də təhlükəsizliyi möhkəmləndirməliyik. Daha firavan həyata can atan hər hansı bir xalq öz içərisində, eləcə də qonşuları ilə əmin-amanlıqda yaşamalıdır. Belə bir xalq üçün demokratiya müvəqqəti sınaq yox, əbədi həyat yoludur. Keçirilən seçkiləri sadəcə olaraq tanımaq, sonra isə vəziyyətin özü-özünə yaxşılaşacağını oturub gözləmək strategiyası – keçmişin acı dərsləri tərəfindən inkar edilir. Əsl strategiya – demokratiyanı iqtisadi islahatlarla möhkəmləndirmək və beynəlxalq təhlükəsizliyi yeni səviyyəyə qaldırmaqdan ibarətdir; yalnız bu halda biz 1989-cu il inqilablarından 1990-cı illərin demokratiyalarına aparan çətin yolu uğurla keçə bilərik.

Dördüncü qeydim odur ki, Amerikanın xarici siyasəti demokratik dəyərlərə uyğun yeridilməlidir. Bunun sübuta ehtiyacı yoxdur. Orasını da deyək ki, elələri var Amerikanın ideallarını qoruyub saxlamaq naminə, onu bəzən demokratiyaya sərt üz göstərən dünyadan belə təcrid etmək fikrindədir. Elələri də var – *realpolitic* tərəfdarıdır, bizim idealları, necə deyərlər, öz evimizdə saxlamaqla, dünyaya Amerikanın iqtisadi, hərbi, yaxud da siyasi maraqları pəncərəsindən baxırlar.

Biz özümüz də hərdən bu dualizmdə bulunuruq. Gəlin özümüzdən soruşaq görək, biz öz ideallarımıza tez-tezmi can atırıq və onlara çata bilirikmi? Öz cibimizə işləyəndən sonra heç anladığımız olubmu ki, deyəsən, axı düz eləmədik? Bir şəxsiyyət kimi biz yalnız o vaxt özümüzdən razı qala bilərik ki, özgəsinə əl uzadan zaman xasiyyətimizin hər üzündən faydalanırıq; bir iş görəndə eqoizm nöqteyi-nəzərindən, ya *status quo*'dan razılıq əlaməti kimi deyil, dünyanı ideallarımıza rəğmən dəyişməyə çalışırıq.

Satış üçün nəzərdə tutulmayıb

Güman edirəm ki, xarici siyasətimizə də elə bu baxımdan yanaşmaq lazımdır. Amerikan idealları xətti-hərəkətimizin vicdanıdır. Bu idealları həyata keçirmək üçün bizim qüdrətimiz – ləyaqətli vasitədir. Xarici siyasətimiz və özgə xalqların problemlərini başa düşməyimizsə, gördüyümüz işi başa çatdırmaq üçün plan xarakteri daşıyır.

Demokratiyanın yeni minilliyi astanasında idealizmlə realizmin bir araya sığmazlığı tamam əks təsəvvürlə – onların barışığı ilə əvəz olunmalıdır. Bunu başa düşməsək, onda siyasətimizin ictimai dəstəyini itirmək təhlükəsi qarşısındayıq. Məncə, tariximiz açıq-aydın göstərir ki, milli maraqlarımıza cavab versə belə, xalqımızın humanizm duyğusunu nəzərə almayan hər hansı uzunmüddətli proqrama amerikalılar dəstək verməzlər. Bununla belə əminəm ki, bizim iş görmək hüququmuza xələl gətirən bir sıra mənəvi çağırışlara köklənən siyasət də amerikanların ürəyindən olmayacaq. Bu gün biz yeni demokratik tendensiyaları alqışlayırıq və özümüzü çox yaxşı hiss eləyirik. Ancaq bunu da bilməliyik ki, həmin tendensiyalar hələ ki, fakta çevrilməmiş imkanlardır. Odur ki, özümüzü yaxşı hiss etməyimiz hələ kifayət deyil, biz gərək düzgün hərəkət də edək.

Beşinci qeydim ondan ibarətdir ki, demokratiyanı dəstəkləmək siyasəti "qüvvələri birə-beş çoxaldır". Belə siyasət beynəlxalq aləmdə nüfuzumuzu artırır. Əvvəl dediyimiz kimi, dəyərlərimizi nəzərə alan və amerikan xalqı tərəfindən bəyənilən siyasət avtomatik olaraq bu siyasəti daha effektiv edir.

Demokratiya üstündə qurulan siyasət o mənada "qüvvələri birə-beş çoxaldır" ki, biz öz dostlarımıza və müttəfiqlərimizə ümumi məqsəd naminə əl yetirə bilirik. Belə siyasət hələ də diktatura rejimində yaşayan bir sıra xalqlarda ümidlər doğurur.

Tamamilə təbii haldır ki, Birləşmiş Ştatlar Asiyada, Avropada və Amerikan qitələrində azad bazar demokratiyaları ittifaqlarının başında dayanır. Bizim ümumi dəyərlərimiz azad, xatasız dünya qurmaq uğrunda bir-birimizin maraqlarını qorumağa, gücümüzü birləşdirməyə həvəs oyadır. Mərkəzi və Şərqi Avropa ölkələrinə yardım göstərəndə də məqsədimiz bu olub. Orada, eləcə də Mərkəzi Amerikada biz öz dostlarımıza, müttəfiqlərimizə tələqin etmişik ki, öz xətt-hərəkətlərini demokratik standartlara uyğun olaraq qursunlar. Əksinə, dar mənada geosiyasi maraqlara uymasınlar. Ona görə belə lazım bilmişik ki, demokratik ölkələrdə gedən proseslər və milli maraqlar bir-birini tamamlamalıdır.

Ancaq əfsuslar olsun ki, dediyim prinsiplə heç də hamı razı deyil. Çoxları o fikirdədir ki, Birləşmiş Ştatlar hər bir işi özü təkbaşına görməlidir. Qeyriləri isə belə hesab eləyir ki, əgər biz yardım proqramlarına xırdalığına qədər rəhbərlik etmiriksə, yəni əsas sponsor biz deyiliksə, onda Amerika lider sayıla bilməz.

Şübhəsiz ki, biz bu fikirdə deyilik və icazə verin, öz niyyətimi daha aydın şəkildə izah eləyim.

Satış üçün nəzərdə tutulmayıb

1940-cı illər, Amerikan liderliyi üçün dünyada gözəl bir əyyam idi. Əlimizdə nəhəng imkanlar toplanmışdı, dünya xarabalıq içindəydi və həmin ağır yükü biz öz çiyinlərimizdə daşımağa razı olduq. Onda biz müttəfiqlərimizə ayaq üstə durmağa kömək elədik, rəqiblərimizi dosta çevirə bildik. İndi də həm Respublikaçılar, həm də Demokratlar partiyaları rəhbərliyinin yeritdiyi uğurlu siyasət nəticəsində biz dünya problemlərini həll etməkdə böyük dəstək görürük. Müttəfiqlərlə əməkdaşlıq heç də Amerikanın zəifliyi deyil. Bu əksinə, bizim qüdrətimizə sübutdur və bu qüdrəti müdriklik idarə etməlidir; indiki zəmanəyə uyuşan, 45 il bundan əvvəl amerikanların müxtəlif problemlərin həllində arxalandığı ağıl, qüvvə və həmin müdriklik! Bu gün o vaxt olduğundan daha səmərəli şəkildə hərəkət eləyə bilərik, çünki bu gün demokratiya daha sürətlə inkişaf etməkdədir.

Demokratiyaya və bizim xarici siyasətimizə dair söylədiyimiz mülahizələr heç də mücərrəd xarakter daşımır. Onlar ümumi xətti-hərəkətimiz üçün bir proqramdır, bizim düşüncə tərzimizə mühüm təsir göstərir, xarici siyasət sahəsində qazandığımız uğurlara yardımçı olur.

İlk nümunə kimi, mən son vaxtlar Mərkəzi Amerikada baş verən hadisələri misal gətirmək istərdim. Prezident öz vəzifəsinə gələndə bölgədə qonşumuz olan bu ərazidə Amerikanın siyasəti xeyli problemlərlə üzləşirdi. Bu məsələ müxtəlif fikirlər doğurdu. Konqres və icra orqanları bu problemə yanaşmada nəinki ümumi razılığa gəlmədilər, hətta problemin özünə belə müxtəlif münasibət göstərdilər. İflasın müqəddiməsi sayıla bilən hərc-mərclik Amerikan cəmiyyətini didib-parçalayırdı.

Əlbəttə ki, vəziyyətdən yeganə çıxış yolu amerikan ideallarına qayıtmaq idi. Ötən ilin əvvəlində prezident məhz demokratiyanı bölgədəki məqsədimiz, seçkiləri isə həmin məqsədə çatmaq üçün yeganə vasitə hesab elədi. Nəticədə məsələ xeyli aydınlaşdı. Nikaraquada Müqavimət Hərəkatının davranışı əsas gündəmdən çıxdı, əvəzində bizim demokratik regionda Nikaraquanı zülm və ədalətsizlik yuvasına döndərən sandinistlərin davranışı ön plana keçdi. Panamada general Noryeqanın azad seçkilərdən qəti imtina etməsi onun hər cürə legitimliyini yoxa çıxardı, bununla da ölkədə demokratikləşmənin ağrılı dövrü başlanmış oldu. Salvadorda zorakılığa baxmayaraq, bir daha keçirilən azad seçkilər prezident Kristianiyə *(Cristiani)* sülh danışıqlarına başlamaq və insan hüquqlarına ciddi yanaşmaq şansı verdi.

Bizim ikipartiyalı sistemlə əlaqədar olaraq hərdən üzə çıxan Qordi düyününü açmaqda demokratiya əsas güvəncimizdir. 1989-cu ilin martın 24-də Ağ Evdə imzalanan ikipartiyalı müqavilə Respublikaçılara və Demokratlara ümumi məqsəd uğrunda birləşməyə imkan yaratdı. Vaşinqtondan kənarda da bütün amerikan xalqı bu siyasətə tərəfdar çıxdı. Nəhayət ki, Birləşmiş Ştatlarda hamı bir səslə danışa bildi. Bunun nəticəsidir ki, 1990-cı il fevralın 28-də Konqres Nikaraqua Müqavimət Hərəkatına humanitar yardım ayrılması fikrini bəyəndi.

Satış üçün nəzərdə tutulmayıb

Daha sonra biz Mərkəzi Amerika ölkələrində demokratik dəstək planını da yenə iki partiyaya bəyəndirə bildik. Eskuipulas *(Esquipulas)*[cxiv] razılaşması sülhə, demokratiyaya tərəfdar çıxmaqla, həm də qanlı inqilablara son qoymalıydı. Ancaq arzunu gerçəkliyə çevirməkdən ötrü hələ ki, sərfəli bir mexanizm yox idi. Sonra [Salvadorda] Tesoro Biçdə *(Tesoro Beach)* Mərkəzi Amerika ölkələri prezidentlərinin görüşündə Nikaraqua Müqavimət hərəkatını 90 gün ərzində tərk-silah etməkdən ötrü birgə plan hazırlamaq nəzərdə tutuldu. Düzdür, bu addımı bəziləri Birləşmiş Ştatların məğlubiyyəti kimi qiymətləndirdilər, ancaq o cəhət də yaddan çıxmamalıdır ki, bu plana görə, sandinist hökumətindən tələb olunurdu ki, 1990-cı il 25 fevraldan gec olmayaraq beynəlxalq müşahidəçilərin rəhbərliyi ilə ölkədə seçkilər keçirilməsi tələb olunurdu.

Birgə planın məhz bu maddəsi ilə biz Avropalı müttəfiqlərimizi inandıra bildik ki, onların Nikaraquaya iqtisadi yardımı azad və ədalətli seçkilər keçirmək şərti ilə uzlaşmalıdır. 1989-cu ilin aprelində İsveçin rəhbərliyi ilə Nikaraquaya həsr olunmuş beynəlxalq donorlar konfransı keçirildi. Nikaraquanın prezidenti Orteqa *(Ortega)* sonradan boynuna aldı ki, [düzgün keçirilmiş] seçkilərə qədər o, gözlədiyi həmin yardımdan qat-qat az ala bilmişdir.

Nəhayət, Sovet İttifaqına qarşı da biz həmin cəhdlərimizin daha səmərəli mövqeyini formalaşdıra bildik. Demokratiyanın "birə-beş artımı" proqramının köməyi ilə biz Sovetlərə demokratik seçkilərə göstərilən və gündən-günə artan beynəlxalq dəstəyi nümayiş etdirə bildik. Əlimizə düşən imkandan istifadə edərək biz Moskvaya bəyan elədik ki, əgər o, Salvadorda ədalətli yolla seçilən hökumətin işinə və ya Nikaraquada seçki prosesinə qarışarsa, bu istər-istəməz amerikan-sovet münasibətlərində öz əksini tapacaqdır. Və beləliklə, biz Sovet İttifaqını konfliktləri qızışdırmaq fikrindən döndərib, ayrı-ayrı bölgələrdəki problemlərin həllində daha konstruktiv mövqe tutmağa inandıra bildik. Nəticədə Moskva həmin ölkələrdə seçkilərə qarışmamağa, həmin seçkilərin nəticələrini tanımağa razılıq verdi.

Seçkilərin azad və ədalətli keçməsi üçün biz əlimizdən gələni əsirgəmədik. Konqres seçkinin gedişinə köməklik məqsədi ilə vəsait ayrılması barədə prezidentin xahişinə tərəfdar çıxdı; bununla da bir çox beynəlxalq müşahidəçiləri Nikaraquaya göndərə bildik. "Demokratiyanı Milli Dəstək Fondu" *(National Endowment for Democracy)* Nikaraquadakı siyasi partiyalar üçün də vəsait ayırdı. Biz bunu çox vacib sayırdıq. Belə ki, ölkədəki demokratik müxalifət – UNO Nikaraquadakı bütün dövlət xəzinəsindən gen-bol istifadə edən sandinistlərin partiyasına qarşı az da olsa müqavimət göstərə bildi. Və nəhayət, biz rast gəlinəsi hər hansı ədalətsizliyə, özbaşınalığa qarşı da kəskin etirazımızı bildirdik. Belə hesab edirdik ki, demokratiya cücərtiləri o vaxt inkişaf edib böyüyə bilər ki, ictimai rəyin işığı həmin pöhrələri kökündən məhv etmək istəyənləri aşkara çıxarmış olsun. Sandinistlərin qayda-qanuna riayət etməkdən başqa çarəsi qalmadı.

Satış üçün nəzərdə tutulmayıb

Mən bu faktları ona görə sadalayıram ki, bunların hər biri seçki yolu ilə Nikaraquada demokratiyanın inkişafı üçün münbit iqlim yaradıbdır. Öz qəlbində demokratik ümidlər bəsləyən hər bir nikaraqualı bilirdi ki, o, tək-tənha deyil. Həmin azad və ədalətli seçkilərdə səs vermək ümidsiz və təkbaşına atılan deyil, işıqlı gələcəyə atılan bir addımı idi.

İndinin özündə, yəni Nikaraquada demokratik hökumət iş başına gələndən sonra başa düşürük ki, çoxillik vətəndaş müharibəsinin və marksist iqtisadiyyatın ağrı-acısını dadmış bu ölkənin bərpası daha ağrılı olacaq və ucuz başa gəlməyəcək. Burda da biz Panamada olduğu kimi, real prosesə yeni ümidlər bəsləməliyik. Elə bu səbəbdən prezident demokratiyanın inkişafına 800 milyon dollar ayırmağı təklif edib; bu vəsait Nikaraquaya çoxmillətli yardımın bir hissəsidir. Yox, bu heç də xeyriyyə məqsədi daşımır. Bu vəsait istər bizimçün, istərsə qonşularımız üçün həyati əhəmiyyət kəsb edən demokratik dəyərlər üçün töhfədir. Gözlərimiz qarşısında Qvatemaladan tutmuş ta Panamaya qədər yeni üfüqlər açılır. Bölgədə yaşayan xalqların işıqlı gələcəyi naminə hərbdən uzaq inkişaf və demokratiya naminə yeni imkanlar açılır. Belə bir hal istər bizim, istərsə də başqa demokratik dövlətlərin köməyi sayəsində başa gəlib, axıra qədər də həyata keçiriləcək.

Mənim ikinci misalım, Mərkəzi və Şərqi Avropada bizim demokratik xarici siyasətimizlə bağlıdır. Qorxu-ürküdən xilas olan, öz mənliyini, ümidlərini qaytarmaq istəyən Dəmir pərdənin arxasında yaşayan xalqlar nəhayət ki, bu pərdəni yırtmağı bacardılar.

Berlin səddi çökəndən az sonra, keçən dekabrda mən yarıya bölünmüş həmin şəhərdə oldum. Həmin o eybəcər divarda təzə açılan pəncərədən baxdım. Qarşımda nəhəng, qəddini düzəltmək istəyən bir şəhər açıldı. Bu divardan o yana qədim xalqlar təptəzə ümidlər içində çırpınırdı. Bütün bunların hamısına "Demokratiya" deyilən adicə bir sözün hikməti ilə çatmışıq.

Bir ay bundan əvvəl Praqada, bölgədəki demokratiyanı möhkəmlətmək barədə danışdım. Qoy Mərkəzi və Şərqi Avropa xalqları başa düşsün ki, onların qarşısına çıxan problemlər təkcə onların deyil, həm də bizim problemlərimizdir. Adətən dünyada ölkəmizdəki demokratik dəyərlərə və bizim iqtisadi sistemin uğurlarına həsədlə baxırlar. İnsanlar bizə ianə üçün deyil, əsl kömək xətrinə üz tuturlar və bizim yardım onlara, əslində öz-özlərinə yardım etməkdə köməklik göstərir. Bizim məsləhətlərimiz, iş təcrübəmiz və öyrətməyimiz hər cürə puldan vacibdir. Topladığımız təcrübəni hər vaxt bölüşməyə hazırıq.

Bizim əməkdaşlıq və yardım proqramımız üç sahədə cəmlənib, onu deyim ki, heç də onların hamısı iqtisadi mahiyyət daşımır.

Birincisi, biz azad və müntəzəm seçkilər keçirməkdə maraqlıyıq. Prezident təklif edib ki, bu ideyanı 35 ölkənin daxil olduğu "Avropada Təhlükəsizlik və Əməkdaşlığa dair Müşavirəsi"nin gündəliyinə salsınlar. Biz onu da təklif etmişik ki, demokratiya sahəsində ilk addımlarını atan Mərkəzi və Şərqi Avropa

Satış üçün nəzərdə tutulmayıb

ölkələrində keçirilən seçkilərə müşahidəçilər göndərək. Məqsədimiz bütün Avropada demokratiyanı legitimliyin əsas prinsipinə çevirməkdir.

İkincisi, silahların və Avropada bir-birinə qarşı dayanan silahlı qüvvələrin ixtisarı sahəsində istər Sovet İttifaqı ilə, istərsə də başqa müttəfiqlərimizlə əməkdaşlığı davam etdiririk.

Üçüncüsü, biz bir ölkə kimi, bazar iqtisadiyyatına keçid ərəfəsində ağrılı proses yaşayan ölkələrə öz iqtisadi köməyimizi təklif eləyirik. Əlbəttə, marksist-leninçi iqtisadi sistemlərindən təzəcə üz döndərən, azad bazar özülü olmayan ölkələr üçün, dediyim, sözsüz ki, mürəkkəb vəzifədir. Ancaq biz belə hesab edirik ki, Birləşmiş Ştatlar, Avropadakı müttəfiqlərimiz və Yaponiya, eləcə də beynəlxalq iqtisadi qurumlar çoxdan gözlədiyimiz tərəqqi yolunda öz səylərini birləşdirə biləcəklər. Belə cəhdlərin əsas məqsədi özəl sektora genişmiqyaslı yatırım qoymaq üçün sağlam mühit yaratmaq, bununla da, inkişafa nail olmaqdır.

Biz öz köməyimizi dəyərlərimizlə uyğunlaşdırmağı bacarırıq və həmin dəyərlərin dünyada necə böyük rol oynayacağını təbliğ edirik. Bizim dəstəyimizi bir suala cavabla qiymətləndirmək olar – yəni bizim dəstəyimiz demokratiyanın və iqtisadi sərbəstliyin inkişafına doğrudanmı kömək eləyir? Sözümün bu yerində, bizim Sovet İttifaqında demokratiyaya dəstəyimizdən, onun təsirindən bir neçə kəlmə demək istərdim. Əlbəttə, biz "yenidənqurmada" maraqlıyıq. Ancaq bu maraq yalnız geosiyasətlə bitib-tükənmir. Əgər "yenidənqurma", kökündə iqtisadi tərəqqi dayanan, insan hüquqlarına hörmət göstərən daha demokratik, açıq sovet cəmiyyətinə aparıb çıxaracaqsa, deməli, Sovet İttifaqının xarici siyasətində də bu keyfiyyət özünü müsbət tərəfdən əks etdirəcəkdir. Məncə, Sovet İttifaqının beynəlxalq problemlərə konstruktiv yanaşması onun demokratikliyi ilə bağlıdır.

Hərəkətdə olan demokratiyaya üçüncü və ən axırıncı misalı, mən "yeni torpaqların fəthi" adlandırardım. Öz nitqimdə dedim axı, – demokratiya həm Amerikan ideallarına, həm də maraqlarına cavab verir. Demokratiya öz xarici siyasətimizə istər ölkə daxilində, istərsə də ondan uzaqlarda rəğbət qazanmaq üçün, yeganə olmasa da, hər halda çox dəyərli bir vasitədir.

Demokratiyaya hamı və hər kəs can atır – köhnə Amerikan deyimində söyləndiyi kimi – "irqindən, dinindən və dərisinin rəngindən asılı olmayaraq!" Mən o fikri inkar edirəm və ümidvaram ki, bütün Amerika da mənim tərəfimdə dayanır ki, guya demokratiya yalnız hansısa seçilmiş cəmiyyətlər üçündür, onlara yaraşır. Guya Afrika, Asiya, Cənubi Amerika və hətta Yaxın Şərqdə belə demokratiyaya yer yoxdur. Bu cür söhbətlərə mən yalnız bir cavab verirəm – "İnsanlara etibar eləyin!".

Odur ki, Avropada, Mərkəzi Amerikada və eləcə də başqa yerlərdə yaşayan insanlara etibar etdiyimizdən biz bölgə konfliktlərinin qabağını almaqda, milli barışığa nail olmaqda əsas vasitə kimi məhz demokratiyadan, seçkilərdən faydalanırıq. İcazə verin, bir neçə xırda misal gətirim.

Satış üçün nəzərdə tutulmayıb

– Bu yaxınlarda istiqlaliyyət bayramında iştirak etdiyim Namibiyada, ən sonuncu Afrika müstəmləkəsinə istiqlaliyyət qazandıran, ordakı Vətəndaş müharibəsinə son qoyan və köhnənin yerində yeni demokratik ölkə yaradan da məhz azad, ədalətli seçkilər olub. İnanırıq ki, azad, ədalətli seçkilər Anqolada və Cənubi Afrikada da belə bir milli barışığın əldə olunmasında mühüm rol oynamağa qadirdir.

– Eyni zamanda Ərəb-İsrail konfliktində də işğal olunmuş ərazilərdə keçiriləsi seçkilər konstruktiv İsrail-Fələstin dialoqunda katalizator ola bilər və bunun nəticəsində həmən bölgədə arzuolunan sülh əldə olunar.

– BMT Təhlükəsizlik Şurasının beş üzvü də belə hesab edir ki, Kambocada, başı bəlalar çəkmiş bu ölkədəki mübahisə doğuran məsələlərin həllində məhz azad, ədalətli seçkilər ən yaxşı vasitə sayılmalıdır. Məhz seçkilərdən sonra ölkə öz rəhbərlərini seçmək şansı qazanmış olar.

İcazə verin, mən öz nitqimi bir fikirlə tamamlayım. Kollecdə klassikanı öyrənəndə heyrətamiz bir faktla rastlaşdım – demə, qədim filosofların çoxusu demokratiyadan qorxurlarmış. Eləcə də, bizim Konstitusiyanın XVIII əsrə aid müzakirələrini öyrənən kəslər, bu cür qorxunun izlərinə rast gələcəklər. Həmişə çəkiniblər ki, insan daha çox dələduzluğa meyillidir. Adi kişi, ya qadın özünü idarə etmək qabiliyyətinə, guya malik deyil.

Bizim dədə-babamız – banilərimiz, dediyim bu qorxunu üstələməyi bacarıblar, bizim yenilməz siyasi və mənəvi gücümüzün özülündə dayanan insana etimad hissini özlərindən sonra bizə miras qoyub gediblər.

Harada ki, xarici siyasətimiz dediyim gücdən faydalanır, orada həmişə uğur qazanır və ölkəmizi dünyanın xeyrinə çalışan bir dövlətə çevirir. İndi, demokratik ideallar uğrunda uzun çəkən mübarizədən sonra biz yenə də əvvəlki inamı özümüzdə bərpa edə bilmişik.

Bəli, zəmanəmizin qəhrəmanları məhz adi, sadə insanlardır. Berlin səddini çökdürən, diktatorları yıxan, Mərkəzi Amerikada demokratiyaya səs verən də məhz sadə insanlardır.

Biz yeni demokratik cəmiyyət qurmaq işində adi vətəndaşlara güvənən dədə-babamız kimi, indi də öz xarici siyasətimizdə yeni beynəlxalq demokratik cəmiyyət quruluşunda insanlara eləcə etibar göstərməliyik. Şansımız da, gücümüz də bundadır. Əminəm ki, hər hansı adi amerikalının dəstəyi ilə biz bu işin öhdəsindən gələcəyik.

Mənbə: American Foreign Policy Current Documents 1990 (1991), 12-17

Satış üçün nəzərdə tutulmayıb

Get-gedə Daha Çoxlarını Qəbul Edən Amerika

Birləşmiş Ştatların gerbində yazılmış *"E pluribus unum"* – devizinin latın dilindən tərcüməsi "Çoxsaylı hissələrdən yaranmış tam" deməkdir. Lap əvvəldən müxtəlif xalqların nümayəndələri Birləşmiş Ştatlara köçüb-gəlməyə başlamış, onların çoxu qısa müddətdə Amerika mədəniyyətini qəbul etmişdir. Yeni dövlətdə 1790-cı ildə ilk dəfə aparılmış siyahıyaalma göstərdi ki, hətta ən çox "ingilis ştatı" sayılan Virciniyada da sakinlərin hər on nəfərindən üçü alman mənşəlidir. Amerikada çoxsaylı və müxtəlif etnik qruplar vardır. Məsələn, O'Brayan İrland familiyası Bostonda da Dublindəki qədər geniş yayılmışdır. Başqa ölkələrin dilinə xas olan sözlər, onların mətbəxi və adətləri Amerika mədəniyyətinin tərkib hissəsinə çevrilmiş və əsrlər boyu bu mədəniyyəti xeyli zənginləşdirmişdir. Məşhur tarixçi Oskar Həndlin (*Oscar Handlin*) mühacirət tarixinin öyrənilməsinə aid klassik əsəri olan "Köçkünlər*" (The Uprooted)* (1951) əsərinin müqəddiməsində yazır: "Mən Amerikada mühacirlərin tarixini yazmaq qərarına gəlmişdim, lakin sonra aşkar etdim ki, mühacirlər elə Amerikanın tarixidir".

Mühacirlərin heç də hamısı Amerikaya öz istəkləri ilə gəlmirdi. Vaxtilə kölə halına salınmış afrikalıların varisləri Yeni dünyaya qandallanmış halda gətirilmişdir. Onlar yalnız yaxın vaxtlarda özlərinin bu cəmiyyətə tam qoşulmasını tələb etməyə başlamışlar. Onu da qeyd edək ki, əvvəllər mühacirlər və onların uşaqları "əsl" amerikalıya çevrilmək üçün öz "yadelli" adətlərindən imtina etməli idilər. Bu yaxınlarda isə biz əks prosesin şahidlərinə çevrilmişik – etnik qürurun dirçəlməsi prosesi gedir. Cəmiyyətdə belə bir ideya inkişaf etməyə başlamışdır ki, insanların öz etnik mənşəyinə görə qürur duyması və bəzi köhnə adətlərin qorunub saxlanması həm cəmiyyəti, həm də etnik qrupu qarşılıqlı şəkildə zənginləşdirir.

Lakin adaptasiya prosesi heç də həmişə hamar keçməmişdir. Amerikanın bütün tarixi ərzində çox güclü "neytivizm" (*nativism*) dövrləri olmuşdur. Bu dövrlərdə ailələri Birləşmiş Ştatlara üç və ya dörd nəsil əvvəl gəlmiş adamlar yeni gələnləri oraya buraxmamağa cəhd göstərir; əksəriyyət təşkil edən protestantlar yəhudiləri və katolikləri diskriminasiya edir; anqlosakslar Asiyadan gə-

Satış üçün nəzərdə tutulmayıb

lənləri sıxışdırırdı. XIX əsrdə taybatay açılmış Amerikanın qapıları XX əsrin əvvəllərində bağlanmağa başladı. Yalnız son bir neçə onillikdə təqiblərdən xilas olmaq və ya yeni imkanlar axtarmaq ümidi ilə bu ölkəyə gələnlər barəsində daha liberal siyasət formalaşmışdır.

Lakin cəmiyyətə qoşulma prosesi təkcə mühacirlərlə bağlı deyildir. Amerika cəmiyyəti daha açıq və daha demokratik olduqca əvvəllər özlərini incidilmiş hesab edən qruplar bərabərlik və cəmiyyət tərəfindən tam tanınmalarını tələb etməyə başladılar. Qadınlar, homoseksualistlər və lesbiyanlar, Latın Amerikasından gəlmələr afro-amerikanlar, yerli amerikalılar və başqaları onların hamısının cəmiyyətin tamhüquqlu üzvlərinə çevrilmələrinə imkan verməli olan demokratik idealların genişləndirilməsini tələb etməyə başladılar. Multikulturalizm müasir Amerikada ən mühüm və qızğın müzakirə edilən məsələlərdən birinə çevrilmişdir. Onun tərəfdarları tələb edirlər ki, təkcə Qərbi Avropa mədəniyyətlərinə deyil, bütün mədəniyyətlərə özünü göstərmək imkanı verilsin.

Bəzən bu müzakirələr həddən artıq emosional və çox təhlükəli xarakter alırdı. Lakin onlar Amerika cəmiyyətinin demokratikləşməsinə töhfə vermişlər. Bundan əlavə, bu cür müzakirələr əsasən yalnız Amerika üçün səciyyəvidir, çünki dünyanın heç bir başqa dövləti etnik və mədəni rəngarəngliyə görə Birləşmiş Ştatlar qədər zəngin olması ilə öyünə bilməz.

62. Bredvell İllinoys Ştatına Qarşı (1873)

Qadınlar öz hüquqlarının genişləndirilməsini tələb etməyə prezident Endrü Ceksonun dövründə başlamışdılar. 1835-ci ildə Ohayo Ştatında Oberlin kolleci açılanda qadınlar ali təhsil sahəsində müəyyən məhdud imkanlar əldə etdilər. Lakin XIX əsr cəmiyyətində əksəriyyətin fikrincə, qadının rolu və yeri yalnız evdar qadın və ana olmaqdan ibarət idi. Qadınların intellektual peşələri öyrənməyə başlaya bilməsi ideyası çoxlarını dəhşətə gətirmişdi. Hətta 1905-ci ildə məşhur psixoloq Q.Stenli Holl (*G. Stanley Hall*) iddia edirdi ki, ixtisaslaşmanı nəzərdə tutan professionalizm qadın ağlına yaddır.

Buna baxmayaraq, bəzi qadınlar müxtəlif peşələrin qapılarını döyməyə başladılar və gördülər ki, bu qapıların hamısı – istər hökumət idarəsində, istər təbabət və ya yurisprudensiya sahəsində olsun, – onların üzünə sadəcə, örtülü deyil, qıfılla bağlıdır. Hərdənbir müxtəlif yerlərdə vəkil qadına rast gəlmək olardı, 1869-cu ildə Ayova Ştatında bu vəkil

Satış üçün nəzərdə tutulmayıb

qadınlardan birini hətta vəkillər kollegiyasına üzv qəbul etmişdilər. Elə həmin ildə İllinoys Ştatı özü vəkil arvadı olan və qadınların hüquq bərabərliyinin tərəfdarı kimi tanınmış Mayra Bredvellin (*Myra Bradwell*) vəkillər kollegiyasına üzv olmaq hüququndan imtina etmişdi, bu isə faktiki olaraq onun vəkillik praktikası ilə məşğul olması üçün lisenziya verilməsindən imtina edilməsi demək idi.

İllinoys Ştatının Ali Məhkəməsi elan etmişdi ki, ictimaiyyətin hüzurunda məhkəmədə keçirilən qızğın diskussiyalar qadınların təbiətinə pis təsir göstərə bilər. Bredvell ölkənin Ali Məhkəməsinə apelyasiya şikayəti verdi, lakin Ali Məhkəmə də əvvəlki məhkəmənin qadın təbiəti barədə fikrini təsdiq etdi.

Nəhayət, Ştat öz qaydalarına dəyişiklik etməli oldu və 20-illik mübarizədən sonra – 1890-cı ildə Mayra Bredvell vəkillik praktikası ilə məşğul olmaq hüququ əldə etdi. 1910-cu ildə bütün ölkədə təqribən 1500 qadın vəkillik fəaliyyəti ilə məşğul olurdu. 1920-ci ildə qadınlara səsvermə hüququ verən Konstitusiyaya XIX düzəliş qəbul ediləndə vəkil qadınların sayı əvvəlki kimi az idi – onlar amerikalı vəkillərin ümumi sayının 3% təşkil edirdi.

Əlavə məlumat üçün oxuyun: Sheila M. Rothman, Women's Proper Place (1978); B. Harris, Beyond Her Sphere: Women and the Professions in American History (1978).

BREDVELL İLLİNOYS ŞTATINA QARŞI

Hakim Redli Ali Məhkəmənin fikri ilə razılaşır.

Mülki hüquqa görə və hətta təbiətin özündə də qadının və kişinin fəaliyyət sahələri və onların vəzifələri arasında ciddi fərqlər olması həmişə qəbul edilmişdir. Kişi qadının müdafiəçisi və himayədarıdır, və ya bu belə olmalıdır. Qadın cinsinə təbiətən xas olan utancaqlıq və qorxaqlıq onun mülki sahədə bir sıra peşələrlə məşğul olmasına imkan vermir. Tanrının əmri ilə müəyyən edilmiş ailə qanunları, eləcə də təbii təsəvvürlərə görə qadının yeri və funksiyaları ailə ocağı ətrafında cəmləşməlidir.

Ailə təsisatına məxsus olan və ya məxsus olmalı olan maraq və baxışların (eyniliyi olmasa da) harmoniyası belə bir ideya ilə bir araya sığışmır ki, qadın öz ərindən ayrılıqda və ya ondan asılı olmayan fəaliyyət növü ilə məşğul ola bilər. Bu anlayış ümumi hüququ yaradanlar tərəfindən o qədər möhkəm əks etdirilmişdir ki, bu yurisprudensiya sisteminin əsas prinsipinə görə qadın öz ərindən asılı olmayaraq özünün qanuni hüquqlarından

Satış üçün nəzərdə tutulmayıb

istifadə edə bilməz. Ər qadının rəhbəri və ictimai həyatda nümayəndəsi sayılır. Yaxın vaxtlarda qadının mülki statusuna edilmiş bəzi dəyişiklikləra baxmayaraq bu əsas prinsipdən irəli gələn və onun diktə etdiyi xüsusi hüquqi müddəaların çoxu hələ də ştatların əksəriyyətində tamamilə qüvvədədir. Belə prinsiplərdən biri ondan ibarətdir ki, ərli qadın onun ərinin razılığı olmadan onun özü və ya əri tərəfindən hər hansı öhdəliklərin yerinə yetirilməsini nəzərdə tutan saziş bağlaya bilməz. İllinoys ştatının Ali Məhkəməsi qadının vəkilə və hüquq müşavirinə həvalə edilən funksiya və vəzifələri tam həcmdə yerinə yetirə bilməyəcəyi barədə qərar qəbul edərkən məhz bu halı vacib hesab etmişdir.

Əlbəttə, qadınların bəziləri ərsizdir və ərliliklə əlaqədar öhdəliklər, mürəkkəbliklər və ya qadağalar həmin qadınlara şamil edilmir, lakin bu, ümumi qaydadan istisnadır. Qadının ən ali borcu və vəzifəsi həyat yoldaşı və ananın nəcib və humanist vəzifələrini yerinə yetirməkdir. Yaradan elə qanun qoyub. Mülki cəmiyyətin məhz bu qaydası əsas kimi qəbul edilməlidir, qaydalardan istisna kimi deyil.

Mən müasir cəmiyyətdə qadınların inkişafı üçün imkanların və qadının statusuna, onun cinsinə müvafiq olan fəaliyyət növlərinin genişləndirilməsi məqsədi güdən humanist hərəkatı bütün qəlbimlə alqışlayıram, lakin bunu deyə bilmərəm ki, qadının əsas hüquqlarından və imtiyazlarından biri onun hər hansı işə və ya vəzifəyə, o cümlədən xüsusi ixtisas və məsuliyyət tələb edən işə və ya vəzifəyə qəbul edilməsidir. Təbiətən yaşından, cinsindən və statusundan asılı olmayaraq heç də hər bir vətəndaş istənilən peşə və ya vəzifə üçün mövcud tələblərə cavab vermir. Qanunvericilərin səlahiyyəti məhz ondan ibarətdir ki, xüsusi vərdiş və təcrübə tələb edən işə ixtisaslı vətəndaşların qəbul edilməsi üçün təbii, ağlabatan və məqsədəuyğun qaydalar nəzərdə tutsunlar.

Bütün bunlar haqlı olaraq müəyyən ictimai asayiş yaradılması üzrə Ştatın səlahiyyətlərinə daxildir. Məncə, qadınların məxsusi təbiətini, missiyasını və xassələrini nəzərə alaraq qanunverici orqan hansı işin, vəzifənin və ya məşğuliyyətin kişilər üçün qalmalı olduğunu nəzərdə tutmağa haqlıdır, çünki qanunverici orqan daha çox güclü cinsə xas olan enerji, məsuliyyət, qətiyyət və əzmkarlıqdan xeyir götürməyə haqlıdır.

Bu səbəbdən mən belə hesab edirəm ki, şikayətinə baxdığımız İllinoys Ştatının qanunları Birləşmiş Ştatların vətəndaşlarının heç bir imtiyazını və hüququnu məhdudlaşdırmır.

Mənbə: 16 Wallace 130 (1873)

Satış üçün nəzərdə tutulmayıb

63. Yeni Koloss (1883)

Emma Lezeres

Amerika Avropa sakinlərini həmişə özünə cəlb edirdi. Əvvəlcə əsasən Britaniya adalarının sakinləri, sonra isə Avropa qitəsinin sakinləri də buraya can atırdı. XIX əsrin ortalarında nəqliyyat imkanlarının genişlənməsi, eləcə də siyasi və iqtisadi hərc-mərcliklər yaxşı güzəran tapmaq ümidi ilə Amerikaya köçüb gələn adamların sayının xeyli artmasına səbəb olmuşdur.

1820-1920-ci illərdə təqribən 34 milyon nəfər Birləşmiş Ştatlara immiqrasiya etmiş, onların dörddə üç hissəsi həmişəlik orada qalmışdır. Bu köçkünlərin əksəriyyətinin qəlbində Amerika barədə ilk təəssürat Nyu-York limanındakı Azadlıq heykəli ilə bağlı idi. Fransız heykəltəraşı Frederik Ogüst Bartoldi *(Frederic Auguste Bartholdi)* tərəfindən hazırlanmış bu heykəl fransız xalqının dost töhfəsi olub, Fransa və Amerika xalqlarının azadlıq ideyalarına sədaqətinin rəmzi idi. 50 metr hündürlüyündə bu abidənin yaradılması üçün Fransa 400.000 dollar vəsait ayırmış, heykəlin 30 metr hündürlüyündə postamenti üçün isə Birləşmiş Ştatların əhalisi arasında daha 270.000 dollar ianə yığılmışdır. Maraqlıdır ki, 1886-cı il oktyabr ayında heykəlin açılışı zamanı söylənmiş nitqlərin heç birində immiqrantların adları çəkilməmişdir. Prezident Qrover Klivlend *(Grover Cleveland)* Fransa-Amerika dostluğu və amerikanların idealları barədə danışırdı.

Lakin yəhudi mənşəli amerikalı şairə Emma Lezeres *(Emma Lazarus)* bu heykəli dünyadakı bütün qalan insanlara tərəf yönəlmiş mayak kimi qəbul etmişdir. Heykəlin postamentinin tikilməsi üçün vəsait toplanmasına kömək etmək məqsədi ilə onun yazdığı şeir bu postamentin üzərində həkk edilərək ona bu gün də azadlığa qovuşmaq ümidi ilə Birləşmiş Ştatlarda qalmaqda davam edən milyonlarla köçkünün ürəyindən keçən mənanı vermiş oldu.

Müasir alimlərin çoxu qeyd etmişdir ki, bu şeirdə müəyyən qədər təkəbbür rəmzi vardır, lakin fakt ondan ibarətdir ki, yerli amerikalıların və o vaxtkı immiqrantların çoxu özlərini məhz Lezeresin təsvir etdiyi kimi – bədbəxt, simasız, səfil vəziyyətində görürdülər. Onların nəzərində Avropa – yoxsulluq və təqiblərin, Amerika isə demokratiya və imkanların rəmzi

Satış üçün nəzərdə tutulmayıb

idi. Polşalı immiqrant Henri Sinkeviç *(Henry Sienkiewicz)* yazırdı: "Başqa ölkələr immiqrantlara yalnız sığınacaq verir, bu torpaq isə immiqrantı öz övladı hesab edir və ona hüquqlar verir". Başqa bir immiqrant yazırdı: "Yoxsulluq, dözülməzlik və krallar immiqrantların qəlbində ikrah hissi oyadanda həmişə Amerika yada düşürdü!" .

Əlavə məlumat üçün oxuyun: Oscar Handlin, The Uprooted (1951; rev. ed. 1973); John Bodnar, The Transplanted (1985); Philip Taylor, The Distant Magnet (1971); John Higham, Stangers in the Land (1955); Leonard Dinnerstein and David Reimers, Ethnic Americans: A History of Immigration and Assimikation (1975).

"YENİ KOLOSS[115]"

Burada dünyanı fəth etmiş, qollarını geniş açmış qədim yunan
qəhrəmanın şərəfinə ucaldılan monument qoyulmayacaq.
Burada qürub vaxtı dənizin dalğaları ilə yuyulan darvaza önündə əlində
məşəl tutmuş qüdrətli bir qadının abidəsi ucaldılacaq.
Bu məşəlin alovu ram edilmiş şimşəyə oxşayacaq, o qadının adı isə
təqiblərə məruz qalan bütün insanların anasıdır.
Onun məşəlinin işığı bütün dünyaya nur saçır.
Qadın öz aydın baxışları ilə iki şəhərin arasındakı limanı seyr edir,
dodaqlarını tərpətmədən deyir:
"Ey köhnə dünya, öz möhtəşəmliyini özünə saxla,
yorğun, yoxsul, izdihamda nəfəsi təngiyən, sərbəst nəfəs almaq istəyən
bəndələrini isə mənə ver.
İnsanlarla dolu sahillərinin bədbəxt tullantılarını mənə ver.
Bu evsiz-eşiksiz, səfil insanları mənə ver,
Mən onların qızıl qapıya doğru gedən yollarını işıqlandıraram".

Mənbə: Emma Lazarus, The Poems of Emma Lazarus, vol. 1 (1889), 2.

Satış üçün nəzərdə tutulmayıb

64. Yik Vo Hopkinsə Qarşı (1886)

Çinlilər 1820-ci ildən etibarən Kaliforniyaya köçməyə başlamışdılar. Əlli il ərzində bu Ştatın əslən çinli olan əhalisinin sayı 49 000 nəfəri keçmişdi. 1880-ci ilə qədər bu rəqəm artıb 75 000 nəfərə çatmışdı ki, bu da Kaliforniya Ştatının bütün əhalisinin təqribən 10% demək idi. Ştatın çinli əhalisinin ümumi sayının 40% San-Fransisko buxtası rayonunda məskunlaşmışdı. Asiyalıların bu cür kütləvi şəkildə Kaliforniyaya üz tutması bu Ştatın Avropa və Latın Amerikası mənşəli sakinlərinin xoşuna gəlmirdi. Nəticədə həm Ştatın hakimiyyət orqanları, həm də yerli icmaların çoxu çinlilərə qarşı yönəlmiş ayrıseçkilik xarakterli qanunlar qəbul etməyə başladılar. Çinlilərə qarşı yönəlmiş ilk qanun 1853-cü ildə qəbul edilmiş "Əcnəbi şaxtaçılar üçün lisenziya vergisi haqqında akt" oldu. Bu vergi çinli şaxtaçıların çiyinlərində ağır bir yükə çevrildi. 1870-ci illərdə buna oxşar diskriminasiya qanunlarının qəbul edilməsi halları çoxaldı və nəticədə çinlilər müəyyən fəaliyyət növləri ilə məşğul olmaq hüququndan məhrum edildi. Üstəlik, Kaliforniya Ştatının 1877-ci ildə qəbul olunmuş Konstitusiyasına çinlilər əleyhinə yönəlmiş bir neçə müddəa daxil edilmişdir.

Çoxsaylı məhdudiyyətlər üzündən çinlilər biznesin müəyyən sahələrində cəmləşməyə başladılar: San-Fransisko rayonunda siqar istehsalı ilə məşğul olanların 97%, ayaqqabı istehsalı ilə məşğul olanların 84%, paltar istehsalı ilə məşğul olanların 88% və camaşırxana biznesi ilə məşğul olanların 89% çinlilər idi. Çinlilərin camaşırxana biznesi ilə məşğul olmaları heç də xoş güzəran üzündən deyildi. Onlar orada işləyərkən həmişə özlərinə qarşı düşmən ovqatlı müştərilərlə üzləşirdilər. Eyni zamanda, cəmiyyətdə sensasiyalı xəbərlər yayılır, bildirilirdi ki, camaşırxanalar tiryək çəkmək və fahişəlik kimi əxlaqsız fəaliyyətlə məşğul olmaq üçün yalnız zahiri pərdədir, hərçənd, camaşırxanaların əksəriyyəti kiçik ailə müəssisələrinin bir hissəsi idi.

Az sonra San-Fransiskonun hökumət orqanları taxta binalarda yerləşən camaşırxanaların Müşahidə Şurasının icazəsi olmadan fəaliyyət göstərməsini qadağan edən fərman qəbul etdi. Eyni zamanda, kərpicdən və ya daşdan tikilmiş binalardakı camaşırxanalardan bu cür icazə tələb edilmirdi. Bu fərmanın qəbul edilməsi, ictimai asayişin qorunması baxımından tamamilə əsaslı tədbir təsiri bağışlayırdı, çünki XIX əsrdə San-Fransiskonu və digər şəhərləri bürümüş

Satış üçün nəzərdə tutulmayıb

yanğınlar zamanı taxta tikililərin çoxu zərər çəkmişdi. O dövrdə şəhərdəki 320 camaşırxananın 95% çoxu taxta binalarda yerləşirdi və onların üçdə iki hissəsi çinlilərə məxsus idi.

Müşahidə Şurası mənşəcə çinli olmayan camaşırxana sahiblərinin demək olar ki, hamısının taxta camaşırxanaları istismar etmələrinə icazə verdiyi halda, bu cür camaşırxanaları olan 200 nəfər çinlinin heç birinə müvafiq icazə vermədi. İcazə verilməsindən imtina edilmiş camaşırxana sahiblərindən biri də çinli immiqrant, uzun illər boyu bu şəhərdə özünün camaşırxanası olmuş Yik Vo *(Yick Wo)* idi. Lakin o öz işini davam etdirirdi, buna görə də sözügedən fərmanı pozduğu üçün onu həbs edib cəzalandırdılar.

Ölkənin Ali Məhkəməsi bu hökmü ləğv etdi, lakin hökm həmin fərmanın çinlilərə münasibətdə diskriminasiya xarakterli olduğuna görə deyil, onun icrasının diskriminasiya xarakterli olmasına görə ləğv edildi. "Yik Vo Hopkinsə qarşı" işi *qanunun tətbiq edilməsi prosesində diskriminasiya* məqamları olmasının Ali Məhkəmə tərəfindən etiraf edildiyi ilk iş idi. 1960-cı ildə afro-amerikalılara münasibətdə diskriminasiyalı qanunlar ləğv edilərkən yenə eyni texnikadan istifadə edilmişdir .

Əlavə məlumat üçün oxuyun: G. Barth, *Bitter Strength: A History of the Chinese in the United States, 1850-1870* (1964); A. Saxton, *The Indispensable Enemy: Labor and the Anti-Chinese Movement in California* (1971); and H.T. Shih-shan, *The Chinese Experience in America* (1986).

YİK VO HOPKİNSƏ QARŞI

Hakim Metyuz Ali Məhkəmənin rəyini açıqladı.

İddiaçının Kaliforniya Ali Məhkəməsi tərəfindən bizə verilmiş işdə bizim yurisdiksiyamız belə bir məsələni aydınlaşdırmaqdan ibarətdir: iddiaçının hüququndan imtina edilməsi Birləşmiş Ştatların Konstitusiyasının, qanunlarının və sazişlərinin pozulması deməkdir ya yox...

Buna görə də biz lap əvvəldən məcburuq ki, nəzərdən keçirilən fərmanların əsl mahiyyəti barədə Kaliforniya Ali Məhkəməsi ilə razılaşmayaq. Kaliforniya Məhkəməsi belə hesab etmişdir ki, bu fərmanlar Müşahidə Şurasına taxta binalardan camaşırxanalar kimi istifadə edilməsinə icazə vermək və ya bundan imtina etmək səlahiyyətləri verir. Məhkəmə qeyd etmişdir ki, Müşahidə Şurası yanğın təhlükəsizliyini təmin etmək məqsədilə, konkret şəraitdən asılı olaraq, bu səlahiyyətlərindən istifadə edə bilər.

Satış üçün nəzərdə tutulmayıb

Biz Şuranın səlahiyyətlərinin bu cür yozulması ilə razılaşa bilmərik. Bu fərmanlarda camaşırxana işinin aparılması qaydaları barədə heç nə deyilməmişdir. Görünür, həmin fərmanlar Şuraya hər bir konkret işin hallarını nəzərdən keçirmək səlahiyyətləri verilməsi üçün deyil, Şuraya icazə vermək və ya icazə verilməsindən imtina etmək barədə hər hansı hakimiyyət vermək üçün düşünülmüşdür. Özü də bu sərbəstlik müəyyən yerlərdən daha çox, konkret şəxslərə münasibətdən asılıdır. Deməli, bu cür icazə istəyən (cəmiyyətin mənafelərindən irəli gələn bütün ağlabatan tələblərə cavab verən) sərişẗəli və ixtisaslı şəxs rədd cavabı alandan sonra yuxarı instansiya məhkəməsi vasitəsilə tələb edəcəkdir ki, Şura onun işinə yenidən baxsın. Bu halda Şura üzvlərinin bunu deməsi kifayətdir ki, qanun onlara icazə verilməsindən imtina etmək, bunun səbəblərini göstərməmək və bu cür imtinaya görə hər hansı məsuliyyət daşımamaq ixtiyarı vermişdir. Şuranın üzvləri özlərinin bu səlahiyyətlərini hər hansı hüquq prinsipi əsasında deyil, yalnız öz istədikləri kimi həyata keçirirlər. Bu cür səlahiyyətlər əsl özbaşınalıqdır və onlar hər hansı qaydaları və ya məhdudiyyətləri istisna edirlər...

Bu işdə barəsində mübahisə açılmış fərmanda… camaşırxanaların işi üçün bu biznesin subyektlərinin istisnasız olaraq hamısının əməl etməli olduğu hər hansı qaydalar və şərtlər müəyyən edilməmişdir. Fərmanda kərpic və daş binalardan bu məqsədlə istifadə edilməsi üçün heç bir məhdudiyyət nəzərdə tutulmur. Camaşırxana kimi istifadə edilən binaların böyük əksəriyyətini təşkil edən taxta binalara münasibətdə isə sözügedən fərman həmin binaların sahiblərini və kirayəçilərini iki kateqoriyaya bölür. Özü də bu bölgü həmin şəxslərin fərdi keyfiyyətlərinə və ya ixtisas səviyyəsinə, onların istifadə etdikləri binaların vəziyyətinə və xarakterinə deyil, ixtiyari şəkildə çəkilmiş bir xəttə əsaslanır. Şuranın üzvləri bu xəttin bir tərəfində yerləşənlərin öz biznesi ilə məşğul olmalarına icazə vermişlər, xəttin o biri tərəfindəki insanların həmin işlə məşğul olmalarına bu cür icazə verilməsindən isə, Şura üzvlərinin istəyinə görə, imtina edilmişdir. Bu iki kateqoriyanı birləşdirən yeganə cəhət ondan ibarətdir ki, onların dolanışıq vəsaitləri Şura üzvlərinin istəyindən asılıdır. Bu fərman qəlyanaltıxanaların və alkoqollu içkilər satılan yerlərin fəaliyyəti üçün icazə verilməsi və ya bundan imtina edilməsi barədə qərar qəbul etmək məsələsi məmurların və ya dövlət orqanlarının mülahizəsinə həvalə edildiyi hallardan da fərqlənir. Bu fərman ərizəçiyə təqdim edilən şərtlərdən biri – onun müəyyən "imtiyaz əldə etmək üçün müvafiq olması" halından da fərqlənir, çünki belə işlərdə "müvafiqlik" məsələsi məmurun mülahizəsinə verilmiş olsa da, bu məsələnin həllinin hüquqi əsası olmalıdır.

Satış üçün nəzərdə tutulmayıb

Beləliklə, bu fərmanın tətbiq edilməsi nəticəsində iddiaçıların hüquqları yalnız ona görə tapdanmış olur ki, onlar əcnəbidirlər və Çin imperatorunun təbəələridirlər...

Konstitusiyaya XIV Düzəliş təkcə ölkə vətəndaşlarının hüquqlarının müdafiəsi ilə məhdudlaşmır. Həmin düzəlişdə deyilir: "…heç bir Ştat hər hansı bir şəxsi lazımi hüquqi prosedur olmadan həyatdan, azadlıqdan və əmlakdan məhrum edə bilməz, yaxud öz yurisdiksiyası çərçivəsində hər hansı bir şəxsi qanunlarla bərabər səviyyədə qorumaqdan imtina edə bilməz". Bu müddəalar Birləşmiş Ştatların ərazi yurisdiksiyası hüdudunda hər yerdə, irqindən, dərisinin rəngindən və vətəndaşlığından asılı olmayaraq bütün şəxslərin barəsində tətbiq edilir; "qanun tərəfindən hamı üçün bərabər müdafiə" isə "eyni qanunlar tərəfindən müdafiə" olunmağın təminatıdır. Məsələn, "yeniləşdirilmiş qanunlar toplusu"nun 1977-ci paraqrafında deyilir:

> "Birləşmiş Ştatların yurisdiksiyasında olan bütün şəxslər ölkənin bütün ştatlarında və ərazilərində sazişlər bağlayarkən və onları həyata keçirərkən, məhkəmə iddiası verərkən, məhkəmədə tərəflərdən biri qismində çıxış edərkən, şahid ifadələri verərkən eyni hüquqlara malik olmalı, eləcə də şəxsi təhlükəsizliyini və əmlakını qorumaq üçün ağdərili vətəndaşların istifadə etdikləri qanunlardan və hüquq aktlarından tamamilə və eyni dərəcədə istifadə etmək imkanına malik olmalı və ağdərili vətəndaşlarla eyni cəzalara, mənəvi cəzalara, cərimə sanksiyalarına, vergitutmalara, lisenziyalaşdırılmağa, tənbehlərə məruz qalmalı və heç bir başqa tədbirə məruz qalmamalıdırlar".

Deməli, bu işlərdə bizim baxmalı və həll etməli olduğumuz məsələlər – Birləşmiş Ştatların vətəndaşlarının hüquqları ilə əcnəbilərin və başqa dövlətin müdafiə olunmaq üçün hazırda bu məhkəməyə müraciət etmiş təbəələrinin hüquqlarının bərabər olması məsələləridir.

İddiaçılar bildirirlər ki, onların pozduğu və buna görə ciddi cəzalandırıldığı bu fərman etibarsızdır, çünki o, Konstitusiyaya XIV Düzəlişlə qadağan edilən məsələlərə aiddir; yaxud belə olmasa da, həmin fərman ona görə etibarsızdır ki, onun tətbiqində ayrı-seçkilik edilmiş və nəticədə iddiaçılar başqaları üçün qanuni hesab edilərək icazə verilmiş eyni fəaliyyətlə məşğul olduqlarına görə cəzalandırılmışlar; bu isə, fərmanda ifadə edilmədiyinə baxmayaraq, iddiaçılara münasibətdə həyata keçirilmiş ədalətsiz və qanunsuz ayrı-seçkilikdir...

...Baxdığımız işlərdə biz güman edilən və faktiki məqamları müqayisə etməli deyilik, biz burada həmin fərmanların qanuni olub-olmaması barəsində qərar qəbul etməliyik. Həmin fərmanlarda mövcud qeyd-şərtlərə

Satış üçün nəzərdə tutulmayıb

görə, onların tətbiq edilməsi hüquq bərabərliyinin pozulmasına və ədalətsiz ayrı-seçkiliyə gətirib çıxarır. Bu işlər həmin fərmanların real təsirini bizə əyani şəkildə göstərir, müəyyən olunmuş faktlar isə onu təsdiq edir ki, bu fərmanların təsiri yalnız müəyyən kateqoriyaya aid insanlara qarşı yönəlmişdir. Bütün bunlar belə qənaətə gəlməyə əsas verir ki, həmin fərmanların hansı niyyətlərlə verilməsindən asılı olmayaraq, onların müvafiq səlahiyyətlər verilmiş və deməli, Ştatın özünü təmsil edən məmurlar tərəfindən tətbiq edilməsi o qədər qərəzli və qəddar olmuşdur ki, bu, hər kəsin qanunla bərabər müdafiə olunması prinsipinin Ştat tərəfindən pozulmasına gətirib çıxarmışdır. Halbuki Birləşmiş Ştatların Konstitusiyasına XIV Düzəlişin dəqiq təsbit olunmuş humanist müddəalarına görə, bütün başqa şəxslər kimi iddiaçılar üçün də bu cür müdafiəyə təminat verilir. Qanun zahirən hətta ədalətli və qərəzsiz görünsə də, hakimiyyət orqanları isə onu pis niyyətlə və qərəzli şəkildə tətbiq edəcəklərsə və bu, faktiki olaraq, vətəndaşların hüquqlarının ədalətsiz və qanunsuz olaraq pozulmasına gətirib çıxaracaqdırsa, bu hal da qanun qarşısında bərabərlik prinsipinin Konstitusiya ilə qadağan olunmuş pozulması hesab edilməlidir.

Müəyyən olunmuş faktlar göstərir ki, bu işlər məhz həmin qəbildəndir. Aşkardır ki, iddiaçıların hər ikisi yaxınlıqdakı əmlakın yanğından qorunması və ya sanitar normalara əməl edilməsi barədə qanunun və səlahiyyətli dövlət qulluqçularının bütün tələblərini yerinə yetirmişlər. Və iddiaçıların bu zərərsiz və faydalı, üstəlik, onların yeganə dolanacaq mənbəyi olan fəaliyyətinin qadağan edilməsi üçün heç bir səbəb (Şura üzvlərinin bunu istəməməsindən başqa) yoxdur. Şuranın üzvləri bu iki nəfərin, eləcə də, məhkəməyə müraciət etmiş daha iki yüz nəfər Çin təbəəsinin işləməsinə icazə verilməsindən imtina etdikləri halda, Çin təbəəsi olmayan və eyni şəraitdə olan digər səksən nəfər bu cür icazə almışdır. Ayrı-seçkilik faktı göz qabağındadır. Ona bəraət verə biləcək heç bir səbəb göstərilməmişdir. Bu da aşkardır ki, burada iddiaçıların irqinə və vətəndaşlığına düşmən münasibətdən başqa heç bir səbəb yoxdur, bu cür münasibət isə qanunla qadağan edilmişdir. Deməli, bu cür ayrı-seçkilik edilməsi qanunsuzdur və hakimiyyət orqanlarının hərəkətləri qanun tərəfindən hamı üçün bərabər müdafiə prinsipindən imtina edilməsi və Konstitusiyaya XIV Düzəlişin pozulması deməkdir. Buna görə də iddiaçıların həbsxanaya salınması qanunsuzdur və onlar azad edilməlidir.

Mənbə: 118 U.S. 356 (1886).

Satış üçün nəzərdə tutulmayıb

65. Korematsu Birləşmiş Ştatlara Qarşı (1944)

İkinci Dünya müharibəsinin əvvəlində Yaponiya Pörl Harbora hücum edən vaxtda ölkənin qərb sahillərində Asiya mənşəli immiqrantlara qərəzli münasibət kifayət qədər uzun tarixə malik idi. Bu hücumdan dərhal sonra bir neçə həftə ərzində cəmiyyətdə belə tələblər səslənməyə başladı ki, yapon mənşəli amerikalılar – istər yaxın vaxtlarda vətəndaşlığı qəbul edənlərin, istərsə də Birləşmiş Ştatlarda doğulanların hər biri "təxribatçı" və ya "casus" ola bilər və buna görə də yapon qoşunları qərb sahillərinə soxulmamış bu şəxslər oradan sürgün edilməlidir. Bu halda heç kəsi maraqlandırmırdı ki, bu adamlardan heç olmasa birinin Birləşmiş Ştatların mənafelərinə hər hansı təhlükə yaratmaqda əli olmasını təsdiq edən heç bir sübut yox idi. Hətta çox möhtərəm qəzet icmalçısı Uolter Lippman *(Walter Lippmann)* öz oxucularını inandırırdı ki, "vətəndaşların konstitusion hüquqları onların döyüş əməliyyatları zonasında yaşamasını və bizneslə məşğul olmasını nəzərdə tutmamışdır. Bu hüquqların həyata keçirilməsi üçün başqa yerlər çoxdur".

1942-ci il fevralın 19-da prezident F.D. Ruzvelt 9066 saylı fərman imzalayaraq müdafiə nazirinə bir vəzifə kimi tapşırmışdır ki, ölkə ərazisinin "döyüş əməliyyatları zonası" olan, orada yaşayan şəxslərin qismən və ya tamamilə köçürülə biləcəyi və onların hərəkətinə məhdudiyyətlər tətbiq edilə biləcəyi sahələri göstərsin. Bir neçə həftədən sonra qərb cəbhəsinin komandanı general Con L. DeVitt *(John L. DeWitt)* "döyüş əməliyyatları zonası" kimi Sakit okeanın bütün sahillərini göstərmiş və bunu onunla əsaslandırmışdı ki, hücum ediləcəyi təqdirdə bütün sahilyanı ərazi zərər çəkə bilər. Bu zonada komendant saatı tətbiq edildi və yapon mənşəli amerikalıların əvvəlcə həmin yerləri tərk etmələri, sonra isə orada olmaları qadağan edildi. Amerikada yaşayan yaponlar üçün bu ziddiyyətli əmrlərin hər ikisini yerinə yetirməyin yeganə üsulu – ölkənin içərilərində yerləşən, sürgün edilmiş şəxslər üçün nəzərdə tutulan düşərgələrə köçürülməyə razılıq vermək idi.

Köçürülmə proqramının yerinə yetirilməsi gedişində 110 000 kişi, qadın və uşaq, faktiki olaraq, həbsxanalara göndərilmişdi. Bu, Amerikanın tarixində federal hökumət

Satış üçün nəzərdə tutulmayıb

tərəfindən insan hüquqlarının ən ciddi şəkildə pozulması idi. Bütün bu əməliyyat irqçilərin belə bir inamına əsaslanırdı ki, yapon mənşəli adamların hamısı satqındır.

Qədim bir zərb-məsəldə deyildiyi kimi, "müharibə dövründə qanun lal olur". Doğrudan da, nisbətən yaxın vaxtlarda azlıqların hüquqlarının müdafiəsində daha mühüm rol oynamağa başlamış Ali Məhkəmə müharibə dövründə hökumətin zəruri hesab etdiyi tədbirlərin həyata keçirilməsinə çox könülsüz müdaxilə edirdi. Məhkəmə köçürülmə haqqında əmrlərin Konstitusiyaya müvafiqliyi ilə bağlı üç işə baxmışdır. "Hirabayaşi Birləşmiş Ştatlara qarşı" (1943) adlı birinci işdə Məhkəmə komendant saatı tətbiq olunmasının qanuniliyini təsdiq etmiş, lakin köçürülmənin uzunmüddətli nəticələri barədə qətnamə çıxarmamışdır.

"Korematsu Birləşmiş Ştatlara qarşı" adlı ikinci işdə Məhkəmə artıq belə bir əsas məsələyə məhəl qoymaya bilmədi ki, loyal vətəndaşları yalnız onların irqi mənsubiyyəti əsasında sürgün düşərgələrinə kütləvi şəkildə köçürmək olarmı? Məhkəmə üzvlərinin əksəriyyəti hakim Bləkin *(Black*) bu fikri ilə razılaşmışdır ki, hərbi zərurət bu cür addımlara bəraət verir, lakin hakimlər Frenk Merfi, Ouen C.Roberts və Robert H.Cekson *(Frank Murphy, Owen J. Roberts, Robert H. Jackson)* məhkəmənin qərarı ilə razı olmadılar. Hakim Merfi öz çıxışında belə "irqçiliyin leqallaşdırılmasını" pisləmişdir. Bu çıxışın mətni aşağıda verilir.

Elə həmin gün Ali Məhkəmə məhbus Mitsuye Endonun məhkəməyə gətirilməsi barədə sərəncamı *(write of habeas corpus*) yekdilliklə qəbul etdi. Loyallığı əsla şübhə doğurmayan bu vətəndaş onun həbs edilməsinin qanuniliyi məsələsinə baxılmaq üçün məhkəməyə gətirilməli idi. Məhkəmənin Hirabayaşi və Korematsunun işləri üzrə qərarları vətəndaş azadlıqlarının tərəfdarları və hüquqşünaslar tərəfindən dərhal kəskin tənqid edildi. Həmin qərarlara neqativ münasibət bu gün də davam edir.

Bu köçürmə barədə düşüncələr müharibə başa çatandan sonra da amerikalılara vicdan əzabı verməkdə davam edirdi. 1948-ci ildə Konqres "Köçürülmüş yapon mənşəli amerikalılara vurulmuş ziyanın ödənilməsi haqqında Akt" qəbul etməklə bu ədalətsizliyin aradan qaldırılması yolunda ilk addım atdı. Həmin akta əsasən, köçürülmə haqqında əmrin yerinə yetirilməsi nəticəsində öz evlərini və bizneslərini itirmiş insanlara pul təzminatı ödənilməli idi. 1980-ci ildə Konqres bu köçürülmə məsələsini yenidən qaldırdı və bun-

Satış üçün nəzərdə tutulmayıb

dan sonra axın-axın insanlar, çoxları ömründə ilk dəfə, həmin hadisələr dövründə məruz qaldıqları məhrumiyyətlər və psixoloji travmalar barədə danışdılar. Konqresin qəbul etdiyi "Şəxsi azadlığın tapdanması" (1983) adlı yekun hesabatında "hərbi zərurətin bu cür köçürülmə faktına bəraət verdiyi" etiraf olunmuş və qeyd edilmişdir ki, Ali Məhkəmənin qərarının səhv olması "tarixin məhkəməsi tərəfindən sübut edilmişdir" .

Əlavə məlumat üçün oxuyun: Peter Irons, Justice at War (1983); Morton Grodzins: A mericans betrayed: Politics and the Japanese Evacuations (1949); Commission on Wartime Relocation, Personal Justice Denied (1983).

KOREMATSU BİRLƏŞMİŞ ŞTATLARA QARŞI

Hakim Blək Ali Məhkəmənin rəyini açıqladı.

Əvvəlan qeyd etmək lazımdır ki, hər hansı irqi qrupun mülki hüquqlarına toxunan bütün hüquqi məhdudiyyətlər bizdə dərhal şübhə doğurur. Lakin bu hələ o demək deyildir ki, bu cür məhdudiyyətlərin hamısı Konstitusiyaya ziddir. Bu yalnız o deməkdir ki, məhkəmələr həmin məhdudiyyətləri xüsusi diqqətlə yoxlamalıdırlar. Bu cür məhdudiyyətlərin mövcud olmasına bəzən ictimai zərurətlə əlaqədar bəraət verilə bilər, lakin irqi antaqonizmə görə – əsla...

Yapon mənşəli insanların köçürülməsi bu cür şəxslər qrupunda müəyyən sayda qeyri-loyal nümayəndələrin mövcud olması ilə əlaqədar zəruri hesab edilmişdir. Eyni zamanda, onların çoxusunun bizim ölkəyə loyal olması şübhə doğurmur. Əfsus ki, biz hərbi hakimiyyət orqanlarının belə bir dəlilini təkzib edə bilməmişik ki, loyal şəxsləri qeyri-loyal şəxslərdən çox qısa bir müddətdə ayırmaq mümkün deyildir və məhz buna görə də həmin qrupun bütün nümayəndələrinə münasibətdə komendant saatı tətbiq edilməsinin qanuni sayılması ilə razılaşmalı olmuşduq. İndiki halda hərbi hakimiyyət orqanları məhz həmin mülahizələr əsasında bu qrupun müvəqqəti köçürülməsi barədə qərar qəbul etmişdir. Beləliklə, yuxarıda göstərilən səbəblər üzündən bu qrupun köçürülməsi fikri hərbi zərurətdən irəli gəlmişdir və o, bəzi şəxslərin belə bir fikrinə cavabdır ki, köçürülmə, guya yapon mənşəli şəxslərə münasibətdə düşmənçilikdən irəli gələn bir növ qrup halında cəza tədbiri olmuşdur. Həmin qrupun nümayəndələri

Satış üçün nəzərdə tutulmayıb

arasında Yaponiyaya sadiqliyini qoruyub saxlamış insanların olması artıq köçürülmədən sonra aparılmış təhqiqatın gedişində müəyyən edilmişdir. Yapon mənşəli Amerika vətəndaşlarının təqribən beş min nəfəri Birləşmiş Ştatlara sədaqət andı içməkdən və Yaponiya İmperatoruna sadiq qalacaqları barədə andlarını geri götürməkdən imtina etmiş, evakuasiya edilmiş şəxslərdən bir neçə min nəfəri isə özlərinin Yaponiyaya repatriasiya olunmalarını xahiş etmişlər.

Biz insanların köçürülməsi haqqında bu qərarın verilməsi ilə onun iddiaçı tərəfindən pozulması arasındakı müddətdə bu qərarı dəstəkləyirik... Bu halda biz həmin qərarla vətəndaşların böyük bir qrupunun məruz qaldığı məhrumiyyətləri unutmuruq... Lakin bu məhrumiyyətlər müharibənin bir hissəsidir, müharibədə belə halların olması labüddür. Bütün vətəndaşlar – istər hərbi qulluqçular olsun, istər mülki şəxslər müharibənin nəticələrini öz üzərilərində hiss edirlər – kimi çox, kimi nisbətən az dərəcədə. Vətəndaş olmağın öz üstünlükləri var, lakin onun öz vəzifələri də var. Müharibə dövründə bu vəzifələrin yükü həmişə daha ağır olur. Vətəndaşların böyük bir qrupunun məcburi qaydada öz evlərindən köçürülməsi, fövqəladə təhlükə halları istisna olmaqla, dövlətimizin əsas prinsipləri ilə bir araya sığmır. Lakin müasir müharibə şəraitində, düşmən qüvvələr bizim sahillər üçün təhlükə doğurduğu bir vaxtda şəxsiyyətin müdafiə edilməsi hüququ bu cür təhlükə ilə müqayisə edilə bilən olmalıdır...

Bəziləri bildirirlər ki, indiki halda biz vətəndaşın yalnız mənşəyini əsas götürməklə və onun Birləşmiş Ştatlara münasibətdə loyallığını və rəğbətini yoxlamadan, hər hansı sübutlar olmadan onu həbs düşərgələrinə göndərmişik. Əgər biz loyal vətəndaşın irqi mənsubiyyətinə görə onun cəza düşərgəsinə göndərilməsi ilə üzləşmiş olsaydıq, onda işimiz daha asan, vəzifəmiz daha aydın olardı. Lakin burada biz nə bu düşərgələrin, nə də köçürülmənin həqiqi mahiyyətini öyrənirik (biz həmin düşərgələrin cəza düşərgələri adlandırılmasını düzgün hesab etmirik, bu sözdə çox xoşagəlməz bir məna var), biz yalnız köçürülmə barədə qərarın qanuniliyi məsələsinə baxırıq.

Biz bu işə irqi ayrı-seçkilik prizmasından baxsaq və üzləşdiyimiz hərbi təhlükəni nəzərə almasaq, məsələnin mahiyyətini yalnız dolaşdırmış olarıq. Korematsunun döyüş əməliyyatları zonasından köçürülməsi ona və ya onun mənsub olduğu irqə münasibətdə qərəzlilik üzündən baş verməmişdir. Korematsu ona görə köçürülmüşdür ki, biz Yaponiya İmperiyası ilə müharibə vəziyyətindəyik; Korematsu ona görə köçürülmüşdür ki, qanuni yolla təyin edilmiş hərbi hakimiyyət orqanları ölkəmizin qərb sahillərinə müdaxilə olunacağından ehtiyat edirdilər və başqa zəruri təhlükə-

Satış üçün nəzərdə tutulmayıb

sizlik tədbirləri görmək iqtidarında deyildilər; onlar bu qənaətə gəlmişdilər ki, fövqəladə hərbi vəziyyət yapon mənşəli bütün vətəndaşların ölkənin qərb sahillərindən çıxarılmasını tələb edirdi və nəhayət, Korematsu ona görə köçürülmüşdür ki, Konqres hərbi dövrdə bizim hərbi liderlərə müvafiq səlahiyyətlər verməklə (Konqres bunu çox düzgün edib) bu qərara gəlmişdir ki, onlar məhz bu cür hərəkət etmək səlahiyyətinə malik olmalıdırlar. Yaponların bəziləri tərəfindən qeyri-loyallıq əlamətləri müşahidə edildiyinə görə, hərbi hakimiyyət elə hesab etmişdir ki, hərəkət etmək lazımdır və vaxt azdır. Bugünkü sakit vəziyyətdən keçmişə nəzər salaraq, o dövrdə qəbul edilmiş qərarların əsassız olduğunu söyləmək düzgün olmazdı.

Hakim Merfi razılaşmır.

"Həm əcnəbi, həm də ölkə vətəndaşları olan yapon mənşəli bütün şəxslərin" hərbi vəziyyət olmadığı halda hərbi zərurət səbəbindən Sakit okean sahillərindən köçürülməsinə haqq qazandırmaq olmaz. Bu cür köçürülmə "Konstitusiya ilə verilən səlahiyyətlər hüdudundan kənara çıxır" və eybəcər irqçilik uçurumuna doğru aparır.

Biz müharibənin aparılması üsullarına və onun gedişinə aidiyyəti olan məsələlərlə işləyərkən döyüş əməliyyatları zonasında olan və hərbi vəziyyət barədə tam informasiyaya malik olan hərbi hakimiyyətin qərarlarını xüsusən ehtiyatla və diqqətlə nəzərdən keçirməliyik. Onların fəaliyyət göstərmək imkanları, cari zərurət və sağlam düşüncə nəzərə alınmaqla, kifayət qədər geniş olmalıdır; onların qəbul etdiyi ölkənin varlığı üçün vacib olan qərarlar hazırlıqsız insanlar tərəfindən düşünülməmiş şəkildə ləğv edilə bilməz.

Eyni zamanda, hərbi hakimiyyətin səlahiyyətlərinin, xüsusən hərbi vəziyyət elan edilmədiyi hallarda, müəyyən hüdudu olmalıdır. Vətəndaşlar əslində mövcud olmayan və lazımı qaydada tanınmamış hərbi zərurət üzündən özlərinin konstitusion hüquqlarından məhrum edilməməlidirlər...

Bu məcburi köçürmə çox cəhətdən real hərbi zərurətin nəticəsi deyil, irqi təqsirkarlıq barədə yanlış fərziyyənin nəticəsi olmuşdur. Bunu "Komandan generalın Sakit okeanın sahil zonasından evakuasiya haqqında yekun hesabatı" da təsdiq edir. Bu hesabatda general yapon mənşəli bütün insanları "təxribatçı" adlandırır, onların "irqi xüsusiyyətləri hələ də əriyib getməmiş" "düşmən irqə" mənsub olması iddia edilir. Beləliklə, onlar Sakit okeanın sahil zonasında "sərbəst özbaşınalıq edən 112 000-dən çox potensial düşmən" adlandırılır. Lakin bu hesabatda yapon mənşəli bütün

Satış üçün nəzərdə tutulmayıb

şəxslərin əsassız ittiham edilməsinə baxmayaraq, bu insanların qeyri-loyal olmasını, ölkənin bu hissəsində onların davranışının silahlı qüvvələrə və ya hərbi sənayeyə təhlükə törətməsini və ya bu insanların öz davranışı ilə onların hamısının köçürülməsi üçün kifayət qədər əsas verdiklərini göstərən heç bir sübut təqdim edilməmişdir.

Bunun əvəzinə, həmin köçürülməyə haqq qazandırmaq cəhdlərinin əksəriyyəti adətən hərbi rəhbərlərin səlahiyyətlərinə daxil olmayan və kifayət qədər mübahisəli olan irqi və sosioloji arqumentlərə, eləcə də dolayı dəlillərdən istifadə edilməsi ilə əlaqədar olan yarımhərbi xarakterli müəyyən nəticələrə əsaslanır. Əlbəttə, Sakit okean sahillərində yapon mənşəli müəyyən sayda qeyri-loyal şəxslərin mövcud olması, onların var qüvvə ilə öz tarixi vətənlərinə kömək etməsi faktını heç kəs inkar etmir. Lakin alman və italyan mənşəli şəxslərin və hətta daha əvvəl məskunlaşan adamların arasında da qeyri-loyal fəaliyyətlə məşğul olanlar aşkar edilmişdir. Ayrı-ayrı şəxslərin qeyri-loyal olması ilə bütün qrupun qeyri-loyal olmasını eyniləşdirmək və bütün qrupa münasibətdə ayrı-seçkilik tədbirlərinə haqq qazandırıldığını iddia etmək bizim hüquq sisteminin belə bir prinsipinin pozulması demək olardı ki, "hüquqların məhdudlaşdırılması üçün yalnız şəxsən təqsirkarlıq əsas ola bilər"...

Sakit okean sahillərindəki hərbi komandanlığın niyyətləri bəlkə də ən nəcib niyyətlər olmuşdur, lakin əgər biz onun köçürülmə barədə dəlillərini Konstitusiyaya müvafiq hesab etsək, onda biz insan ləyaqətinin tapdanması üçün düşmənlərimiz tərəfindən tətbiq edilən, insanlığa zidd məntiqlə razılaşmış və gələcəkdə başqa azlıqlara qarşı ayrı-seçkilik hərəkətləri edilməsinə yol açmış olarıq...

Buna görə də mən irqçiliyin bu cür leqallaşdırılmasının əleyhinəyəm. Bizim demokratik həyat tərzimizdə irqi ayrı-seçkiliyin heç bir təzahürünə yer yoxdur və ola da bilməz. İrqi ayrı-seçkilik heç bir mühitdə xoşagələn hal deyildir, lakin Birləşmiş Ştatların Konstitusiyasının prinsiplərinə riayət edən azad insanlar mühitində bu hal xüsusilə iyrənc görünür. Bizim bütün vətəndaşlar – kimi öz mənşəyinə görə, kimi də mədəni tellərlə başqa ölkələrlə bağlıdır. Buna baxmayaraq, onlar hər şeydən əvvəl və başlıca olaraq Birləşmiş Ştatların yeni, başqalarından fərqlənən sivilizasiyasının tərkib hissələridir. Deməli, onlara Amerika eksperimentinin varisləri kimi, Konstitusiya ilə təminat verilən hüquq və azadlıqların sahibləri kimi yanaşmaq lazımdır.

Mənbə: 323 U.S. 214 (1944)

Satış üçün nəzərdə tutulmayıb

Satış üçün nəzərdə tutulmayıb

66. Cənublu Baptistlərin Liderlərinə Müraciət (1960)
Con Kennedi

Protestant immiqrantlar "Yeni Dünya"ya gələrkən özləri ilə çox şey, o cümlədən Roma katolisizminə inamsızlıq hissi də gətirmişdilər. Düzdür, "Yeni Dünya"nın ilk sakinləri arasında katoliklər də vardı, lakin sonradan Birləşmiş Ştatlara çevrilmiş 13 koloniyada katoliklər azlıq təşkil edirdi. Yalnız XIX əsrin ortalarında bu ölkəyə çoxsaylı katoliklər miqrasiya etməyə başlayanda burada güclü və eybəcər bir sosial-siyasi fenomen – antikatolisizm fenomeni yarandı.

XIX əsrin ikinci yarısında irlandiyalı katoliklər həm yerli səviyyədə, həm də ştatlar səviyyəsində siyasətdə mühüm rol oynamağa başlamışdır. Lakin ölkə prezidenti vəzifəsini tutmağa cəhd göstərən ilk katolik yalnız 1928-ci ildə prezident seçkilərində ABŞ-ın Demokratlar Partiyasının çox populyar namizədi, Nyu-Yorkun qubernatoru Alfred Emanuel Smit *(A.E. Smith)* olmuşdu. Katoliklərə qarşı qərəzli münasibət və katolik prezidentin Roma Papasının əmrlərinə tabe olacağından ehtiyat edilməsi Smitin seçkilərdə məğlubiyyətini qabaqcadan müəyyən etmişdi. Metodist kilsəsinin yepiskopu Adna Leonard bu barədə belə demişdi: "Papanın üzüyünü öpən heç bir qubernator Ağ Evin həndəvərinə də yaxınlaşa bilməz". Liberal protestantlar da narahat olmuşdu. Bununla əlaqədar, protestantların nüfuzlu "Xristian yüzilliyi" jurnalı yazırdı: "Yabançı mədəniyyətin təmsilçisini, orta əsrlər dövründən qalma latın mentallığının, antidemokratik iyerarxiyanın və əcnəbilərin təsiri altında olan bir şəxsin Birləşmiş Ştatların Prezidenti kimi yüksək bir vəzifə tutmasına laqeyd qalmaq olmaz".

A.Smitin seçkilərdə məğlub olması uzun müddət katolikləri Ağ Ev uğrunda mübarizədən kənarlaşdırdı. Yalnız 1964-cü ildə Con Kennedi *(John Fitzgerald Kennedy)* Demokratlar Partiyasından özünün prezidentliyə namizəd kimi irəli sürülməsinə nail oldu. Kennedi seçki kampaniyasına başlayanda onu dəhşətə gətirən bu oldu ki, Cənubdakı protestant təşkilatların çoxu hələ də guya hər bir katolikin Roma Papasına danışıqsız tabe olacağı barədə köhnə nağıllara inanırdı. Kennedi bu problemə qarşı açıq hücuma keçməyi qərara aldı. 1960-cı il sentyabrın 12-də o, Texasda "Hyuston şəhəri Keşişlərinin Böyük Assosiasiyası"nın üzvləri qarşısında nitqlə çıxış etdi.

Kennedinin bioqraflarından birinin verdiyi məlumata görə, həmin görüşdə o, "dinin seçkiqabağı kampaniyanın gedişində müzakirə

Satış üçün nəzərdə tutulmayıb

edilən ciddi mövzular sırasından çıxarılmasına nail oldu". Əlbəttə, antikatolisizmin kökünü bu cür asanlıqla kəsmək mümkün deyildi, lakin Kennedinin bu səmimi hücumu, şüurlarında kök salmış xurafatı ağlabatan dəlillər gətirməklə aradan qaldırmaq mümkün olmayan insanların vura biləcəkləri zərəri azaltmağa imkan verdi.

1960-cı ilin noyabr ayında Kennedi prezident seçildi və beləliklə, Amerika siyasətində katoliklər üçün yaradılmış maneələr aradan qaldırıldı.

Əlavə məlumat üçün oxuyun: H. White, The Making of the President 1960 (1961).

CƏNUBLU BAPTİSTLƏRİN LİDERLƏRİNƏ MÜRACİƏT

Fikirlərimi söyləmək üçün mənə verdiyiniz imkana görə sizlərə təşəkkür edirəm.

Doğrudur, bizim bugünkü görüşün əsas mövzusu din mövzusudur, lakin qeyd etmək istərdim ki, 1960-cı il seçkilərində bizim qarşımızda bundan qat-qat mühüm problemlər dayanır: məsələn, bizim Prezidentin və Vitse-prezidentin biabırçı fəaliyyətsizliyi nəticəsində artıq bizimlə hesablaşmayan, Florida sahillərindən cəmi 90 mil məsafədə baş qaldırmış kommunizm; Qərbi Virciniyada gördüyüm ac uşaqlar; həkimin haqqını ödəməyə imkanı olmayan xəstə qocalar; öz fermalarını tərk edib getməyə məcbur olan ailələr; xarabalıqların sayı günbəgün artan, məktəblərin çatışmadığı, Aya və kosmosa uçmaqda Amerikanın həddən artıq gecikməsi problemləri.

Bu seçki kampaniyasında həll edilməli real problemlər bunlardır və onların din ilə heç bir əlaqəsi yoxdur, çünki müharibələr, aclıq, nadanlıq və ümidsizliyə qapılma halları dindən asılı deyil.

Lakin mən özüm katolik olduğum üçün və indiyə qədər heç bir katolik prezident seçilmədiyi üçün indiki kampaniyada bütün bu real məsələlər, təəssüf ki, ikinci plana keçmişdir və ola bilsin ki, sizin mənzil-qərargahla müqayisədə daha az məsuliyyət hiss edən bəzi başqa mənzil-qərargahlarda bunu bilərəkdən ediblər. Beləliklə, görünür, mən bir daha qeyd etməliyəm ki, mənim hansı kilsəyə inanmağım əhəmiyyətli deyil (çünki bu, yalnız məndən ötrü əhəmiyyətlidir), amma mənim hansı Amerikaya inanmağım əhəmiyyətlidir.

Satış üçün nəzərdə tutulmayıb

Mənim inandığım Amerikada kilsə və dövlət bir-birindən tam ayrılmışdır. Orada heç bir katolik prelat prezidentə (hətta həmin prezident katolik olsa belə) siyasi göstərişlər verə bilməz və heç bir protestant keşiş onun kilsəsinə gələnlərə kimə səs vermək lazım olduğunu deyə bilməz; orada heç bir kilsəyə və ya kilsə məktəbinə dövlət vəsaitləri və ya siyasi imtiyazlar verilmir və hər hansı şəxsin dövlət vəzifəsi tutmaq hüququndan, yalnız həmin şəxsin dini onu təyin edən prezidentin dinindən və ya onu seçən adamların dinindən fərqləndiyinə görə imtina edilməyəcəkdir.

Mənim inandığım Amerika rəsmən nə katolik, nə protestant, nə də yəhudi ölkəsidir; orada heç bir dövlət məmuru dövlət işlərinin idarə edilməsi barədə nə Papanın, nə Milli Kilsələr Şurasının, nə də hər hansı başqa bir dini qurumun fikrini soruşmayacaq və ya onlardan təlimat almayacaqdır; orada heç bir dini orqan öz iradəsini bütün xalqa birbaşa və ya dolayısı ilə qəbul etdirməyə, yaxud xalqın seçilmiş nümayəndələrinin siyasətinə təsir göstərməyə cəhd etməyəcəkdir; orada dini azadlıq o qədər bölünməzdir ki, kilsələrdən birinə qarşı edilən hərəkət bütün kilsələrə qarşı edilən hərəkət kimi qiymətləndiriləcəkdir.

Bu il "şübhə barmağı" katolikin üzərindədir, lakin gələn il bu barmaq yəhudini və ya kvakeri, unitaristi və ya baptisti göstərə bilər. Dini azadlıq barədə Cefferson qanununun yaranmasına səbəb məhz Virciniyada baptist keşişlərin sıxışdırılması olmuşdur. Bu gün həmin şübhənin qurbanı mən ola bilərəm, lakin sabah siz də bu cür qurban ola bilərsiniz və bu vəziyyət bizim harmonik cəmiyyətimiz, milləti böyük bir təhlükəyə məruz qoyaraq, parçalanana qədər davam edəcəkdir.

Nəhayət, mənim inandığım Amerikada dini dözümsüzlüyə haçansa son qoyulacaq; orada bütün insanlara və bütün kilsələrə münasibət eyni olacaq; orada hər bir insan heç bir kilsəyə getməmək və ya özünün seçdiyi kilsəyə getmək məsələsində eyni hüquqa malik olacaq; orada nə katolik səsverməsi var, nə də antikatolik səsverməsi, yəni hər hansı dini fraksiyalar üzrə heç bir səsvermə olmayacaq; orada katoliklər, protestantlar, yəhudilər – həm adi dindarlar, həm də keşişlər, bizi alçaldan və bir-birimizdən ayıran, əvvəllər çox vaxt bizim mövcudluğumuzu qorxu altına alan münasibətlərdən çəkinəcək, bunun əvəzinə onlar hamısı birlikdə Amerika qardaşlığı idealını bərqərar edəcəklər.

Mənim inandığım Amerika budur. Bu cür Amerikada prezidentlik tipi də mənim inandığım kimi olmalıdır. Prezidentlik təsisatı hər hansı dini qrupun əlində sözəbaxan bir alət olmamalıdır. O, hər hansı dinə etiqad bəsləyən insan üçün bu vəzifəni tutmaq barədə özbaşına qadağalarla ləkələnməməlidir. Mən o prezidentə inanıram ki, onun dini baxışları özünün şəxsi işidir, bu baxışlar ona millət tərəfindən həvalə edilməmişdir və millət

Satış üçün nəzərdə tutulmayıb

onun bu vəzifəni tutması üçün müəyyən dini baxışlara malik olmasını tələb etmir.

Mən din azadlığına zəmanət verən I Düzəlişi ləğv etməyə çalışan prezidentə haqq qazandırmazdım, xüsusən ona görə ki, bizim "əyləclər və balanslar" sistemimiz prezidentin bu cür hərəkət etməsinə imkan verməzdi. Mən həmçinin, dinlə əlaqədar testlərin tətbiq olunmasını tələb edərək, dolayı yolla da olsa, Konstitusiyanın IV maddəsini ləğv etməyə çalışanların əməllərinə də haqq qazandırmazdım. Əgər onlar həmin maddədə təsbit edilmiş hüquqlarımızın qarantiyası ilə razılaşmırlarsa, qoy onlar bu maddənin ləğv edilməsi üçün açıq çıxış etsinlər.

Mən ölkənin icra hakimiyyətinin başçısı yerində elə bir siyasətçi görmək istəyirəm ki, o, hamının qarşısında məsuliyyət daşısın və eyni zamanda, heç kəsin qarşısında öhdəlik daşımasın. Mən elə bir prezident görmək istəyirəm ki, o, əgər vəzifə borcları bunu tələb edirsə, hər hansı dini mərasimə, dini ibadətə və ya ziyafətə sərbəst gedə bilsin. Eyni zamanda onun vəzifə borcları hər hansı dini andlar, mərasimlər və öhdəliklərlə məhdudlaşmamalıdır.

Budur mənim inandığım Amerika. Mənim doğma qardaşım məhz bu Amerika uğrunda Sakit Okeanın cənubunda mübarizə aparmış və onun uğrunda Avropada həlak olmuşdur. O vaxt bizlərdən heç birimiz düşünmürdük ki, biz "bu vətənə daha az sadiqik və ya biz azadlığa inanmırıq və yaxud "uğrunda əcdadlarımızın canlarından keçdikləri" azadlıqlara təhlükə yaradan etibarsız qrupa mənsubuq.

Əcdadlarımız bu ölkəyə sıxışdırılmış kilsələrin nümayəndələrinin dövlət vəzifələri tutmasını qadağan edən din testindən yaxa qurtarmaq üçün gəlmişdilər və məhz buna görə də onlar Amerika uğrunda həqiqətən vuruşur və bu yolda həlak olurdular. Mən o Amerikanın tərəfdarıyam ki, bizim ata-babalarımız Konstitusiya uğrunda vuruşanda, Hüquqlar Haqqında Bill uğrunda, Virciniyada din azadlığı haqqında qanun uğrunda vuruşanda həmin Amerikanın tərəfdarı kimi çıxış edirdilər. Onlar Alamoda[116] bu gün mənim ziyarət etdiyim müqəddəs yerdə vuruşmuşdular. Burada Bovi və Kroketlə *(Bowie, Crockett)* çiyin-çiyinə vuruşan Fuentes də, MakKaferti də, Beyli də, Bedilio da, Keri də *(Fuentes, McCaffery, Bailey, Bedillio, Carey)* həlak olmuşdur, amma onların katolik olub-olmadıqlarını heç kəs bilmir, çünki o vaxt din testi yox idi.

Mən sizin məhz bu ənənəyə riayət etməyinizi xahiş edirəm, mənə Konqresdəki 14 illik fəaliyyətim əsasında münasibət bildirməyinizi xahiş edirəm. Bu 14 ildə mən Vatikanda ABŞ-ın səfirinin təyin edilməsinin əleyhinə çıxış etmişəm, din məktəbləri üçün Konstitusiyada nəzərdə tutulmayan

Satış üçün nəzərdə tutulmayıb

yardım göstərilməsinin əleyhinə və mənim də oxuduğum dövlət məktəblərinin hər hansı şəkildə boykot edilməsinə qarşı çıxış etmişəm. Sizdən xahiş edirəm, başqa ölkələrdə və başqa əsrlərdə katolik kilsəsinin liderlərinin çıxışlarından səylə seçilmiş və həmin çıxışların kontekstindən süni şəkildə çıxarılmış, əslində isə bu gün ölkəmizdə yaranmış ümumi vəziyyətə çox vaxt heç bir dəxli olmayan sitatlar gətirilən pamfletləri və məqalələri əsas götürərək məni qınamayın, çünki Amerika katolik yepiskoplarının 1948-ci ildə qəbul etdikləri, kilsənin dövlətdən ayrılmasını qətiyyətlə dəstəkləyən bəyanat həmin məqalələrdə həmişə nəzərdən qaçırılır.

Mən bu qondarma sitatlarla özümün siyasi fəaliyyətim arasında heç bir əlaqə görmürəm. Yəni doğrudanmı siz burada nə isə bir əlaqə görürsünüz? İcazə verin, xarici ölkələrə münasibətim məsələsinə toxunum. Mən hər hansı dini qrup, katoliklər və ya protestantlar tərəfindən hər hansı dinə sərbəst etiqad bəslənməsinə mane olmaq, bunu qadağan etmək və ya buna görə təqib etmək üçün istifadə edildiyi dövlətin tam əleyhinəyəm. Bütün bunlar istənilən vaxtda, istənilən insan tərəfindən və istənilən ölkədə hər hansı təqiblərə aiddir.

Ümidvaram ki, katoliklər üçün bu azadlığı rədd edən dövlətləri biz hamımız birlikdə qəzəblə pisləyəcəyik. Mən burada ziddiyyətli sitatlar gətirməkdənsə, Fransa və İrlandiya kimi dövlətlərdə katolik kilsəsinin fəaliyyətini qeyd etmək və de Qoll *(de Gaulle)* və Adenauer *(Adenauer)* kimi dövlət xadimlərinin müstəqilliyini göstərmək istəyirəm. Lakin icazə verin bir daha vurğulayım ki, bunlar mənim şəxsi baxışlarımdır. Qəzetlərin ümumi fikrinə rəğmən, mən "prezident vəzifəsinə katolik namizəd" deyiləm, lakin mən prezidentliyə namizədəm və bu namizəd həm də katolikdir.

Dövlət məsələlərində mən öz kilsəmin adından çıxış etmirəm və kilsə də mənim adımdan çıxış etmir.

Prezident seçilsəm, bir prezident kimi mənim qarşımda yarana biləcək problemdən (doğuşa nəzarət, boşanma, senzura, qumar oyunları və hər hansı başqa problem) asılı olmayaraq, mən öz vicdanımın səsinə görə milli mənafelərinə uyğun hesab etdiyim qərarı qəbul edəcəyəm və bu qərar hər hansı kənar təzyiqdən və ya diktatdan azad olacaq. Nə güclə, nə də hədə-qorxu gəlməklə məni başqa cür qərar qəbul etməyə məcbur edə bilməzlər. Lakin əgər elə bir vəziyyət yaranarsa ki (bunun mümkün ola biləcəyini heç təsəvvür etmirəm), tutduğum vəzifə mənim öz vicdanımın əleyhinə və ya milli mənafelərim əleyhinə çıxmağımı tələb etsin, onda mən istefa verəcəyəm və inanıram ki, hər bir dövlət qulluqçusu da məhz bu cür hərəkət edərdi.

Satış üçün nəzərdə tutulmayıb

Mən bu baxışlarıma görə öz əleyhdarlarım qarşısında – istər katolik olsunlar, istərsə də protestant, üzr istəməyəcəyəm və seçkilərdə qalib gəlmək naminə nə öz baxışlarımdan, nə də öz dinimdən imtina etməyə hazırlaşmıram. Mən real səbəblər üzündən seçkilərdə uduzsam, onda Senatda öz yerimə qayıdacağam və özümdən ona görə razı qalacağam ki, mən əlimdən gələni etdim, amma bunları ədalətlə qiymətləndirmədilər.

Lakin bu seçkilərin nəticəsi qırx milyon amerikalının katolik dininə etiqad bəslədikləri üçün onlardan hər hansı birinin prezident olmaq imkanından məhrum edilməsi ilə müəyyən olunarsa, onda uduzan – bütün dünyadakı katoliklərin və katolik olmayanların nəzərində, tarixin nəzərində və öz xalqımızın nəzərində uduzan – bizim dövlətimiz olacaqdır.

Digər tərəfdən, mənə bu seçkilərdə qalib gəlmək nəsib olarsa, mən bütün ağlımı və ruhumu prezidentlik andını – praktiki olaraq Konqresdə işlədiyim on dörd il müddətində riayət etdiyim andı yerinə yetirməyə sərf etməliyəm. Onda mən hər hansı qeyd-şərtsiz, bu sözləri deyə bilərəm və deyəcəyəm: "Mən təntənəli şəkildə and içirəm ki, Birləşmiş Ştatların Prezidenti vəzifələrini ciddi yerinə yetirəcək, Konstitusiyanı qoruyacaq və müdafiə edəcəyəm, Yaradan bu işdə mənə kömək olsun".

Mənbə: New York Times, September 13, 1960.

Satış üçün nəzərdə tutulmayıb

67. Gideon Ueynrayta Qarşı (1963)

Uinston Çörçill haçansa demişdir ki, cəmiyyətin mədəni səviyyəsi onun cinayət törətməkdə ittiham edilən insanlara münasibəti ilə müəyyən edilir. Hüquqlar Haqqında Billdə müttəhimlərin müdafiəsi ilə bağlı bir sıra tədbirlər nəzərdə tutulduğuna baxmayaraq, ştatların məhkəmələri bu tədbirlərin çoxunu həyata keçirmir, belə hesab edirdilər ki, Hüquqlar Haqqında federal Bill ştatlara şamil edilmir. 1930-cu illərdə bu siyasət dəyişməyə başladı, 60-cı illərdə isə Erl Uorren *(Earl Warren)* başda olmaqla Ali Məhkəmə tərəfindən çox böyük sürətlə dəyişdirildi.

Amerikada bütün cinayət işlərində vəkilin köməyindən istifadə etmək hüququnun tətbiq edilməsi əvvəlki ingilis hüququ praktikasından ciddi şəkildə fərqlənirdi. İngilis hüquq praktikasına görə, yalnız xırda cinayət *(misdemeanor)* törədildiyi halda müttəhimə vəkil verilirdi. Cinayət *(felony)* törədildiyi halda vəkillərdən istifadə edilməsi isə Böyük Britaniyada 1836-cı ilə qədər ümumiyyətlə qadağan olunmuşdu. Hərçənd, hakimlər bu qadağaya çox vaxt açıq-aşkar göz yumurdular. Amerikanın ilk on üç Ştatından on ikisi bu ingilis doktrinasını rədd etmiş və vəkilin köməyindən istifadə etmək hüququnu cinayətlərin bütün növlərinə şamil etməyi qərara almışdılar. Vəkilin köməyindən istifadə etmək hüququna təminat verən VI Düzəlişdə imkansız müttəhimlərə vəkil verilməsi barədə heç nə deyilmədiyinə baxmayaraq, federal hakimlər hələ XIX əsrdə bəzi ciddi işlərdə bu cür şəxslər üçün vəkil təyin etməyə başlamışdılar, XX əsrdə isə bir sıra ştatlar özləri cinayət işlərində imkansız müttəhimlər üçün vəkil təyin etməyə başladılar.

1932-ci ildə "Pauell Alabama Ştatına qarşı" adlı məşhur işdə ölkənin Ali Məhkəməsi qərara almışdı ki, vəkilin köməyindən istifadə etmək hüququ azadlığın qorunmasında mühüm komponentdir, lakin bu hüququn şamil edilmə dərəcəsinin müəyyən edilməsi hüququ ştatlara verilmişdir. "Betts Breydiyə qarşı" adlı işdə (1942) ölkənin Ali Məhkəməsi qərara almışdı ki, vəkilin xidmətlərindən istifadə etmək zərurəti hər bir konkret işin hallarından asılı olacaqdır. Məhkəmə belə hesab etmişdi ki, ədalətli məhkəmə araşdırması *(fair trial)* üçün bəzi hallarda vəkilin iştirakı zəruridir, başqa hallarda isə vəkilin iştirakı məcburi hesab edilmirdi.

Ali Məhkəmə sonrakı 20 il ərzində çoxsaylı işləri dinləmiş və onların, demək olar hamısında bu qərara gəlmişdi ki, vəkilin iştirakı

Satış üçün nəzərdə tutulmayıb

zəruri idi. 1960-cı illərin əvvəllərində Ali Məhkəmənin hakimlərinin əksəriyyəti bu qənaətə gəldi ki, Bettsin *(Betts*) işi üzrə çıxarılmış qərarı ləğv etməyin və istisnasız olaraq bütün müttəhimlərə vəkil xidmətlərindən istifadə etmək hüququ verməyin vaxtı yetişmişdir. Bu qərar "Gideon Ueynrayta qarşı" işində qəbul edilmişdir.

Ali Məhkəmənin bu qərarının və 1960-cı illərdə qəbul etdiyi digər qərarların əsas səbəbi üstünlük təşkil edən belə bir inamdan ibarət idi ki, vətəndaşların konstitusion hüquqlarının həyata keçirilməsi məhkumun maddi imkanlarından və təhsil səviyyəsindən asılı olmamalıdır. Bu baxımdan, Ali Məhkəmə cinayət hüququ sistemini daha açıq və daha demokratik etmiş, hətta cəmiyyətdə ən çox nifrət bəslənilən nümayəndələr də cinayət törətməkdə ittiham edildiyi halda onların Konstitusiyaya görə bütün amerikalılara verilən nemətlərdən tam istifadə etmələrinə, yəni ədalətli məhkəmə araşdırmasına zəmanət verən konstitusion hüquq və azadlıqlardan istifadə etmələrinə imkan yaratmışdır .

Əlavə məlumat üçün oxuyun: Anthony Lewis, Gideon s Trumpet (1964); Dick Howard, ed., Criminal Justice in Our Time (1965); Fred Graham, The Due Process Revolution (1970).

GİDEON UEYNRAYTA QARŞI

Hakim Blək Ali Məhkəmənin rəyini açıqladı.

İddiaçı Florida Ştatının məhkəməsi tərəfindən ona görə məhkum edilmişdir ki, o, mərc gəlmək üçün otağın[117] qapısını cinayət törətmək niyyəti ilə sındırmış və oraya daxil olmuşdur. Florida ştatının qanunlarına görə bu əməl cinayət *(felony)* hesab edilir. İddiaçı maddi vəsaiti və vəkili olmadığı halda məhkəmə qarşısında dayanarkən məhkəmədən ona pulsuz vəkil təyin olunmasını xahiş etmiş, bundan sonra onunla məhkəmə arasında aşağıdakı dialoq olmuşdur:

Məhkəmə: "Cənab Gideon, mən çox təəssüflənirəm, lakin mən bu işdə sizin mənafelərinizi təmsil edəcək vəkil təyin edə bilmərəm. Florida Ştatının qanunlarına görə məhkəmə müttəhimin müdafiəsi üçün yalnız o halda vəkil təyin edə bilər ki, bu şəxs ölüm cəzası ilə təhdid edilən cinayət törətməkdə ittiham olunsun. Təəssüf ki, bu işdə mən sizə vəkil təyin edilməsi barədə xahişinizi rədd etməyə məcburam".

Satış üçün nəzərdə tutulmayıb

Müttəhim: "Lakin Birləşmiş Ştatların Ali Məhkəməsi belə hesab edir ki, mənim vəkilin xidmətlərindən istifadə etmək hüququm var".

Gideon andlı iclaslar məhkəməsi qarşısında özünü əslində həvəskar vəkil kimi müdafiə edirdi. O, andlılar qarşısında giriş nitqi söylədi, ittihamın şahidlərini sorğu-suala tutdu, özünü müdafiə edəcək şahidləri təqdim etdi, özü ifadə verməkdən imtina etdi və qısa bəyanat verərək, "ittiham aktında yazılmış informasiyaya münasibətdə özünün təqsirkar olmadığını vurğuladı". Andlılar onu təqsirkar hesab etdilər və cəzasını Ştat həbsxanasında çəkmək şərtilə beş il həbs cəzasına məhkum etdilər. Bundan sonra iddiaçı onun həbs edilməsinin qanuniliyi məsələsinə baxılması üçün Florida Ştatının Ali Məhkəməsinə ərizə (*habeas corpus petition)* verdi. Bu ərizədə o özünün məhkum olunmasını və azadlıqdan məhrum edilməsini kəskin tənqid edərək bildirirdi ki, məhkəmə ona vəkil təyin etməkdən imtina etməklə onun "Birləşmiş Ştatlar Dövlətinin Konstitusiyası və Hüquqlar Haqqında Bill ilə zəmanət verilən" hüquqlarını pozmuşdur. Ştatın Ali Məhkəməsi bu ərizəni baxılmaq üçün qəbul etdi, lakin ona "lazımı qaydada" baxdıqdan sonra heç bir rəy vermədi və hökmün yumşaldılmasından imtina etdi. 1942-ci ildə ölkənin Ali Məhkəməsi müəyyən fikir ayrılıqlarına baxmayaraq, "Betts Breydiyə qarşı" işi üzrə qərar çıxardıqdan sonra ştatların məhkəmələrində vəkil xidmətlərindən istifadə etmək barədə konstitusion hüquq məsələsi ölkənin məhkəmə sisteminin bütün səviyyələrində qızğın mübahisələrin mənbəyinə çevrildi. Bu problemə bizim məhkəmədə baxmaq üçün biz həmin işi aşağı instansiya məhkəməsinin icraatından tələb edib götürmüşük...

Konstitusiyaya VI Düzəlişdə göstərilir ki, bütün cinayət işlərində müttəhim özünü müdafiə etmək üçün... vəkilin köməyindən istifadə etmək hüququna malik olmalıdır. Fikrimizcə, məsələnin bu şəkildə qoyuluşu həm də o deməkdir ki, federal məhkəmələr bu xidmətin haqqını ödəmək iqtidarında olmayan müttəhimlərə də, müttəhimin şüurlu şəkildə və bilərəkdən bu hüquqdan imtina etdiyi hallar istisna olmaqla, vəkil verməyə borcludurlar. Betts bildirmişdir ki, Konstitusiyaya XIV Düzəlişə görə bu hüquq ştatların məhkəmələrində imkansız müttəhimlərə də şamil edilir. Bunun cavabında Ali Məhkəmə bildirmişdir ki, Konstitusiyaya VI Düzəlişdə ştatların məhkəmə sistemi üçün hər hansı qaydalar nəzərdə tutulmadığına görə bu problem o halda aydınlaşdırıla bilər ki, biz aşağıdakı suala cavab tapaq: Konstitusiyaya VI Düzəlişin federal məhkəmələr üçün nəzərdə tutulmuş tələbi ədalətli məhkəmə araşdırması və lazımı məhkəmə proseduru üçün o dərəcədə əsas və zəruridirmi ki, Konstitusiyaya XIV Düzəlişə görə bu tələb ştatların məhkəmələri üçün də zəruri olsun? Bu məsələni

Satış üçün nəzərdə tutulmayıb

aydınlaşdırmaq üçün Ali Məhkəmə Bettsin işində hələ Hüquqlar Haqqında Bill milli Konstitusiyaya daxil edilənə qədər müstəmləkələrdə və ştatlarda mövcud olmuş konstitusiyaların və qanunların müddəalarından irəli gələn və bu işə aidiyyəti olan məlumatlar aşkar etmiş və onları nəzərdən keçirmişdir. Bundan əlavə, məhkəmə ştatların konstitusiya, qanunvericilik və məhkəmə tarixində bu günə qədər mövcud olan, sözügedən işə aidiyyəti olan faktları da nəzərdən keçirmişdir.

Ali Məhkəmə bu tarixi məlumatlara əsasən qərara almışdır ki, imkansız müttəhimlərə vəkil təyin edilməsi elə bir əsas hüquq deyildir ki, onun təmin edilməsi ədalətli məhkəmə araşdırması üçün zəruri olsun. Bu səbəbdən Ali Məhkəmə Bettsin işində belə bir dəlillə razılaşmaqdan imtina etmişdir ki, Konstitusiyaya VI Düzəlişdə nəzərdə tutulmuş federal məhkəmələrdə imkansız müttəhimlərə vəkil köməyinin verilməsinə zəmanət Konstitusiyaya XIV Düzəlişə müvafiq olaraq ştatlara da şamil edilir və ya məhkəmənin özünün dediyi kimi, ştatlar tərəfindən hökmən icra edilməlidir. Aşkardır ki, əgər Ali Məhkəmə bunun əksi olan qərar qəbul etmiş olsaydı, bu o demək olacaqdı ki, Konstitusiyaya XIV Düzəlişə görə ştatların məhkəmələrində imkansız müttəhimlərə vəkil təyin edilməsi zəruridir, yəni ştatların məhkəmələrində də federal məhkəmələr barəsində Konstitusiyaya VI Düzəlişdə nəzərdə tutulduğu kimi hərəkət etmək lazımdır...

Biz "Betts Breydiyə qarşı" işində Ali Məhkəmə tərəfindən söylənilmiş və bizim əvvəlki işlərə əsaslanan birinci fərziyyə ilə razıyıq ki, Hüquqlar Haqqında Billin ədalətli məhkəmə araşdırması üçün əsas və zəruri olan hər bir müddəası, XIV Düzəlişə müvafiq olaraq ştatlar üçün də məcburidir, lakin fikrimizcə, nəticə etibarilə məhkəmə belə bir yanlış nəticəyə gəlmişdir ki, VI Düzəlişdə nəzərdə tutulan vəkil xidmətlərindən istifadə etmək hüququ bu cür əsas hüquqların biri deyildir. Xatırlayaq ki, Bettsin işindən on il əvvəl Ali Məhkəmə "Pauell Alabama Ştatına qarşı" (1932) işində bütün tarixi məlumatları nəzərdən keçirərək Bettsin işindəki kimi birmənalı şəkildə elan etmişdir ki, "vəkilin xidmətindən istifadə etmək hüququ təməl xarakter daşıyır". Pauellin işində Ali Məhkəmə lap axırda, bu məhkəmədə tez-tez olduğu kimi, öz qərarına düzəliş etmiş, onun təsirini müəyyən faktlarla və bu işin halları ilə məhdudlaşdırmışdır. Vəkil xidmətlərindən istifadə etmək hüquqlarının təməl xarakteri barədə məhkəmənin çıxardığı nəticələr şübhə doğurmur...

...Fakt bundan ibarətdir ki, Ali Məhkəmə Bettsin işində "vəkil təyin edilməsinin ədalətli məhkəmə araşdırması üçün təmin edilməsi zəruri olan əsas hüquq olmamasını" qərara almaqla, özünün yaxşı tərtib edilmiş presedentlərini pozmuşdur. Məncə, bu köhnə presedentlərə əsaslanmaq yeni presedentlərə əsaslanmaqdan daha etibarlıdır və ədalətli məhkəməni

Satış üçün nəzərdə tutulmayıb

təmin etməli olan konstitusion prinsipləri bərpa etməyimizə imkan verəcəkdir. Həm bu köhnə presedentlər, həm də sağlam düşüncə onu göstərir ki, bizim ziddiyyətli cinayət hüququ sistemində məhkəmə qarşısında cavab verməli olan və vəkil tutmaq üçün vəsaiti olmayan şəxsə pulsuz vəkil təyin edilməyəcəyi təqdirdə həmin şəxs ədalətli məhkəmə araşdırmasına ümid edə bilməz. Bu həqiqət tamamilə aşkardır. Federal hakimiyyət və ştatların hakimiyyəti müttəhimlərin fəaliyyətinin təhqiq edilməsi üçün külli məbləğdə vəsait xərcləyirlər. İstənilən sivil ölkədə ictimai mənafelərin müdafiə edilməsi üçün dövlət ittihamçılarının olması zəruri hesab edilir. Eyni qayda ilə, müttəhimlərin demək olar hamısı işə lazımi qaydada hazırlaşmaq və öz müdafiəsini qurmaq üçün özlərinə ən yaxşı vəkillər tutmağa çalışırlar. Dövlətin ittiham üçün hüquqşünaslar tutması, müttəhimlərin isə müdafiə olunmaq üçün hüquqşünaslar tutması geniş yayılmış belə bir inamı əyani şəkildə sübut edir ki, cinayət məhkəmələrində vəkillərin olması israfçılıq deyil, zərurətdir. Bəzi ölkələrdə müttəhimin vəkil tutmaq hüququ ədalətli məhkəmə üçün bəlkə də əsas və zəruri olmaya bilər, amma bizim ölkədə belə deyil. Bizim ştatların və ölkənin konstitusiyaları və qanunları yaradıldığı vaxtdan hər bir müttəhimin qanun qarşısında bərabər hüquqlara malik olduğu ədalətli və qərəzsiz məhkəməyə təminat verən prosessual və maddi hüquq normalarına xüsusi diqqət yetirmişlər. İmkansız müttəhim onu ittiham edənlərin qarşısında vəkilin köməyi olmadan cavab verməyə məcburdursa, bu nəcib idealı təmin etmək mümkün deyil...

Ali Məhkəmə "Betts Breydiyə qarşı" işində onun "Pauell Alabama Ştatına qarşı" işində çıxardığı müdrik qərardan imtina etdi. Florida Ştatı və digər iki Ştat birlikdə xahiş etdilər ki, "Betts Breydiyə qarşı" işi üzrə çıxarılmış qərar dəyişikliksiz saxlanılsın. Bu Məhkəmənin də razılaşdığı digər iyirmi iki Ştat belə hesab edir ki, Bettsin işi üzrə qərar elə çıxarıldığı anda "anaxronik qərar" olmuşdur və onu ləğv etmək lazımdır. Biz bu fikirlə razıyıq.

O qərar ləğv edilir, bu gün baxdığımız iş isə bu fikrə zidd olmayan sonrakı tədbirlərin görülməsi üçün Florida Ştatının Ali Məhkəməsinə əlavə istintaqa qaytarılır.

Mənbə: 372 U.S. 335 (1963)

Satış üçün nəzərdə tutulmayıb

68. Reynolds Simsə Qarşı (1964)

Konstitusiyaya görə, hər 10 ildə bir dəfə ölkənin əhalisi siyahıya alınmalı və siyahıyaalmanın nəticələrinə əsasən, Konqresin Nümayəndələr Palatasında yerlər yenidən bölüşdürülməlidir. Bu müddəa ştatların əksəriyyətinin konstitusiyalarında da vardır, lakin 1950-ci illərə yaxın məlum oldu ki, bəzi ştatlarda yerlər uzun illər ərzində yenidən bölüşdürülməmişdir. Birləşmiş Ştatlar get-gedə daha çox urbanizasiyaya məruz qalmış ölkəyə çevrildikcə, vaxtilə kənd yerlərində yaşayan çoxluq hakimiyyətdən bərk-bərk yapışaraq, qanunverici məclislərdə yerlərin yenidən bölüşdürülməsindən imtina edirdi. Məsələn, Tennesi və Alabama ştatlarının qanunverici məclislərində 1901-ci ildən bəri, Delaver Ştatının qanunverici məclisində isə 1897-ci ildən bəri yerlər yenidən bölüşdürülməmişdi.

Bəzi ştatlarda heyrətamiz uyğunsuzluqlar aşkar edilmişdi. Məsələn, Vermont Ştatında əhalisinin sayı ən çox olan dairədə 33 000 nəfər, əhalisinin sayı ən az olan dairədə isə cəmi 238 nəfər yaşadığına baxmayaraq, Ştatın qanunvericilik məclisində bu dairələrin hərəsindən bir nümayəndə vardı. Senata seçkilər üzrə seçki dairələrində fərqlər daha kəskin şəkildə nəzərə çarpırdı. Bu dairələrdə ştatların çoxu federal modelə riayət edərək, coğrafi sərhədlər prinsipini rəhbər tuturdular. Kaliforniya Ştatının Los-Anceles senator dairəsi 6 milyon nəfərdən çox sakini əhatə etdiyi halda, elə həmin Ştatın əhalisi ən az olan dairəsində cəmi 14 000 sakin yaşayırdı. Təbii ki, qanunvericilik məclislərində əhalisi az olan kənd yerlərindəki dairələri təmsil edən üzvlər öz hakimiyyətlərinin azalması ilə nəticələnə biləcək islahatlar keçirilməsində maraqlı deyildilər. Belə bir vəziyyətdə şəhərli seçicilər qanun tərəfindən bərabər müdafiə olunma hüququndan məhrum edildiklərini bildirərək məhkəmələrə müraciət etməyə başladılar.

Ali Məhkəmə əvvəlcə belə hesab etdi ki, bu məsələyə məhkəmədə baxılmalı deyildir, yəni qanunvericilik məclislərində yerlərin bölüşdürülməsi məsələsi məhkəmə tərəfindən deyil, siyasi səviyyədə həll edilməlidir. Lakin 1960-cı ildə Ali Məhkəmə Alabama Ştatında qanunvericilik məclislərində yerlərin bölüşdürülməsi üçün tətbiq olunan və afro-amerikalıların səsvermədə iştirak etmələrinə imkan verməyən sxemi ləğv etdi. Məhkəmə öz qərarını hər hansı şəxsin irqi mənsubiyyət əlaməti əsasında səs-

Satış üçün nəzərdə tutulmayıb

vermə prosesindən xaric olunmasını qadağan edən XV Düzəlişin müddəası ilə əsaslandırmışdı. Lakin bundan sonra ağdərili şəhərli seçicilər iddia etməyə başladılar ki, əgər qaradərililər üçün problemin bu cür həlli varsa, ağdərililərin barəsində də müvafiq həll tapılmalıdır. 1962-ci ilin mart ayında Ali Məhkəmə "Beyker Karra qarşı" işində etiraf etdi ki, yerlərin bölüşdürülməsi məsələsinə məhkəmədə baxılmalıdır. Bir ildən sonra Ali Məhkəmə sonradan bu mübahisənin həlli formuluna çevrilmiş "bir nəfər – bir səs" təşəbbüsü ilə çıxış etdi və bu təşəbbüs "Reynolds Simsə qarşı" adlı məşhur işdə tətbiq edildi.

"Braun təhsil şurasına qarşı" adlı iş üzrə qərar müstəsna olmaqla, Ali Məhkəmənin heç bir başqa qərarı ölkənin sosial və siyasi həyatına bu qədər güclü təsir göstərməmişdi. Uzun müddət kəndlilərdən ibarət azlığın nəzarəti altında olmuş ştatların qanunvericilik məclisləri indi əhalinin real səs çoxluğu ilə seçilməli idi. Əhalini real təmsil etməyə başlamış qanunvericilik məclisləri indi məktəblərin, yolların və sosial xidmətlərin maliyyələşdirilməsi sxemini əsaslı şəkildə dəyişmək imkanı əldə etmişdi. Üstəlik, vaxtilə kənd ştatlarında yaşamış, indi isə şəhərlərin və şəhərətrafı rayonların sakinləri olan seçicilərin böyük əksəriyyəti səsvermə prosesində bərabər hüquqla iştirak edə bilərdi.

Əlavə məlumat üçün oxuyun: Richard C.Cortner, The Apportionment Cases (1970); Robert G.Dixon, Jr., Democratic Representation: Reapportionment in Low and Politics (1968); Nelson W. Polsby, ed., Reapportionment in the 170s (1971).

REYNOLDS SİMSƏ QARŞI

Ali Məhkəmənin sədri Uorren Məhkəmənin rəyini açıqladı.

Vesberrinin *(Wesberry)* işində açıq-aydın göstərilmişdir ki, bu ölkədə nümayəndəli idarəetmənin əsas prinsipi – hər bir qanunvericinin eyni sayda vətəndaşları təmsil etməsi prinsipidir (onların irqindən, cinsindən, iqtisadi statusundan və ya müəyyən ştatın ərazisində hansı yerdə yaşamasından asılı olmayaraq). Buna müvafiq olaraq, baxdığımız işlərdə bi-

Satış üçün nəzərdə tutulmayıb

zim vəzifəmiz – ştatların qanunvericilik məclislərinə yerlərin bölüşdürülməsi zamanı seçicilərin sayının bərabər olması barədə təməl standartlarından imtina edilməsinə bəraət qazandıran hər hansı konstitusion prinsiplərin olub-olmadığını müəyyən etməkdən ibarətdir. Ştatın qanunvericilik məclisində yerlərin bölüşdürülməsi sxeminin [qanun tərəfindən] bərabər müdafiə olunma haqqında müddəada *(equal protection clause)* təsbit edilmiş hüquqlara münasibətdə təhkiredici ayrı-seçkiliyin olub-olmadığını müəyyən etmək üçün biz, ilk növbədə, yuxarıda göstərilən hüquqların mahiyyət etibarilə insanın şəxsi hüquqları olub-olmadığını aydınlaşdırmalıyıq.

Şübhə yoxdur ki, seçki hüququ azad və demokratik cəmiyyətin əsasıdır. İnsanın öz iradəsini sərbəst və real ifadə etmək hüququnun digər əsas şəxsi və siyasi hüquqların qorunub saxlanmasına şərait yaratdığını nəzərə alsaq, onda seçki hüququnun ehtimal edilən hər hansı pozuntusu çox diqqətlə və pedantik şəkildə yoxlanmalıdır.

Qanunvericilər ağacları və ya torpaq sahələrini yox, insanları təmsil edirlər. Və qanunvericiləri seçənlər də fermalar, şəhərlər və ya iqtisadi mənafelər deyil, məhz seçicilərdir. Nə qədər ki, bizdə nümayəndəli idarəetmə hüququ mövcuddur, qanunvericilərin sərbəst və real seçilməsi hüququ bizim siyasi sistemin dayağı olacaqdır. Aydındır ki, müəyyən kateqoriyaya aid seçicilərin öz qanunverici məclisinin üzvlərinə səs verməsi qadağan edilmişdirsə, deməli, bu halda Konstitusiya pozulmuşdur. Eyni ilə Ştatın bir hissəsindəki vətəndaşların səslərinin əhəmiyyəti həmin Ştatın başqa hissəsindəki vətəndaşların səslərinin əhəmiyyətindən iki, beş və ya on dəfə çoxdursa, onda şübhəsiz ki, Ştatın bu hissəsində yaşayan bədbəxt vətəndaşların səsvermə hüquqları daha azdır. Burada nəzərdən keçirdiyimiz seçki dairələrinin bölünməsi üçün tətbiq edilən sxem – müxtəlif sayda seçicilərə eyni sayda nümayəndələr verən sxem məhz bu cür sxemdir. Hər hansı metodlardan və ya vasitələrdən istifadə etməklə, yalnız seçicilərin yaşayış yerinə görə vətəndaşların səsləri arasında hər hansı fərqlər qoyulması çətin ki, qanuni hesab edilə bilər...

Nümayəndəli idarəetmə prinsipinə əsaslanan cəmiyyətdə yalnız o sxem ədalətli hesab edilə bilər ki, həmin sxemə əsasən, Ştatın vətəndaşlarının əksəriyyəti Ştatın qanunvericilərinin əksəriyyətini seçə bilsin. Qanunverici orqana əhalinin az hissəsi tərəfindən nəzarət edilməsinə imkan verilərsə bu, azlığın hüquqlarının çoxluq tərəfindən bəzən pozulması ilə müqayisədə çoxluğun hüquqlarının qat-qat ciddi şəkildə pozulmasına gətirib çıxara bilər. Lakin ənənəyə görə [qanun tərəfindən] bərabər müdafiə olunma haqqında konsepsiya dövlətin mübahisə və ya protest doğuran hərəkətlərinə münasibətdə eyni vəziyyətdə olan bütün şəxslərə bərabər

Satış üçün nəzərdə tutulmayıb

münasibət bəslənməsini tələb edir. Vətəndaşların səslərinin əhəmiyyətinin coğrafi əlamət əsasında şüurlu şəkildə azaldılması XIV Düzəlişdə zəmanət verilən əsas konstitusion hüquqa zidd olmaqla, irqi mənsubiyyət və iqtisadi status kimi amillər əsasında təhkiredici ayrı-seçkiliyə bərabər tutulur. Bizim konstitusiya sistemi çərçivəsində azlıqların hüquqlarını müdafiə etmək üçün kifayət qədər üsul nəzərdə tutulmuşdur, lakin bu sistem qanunvericilik məclisində nümayəndələrin əksəriyyətini seçmək hüququnu əhalinin azlığına verilməsini nəzərdə tutmur.

Bizi inandırırdılar ki, Ştatın qanunvericilik məclisində yerlərin yenidən bölüşdürülməsi məsələsi dolaşıq və heç də birmənalı olmayan məsələdir. Bizə bildirmişdilər ki, guya ştatların əhalinin sayından başqa digər amilləri nəzərə almaları üçün hansısa səbəbləri vardır. Bizi dilə tuturdular ki, Ştatın öz vətəndaşlarına siyasi baxışları tələqin etmək məsələsində biz Ştatın hakimiyyətini məhdudlaşdırmayaq. Bizə məsləhət görürdülər ki, təhlükəli siyasi cəngəlliklərə və riyazi hesablamalara baş qoşmayaq. Bu məsləhətlərə cavabımız belə olacaq: Konstitusiya ilə müdafiə edilən hüquqların pozulması məhkəmə yolu ilə müdafiə tələb edir; içdiyimiz and və tutduğumuz mövqe bizim başqa cür hərəkət etməyimizə imkan vermir.

İnsanın seçki hüquqları nə qədər pozulursa, onun vətəndaşlığı bir o qədər azalır. Vətəndaşın səsinin əhəmiyyəti onun harada yaşamasından asılı ola bilməz. Əhalinin sayı qanunvericilik məclisində yerlərin bölüşdürülməsi barədə mübahisələrin həllində məcburi başlanğıc nöqtə və əsas meyardır. İnsanın seçki hüququ həmin insanın şəhərdə və ya fermada yaşamasından asılı olaraq artıb-azala bilməz. Konstitusiyada təsbit olunmuş bərabər müdafiə olunma haqqında müddəanın dürüst və aydın təminatı məhz bundan ibarətdir. Linkolnun təsəvvür etdiyi "xalqın rəhbərlik etdiyi və xalqa xidmət edən xalq hakimiyyəti"nin əsasını da bu prinsip təşkil edir.

Biz belə hesab edirik ki, əsas konstitusion standartına görə bərabər müdafiə olunma haqqında müddəa tələb edir ki, Ştatın iki palatalı qanunverici məclisinin hər iki palatasında yerlər vətəndaşların yaşadıqları yerdə onların sayına müvafiq olaraq bölüşdürülsün. Başqa sözlə desək, vətəndaşın səsinin əhəmiyyəti həmin Ştatın başqa yerlərində yaşayan vətəndaşların səsləri ilə müqayisədə ciddi şəkildə azalırsa, vətəndaşın öz Ştatının qanunvericilik məclisinin üzvlərini seçmək hüququ pozulmuş olur.

Mənbə: U.U. 533 (1964)

Satış üçün nəzərdə tutulmayıb

69. Qadınları Milli Müdafiə Təşkilatının Bəyannaməsi (1966)

1960-cı illərdə Amerikan qadınlarına azlıq demək bəlkə də düzgün olmazdı – çünki onlar əhalinin 51% təşkil edirdilər. Fəqət qadınlar özlərini təqib olunan bir sıra kiçik qruplarla eyni tutub azadlıq və bərabərlik tələbini qoydular. Cinsi əlamətə görə ayrı-seçkilik amerikan cəmiyyətində o qədər zəif görünən idi ki, müasir feministlər daha artıq bərabər olmaq naminə yeni səbəblər arayıb-axtarmağa başlayanda cəmiyyətin qınaq və qəzəbinə tuş gəldilər. Hər halda yeni qadın hərəkatının səyləri hədər getmədi. Qısa müddət ərzində onlar qanunvericilikdə bəzi dəyişmələr aparılmasına nail oldular. Belə ki, bərabər əməyə görə qadınlara bərabər əməkhaqqı zəmanəti verilirdi; işə qəbulda ayrı-seçkilik yasaq olunurdu; bundan savayı illərlə hökm sürən ayrı-seçkilik formalarını ortadan qaldıran bir sıra məhkəmə qərarları da işıq üzü gördü.

Bu oyanışın ən ümdə nəticələrindən biri şübhəsiz ki, milyonlarla qadının işçi bazarına yenidən qayıtmağı oldu. Sözsüz ki, bu qayıdış qadınların iqtisadi müstəqilliyini artırdı. Ancaq üz tutduqları iş yerlərinin çoxunda onlar yenə də köhnədən qalma cinsi ayrı-seçkiliklə qarşılaşdılar. Faktiki olaraq qadınlara bir sıra məşğuliyyət, daha doğrusu yaxşı əməkhaqqı verilən, ya da xidməti yüksəlişə imkan yaradan fəaliyyət qadağan olunurdu. Qadınlar bəyan etdilər ki, bütün günü işdə məşğulluğa baxmayaraq, cəmiyyət yenə onlardan eveşiklə bağlı ənənəvi vəzifələri yerinə yetirməyi də tələb edir. Əksinə, belə hesab olunurdu ki, işdə başını qatan kişilər nə ev təsərrüfatı, nə də ki, uşaqların tərbiyəsi ilə məşğul olmamalıdır.

Qadın hüquqları uğrunda mübarizədə Betti Fridanın *(Betty Friedan)* 1963-cü ildə işıq üzü görən "Qadın mistikası" *(The Feminine Mystique)* adlı kitabı mühüm hadisəyə çevrildi. Bu kitabda Betti Fridan cəmiyyətdə qadını aşağı sosial pillədə saxlayan bir sıra mühüm cəhətlərə toxunurdu. Həmin kitab feminizm nəzəriyyəsinə töhfə olmaqla yanaşı, genişlənməkdə olan hərəkata daha da vüsət gətirdi. Elə həmin vaxtda Con Kennedi "Qadın statusu üzrə prezident komissiyası" *(Commission on the Status of Women)* yaratmışdı və həmən il onun təşəbbüsü ilə "Əməkhaqqının bərabərliyi barədə xüsusi akt" *(Equal Pay Act)* da qəbul edildi. 1964-cü ildə "Vətəndaş hüquqları haqqında akt"ın *(Civil Rights Act)*

Satış üçün nəzərdə tutulmayıb

7-ci fəslinə təzədən baxıldı. Qadınların müdafiəsinə rəvac verən digər işlək mexanizmlər də ortaya qoyuldu.

Ancaq bütün bu nailiyyətlərə baxmayaraq, Fridan və bir neçə feminist qadın, eləcə də bir neçə kişi daxil olmaqla 1966-cı ildə "Qadınların Milli Müdafiə Təşkilatı"nı *(National Organization for Women (NOW))* yaratmağı vacib bildilər. Əvvəlcə həmin təşkilat əsas diqqəti işləyən qadınların problemlərinə yönəltdi. Bu qurum qadınların istehsalatda, siyasətdə və ictimai həyatın başqa sahələrində köhnəlmiş kişi təsəvvüründən irəli gələn ayrı-seçkiliyi pislədi. Məsələn, hüquqi və iqtisadi ayrı-seçkiliyin elə bir elementi tənqid olundu ki, ona görə bankların ərli qadınlara kredit ayırmasına icazə verilmirdi. NOW-nun məlumatına görə, artıq həmin onilliyin sonunda bu təşkilatın 15 mindən artıq üzvü vardı.

NOW-nun bu bəyannaməsi müasir feminist hərəkatının əsas istiqamətlərini müəyyən etdi. Bir çox qadın və kişilərin "feminizm" yarlıkını bəyənmədiyinə baxmayaraq, hər halda onlar NOW-nun əsas tələbləri ilə razılaşdılar. Qadın iş yerində kişi ilə eyni hüquqda olmalı, əməyinə görə kişilərlə bərabər əməkhaqqı almalı, öz bacarığı müqabilində cəmiyyətdə münasib vəzifə və peşəyə yiyələnməlidir.

Əlavə məlumat üçün oxuyun: Betty Friedan, The Feminine Mystique (1963); Susan M. Hartman, From Margin to Mainstream: Women and American Politics Since 1960 (1989); Winifred Wandersee, On the Move: American Women in the 1970s (1988); Nancy Cott, The Grounding of Modern Feminism (1987).

QADINLARI MİLLİ MÜDAFİƏ TƏŞKİLATININ BƏYANNAMƏSİ

Biz, "Qadınların Milli Müdafiə Təşkilatının" (NOW) üzvü olan kişilər və qadınlar belə hesab edirik ki, Amerikada bütün qadınların bərabərliyini təmin etmək və cinslərin əsl bərabər hüquqlu əməkdaşlığını bərqərar etmək naminə bu gün yeni bir hərəkət yaratmağın vaxtı yetişib. Bu hərəkat istər ölkəmizdə, istərsə də ondan çox-çox uzaqlarda baş verən ümumdünya insan hüquqları inqilabının bir hissəsidir.

NOW belə hesab edir ki, qadınlar Amerikanın ictimai həyatında hərtərəfli iştirak etməlidir; kişilərlə partnyorluqda hər cür imtiyaz və məsuliyyəti bölüşdürə bilməlidir.

Satış üçün nəzərdə tutulmayıb

Belə hesab edirik ki, son illər qadın özəlliyi, qadın statusu haqda cəmiyyətimizdə aparılan müzakirə və psevdoelmi mübahisələrin, mücərrəd arqumentlərin çərçivəsindən çıxmağın vaxtı yetişibdir. Elə bir zaman gəlib çatıb ki, qadına, istər Amerika vətəndaşlarına, istərsə də bəşər övladına məxsus seçim azadlığından bəhrələnməyə maneçilik törədən səbəblərə qarşı konkret tədbirlər görülməlidir.

Qadın, hər şeydən əvvəl, bəşər övladıdır və onun, cəmiyyətin başqa üzvləri kimi, öz bacarığını ortaya çıxarmaqdan ötrü imkanları olmalıdır. Belə sayırıq ki, qadın bərabərhüquqlu vətəndaşa o vaxt çevrilə bilər ki, o, kişilərlə bir cərgədə bütün məsuliyyət və sınaqları bölüşdürə bilsin; bu minvalla da Amerikanın siyasi, iqtisadi və sosial həyatına dair vacib qərarların qəbul edilməsində bərabər səlahiyyət qazansın.

Təşkilatımız qadın hüquqlarının müdafiəsinə yönəlmiş bütün ölkədə, ayrı-ayrı yerlərdə, müxtəlif qurum və şəxslərin rəhbərliyi ilə keçirilən aksiyalara dəstək verəcək. Güman edirik ki, bu dəstək dövlət qulluğunda, sənayedə, peşə seçimində, kilsələrdə, siyasi partiyalarda, məhkəmə sistemində, həmkarlarda, təhsildə, elmdə, səhiyyədə, ədliyyədə, dində və ölkəmizin ictimai həyatının hər hansı vacib sahəsində qadınlara qarşı ayrı-seçkiliyi aradan qaldırmaq üçün mübarizəyə rəvac verəcəkdir.

İndiyə qədər ölkədə, tutaq ki, zəncilərin, yaxud ayrı-seçkiliyin başqa qurbanlarına tərəfdar qurumlar kimi qadın hüquqlarının müdafiəsi üçün heç bir hərəkat nəzərə çarpmayıb. Odur ki, Qadınları Milli Müdafiə Təşkilatı bu vəzifənin öhdəsindən gəlməyə çalışacaq.

Belə hesab edirik ki, cəmiyyətdə cinsi əlamətinə görə ayrı-seçkiliyə birdəfəlik son qoymaq üçün amerikan qanunları və insan hüquqlarının konstitusion müdafiəsi düzgün yozulmalı və həyata keçirilməlidir. Qanun və Konstitusiya qadınlara işdə və təhsildə bərabər imkanlar verməli, onlar, kişilərlə bərabər vətəndaş hüquqlarına və eyni məsuliyyətə malik olmalıdırlar. Qadınlar, ölkədə yaşayan zəncilər və haqqı pozulan qeyri qruplarla eyni şəkildə müdafiə edilməlidirlər.

Orasını da başa düşürük ki, qadın problemləri ümumi sosial ədalət problemidir, bu səbəbdən də onların həllində bir sıra qrupların səyləri cəmləşməlidir. Əlbəttə, insanların ümumi hüquqları bölünməzdir, elə bu səbəbdən də ölkədə ayrı-seçkiliyə və məhrumiyyətlərə bütün düçar olmuşların haqqını bərpa etməyə yardımçı olacağıq; eyni zamanda biz, bu ideallara can atan başqa təşkilatları da qadın hüquqlarının müdafiəsinə qoşulmağa çağırırıq.

Belə hesab edirik ki, barmaqla sayılası qədər bir neçə qadının hökumətdə və biznesdə yüksək vəzifələrə təyin olunması, ümumilikdə qadınların

Satış üçün nəzərdə tutulmayıb

hüquqlarını təmin etməkdə, qadınların öz bacarığına və şəxsi keyfiyyətlərinə görə irəli çəkilməsində o qədər də böyük rol oynamır. Elə bu məqsədlə biz Amerika hökumətini və biznes rəhbərlərini problemə açıq gözlə baxmağı, qadınların inkişafına mane olan əngəlləri aradan qaldırmağa səsləyirik.

O fikirdəyik ki, başqa millətlər kimi biz də qadınlara özlərinin analıq və ailə borclarını yerinə yetirməklə yanaşı, cəmiyyətdə mövcud olan imkanları, həm də məsuliyyəti bölüşməkdə onlara yardım göstərəcək, bundan ötrü yeni ictimai institutlar yarada biləcəyik. Amerika bu sahədə heç də ilk dövlət olmayacaq. Əksinə, biz bu məsələdə Avropa ölkələrindən on illərlə geridə qalırıq. Heç vəchlə, az qala ənənəyə dönmüş o rəylə razılaşa bilmərik ki, guya qadın ya ərə gedib, analığı seçməli, ya da ki, istehsalatda ciddi şəkildə iştirak etməlidir.

O fikirlə də razılaşa bilmərik ki, guya hər hansı qadın özünü bilavasitə uşaqların tərbiyəsinə həsr etmək naminə işdən 10, ya 15 il aralanmalıdır, həmin dövrdən sonra da o, hər şeyi yenidən başlamalıdır. Belə bir baxış, heç şübhəsiz ki, qadınların idarəçilik, təkmilləşdirilmə kurslarına daxil olmasına da ciddi əngəl törədir, həm də əksər qadınları real seçimdən və imkanlardan aralı salır. Biz o fikirlə də razılaşmırıq ki, hər bir qadın öz qarşısına çıxan problemləri guya müstəqil tərzdə həll etməlidir, bizim rəyimizə görə, həmin sosial dilemmanı cəmiyyət həll etməyə borcludur. Bütün qadınlar üçün imkan bərabərliyi və seçim sərbəstliyini təmin etməkdən ötrü uşaqlara qayğı şəbəkəsi deyilən yeni ümummilli mərkəzlər qurulmalıdır. Həmin mərkəzlər uşağın tərbiyə dövründə qadına cəmiyyətlə əlaqəni üzməmək üçün şərait yaradardı. Öz vaxtını uşaqların tərbiyəsinə həsr eləmiş qadının öz ixtisasının təkmilləşdirilməsi üçün xüsusi milli proqramlar nəzərdə tutulmalıdır.

Biz belə hesab edirik ki, oğlanların hər birisi kimi, qızların da öz bacarığına görə təhsil alması vacibdir. Belə təhsil bugünkü iqtisadiyyatda səmərəli iştirakın açarı sayılır, həm də hər hansı qız xeylağı bu məsələyə o vaxt ciddi münasibət bəsləmiş olar ki, aldığı təhsili sonradan cəmiyyətdə istifadə edə bilsin. Hesab edirik ki, qızlarda belə ümid oyatmaq sahəsində amerikan pedaqoqları müxtəlif vasitələr arayıb tapmağa qadirdir.

Eyni zamanda biz ali və peşə təhsili alan qadınlar arasında nisbətin enməsi halını da bu sahədə ayrı-seçkiliyin bariz nümunəsi kimi qiymətləndiririk. Belə ayrı-seçkilik qadınların kolleclərə, peşə təhsili məktəblərinə müəyyən kvota üzrə qəbulunda açıq-aydın sezilir; valideynlər, məsləhətçilər və müəllimlər isə bu işə biganə yanaşırlar. Qadınlar üçün təqaüdlər, təhsil haqqını ödəmək üçün bank kreditləri də yox dərəcəsindədir. Əsasən

Satış üçün nəzərdə tutulmayıb

kişilərə hesablanmış ənənəvi və ya yeni tədris üsulları bilavasitə qadın hüquqlarına xələl gətirir. Biz belə güman edirik ki, orta məktəbi bitirən qızlara oğlanlarla eyni diqqət və ciddi qayğı göstərməyin vaxtı gəlib çatıbdır.

Biz bu vaxta qədər mövcud olan o fikirlə razılaşmırıq ki, guya hər bir kişi özündən savayı arvadının və bütün ailəsinin məsuliyyətini təkbaşına daşımalıdır. Belə bir təsəvvür hökm sürür ki, guya qadın ərə gedəndən sonra əri tərəfindən ömürlük təminat hüququ qazanmış olur. Ev-ailə isə guya yalnız qadının cavabdeh olduğu sahədir. Belə ki, qadın evin içərisində hər şeyi qurmalı, kişi isə yalnız ona dəstək verməlidir. Hesab edirik ki, cinslər arasında əsl əməkdaşlıq məhz bağlanan nikahın digər konsepsiyanı – evə, uşaqlara qayğıda, eləcə də ailənin maddi durumunda vəzifələrin bərabər hüquqlu bölgüsünü tələb edir.

Bundan savayı belə hesab edirik ki, evin və uşaqların qeydinə qalmaq da istər iqtisadi, istərsə sosial baxımdan lazımi qaydada dəyərləndirilməlidir.

Elə bu məqsədlə də nikah və boşanmanı tənzimləyən qanun-qaydaların təkrar nəzərdən keçirilməsinə ehtiyac duyulur. Çünki, fikrimizcə, cinslər arasında "yarımbərabərlik" vəziyyəti istər qadınlara, istərsə kişilərə zərər gətirir, hətta bəzən cinslər arasında mənasız, sonu görünməyən nifaqa aparıb çıxarır.

Biz o fikirdəyik ki, bütün Amerika vətəndaşları kimi qadınlar da cəmiyyətdəki bütün siyasi hüquqları və məsuliyyəti bölüşdürə bilməlidir.

Bəzi siyasi partiyaların ikinci dərəcəli qurumlarında fəaliyyət göstərən qadınlar "xüsusi, amma qeyri-bərabər xanım" statusundan imtina etməlidirlər. Qadınlar fəaliyyətdə olan partiya komitələrində (yerli, Ştat və Milli səviyyədə) və qeyri-rəsmi hökumət qurumlarında özlərinin sayına görə nümayəndəlik istəməlidir. Həmçinin onlar siyasi qərarların qəbul olunmasında iştirak etməli, namizədlərin irəli sürülməsində, hansısa vəzifəyə seçki yolu ilə gəlməkdən də çəkinməməlidir.

Bu gün biz qadının bir qədər alçalmış, hüquqları alınmış surətini dəyişməkdə israrlıyıq. Belə bir surətə kütləvi informasiya vasitələrində, nitqlərdə, mərasimlərdə, qanunlarda, bizim sosial müəssisələrin iş təcrübəsində tez-tez rast gəlinir. Dediyimiz surət cəmiyyətdə qadına barmaqarası baxmaq təsəvvürünü az qala əbədiləşdirir. Eyni zamanda qadının öz-özünə şəkki də adi hal alır. Biz kilsələrdə, dövlət aparatında, kollec, fabrik və ofislərdə guya ki, qadına qayğı pərdəsi altında həyata keçirilən təcrübəyə, qanun-qaydalara qarşı öz etirazımızı bildiririk. Belə "qayğı" qadına öz imkanlarını nümayiş etdirməkdənsə, əksinə onda natamamlıq kompleksi, kimdənsə asılılıq, məsuliyyətdən qaçmaq hissi aşılayır. Beləliklə, qadın

Satış üçün nəzərdə tutulmayıb

getdikcə öz bacarığına inamını itirir, buna rəğmən cəmiyyətdə də qadına yuxarıdan aşağı baxırlar.

Ümumi məqsədə doğru aparan qüvvələri, o cümlədən qadın və kişilərin siyasi qabiliyyətini bir yerə cəmləmək naminə hər hansı partiyadan asılı olmaq istəməzdik. Çalışacağıq ki, heç bir partiya, namizəd, prezident, senator, qubernator, konqresmen, yaxud da cinslər arasında bərabərliyə laqeydlik göstərən hər hansı rəsmi şəxs heç bir vəzifəyə təyin olunmasın, ya da seçilməsin. Biz məqsədimizə xidmət göstərən kişilərin, qadınların səslərini bir hədəfə yönəltməyə cəhd göstərəcəyik. Məqsədimiz isə aydındır – qadınlar bütünlüklə azad, bərabərhüquqlu məxluqlar sayılmalıdır.

Belə hesab edirik ki, qadınlar elə günü bu gündən öz hüquqları, azadlığı və ləyaqəti uğrunda mübarizəyə girişsələr, yeni qadın surətini yaratmaqda böyük uğurlar qazanmış olarlar. Qadınlar öz hüquqlarını o vaxt bütövlükdə əldə edər ki, tək-tək imtiyazlar uğrunda çarpışmaqdansa, bu gün cinslər arasında yaşanan, özləri də "yarımbərabərlik" prinsipinin qurbanına çevrilən kişilərlə ziddiyyət yaratmasınlar. Əksinə, kişilərlə münasibət, fəal qarşılıqlı hörmət və bərabərhüquqlu partnyorluq özülündə qurulmalıdır. Belə olarsa qadınların öz bacarıq və qüvvələrinə inamı artar, onlar kişilərlə bir cərgədə, çiyin-çiyinə öz həyatlarını, gələcəyini və ətrafdakı cəmiyyəti lazımınca qura bilərlər.

Mənbə: Mary Beth Norton, ed., Major Problems in American Women's History (1989), 397-400.

Satış üçün nəzərdə tutulmayıb

70. Biz Azad Deyilik (1967)

Klayd Vorrior

Yerli amerikalılar olan hindular uzun müddət ərzində Amerikan cəmiyyətinin əsas sahələrindən ayrı düşüblər. On yeddinci yüzillikdən on doqquzuncu əsrin sonuna qədər onlar bütün torpaqlardan qovularaq əvvəlcə qərbdə, sonra isə xüsusi düşərgələrdə dövlətin cüzi müdafiəsi və rəmzi qəyyumluğu altında yaşayıblar. Ancaq dövlətin ardıcıl olaraq qəbilə birliyinə dəstək verməsinə baxmayaraq, gündəlik üzə çıxan problemlər nəticəsində hinduların vəziyyəti daha da ağırlaşıb. Bəzi qəbilələr, o cümlədən Hopi və Navaho hindu tayfaları öz mədəni irslərini azacıq qoruyub saxlamağa çalışsalar da, əksər hallarda hindu uşaqları öz valideynlərindən qoparılaraq ağların məktəblərində, guya onları "mədəniləşdirmək" məqsədi ilə oxutdurulub. Bu üzdəniraq siyasətin nəticəsində həmin uşaqlar böyüyüb, ancaq "ağlara" çevrilməyib, əksinə özlərinin olan-qalan qəbilə köklərini də itiriblər.

1961-ci ildə 67 tayfadan 400-ə qədər nümayəndə, hinduların öz hüquqları uğrunda cəhdlərini birləşdirmək naminə Çikaqoya toplandılar. Onların qəbul etdiyi manifestdə ABŞ-ın İstiqlaliyyət Bəyannaməsindən götürülmə ideyalar çox idi. Bundan savayı, hinduların "öz həyat tərzlərini seçmək" və "qədim irslərini qorumaqda məsuliyyət daşıdıqları" xüsusi olaraq qeyd edilirdi.

Çikaqo konfransı amerikan hindularının artmaqda olan milli düşüncə səviyyəsinə bariz nümunə idi. Belə ki, elə ordaca hindular özlərini "yerli amerikanlar" *(Native Americans)* adlandırmağı qərara aldılar. Hindu müəlliflərindən Vayn de Loria *(Vine DeLoria)* və Dii Braun *(Dee Brown)* özlərinin yazdığı kitablarda ağların yüz illər boyunca onların başına gətirdiyi bəlalardan söhbət açdılar. 1968-ci ildə isə "Amerikan hindu hərəkatı" təşkil olundu (AIM).

Hinduların belə fəallığı dövləti onların problemlərinə daha diqqətlə yanaşmağa, bu qəbildən olan siyasətində dəyişmələr aparmağa sövq elədi. Ancaq təqib olunan başqa qruplar kimi hindulara qarşı da ayrı-seçkilik o dərəcədə şiddətli idi ki, dövlətin bu baxımdan nəzərdə tutulan tədbirləri hinduların dərdinin üstünə dərd gətirdi və nəticədə yeni tələblər ortaya çıxmış oldu.

Bu mübarizədə AIM tərəfindən ara-sıra zor da işlənirdi. Belə ki, bu

Satış üçün nəzərdə tutulmayıb

təşkilatın üzvləri Vundid Nii *(Wounded Knee)* deyilən yeri (Şimali Dakotadakı bu məntəqədə 1890-cı ildə federal qoşunlar Siu tayfasından olanları kütləvi surətdə qırmışdılar) güclə tutmuşdu. Lakin tezliklə, hindu tayfalarının çoxusu artıq dinc yolla mübarizə aparmağı, yəni qanunvericilik orqanlarında, məhkəmələrdə mücadilə etməyi öyrənmişdilər. Hindu fəalları bu yolla, federal dövlətlə keçmişdə bağlanmış müqavilələrə əsasən, onlara məxsus hüquq və imtiyazları qazanmaqda idilər. Halbuki həmin müqavilələrdəki bəndlər uzun illərdi ki, inkar edilirdi.

Bu yerli amerikalılar heç də amerikan cəmiyyətinin sıralarına qatılmaq, onların cərgəsində sayılmaq uğrunda mübarizə aparmırdı. Onların mücadiləsi "Qeyrisi olmaq hüququnu qazanmaq" və bu yolda alçalıb əzilməmək üstündəydi.

Hindu millətçiliyi və tayfalar arası birliyin bərqərar olunmasında 1961-ci il Çikaqo konfransından sonra yaradılan "Hindu Gənclərin Milli Şurası" vacib mərhələ sayılmalıdır. Həmin Şuranın gənc liderləri, o cümlədən Şuranın Klayd Vorrior *(Clyde Warrior)* kimi mübarizləri dərin islahatlar uğrunda çarpışır, eyni zamanda hinduların yaşlı nəslini tayfa maraqları uğrunda süst mübarizə aparmaqda suçlayırdılar.

1967-ci ilin 2 fevralında hindu ağsaqqalların prezident Lindon Consonla görüşündə onlar, hindu işləri üzrə federal nəzarətdə olan qanun layihəsində bir sıra çatışmayan cəhətlər barədə söz açdılar. Eyni anda Oklahoma Ştatının şərqində yaşayan Ponka tayfasından olan hindu Klayd Vorrior "Kənd bölgələrində yoxsulluq üzrə prezident tərəfindən yaradılan dövlət komissiyası"nda çıxış edirdi. Onun çıxışı birmənalı şəkildə hindulara azadlıq şüarı altında keçirildi. Bu çıxışın ən başlıca ideyası ondan ibarətdir ki, ağlar onlara öz problemlərini sərbəst həll etmək barədə icazə vermədiklərinə görə onlar öz yoxsulluq problemlərini də həll edə bilmirlər. Hindular istəyirdilər ki, Amerikadakı başqa qruplar kimi, onlara da öz taleyini həll etmək imkanı yaradılsın.

Əlavə məlumat üçün oxuyun: D.F. Henderson, Courts for a New Nation (1971); Julius Goebel, Antecedents and Beginnings to 1801 (1971); the first volume of the Holmes Devise, History of the Supreme Court of the United States; and Maeva Marcus, ed., Origins of the Federal Judiciary (1992).

Satış üçün nəzərdə tutulmayıb

"BİZ AZAD DEYİLİK"

Çoxumuzun yadındadır, biz hələ uşaq olanda vaxtımızın çoxu babalarımızın dizinin dibində keçib. Biz onda köhnə əyyamdan söhbətlərə qulaq asırdıq. O vaxt biz hindular böyük xalq sayılırdıq. Onda azad idik, varlı idik, günümüz-güzəranımız xoş keçirdi. Biz ahılların dilindən həm də quraqlıq, aclıq, yoluxucu xəstəliklər barədə cürbəcür söhbətlər eşitmişik. Yalnız bu yaxınlarda dərk eləmişik ki, o vaxtlar maddi sarıdan sıxıntı çəkməyimizə baxmayaraq, qocalarımız özlərini zəngin sayıblar, çünki onlar azad, sərbəst idilər. O vaxt bizimkilərdə ruh yüksəkliyi olub, bu günsə, hinduların hamısında ruh düşkünlüyü hökm sürür. Bizim hələ də insanı meyillərimiz və hisslərimiz var (ona da indiki vaxtda çox nadir hallarda rast gələrsən), fəqət ruhumuz yoxsuldur, çünki biz azad deyilik. Biz, sözün əsl mənasında azad deyilik! Belə ki, hər bir azad və boya-başa çatmış insanın haqqı olan onun şəxsi taleyi, icmalarımızın taleyi haqqında qərar qəbul etmək imkanı əlimizdən alınıb. Elə bil ki, evlərimizin doqqazında, yaxud öz həyət-bacamızda oturub həyatın bir az aralıdan, gözümüzün qabağından, gəl ki, şəxsi iradəmizdən çox-çox uzaq, onu zərrəcə dəyişmək imkanımız olmadan ötüb keçdiyini seyr eləyirik.

Bəli, biz azad deyilik. Seçim də əlimizdə deyil. Bizim yerimizə hər şey saf-çürük olunur; biz yazıq adamlarıq. Rezervasiyalarda yaşayanların əvəzinə federal hökumət canfəşanlıq eləyir. Nə üçünsə, "tayfa rəhbərliyi" adlandırılan hansısa adamlar və dövlət məmurları bizim yerimizə "bəli" deyir. Rezervasiyalardan kənarda yaşayanların taleyinə isə yerlərdəki ağ elita göz qoyur. Neyləməli, başımızın üstündə ağamız çoxdur. Sosial xidmət əməkdaşları, polislər, məktəb müəllimləri, kilsə xadimləri və s. Bunlar azmış kimi "İqtisadi imkanlar bürosu" deyilən qurum da o böyürdən çıxıb. Biz mütəmadi görüşlərə çağırılırıq; xeyrimizin nədə olduğunu bizə bəyan eləyir, bununçün hansı proqramları tərtib etdiklərini söyləyirlər. Belə adamlar evimizə ayaq basıb bizə yaşamaq öyrədir. Deyim ki, onların davranışı da istər hindu, istərsə özgə adətlər baxımından o qədər də nəzakətli təsir bağışlamır.

Bizə çox nadir hallarda insan kimi rəğbət bəsləyirlər. Uşaqlarımız məktəbdən evə hindu valideynlərinə görə kor-peşman qayıdır. Biz problemik, baş ağrısıyıq, "kasıblıq rəmziyik". Düz deyirlər… Amma orası da düzdür ki, bizim ağıllı nəticələr çıxarmağımıza azadlığımızın kifayət qədər olmaması, ruhumuzun kəmliyi təsir göstərir. Maddi yoxsulluğumuzun səbəbi ruhumuzun kəmliyidir.

"Hindu Gənclərin Milli Şurası" başa düşür ki, Amerikada, hər cürə proqramları yerli hakimiyyət orqanlarının əlində saxlamaq istəyən adamlarla, federal dövlətin pul kisəsinə göz dikən kəslər arasında daima qalma-

Satış üçün nəzərdə tutulmayıb

qal labüddür. Bu qalmaqalın bizə heç bir dəxli yoxdur. Çünki hələ bu vaxtacan heç kəs etiraf etməyib ki, yoxsulların taleyinə nəzarət və eləcə də məzlum insanların taleyi məhz onların öz əllərinə tapşırılmalıdır. Yerlərdəki ağdərili elita federal nəzarətə daha çox dodaq büzür. Çünki onlar dolayısı yolla hinduların mənəvi və maddi səfalətindən qaz vurub qazan doldurmaq niyyətindədirlər.

Federal hökumətin paternalist nəzarəti altında rezervasiyalarda yaşayanların da aqibəti ürəkaçan deyil. Əslində biz federallar və "hindu ərazilərində sosial proqram"ın yerli rəhbərləri arasındakı məngənədə sıxılıb qalmışıq. Bəzilərimiz, hətta ondan nigarandır ki, ortaya çıxan problemlər guya "yoxsulluqla mübarizənin" təbii görsəntiləridir. Belə hallar həm də o ərazilərdə özünü büruzə verir ki, oralarda "yoxsulluqla mübarizə" deyilən prosesdən hamı razıdır. Daha doğrusu, harda ki, federal hökumət "çeviklik" nümayiş etdirir, orda hindular üçün ayrılan federal pullar əslində yerli hökumət və idarəetmə orqanlarını saxlamağa xərclənir. Mən "hamı razı qalır" deyəndə "mühüm adamları", əgər demək mümkünsə, seçilib-sayılan insanları nəzərdə tuturam. Hindular və yoxsullar isə bu sıradan deyil.

Gəlin, misal üçün, "Əsas Başlanğıc Proqramı"nı götürək. Burda, abırlı, orta sinfin irqçiliyindən kənar olan bir dildə təlqin olunur ki, bizim uşaqlarımız "məhrumlardır". Nədən məhrum olduqları isə aydın deyil. Evlərimizdə biz öz uşaqlarımıza məhəbbətimizi, şəfqətimizi veririk, onlara mənlik aşılayırıq. Daha doğrusu, qayğıkeş insan bəndəsi olmaq üçün vacibi keyfiyyətlər aşılayırıq. Çox ehtimal ki, onlardan əksəri yeniyetməlik çağında, ola bilsin ki, bizim onlara aşıladığımız şəfqət, məhəbbət, rəğbət, mənliyin çoxluğu sarıdan əziyyət çəkəcəklər. Axı indi onlar kimdir? Çox olsa, kompyuter vərəqində IBM nömrəsinin altında gedənlərdi və onların bir parası bununla barışmağa çətinlik çəkir. Üstəgəl bir çox müəllimlər, hətta siyasi xadimlər, deyəsən o gümandadır ki, biz biçarə hinduların öz işlərimizin öhdəsindən gəlməyə belə qabiliyyətimiz çatmır. Hətta öz uşaqlarımızı da lazımınca böyüdə bilmirik; belə fikir yürüdülür ki, dövlət müəssisələri uşaqlarımızı əlimizdən almaqla həmin işi öz öhdəsinə götürür və bu, nə qədər tez olsa, o qədər yaxşıdı. Nənəm keçən həftə mənə nə desə yaxşıdı: "Nə qədər vaxt var, qızına tərbiyə ver. Sonra bu işi məktəbdə müəllimin öhdəsinə buraxacaqlar". Nə yaxşı ki, "Əsas Başlanğıc Proqramı" barədə pedaqoqların çıxışlarından sonra yaranan şübhələrimiz özünü doğrultmadı. Kənd yerlərində həmin proqram, nədənsə heç kəsin ciddi saymadığı federal səviyyədə maliyyə dəstəyi ilə üzə çıxan uşaq bağçaları tərəfindən yada salındı. Məlum oldu ki, proqram heç də uşağı doğma evdən qoparmağa çalışmır. "Əsas Başlanğıc…" ola bilsin bir proqram kimi yüksək səviyyəli kollec müəllimlərinin etibarını doğrultmayıb. Elə kasıblar da bunu böyük sevinclə qarşılamadılar. Ancaq nədənsə yerli hökumət

Satış üçün nəzərdə tutulmayıb

orqanlarının bu proqramdan ötrü çiçəkləri çırtdamışdı. Sözsüz, həmin proqram, necə deyərlər, "Heç kəsin dükanına kasadlıq gətirmədi" və imkan daxilində yerli idarələri daha da möhkəmləndirdi. Əlbəttə, yerli "patronlar" da ondan razılıq edirdilər.

50 il bundan əvvəl federal hökumət bizim icmalara təpilib zorla uşaqlarımızı əlimizdən aldılar və harasa uzaqlara – internat-məktəblərə apardılar. Atalarımız və mənim nəslimdən olan bir çox insanlar öz uşaqlıq dövrlərini, təxminən həbsxana şəraitində, elə oralarda keçirdilər. Qayıdıb gələndən sonra isə onların əksəri ana dilində kəlmə kəsə bilmirdi. Bəziləri içkiyə qurşandı. Bir parası isə ağdərili insanlara və faciə burasındadır ki, hətta hinduların özünə belə nifrət bəsləməyə başladı. Bəziləri qapalı insanlara çevrilib yollarını azdılar, həyatda onları əhatə eləyən daxili zahiri ziddiyyətlər arasında dolaşıb qaldılar. Gördüyünüz kimi, biz hinduların inkişafına xidmət göstərəsi belə federal proqramlara, demək olar ki, inamımız qalmayıb. Üstəlik, təhsilə də bütün dərdlərin çarəsi kimi baxmaq istəmirik.

Son günlər bəzilərimiz qorxuya düşüblər ki, qabaqlar icmalarımıza güclə sırınan assimilyasiya və bəzi tərbiyəvi proqramların güddüyü millətəritmə prosesi, uşaqlarımızın düşdüyü bugünkü vəziyyətlə müqayisədə, necə deyərlər, toya getməlidir. Bəli, bu gün amerikan təhsil sistemində hindu uşaqlarının bütöv bir oxumuş nəsli mövcuddur. Onlar öz qohum-qardaşlarına, mənim yaşıdlarıma, eləcə də atalarımızın nəslinə baxıban bir şeyi anlamaq istəyir, – həqiqətənmi biz layiqli insanlarıq? Onu deyim ki, onların düşüncə tərzi və ləyaqət anlamı da bir çox amerikalılar kimi tamamilə dəyişibdir. "Ləyaqət" deyəndə onlar səriştəni başa düşür, səriştə isə onların yozumunda ləyaqət deməkdir. Mən qorxuram ki, onlar məni və mənim atamı belə vəziyyətdə düzgün başa düşməsinlər. Və nəticədə bir fərd kimi biz ləyaqətli adamlar sayılmayaq. Hətta taleyin hökmü birdənbirə başımıza göydən var-dövlət yağdırsa belə, bizim bugünkü cavanların haqqımızda, eləcə öz barələrində mənfi münasibəti çətin ki, yumşala...

Aydındır ki, özlərini əskik, eləcə də çarəsiz adam sayanlar çox tezliklə içkiyə meyil göstərir, cinayət törədir, hətta intihar eləyənlər də var. Əgər biz cavanlarımıza hinduların bir fərd kimi, icmalarınsa səriştəli, yaxud ləyaqətli olduğunu sübuta yetirə bilməsək, çox tezliklə hinduların elə bir nəsli yetişəcək ki, bugünkü bəlalarımız onların sabah törətdiyi əməllərlə müqayisədə çəməndə məktəb piknikini xatırladacaq.

Balalarımızın, tayfamızın maddi və mənəvi rifahı naminə öz səriştəmizi nümayiş etdirməliyik. Biz psixi sabitlik, həm də fiziki sağlamlığımız xətrinə azad insanlar olmağa rəğmən seçki azadlığını həyata keçirməliyik. Öz taleyimiz barədə özümüz düşünməliyik. Eyni zamanda keçmişdə buraxdığımız səhvlərdən ibrət götürməliyik. Yalnız belə olan təqdirdə biz səriştəli və inkişaf edən icmalara çevrilə bilərik. Sözün hərfi mənasında biz

Satış üçün nəzərdə tutulmayıb

azad olmalıyıq, – hansısa gərəkli sayılan, ancaq iştirakımız olmadan, niyyətlərimiz nəzərə alınmadan qurulan proqramlar şəklində yox, – əsl azadlığı nəzərdə tuturam. Çünki Amerikada "yerli səviyyədə demokratiya" mənasında rast gəlinən çox şeylər adi dələduzluqdan başqa bir şey deyil. Bu işdə ustalaşan məmurlar, üzdən çox cazibədar görünən proqramları çox asanlıqda adi insanlara sırıyır. Belə proqramlar insanlara yaddı, başa düşülməyəndi. Adətən, bu cür proqramların axırı uğursuz olur, həm də hinduların özünə inamını daha da sındırır. Əslində isə "İcmaların inkişafı" sözün əsl mənasında, bu işə xidmət göstərməli, daha doğrusu, icmaları inkişaf etdirməlidir; kənar adamların hindu icmalarına sırıdıqları proqram paketləri şəklində yox. Bu paketləri biz hindular qəbul etməliyik, qəbul etməsək, bu, yenə növbəti dəfə "əməkdaşlıqdan" boyun qaçırmaq kimi qiymətləndiriləcək. Belə proqramların, hətta ən yaxşılarının belə ciddi xətası var – proqram yerinə yetirilmirsə, gəlmə rəhbərlik dolayısı, həm də yüngül yollara əl atır. Bu mənada hər hansı proqram, nəzərdə tutulduğu insanlar üçün ögeydir və heç bir xeyir gətirmir. Əslində isə bu cür proqramlarda biz hindu özəlliyini heç cürə nəzərdən qaçırmamalıyıq. Həmin proqramın nə üçün ləngidiyi də o vaxt üzə çıxar, onda biz də daha özümüzü natamamlıqda günahkar saymarıq. Mənə qalsa, hər bir yeni təkmilləşmiş proqram köhnə uğursuz proqramların səhvləri üzərində qurulmalıdır. Belədə tərəqqiyə yol əngəlsiz şəkildə açılar. Ancaq belə təcrübəni həyata keçirmək üçün özümüzdə olan qabiliyyətə, ləyaqətə, öz gücümüzə, hinduların bir gün maddi yüksəlişə çatacağına inanmalıyıq. Bunun üçün, sözün əsl mənasında məsuliyyət daşımalıyıq. Hindular da qeyri xoşbəxt amerikanlar kimi azadlığın dadını hiss etməlidir. Azadlıq və çiçəklənmə bir medalın iki üzüdür. Heç bir azadlıq məsuliyyətsiz başa gələn deyil. Məsuliyyət deyəndə uydurma məsuliyyəti və yalançı proqram demokratiyasını nəzərdə tutmuram. Çünki həmin proqramlar yad adamlar tərəfindən tərtib olunub. Ortadakı məsuliyyət də, istər federal məmurlar, istərsə də yerli ağdərili kübarlar olsun, – yenə də tamam biganə insanların əlindədir.

Bizim cavanlardan çoxusu amerikan şəhərlərindəki ağlı başdan aparan imkanlara sözün əsl mənasında vurulub. Aralarında təhsil görənlər varsa da, adətən onların əksəri zəif və təcrübəsiz icmalardan gəlib şəhərə düşürlər; onların çoxusu özlərini natamam sayırlar. Çoxları üçün işıqlı gələcək arzusu Los-Ancelesin, ya Çikaqonun xarabalıqlarında həmişəlik gömülmüş olur. Əksinə, belələrinə özünü sübuta yetirmək üçün imkan yaratmaq lazımdır. Belə adamlar şərəfli icmalarda səriştə və yetkinlik hissi ilə boyabaşa çatmalıdır.

Amerika bir ölkə kimi gərək heç cürə rəva bilməsin ki, onun tərkibində belə dəhşətli sosial-iqtisadi vəziyyətdə olan icmaları olsun. Belə bir mənzərə ölkənin nə maddi, nə də mənəvi rifahına yaraşıq gətirir.

Satış üçün nəzərdə tutulmayıb

Amerika dünyaya yeni sosial-mənəvi ideyalar bəxş eləyib və sübut edib (ola bilsin ki, o qədər də qabarıq şəkildə yox) ki, azadlıq və məsuliyyət, başqa sözlə desək, etika yüksək amerikan həyat səviyyəsinin ayrılmaz hissəsi və, faktiki olaraq, amilidir. Gəl ki, Amerika özü, öz evində irəli sürdüyü həmin fəlsəfəyə ardıcıl olaraq əməl etmək istəmir. Amerikanların az qala doğulandan bəri əsas hüquqları saydığı azadlıq və məsuliyyət ixtiyarı amerikan hindularına da bəxş olunmalıdır. Yalnız elədə yoxsulluq və çarəsizlik başımız üstündən Damokl qılıncı kimi asılmaz. Məhz o zaman biz amerikan sistemindən bəhrə görə bilərik, ölkənin gerçək vətəndaşlara – "hindu amerikanlarına" deyil, "Amerikan hindularına" çönərik.

"Hindu Gənclərin Milli Şurası" bürokratların yaratdığı sistemə qarşı öz etirazını bildirir. Hansı ki, amerikan mifinə inansaq, guya bütün insanlar amerikan cəmiyyətinin içərisində əriyəcəklər və guya iqtisadiyyat bu əriməni və inteqrasiyanı labüd edir. Öz vəziyyətimizdən çıxış edərək biz birmənalı deyə bilmərik ki, amerikan cəmiyyətində kimsə harasa birləşmir, əriyib getmir. Lakin biz daha çox görürük ki, etnik qrupların üzvləri amerikan cəmiyyətinə və iqtisadiyyatına təklikdə inteqrasiya eləmir, əksinə, Amerikan cəmiyyətinə bir xalq, xüsusilə insanların bir icması kimi daxil olur. Hindular arasında yoxsulluq probleminin həlli – hökumət proqramlarında deyil, fərdin, eləcə də xalqın sərişteşindədir. Kasıblığın daşını atmağın yolu bütün icmaların sərişteşini qaldırmaqdan keçir.

"Hindu Gənclərin Milli Şurası" bu yöndə çalışan və çalışmaq istəyənlərə demək istəyir ki, son vaxtlar haqqında çox danışılan amerikan ideyasını həyata keçirməkdən ötrü, həmin insanlara "yoxsul, çarəsiz hindulara" bəxtəvər günə çıxmaq üçün, hər şeydən əvvəl azadlıq, həm də məsuliyyət ixtiyarını vermək lazımdır.

Mənbə: Testimony of Clyde Warrior before the President's National Advisory Commission on Rural Poverty, February 2, 1967, in Alvin M. Josephy, ed., Red Power: The American Indian's Fight for Freedom. New York: McGraw-Hill, 1971. Pages 72-77. In Colin G. Calloway, First Peoples, A Documentary Survey of American Indian History. Boston: Bedford/St. Martin's, 1999. Pages 467-471.

Satış üçün nəzərdə tutulmayıb

71. "Yeni Günün Nəbzi" (1993)

Maya Ancelou

Amerika tarixində prezident vəzifəsində fəaliyyətə yeni başlayan şəxslər yalnız iki dəfə şairlərdən xahiş etmişlər ki, onların inauqurasiya mərasimində iştirak etməklə məclisi rövnəqləndirsinlər. Bu şəxslərdən birincisi Con Kennedi olmuşdur. O, Robert Frostdan[118] onun inauqurasiyası üçün şeir yazmasını xahiş etmişdi. Otuz iki ildən sonra isə Kennedinin böyük pərəstişkarı olan Bill Klinton Maya Anceloudan *(Maya Angelou)* prezidentin andiçmə mərasimində öz şerini oxumasını xahiş etmişdi. Zənci şairəsi Ancelou öz şerində Klintonun seçki kampaniyasının mövzularından birini – Amerikada irqindən, dərisinin rəngindən, dini etiqadından və ya etnik mənşəyindən asılı olmayaraq, bütün adamların cəmiyyətin bərabərhüquqlu üzvləri olması ideyasını rəmzi şəkildə təsvir etmişdir.

Özlüyündə yenilik olmayan bu ideyaya hələ müstəmləkə dövründə yaşamış müəlliflərin, məsələn, Hektor de Sen-Jan Krevkyörun *(Hector de St. Jean Crevecoeur)* əsərlərində də rast gəlmək olar. Lakin Krevkyör və başqa müəlliflər əsasən Qərbi Avropadan köçüb gəlmiş ağdərili miqrantlar haqqında yazdığı halda, müasir demokratlar həm "ənənəvi" azlıqlar barəsində, həm də bu ölkədə yaşayan, lakin uzun müddət cəmiyyətin həyatında tamhüquqlu iştirak etmək imkanından məhrum edilmiş "yeni" azlıqlar barəsində danışırlar. Burada qadınlardan, yerli amerikalılardan, Afrika mənşəli amerikalılardan və digər azlıqlardan söhbət gedir.

Ancelounun "Yeni günün nəbzi" *(On the Pulse of Morning)* şeri təkcə incəsənət əsəri deyil, həm də kişilərin və qadınların, dərilərinin rəngindən və dini etiqadından asılı olmayaraq hamının layiqli və bərabər hüquqlu həyat sürdüyü cəmiyyət barədə köhnə arzuya çatmaq üçün cəmiyyətdə göstərilən səylərin yeni dalğası ilə uğurlu şəkildə eyni vaxta düşmüş siyasi manifestdir.

Satış üçün nəzərdə tutulmayıb

"YENİ GÜNÜN NƏBZİ"

Çoxdan məhv olmuş canlıların izlərini qoruyub saxlayan
Qaya, Çay və Ağac da,
Planetin bizə aid mərtəbəsində mövcud olmalarının
quru nişanələrini qoyub getmiş dinozavrın izləri də
mastodontun skelet qalıqları da,
onların ani ölümü barədə həyəcan siqnalları da
zamanın çoxəsrlik tozuna bürünmüşdür.

Lakin indi Qaya bizə açıq-aşkar və hökmlü bir tərzdə deyir:
gəlin, mənim döşümdə dayanıb, öz uzaq taleyinizə baxın,
lakin mənim kölgəmdə sakit sığınacaq axtarmayın.
Siz daha mənim kölgəmdə gizlənə bilməyəcəksiniz.

Az qala mələklər kimi mükəmməl yaradılmış sizlər
uzun müddət zülmətdə qapanıb qalmısınız,
nadanlığa üz tutub yerinizdə uzanmısınız.
Sizin ağzınızdan çıxan sözlər qanlı qırğına səbəb olmuşdur.

Qaya indi bizə üz tutub deyir:
Siz mənim sinəmdə ayağa qalxıb taleyinizə nəzər sala bilərsiniz
amma gözlərinizi gizlətməyin.

Dünyanın divarını dəlib keçən Çay gözəl bir mahnı oxuyur.
Deyir ki, gəlin mənim sahillərimdə dincəlin.

Axı sizlərdən hər biriniz hamıdan ayrı düşmüş bir ölkəsiniz,
Siz məğrursunuz və həmişə mühasirədəsiniz.

Sizin var-dövlət uğrunda apardığınız müharibələr
sahillərimdə qanlı izlər qoymuş,
sinəmdə minlərlə qəlpə qalmışdır.

Buna baxmayaraq, mən bu gün sizi öz sahillərimə çağırıram.
Vuruşmaqdan təngə gəlmisinizsə, barışıq paltarı geyinib gəlin,
mən sizə mənim Ağac və Daşla birlikdə olduğumuz vaxtlarda
Tanrının mənə bəxş etdiyi nemətlər barədə
mahnılar oxuyacağam.

Satış üçün nəzərdə tutulmayıb

Təkəbbür hissi gözlərinizi yumanda
Sizə elə gəlirdi ki, guya nə isə bilirsiniz,
amma siz heç nə bilmirdiniz…

Çay bu barədə hey oxuyurdu…
Mən də oxuyan Çaya və müdrik Qayaya
cavab vermək istəyirdim.

Budur, asiyalı, ispan, yəhudi və afrikalı, yerli amerikalı – Siu,
katolik və müsəlman, fransız və yunan,
irlandiyalı, ravvin, keşiş və şeyx,
gey və qeyri-gey, vaiz və rahib,
varlı və yoxsul, müəllim –
hamı Ağacı dinləyir.

Görün Ağac nələr deyir:
bu gün hər bir Ağacın hər bir budağı
Bəşəriyyətə üz tutaraq deyir:
buraya, mənim yanıma, Çayın yanına gəlin,
mənim yanımda, buradakı Çayın sahilində kök salın.

Sizlərdən hər birinizin
əcdadlarınızın uzun ömür yolu
mənə çoxdan tanışdır.

Sizinləyəm, ey mənə ilk dəfə ad verən insanlar,
ey Pauni, Apaçi və Seneka qəbiləsinin,
Çeroki xalqının adamları[cxix],
O vaxt siz mənim budaqlarımın kölgəsində dincəlirdiniz
Sonra isə ayaqları qan içində
məni tərk edib getməyə məcbur oldunuz.
Onda mən qızıl ehtirası ilə yaşayan,
qazanc axtaran başqa insanlara
xidmət etməli oldum.

Ey türk, ey isveç, alman, şotlandiyalı,
ey Aşanti, Yoruba və Kru qəbilələrinin nümayəndələri[cxx],
Ey alınmışlar, ey satılmışlar, oğurlanmışlar,
dəhşətli hadisələrlə üzləşib öz arzularına qovuşmaq üçün dua edənlər,
gəlin burada, mənim yanımda məskən salın.

Satış üçün nəzərdə tutulmayıb

Mən Çay sahilində əkilmiş bir Ağacam,
mən heç vaxt yerimi dəyişməyəcəm.

Mən Qayayam, mən Çayam, mən Ağacam.
Mən sizinəm, sizin buraya gəlmək haqqınız ödənilmişdir.

Açın gözlərinizi,
axı siz bu səhər şəfəqini çoxdan gözləyirdiniz.

Tarix nə qədər dəhşətli olsa da,
onu yaşamamaq mümkün deyil
və əgər siz bu tarixi mərdanəliklə yaşamısınızsa,
onu bir daha yaşamağa ehtiyac yoxdur.

Açın gözlərinizi,
səhər şəfəqlərini görürsünüzmü?
Bu şəfəqlər sizdən ötrü yayılır.

Ey qadınlar, ey uşaqlar, ey kişilər,
Öz arzunuza həyat verin.

Bu arzunu ovcunuza götürün,
onu öz gizli arzularınızın formasına salın,
ondan öz ictimai MƏN surətini yaradın.

Ürəklərinizi açın, axı indi hər yeni saat
bizim yeni işlərimiz üçün yeni imkanlar verir.

Sizə daim əzab verən qorxu hissini bir kənara qoyun,
rəzil qəddarlığı bir kənara qoyun.

Baxın, Günəş üfüqdən baş qaldıraraq, yolunuza nur saçır,
bu dəyişikliklərə tərəf gəlin.

Siz burada şəfəqin nəfəsini duyaraq,
Qayaya, Çaya, Ağaca, öz ölkənizə
cəsarətlə baxa bilərsiniz.
Bundan ötrü çar Midasın imkanları
dilənçinin imkanlarından heç də çox deyil.

Satış üçün nəzərdə tutulmayıb

Bu gün bundan ötrü sizin imkanlarınız
vaxtilə Mastodontun malik olduğu imkanlardan heç də çox deyil.

Siz burada yeni günün nəbzini hiss edərək
dünyaya sevinclə baxacaqsınız,
öz bacınızın gözlərinə, qardaşınızın üzünə,
ölkənizin üzünə fərəhlə baxacaq
və onların hamısına sadəcə, ümidlə deyəcəksiniz:
Sabahınız xeyir!

Mənbə: New York Times, January 21, 1993

Satış üçün nəzərdə tutulmayıb

Tükənməz Həyati Qüvvə

1975-ci ilin aprel ayında 200 il əvvəl Konkordda və Leksinqtonda[121] bir-birinin ardınca baş vermiş bir sıra hadisələrin – İstiqlal Bəyannaməsinin, Konstitusiyanın, Məhkəmə Sistemi haqqında Aktın, Hüquqlar haqqında Billin qəbul edilməsi və nisbətən az əhəmiyyətə malik olan digər hadisələrin yubileyi münasibətilə bayram tədbirləri başlandı. Bu sürəkli ümummilli yubileylər günləri dövründə adamlar, gözlənildiyi kimi, bayram əhvalında olsalar da, onlar öz həyatlarını təhlil etməyə də vaxt tapırdılar. Amerika sisteminin unikallığı nədən ibarətdir? Onun uğurlarının sirri nədədir? Onun ən əhəmiyyətli uğurları və ən böyük uğursuzluqları hansılardır? On səkkizinci əsrdə yazılmış sənəd iyirmi birinci əsrdə Birləşmiş Ştatlar üçün rəhbər sənəd ola biləcəkmi?

Bu suallara cavab verərkən həm peşəkar tədqiqatçılar, həm də sıravi amerikalılar arasında fikir ayrılığı yaranırdı, lakin bütövlükdə onların ümumi fikri belə oldu ki, açıq, plüralist və demokratik cəmiyyətin amerikan modeli çox davamlı olmuş, bu model Amerikanın üzləşdiyi böhranları aradan qaldırmasına imkan vermişdir. Amerika dövlətinin əsasını qoyanlar bu böhranları qabaqcadan görə bilməzdilər. Heç kəs iddia etmirdi ki, bu model mükəmməldir, lakin hamı razılaşırdı ki, müəyyən problemlər aradan qaldırıldıqca və yeni-yeni qruplar bərabərhüquqluluq əsasında cəmiyyətə qoşulduqca, bu demokratik sistem özünün tükənməz həyati qüvvəsini göstərmişdir.

Amerikanın siyasi sistemi gələcək sınaqlardan da bu cür uğurla çıxa bilsə, onda ümid etmək olar ki, Tomas Ceffersonun inandığı kimi, Amerika demokratiyasının bütün nöqsanlarına baxmayaraq, bu demokratiya insanın özünü idarə etməsinə ən yaxşı ümid sayıla bilər.

Aşağıda verilən iki material birbirindən fərqləndiyinə baxmayaraq, onların hər ikisi bu həyati qüvvənin müxtəlif aspektlərini göstərir.

Satış üçün nəzərdə tutulmayıb

72. Birləşmiş Ştatlar Niksona Qarşı (1974)

1972-ci ilin noyabr ayında Riçard Nikson *(Richard Nixon)* seçkilərdə Demokratlar partiyasının namizədi Corc MakQavern *(George McGovern)* üzərində inamlı qələbə qazanaraq ikinci müddətə prezident seçildi. Lakin seçkiqabağı kampaniya başa çatmağa yaxınlaşanda bir dəstə qarətçi Demokratlar partiyasının Vaşinqtondakı Uotergeyt *(Watergate)* mehmanxanasında yerləşən seçkiqabağı qərargahına soxuldu. İlk baxışda əhəmiyyətsiz görünə biləcək bu hadisə "Vaşinqton Post" qəzetinin apardığı qətiyyətli jurnalist təhqiqatı sayəsində tezliklə böyük qalmaqala çevrildi; təhqiqat nəticəsində təsdiq edildi ki, bu cinayətdə yüksək vəzifəli dövlət məmurlarının əli olmuşdur. Nikson hökuməti bu məsələdə özünün hər hansı şəkildə iştirakını inkar etməyə başladı, lakin tezliklə məlum oldu ki, bu hökumət istər qarət faktının özünü, istərsə də bu cinayətdə prezidentin özünün də əli olması ehtimalını göstərən sübutları gizlətməyə çalışırmış. Konqresin və ictimaiyyətin təzyiqi ilə üzləşən Nikson bu məsələnin təhqiq olunması üçün xüsusi prokuror təyin etməyə məcbur oldu. İstintaq zamanı müəyyən edildi ki, prezident özünün Oval kabinetində aparılan bütün söhbətləri gizli şəkildə kasetlərə yazırmış. Prokuror tələb etdi ki, prezident bu işə, onun fikrincə, bilavasitə aidiyyəti ola biləcək kasetləri məhkəməyə təqdim etsin.

1974-cü ilin mart ayında federal andlı iclasçılar məhkəməsi prezident Niksonun köməkçilərindən yeddi nəfərini ədalət mühakiməsinə maneçilik etməkdə və Uotergeytdəki basqınla əlaqədar başqa cinayətlərdə ittiham etdi. Andlılar prezidentin özünü isə bu cinayətin cəzadan yaxa qurtarmış iştirakçısı adlandırdılar. Xüsusi prokurorun tələbinə əsasən, Dairə Məhkəməsi prezidentə tapşırdı ki, prezidentin konkret görüşlərinə aidiyyəti olan kasetləri və sənədləri məhkəməyə təqdim etsin. Prezident Nikson ondan tələb edilmiş söhbətlərin redaktə edilib çap olunmuş mətnini məhkəməyə təqdim etdiyinə baxmayaraq onun vəkili "qarşılıqlı vəsatət" irəli sürmüş və Niksonun icra hakimiyyətinin başçısı kimi malik olduğu immunitet əsasında prokurorun tələbinin ləğv olunmasını tələb etmişdi. Dairə Məhkəməsi bu vəsatəti təmin etmədi. Onda prezident apelyasiya şikayəti verdi və az sonra bu məsələyə artıq Ali Məhkəmə tərəfindən baxıldı.

Ali Məhkəmənin yekdilliklə qəbul edilmiş rəyindən aşağıda verilən parçalarda yalnız iki əsas məsələ: Konstitusiya müddəalarının şərhində son instansiya kimi məhkəmə hakimiyyətinin səlahiyyətləri və prezidentin *icra hakimiyyətinin başçısı kimi malik olduğu immunitet ona cinayətin təhqiqatı üçün zəruri olan materialları məhkəməyə açıqlamaqdan imtina etmək imkanı verdiyini* söyləməsinin qanuniliyi məsələləri nəzərdən keçirilir. Ali Məhkəmənin sədri Bürger *(Burger)* öz çıxışında məhkəmənin "Marbüri Medisona qarşı" (1803) və "Kuper Aarona qarşı" (1958) işlərində

Satış üçün nəzərdə tutulmayıb

qəbul etdiyi qərarları xatırlatmışdı. Həmin qərarlara müvafiq olaraq, konstitusion məsələlərin həllində qəti səs hüququ məhz Ali Məhkəməyə məxsusdur və heç kəs, hətta Birləşmiş Ştatların prezidenti də qanundan ali ola bilməz.

Niksonun məhkəmənin qərarına tabe olub-olmayacağı barədə şübhələr olsa da, Məhkəmə qətnaməsi çıxarılandan səkkiz saat sonra Ağ Ev bəyan etdi ki, Məhkəmənin qərarı yerinə yetiriləcəkdir. 1974-cü il avqustun 5-də 64 kasetin məzmunu açıqlandı. Bu kasetlərin birində Uotergeyt hadisəsinin gizlədilməsində Ağ Evin iştirakı daha tam açıqlanmışdır. Üç gündən sonra praktiki olaraq Konqresin dəstəyindən məhrum olmuş Nikson istefa verdiyini bəyan etdi.

Əlavə məlumat üçün oxuyun: Robert Woodward and Carl Bernstein, All the President's Men (1974); Theodore H. White, Breach of Faith (1975); Stanley I. Kutler, The Wars of Watergate (1990).

BİRLƏŞMİŞ ŞTATLAR NİKSONA QARŞI

Ali Məhkəmənin Sədri Bürger Məhkəmənin rəyini açıqladı.

Baxdığımız məsələ "Birləşmiş Ştatlar Mitçellə qarşı" işində və başqa işlərdə prezidentin öz müşavirləri və köməkçiləri ilə söhbətlərinə aidiyyəti olan bəzi kasetlərin və sənədlərin üçüncü tərəfin vəsatətinə görə məhkəməyə təqdim edilməsindən prezidentin adından irəli sürülmüş imtina məsələsidir. Dairə məhkəməsi prezidentin irəli sürdüyü, onun "mütləq immunitetə" *(absolute privilege)* malik olması və məhkəmənin müvafiq yurisdiksiyaya malik olması barədə iddianı rədd etmişdir.

A. … indi prezidentin belə bir iddiasını nəzərdən keçirək ki, prokurorun bu vəsatəti rədd edilməlidir, çünki o, "prezidentlə onun köməkçiləri arasında məxfi söhbətlərin açıqlanmasını tələb edir, bu isə dövlətin və cəmiyyətin mənafelərinə ziddir".

Bu iddianın birinci hissəsi belə bir ümumi konsepsiyaya əsaslanır ki, hakimiyyət bölgüsü haqqında doktrina məhkəmələrin prezidentin immunitetini tanımaqdan imtina etməsi imkanını istisna edir. İddianın ikinci hissəsi ondan ibarətdir ki, əgər prezidentin immuniteti aşağı instansiya məhkəməsi tərəfindən nəzərə alınmırsa, onda Ali Məhkəmə özünün konstitusion hüququna müvafiq olaraq, bu immunitetin yuxarıda adları çəkilən sənədlərin verilməsi barədə vəsatətdən üstün olmasını təmin etməyə borcludur.

Dövlət hakimiyyətinin hər bir şaxəsi özünün konstitusion vəzifələrini həyata keçirərkən ilk növbədə Konstitusiya müddəalarının şərhinə əsaslanmalı və bu halda hakimiyyətin hər bir şaxəsi hakimiyyətin digər şaxələrinə hörmət

Satış üçün nəzərdə tutulmayıb

etməlidir. Prezidentin vəkili belə hesab edir ki, Konstitusiya prezidentin bütün danışıqlarını gizli saxlamasına imkan verir. Eyni zamanda bu məhkəmənin bir sıra qərarları "Marbüri Medisona qarşı" (1803) işi üzrə məlum qərarını birmənalı şəkildə təsdiq edir ki, qanunların şərh edilməsi hakimiyyətin məhkəmə şaxəsinin səlahiyyətinə daxildir və onun vəzifəsidir.

Ali Məhkəmə cinayət təhqiqatı çərçivəsində prezidentin məxfi danışıqlarının açıqlanmasını tələb etmək hüququ olduğunu əvvəllər heç vaxt deməmişdir. Lakin bəzi hallarda icra hakimiyyətinin və qanunvericilik hakimiyyətinin hərəkətləri Konstitusiyaya zidd olduğu üçün Ali Məhkəmə həmin hərəkətləri qanunsuz hesab etmişdir. Bir sıra hallarda Ali Məhkəmə söz və debatlar azadlığı barədə konstitusion müddəalar əsasında Nümayəndələr Palatasının və Senatın üzvlərinin toxunulmazlığı barədə qərarlar qəbul etmişdir.

Bu Məhkəmə hakimiyyət şaxələrinin dəqiq göstərilmiş *konstitusion səlahiyyətlərinin* həyata keçirilməsi zamanı qarşıya çıxan pretenziyaları təhlil və həll etməklə məşğuldur. Buna görə də, bu Məhkəmə hakimiyyət şaxələrinin bu dəqiq göstərilmiş konstitusion səlahiyyətlərindən irəli gələn *imtiyazlarla* bağlı iddiaları araşdırmaq səlahiyyətinə də malikdir.

…Şübhə yoxdur ki, hakimiyyət şaxələrinin hər biri hakimiyyətin başqa şaxələrinə hörmətlə yanaşmağa borcludur, lakin hakimiyyətin icra şaxəsi Konstitusiyaya əsasən federal məhkəmələrə həvalə edilmiş "Birləşmiş Ştatların məhkəmə hakimiyyəti"ni heç cür həyata keçirə bilməz. Eyni qayda ilə icra hakimiyyətinin başçısı özünün veto hüququnu məhkəmə hakimiyyəti ilə bölüşə bilməz və ya Konqres prezidentin vetosunu qəbul etməmək barədə öz səlahiyyətlərini məhkəmə hakimiyyəti ilə bölüşə bilməz. Bu məsələyə hər hansı başqa yanaşma hakimiyyət bölgüsünün əsas konsepsiyasına və üçlü hakimiyyət sistemindən irəli gələn "əyləclər və balanslar" sisteminə zidd olacaqdır. Beləliklə biz təsdiq edirik ki, bu işdə prezident immunitetinə münasibətdə "qanunun şərh edilməsi" məhz bu məhkəmənin səlahiyyətinə aiddir və onun vəzifəsidir.

B. Prezidentin vəkili prezidentin mütləq immuniteti barədə pretenziyalarını müdafiə edərək öz mövqeyini iki amillə əsaslandırır.

Birinci amil yüksək vəzifəli hökumət məmurları ilə onların çoxsaylı vəzifələrinin yerinə yetirilməsində onlara məsləhət verən və kömək edən şəxslər arasında söhbətlərin məxfiliyinin zəruri olmasını əsaslandırır. Bu cür məxfiliyin zəruri olması aşkardır və əlavə müzakirəyə ehtiyac yoxdur. Tarixi təcrübə göstərir ki, bu cür söhbətlərin məzmunun açıqlanmasını tələb edən adamlar başa düşmürlər ki, onların aşkarlığın və şəxsi maraqların qeydinə qalmaları dövlət qərarlarının qəbul edilməsi prosesinə zərər vura bilər. Prezident Konstitusiyaya II maddəsində göstərilən səlahiyyətlərini həyata keçirərkən onun apardığı danışıqları məxfi saxlamaq hüququnun təbiətindən asılı olmayaraq, deyə bilərik ki, bu hüquq hakimiyyətin hər bir şaxəsinin öz konstitusion

Satış üçün nəzərdə tutulmayıb

imtiyazlarından irəli gəlir. Bəli, bəzi səlahiyyət və imtiyazlar hakimiyyət şaxələrinin təbiətindən irəli gəlir; prezidentin danışıqlarının məxfiliyi də oxşar konstitusion əsasa malikdir.

Prezidentin mütləq immuniteti barədə deyilənləri dəstəkləmək üçün gətirilən *ikinci* dəlil hakimiyyət bölgüsü doktrinasına əsaslanır. Burada bildirilir ki, icra hakimiyyətinin bu hakimiyyətin hüdudları daxilində müstəqil olması prezidenti cinayət təhqiqatının gedişində məhkəməyə çağırılmaqdan müdafiə edir və deməli, prezidentin danışıqlarının konfidensiallığını müdafiə edir.

Lakin istər hakimiyyət bölgüsü doktrinası, istərsə də prezidentin danışıqlarının konfidensiallıq zərurəti bütün hallarda prezidentin məhkəmə araşdırmasından *mütləq və əsaslandırılmamış immunitetinə* bəraət qazandıra bilməz. Məhkəmə prezidentlə onun müşavirləri arasında səmimi və qərəzsiz ünsiyyətin zəruri olmasını yaxşı başa düşür, lakin bu immunitet yalnız bu cür söhbətlərin konfidensiallığı bunun dövlətin və cəmiyyətin mənafelərinə uyğun olması barədə ümumi ibarələrlə əsaslandırılanda *başqa dəyərlərlə münaqişə yaranır.* Əgər söhbət hərbi, diplomatik və ya milli təhlükəsizliklə bağlı başqa informasiyanın qorunmasından getmirsə, biz belə bir dəlillə çətin razılaşarıq ki, bu cür materiallar Dairə Məhkəməsi tərəfindən bütün təhlükəsizlik tədbirlərinə riayət edilməklə hakimin kabinetində baxılmağa təqdim ediləcəyi təqdirdə prezidentin mühüm vəzifələrinin yerinə yetirilməsinə zərər vurula bilər.

Prezidentin cinayət təqibindən mütləq və əsaslandırılmamış immuniteti, heç şübhəsiz, məhkəmələrin Konstitusiyanın III maddəsində göstərilən vəzifələrini yerinə yetirmələrinə mane olacaqdır. Konstitusiyanın müəllifləri bizim suveren hakimiyyətin bərabər əhəmiyyətli üç şaxə arasında bölünməsinə əsaslanan dövlət sistemini işləyib hazırlayarkən elə aydın və mükəmməl sistem yaratmağa çalışmışlar ki, *bu sistemdə hakimiyyət şaxələri ayrılmış olsalar da, birbirindən təcrid olunmuş şəkildə fəaliyyət göstərmirlər.* Biz belə hesab etsək ki, Konstitusiyanın II maddəsi prezidentə cinayət təqibindən immunitet verir və bu halda yalnız belə bir mücərrəd fikrə əsaslansaq ki, hərbi və ya diplomatik xarakterli olmayan söhbətlərin gizli saxlanması dövlətin mənafelərinə uyğundur, onda biz "iş qabiliyyətli hökumətin" konstitusion balansını pozmuş və hakimlərin Konstitusiyanın III maddəsində göstərilən rolunu əhəmiyyətli dərəcədə zəiflətmiş olarıq.

C. Biz bu qənaətə gəldik ki, məhkəmə araşdırmasının qanuni tələbləri prezident immunitetinə üstün gələ bilər. Deməli, bu mənafelər münaqişəsini elə tənzimləmək lazımdır ki, hakimiyyətin hər bir şaxəsinin funksiyaları qorunub saxlansın. Bu məsələni həll etmək hüququ və bilavasitə onu həll etmək vəzifəsi məhkəmələri prezidentin adından verilmiş hər hansı bəyanatlara hörmətlə yanaşmaq zərurətindən azad etmir. İstər prezidentin danışıqlarının və yazışmalarının məxfi olmasının zəruriliyi barədə onun iddiası, istərsə də məhkəmə araşdırmasının konfidensiallığı barədə tələblər onlara, məsələn, hər bir vətəndaşın şəxsi həyatına müdaxilədən qorunmaq hüququ *(privacy)* kimi hörmətlə

Satış üçün nəzərdə tutulmayıb

yanaşılmasına layiqdir. Buraya onu da əlavə etmək lazımdır ki, prezident öz qərarlarını hazırlayarkən dövlətin mənafeyini qorumaq üçün aparılan səmimi, obyektiv, bəzən də çox sərt müzakirələr zəruridir. Prezident və onun köməkçiləri müəyyən qərarı işləyib hazırlayarkən və onu qəbul edərkən bir neçə alternativ variant arasında seçim etmək və bunu yalnız dar əhatədə mümkün olacağı səviyyədə səmimi müzakirə etmək imkanına malik olmalıdırlar. Bu hallar prezidentin danışıqlarının konfidensiallığına haqq qazandırır. Bu cür konfidensiallıq hakimiyyətin fəaliyyətində mühüm rol oynayır və hakimiyyət bölgüsü barədə konstitusion doktrinada etibarlı şəkildə təsbit olunmuşdur.

…Lakin bu konfidensiallıq imtiyazına qanunun aliliyi prinsipinə tarixi sədaqətimiz baxımından yanaşmaq lazımdır. Fikrimizcə, bu prinsip ən əyani şəkildə belə bir iddiada özünü göstərir ki, "məhkəmə sisteminin ikili vəzifəsi təqsirli şəxsin cəzadan yaxa qurtarmaması və təqsirsiz şəxsin cəzalandırılmamasıdır". …İşə aid olan bütün faktların təhqiq edilməsinin zəruriliyi məhkəmə icraatının çəkişmə sisteminin əsas və ən ümumi əhatəli şərtidir. Əgər məhkəmənin qərarları faktların yarımçıq və ya qərəzli şəkildə təqdim edilməsi əsasında qəbul edilərsə, məhkəmə sisteminin prinsipləri pozulacaqdır… Ədalət mühakiməsini təmin etmək üçün həm ittiham tərəfinin, həm də müdafiə tərəfinin tələb etdiyi informasiyanın məcburi təqdim edilməsi üçün məhkəmə mexanizmi mövcud olmalıdır… Yuxarıda adı çəkilən immunitet bir-birinə zidd olan mühüm və legitim mənafelərin qorunması üçün nəzərdə tutulmuşdur… Bu immunitet hərtərəfli düşünülmədən tətbiq edilmiş və geniş müzakirə olunmamışdır, çünki aydındır ki, *onun son məqsədi həqiqətin üzə çıxarılmasına mane olmaqdan ibarətdir.*

Bu işdə prezident ona üçüncü tərəfin təqdim etdiyi və cinayət təhqiqatı çərçivəsində zəruri olan materialların təqdim olunmasını tələb edən məhkəməyə çağırışın qanuniliyinə etiraz edir. Prezident bildirir ki, onun malik olduğu immunitet ona özünün konfidensial söhbətlərinin məzmununu açıqlamamaq imkanı verir. Prezident onun immunitetinin hərbi və ya diplomatik informasiyanın məxfiliyinə əsaslandığını iddia etmir. Konstitusiyanın II maddəsində təsbit olunmuş ideyalara gəldikdə isə məhkəmələr prezidentin səlahiyyətlərinə həmişə çox böyük ehtiramla yanaşmışlar… Lakin Məhkəmə heç vaxt həmin ehtiramı prezidentin konfidensiallıq barədə çox mücərrəd hüququna şamil etməmişdir. Konstitusiyanın heç bir yerində konfidensiallıq hüququ barədə dəqiq heç nə deyilmir. Konstitusiya bu hüququ yalnız o halda tanıyır ki, prezidentin öz səlahiyyətlərini səmərəli həyata keçirməsi üçün həmin hüquq zəruri olsun.

Cinayət təhqiqatı üçün zəruri olan bütün faktların əldə edilməsi hüququ da konstitusion qaydada əsaslandırılmışdır… Aşkardır ki, bu hüquqların (Konstitusiya VI və VII düzəlişlərdə göstərilən hüquqların) qorunması, yəni

Satış üçün nəzərdə tutulmayıb

işə aidiyyəti olan bütün zəruri faktların təqdim olunmasının təmin edilməsi məhkəmələrin vəzifəsidir.

Bu işdə biz prezidentin öz vəzifələrini yerinə yetirməsi üçün onun danışıqlarının konfidensiallığı hüququnun vacibliyini və həmin hüququn cinayət mühakiməsi icraatı prosesinə *müdaxiləsinin dərəcəsini müqayisə etməliyik.* Bu halda konfidensiallıq zəruridir və hörmətə layiqdir. Lakin biz deyə bilmərik ki, əgər prezidentin müşavirlərinin söhbətlərinin məzmunu cinayət təhqiqatının obyektinə çevrilərsə, həmin söhbətlərin açıqlanması kimi nadir bir imkan üzündən onlar öz mülahizələrində kifayət qədər səmimi olmayacaqlar.

Digər tərəfdən, cinayət təhqiqatının gedişinə bilavasitə aidiyyəti olan faktların gizlədilməsi hüququnun mövcud olması zəruri məhkəmə prosedurunun *(due process of law)* təminatlarına ciddi təsir göstərər və məhkəmələrin əsas funksiyasına çox böyük ziyan vurardı. Prezidentin kabinetində olmuş söhbətlərin konfidensiallığının zəruriliyi xeyli mücərrəd məsələdir, halbuki cinayət təhqiqatı üçün zəruri faktların təqdim edilməsi barədə konstitusion tələb tamamilə konkret xarakter daşıyır və konkret cinayət işində bu tələb məhkəmənin ədalətli qərar çıxarması üçün zəruridir.

Konkret faktlar olmasa, cinayət təhqiqatı tamamilə pozula bilər. İlkin təhqiqat göstərmişdir ki, prezidentin söhbətlərinin məzmunu bilavasitə bu araşdırmaya aiddir. Buna görə də prezidentin məhdud sayda söhbətlərinin məzmununun açıqlanması onun öz söhbətlərinin ümumi konfidensiallığına zərər vurmaz. Beləliklə, yuxarıda adı çəkilən immunitet yalnız ümumi konfidensiallıq marağına əsaslandıqda o, Konstitusiyanın cinayət mühakimə icraatının ədalətli şəkildə həyata keçirilməsi üçün zəruri olan lazımi məhkəmə proseduru barədə əsas tələbindən üstün tutula bilməz. Bu cür immunitet barədə ümumi sözlər cinayət məhkəmə icraatı çərçivəsində zəruri faktların məhkəməyə təqdim edilməsi kimi konkret və aşkar zərurətdən üstün ola bilməz.

D. Prezident belə hesab edirsə ki, prezidentin müvafiq materialları təqdim etmək barədə məhkəmənin tələbinə tabe olması dövlətin və cəmiyyətin mənafelərinə zərər vurar, onda prezident öz immunitetindən istifadə edərək çağırış vərəqini qaytara bilər və bu halda o məhz belə hərəkət etmişdir. Dairə Məhkəməsi isə icra hakimiyyətinin başçısından müvafiq ərizə alandan sonra sorğu edilən materialların imtiyazlı materiallar ola biləcəyini qəbul etməli və tələb etməli idi ki, xüsusi təyin olunmuş prokuror prezident materiallarının açıqlanmasının "bu işin ədalətli həlli üçün həqiqətən zəruri olmasını" sübut etsin… Biz Dairə Məhkəməsinin qərarını təsdiq edirik ki, sorğu edilən materiallar bu məhkəməyə təqdim edilməlidir. İndi isə gəlin prezident materiallarının və ya onun söhbətlərinin (məhkəmə tapşırığına əsasən təqdim edilmiş materialların) hakimin kabinetində öyrənilməsi zamanı Dairə Məhkəməsinin vəzifələri ilə bağlı bir mühüm məsələni nəzərdən keçirək.

Satış üçün nəzərdə tutulmayıb

E. …Bu işə aidiyyəti olması barədə tələblərə cavab verən materialları başqa materiallardan ayırmaq, bütün başqa materialları bu işdən çıxarmaq lazımdır… Dairə Məhkəməsi ciddi fikir verməlidir ki, prezidentin statusuna müvafiq olaraq, prezidentin bu işə aidiyyəti olmayan və ya Dairə Məhkəməsi tərəfindən baxılmaq hüququ olmayan söhbətlərinə yüksək dərəcədə ehtiramla yanaşılsın. Ali Məhkəmənin sədri Con Marşal çox ehtiyatlı hərəkət edərək məhkəmədə bəyan etmişdir ki, bu cür işlərdə məhkəmə prezidentə adi vətəndaş kimi baxmayacaq. Marşalın bəyanatı heç də o demək deyildir ki, prezident qanunun fövqündədir. Bu bəyanat Konstitusiyanın II maddəsinə görə hər bir prezident bu maddənin tələbləri hüdudunda öz səlahiyyətlərini həyata keçirərkən onun ünsiyyətinin və fəaliyyətinin unikal rolundan irəli gəlir.

Bundan əlavə, hər bir prezidentin ünsiyyəti və fəaliyyəti hər hansı adi vətəndaşın ünsiyyəti və fəaliyyəti ilə müqayisədə qat-qat geniş spektrli məxfi informasiyanı əhatə edir. Deməli, ədalətli məhkəmə araşdırması çərçivəsində prezidentin ünsiyyətinin konfidensiallığının qorunmasını maksimum dərəcədə təmin etmək dövlətin və cəmiyyətin mənafeyi üçün zəruridir. Prezidentin öz köməkçiləri ilə hətta adi söhbətlərinin konfidensiallığı kifayət qədər aydındır və bunun əlavə müzakirəsinə ehtiyac yoxdur, çünki həmin söhbətlər zamanı təsadüfən ölkənin siyasi liderlərinin və ya başqa ölkələrin dövlət xadimlərinin adları çəkilə bilər. Biz şübhə etmirik ki, Dairə Məhkəməsinin hakimi prezident materiallarına müvafiq hörmətlə yanaşılmasını təmin edəcəkdir…

Təsdiq olunur…

Mənbə: 418 U.S. 683 (1974)

Satış üçün nəzərdə tutulmayıb

73. Prezident Debatlarından Seçmələr

Yeni İngiltərə ştatlarında keçirilən şəhər yığıncaqları Amerika demokratiyasının ilk təzahürlərindən biri idi. Amerikanın bir sıra şəhərlərində və yaşayış məntəqələrində hələ də keçirilən bu cür yığıncaqların gedişində vətəndaşlar rəhbərliyin fəaliyyəti barəsində öz fikirlərini bildirirlər. Müasir elektron media bu cür yığıncaqların və prezident debatlarının formasına dəyişikliklər etmişdir. Məsələn, 1992-ci ildə prezidentliyə namizədlərin hər biri şəhər sakinlərinin "elektron yığıncaqları"nın müəyyən formalarından istifadə edirdi. Ölkənin hər yerindən dinləyicilər öz suallarını bu yığıncaqlara göndərə bilirdilər.

Siyasi prosesdə kök salmış ənənələrdən biri də seçicilərin iştirakı ilə namizədlər arasında keçirilən debatlardır. Hələ inqilabdan əvvəl Virciniyada seçkilər keçirilən gün şəhər məclisinin üzvlüyünə namizədlər öz həmvətənlərinin dəstəyini qazanmağa və özlərinin nəyə görə seçilməyə layiq olduqlarını izah etməyə çalışırdılar. Lakin 1960-cı ilə qədər namizədlərin debatları yalnız ştatlar və bələdiyyələr səviyyəsində seçkilərin gedişində keçirilirdi. 1960-cı ildə isə televiziyanın imkanları sayəsində Con Kennedi ilə Riçard Nikson arasında ilk prezident debatları keçirmək mümkün oldu. O vaxtdan bəri hər dəfə prezident seçkiləri ərəfəsində namizədlər milli televiziyada ən azı iki dəfə debat keçirir və bu, seçicilər üçün namizədlərin üzbəüz çıxışlarını müşahidə etməkdən ötrü yeganə imkandır.

Debatları tənqid edənlər bildirirlər ki, bu cür müzakirələrin gedişində namizədlərdən yalnız ümumi cavablar gözləmək olar, onlar real suallara cavab verməkdən çəkinirlər və onları debatların məzmunundan daha çox özlərinin zahiri görkəmi maraqlandırır. Əlbəttə, bu fikirlərdə müəyyən qədər həqiqət var, lakin geniş auditoriya bu debatların gedişini müşahidə edir və bu faktın özü onu göstərir ki, hər halda namizədlər üzbəüz çıxış edəndə seçicilər onları müşahidə etmək, onların üstünlüklərini və qüsurlu cəhətlərini müqayisə etmək və namizədlərin bu şəraitdə özlərini necə aparmalarını müşahidə etmək imkanına malik olmaq istəyirlər. Məlum olmuşdur ki, debatlar, xüsusən seçkilərin taleyi hələ məlum olmayanda, seçkilərin nəticələrinə təsir göstərə bilərlər. Məsələn, 1960-cı ildə Con Kennedi Riçard Niksonla debatlar keçirərkən sübut etdi ki, onun hələ çox gənc və təcrübəsiz olmasına istinadların hamısı əsassızdır və məhz

Satış üçün nəzərdə tutulmayıb

bu debatların sayəsində o, cüzi üstünlüklə də olsa, qalib gəlməsini təmin etmiş oldu.

1992-ci ildə prezidentliyə namizədlərin debatları iki namizəd arasında deyil, üç namizəd arasında keçirildi. Həmin seçkilərdə respublikaçı prezident Corc Buş (ata) və onun rəqibi, Arkanzas Ştatının qubernatoru demokrat Bill Klintonla *(Bill Clinton)* yanaşı, ümummilli müstəqil namizəd, texaslı biznesmen Henri Ros Pero *(Henry Ros Perot)* da iştirak edirdi. Namizədlər üç dəfə debat keçirdilər, lakin bu debatların ən maraqlısı 1992-ci il oktyabrın 15-də Virciniya Ştatının Riçmond şəhərində şəhər yığıncağı formasında keçirilən debatlar oldu. Namizədlərə suallar auditoriyadan verilirdi .

PREZİDENT DEBATLARINDAN SEÇMƏLƏR

Sual: Mən bu sualı cənab Peroya vermək istərdim. Prezident olsanız, xarici bazarları Amerika biznesinin haqlı rəqabəti üçün açmaq və burada əcnəbi dövlətlər tərəfindən haqsız rəqabətə son qoymaq üçün və nəticə etibarilə bizim iş yerlərini geriyə, Birləşmiş Ştatlara qaytarmaq üçün nə edəcəksiniz?

Pero: Bu mənim proqramımın əsas məsələsidir. Biz milyonlarla iş yerlərini xarici ölkələrə köçürmüşük. Bizdə çox qəribə vəziyyət yaranıb, görün Vaşinqtonda nələr baş verir: birisi əcnəbilərin mənafelərini lobbiləşdirməyə başlayanda o, ayda 30.000 dollar qazanmağa başlayır, sonra məzuniyyət götürüb prezident seçkisi kampaniyası üçün işləyir, lazımi əlaqələri qurur və geriyə qayıdır. İşləri qaydaya qoymaq istəyirsinizsə, onda siz ilk növbədə illər boyu öhdəsindən gələ bilmədiyimiz imtiyazlı ticarət sazişlərindən istifadə edənləri bir yerə toplayıb onlara deməlisiniz: "Uşaqlar, biz sizdən yalnız bizim sizə yaratdığımız şəraiti istəyirik". Bu halda onlar çıxılmaz vəziyyətə düşəcəklər, çünki əks təqdirdə əcnəbi rəqiblərimiz hətta öz vaqonlarını boşaltmağa da maraq göstərməyəcəklər... biz işçi qüvvəsinin başqa ölkələrə göndərilməsinə son qoymalıyıq.

Bu zalda əyləşən işgüzar adamlar özlərinin təcrübəli fəhlələrinə saatda 12,13, hətta 14 dollar pul ödəyirlər. Onların öz fabriklərini bizim sərhəddən cənuba köçürməsi və orada gənc işçi qüvvələrini cəlb edərək həmin işçilərə saatda bir dollar ödəməsi, tibbi xidmət üçün pul ödəməməsi, ətraf

Satış üçün nəzərdə tutulmayıb

mühitin qorunması ilə bağlı tədbirlər görməməsi, pensiya fonduna ödənişlər etməməsi və pul qazanmaqdan başqa heç bir şeyin qeydinə qalmaması çox asan məsələdir. Belə getsə hamı cənuba üz tutacaq...

Aparıcı: Sağ olun, cənab Pero. Görürəm prezident bir qədər ayağa qalxıb, yəqin ki, onun deməyə sözü var.

Buş: Bilirsinizmi, Kerol, bu qlobal iqtisadi böhran dövründə bizi xilas edən məhz ixrac olmuşdur. Buna görə də mən məhz ixracı artırmağa çalışıram və əgər cənubda əmək haqqı aşağı olduğuna görə bütün iş yerləri həqiqətən cənuba köçürülsə, orada əmək haqqının aşağı olmasına baxmayaraq, onlar heç yerə köçməyəcəklər. Buna görə də mən yaxın vaxtlarda Şimali Amerikada sərbəst ticarətə dair saziş (NAFTA) barədə Meksikanın prezidenti və Kanadanın baş naziri ilə danışıqlar aparmışam. Mən bu cür sazişlərin sayını artırmaq istəyirəm, çünki "ixrac" iş yerlərinin sayı xaricə köçürülə biləcək iş yerləri ilə müqayisədə qat-qat sürətlə artır; bizi qorxutmaq lazım deyil, axı əslində başqa yerə köçürülmüş iş yerlərinin sayı o qədər də çox deyil. Buraya gələn insanlar üçün isə onu deməliyəm ki, biz ölkəmizdə daha çox iş yerləri olmasını istəyirik, buna isə yalnız ixracın artırılması yolu ilə nail olmaq mümkündür. Bəzilərindən fərqli olaraq, mən proteksionizmə inanmıram. Mən vicdanlı və sərbəst ticarətə inanıram və bizi xilas edən məhz o olmuşdur. Buna görə də mən bir prezident olmaqla, Gömrük Tarifləri və Ticarət barədə Baş Saziş (GATT) çərçivəsində danışıqların mühüm mərhələsi olan Uruqvay raundunu uğurla başa çatdırmağa çalışacağam. Bu raund xüsusən bizim kənd təsərrüfatı məhsulları üçün bazarların qapılarını həqiqətən bizim üzümüzə açacaqdır. Mən bu istiqamətdə işi davam etdirmək istəyirəm və biz NAFTA sazişini ratifikasiya edəndən sonra mən Şərqi Avropa ilə də buna oxşar saziş bağlamaq istəyirəm. Mən Çili ilə də bu cür saziş bağlamaq istəyirəm və bunun yolu proteksionizm deyil, vicdanlı və sərbəst ticarətdir. Artıq qeyd etdiyim kimi, biz çətin iqtisadi dövr yaşamışıq və bizi xilas edən məhz ixrac olmuşdur.

Aparıcı: Qubernator Klintonu dinləyək.

Klinton: Mən bu suala cavab vermək istərdim, çünki mən artıq 12 ildir ki, qubernatoram, yəni mən həm iş yerlərini itirənlərin, köçüb xaricə gedənlərin çoxunu, həm də ixracın artırılması sayəsində müəssisələrinin vəziyyəti möhkəmlənmiş sahibkarları yaxşı tanıyıram. Bütün məsələ bizim

Satış üçün nəzərdə tutulmayıb

ixrac bazamızın genişlənməsi və vicdanlı ticarətin inkişaf etməsi ilə bağlıdır. Doğrudur, məsələn Meksikaya bizdən əmtəə ixracı artmış, ticarət kəsiri azalmışdır. Lakin onu da nəzərə almaq lazımdır ki, bu gün Yaponiya ilə ticarətimizdə kəsir rekord dərəcədə yüksəkdir. Bəs çıxış yolu nədədir?

İcazə verin, üç məqamı qısaca qeyd edim.

Əvvələn, buna nail olmaq lazımdır ki, bizim bazarlar başqa ölkələr üçün nə dərəcədə açıqdırsa, həmin ölkələrin bazarları da bizdən ötrü eyni dərəcədə açıq olsun. Bu mümkün olmasa, biz qanunvericilikdə müvafiq tədbirlər nəzərdə tutmalı və onları təxirə salmadan tətbiq etməliyik.

İkincisi, vergi məcəlləsinə dəyişikliklər edilməlidir. İndiki vergi məcəlləsinə görə, buradakı fabrikdə mövcud istehsalı və avadanlığı modernləşdirməkdənsə, həmin fabrikin bağlamaq və başqa ölkəyə köçürmək sərfəlidir. Bizim rəqiblər bu cür hərəkət etmirlər. Fabrikləri xarici ölkələrə köçürmək əvəzinə, dövlət onların modernləşdirilməsinə vəsait ayırmalıdır.

Üçüncüsü, son nəticədə öz fabriklərini bağlayan və onları başqa ölkələrə daşıyıb aparan şirkətlərə dövlət tərəfindən güzəştli kreditlər verilməməlidir və bu cür proqramlar yalnız işlərini burada davam etdirən istehsalatlar üçün tətbiq olunmalıdır. Bir sözlə, ticarəti genişləndirmək, amma bunu vicdanlı şərtlərlə etmək və Amerikaya investisiya cəlb etməliyik.

Sual: Sualım cənab Klintonadır. Real həyatda, yəni paytaxt hüdudlarından kənarda mükafat və uğur qarşıya hansı məqsədlərin qoyulmasından və onlardan hansıların artıq əldə edilməsindən asılıdır. Siz hakimiyyətdə olacağınız 4 ilin hər birində ticarət kəsirini nə qədər azaldacağınızı konkret rəqəmlərlə göstərə bilərsinizmi və əgər bu məqsədlər əldə edilməsə, ikinci müddətə seçilməyəcəyiniz barədə Amerika xalqı ilə saziş bağlaya bilərsinizmi? Xahiş edirəm ya hə, ya da yox cavabı verin və cavabınızı şərh edin.

Klinton: Mən bu suala "yox" cavabı verirəm, səbəbi də budur. Sizə dəqiq deyə bilərəm ki, bu kəsir 12 il müddətində yığılıb qalmışdır. Nə etmək mümkün olduğunu dəqiq deyə bilərəm. Fikrimcə, 4 il müddətinə bu kəsiri 50 faiz azaltmaq və iqtisadiyyatı inkişaf etdirmək mümkündür. Nəzəri cəhətdən, mən 4 ildə bu kəsirdən yaxa qurtara bilərdim, lakin bundan ötrü mən vergiləri hədsiz çoxaltmalı və imkansızlara yardımı azaltmalı olardım. Bu isə iqtisadi vəziyyəti daha da gərginləşdirər.

Məsələn, cənab Pero təsdiq edə bilər ki, onun planını təhlil etmək üçün cəlb etdiyi ekspert bildirmişdir ki, kəsiri 5 ilə azaltmaq mümkündür, lakin

Satış üçün nəzərdə tutulmayıb

bu halda sonrakı 4 ildə işsizlik artacaq. Beləliklə, ser, fikrimcə, kəsiri azaltmaq üçün investisiyaları artırmaq, iqtisadiyyatı inkişaf etdirmək lazımdır. Biz iqtisadi inkişafa investisiya qoymaqla bərabər, səhiyyə üçün çəkilən xərclərə nəzarət etməli, müdafiə sənayesi üçün xərcləri və daxili milli proqramlar üçün məsrəfləri götür-qoy edərək azaltmalıyıq. Biz imkanlı amerikalılara da, əcnəbi korporasiyalara da müraciət edib onları öz vergi borclarını ödəməyə çağırmalıyıq və...

Aparıcı: Siz buyurun, cənab prezident.

Buş: Burada bəzi məqamlar mənə aydın deyil, mən başa düşmürəm, vergiləri artırmaqla kəsiri necə azaltmaq olar. Bilirsinizmi, mən elə düşünmürəm ki, amerikan xalqı az vergi ödəyir. Məncə o, hədsiz çox vergi ödəyir. Düzdür, bir dəfə mən özüm də vergilərin artırılmasını təklif etmişdim. Lakin mən səhv edəndə səhvimi boynuma alıram. Mən deyirəm ki, bu qərar düzgün qərar deyildi.

Qubernator Klintonun proqramında daha çox vergi və daha çox məsrəf nəzərdə tutulur. Vergilərin məbləğini 150 milyard dollar, məsrəflərin məbləğini 220 milyard dollar artırmaq təklif olunur. Mən elə güman etmirəm ki, bu düzgün yoldur. Lakin burada çıxış yolu var. Biz büdcəmizi tarazlaşdırmalıyıq. Klinton həmişə deyir ki, Arkanzas Ştatında büdcə tarazlaşdırılmışdır və bu, həqiqətən belədir. Lakin onun həmin büdcəni tarazlaşdırmağa imkanı var idi. Mən istərdim ki, dövlətin də bu cür imkanları olsun. Hesab edirəm ki, bu, həm intizama ciddi ehtiyac duyulan Konqresdə, həm də icra hakimiyyətində intizamı gücləndirərdi. İstərdim ki, 43 qubernatorun malik olduğu hüquqa mən də malik olum, yəni əgər Konqres məsuliyyətsiz və israfçı mövqe tutaraq məsrəfləri azaltmaq istəməyəndə mən büdcənin ayrı-ayrı maddələrinə veto qoymaq hüququna malik olum. Prezidentə imkan verin ki, o, xəzinə vəsaitlərinin populistcəsinə xərclənməsinə son qoymağa çalışsın.

Aparıcı: Bəs siz necə düşünürsünüz, cənab Pero?

Pero: Nə deyim, hazırda bizim 4 trilyon dollar borcumuz var. Hər işçi gün ərzində borcumuz bir milyard dollar və ya bir qədər də çox artır.

Satış üçün nəzərdə tutulmayıb

Amma, necə deyərlər, şər deməsən xeyir gəlməz. Mən adi biznesmenəm. Texasda əyləşib öz işlərimlə və ailəmlə məşğul idim. Lakin vəziyyət o qədər pisləşdi ki, mən bu məsələyə müdaxilə etmək qərarına gəldim. Amerika xalqı mənim bu məsələyə qarışmağımı xahiş etdi.

Bilirsinizmi, biz burada əyləşmişik, amma təqribən saat yarımdan sonra bizim borcumuz daha 50 milyon dollar artacaq. Əlbəttə, burada respublikaçıların təqsiri yoxdur. Burada demokratların da təqsiri yoxdur. Mən sadəcə, başa düşmək istəyirəm: bütün bunları edən kimdir? Bu işlə iki qrup insan məşğul olmuşdur. Ola bilsin ki, onlar bunu birlikdə ediblər.

Vəziyyəti qaydaya salmalıyıq. Mən bu gün buraya, bax, orada, amfiteatrda əyləşən gənc kollec tələbələrinin xatirinə gəlmişəm. Cavan yaşlarımda – hərbi dəniz donanmasında xidməti başa vurandan az sonra iş barədə çox saylı dəvətlər almışdım. Bu gün isə yaxşı qiymətlərlə oxumuş cavanlar iş tapa bilmirlər. Bəs bu kimin təqsiridir? Bu, nə respublikaçıların təqsiridir, nə də demokratların. Çox güman ki, bütün bunları bizim başımıza gətirənlər hansısa yad bir planetdən gəlmələrdir. Hamı deyir ki, məsuliyyəti öz üzərinə götürməyə hazırdır. Lakin axır ki, kimsə və haradasa həqiqətən məsuliyyəti öz üzərinə götürməlidir. Ey mənim amerikalılarım, sizə açıq deyirəm: məni özünüzə prezident seçsəniz, biz öz problemlərimizlə məşğul olmağa başlayacağıq, onları həll edəcək və aradan qaldıracağıq. Biz borcumuzu ödəyəcəyik. Biz Amerika barədə arzularımızı öz uşaqlarımıza aşılayacaq və onları indi düşdükləri vəziyyətdən çıxaracağıq.

Mən balaca oğlan olanda həyat səviyyəsinin iki qat artırılması cəmi iki nəslin həyatı ərzində baş verdi. Bu gün isə bundan ötrü 12 nəslin dəyişməsi tələb olunacaq. Kimlərdənsə bizə miras qalmış borca görə bizim uşaqlarımız Amerika barədə arzularının çin olmasını görməyəcəklər.

Sual: Mətni üzündən oxuduğuma görə üzr istəyirəm, lakin mən kameraya baxmaqdan utanıram. Mən özüm ailə məsələləri üzrə müşavir olmaqla, uşaqların problemləri ilə məşğul oluram, onların valideynlərinə məsləhətlərlə kömək edirəm. Lakin mənim məqsədim uşaqların valideynlərinə yox, məhz uşaqların özlərinə kömək etməkdir. Mən sizin hər üçünüzdən soruşmaq istərdim: biz gələcək prezidentin rəmzi övladları olmaqla sizin ikinizdən, daha doğrusu sizin üçünüzdən mənzil təsərrüfatı sahəsində ehtiyaclarımızın ödənilməsi, burada sizin bəhs etdiyiniz cinayətkarlıq barədə sizdən nə gözləyə bilərik? Xahiş edirəm, səmimi olun, bizə qabaqcadan hazırlanmış frazalar lazım deyil. Mən cənab Pero ilə razıyam.

Aparıcı: prezident Buş buyursun.

Satış üçün nəzərdə tutulmayıb

Buş: Biz uşaqlar üçün proqramlar barədə danışa bilərik, biz cürbəcür məsələlər barədə danışa bilərik, lakin prezidentlik üçün qat-qat çox şeylər tələb olunur. Prezidentlik daim qayğı göstərilməsini tələb edir, lakin bu o qədər də konkret deyil. Prezidentlik qüvvə tələb edir, lakin bu da konkret deyil. Prezidentlik təcavüzkarlığa müqavimət göstərilməsini tələb edir, lakin proqramlar baxımından bu da konkret deyil. Prezident bunları etməlidir. Buna görə də prinsip etibarilə mən sizinlə razıyam və hesab edirəm ki, biz uşaqlara qayğı məsələsini və bütün başqa məsələləri, əlbəttə, müzakirə etməliyik.

Aparıcı: Bəs siz ikiniz nə deyərdiniz?

Pero: Burada baş qurtaran cavablar, "əgər"lər, "amma"lar olmamalıdır. Mən məsuliyyəti öz üzərimə götürmək istəyirəm, çünki bilirəm ki, Amerika xalqı bulvar jurnalistikası barədə deyil, ümdə problemlər barədə danışmaq istəyir. Buna görə də mən söz verə bilərəm ki, biz bu məsələlərlə məşğul olacağıq.

İndi isə, sadəcə olaraq, nəzərə alın ki, məni təbliğ edən komandam yoxdur, məndən ötrü nitqlər yazan adamlar yoxdur, yəqin ki, bunu hiss edirsiniz. Televiziya vasitəsilə dediklərim mənim öz sözlərim, öz fikirlərimdir.

Bunları mən deyirəm, əsla şübhə etməyin. Nə görürsünüzsə, həqiqi mənzərə odur. Əgər bu kiminsə xoşuna gəlmirsə, onda sizin daha iki seçiminiz var, elə deyilmi?

Klinton: Bir dəqiqə. Ross, mən bir-iki ürək sözümü demək istəyirəm. Mənim ifadə etdiyim ideyalar – mənim ideyalarımdır. Artıq 12 ildir ki, mən bu ideyalar üzərində işləyirəm və burada son 20 ildə Vaşinqtonla hər hansı şəkildə əlaqələri olmayan yeganə adam mənəm. Ona görə də bu eyhamlar mənim xoşuma gəlmir. Bizim burada danışdıqlarımız hamısı haradasa, kimin tərəfindənsə uydurulub bizim beynimizə yerləşdirilmişdir. Mən 12 il qubernator kimi gərgin işləmişəm, real insanların real problemlərini həll etmişəm və mən də sizin kimi, hər səhər yuxudan oyananda özümü necə müdafiə etmək barədə düşünməkdən bezmişəm.

Sual: Hər üçünüzə bir sual vermək istərdim: ölkənin fiziki infrastrukturunu, su təchizatı, kanalizasiya və nəqliyyat sistemlərini yaxşılaşdırmaq barədə nə kimi planlarınız var? Sağ olun.

Satış üçün nəzərdə tutulmayıb

Buş: Mən əmin deyiləm ki, sizə deyəcəyim faktlar barədə siz nə isə eşitmisiniz. Bütün bu hay-küy də onu göstərir, lakin nəqliyyat barədə bizim bu il qəbul etdiyimiz qanun – Eyzenhauerin hakimiyyəti dövründə ştatlar arasında şosse yolu tikintisinə başlanan vaxtdan bəri ölkəmizin tarixində nəqliyyat barədə ən geniş əhatəli qanundur. Biz infrastrukturun yaxşılaşdırılması üçün 150 milyard dollar ayıracağıq. Bu, mənim prezidentliyim dövründə baş vermişdir və mən çox fəxr edirəm ki, biz buna nail olmuşuq. Hesab edirəm ki, bu, çox yaxşı başlanğıcdır. Pul məsələsi cənab Pero kimi məni də narahat edir, lakin biz eyni vaxtda həm məsrəfləri artırmağa, həm də kəsiri azaltmağa hazırlaşmırıq. Mən bunu bizim əsas uğurlarımızdan biri hesab edirəm.

Biz yalnız neqativ fikirlər eşidirik. Prezident vəzifəsində işləyirsənsə, buna hazır olmalısan. Hamı iqtidara qarşı çıxış edir, hamı deyir ki, bəs, onlar bu vəzifənin öhdəsindən daha yaxşı gələrdilər. Onlar buna şübhə etmir. Lakin biz bununla fəxr edə bilərik, ona görə ki, bu, haqqında danışdığımız məsələ ilə bilavasitə bağlıdır. Bizim hökumətin təşəbbüsü – ümid-varam ki, Konqres onu bəyənəcəkdir – yaxşı başlanğıcdır, bu təşəbbüs hazırda icarəyə verilən miskin çoxmənzilli evlərdə yaşayan insanların özlərinin mənzili olmasına imkan verəcəkdir. Bizim sənaye zonaları barədə Konqresdə çox danışırlar. Lakin həmin zonalar işçi qüvvəsini şəhərə cəlb edəcəklər. Bizim yaxşı proqramımız var və Konqresin həmin proqramı qəbul etməsi üçün mənim bu ölkənin hər bir vətəndaşının köməyinə ehtiyacım var...

Sual: Cənab prezident, deyəsən siz hədə-qorxu gəlirsiniz ki, sənaye zonalarının yaradılmasını da nəzərdə tutan "Urbanizasiyaya yardım barədə" qanun layihəsinə veto qoyacaqsınız?

Buş: Elədir, lakin məsələ burasındadır ki, gündəlikdə bu cür böyük qanun layihəsi olanda o, həmişə çox geniş əhatəli məsələləri ehtiva edir və onun ümumi təsirini nəzərə almaq lazımdır. Bizim sistemin problemi də ondan ibarətdir ki, əgər qanun layihəsinin konkret maddələrinə veto qoymaq hüququmuz olsaydı, onda vergilərin artırılmasından yaxa qurtarmaq və xalqın istədiyini etmək, yəni sənaye zonaları yaratmaq mümkün olardı.

Aparıcı: Qubernator Klinton, deyəsən siz nə isə demək istəyirsiniz...

Klinton: Qanun layihəsinə görə, imkanlı amerikalılar şəhərlərdə yaradılan bu sənaye zonaları üçün pul ödəməli olacaqlar, məhz buna görə də siz həmin layihəyə veto qoymaq istəyirsiniz. Siz bu ilin əvvəlində başqa bir qanun layihəsinə də eyni qayda ilə veto qoymusunuz; bu, böhtan deyil, faktdır. İlin əvvəlində bu cür qanun qəbul edilməsi kredit verilməsini

Satış üçün nəzərdə tutulmayıb

asanlaşdırardı, şəhərlərimizə və ölkəmizə təkrar investisiya qoyulması üçün stimul yaradardı, lakin həmin qanun layihəsinə görə tələb edilirdi ki, ən varlı adamlar bir qədər artıq vergi ödəsinlər.

İzn verin mənim planımda nələr nəzərdə tutulduğunu söyləyim. Mənim planıma görə, bizim hakimiyyətdə olacağımız 4 ilin hər birində investisiya və nəqliyyat, kommunikasiyalar, ətraf mühitin mühafizəsi və XXI əsrin texnologiyaları üçün 20 milyard dollar vəsait ayrılması nəzərdə tutulur və bu ya depressiya vəziyyətində olan, ya da müdafiə sənayesi ilə bağlı iş yerlərinin çoxunun itirilmiş olduğu sahələrə daha çox aid olacaqdır. Məsələn, Kaliforniyada 200 000 nəfər müdafiə sənayesi sahəsində iş yerlərini itirmişdir. Yüksək sürətli dəmiryol sahəsinin çəkilişində həmin adamlardan istifadə etmək olar, onlardan yeni texnologiyaların işlənib hazırlanmasında, zibilin emal edilməsində, suyun təmizlənməsində və sair sahələrdə istifadə etmək olar. Bu texnologiyaların sayəsində biz milyonlarla iş yeri yarada bilərik. Bu, hərbi sənaye sahəsində itiriləcəyi gözlənilən iş yerlərinin sayından çoxdur. Lakin əsas rəqiblərimizlə müqayisədə biz gəlirlərimizin çox cüzi hissəsini soruşduğunuz məsələlərə sərf edirik. Nəticədə rifahımızın artımı zəifləyir, ölkə isə yoxsullaşır. Biz büdcə kəsirini azaltmaqla bərabər, bu cür investisiyalar vasitəsilə iqtisadiyyatı inkişaf etdirməliyik ki, maddi rifahın yüksəldilməsinə, Amerikaya çox lazım olan iş yerlərinin sayının və gəlirlərin səviyyəsinin artırılmasına nail olaq.

Sual: Cənab Pero, bəs iri şəhərlər barədə sizin planlarınız necədir?

Pero: Əvvələn, bütün bunların haqqını ödəmək üçün bizə vəsait lazımdır. Buna görə də biz iş yerləri yaratmalıyıq. Şəhərdə iş yerləri yaratmaq üsulları çoxdur. Bilirsinizmi, mən siyasətçi deyiləm, lakin mənə belə gəlir ki, bir həftədən sonra Vaşinqtona getsəm, bu qanun layihəsinin imzalanması üçün hamının əlbir olmasına nail ola bilərəm. Çünki mən demokratların liderləri ilə söhbət etmişəm və görürəm ki, bu qanun layihəsi onlara lazımdır. Mən respublikaçıların liderləri ilə də danışmışam və görürəm ki, bu qanun onlara da lazımdır. Lakin onlar hələ uşaq yaşlarından bir-birinə qarşı mübarizə aparmağa adət ediblər. Onlar ümumi nəticəyə nail olmaq istəmirlər. Buna görə də mən onların arasında körpünü bərpa etmək üçün bir qədər vaxt sərf etməyə hazıram. Axı bizə nəticə lazımdır. Prezident Konqresə əmr edə bilməz, Konqres isə prezidentə əmr edə bilməz. Bu, heç

Satış üçün nəzərdə tutulmayıb

vaxt orada olmamış adam üçün o qədər də pis vəziyyət deyil, elədirmi? Lakin biz əlbir olub işləməliyik...

Fakt ondan ibarətdir ki, əziyyət çəkən – amerikan xalqıdır. Bu insanlar şəhərlərdə əziyyət çəkirlər. Biz "aşağı məvacibli iş yerləri"ni başqa ölkələrə göndəririk. Bəs "aşağı məvacibli iş yerləri" nə deməkdir? Bu, bizim "dünənki günün sənayesi" adlandırmağa başladığımız toxuculuq sənayesi, ayaqqabı sənayesi və başqa istehsalat sahələridir. Şəhərlərdə isə bu sahələr sabahkı günün rəmzidir.

İşsiz qalsam, öz ailəmi dolandıra bilmək üçün günü sabah ot biçməyə gedərəm. Mən paltar istehsalı sahəsində məmnuniyyətlə işləyərəm, mən ayaqqabı istehsalında işləməyə şad olaram, mən sosiska da istehsal edərəm, təki mənə iş verin. Beynəlxalq sazişlər bağlamaq və iş yerlərini Çinə göndərmək əvəzinə, öz şəhərlərimizə iş yerləri verin. Axı Çində bu işlə dustaqlar məşğul olurlar.

Sual: Cənab Pero, çoxları belə hesab edir ki, sizin birinci debatda uduzmağınızın səbəbi sadə sözlər danışmağınız və "biz bunu edərik" sözlərini çox asanlıqla deməyiniz olmuşdur. Siz nə üçün elə düşünürsünüz ki, demokratların və respublikaçıların mövqelərini bu gün sizinlə yanaşı duran adamlarla müqayisədə siz daha yaxşı səviyyədə yaxınlaşdıra bilərsiniz?

Pero: Bilirsinizmi, mən hər iki tərəfi dinlədim və belə güman edirəm ki, onlar bir-birini daşa basmaq əvəzinə bir-biri ilə söhbət etməyə başlasalar, biz çox şeyə nail olarıq. Bütün başqa məsələlərlə bərabər mən Senat Komitəsində [çıxış etsəydim] bizim kimi narahatçılıq keçirən Senat sədrinə belə deyərdim: Biz bir-birimizin üstünə qışqırmaq əvəzinə, nə üçün aramızdakı fikir ayrılıqlarını üzə çıxarıb onları aradan qaldırmağa, qanunun qəbul edilməsinə çalışmırıq və burada partiya oyunları oynamaqdansa, nə üçün bütün nemətləri xalqa verməyə çalışmırıq?

Fikrimcə, mətbuat bu məsələni o qədər diqqətlə izləyəcək ki, onlar son nəticədə bunu etməli olacaqlar. Mən belə edərdim. Mənə bu cür imkan veriləcəyinə şübhə edirəm, lakin mən bununla məşğul olmaq üçün hər şeyi bir kənara atardım.

Sual: Mən bu sualı yalnız qubernator Klintona verməyə hazırlaşırdım, lakin indi həmin suala namizədlərin hər üçündən cavab eşitməyə şad olardım. Bildiyiniz kimi, iri şəhərlərdə cinayətkarlıq çox geniş yayılmışdır. Riçmond rayonunda 12 yaşlı uşaqların bəziləri məktəbə silah aparırlar və mən əminəm ki, başqa şəhərlərdə də vəziyyət o qədər də yaxşı deyil. Mən əminəm ki, bu millətin başbilənləri Konstitusiyanı işləyib hazırlayarkən silah gəzdirmək hüququnun 12 yaşlı uşaqlara da şamil ediləcəyini güman

Satış üçün nəzərdə tutulmayıb

etməyiblər. Mənim sualım belədir: silah gəzdirilməsinə nəzarət məsələsində sizin mövqeyiniz və bu barədə planlarınız necədir?

Klinton: Mən silah saxlamaq və silah gəzdirmək hüququnun tərəfdarıyam. Yaşadığım Ştatda yaşlı əhalinin yarısından çoxunun ovçuluqla və ya balıqçılıqla, bəzən də bunların hər ikisi ilə məşğul olmaq üçün lisenziyaları var. Lakin hesab edirəm ki, silah satmazdan əvvəl bizə müəyyən bir yoxlama sistemi lazımdır – həmin silahın kriminal tarixə malik olub-olmaması, alıcının psixi vəziyyəti və onun yaşı yoxlanılmalıdır. Buna görə də mən Breydi qanun layihəsini *(Brady bill)* dəstəkləyirəm. Həmin qanun layihəsinə görə, ştatlar Virciniyada artıq görülmüş işi görənə qədər, yəni silahlar barədə vahid məlumat bazası yaradılana qədər bütün ölkədə gözləmə dövrü müəyyən edilir. Əgər bütün məlumatların işlənməsi haradasa artıq avtomatlaşdırılıbsa gözləmə dövrünə ehtiyac yoxdur. Lakin ən azı yoxlama aparmaq olardı. Açığını deyim ki, mənim də fikrimcə, biz yalnız qətl törətmək üçün tətbiq olunan hücum silahının satılmasına məhdudiyyət tətbiq etməliyik. Biz polisin şəhərlərdə get-gedə genişlənən kriminal qruplaşmaların qarşısına çıxa bilməsi üçün ona şans verməliyik.

Haqqında danışmaq istədiyim üçüncü məsələ silah gəzdirilməsinə nəzarətlə bilavasitə bağlı olmasa da, çox mühüm məsələdir. Bizim küçələrdə polisin sayı artırılmalıdır. Cinayətkarlığa qarşı mübarizə haqqında qanun layihəsi var və həmin layihəyə görə, küçələrdəki polisin sayı artırılmalıdır, lakin Senatda əsasən respublikaçı senatorların hay-küy qoparması nəticəsində bu layihə qəbul edilməmişdir. Fikrimcə, onun qəbul edilməməsi – biabırçı faktdır. Zənnimcə, həmin layihə qanuna çevrilməlidir, lakin o layihə Breydi billini də ehtiva edir, həmin billdə isə gözləmə vaxtı nəzərdə tutulmuşdur.

Aparıcı: Sağ olun. Cənab Buşu dinləyək.

Buş: Mən hesab edirəm ki, siz çox mühüm bir mövzuya toxunmusunuz. Mən amerikan ailəsini möhkəmlətməyin zəruri olması barədə danışmışam, lakin bunu etmək çox çətindir. Sadəcə, gəzə-gəzə tindəki mağazaya qədər piyada getmək və ya uşağı bir kömbə çörək almağa göndərmək təhlükəli olmuşdur. Bu, çox ağır vəziyyətdir. Mən cinayətkarlığa qarşı mü-

Satış üçün nəzərdə tutulmayıb

barizə üzrə çox sərt qanunvericilik qəbul edilməsi uğrunda mübarizə aparıram. Bitib-tükənmək bilməyən bu cür apelyasiyalara son qoymaq üçün biz *Habeas Corpus*-da islahat aparmalıyıq. Biz əmin olmalıyıq ki, əgər birisi məhkum edilibsə, bu həqiqətən belədir. Mən qanunsuz yolla *(exclusionary rule)* əldə edilmiş sübutların [məhkəmə tərəfindən] qəbul edilməməsi barədə qaydanı dəyişməyə çalışıram: əgər namuslu polis işçisi canini tutub saxlayarkən texniki səhvə yol vermiş olarsa, cinayətkar cəzasız qalmamalıdır. Ola bilər ki, bu zalda əyləşənlərdən bəziləri mənimlə razılaşmayacaq, lakin mən sadəcə olaraq belə hesab edirəm ki, biz polis əməkdaşlarının qətlə yetirilməsinə görə ölüm hökmü çıxarmalıyıq. Qubernator Klintonun haqlı olaraq qeyd etdiyi kimi, Virciniya Ştatı odlu silahların qeydiyyata alınması məsələsində liderdir. Mən odlu silahların qeydiyyatı üzrə ümummilli sistem yaradılmasının tərəfdarı deyiləm. Silah işlədilməsi əleyhinə sərt qanunlar qəbul edilmiş bəzi ştatlarda cinayətkarlıq göstəricisi ən yüksək səviyyədədir. Qubernator Klinton kimi, mən də silah gəzdirmək hüququnun tərəfdarıyam. Mən idmançıyam və odlu silahın bütün növlərinin qadağan olunmasını məqsədəuyğun hesab etmirəm. Lakin mən Klintonun bəhs etdiyi qanunun qəbul edilməsinin tərəfdarı deyiləm, çünki həmin qanun cinayətkar üçün kifayət qədər sərt deyildir. Mən çox şadam ki, Arkanzas ştatının Litl Rok şəhərindəki polis qardaşlarımız məni dəstəkləyiblər, çünki onlar görürlər ki, mən cinayətkarlığa qarşı mübarizə sahəsində qanunvericiliyi sərtləşdirməyə çalışıram. Biz yerli polisin ehtiyacları üçün əvvəlki hökumətlərin hər biri ilə müqayisədə daha çox vəsait ayırırıq. Beləliklə, biz vəziyyəti nəzarətə almalıyıq. Nəhayət, daha bir məsələ – narkotiklər məsələsi haqqında danışmaq istərdim. Biz narkotiklərə qarşı ümummilli mübarizədə üstün gəlməyə borcluyuq və bu sahədə müəyyən uğurlarımız var. Biz narkotiklərin yayılmasına qarşı mübarizə sahəsində göstəriciləri bir qədər yaxşılaşdırmışıq, lakin islahedilməz narkomanlara qarşı mübarizədə səylərimiz hələlik təsəlliverici deyildir.

Pero: Gördüyünüz kimi, bizim hər bir proqram barədə, o cümlədən cinayətkarlığa qarşı mübarizə barədə çox möhtəşəm planlarımız var, lakin onlar hələ də qanun forması almamışdır və həyata keçirilmir. Mən razıyam ki, Breydi billi düzgün istiqamətdə atılmış ilk addımdır, lakin o, bütün problemləri həll etməyəcək. Yaxşı, əgər bu qanun problemi həll etməyəcəksə, onu qəbul etməyimiz nəyə lazımdır? Məsələnin mahiyyəti ondan ibarətdir ki, biz bundan sonra da bu cür yaşaya bilərik, ya yox? Cinayətkarın hüquqları bizi o qədər narahat edir ki, biz günahsız vətəndaşların hüquqlarını tamam yaddan çıxarmışıq və bu gün elə vəziyyət yaranıb ki, milyonlarla günahsız insan barmaqlıqlar arxasındadır: yoxsullar yaşayan

Satış üçün nəzərdə tutulmayıb

rayonlara gedəndə görürsən ki, oranın sakinləri özlərini və halal zəhmətlə topladıqları sərvətlərini qorumaq üçün pəncərələrə və qapılara dəmir barmaqlıqlar qaynaq ediblər. Bax, bizim başımıza bu cür işlər gətirilir. Biz qayda-qanun əsasında yaşayan insanlar barəsində daha çox düşünməli və özümüzə lazım olan tarazlığı yaratmalıyıq. Bu, ilk növbədə sıravi amerikalıların razılığını tələb edir. Amerika xalqı ən aşağı təbəqələrdən başlamış ən yuxarılara qədər nə istədiyini deməlidir. Onda biz çoxsaylı planlar arasından seçim edərək yeni planlar işləyib hazırlaya bilərik. Bunu isə o halda etmək mümkün olacaq ki, biz bir yerə toplaşaraq ən yaxşı proqramı işləyib hazırlayaq və "elektron şəhər məclisindən" (sizin bu gün burada təşkil etdiyiniz məhz bu cür məclisdir) istifadə etməklə həmin proqramı Amerika xalqına göstərək, ümumi vahid fikrə gələk və yalnız bundan sonra müəyyən tədbirlər görək. Biz 4 il sərasər əlimizi yanımıza salıb heç nə etmədən sadəcə oturub gözləyə bilmərik.

Sual: Qubernator Klinton, səhiyyə xidmətlərinin haqqının get-gedə artmasının təqsirkarı həkimlərdir, yoxsa burada başqa problem var? Bu problemi həll etmək üçün Sizin hansı konkret təkliflәriniz var?

Klinton: Məndən ən çox səhiyyə barədə soruşurlar. Sizin sualınıza cavab verməyə çalışaram. Əvvəlcə kiçik bir arayış verim: biz səhiyyə sahəsinə dünyanın hər hansı başqa dövlətində olduğundan 30% çox pul xərcləyirik və bu halda sığortaladığımız insanların sayı azdır. 35 milyon insanın ümumiyyətlə sığortası yoxdur. Mən onları hər yerdə görürəm. Təkcə son 4 ildə hər ay təqribən yüz min amerikalı tibbi sığortadan məhrum olmuşdur.

Buna görə də başqa ölkələrdən hansı sahələrdə geri qaldığımızı təhlil edəndə bu nəticələrə gəlirik: əvvələn, biz hər il sığorta ödənişləri, inzibati ehtiyaclar, bürokratik və hökumətlə bağlı məsrəflər üçün ən azı 60 milyard dollar xərcləyirik. Dünyada heç bir başqa dövlət həmin məqsədlər üçün bu qədər pul xərcləmir. Fikrimcə, biz ölkəmizdə tibbi sığorta qaydalarını əhəmiyyətli dərəcədə sadələşdirməliyik. Hər şey hamı üçün müyəssər olmalıdır. İşəgötürənlər öz işçilərini sığorta etdirməlidirlər, hökumət isə işsizlərin qeydinə qalmalıdır.

Satış üçün nəzərdə tutulmayıb

İkincisi, biz sığorta şirkətlərinə müraciətlə tələb etməliyik ki, onlar özlərinin sığorta sxemlərini əsaslı şəkildə yenidən nəzərdən keçirsinlər və insanları böyük icma fondları şəklində birləşdirsinlər. Məncə, əczaçılıq şirkətlərinə bunu deməyin vaxtı çatmışdır ki, dərmanların qiymətinin artım surəti inflyasiyanın artım surətindən üç dəfə yüksək olmamalıdır. Zənnimcə, təbabət sahəsindəki dələduzlarla da məşğul olmağın vaxtıdır. Həkimlərə kömək etmək lazımdır ki, onlar praktiki təbabətlə "qorxa-qorxa" məşğul olmaqdan əl çəksinlər. Mən tövsiyə etmişdim ki, bizim həkimlər tibbi xidmətin müəyyən olunmuş ümummilli qaydaları üzrə hazırlıq keçsinlər və əgər həkimlər bu qaydalara ciddi riayət etsələr, onların [saxta məhkəmə işlərindən] qorxmalarına heç bir lüzum olmayacaq. Zənnimcə, bizim şəhərlərdə və kəndlərdə ilk və profilaktik tibbi yardım göstərən klinikalar sistemi olmalıdır ki, səhiyyə sistemindən hamı istifadə edə bilsin.

Əsas məsələ – keyfiyyətə xələl vurmadan xərclərə nəzarət etməkdən ibarətdir. Bundan ötrü hamımıza şamil edilən, özümüz üçün həkim və xəstəxana seçməkdə daha geniş imkanlar verən və idarə edilə bilən rəqabət sistemi olmalıdır. Lakin xərclərə nəzarətə də maraq yaradılmalıdır. Zənnimcə, tibbi xidmətlər göstərənlərin və bu xidmətlərin istehlakçıların nümayəndələrindən ibarət milli komissiya yaradılmalıdır. Bu komissiya inflyasiyanı və əhali artımını nəzərə almaqla tibbi xidmət üçün qiymətlərin yol verilə bilən hədlərini müəyyən etməlidir.

İndi isə bir məsələni qeyd etmək istəyirəm. Bəziləri elə hesab edir ki, biz bunu edə bilmərik, amma Havay adalarında bunu ediblər. Onlar öz vətəndaşlarının 98% sığorta ediblər, həmin vətəndaşların sığorta haqları isə bütün Amerikada olduğundan xeyli aşağıdır. Eyni hadisələr Nyu-York Ştatının Roçester şəhərində də baş verir. Hazırda orada hamını sığortalamağı planlaşdırırlar və bu halda onların sığorta haqları ölkənin hər hansı başqa yerində olduğunun üçdəbir hissəsi qədər aşağıdır. Bu, çox mühüm məsələdir, Amerika üçün böyük bəşəri problemdir. Mən də öz prezidentliyimin ilk yüz günü ərzində müvafiq plan təklif etməyə hazırlaşıram.

Buş: Gərək ki, aparıcı soruşdu ki, bu məsələdə həkimlərin təqsiri varmı? Mən deyirəm: yoxdur. Belə amillərdən biri – həkimlərin "cinayətkar səhlənkarlığı" barədə məhkəmə iddialarıdır. Bu cür iddialar bütün sistemi bərbad hala salır. Onlar bizə ildə 20-25 milyard dollara başa gəlir və mən istəyirəm ki, bu cür hiddətləndirici dərəcədə şişirdilmiş iddialara son qoyulsun. Bəzən həkimlər kiminsə onları məhkəməyə verəcəyindən çəkinərək doğuşu qəbul etmək məsuliyyətini öz üzərilərinə götürməkdən imtina edirlər. Həkimlər yolda köməyə ehtiyacı olan insanlara kömək etməyə, sa-

Satış üçün nəzərdə tutulmayıb

dəcə olaraq, cəsarət etmirlər, çünki onlar qorxurlar ki, hansısa bir vəkil onların barəsində məhkəmə iddiası qaldıra bilər. Buna görə də səhiyyənin problemlərinə görə həkimləri günahlandırmaq lazım deyil. Proqramım isə bundan ibarətdir: hökuməti bütün bu cür məsələlərdən mümkün qədər uzaqlaşdırmaq lazımdır. Ən yoxsul təbəqələr sığortadan vauçerlər vasitəsilə istifadə etmək imkanına malik olmalıdırlar, maddi rifah səviyyəsinə görə növbəti kateqoriyaya aid insanlardan ötrü vergi güzəştləri vasitəsilə buna nail olmaq lazımdır. Vətəndaşların sığorta birliklərini yaratmağın da vaxtı çatıb. Əlbəttə, analar və atalar üçün tindəki mağaza ilə müqayisədə böyük şirkətlər sığortanı daha ucuz qiymətə ala bilərlər. Lakin analar və atalar üçün bu cür mağazalar birləşsələr, onlar da sığortanın qiymətini aşağı sala bilərlər.

Bu halda mən tibbi xidmətlərin keyfiyyətini qoruyub saxlamaq istəyirəm, bu isə o deməkdir ki, bu məsələdə hökumətin heç bir iştirakı olmamalıdır. Burada müxtəlif komissiyalar yaradılması barədə bir fikir səsləndi. Bu fikir mənim xoşuma gəlmir. Bu ona oxşayır ki, hökumət hansı yollasa qiymət müəyyən edəcəkdir. Mən rəqabətin tərəfdarıyam, mən sığorta birlikləri yaratmaq və problemi bu yolla həll etmək istəyirəm.

Daha bir məsələ. Fikrimcə, sığorta insanın əlində qalmalıdır, yəni siz öz biznesinizi tərk edib başqa bir biznes sahəsinə keçirsinizsə, sığortanız sizinlə qalmalıdır. Siz Consun şirkəti üçün işləyirdinizsə və indi Smitin şirkətinə keçmək qərarına gəlmisinizsə, onda sizin sığorta sizinlə birlikdə keçməlidir. Zənnimcə, bu, yaxşı proqramdır. Mən onun həyata keçirilməsini səbirsizliklə gözləyirəm.

Pero: Dünyada ən bahalı səhiyyə sistemi bizim ölkədədir. Biz ümumi milli məhsulun 12% səhiyyə sahəsinə sərf edirik. Dünya bazarında bizi üstələyən sənayeçi rəqiblərimiz isə bizdən daha az pul xərclədikləri halda onların sistemi bizimkindən yaxşıdır. Yaponiyada səhiyyə sahəsinə ölkənin ümumi milli məhsulunun 6%-indən bir qədər çox, Almaniyada isə ümumi milli məhsulun 8%-i qədər pul xərclənir. Bu ki, dəhşətdir. Təsəvvür edin ki, siz lojanın birinci sırasında yer almısınız və yenə də öz səhiyyə sisteminizdən narazısınız. Siz deyirsiniz ki, bizim səhiyyə sistemi pisdir və üstəlik, çox bahalıdır. Bunların hamısının səbəbləri var. Siz evə gedəndə güzgüyə baxın. Bu ölkənin sahibləri sizsiniz, lakin burada elə qaydalar

Satış üçün nəzərdə tutulmayıb

hökm sürür ki, sizin heç bir səsiniz yoxdur və əgər siz kəskin hisslər yaşamaq istəyirsinizsə, bir dəfə Konqresdə buna oxşar qanun layihələri üzərində iş gedən vaxtda, yaxud lobbiçilər dəhlizlərdə vurnuxarkən oraya gedin. Ehtiyatlı olun ki, orada sizi tapdalamasınlar. Mənə inanın, orada adi vətəndaşları lap qanmaz hesab edirlər.

Əslində, bu gün ölkədəki iqtidar sizin fövqünüzdədir, halbuki hakimiyyət sizdən başlanmalıdır. Təkliflər çoxdur, səhiyyə barədə yaxşı, qəşəng, hətta əla təkliflər var. Lakin onların heç biri həyata keçirilmir, çünki... icazə verin misal gətirim. Senator 6 il müddətinə seçilir. O özünün seçki kampaniyası üçün həftədə 20 000 dollar toplamalıdır. Belə olan təqdirdə o kimə qulaq asacaq: bizə, yoxsa iqtidar dəhlizlərində qaçışan "siyasi fəaliyyət komitələri"nin üzvləri olan pullu lobbiçilərə? Əlbəttə, senator onlara qulaq asacaqdır. Bəs onlar kimi təmsil edirlər? Bizimi? Yox, onlar səhiyyə sənayesini təmsil edirlər.

Siz elə etməlisiniz ki, ölkədə hakimiyyət sizdən başlansın. Siz özünüzü bu ölkənin sahibləri rolunda bərqərar etməli və bütövlükdə dövlətdə islahat keçirməlisiniz. Onda ağacdakı almalar birbaşa sizin əlinizə düşəcək – proqramlar yaxşı olacaq, çünki xalqın elçiləri xalqı eşitməyə başlayacaqlar.

Klinton: Mənim qısa bir qeydim var. Seçkilər ondan ötrü keçirilir ki, insanlar bu cür məsələlər barədə qərarlar qəbul edə bilsinlər. Mən onu nəzərdə tuturam ki, səhiyyə məsələləri üzrə iki partiyalı komissiya – respublikaçılar və demokratlar partiyalarını təmsil edən bərabər sayda ekspertlərdən ibarət komissiya həm mənim planımı, həm də Buşun planını nəzərdən keçirərək bu qənaətə gəlmişdir ki, mənim planım Amerikanın bütün əhalisini əhatə edir, halbuki Buşun planına görə 2000-ci ildə 27 milyon insan tibbi sığortasız qalacaqdır.

Komissiya həmçinin bu qənaətə gəlmişdir ki, mənim planım qarşıdakı 12 il ərzində 2,2 trilyon dollara qənaət edəcək, bu vəsaiti bizim iqtisadiyyata təkrar investisiya kimi qoymaq mümkün olacaqdır, orta statistik ailə ildə 1200 dollara qənaət edə biləcək və bu halda tibbi xidmətlərin keyfiyyətinə xələl dəyməyəcəkdir. Mən sizdən xahiş edirəm, bu planı nəzərdən keçirin. Kimin planı varsa, ona səs vermək lazımdır. Axı seçkilər də elə bundan ötrü keçirilir.

Sual: Milli borc probleminin şəxsən sizə aidiyyəti olubmu? Əgər olmayıbsa, siz adi insanların iqtisadi problemlərinin həllinə necə kömək edə bilərsiniz?

Satış üçün nəzərdə tutulmayıb

Pero: Bütün bu məsələlər şəxsən məndən ötrü o dərəcədə vacibdir ki, mən öz biznes fəaliyyətimdə fasilə yaradaraq onlarla məşğul olmuşam. İnanın ki, mənim ailəmi tanısaydınız və ya mənim necə yaşadığımı bilsəydiniz heç düşünmədən razılaşardınız ki, bu, siyasətlə məşğul olmaqdan qat-qat maraqlıdır.

Lakin mən amerikalı olmaqla, amerikalıların arzusuna sadiqəm. Mən çox yoxsul bir ailədə böyümüşəm. Həyatda mənim kimi bəxti gətirən az olub. Mənim ən böyük sərvətim – mənim ailəmdir, arvadım və uşaqlarımdır. Əslində hər bir insanın ailəsi onun ən böyük sərvətidir. Lakin mən istəyirəm ki, bütün uşaqlar, bu ölkədəki uşaqlar öz həyatlarını mənim kimi, necə deyərlər lap quru yerdə, boş yerdə, amma ideya ilə başlaya bilsinlər və onlar da öz bizneslərini yarada bilsinlər. Amma bundan ötrü güclü iqtisadiyyat olmalıdır. Borcun varsa, özünü sanki qandallanmış kimi hiss edəcəksən. Sadəcə olaraq, hesab edirəm ki, mən öz xoşbəxtliyimə görə uşaqlara borcluyam, gələcək nəsillərə borcluyam. Şəxsi səviyyədə isə mən öz uşaqlarıma və öz nəvələrimə borcluyam.

Sual: Sağ olun, cənab Pero. Buyurun, cənab prezident!

Buş: Mən belə hesab edirəm ki, milli borcun hamıya dəxli var. Əlbəttə, söhbət faiz dərəcələrindən gedir, onlar isə...

Aparıcı: Sual şəxsən sizə aiddir. Bu borcun şəxsən sizə hansı şəkildəsə aidiyyəti olubmu?

Buş: Olub, olub. Mən öz nəvələrimi çox sevirəm və düşünmək istərdim ki...

Sual: Hansı şəkildə aidiyyəti olub?

Buş: Mən düşünmək istərdim ki, onlar öz təhsil haqlarını ödəyə biləcəklər. Zənnimcə, bu, hər bir valideynin mühüm vəzifəsidir. Bəlkə də mən nəyisə düzgün başa düşmürəm. Siz elə bilirsiniz ki, birisinin pulu varsa, milli borcun ona dəxli yoxdur? Deyəsən, mən sualı düzgün başa düşməmişəm. Siz nəyi nəzərdə tutduğunuzu izah edə bilməzdinizmi ki, mən də cavab verməyə çalışım.

Sual: Onu nəzərdə tuturam ki, mənim iş yerlərini itirmiş dostlarım var, öz evlərinin və ya maşınlarının müqabilində qoyduqları girovu ödəyə bilməyən tanışlarım var. Bəs bunların sizə necə təsiri olub? Əgər sizin bu cür

Satış üçün nəzərdə tutulmayıb

təcrübəniz yoxdursa, əgər siz bizim nə kimi hisslər keçirdiyimizi təsəvvür etmirsinizsə, bizə necə kömək edə bilərsiniz?

Buş: Siz heç olmasa bircə gün Ağ Evdə olsaydınız, eşitdiklərimi eşitsəydiniz, gördüklərimi görsəydiniz, oxuduqlarımı oxusaydınız, mənim hərdən bir ünsiyyətdə olduğum insanlarla ünsiyyətdə olsaydınız, onda siz məni başa düşərdiniz. Bu yaxınlarda mən Vaşinqtonun yaxınlığında Lomaks Afrikan Metodist Yepiskopal kilsəsində olmuşam. Kilsənin bülletenində yeniyetmələrin hamiləliyi və imkansız ailələrin üzləşdiyi problemlər barədə oxudum. Mən valideynlərlə görüşürəm, yəni prezident bütün bunlarla məşğul olmalıdır. İnsanlar çətinliyə düşəndə hər kəs onlara qayğı göstərməlidir. Sizin sözlərinizdən belə çıxır ki, əgər kimsə xərçəng xəstəliyinə tutulmayıbsa, onun guya həmin xəstəlik barəsində heç bir təsəvvürü ola bilməz. Mən belə yanaşma ilə razı deyiləm ki, əgər müəyyən problemin şəxsən sizə aidiyyəti olmamışdırsa, siz onun mahiyyətini anlaya bilməzsiniz. Bu borc hamımıza aiddir, çünki o, çox böyük faizlə bərabər ödənilir, bu isə həyatın bahalaşmasına gətirib çıxarır. Nəticədə hamısı sizin və mənim cibimdən gedir. Buna görə bütün bunlar çox xoşagəlməzdir, yəni bu, iqtisadi tənəzzülə gətirib çıxarır və siz Birləşmiş Ştatların prezidenti olarkən bunu, əlbəttə, hiss edəcəksiniz. Mən bu problemi ixracın stimullaşdırılması, investisiyaların artırılması və təhsil sisteminin inkişaf etdirilməsi yolu ilə həll etməyə çalışacağam. Sağ olun ki, mənim öz nöqteyi-nəzərimi izah etməyimə imkan verdiniz.

Aparıcı: Qubernator Klinton buyursun.

Klinton: Bunların sizə necə təsir göstərdiyini mənə bir də deyərdiniz. Siz öz işini və evini itirmiş adamları tanıyırsınızmı?

Soruşan: Bəli, tanıyıram.

Klinton: Artıq 12 ildir ki, mən kiçik bir Ştatın qubernatoruyam. Bunların mənə necə təsir göstərdiyini deyə bilərəm. Hər il Konqres və prezident bizdən daha az pul müqabilində daha çox iş görməyi tələb edən qanunlar imzalayırlar. Mən öz Ştatımda yaşayan adamlarla, orta sinfin nümayəndələri ilə görüşürəm. Vaşinqton onların vergilərini artırmış, əmək haqqını isə azaltmışdır. Halbuki varlılar öz vergilərinin azaldılmasına nail olmuşlar, mən son 4 ildə baş verən bu hadisələri müşahidə edirəm. Mənim Ştatımda adamlar işini itirəndə mən onların bəlkə də hamısını adbaad tanıyıram. Mənim Ştatımda bir müəssisə bağlananda mən onu idarə edənləri şəxsən tanıyıram. Mənim Ştatımda istehsalatlar özlərini müflisləşmiş elan edəndə mən həmin istehsalatları tanıyıram. Artıq 13 aydır – keçən ilin oktyabr ayından başlayaraq, mən bütün Amerikada iş yerlərini, qazanc mənbəyini

Satış üçün nəzərdə tutulmayıb

və tibbi sığortasını itirmiş insanlarla görüşlər keçirirəm. İstəyirəm başa düşəsiniz ki, bütün bunların yeganə səbəbi milli borc deyildir. Səbəb odur ki, Amerika öz adamlarına kömək göstərməkdən imtina edir. Səbəb odur ki, biz 12 ildir, iqtisadi tənəzzül keçiririk. Biz əmək haqqının səviyyəsinə görə dünyada birinci yerdən on ikinci yerə düşmüşük. Artıq 4 ildir ki, bizdə özəl sektorda iş yerləri açılmır. İndi adamların əksəriyyətinin əmək haqqı 10 il əvvəl olduğundan aşağıdır. Ona görə ki, biz düzgün iqtisadi nəzəriyyəyə əməl etmirik və sizin qəbul etməli olduğunuz qərar ilk növbədə sizə hansı iqtisadi nəzəriyyənin lazım olduğunu müəyyən etməlidir. Bizə sadəcə, "mən bunu etməyə hazıram" kimi bəyanatlar lazım deyil, bizə konkret olaraq nə etməyə hazırlaşmağımız barədə məlumatlar lazımdır. Mən hesab edirəm ki, biz Amerikada iş yerləri yaradılmasına, Amerika təhsilinə sərmayə qoymalıyıq, biz səhiyyə üçün xərclənən vəsaitə nəzarət etməli və amerikan xalqını yenidən birləşdirməliyik.

Sual: İndi biz Yeni Dünya Nizamı şəraitində yaşayırıq *(New World Order).* Mən bilmək istərdim, bu yeni dünya nizamında namizədlər ölkəmizin mövqeyi barədə nə düşünürlər və bu məqamda superdövlət olmaqla vəzifəmiz nədən ibarətdir?

Buş: Biz mənim prezident olduğum vaxtdan bu mövqedəyik. O vaxtdan bəri 43 ya 44 ölkə demokratiya yolu seçmişdir. Onlar totalitarizmdən, diktaturadan, yaxud kommunist rejimindən xilas olmuşlar. Bu, çox maraqlı mənzərədir. Məndən ötrü Yeni Dünya Nizamı – azadlıq və demokratiya deməkdir. Mənim fikrimcə, indi yeganə superdövlət kimi qalmış bizim ölkənin daimi öhdəliyi – bundan sonra da həmin proseslərdə iştirak etməkdən ibarət olmalıdır. Özümüzü təcrid etsək, desək ki, işin bu hissəsini biz görməli deyilik və ya biz lazım olandan artıq iş görməyə borclu deyilik, – gələcəkdə daha böyük münaqişə və problemlərlə üzləşəcəyik və həmin problemləri bu və ya digər şəkildə həll etməli olacağıq.

Məsələn, NATO neçə illərdir ki, sülhü dəstəkləyir və buna görə də mən Avropada sülhün dəstəklənməsini davam etdirmək üçün bizim NATO-da iştirakımızı qoruyub saxlamaq istəyirəm.

Lakin ən xoşagələn fakt budur ki, artıq dünyada nüvə müharibəsi təhlükəsi yoxdur. Siz onun barəsində lazım olduğundan da artıq bilirsiniz və ümidvaram ki, bunun bəşəriyyət üçün nə qədər yaxşı olduğunu anlayırsınız. Nə qədər ki mən prezident kimi qalıram, biz bu işə köməyimizi davam

Satış üçün nəzərdə tutulmayıb

etdirəcəyik. Bilirsinizmi, bu gün "Xaricə kömək etməyə son qoymaq lazımdır, özümüzün problemlərimiz başımızdan aşır" demək çox asandır, lakin mən belə hesab edirəm ki, Birləşmiş Ştatlardakı "Azadlıq Heykəli" başqalarına qayğının rəmzidir. Biz Somalinin aclıq çəkən uşaqlarına ərzaq yardımı göndəririk. Bosniyaya humanitar yardım göstərilməsində lider rolunu məhz Birləşmiş Ştatlar öz üzərinə götürmüşdür. Biz bütün dünyada bu işlə məşğuluq. Düzdür, öz evimizdə də problemlər var. Lakin mən belə hesab edirəm ki, həmin problemlərin həll edilməsi üçün mənim yaxşı planım var. 1970-ci illərin axırlarında biz lider rolunda olduğumuza görə nüvə silahlanmasının dondurulmasını dəstəkləyən səslərə etiraz etdik. Bizə deyirdilər: "Onu dondurun. Ona toxunmayın. Biz bütün bunları dayandırmalıyıq, yoxsa müharibə başlanar".

Lakin prezident Ronald Reyqan *(Ronald Reagan)* deyirdi: "Xeyr, əgər biz güclü olsaq, sülh daha möhkəm olacaq". Bu sözlər düz çıxdı. İndi Sovet İttifaqı yoxdur. Və indi biz mənim təklif etdiyim "Azadlığı Dəstəkləmə Aktı" vasitəsilə keçmiş Sovet İttifaqı respublikalarının tam demokratik dövlətlərə çevrilməsinə kömək edirik. Demokratiyanın böyük elçisi Bob Strauss[122], eləcə də Cim Beyker[123] hazırda oradadır [Rusiyada]. Biz, ilk növbədə əməkdaşlıq vasitəsilə, Rusiyaya kömək etməklə onun demokratik dövlətə çevrilməsinə nail ola bilərik. Buna görə də məndən ötrü Yeni Dünya Nizamı bizim azadlığı və demokratiyanı dəstəkləməyinizi davam etdirmək deməkdir. Biz özümüzü təcrid etməməliyik. Birləşmiş Ştatlar liderlik etməyə və dünyada təhlükəsizliyə təminat verməyə borcludur. Əgər biz olmasaydıq, indi Səddam Hüseyn dünyadakı neft ehtiyatlarının beşdə üç hissəsinə sahib olar, nüvə silahına malik olardı. Bunun öhdəsindən yalnız Birləşmiş Ştatlar gələ bildi.

Pero: Əlbəttə, Rusiyanın öz inqilabını həyata keçirməsinə kömək etmək bizdən ötrü daha sərfəlidir. Bu kömək Soyuq müharibə dövründəki xərclərlə heç cür müqayisə edilə bilməz. Rusiya hələ də çox qeyri-sabit vəziyyətdədir. Orada hələ də hər şey əvvəlki yerinə qayıda bilər. Hələ bütün nüvə silahları demontaj edilməmişdir. Qitələrarası silahlar, bizə zərbə endirə biləcək silahlar məni daha çox narahat edir. Biz bu cür silahlar barəsində razılığa gəlmişik, lakin onlar hələ də demontaj edilməmişdir. İttifaqın parçalanaraq respublikalara bölünməsi ilə müşayiət olunan bu qeyri-sabitliyi, həmçinin bütün Yaxın Şərq ölkələrinin dünyanın bu regionundan silah aldıqlarını nəzərə alsaq, bizim işimiz mürəkkəbləşir. Buna görə də biz liderliyi davam etdirməli və yeni respublikaların demokratiya və kapitalizm istiqamətində irəliləmələrinə konstruktiv kömək etməliyik. Bundan ötrü bizə pul lazımdır və deməli, biz öz adamlarımıza iş verməliyik.

Görürsünüzmü, 45 il müddətində biz yalnız Qızıl Ordu barəsində fikirləşmişik. Mən isə təklif edirəm ki, indən belə bizim əsas vəzifəmiz

Satış üçün nəzərdə tutulmayıb

ümummilli borcumuzu ləğv etməkdən ibarət olsun. Biz xalqı iş yerlərinə qaytarmalıyıq. Onda biz Rusiyada planlaşdırdıqlarımızı özümüzə rəva görə bilərik. Biz indən belə dünya polisi ola bilmərik. Biz Yer Kürəsində sülhün dəstəklənməsi üçün ildə 300 milyard dollar xərcləyirik. Almaniya və Yaponiya hərəsi bu məqsədlə ildə 30 milyard dollar xərcləyir. Bax belə. Dəstəyinizi qazana bilsəm və öz vəsaitlərimin hamısını sənayenin inkişafına sərf etsəm, bu, sadəcə olaraq əla olacaqdır. İkinci Dünya müharibəsindən dərhal sonra bu cür xərclərə daha artıq dərəcədə haqq qazandırmaq olardı, lakin indi qoy o biri superdövlətlər də öz sözlərini desinlər. Mənim fikrim belədir. Biz yaxın vaxtlara qədər iqtisadi baxımdan superdövlət olmuşuq. İqtisadi baxımdan superdövlət olmadan, ümumiyyətlə, superdövlət olmaq mümkün deyil. İqtisadiyyatı zəif olan dövlət bütün dünyada xeyirxah qüvvə ola bilməz. Ola bilər ki, bizim sənaye bazamızın dirçəldilməsi problemləri sizi o qədər də maraqlandırmır. Elə isə, bəlkə sizi bu maraqlandırar ki, biz məhz bunun sayəsində insanları iş yerlərinə qaytaracağıq.

Sual: Cənab Klinton, prezident Səddam Hüseynin adını çəkdi. Sizin vitse-prezident və siz özünüz prezidentin barəsində və Səddam Hüseynin barəsində müəyyən sözlər demisiniz. Həmin sözləri şərh edə bilərdinizmi?

Klinton: Mən əvvəlcə sizin bundan əvvəlki sualınıza, sonra isə bu suala cavab verəcəyəm, çünki bu çox mühüm məsələdir. Soyuq Müharibənin başa çatması dəyişikliklər üçün ağlasığmaz imkanlar yaratmışdır. Bütün dünyada azadlıq küləyi əsir. Rusiya tərk-silah olunur. Bu fakt bizdən də müəyyən varislik, ikipartiyalı Amerikanın müəyyən prinsiplərə sadiq olmasını tələb edir. Demək istəyirəm ki, burada üç məsələ var. Mən onların barəsində danışmaq istərdim.

Əvvələn, biz həqiqətən bütün dünyada təhlükəsizliyi dəstəkləməliyik. Biz təhlükəsizliyi dəstəkləmək deyəndə nəyin nəzərdə tutulması barədə mübahisə edə bilərik. Məncə, təhlükəsizlik – yerdə, havada və dənizdə daim fəaliyyətdə olan silahlı qüvvələrin şəxsi heyətində daha az insan olmasını, lakin onların daha çevik olmasını tələb edir. Təhlükəsizlik – yüksək texnoloji silahların inkişaf etdirilməsi üçün gərgin iş aparılmasını və yaxşı təlim görmüş mütəxəssislər olmasını tələb edir. Zənnimcə, biz kütləvi qırğın silahlarının yayılmasına son qoyulması istiqamətində işi davam etdirməliyik. Biz Rusiyada və digər respublikalarda bütün nüvə silahları məhv edilənə qədər işləməliyik.

Satış üçün nəzərdə tutulmayıb

İkincisi, biz ölkənin iqtisadi qüdrətini bərpa etməsək, superdövlət olmayacağıq. Biz cənab Buşun Yaponiyaya səfəri zamanı baş vermiş hadisənin təkrarlanmasına imkan verə bilmərik. O vaxt Yaponiyanın baş naziri bizim ölkənin halına acıdığını demişdi. Biz iqtisadi cəhətdən dünyanın ən çox inkişaf etmiş ölkəsi olmalıyıq. Mən bu seçkilərdə buna görə iştirak edirəm. Beləliklə, biz Amerika iqtisadiyyatını bərpa etməliyik.

Üçüncüsü, biz azadlığı və demokratiyanı dəstəkləyən qüvvə olmalıyıq. İstər Haitidə, istər Çində, istərsə də hər hansı başqa yerdə azadlıq cücərtiləri baş qaldıranda biz özümüzün unikal mövqeyimizdən istifadə edərək, azadlığı dəstəkləməliyik. Biz azadlığı zorla qəbul etdirə bilmərik. Lakin biz onun tərəqqisinə kömək edə bilərik. Mən prezident olsaydım, bunları edərdim. Mən gələcəkdə bu üç qaydaya riayət edərdim.

Sual: Mən bir məsələni bilmək istərdim – bu sualı sizin hər üçünüzə ünvanlayıram: Siz öz partiyalarınızın irqi hüquq bərabərliyi sahəsində indiyədək qazandığı uğurları, indiki zamanda vəzifələrə təyin etdiklərinizi və seçkilərin nəticələrini bir kənara qoyaraq, bu suala cavab verin. Sizin proqnozlarınıza görə, sizin partiya afroamerikalını və qadını Birləşmiş Ştatların prezidenti vəzifəsinə namizəd kimi nə vaxt irəli sürəcək və onu nə vaxt prezident seçəcəkdir?

Klinton: Bu suala mənim dəqiq cavabım yoxdur, lakin ümid edirəm ki, mən bunun şahidi olacağam.

Buş: Mən də bu fikirdəyəm.

Klinton: Mən belə hesab edirəm ki, bizim ölkədə afroamerikalılar, hətta bu irqdən olan adamların çoxluq təşkil etmədiyi regionlarda da get-gedə daha çox hallarda seçkili vəzifələrə seçilirlər. Amerika xalqı bu məsələyə irqi ayrı-seçkilik mövqeyindən yanaşmaqdan imtina etməyə başlamışdır və ümidvaram ki, bu xətt davam etdiriləcəkdir.

İndi vəzifəyə seçilən qadınların sayı get-gedə artmaqdadır. Siz Senata seçilmək iddiasında olan bu qadınlara baxın. Bilirsinizmi, mənim anam, arvadım və qızım deyirlər ki, əgər dünyanı əsasən qadınlar idarə etsəydi, dünya indikindən çox-çox yaxşı olardı. Yeri gəlmişkən, mən əminəm ki, qadınlar xüsusi təcrübəyə, biliklərə malikdirlər, onlar problemləri özünəməxsus tərzdə görürlər və onlar bunları uğurla həyata tətbiq edə bilərdilər. Burada bir xanım bizdən soruşdu ki, iqtisadi tənəzzül şəxsən bizə necə təsir göstərib. Axı qadınlar eyni əməyə görə əmək haqqının bərabər olmamasının nə demək olduğunu başqalarından eşitməyiblər, bunu öz şəxsi təcrübələrindən bilirlər. Onlar çevik iş cədvəli olmamasının nə demək olduğunu bilirlər. Onlar məzuniyyət olmamasının və uşağa görə müavinət

Satış üçün nəzərdə tutulmayıb

almamağın nə demək olduğunu bilirlər. Buna görə də mən belə hesab edirəm ki, bu, Amerika üçün yaxşı olardı və güman edirəm ki, bu, hələ mənim sağlığımda baş tutacaqdır.

Buş: Əgər Barbara Buş[124] bu il namizədliyini irəli sürsəydi, yəqin ki, qalib gələrdi. Lakin artıq gecdir. Siz bizim təyin etdiyimiz adamların adlarını çəkməyimizi istəmirsiniz, lakin bizim hökumətdəki adamların işinin keyfiyyətinə fikir verin, görün Kolin Pauell[125] necə işləyir...

Pero: Mənim daha konkret proqnozum var. Əlbəttə, əgər Kolin Pauell öz işinin öhdəsindən gəlsə, 4 ildən sonra o, prezidentliyə namizədlər arasında olacaqdır. Düzdür? Düzdürmü?

Aparıcı: Sağ olun. Mən bizim auditoriya qarşısında üzr istəməliyəm. Burada suallar vermək istəyən 209 adam var. Biz onların yalnız bir qismini dinləyə bildik. Öz suallarını verə bilməyənlərdən üzr istəyirəm, lakin biz öz proqramımızın yekun hissəsinə keçməliyik. İndi biz iki son çıxışı dinləyəcəyik. Əvvəlcədən əldə olunmuş razılaşmaya görə, birinci növbədə prezident Buş çıxış edəcək.

Buş: İcazə verin, bütün amerikalılara xatırladım ki, iki həftə yarımdan sonra bizim seçəcəyimiz şəxs Dairəvi kabinetdə əyləşərək iqtisadiyyatın bərpa olunmasına rəhbərlik etməli, azad dünyanın lideri olmalı və bizim kəsirləri azaltmalıdır…

Bunu etməyin [kəsirləri azaltmağın] ümumiyyətlə üç üsulu var: birincisi – vergiləri artırmaq; ikincisi – xərcləri azaltmaq, məcburi xərclərə nəzarət etmək; və üçüncüsü – sərmayə qoymaq, qənaət etmək və iqtisadi tərəqqiyə stimul yaratmaq.

Mən vergilərin artırılmasının tərəfdarı deyiləm. O biri iki namizəddən məni fərqləndirən də elə budur. Vergiləri artırmayacağam. Hesab edirəm ki, biz məcburi xərclərə nəzarət etməliyik. Məncə, biz adamları daha yaxşı öyrətməli və ixtisaslarını artırmalıyıq. Mən belə hesab edirəm ki, biz ixracı artırmalıyıq. Buna görə də mən daha çox ixrac sazişləri bağlamağa çalışacağam ki, xaricdə daha çox mal sata bilək. Mən belə hesab edirəm ki, biz ailə institutunu möhkəmlətməliyik. İndi isə icazə verin amerikalılardan soruşum: əgər beş dəqiqədən sonra televiziyada beynəlxalq miqyaslı ciddi böhran barədə, bütün dünya üçün təhlükə yaranması və ya bizim ölkədə böhran barədə elan verilsə və əgər siz bizlərdən birimizin adını çəkməli

Satış üçün nəzərdə tutulmayıb

olsanız, kimi seçərsiniz? Bu iş üçün zəruri olan əzmkarlıq, xarakter, vicdanlılıq və yetkinlik kimi keyfiyyətlərə malik olan kimdir? Ümidvaram ki, o adam mənəm. Çox sağ olun.

Aparıcı: Sağ olun, cənab Prezident. İndi isə cənab Pero yekun sözünü deyəcək.

Pero: Amerika xalqı… əlini yanına salıb oturmaq və heç nə etmədən sadəcə, boş-boş danışmaq istəyirsə, onda mənə ümid etməyin. Mən fəaliyyət tərəfdarıyam, nəticə tərəfdarıyam. Mən öz biznesimi özüm yaratmışam. Rəqiblərimin il yarım vaxt sərf etdiyi işi mən üç aya görmüşəm. Hamı deyir ki, Konqreslə bunu etmək mümkün deyil. Lap yaxşı mümkündür. Konqresdə yaxşı adamlar əyləşib. Onlar hamısı vətənpərvər adamlardır. Bizdən isə yalnız bir şey tələb olunur – biz əl-ələ verib birgə işləməliyik. Əlbəttə, mübahisələrimiz də olacaq, ziddiyyətlərimiz də. Bu həmişə olur, hər gün olur, lakin bununla bərabər, biz nəticə əldə edirik.

Mən öz yekun sözümdə təhsil məsələsinə qayıtmaq istəyirəm, çünki mənim təhsilə xüsusi münasibətim var. Mən imkansız ailələrdən olan uşaqların erkən təhsil alması imkanları barədə danışmışam. Xatırlatmaq istəyirəm ki, yoxsul ailələrdən olan uşaqlar, xüsusi eksperimental proqrama əsasən, üç yaşından təhsil almağa başlaya bilərlər. Bu proqramların biri ananın hamiləlik dövründən başlayır, yəni uşaq doğulandan dərhal sonra öyrənməyə başlayır. Bu proqramlar imkan verəcəkdir ki, uşaqlar üç yaşdan etibarən məktəbə getməyə başlasınlar və doqquz yaşa qədər orada oxusunlar, sonra isə dövlət məktəbinin dördüncü sinfinə keçsinlər. Bu uşaqların 90%-i ilə biz fəxr edəcəyik. Bu, bütün Amerikanı dəyişəcəkdir. Bu uşaqların hamısı kollecə gedəcəkdir. Onlar Amerika vətəndaşına xas olan arzularla yaşayacaqlar.

Mənim Amerika xalqından yalnız bir xahişim var. Hər dəfə təhsil islahatı barədə danışarkən heç bir şansı olmayan adamlar barəsində fikirləşin. Bu balaca gil parçalarını götürün, onlara forma və xarakter vermək olar. Onları sevin, tərbiyə edin, sədaqətli və təmkinli edin, onları öz uşaqlarınız kimi dəstəkləyin. Deyin ki, onların tayı-bərabəri yoxdur, onlar yeganədirlər, sevimlidirlər və dünyada hamıdan yaxşıdırlar. Onda görəcəksiniz ki, dövlətiniz tərəqqi edəcək. Onda ən mürəkkəb peşələri öyrənmiş adamlarımız çox olacaq və bu, əla olacaq.

Nəhayət, biz öz borclarımızı ödəyə bilməsək, işimiz şuluq olacaq. Buna görə də biz elə etməliyik ki, ölkə əvvəlki gücü ilə işləsin. Bunu etməyə hazırlaşmırsınızsa, onda mən sizə lazım deyiləm. Mən boş-boşuna oturub heç nə etməsəm, dəli olaram. Başqa sözlə desəm, siz işləmək istəmirsinizsə, boş-boş danışmağı xoşlayan adamı seçin. Lakin siz mənim haqqımda düşünəndə bilin ki, bu hərc-mərcliyi mən yaratmamışam. Mən öz payımı müntəzəm ödəyirəm – mən bir milyard dollardan çox vergi ödəmişəm.

Satış üçün nəzərdə tutulmayıb

Aparıcı: Nəhayət, əhəmiyyətinə görə deyil, ardıcıllığa görə axırıncı növbədə qubernator Klinton çıxış edəcək.

Klinton: Sağ olun, Kerol. Sağ olun, xanımlar və cənablar. Əslində bu forumun keçirilməsi təşəbbüsü ilə çıxış edən mən olmuşam. Və ümidvaram ki, bu forum bizim hamımızın xeyrinə olacaq. Mən həqiqətən çalışdım ki, konkret və dolğun cavablar vermək barədə xahişinizə əməl edim. Mən həqiqətən hesab edirəm ki, sizə borcluyam və bu gün burada olduğunuza görə, bu görüşün bu cür yaddaqalan olmasına kömək etdiyinizə görə sizə təşəkkür edirəm. Bunlar sadə problemlər deyil və onları qısa müddətdə həll etmək mümkün deyil. Lakin mən istəyirəm ki, siz cəmi iki və ya üç məsələ barədə fikirləşəsiniz.

Əvvələn, artıq 12 ildir ki, mənim Ştatımın vətəndaşları qubernator vəzifəsini mənə etibar edirlər. Ona görə ki, mən iki qaydaya əməl edirəm: iş yerləri daha çox, məktəblər daha yaxşı olmalıdır. İndi bizim məktəblər əvvəlkindən yaxşıdırlar. İndi bizim uşaqlar məktəbəqədər müəssisələrdən və orta məktəbin ibtidai siniflərindən sonra daha çox imkana malikdirlər. Bizim təhsil proqramı bütün ölkədə yaşlılar üçün ən səmərəli təhsil proqramlarından biridir. Mən bu barədə artıq danışmışdım. Bu il mənim Ştatım yeni iş yerlərinin yaradılmasına görə ölkədə birinci yeri, sənaye sektorunda yeni iş yerlərinin yaradılmasına görə dördüncü yeri, gəlirlərin artım səviyyəsinə görə dördüncü yeri, yoxsulluğun azaldılması səviyyəsinə görə dördüncü yeri tutur. Bunlara görə mən fəxr edirəm. Bunlar onun sayəsində mümkün olmuşdur ki, mən insanlarla – həm respublikaçılarla, həm də demokratlarla işləməyi bacarıram. Buna görə də istefada olan 24 general və admiral, yüzlərlə biznesmen bizi dəstəkləyir. Onların çoxu respublikaçılardır.

İndi qərar qəbul etməlisiniz: həyatınızı dəyişmək istəyirsiniz, ya yox. Biz daha dörd il işləməyəcək iqtisadi nəzəriyyəni istəmirik. Onsuz da artıq 12 ildir ki, ölkəmizdə iqtisadi tənəzzül davam edir. Amerika xalqı barədə də düşünmək, iqtisadiyyatımıza sərmayə qoymaq və onu inkişaf etdirmək vaxtıdır. Mən burada yeganə adamam ki, hökumət büdcəsini hamarlamalı olmuşam. Mən buna dalbadal 12 il xərcləri azaltmaq sayəsində nail olmuşam. Lakin burada məsələ təkcə büdcənin hamarlanmasından ibarət deyil. Mən istəmirəm ki, mənim uşağım öz valideynlərindən pis yaşayan amerikalıların birinci nəslinin nümayəndəsi olsun. Bax buna görə mən prezident

Satış üçün nəzərdə tutulmayıb

seçkilərində iştirak etməyi qərara almışam. Biz daha yaxşı yaşamağa layiqik. Biz daha yaxşı işləyə bilərik. Mən istəyirəm ki, Amerika mümkün qədər qüdrətli olsun. Çox sağ olun.

Mənbə: New York Times, October 16, 1992.

Satış üçün nəzərdə tutulmayıb

Melvin İ.Urofski

Amerika Demokratiyası Haqqında Əsas Mətnlər

Melvin İ.Urofski Virciniya Ştatındakı Ricmond şəhərində yerləşən Virciniya Birliyi Universitetinin *(Virginia Commonwealth University)* tarix professorudur. O, 1974-cu ildən həmin Universitetdə işləmiş, tarix kafedrasının müdiri olmuşdur.

Urofski 1961-ci ildə Nyu-Yorkda Kolumbiya Universitetini *(Colunbia University)* bitirmiş, 1968-ci ildə tarix elmləri doktoru alimlik dərəcəsi almaq üçün elə həmin Universitetdə dissertasiya müdafiə etmişdir.

1983-cü ildə doktor Urofski hüquq üzrə, həm də elmlər doktoru alimlik dərəcəsi almaq üçün Virciniya Universitetində dissertasiya müdafiə etmişdir. O, Oksford Yəhudi Tarixinin və Mədəniyyətinin öyrənilməsi mərkəzində elmi araşdırmalar aparmış (1992-ci il), İsrail, Kanada, Fransa və keçmiş Yuqoslaviyanın universitetlərində tarix və hüquq üzrə mühazirələr oxumuşdur.

Çox məhsuldar işləyən doktor Urofskinin çap edilmiş yüzdən çox əsəri, əsas etibarilə, Amerikanın konstitusiya və hüquq problemlərinə həsr edilmişdir. O, "Hüquqların münaqişəsi: Ali Məhkəmə və Affirmativ Aktlar" (1991), "Onların getməsinə imkan verəndə: Ölüm, ölmə prosesi və qanun" (1993), "Luis D.Brandeysin məktubları" adlı çoxcildlik əsərin və daha iyirmidən çox kitabın müəllifi və ya redaktoru olmuşdur.

Satış üçün nəzərdə tutulmayıb

Doktor Urofski "Merşon Fondu", "Bəşəriyyətin Dəstəklənməsi üzrə Milli Fond" kimi təşkilatlardan qrantlar alaraq tədqiqatlar aparmış, bir sıra elmi və ictimai təşkilatların, o cümlədən Vircinya Tarix Cəmiyyəti və Amerika Hüquq Tarixi Cəmiyyəti kimi təşkilatların müvafiq komitələrində və idarə heyətlərində xidmət etmişdir. O, həmçinin, hüquq və tarix mövzusuna həsr edilmiş bir neçə milli konfransın baş əlaqələndiricisi olmuşdur.

NOTES

[1] Puritanizm – son məqsədi dərin mənəvi təmizlənmə olan dini protestant hərəkatı.

[2] Bibliyada öz əksini tapmış Allah və Musa peyğəmbərin başçılıq etdiyi yəhudi tayfası arasında bağlanmış müqavilə nəzərdə tutulur. Bu müqaviləyə əsasən, Allah onlara ilahi ehkamlara riayət edəcəkləri təqdirdə cənnət vəd etmişdi.

[3] Yeni İngiltərə (New Englang) – Amerikanın Şimali-Şərgində yerləşən, Massaçusetts, Connectikut, Nyu-Hepşir, Men, Rod Aylend və Vermont ştatlarını əhatə edən region.

[*] XVIII əsrin amerikalıları inanmırdılar ki, mövcud sazişin iştirakçıları tam bərabər hüquqlu ola bilsinlər və sonrakı 200 il ərzində Amerikanındemokratik inkişafı – artıq mövcud olan ictimai müqavilə əhalinin digər qruplarının, məsələn, afroamerikalıların, qadınların və s. cəlb olunmasını tələb edirdi. – *M.Urofski.*

[4] Bibliyada xatırlanan əfsanəvi şəhər.

[*]On üç koloniya aşağıdakı qaydada bölünürdü: Kral fərmanları ilə təsis və idarə olunan koloniyalar (Virciniya, Nyu-York, Nyu-Hempşir, Massaçusets, Nyu-Cersi, Şimali Karolina, Cənubi Karolina və Corciya); şəxsi mülkiyyətdə olan, yəni ailələrin və xüsusi şəxslərin sahibi olduğu koloniyalar (Pensilvaniya, Delaver və Merilend) və kraldan alınmış icazələr – xartiyalar əsasında idarə edilən koloniyalar (Rod Aylend və Konnektikut). – *M.Urofsky*

[*] Habeas Korpus (lat. hərfi mənası: "sizin bədəniniz sizə mənsubdur") – İngilis-Amerika hüququnda təməl azadlıqlardan biridir. Həbs edilmiş şəxs *Habeas Corpus* vasitəsilə məhkəmədə öz həbsinə qarşı şikayət verə bilər və Ştat onun həbsə

Satış üçün nəzərdə tutulmayıb

alınması üçün yetərincə əsaslar irəli sürə bilmədikdə, məhkəmə onun azadlığa buraxılması barədə qərar çıxara bilər. – *M. Urofski*

[5] Britaniya və Amerika ənənəsinə görə "millət" *(nation)* – etnoqrafik deyil, siyasi termindir, dövlətin bütün vətəndaşlarının məcmusunu bildirir, hərdən isə "dövlət" sözünün əvəzi kimi işlədilir.

[vi] İngilis dilindəki *people* sözü "xalq" mənasından bir qədər fərqli olaraq "insanlar", "yurddaşlar", yəni "fərdlər toplusu" mənasını verir.

[vii] *Pro tempore* (lat.) – müvəqqəti

[viii] Kaper – dəniz quldurluğu ilə məşğul olan gəmi

[ix] Repressali – bir dövlətin qanunsuz hərəkətləri ilə bağlı onun özünə və vətəndaşlarına qarşı tətbiq etdiyi təzyiq tədbirləri.

[x] *Ex post facto* (lat.) – geriyə qüvvəsi olan.

[xi] ABŞ-ın bütün tarixi boyu 5 minə yaxın düzəliş layihəsi irəli sürülüb və onlardan yalnız 26-sı bütün zəruri mərhələləri keçərək qəbul edilib. Konstitusiyaya ilk on düzəliş eyni vaxtda (1791-ci il) qəbul edilib və Hüquqlar Haqqında Billi təşkil edir. Hüquqlar Haqqında Billin layihəsi 1789-cu ildə Konqresə təqdim edilib və ştatların zəruri sayı ilə 15 dekabr 1791-ci ildə ratifikasiya edilib.

[xii] Böyük Münsiflər – Andlılar Məhkəməsi.

[xiii] Mötərizəyə alınmış bu müddəa Konstitusiyaya XX düzəlişlə (III bölmə) dəyişdirilib.

[xiv] Seçki yaşı Konstitusiyaya XXVI düzəlişlə (I bölmə) 18 yaşa endirilib.

[xv] XVIII düzəlişin mətni XXI düzəlişlə (I bölmə) ləğv edildiyinə görə mötərizə içərisinə alınıb.

[16] Afina demokratiyası nəzərdə tutulur.

[17] Ədalət hüququ *(Equity)* – İngiltərə-Amerika hüququnda adi qanunvericilik aktları ilə yanaşı, mövcud olan xüsusi qanunvericilik aktları sistemidir. Ümumi hüquq və ya presedent hüququ müəyyən hal üçün tətbiq edilə bilmədikdə və ya adi qanunvericilik aktları biri-birinə zidd olduqda – ədalət hüququ tətbiq olunur.

[18] Lakin Marberiya onun vəzifəyə təyinatı haqqında fərman verilmədi.

[xix] *Mandamus* (lat.) – məhkəmə qətnaməsi.

[xx] *Ex post facto* (lat.) – geriyə qüvvəsi olan.

[21] Meriwether Lewis, William Clark – Cefferson hökumətinin Sakit okeanın sahillərinə təşkil etdiyi ekspedisiyalarının (1804-06) rəhbərləri.

[xxii] 17-ci əsrin İngiltərə inqilabı nəzərdə tutulur.

[xxiii] Amerikada yaşayan kisəli siçovul.

[xxiv] Hindularda döyüş baltası.

[25] Güclü, lakin təcrübəsiz insan (lat).

[26] Legislatura – qanunverici orqan.

[27] Unitarist kilsə – əsas protestant təriqətlərindən biri.

Satış üçün nəzərdə tutulmayıb

[28] *Henry Clay* (1777-1852) – Amerikanın tanınmış dövlət xadimi.

[29] *Oliver Wendell Holmes* (1841-1935) – Amerikanın tanınmış hüquqşünas və filosofu, ABŞ Ali Məhkəməsinin hakimi olmuş, insan hüquqlarının müdafiəsi ilə bağlı qətnamələr çıxarması ilə məşhurlaşmışdır.

[30] Sənə hər nə lazımdırsa özündə axtar (lat).

[31] *John Milton* (1608-1674) – böyük ingilis şairi və Kromvel inqilabı dövrünün ictimai xadimi, "İtirilmiş cənnət" poemasının, "Aeropoqitika" adlı essenin və sair əsərlərin müəllifi.

[32] Nonkonformist – çoxluq tərəfindən qəbul olunmuş fikirlə razılaşmayan insan.

[33] Bazar günləri fəaliyyət göstərən dini təhsil üzrə məktəb.

[34] Matfeyin nəql etdiyi İncildən, 25-21.

[35] Utopik sosializm və marksizm nəzərdə tutulur.

[36] *Richard Hooker* (1554? – 1600), ingilis teoloqu, yazıçışı və hüquq fəlsəfəçisi, anqlikan kilsəsinin doktrinasını yaradan.

[37] Kvakerlər – protestant sektası.

[xxxviii] Xristianlığın ilk təbliğatçıları olan İsa şagirdlərinin – apostolların yalnız kişilərdən ibarət olduğu nəzərdə tutulur.

[xxxix] Bibliyada Tanrının adı.

[40] İndiqo – tünd sürməyi boyaq hasil edilən tropik bitki.

[41] Köləliyin əleyhdarları

[42] O vaxtlar Amerika zəncilərinin geriyə - Afrikaya məcburi qaydada qaytarılmasına dair müzakirə olunan planlar nəzərdə tutulur.

[43] Müstəqil olan ştatları federativ dövlətdə birləşdirmiş ABŞ Konstitusiyası nəzərdə tutulur.

[44] Səsvermədə iştirak etmək üçün lazım olan əmlak senzi nəzərdə tutulur.

* ABŞ Konstitusiyasına əsasən, bu cür müqavilələr Senatda səslərin üçdəikisi ilə təsdiq edilir. Lakin həmin dövrdə Senatda, ratifikasiyaya yol verməmək üçün, ekspansionizm və quldarlıq əleyhinə kifayət qədər səslər vardı. Lakin bununla yanaşı, şimal və cənub ekspansionistləri də kifayət qədər idi ki, Texasın bir vaxtlar Birliyin bir hissəsi olmasını iddia etməklə (əslində, bu iddia həqiqətə zidd idi), adi səs çoxluğuna nail olsun. Son nəticədə Tayler administrasiyası "təkrar birləşdirmə haqqında qətnaməni" həyata keçirə bildi, belə ki, onun ratifikasiyası üçün Senatda, eləcə də Nümayəndələr Palatasında adi səs çoxluğu tələb olunurdu, – *M.Urofski.*

[45] İfadə Ralf.U.Emersona məxsusdur.

[46] İngilis şairi Çarlz Vulfun (1791-1823) "Ser Con Murun dəfninə" şerindən.

[47] Şekspirin "Hamlet" əsərindən.

[48] Şekspirin "Kral İohann" əsərindən.

[49] Söhbət ABŞ-ın Meksikaya qarşı təcavüzündən gedir (1846-1848).

[50] *William Paley* (1743-1805) – ingilis filosofu və teoloqu, söhbət onun "Mənəvi və siyasi fəlsəfənin prinsipləri" kitabından gedir.

[51] Misal Siseronun "Vəzifələr haqqında" fəlsəfi traktatındandır.

[52] Lukanın söylədiyi İncildən IX, 24.

Satış üçün nəzərdə tutulmayıb

[53] *Odd Fellow* – İngiltərədə yaranmış, lakin 1806-cı ildə ABŞ-da təsis edilmiş "Qəribə adamlar" adlı gizli mason cəmiyyətinin üzvləri nəzərdə tutulur.

[54] *Abolisionist* – Quldarlığın əleyhdarı.

[55] Məşhur vəkil S. Hovardın Massaçusetsdən olan zəncilərin hüquqlarını müdafiə etmək üçün Karolinaya səfərinin şəraiti nəzərdə tutulur.

[56] Torolar ailəsində yayılmış rəvayətə görə, Toronu həbsxanadan azad etmək üçün pul ödəyən onun xalaları olmuşdur.

[57] İtalyan şairi, karbonari Silvio Pellikonun (1789-1854) "Mənim zindanlarım" kitabı (1832) nəzərdə tutulur.

[58] İngilis dramaturqu Corc Pilin (George Peele) "Alkazqar ətrafında döyüş" (1589) faciəsindən.

[59] Konfutsi (b. e. ə 551-479-cu illər) nəzərdə tutulur, onun antidemokratik təliminin əsasını təbəələrin dövlətə tabe olması ideyası təşkil edirdi.

[60] Burada İstiqlal Bəyannaməsinin müəllifi olan Ceffersonun quldar olduğu nəzərdə tutulur.

[61] "*A house divided against itself cannot stand*", – Matfeyin nəql etdiyi İncildən, 12-25

[62] *James Buchanan* (1791-1868) ABŞ-ın 15-ci prezidenti (1857-1861) quldarlığın tərəfdarları ilə düşmənləri arasında barışığa uğursuz cəhd göstərən demokratik partiyanın mötədil lideri.

[63] *Squatter* (ing.) – boş torpaqlarda özbaşına məskən salanlar, evi qeyri-qanuni tutan kəs.

[64] *Ex parte* (lat.) – bir tərəfin xeyrinə olan məhkəmə qərarı.

[65] Ludditlər – İngiltərədə XIX əsrdə, sənaye inqilabı zamanı, onların iş yerlərini ixtisara salan dəzgahları sındıran fəhlələr.

[66] 1 Akr – 0,4047 hektar

[67] Plutokratiya – formal və faktiki olaraq varlıların rəhbərlik etdiyi siyasi sistem.

[68] *District Columbia* – ABŞ-ın paytaxtı – Vaşinqton şəhərinin yerləşdiyi ərazi.

[69] *New Nationalism* – mövcud mətndə "millət" (nation) və "millətçilik" *(nationalism)* terminləri "dövlət" və "dövlət siyasəti" mənalarında işlədilir.

[70] Ümumi rifah dövləti *(Welfare State)* – sosial təminat sistemi yaxşı inkişaf etmiş dövlət.

[lxxi] *John Brown* (1800-1859) – Vətəndaş müharibəsinin astanasında quldarlığın ləğvi uğrunda mübarizədə həlak olmuş abolisionist.

[lxxii] *Grant, Sherman, Thomas, Sheridan* – Vətəndaş müharibəsində İttifaqın ordusuna rəhbərlik edən generallar.

Satış üçün nəzərdə tutulmayıb

[lxxiii] Korporasiyaların natura ilə əmlakının auditorlar tərəfindən qiymətləndirilməsi.

[lxxiv] Sem dayı (*Uncle Sam)* – ABŞ dövlətinin sinonimi olan folklor personajı.

[lxxv] Konservasiya – bu termin mətndə daha müasir termin olan – "sabit inkişaf", "gələcək nəsillərin maraqlarının nəzərə alınması ilə inkişaf" mənasını daşıyır.

[76] *Segregation* – ayrı yaşamaq, təcrid olunmaq (burada zənci əhalinin barəsində) deməkdir.

[77] İrqi ayrı-seçkiliyin və seqreqasiyanın ləğv edilməsinin böyük ictimai səmərə verəcəyini təsdiq edən sosioloji araşdırmalar nəzərdə tutulur.

[78] *Black, Frankfurter, Douglas, Burton, Clark, Harlan, Brennan, Whittaker.*

[79] Qradualizm – *gradual* (ingl.) – tədricən sözündəndir. ABŞ hakim dairələri tərəfindən zəncilərə münasibətdə həyata keçirilən xırda islahat və güzəştlərdir.

[80] 1832-ci ildə sözləri Samuel F. Smit tərəfindən Böyük Britaniyanın "İlahi, sən Kraliçanı (Kralı) hifz elə" himninin musiqisinə yazılmış məşhur amerikan patriotik himninin ilk misraları.

[81] "Azad oldum axırı!" *(I am free at last)* – öz sahibindən azadıq alan kölə zəncilər vaxtilə belə hayqırardılar. 1968-ci il aprelin 4-də Memfisdə, 39 yaşında irqçi gülləsinə tuş gələn M.L.Kinqin baş daşında bu sözlər həkk olunub. Ölümündən 2 ay əvvəl öz kilsəsindəki moizədə isə Kinq belə söyləmişdi:

"...Əcəl saatım yetişəndə, kim yanımda dayanacaqsa, qoy indidən bilsin, dəfnimin uzanmasını istəmirəm. Qəbrimin üstündə kəlmə kəsməyə adam tapılsa, ona deyin ki, sözü çox da uzatmasın. Tapşırarsınız ki, mənim Nobel mükafatı almağımı yada salmasın. Onu da ağzından qaçırmasın ki, mənim üç yüz, ya dörd yüzəcən başqa mükafatlarım da olub. Axı kimin nəyinə lazım...

İstəyirəm həmən günü onu deyəsiz ki, mən ədalətli olmağa çalışmışam. Həm də onu deməyə diliniz dönsün ki, ömrüm boyu mən acları doyurmağa, lütləri donaltmağa cəhd göstərmişəm. İstərdim qəbrimin üstündə deyəsiz ki, məhbəsdə olanlara baş çəkmək həmişə ağlımda olub. İstərdim bir də onu nəzərə çatdırasız ki, mən bəşəriyyəti sevməyə, ona xidmət göstərməyə can atmışam!

Lap ürəyinizdən keçsə, bəyan eləyərsiz ki, mən təbilçi idim, ədalət təbilçisi. Daha doğrusu, sülhün təbilçisi olmuşam... Yerdə qalana nə hacət...

Məndən sonra nə pulum, nə malım, nə də bahalı əmlakım qalacaq. İstərdim ki, məndən sonra yalnız amala həsr olunmuş həyatım qalsın.

Demək istədiyim bax budur..."

[82] ABŞ qanunvericiliyinə görə, ölkə vətəndaşları seçkilərdə iştirak etmək üçün əvvəlcədən seçici kimi qeydiyyatdan keçməlidir.

[83] We shall overcome [some day].

[84] 1775-ci ildə Leksinqton və Konkordda müstəqillik uğrunda ilk toqquşma nəzərdə tutulur, orada amerikan üsyançıları ingilisləri məğlub etmişlər.

[85] Virciniya Ştatının bu şəhərində cənubluların ordusu vətəndaş müharibəsində İttifaq qoşunlarına yenilmişdi.

[86] Matfey söylədiyi İncildən.

Satış üçün nəzərdə tutulmayıb

[87] *Iwo Jima* – İkinci Dünya müharibəsində Yaponiya ilə ABŞ-ın üstündə vuruşduğu yapon adası.

[88] *"Old Glory"* – ABŞ-ın bayrağı.

[lxxxix] Konstitusiyaya XIV Düzəlişin qarantiyaları – "... heç bir Ştat ... onun hakimiyyətinə tabe olan şəxsin qanunla hər kəs üçün bərabər müdafiə olunmaq hüququndan imtina edə bilməz..."

[xc] Məktəblərdə deseqreqasiya – müxtəlif irqlərdən olan uşaqların məktəblərdə bir-birindən ayrı öyrədilməsinin ləğv edilməsi deməkdir.

[xci] Akademik azadlıq – müəllimlərin və tələbələrin qanun, nazirliyin təlimatı və ya ictimai təzyiq vasitəsilə əsassız müdaxiləsi və ya məhdudiyyətlər olmadan dərs demək, tədqiqat aparmaq və biliklər əldə etmək azadlığıdır. Akademik azadlığın müəllimlər üçün əsas elementləri onların intellektual marağına səbəb olan hər hansı elmi məsələyə müraciət etmək, öz araşdırmalarının nəticələrini tələbələrə, həmkarlarına və marağı olan şəxslərə təqdim etmək; özlərinin məlumatlarını və çıxardıqları nəticələri nəzarətsiz və ya senzurasız çap etmək, eləcə də tələbələri özlərinin professional baxımdan münasib saydıqları üsullarla öyrətmək azadlığından ibarətdir. Tələbələr üçün akademik azadlığın əsas elementləri onları maraqlandıran predmeti öyrənmək və bu cür öyrənmə əsasında müstəqil nəticələr çıxarmaq azadlığından, eləcə də öz fikrini ifadə etmək azadlığından ibarətdir, – (Britaniya Ensiklopediyasında).

[xcii] Çikano - latın amerikalılara deyilir.

[93] Bu ifadə Afinalı Periklin qəbirüstü nitqindəndir (təx. e.ə. 430).

[94] *John Milton* (1605-1673) – Britaniya mətbuatında senzura sisteminə qarşı mübarizə aparmış görkəmli ingilis şairi və ictimai xadimdir.

[95] *William Blackstone* (1723-1780) – görkəmli ingilis hüquqşünası, məşhur "İngiltərə qanunlarına şərhlər"in müəllifidir.

[96] İngiltərədə mətbuatda senzura 1695 ildə ləğv edilmişdir.

[97] "Bayrağa salam və and olsun" mərasimi Amerika məktəblərində hər gün məşğələlərdən əvvəl keçilir. Bu vaxt məktəblilər ayağa qalxır və əllərini ürəklərinin üstünə qoyaraq bu sözləri təkrar edirlər: "Amerika Birləşmiş Ştatlarının bayrağına və onun təcəssüm etdiyi respublikaya sadiq qalacağıma and içirəm: Allahın altında bölünməz, azad və hamı üçün ədalətli bir millət var".

[98] Kapitalizmin inkişafının ilkin mərhələlərində çox populyar olan *laissez-faire* (fransızca) – "siz qarışmayın" iqtisadi konsepsiyası bazar iqtisadiyyatı ilə bağlı işlərə dövlət tərəfindən mümkün qədər az müdaxilə olunmasını tələb edirdi.

[xciv] ABŞ-da iki məhkəmə sistemi mövcuddur: ştatlar səviyyəsində məhkəmə sistemi və federal məhkəmə sistemi. Federal məhkəmə sistemi 94 federal məhkəmə

Satış üçün nəzərdə tutulmayıb

dairəsinə bölünmüşdür. Bu dairələrin hər birində birinci instansiya məhkəməsi olan Dairə Məhkəməsi *(District Court)* fəaliyyət göstərir. Daha sonra 94 federal məhkəmə dairəsi 12 məhkəmə regionuna bölünmüşdür və bu regionların hər birində Apelyasiya Məhkəməsi (*Cirquit Court of Appeal*) vardır. ABŞ-da ali məhkəmə instansiyası eyni zamanda Konstitusiya Məhkəməsinin funksiyalarını yerinə yetirən Ali Məhkəmədir. (Daha ətraflı məlumat üçün bax: www.uscourte.gov/UFC99.pdf.

[100] Amerikanın Britaniya ilə müstəqillik uğrunda mübarizəsində Fransa Amerikaya hərtərəfli yardım göstərmişdi.

[101] 1781-ci ildə qəbul edilmiş "Konfederasiyanın Maddələr Toplusu" nəzərdə tutulur.

[102] *Luftwaffe* - Almaniya hərbi hava qüvvələri.

[103] *Jamestown* – Şimali Amerikada ilk Britaniya məskənidir. 1607-ci il mayın 14-də Virciniyada əsası qoyulub. Tütün ilk dəfə burda emal olunub, qitədə ilk hökumət burda yaranıb (1619-cu ildə). Qaradərili qullar ilk dəfə bura gətirilib, birinci anqlikan kilsə burda tikilib.

[104] *Plymouth Rock* – İngiltərədən Amerikaya, "Meyflauer" gəmisində gələn ilk zəvvarların sahilə endiyi yer.

[105] Beynəlxalq İnsan Hüquqları müdafiəsi təşkilatları.

[106] Anqlo-amerikan və fransız ənənəsi ilə milləti müstəqil dövlətin bütün vətəndaşları təşkil edir, buradan da Amerika millətinin 200 il əvvəl – 1776-cı ildə müstəqillik elan olunması ilə yarandığı hesab edilir.

[107] Afrikanerlər – holland mənşəli cənubi-afrikalılara deyilir.

[cviii] *Necklacing* – qaradərili terrorçular tərəfindən tətbiq edilən qətl üsulu. Bu zaman hücum edənlər üzərinə benzin hopdurulmuş parçanı öz qurbanlarının boynuna dolayır və onu yandırırdılar.

[cix] *"Group Areas Act"* – 1966-cı ildə qəbul edilmiş bu qanun CAR-ın qaradərili əhalisi üçün "bantustan" adı ilə də məşhur olan "houmləndlərin" - rezervasiya sistemini müəyyən etmişdir.

[cx] *Population Registration Act* – 1950-ci ildə qəbul edilmiş bu qanun CAR əhalisini bantu (qaradərili Cənubi Afrikalılar), rəngli (qarışıq irqin nümayəndələri) və ağdərili kimi növlərə bölür. Dördüncü kateqoriya – asiyalılar kateqoriyası (hindistanlılar və pakistanlılar) sonradan tətbiq edilmişdir.

[111] İndiki kursla bu məbləğ 200 milliard dollar təşkil edir.

[112] BMT-nin Təhlükəsizlik Şurasında Şimalı Koreya təcavüzünə qarşı qərar qəbul ediləndə SSRİ-nin nümayəndələri BMT-nin Çin Xalq Respublikasını öz sıralarına qəbul etməkdən imtina etdiyinə görə iclasda iştirak etməmişdi.

[113] Kommunist Mao Tsze-duna qarşı vuruşan Çan Kay-şı hökuməti nəzərdə tutulur.

Satış üçün nəzərdə tutulmayıb

[cxiv] Eskuipulas – Qvatemaladakı bu şəhərdə 1987-ci ildə Salvador, Honduras, Nikaraqua, Qvatemala və Kosta-Rika prezidentləri bölgədə gedən Vətəndaş və qeyri müharibələrə son qoymaq barədə müqavilə imzalayıblar. Bu konfliktlərin çoxusu Soyuq müharibənin nəticəsi idi və 1989-cu ilin axırında həmin münaqişələr sülh sazişləri ilə sona yetdi.

[115] Koloss (kolossus) (yunanca) – nəhəng heykəl.

[116] Alamo fortu – Texas Ştatının San Antonio şəhərində baxımsız qalmış bir monastırdır. Texasın Meksikadan asılılığına son qoyulmasının tərəfdarı olan amerikalıların kiçik bir qrupu orada Meksika qoşunları ilə vuruşmuşdu.

[117] Cıdır, idman yarışları və digər tədbirlər ərəfəsində mərc bağlanan otaq.

[118] Robert Frost (1874-1963) - məşhur Amerika şairi.

[cxix] Pauni, Apaçi, Seneka, Çeroki – hindu qəbilələrinin adlarıdır.

[cxx] Aşanti, Yoruba və Kru –Afrika qəbilələrinin adlarıdır. Bu qəbilələrin nümayəndələri kölə kimi Amerikaya aparılmışdır.

[121] Concord and Lexington – Massaçusets Ştatında yaşayış məntəqələridir. Müstəqillik uğrunda müharibədə Britaniya qoşunları ilə ilk silahlı toqquşma bu məntəqələrdə baş vermişdir.

[122] *Robert Strauss* – 1991-1992-ci illərdə ABŞ-ın SSRİ-də və Rusiya Federasiyasında səfiri olmuş, nüfuzlu ictimai və siyasi xadim, ABŞ demokratlar partiyasının liderlərindən biridir.

[123] *James Baker* - 1989-1992-ci illərdə ABŞ-ın dövlət katibi olmuşdur.

[124] *Barbara Bush* - prezident Corc Buşun (ata) xanımı və indiki prezident Corc Buşun (oğul) anasıdır.

[125] *Colin Powell* - ABŞ-ın hərbi və dövlət xadimi, Afrika mənşəli amerikalı, ordu generalı, ABŞ Birləşmiş Ordu Qərargahları Komitəsinin sədri (1989-1993), ABŞ dövlət katibi (2001-2005).

Satış üçün nəzərdə tutulmayıb